**AZƏRBAYCAN RESPUBLİKASI**

**ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI QIZLAR UNİVERSİTETİ**

# *ELMİ ƏSƏRLƏR*
# *НАУЧНЫЕ ТРУДЫ*
# *SCIENTIFIC WORKS*

**“Elmi əsərlər” jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 06 yanvar 2010-cu il tarixdə qeydiyyata alınmış (№10/M-4850) və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 06 iyul 2012-ci il (protokol №10-R) tarixli qərarı ilə aşağıda göstərilən elm sahələri üzrə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir:**

**Filologiya, pedaqogika, psixologiya elmləri.**

*(jurnal ildə 4 dəfə nəşr olunur)*

**Cild 22 №1 2025 (61)**
**Vol. 22 №1 2025 (61)**
**Том 22 №1 2025 (61)**

**BAKI – 2025**

**Təsisçi**
*Bakı Qızlar Universiteti*

**Baş redaktor**
*pedaqogika elmləri doktoru, professor Ağarəhim Rəhimov*

**Baş redaktor müavini**
*pedaqogika elmləri doktoru, professor Akif Abbasov*

**Məsul katib**
*Aygün Yaşar qızı Cəfərova*

**REDAKSİYA HEYƏTİ**

*filologiya elmləri doktoru, professor Qəzənfər Kazımov*
*filologiya elmləri doktoru, professor Məhərrəm Qasımlı*
*pedaqogika elmləri doktoru, professor Lyudmila Verbitskaya (Rusiya)*
*filologiya elmləri doktoru, professor Əlizadə Əsgərli*
*fizika-riyaziyyat elmləri doktoru, professor Aqil Xanməmmədov*
*pedaqogika elmləri doktoru, professor Zbiqnev Kvetsinskiy (Polşa)*
*tarix elmləri doktoru, professor Tarix Dostiyev*
*tarix elmləri doktoru, professor Nərgiz Quliyeva*
*tarix elmləri doktoru, professor Anar İsgəndərov*
*tarix elmləri doktoru, professor Aytən Can (Türkiyə)*
*idarəetmə üzrə fəlsəfə doktoru, professor Jukova (Zhukova) İrina Vitalyevna (Ukrayna)*
*fəlsəfə elmləri doktoru, professor Əlikram Tağıyev*
*pedaqogika elmləri doktoru, professor İntiqam Cəbrayılov*
*pedaqogika elmləri doktoru, professor Anastasiya Vançova (Slovakiya)*
*pedaqogika elmləri doktoru, professor Nikolay Dmitriyeviç Nikandrov (Rusiya)*
*pedaqogika elmləri doktoru, professor Fərrux Rüstəmov*
*filologiya elmləri doktoru, professor İsmayıl Kazımov*
*pedaqogika elmləri doktoru, professor Hümeyir Əhmədov*
*filologiya elmləri doktoru, professor Nizami Məmmədov*
*filologiya elmləri doktoru, professor Çingiz Qaraşarlı*
*pedaqogika elmləri doktoru, professor Aygül Bulatbayeva (Qazaxıstan)*
*psixologiya elmləri doktoru, professor Ramiz Əliyev*

**Bakı Qızlar Universiteti Elmi Şurasının 19 mart 2025-ci il tarixli iclasının (protokol №5) qərarı ilə nəşr edilir.**

# ÜZEYİR HACIBƏYLİNİN 140 İLLİYİNİN QEYD EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

# РАСПОРЯЖЕНИЕ ПРЕЗИДЕНТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ О ПРАЗДНОВАНИИ 140-ЛЕТИЯ УЗЕИРА ГАДЖИБЕЙЛИ

# ORDER OF THE PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN ON CELEBRATION OF UZEYIR HAJIBAYLI’S 140th ANNIVERSARY



2025-ci ilin sentyabr ayında dahi Azərbaycan bəstəkarı, Şərqdə ilk operanın yaradıcısı, böyük musiqişünas-alim, istedadlı publisist, dramaturq və pedaqoq, tanınmış ictimai xadim, Xalq artisti, Dövlət mükafatları laureatı, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Üzeyir Əbdülhüseyn oğlu Hacıbəylinin anadan olmasının 140 ili tamam olur.

Üzeyir Hacıbəyli çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş qüdrətli şəxsiyyətlərdəndir. Ömrünü cəmiyyətin mədəni tərəqqisinə həsr edən fədakar ziyalının yüksək mənəvi-estetik dəyərə malik irsi Azərbaycan xalqının XX əsrin ilk onilliklərindən vüsət almış ədəbi-mədəni intibahının aynasıdır. Azərbaycan bəstəkarlıq məktəbinin banisi olan Üzeyir Hacıbəyli novator sənətkar kimi milli musiqi xəzinəsini unikal forma və janrlarla zənginləşdirmişdir. O, Şərqin və Qərbin musiqi nailiyyətlərinin dərin vəhdətində dünya musiqisinin qızıl fondunda fəxri yer tutan nadir sənət inciləri meydana gətirmiş, Azərbaycan

mədəniyyətinə beynəlxalq miqyasda geniş şöhrət qazandırmışdır. Üzeyir Hacıbəyli eyni zamanda parlaq bədii dühası sayəsində Azərbaycan dramaturgiyasına dəyərli töhfələr vermiş, alovlu publisistikası ilə mətbuat salnaməsinə yeni səhifələr yazmışdır. Onun azərbaycançılıq məfkurəsi ilə yoğrulmuş dolğun ictimai-siyasi fəaliyyəti əsl vətənpərvərlik nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan mədəniyyətinin inkişafına misilsiz töhfələr vermiş qüdrətli sənətkar Üzeyir Hacıbəylinin anadan olmasının 140-cı ildönümünün layiqincə keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin anadan olmasının 140-cı ildönümünə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 3 fevral 2025-ci il**

***ÜZEYİR ƏBDÜLHÜSEYN OĞLU HACIBƏYLİ – 140***
***УЗЕЙИР АБДУЛГУСЕЙН ОГЛУ ГАДЖИБЕЙЛИ – 140***
***UZEYIR ABDULHUSEYN OGLU HAJIBAYLY – 140***

# ÜZEYİR HACIBƏYLİ TƏHSİL, TƏLİM VƏ TƏRBİYƏ HAQQINDA

**Akif Nurağa oğlu Abbasov**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi, pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim*
**ORCİD:** 0000-0002-9210-7141
**E-mail:** a.abbasov@arti.edu.az
http://www.doi.org/10.62706/bqiz.2024.v21i4.01

***Açar sözlər:*** *Üzeyir Hacıbəyli, Üzeyir Hacıbəyli yaradıcılığı, Üzeyir bəyinn məqalələri, təhsil, tərbiyə, təlim məsələləri, müəllim şəxsiyyəti haqqında*

***Ключевые слова:*** *Узеир Гаджибейли, творчество Узеира Гаджибейли, статьи Узеир бека, образование, воспитание, вопросы обучения, о личности учителя*

***Keywords:*** *Uzeyir Hajibeyli, the works of Uzeyir Hajibayly, articles by Uzeyir bey, education, upbringing, issues of training, about the personality of the teacher*

Üzeyir Hacıbəylinin yaradıcılığı olduqca zəngin, dolğun, maraqlı və diqqətəlayiqdir. O, möhtəşəm operalar, musiqili komediyalar, səhnəciklər yaratmaqla, felyetonlar, məqalələr yazmaqla insanların mənəvi saflaşmalarında, əxlaqca gözəlləşmələrində, geniş dünyagörüşə malik olmalarında, nümunəvi davranışa yiyələnmələrində böyük rol oynamışdır. Üzeyir bəy eyni zamanda cəmiyyətdə əl-ayağa dolaşan, kasıb əxlaqa və mənəviyyata malik, insanları da tənqid etmiş, ailə münasibətlərinin düzgün qurulmasının vacibliyini əsaslandırmış, həyat yoldaşına dükanda satılan mal, pal-paltar kimi yanaşan, onların hüquqlarını pozan şəxsləri tənqid atəşinə tutmuşdur. Üzeyir bəy "Koroğlu" kimi qərhəmanlıq, "Leli və Məcnun" kimi məhəbbət operaları yatarmış, Şərq aləmində opera sənətinin əsasını qoymuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 03 fevral 2025-ci il tarixdə Üzeyir Hacıbəylinin 140 illiyinin təntənəli şəkildə qeyd olunması ilə əlaqədar Sərəncam imzalamışdır. Sərəncamda deyilir: "Üzeyir Hacıbəyli çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş qüdrətli şəxsiyyətlərdəndir. Ömrünü cəmiyyətin mədəni tərəqqisinə həsr edən fədakar ziyalının yüksək mənəvi-estetik dəyərə malik irsi Azərbaycan xalqının XX əsrin ilk onilliklərindən vüsət almış ədəbi-mədəni intibahının aynasıdır. Azərbaycan bəstəkarlıq məktəbinin banisi olan Üzeyir Hacıbəyli novator sənətkar kimi milli musiqi xəzinəsini unikal forma və janrlarla zənginləşdirmişdir. O, Şərqin və Qərbin musiqi nailiyyətlərinin dərin vəhdətində dünya musiqisinin qızıl fondunda fəxri yer tutan nadir sənət inciləri meydana gətirmiş, Azərbaycan mədəniyyətinə beynəlxalq miqyasda geniş şöhrət qazandırmışdır. Üzeyir Hacıbəyli eyni zamanda parlaq bədii dühası sayəsində Azərbaycan dramaturgiyasına dəyərli töhfələr vermiş, alovlu publisistikası ilə mətbuat

salnaməsinə yeni səhifələr yazmışdır. Onun azərbaycançılıq məfkurəsi ilə yoğrulmuş dolğun ictimai-siyasi fəaliyyəti əsl vətənpərvərlik nümunəsidir” (1).

Üzeyir Hacıbəylinin zəngin yaradıcılığı təhsilləndirici, tərbiyələındirici və inkişafetdirici imkanlara malikdir. Təntənəli tədbirlərin açılışında, idmançılarımız dünya, Avropa və olimpiya çempionatlarında zəfər qazanarkən səslənən Azərbaycanın Dövlət Himninin (musiqisinin) müəllifi Üzeyir bəydir.

Üzeyir bəy Azərbaycan musiqi sənətinin inkişafında misilsiz xidmətləri göstərmişdir. O, ölkəmizdə musiqi təhsilinin təməlini qoymuşdur.

Müəllim kadrlarının hazırlanması, Azərbaycanda dünyəvi məktəblərin fəaliyyət göstərməsinin, təlimin ana dilində aparılmasının zəruriliyi Üzeyir Hacıbəylinin diqqət yetirdiyi mühüm məsələlərdən idi. Üzeyir bəyin qənaətidir: “Məktəb açıb bütün elmləri öz ana dilimizdə tədris və təlim etmək indi bizim əməllərimizin ən ümdəsidir. Bu arzunun hasilə gəlməsi üçün biz var qüvvətimizlə çalışmalıyız, zira nəşri-maarif və təmimi-mədəniyyət (maarif və mədəniyyətin yayılması) üçün yeganə vasitəmiz bir bu təriqdir (yoldur)...”.

Üzeyir bəy hələ ötən yüzilliyin əvvəllərində təlimin ana dilində aparılması ilə bağlı aşağıdakı fikri irəli sürürdü: “Bizim türk lisanımız (Azərbaycan türkcəsi) Avropa üləma (alim) və filosoflarının rəyinə nəzərən, ən kamil bir dildir ki, onun vasitəsilə insan ən ali fkirlərini və ən dəqiq hisslərini bəyanə qadirdir. Böylə bir zəngin lisanın sahibi olub da, ondan istifadə etməməyin özü böyük bir bədbəxtlikdir... ...İnsan öz dilini bilməyəndə din də gedir, dil də gedir, millət də gedir... Hər bir millətin ki, bəqasına (varlığına) baş səbəb onun dilidir və dilinin tərəqqisidir. Bir millətin ki, dili batdı, onda o millətin özü də batar”.

Üzeyir bəy müəllim şəxsiyyətinə mühüm tələblər verir, onun təhsilalanların təlim və tərbiyəsindəki böyük rolunu vurğulayırdı. Diqqət yetirək: “Müəllimlik vəzifəsi çox çətin və ən məsuliyyətli bir vəzifədir. Hər adamı müəllim bilib uşağı ona tapşırmaq böyük xətadır … Təlimdən başqa, uşağın tərbiyəsi də müəllimin öhdəsindədir...”.

Çar üsuli-idarəsi milli dilləri sıxışdırdığından təlimin Azərbaycan dilində olmasına çox maneələr yaradılırdı.

Bəstəkar “Əhəmiyyətli bir məsələ” məqaləsində yazırdı: “Ümumi məktəblərimizdə əvvəl illəri ana dilində müəllimlərə ehtiyac göründü. Müəllimlərimizin də əksəri Qori seminariyasında ikmali-təhsil etmiş cavanlar olduğu məlumumuzdur. Lakin Qori seminariyasını qurtarmış mükkumlərin əksəri ana dilində savadlı olmurlar, ondan ötəri ki, haman seminariyada ana dili oxunmur Oranın proqramı bu dil üçün yol vermir, orada ancaq (3, s. 136) həftədə iki dəfə şərait dərsin oxunur. Seminariya qurtarmış müəllimlər ana dilində savadlı olurlarsa da, əksərən ya pedaqogika elmindən xəbərləri olmadıqlarına görə, tədris və təlimdə bilaixtiyar səhv və xətadan xali olmurlar (2, s. 137).

Aparılmış məqsədyönlü iş nəticəsində Qafqaz maarif müdiri qarşısında məsələ qaldırıldı ki, Qori müəllimlər seminariyanın müsəlman şöbəsində türk dilinin keçilməsinə razılıq verilsin. Və buna nail olundu. Seminariyada türk dilinin tədrisi məqsədilə hətta 1500 man pul ayrıldı.

“Təzə il, təzə meydan” məqaləsində tərbiyə məsələlərinə diqqət yetirilir. Üzeyir bəyə görə, insan ildən-ilə böyüyür, fəqət bu böyümə yalnız onun bədəninin cismani böyüməsi deyildir. Başqa sözlə, söhbət heç də onun bədəninin irilənməsindən getmir, daha vacib məsələlər vardır ki, həmin məsələlərə onun təhsili, təlimi, tərbiyəsi və inkişafı aiddir. Bu mənada ata-ananın vəzifəsi, hər şeydən əvvəl övladlarına düzgün tərbiyə verməkdir. “Təzə il,

təzə meydan" məqaləsində deyildiyi kimi, "Allah-təala birisinə bir övlad kəramət etdikdə onun qəlbinə övladına qarşı bir hissi-məhəbbət qoyur ki, o məhəbbət onun üçün balanı baldan şirin edir. Lakin balaya yalnız məhəbbət qalsa, onda bala öz valideynindən heç bir mənfəət görməz. Halbuki valid haman hissi-məhəbbətdən ruhani bu ləzzət almağa başlar. Balanın canını sevən ata-ana onun qeydinə də qalmalıdırlar ki, bu şirin bala dünyada sərbəst yaşamağa qədəm qoyduqda məişətinin tikanlı yollarından qorxmasın, mübarizeyi-həyatiyyə meydanında qorxudan bağrıya qalmasın. Mübarizəyə girişməyə məcbur olduqda həvadisin birinci zərbəsi altında tələf olmasın (2, s. 145).

Üzeyir bəy əsərlərində tərbiyə məsələlərini diqqət mərkəzində saxlayırdı. "Bəyani-Məslək" məqaləsində o, "Məslək" məsələsinə münasibət bildirirdi. Bəstəkar məslәkli olmağı yüksək mənəvi keyfiyyət kimi nəzərdən keçirsə də, məsləklsizliyə yoxsulluq, əxlaqın pozğunluğu kimi yanaşırdı. Üzeyir bəyin qənaətincə, məsləki olmayan şəxs yaman məsləkli insandan çox zərərlidir. Bunun səbəbi "Bəyani-Məslək" məqaləsində belə izah olunurdu: "Yaman məslək müəyyən olduğu halda, onun zərərini də dəf etməyə çarə tapmaq asandır" (2, s. 140)

Üzeyir bəy "məslək" anlayışına tərif verirdi. Oxuyuruq: "Məslək hər kəsin etiqad etdiyi bir yoldur. "Ümuminin xoşbəxtliyinin, asayiş və aramını, rufah-halını,, tərəqqi və təkamülünü təqib edən hər bir məslək onun sahibi üçün müqəddəsədd olunmalıdır. Belə bir məsləkə xəyanət edən şəxs haman məsləkə xəyanət etməməlidir. Bizim məsləkimiz odur ki, millətimizin tərəqqisinə bais olan hər bir həqiqi vasitə və nəsillərə yol verməli və millətimizin cəhalətə və yaxud tərəqqeyi-məkusə sövq edən şeyləri dəf və izalə etməlidir" (2, s. 140).

Üzeyir Hacıbəyli ötər əsrin 40-cı illərində dünyasını dəyişmişdir. Fəqət onun yaradıcılığı artıq ikinci əsrdir ki, gənc nəslə təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici təsir göstərməkdədir.

**Problemin aktuallığı**. Məqalə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncamdan irəli gələn vəzifələr baxımından hazırlanmışdır.

**Problemin yeniliyi**. Bu il Üzeyir bəyin anadan olmasının 140 illiyi tamam olur.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar üçün maraqlı olacaqdır.

### Ədəbiyyat

1. Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 03 fevral 2025-ci il tarixli Sərəncamı https://president.az/az/articles/view/68077

2. Üzeyir Hacıbəyov. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1996.

**А.Н. Аббасов**

### Узеир Гаджибейли об образовании, обучении и воспитании
### Резюме

Статья посвящена 140-летию со дня рождения выдающегося азербайджанского композитора, писателя, драматурга и журналиста Узеира Гаджибейли. В представленной статье рассматриваются идеи Узеир-бека об образовании, обучении, воспитании и личности учителя.

**A.N. Abbasov**

**Uzeyir Hajibayly on education, teacing and upbringing**

**Summary**

The article is dedicated to the 140th anniversary of the birth of the outstanding Azerbaijani composer, writer, playwright and journalist Uzeyir Hajibeyli. The presented article examines Uzeyir-bey's ideas about education, training, upbringing and the personality of the teacher.

**Redaksiyaya daxil olub:** 19.03.2025

## PEDAQOJİ ELMLƏR
## ПЕДАГОГИЧЕСКИЕ НАУКИ
## PEDAGOGICAL SCIENCES

### *ÜMUMPEDAQOJİ PROBLEMLƏR*
### *ОБЩЕПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ*
### *GENERAL PROBLEMS of PEDAGOGY*

*UOT 378.4:303.722*

# YENİ PEDAQOJİ TƏFƏKKÜR İŞIĞINDA TƏHSİLALAN MƏRKƏZLİ TƏLİMİN ƏSAS TƏŞKİLAT FORMASININ XÜSUSİYYƏTLƏRİNİN İNTERPRETASİYASI

**Firədun Nadir oğlu İbrahimov**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının professoru, pedaqogika elmləri doktoru*
**ORCID:** 0000-0002-0775-1048
**E-mail:** firedun52@mail.ru
**Vüqar Əbülfət oğlu Abdurahmanov**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının baş müəllimi, riyaziyyat üzrə fəlsəfə doktoru*
**ORCID:** 0000-0001-5181-9946
**E-mail:** abdurahmanov_v@mail.ru

*Açar sözlər: təlim, təhsilalan mərkəzli təlim, məzmun və forma, dərsin strukturu, didaktik və metodik struktur, analitik və evristik fəaliyyət, daxili altstruktur, məntiqi-psixoloji altstruktur.*

***Ключевые слова:*** *обучение, образовательно-ориентированное обучение, содержание и форма, структура урока, дидактико-методическая структура, аналитико-эвристическая деятельность, внутренняя подструктура, логико-психологическая подструктура*

***Key words:*** *training, learner-centered learning, content and form, lesson structure, didactic and methodological structure, analytical and heuristic activity, internal infrastructure, logical-psychological infrastructure.*

Məlum olduğu kimi, XX əsrin 60-cı illərinin əvvəllərindən pedaqoji elmlərdə durğunluq ab-havası əmələ gəlmişdi. Elmi-texniki inqilab dövründə gərəkli bir elm öz missiyasını yerinə yetirə bilmirdi. Ənənəvi didaktik sistemin artıq köhnəldiyi bütün aydınlığı ilə dərk olunurdu... [1,16]. Ənənəvi didaktik sisteminin yenilənməsi tələbata çevrilmişdi və məntiqi olaraq sözügedən sistemin alternativi kimi yeni pedaqoji təfəkkür formalaşırdı. Məhz belə alternativ mövqeli didaktik sistem bir çox problemlərin, o cümlədən də IV sənaye inqilabının çağırışlarına uyğun təhsil məkanının formalaşdırılması, sözügedən məkanda təhsilalan mərkəzli təlim prosesini reallaşdırması, onun təşkilat formasının nəzəri və texnoloji əsaslarının işlənilməsi mümkün olardı və bu arzuolunan hal gerçəkləşmiş oldu.

Psixoloqların və pedaqoqların uğurlu tədqiqatları bu prosesin yeni pedaqoji təfəkkürün formalaşmasına zəmin yaratmışdı. Yeni pedaqoji təfəkkürün formalaşmasına töhfələr vermiş bəzi konsepsiyalara, əsaslı arqumentlərə söykənən mülahizələrə nəzər salaq.

Məktəb təliminin bütün dövrü ərzində təhsilalan bəşəriyyət tərəfindən tarix boyu hasil və kəşf edilmiş hazır, təşəkkül etmiş, məlum biliklər, anlayışlar sistemi ilə qarşılaşır. Ona görə də, tarix boyu toplanmış bilik sərvətinin mənimsənilməsi (onlar böyüklərin rəhbərliyi altında hazır anlayışlar sistemini mənimsəyir) onlardan gərgin təfəkkür və ciddi yaradıcı iş tələb edir. Təhsilalanların bəşərin əldə etdiyi bilikləri böyüklərin köməyi ilə mənimsəməsi heç də onların təfəkkür müstəqilliyini istisna etmir, əksinə tələb edir. Fikri fəaliyyət insanlığın tarixi inkişafı gedişində həm biliklərin mənimsənilməsi, həm də tamamilə yeni biliklərin əldə olunması üçün zəruri əsasdır. Bu prosesin necə yaranması, onun hansı qanunauyğunluqlara malik olmasını açmaq təlimin təşkili və idarə olunması probleminin həllində ən mühüm psixoloji əsas rolunu oynayır. Bizə belə gəlir ki, psixologiya elmi eksperimental yolla bunu aşkarlamışdır.

Hafizə və təfəkkür iki müxtəlif proses olsa da, bunlar arasında ayrılmaz əlaqə var, bir-birini şərtləndirir. Təfəkkür hafizənin inkişafının müəyyən mərhələsi əsasında inkişaf edir, o hafizənin məzmununun zənginliyindən asılıdır, bu məzmundan istifadə etmək bacarığından asılıdır. Hafizə ilə təfəkkürün arasındakı əkslik ondan ibarətdir ki, təfəkkür o zaman başlanır ki, keçmiş təcrübədə çatışmayan cəhət ortaya çıxır. P.P. Blonski yazırdı ki, hafizənin məzmunu-keçmiş təsir, fikirləşməyin məzmunu-hələ həll edilməmiş problemdir. Biliksiz təfəkkürün inkişafından danışmaq olmaz. Əgər bilik yoxdursa, təfəkkürün inkişafı üçün əsas da yoxdur. [2,100].

Bir çox psixoloqlar tərəfindən daha ümumiləşmiş şəkildə təfəkkürün əsas iki konsepsiyası təqdim olunur: birincisi təfəkkür-analiz və sintez prosesi kimi, ikincisi, təfəkkür-interiorizasiya əməliyyatlarının sistemi kimi.

Pedaqoji psixologiyada bu iki konsepsiya təlimin tədqiqatında iki əsas istiqamət şəklində əks olunur. Onlardan biri anlayışların formalaşması nəzəriyyəsidir. Bu istiqamətin nümayəndələri hesab edirlər ki, şagirdlərin əqli inkişafı üçün mühüm stimul təlim prosesində intellektual çətinlikləri şagirdlərin fəal şəkildə götürməsidir (D.N.Boqoyavlinski, N.A.Mençinskaya, E.N. Kabanova-Meller, L.V.Zankov və b.). İkinci, əqli fəaliyyətin formalaşma nəzəriyyəsidir. Bu istiqamətin nümayəndələri təhsilalanların əqli fəaliyyətinin inkişafında xarici fəaliyyətin daxiliyə çevrilməsi ilə əqli fəaliyyətin mərhələlərlə idarə olunmasını mühüm üsul hesab edirlər (A.N.Leontyev, P.Y.Qalperin, D.B.Elkonin, V.V.Davıdov).

D.N.Boqoyavlinski və N.A.Mençinskaya hesab edirlər ki, idrak prosesində əsas sadə element assosiasiyadır. Onlar müəyyənləşdirmişlər ki, təhsilalanların daha çox idrak aktivliyi problem situasiyası ilə ortaya çıxır, bu situasiya isə məsələnin həllinin aktiv axtarışı şəraitində yaranır. Biliklərin mənimsənilməsində müəyyənedici iki şərt vardır: 1) yeni material problemli xarakter daşısın; 2)yeni biliklərə tələbat yaransın, fikri fəallıq motivlərlə, idrak maraqları və emosional münasibətlərlə bağlansın. [3,110]

Vurğulayaq ki, pedaqoji tədqiqatlarda anlayışların formalaşdırılması konsepsiyası ilə interiorizasiya əməliyyatı konsepsiyasının əlaqəsi araşdırılmışdır. Birinci istiqamətin nümayəndələrinin tədqiqatlarında məsələ həllinin konkret mexanizminin bir çox prinsipial tərəfləri açılmışdır. Bu barədə Q.S. Kostyuk yazırdı ki, məsələ həlli insanın keçmiş təcrübəsi əsasında, onun vasitəsi ilə həyata keçirilir ki, buraya ümumiləşmiş assosiasiyalar, bilik, bacarıq, vərdişlər və s. daxildir. Ancaq məsələnin həllini təkcə keçmiş təcrübənin müxtəlif elementlərinin bərpasından ibarət hesab etmək birtərəfli olardı, həll yeni fikrin yaranması ilə nəticələnir, gizli şəkildə mövcud olan obyektiv münasibətləri də əks etdirir [4, 57-58].

Əqli fəaliyyətin formalaşdırılması nəzəriyyəsinin yaradıcılarından olan D.B. Elkonin və V.V. Davıdovanın konsepsiyası onunla fərqlənir ki, tədqiqatçılar təhsilalanların əqli fəaliyyətlərinin inkişafında başlıca cəhəti təlim metodları ilə bağlamır, mənimsənilmiş biliklərin məzmununda görürlər. Müəlliflər o mövqedən çıxış edirlər ki, müasir məktəbin qarşısında üç vəzifə durur: 1) müəyyən həcmdə biliklərin mənimsənilməsi; 2) əqli inkişaf; 3) idrak motivlərinin yaradılması. Bu vəzifələrin hər birinin öz həlli yolu var. Bu məsələlərdən hər hansı birinin həlli digərinin həllinə avtomatik olaraq səbəb olmur. Onları yalnız eyni vaxtda, eyni yolla həll etmək olar. Müəyyənedici, mərkəzi halqa bu vəzifələrin həllində mənimsənilməli biliklərin məzmuna adekvat tədris üsulları ilə onların üzvi əlaqələndirilməsidir. Müəlliflər hesab edirlər ki, təlimin məzmununun dəyişməsi intensiv əqli inkişafa və təlim motivlərinin formalaşması ilə bağlı məsələlərin həlli üçün əsas yaradır [5, 106-107] .

P.Y. Qalperinin mənimsəmədə fikri fəaliyyətin aşağıda göstərilən altı mərhələdən keçdiyini də göstərmişdir: 1) motivləşmə mərhələsi; 2) FBƏ müəyyənləşdirilməsi mərhələsi; 3) fəaliyyətin maddi (maddiləşmiş) şəkildə yerinə yetirilməsi mərhələsi; 4) fəaliyyətin şifahi nitqdə (hündürdən deməklə) icrası mərhələsi; 5) fəaliyyətin daxili nitqin köməyi ilə (öz-özünə deyərək) icrası mərhələsi; 6) fəaliyyətin əqli formada icrası mərhələsi [6, 103-104].

P.Y.Qalperinin mülahizəsinə bunu əlavə etməyə ehtiyac var ki, hər bir idrak əməliyyatının özünə sistem kimi yanaşmaq olar. Bu məqamı nəzərdə tutan N.M. Kazımov göstərir ki, hər hansı idrak əməliyyatının formalaşması özlüyündə bir sistem təşkil edir, belə ki, şagird tədris tapşırığını yerinə yetirərkən bir-birini əvəz edən xeyli idrak əməliyyatı icra etməli olur və bu mənada şagirdin öyrənmə fəaliyyəti həm məzmunca, həm də icra tərzicə tədris tapşırıqlarının yerinə yetirilməsinə yönələn idrak əməliyyatlarının sistemi kimi özünü göstərir. Tədris tapşırıqları olduğu kimi, onların icrasını tələb edən idrak əməliyyatları da müxtəlifdir [7, s.107-108].

Burada təlim şəraiti və vəzifələri onunla xarakterizə olunur ki, şagirdlər ümumi fəaliyyət tərzləri və onları mənimsəməyin məqsədi, eləcə də müəyyən tip məsələni həll etməyin ümumi yollarını tapmaq üçün zəruri olan nümunə və göstərişləri mənimsəməklə bağlı tapşırıq alırlar. Təlim işləri şagirdlərin elmi anlayışlar və fəaliyyətin ümumi tərzlərini, eləcə də onları yada salmaq və xarakterik məsələlərin həllinə tətbiq etmək yollarını aramaq və ya tapmaqla bağlı işlərdən ibarətdir. Nəzarət işləri öz təlim işlərinin nəticələrini verilmiş nümunəyə əsasən ümumiləşdirməyə yönəlmiş işlərdir. Qiymətləndirmə işləri verilmiş elmi biliklər və məsələnin həllinin ümumi yollarının mənimsənilməsinin son keyfiyyətini qeydə alır.

Təlimin strukturu ilə bağlı konsepsiyasında A.N. Leontyev konkret obyektlər sinfinin, onların xassələrinin dərk olunmasını, eləcə də ümumiləşdirilmiş idrak proseslərini fərqləndirmişdir. Birincinin bilik, bacarıq və vərdişlərdən ibarət olduğunu və onlara öyrənmə prosesində yiyələnməyin mümkünlüyünü göstərmişdir. Onlara yiyələnmə isə dərketmənin inkişafı prosesində baş verir. [8]

Ümumiyyətlə, bu konsepsiyaların mahiyyəti ondan ibarətdir ki, burada anlayışların mənimsənilməsi üçün həm obyektin, həm də onunla rəftarın, ünsiyyətin, xüsusilə təhsilalanların obyektlə fəaliyyətinin olması zəruri sayılır. Zənnimizcə, haqqında söhbət gedən təlim fəaliyyətinin struktur modelləri onların əmələ gəlməsi və inkişafına və ayrı-ayrı elementlərin funksional bağlılığına görə fərqləndirilə bilər. Bu münasibətlə əlaqədar olaraq Y.İ. Linqartın fikri maraq doğurur. O yazırdı: "Biz hesab edirik ki, öyrənmənin strukturunda bir-biri ilə daxili əlaqədə olan dörd tərkib fəaliyyət göstərir: motivləşmə, idrak, icra və

nəzarət. İlk üçü fəaliyyəti təşkil edir, nəzarət həyata keçirilən fəaliyyətin təhlilinə aiddir [9, s 71]. Linqartın fikri ilə qismən razılaşmaqla biz təlim fəaliyyətinin funksional strukturu haqqında məsələyə onun təşkili mövqeyindən yanaşmağa üstünlük verib aşağıdakı mərhələləri əhatə edən struktur kimi baxmağı təklif edə bilərik: 1.Giriş-motivləşmə mərhələsi; 2.Əməliyyat-idraki mərhələ; 3.Nəzarət–qiymətləndirmə mərhələsi.

Bizim fikrimizcə, hər hansı mövzunun öyrənilməsində düşünülmüş, səmərəli, optimal təlim fəaliyyəti məhz bu mərhələləri (müasir dərsin strukturunun müəyyənləşməsində sözügedən mərhələlər birbaşa və ya dolayısı ilə diqqət mərkəzinə çəkilir) özündə cəmləşdirməlidir. Giriş-motivləşmə mərhələsində aşağıdakı təlim işlərini ayırmaq olar: 1.Tədris-problem situasiyasının dərki; 2.Əsas tədris vəzifələrinin müəyyənləşdirilməsi; 3.Təlim materialının öyrənilməsi üzrə fəaliyyət imkanlarının qiymətləndirilməsi. Əməliyyat-idrak mərhələsində təlim materialının məzmununu şagirdlər öyrənir, bilik, bacarıq və vərdişlər əldə edirlər. Bu zaman başlıca tədris məsələsi ayrı-ayrı vəzifələrin ardıcıllığını müəyyənləşdirmək və onları həll etməkdən ibarətdir. Nəzarət-qiymətləndirmə mərhələsində mövzu üzrə öyrənilmişləri şagirdlər ümumiləşdirir, onları özünün ümumi bilik və bacarıqlar sisteminə daxil edir, özünün həyata keçirdiyi təlim işini təşkil edir, əsas idrak məsələsini yerinə yetirib-yetirmədiyini müəyyənləşdirir, nəyi necə mənimsəmişdir, məqsədinə necə nail olmuşdur və s. məsələləri götür-qoy edir, zəruri təshih işini həyata keçirir.

Təhsilalanın optimal psixi inkişafı və əqli proseslərinin aktivliyi şərtlərinin diqqət mərkəzində saxlanılması tələbat, motiv, maraqlarının, emosional faktorların inkişaf xüsusiyyət və qanunauyğunluqlarının gözlənilməsi prosesinin idarə olunması üçün xüsusi əhəmiyyətə malikdir.

Təlim prosesində ("onun bir parçası olan dərsdə" - "günəş bir damla suda əks oluna bildiyi kimi, təlim prosesi də dərsdə öz əksini tapır" (İ.Y. Lerner)) öyrətmənin subyekti olan müəllimin (təlim prosesinin əsas komponentinin) fəaliyyətinin strukturu bir çox elementlərdən ibarətdir. N.M. Kazımov və Ə.Ş. Haşımov təlimdə müəllimin fəaliyyətini belə səciyyələndirirlər: müəllimin fəaliyyət sisteminə öyrənmə prosesinin, yəni şagirdin idrak fəaliyyətinin təşkilinə və ona rəhbərliyə aid olan bütün cəhətlər; şagirdin tərbiyəsinə və inkişafına yönələn fəaliyyəti təşkil etmək; şagirdi fəallığa həvəsləndirmək; şagird fəaliyyətinə nəzarət etmək; şagird fəaliyyətinə istiqamət vermək; şagird fəaliyyətinin nəticələrini təhlil etmək və yekunlaşdırmaq və s. daxildir. [7, s 108]

Yeri gəlmişkən qeyd edək ki, müəllimin fəaliyyətini bir çox hallarda tədrisetmə adlandırırlar, bu termin də müəllimin çoxcəhətli fəaliyyətini tam şəkildə əks etdirmir. Axı, tədrisetmə, adətən, şagirdlərə biliyin, informasiyanın verilməsi ilə bağlıdır, bu isə müəllimin fəaliyyətinin yalnız bir hissəsidir. Müəllimin fəaliyyətini təlim prosesini idarəetmə adlandırmaq da doğru olmazdı, bu da müəllimin fəaliyyətinin digər bir hissəsini özündə saxlayır. Fikrimizcə, müəllimin fəaliyyəti təlim prosesində öyrətmə və öyrətməni öyrənmə fəaliyyətlərinin vəhdətində cəmlənmişdir. Müəllimin fəaliyyəti bu prosesədək isə hazırlıq şəklində təzahür edir. Təlim prosesinin reallaşdırılması ilə bağlı müəllimin fəaliyyətinin genetik-struktur və funksional-struktur modelini fəqləndirmək olar.

Diqqət mərkəzinə çəkilən konsepsiya və elmi-pedaqoji əsaslı mülahizələr söyləməyə əsas verir ki, yeni pedaqoji təfəkkür klassik pedaqogikanın deyil, "köhnə" pedaqoji təfəkkürün-ənənəvi didaktikanın alternativi kimi bərqərar olmuşdur. Klassik pedaqogika yeni pedaqoji

təfəkkürün əsas qaynaqlarından birini təşkil edir. Yenilikçi alimlər və müəllimlər klassik pedaqogikanı müasir ölçülərlə oxuyur, onun zamanla səsləşən işıqlı ideyalarına arxalanırlar.

Yeni pedaqoji təfəkkür təhsilin və onun həyata keçirilmə yolu olan təlim nəzəriyyəsinin daha mükəmməl səviyyəyə yüksəlməsinə əsas olur, bu da məntiqi olaraq bu və ya digər fənnin tədrisinin metodik sisteminin işlənilməsinin, metodik sistemdə özünə yer alan componentlərin yeni keyfiyyət kəsb etməsinin, "tam-hissə münasibətlərinin"-dialektikasının daha optimal variantların formalaşdırılmasının və tətbiqinin nəzəri və texnoloji əsaslarına aydınlıq gətirmiş olur, bunların "ənənəvi" təyinatları "müasir" təyinatları ilə əvəz olunur. Biz müasirləşmənin sözügedən məntiqini təqdir edirik. Bu məntiqə dayanaraq "müasir dərs" anlayışının interpretasiyasını, onun struktur elementləri və elementlərarası dialektikası barədə ümumiləşməni aşağıda özünə yer alan qaydada təqdimatının elmi-pedaqoji baxımdan məqbul hesab edirik.

Akademik M.M. Mehdizadə yazırdı ki, hər hansı bir müasir hadisə keçmişin buna bənzər hadisələrinin mütərəqqi cəhətlərini, "rasional toxumlarını" bu və ya digər dərəcədə özündə birləşdirdiyi kimi, müasir dərs də ənənəvi dərsin "rasional toxumalarını" inkar etmir. Müasir dərs də ənənəvi dərs kimi didaktik vəzifəni dəqiq müəyyənləşdirməyə çalışır, bununla əlaqədar olaraq özü üçün müəyyən quruluşa malik münasib tip seçir, eləcə də ev tapşırığını verir və s." [10, s 250].

Etiraz olunmur ki, müasir dərs bununla bitmir. O ənənəvi dərsə nisbətən həm məzmun, həm vəzifələr, həm metod və priyom, həm də vasitələrlə çox-çox zəngindir, təşkili və keçirilməsi cəhətdən xeyli mürəkkəbdir: o müəllimdən yalnız mükəmməl hazırlıq, pedaqoji məharət deyil, həm də gərgin, yaradıcı iş tələb edir. Şagirdlər də fəaliyyət göstərmək məcburiyyətində qalırlar. O... təlimin müxtəlif altsistemlərinə geniş meydan verməsilə də ənənəvi dərsdən fərqlənir.

Bəşərin sosial təcrübəsinin bir hissəsini özündə saxlayan təlim materialı və onun mənimsənilməsinə yönələn təlim metodlarının təkmilləşməsi ilə bağlı onların mövcudluq forması (dərs üçün təlim materialı və metodlar birlikdə məzmun yerində çıxış edir) təkmilləşməyə bilməz ("Forma" ilə "Məzmun" kateqoriyalarının dialektikası belədir!). Yuxarıda vurğuladığımız kimi, yeni pedaqoji təfəkkürün formalaşmasında, o cümlədən dərsin təkmilləşdirilməsində müasir psixoloqlar xeyli iş görmüşdür. Təsadüfi deyildir ki, "ənənəvi dərs"lə yanaşı "müasir dərs", "inkişafetdirici dərs", "problemli dərs", "mərhələli dərs", "sintetik dərs" və s. keyfiyyət əlamətlərini əks etdirən anlayışlardan istifadə olunur.

Burada bir qədər haşiyə çıxaraq bəzi məsələlərə aydınlıq gətirməyə çalışaq. Yeni pedaqoji təfəkkürün inkişafında şərti surətdə iki mərhələni fərqləndirmək olar. Birinci mərhələdə ənənəvi didaktik sistemin elmi-tənqidi təhlili axarında dərsin optimallaşdırılması başlıca psixoloji və pedaqoji problem kimi xüsusi əhəmiyyət kəsb edirdi. Ənənəvi dərsin alternativi kimi müasir dərs anlamı da bu mərhələdə yaranmışdı. Müasir dərs haqqında təsəvvürlərin formalaşması yeni pedaqoji təfəkkürün bərqərar olmasında həlledici əhəmiyyətə malik olmuşdur. Onun başlıca ölçüləri öz əksini, ilk növbədə, müasir dərs konsepsiyasında tapır. "Müasir dərs" anlamında "müasir" sözünün özünəməxsus evristik mənası var. "Müasir dərs" "bugünkü dərs" demək deyildir. Zamanın uğurlarına söykənən dərsə müasir dərs deyilir. Bu anlamda, adətən, bir-biri ilə üzvi surətdə bağlı olan iki cəhəti ayırd edirlər. Çox vaxt müasir dərs dedikdə, onu təkcə dərsin elmi-nəzəri səviyyəsini yüksəltmək, müasirləşdirmək kimi başa düşürlər. Dərs özünün elmi-nəzəri səviyyəsinə görə zamanənin uğurlarını əks etdirməlidir. Bu şəksizdir. Lakin müasir dərs anlamını təkcə bu kökdə izah etmək birtərəfli olardı. Söhbət pedaqoji fenomendən gedir. "Müasir" sözü də məhz dərsi səciyyələndirir. Bu,

istər psixoloji və pedaqoji, istərsə də dilçilik baxımından belədir. Dərs təkcə özünün elmi-nəzəri səviyyəsinə görə deyil, həm də pedaqoji konsepsiyasına-yeni pedaqoji təfəkkür ölçüləri ilə qurulmasına görə müasir olur [1, s 16-17].

Müasir dərs konsepsiyasının müxtəlif yönümlərdə təhlili axarında yeni problemlər əmələ gəlmişdi. Bir həqiqət artıq bütün aydınlığı ilə dərk olunurdu: təhsilin nəzəri-metodoloji paradiqmalarını dövrün ölçüləri ilə yenidən qurmadan öz-özlüyündə dərsin müasirləşdirilməsi istənilən effekti vermir (və verə də bilməzdi).

Yeni pedaqoji təfəkkürün inkişafında mahiyyətcə yeni (ikinci) mərhələ əmələ gəlir. Müasir təhsil konsepsiyasının işlənilməsi və müasir dərs konsepsiyasının məhz bu konsepsiya kökündə (əsasında) işlənilməsi ikinci mərhələnin ana xəttini təşkil edir. Hətta birinci mərhələdə xüsusi aktuallıq kəsb edən anlamlar (məsələn, şagirdlərin idrak fəaliyyətinin aktivləşdirilməsi və s.) ikinci mərhələdə yeni mənalarda səslənir. Şagirdlərdə nəzəri təfəkkürün inkişafı önəmli məsələ kimi meydana çıxır və şəxsiyyət baxımından dəyərləndirilir.

Pedaqoji mənbələrdən əldə olunan materialların təhlili bizi belə qənaətə gətirir ki, "*müasir dərs*" anlayışından istifadə olunması pedaqoji tədqiqatçılar (nəzəriyyəçilər) və praktiklər tərəfindən birmənalı qarşılanmır: dərsə tələblərin dəyişməsindən, onun məktəbin çağdaş vəzifələrinə uyğun qurulmasından və müvafiq terminologiyadan istifadə olunmasından bəhs olunmasına daha çox üstünlük verilir. Dərs təkcə özünün elmi-nəzəri səviyyəsinə görə deyil, həm də pedaqoji konsepsiyasına-yeni pedaqoji təfəkkür ölçüləri ilə qurulmasına görə müasir olur. Müasir bilikləri müasir üsulla-müasir dərsi ümumi şəkildə belə səciyyələndirmək olar... [1, s 18].

Burada professor Ə.Ə. Əlizadənin mülahizəsinə davam verərək pedaqogikanın metodoloji problemləri içərisində biliklə idrak prosesinin münasibətinə nəzər yetirmək yerinə düşər. Məlumdur ki, bilik və idrak fəaliyyəti arasında mürəkkəb münasibətlər vardır. Odur ki, şagirdlərin təlim fəaliyyəti priyomlarının formalaşdırılması heç də ikinci dərəcəli əhəmiyyətə malik olmayıb, inkişafetdirici təlimin mürəkkəb və mərkəzi problemlərindədir. Bununla əlaqədar olaraq belə bir məlum fakt diqqəti cəlb edir ki, bilik həmişə bu və ya digər idrak fəaliyyətinin məhsuludur, həm də biliklərə yiyələnmə prosesinin idarə olunması təhsilalanın idrak fəaliyyətinin idarə olunması vasitəsi ilə mümkündür. F.İ. Talizinanın fikrincə, bilik və fəaliyyət münasibətinin özünəməxsusluğu ondan ibarətdir ki, bir tərəfdən idrak fəaliyyətinin xarakteri həlledici şəkildə biliyin keyfiyyətinə təsir edir, digər tərəfdən idrak fəaliyyətinin xarakteri həlledici şəkildə biliyin keyfiyyətinə təsir edir, digər tərəfdən biliklərin mənimsənilməsi gedişində idrak fəaliyyəti bir çox hallarda yenidən qurulur və təkmilləşir. Buna əlavə olaraq qeyd etmək olar ki, idrak fəallığının həqiqi təşkili yalnız o halda mümkün olur ki, təhsilalanlar biliklərin, bacarıq və vərdişlərin əldə olunması gedişində xüsusi və sistematik olaraq idrak fəaliyyəti priyomlarını öyrənsinlər. Bu priyomların mənimsənilməsi təkcə biliklərin formalaşmasına müsbət təsir göstərməklə bitmir, həm də təhsilalanların təlimə münasibətini də dəyişir, onu aydın məqsədli, təşkil olunmağı bacaran, müstəqil subyektə çevirir. [11, s 244 ]

Təlim-tərbiyə prosesinin idarə olunmasının təkmilləşdirilməsi onun təşkili formalarının sisteminin, bu sistemin digər təlim komponentləri ilə didaktik əlaqə və asılılıqlarının nəzəri və praktik əsaslarının şərhindən xeyli dərəcədə asılıdır. Təlimin təşkilat formasının təkmilləşdirilməsi təxirəsalınmaz tələbdir, bu proses həmişəyaşar təbiətli problemdir. Bəşərin sosial təcrübəsinin bir hissəsini özündə saxlayan təlim materialı və onun mənimsənilməsinə yönələn təlim metodlarının təkmilləşməsi ilə bağlı onların mövcudluq forması (dərs üçün təlim materialı və metodlar birlikdə

məzmun yerində çıxış edir) “ardı-arası kəsilmədən təkmilləşməyə bilməz” [10, s 249].

Dərs anlayışının müxtəlif interpretasiyaları elmi mənbələrdə özünə yer almış, onun inkişaf yoluna müxtəlif aspektlərdən şərhlər verilmişdir. M.N. Skatkin qeyd edirdi ki, “... dərs pedaqoji prosesin bu və ya digər dərəcədə bitmiş bir parçası, yaxud hüceyrəsidir” [12, s 149]. B.A. Əhmədov yazırdı: “Müəllimin dərs ili üçün sabit tərkibli şagird qrupunun kollektiv idrak fəaliyyətinə (və həyata düzgün münasibətinin formalaşdırılması prosesinə) konkret rejim üzrə (həm də kollektivin hər bir üzvünün fərdi xüsusiyyətlərini nəzərə almaqla) bilavasitə rəhbərlik etməsinə dərs deyilir” [13, s 188]. Prof. A.O. Mehrabov da prof. B.A. Əhmədovun fikrinə oxşar şəkildə yazırdı ki, dərs müasir pedaqogikanın mühüm anlayışlarından biri kimi istifadə olunmaqdadır. Hələ də onun müəllimin rəhbərliyi altında cədvəl üzrə, müəyyən olunmuş şagird kontingenti ilə, vaxt çərçivəsində keçirilməsi pedaqoji tələb kimi öz qüvvəsini saxlayır... Standart dərsin parametrləri kimi onları yerinə yetirirlər. [14, s 18]

Professor A.N. Abbasov yazır ki, məktəbin inkişaf tarixində müxtəlif təlim sistemləri mövcud olmuşdur. Həmin sistemlərdə ayrı-ayrı təşkilat formalarına: təlimin fərdi-qrup formasına (orta əsr məktəblərində), qarşılıqlı şəkildə bir-birinə təlim vermək formasına (İngiltərədə Bell-lankaster sistemi), təhsilalanların qabiliyyətlərinə görə fərdiləşdirilmiş təlim forması (Manheym), briqada-laborator formasına (Dalton planının şəkli dəyişdirilmiş forması, XX əsrin 20-ci illərində, sovet məktəblərində tətbiq olunub) sinif-dərs formasına (350 ildən çoxdur ki, inkişafdadır) yer ayrılıb. Təlimin məqsədi, məzmun və metodları onun təşkilat formasında qarşılıqlı əlaqə şəraitində təzahür edir... Təlimin təşkilinin müxtəlif formalarının meydana gəlməsi, inkişafı, təkmilləşdirilməsi və tədricən bəzilərinin sıradan çıxması inkişaf edən cəmiyyətin tələbləri, ehtiyacları ilə bağlı olmuşdur. [15, s 286]

Etiraf olunmalıdır ki, təlimin təşkilat forması kimi o, hələ də səmərəli şəkildə tədqiq olunmaqdadır, onun tipləri və strukturu dəqiqləşməkdədir, təlim materialının özünün prosessual hərəkətinin forması rolunu oynaya biləcək səviyyədə təşkil və idarə edilməsinin nəzəriyyə və praktikası işlənməkdədir. Amma buna baxmayaraq dərslə bağlı məsələlərin (onu bütöv sistem kimi xarakterizə edən) həllində indinin özündə də yekdillik yoxdur.

Məlum olduğu kimi, dərsin təsnifatı didaktikanın çoxdankı müzakirə mövzularından biridir. Dərsin tipologiyası ilə bağlı didaktik və metodik xarakterli tədqiqatlar aparılmış, aparılır və aparılacaqdır. Bu sahədə tədqiqat aparmış əksər müəlliflər dərsin bu və ya digər əlamətlərinə, cəhətlərinə üstünlük vermişlər (təəssüf ki, belədir).

Təlim prosesinin mərhələləri üzrə dərsin təsnif olunması ideyasını bir çox didakt və metodistlər müdafiə edir, bu tipologiyaya öz təshih və əlavələrini də irəli sürürlər. Bu yanaşmanın uğuru, fikrimizcə, təlim prosesinin dərk olunmasından, necə anlaşılmasından asılıdır. Zaman-zaman təlim prosesinin interpretasiyası dəyişmişdir. Ona idrak prosesi, texnoloji proses, təhsil prosesinin komponenti kimi və s. şərhlər verilmişdir. Təbii ki, bu anlayışa yanaşmalardan asılı olaraq onun mərhələləri də fərqləndirilmişdir. Bəziləri dərsləri onların keçirilməsinin əsas üsullarına görə tiplərə ayrılmasını məqbul saymışlar.

Dərslərin təsnifatında məqsədin əsas götürülməsinə üstünlük verənlər az deyildir. Dərsin məqsədinə görə tipologiyası ideyası B.P. Yesipovun adı ilə bağlıdır. Onun mülahizələrinə görə, dərsin tipləri aşağıdakılardan ibarətdir:

1. Kombinə edilmiş və ya mürəkkəb dərslər;
2. Şagirdləri yeni materialla tanış edən dərslər;

3. Biliklərin ümumiləşdirilməsi və sistemləşdirilməsi məqsədilə verilən dərslər;
4. Bilikləri möhkəmləndirən dərslər;
5. Bacarıq və vərdişlərin yaradılması və möhkəmləndirilməsi ilə əlaqədar aparılan dərslər;
6. Biliklərin yoxlanılması məqsədilə verilən dərslər. [16, s 34]

Məqsəd, məzmun və metodlardan asılı olaraq dərslərin tipləri və metodik variantları da işlənilmişdir. Məsələn, dərslərin beş tipi, hər tipin isə variantları ilə bağlı mülahizələr pedaqoji mənbələrdə özünə yer almışdır. Həmin təsnifat belədir:

1. Təlimin bütün vəzifələrini reallaşdıran dərslər (böyük olmayan material üzrə);
2. Əsas vəzifəsi yeni materialın qavranılması və ilkin mənimsənilməsi olan dərslər;
3. Biliklərin təkrarı və möhkəmləndirilməsi, bacarıq və vərdişlərin formalaşdırılması dərsləri;
4. Müstəqil işlərin tətbiqi (şagirdlər tərəfindən əxz olunmuş təcrübənin, mənimsənilmiş biliklərin reproduktiv və ya produktiv mahiyyətli nəzəri və praktik tapşırıqların müstəqil yerinə yetirilməsinə yönəldilməsi) dərsləri;
5. Ümumiləşdirici təkrar, şagirdlərin biliklərinin sistemləşdirilməsi və yoxlanılması dərsləri. [2, s 499]

Yeri gəlmişkən, belə bir cəhəti də qeyd edək ki, dərs nəzəriyyəsində və təlim təcrübəsində dərslərin didaktik məqsədlərə görə bölgüsündən bir iş aləti kimi istifadə olunmuş, həm də bu zaman belə bir düzəliş verilmişdir ki, yalnız yeni məlumat verən, yaxud yalnız bilik, bacarıq və vərdişləri möhkəmləndirmək məqsədi ilə keçirilən dərslərə, eləcə də “xalis şəkildə” proqramlaşdırılan və ya problemli dərslərə az təsadüf olunur. Real tədris prosesində demək olar ki, hər bir dərs didaktik məqsədlər kompleksini yerinə yetirir və bu zaman müxtəlif təlim üsullarından istifadə edilir.

Problemli təlim konsepsiyası üçün təfəkkür mürəkkəb qanunauyğunluqları olan prosesdir. Bu konsepsiyaya görə dərs hərtərəfli şəkildə başa düşülən və qiymətləndirilən hafizə qanunları ilə deyil, mürəkkəb, çox cəhətli təfəkkür prosesinin özünün qanunları ilə qurulur. Dərsin arxitektonikasında həmin qanunauyğunluqlar bir vasilədə problem kökündə əlaqələndirilir. Problemin ayırd edilməsi, problemin formulə olunması, problemin həll edilməsi-dərsdə məhz bu kökdə təfəkkürün öz qanunları axarında qəribə fikir məkanı yaranır; şagird axtarır, arayır, yeni olanı kəşf edir, bu prosesdə o, sadəcə olaraq fikirləşmir, onun fikri, təfəkkürü inkişaf edir və tədricən yeni məziyyətlər kəsb edir.

Problemlilik prinsipinə əsasən dərsləri iki qrupda birləşdirmək mümkündür və bu şagirdlərin idrak fəallığının yüksəldilməsi üzrə axtarışların müəyyən dövr üzrə məntiqi sonluğu kimi dəyərləndirilə bilər. Problemli və problemli olmayan dərslərin fərqi təlimin metod və vasitələrində, dərsin strukturunda axtarılmalıdır. Problemli dərslərin məntiqi-psixoloji (*daxili*) və didaktik (*xarici*) strukturunu ayırmaq mümkündür. Dərs daxili struktur nöqteyi-nəzərdən problemli o zaman hesab olunur ki, bu zaman müəllim düşünülmüş şəkildə problemli vəziyyət yaradır və müstəqil təlimi problem formulə etmək və onun həllini axtarmaq üzrə şagirdlərin axtarış fəaliyyətini təşkil edir (yüksək dərəcəli problemlilik) və ya problemi müəllimin özü qoyur, onu həll edir, axtarış yolu üzrə fikrin məntiqini şagirdlərə göstərir. Təbii ki, şagirdlərin idrak aktivliyinin yüksək səviyyəsi problemli vəziyyətlə şagirdlərin idrak, maraq və emosional hisslərinin uzlaşması zamanı əldə olunur.

Problemli dərsin didaktik göstəricisi onun kompleksliyi, “sintetikliyi”dir. Bu, kombinə edilmiş dərsin eyniyyəti deyildir. Sintetik dərsdə eyni zamanda bir neçə didaktik məsələ həll

olunur (bu, kombinə edilmiş dərsdə də belədir). Lakin bu başlıca deyildir. Sintetik dərsin mahiyyəti ondan ibarətdir ki, keçilmişlərin təkrarı bir qayda olaraq yeni materiala girişlə birləşir, zəruri biliklərin aktuallaşması mərhələsində yeninin öyrənilməsinə başlanılır, yeninin əldə olunması müstəqil işlərlə bağlanır, biliklər praktikaya sistematik olaraq tətbiq olunur, bilik, bacarıq və vərdişlərin təkrarı yeni əlaqə və uzlaşmalarda fasiləsiz keçirilir. Əsas mərhələlərin (yeni materialın izahı, onun qavranılması, yeni anlayışların mənimsənilməsi, vərdişlərin işlənməsi və s.) kompleksliyi problemli dərsin əsas xüsusiyyəti kimi müşahidə olunur. Problemli olmayan dərs problemlidən onunla fərqlənir ki, burada müəllim şagirdlərə təlim materialı ilə bağlı informasiya və izahat verir (onu izah edir), problemli vəziyyət yaradılmır (bu cür vəziyyət tədris fənninin və tədris prosesinin məntiqi üzrə kortəbii şəkildə yarana bilər), müəllim problemin qoyuluşu və həlli üsullarını göstərmir, yeni biliklərin mənimsənilməsi və fəaliyyət üsulları başlıca olaraq nümunə üzrə, reproduktiv yolla gedir. Bu, şagirdlərin fəallığının mövcudluğunu istisna etmir, belə ki, təlim materialının yeni elementləri və müəllimin emosional şərhi buna səbəb ola bilər. Didaktik nöqteyi-nəzərdən problemli olmayan dərs problemlidən təlim prosesinin mərhələlərinin dəqiq ayrılışı ilə fərqlənir, dərsin əsas elementlərinin "sintetikliyi" olmur. Öyrənilən mövzunun məzmunundan və digər amillərdən asılı olaraq problemli olmayan dərslər problemli dərslərlə uzlaşaraq bir-birinin ardınca gələ bilər. Onların uzlaşması təlim prosesində şagirdlərin idrak fəaliyyətlərinin aktivləşmə səviyyəsini şərtləndirir (bu, məntiqi təzahürdür).

Dərslərin müvəffəqiyyətli təşkili üçün yalnız tiplər üzrə deyil, həm də növlər üzrə təsnifatı müəyyən əhəmiyyətə malikdir. Pedaqoji mənbələrdə dərslərin növlərinin müxtəlif əsaslar üzrə aparıldığı göstərilir. Təcrübə göstərir ki, dərslərin növlərə ayrılmasında daha düzgün və praktik cəhətdən faydalı yol müəllim və şagirdlərin fəaliyyətinin xarakterinə əsaslanmaqdır. Bu bölgü təlim metodlarının realizə edilmə üsulları üzrə bölgüsü ilə üst-üstə düşür. Bu halda dərslərin tip və növlər üzrə sistemləşdirilməsi sxemi aşağıdakı kimi qurula bilər (*bax: sxem 1).*

*Sxem 1*



Dərs tiplərinin daxilində bir neçə dərs növləri göstərmək olar. M.İ. Maxmutov tipologiyasına daxil etdiyi dərs tipləri daxilində növlərin mövcudluğunu belə təqdim etmək olar (bax: cədvəl 1).

***Cədvəl 1***

| | *Dərslərin tipləri* | *Dərslərin növləri* |
|---|---|---|
| I | Yeni materialın öyrənilməsi dərsləri (buraya birinci tip dərslərin variantları daxildir) | a) dərs mühazirə; b) dərs müsahibə; c) kinodərs; ç) nəzəri və müstəqil iş (tədqiqat tipləri dərsi); d) müxtəlif növ dərslərin birləşməsi. |
| II | Bilik, bacarıq və vərdişlərin təkmilləşdirilməsi dərsləri. | a) müstəqil iş dərsi (reproduktiv xarakterli); b) dərs-laborator işi; c) dərs-praktik iş; ç) dərs-ekskursiya; d) seminar; e) dərs-abzor-mühazirə; f) yoxlama işin kollektiv təhlili dərsi; g) yekun kinodərs; h) ümumiləşdirici müstəqil iş. |
| III | Kombinə edilmiş dərs. | Buraya əvvəlki iki tipə daxil olan növlər aid edilir. |
| IV | Nəzarət dərsləri. | a) şifahi sorğu (frontal, fərdi, qrup); b) yazılı sorğu (fərdi); c) məqbul; ç) məqbul praktik iş; d) yoxlama (müstəqil iş); e) qarışıq (əvvəlki üç növ üzrə) dərs növü. |

Məlum olduğu kimi, dərsin tipi yalnız onun başlıca istiqamətlərini müəyyən edir. Dərsin mühüm xüsusiyyəti onun strukturu ilə bilavasitə bağlıdır, belə ki, hər hansı dərsdə təlim prosesinin məntiqi əks olunur, onun mərhələ və həlqələrinin ardıcıllığı açılır. Dərsin məntiqi quruluşu və onun hissələrinin uyğunluğu dərsin strukturu üçün çox mühüm əlamətlərdəndir. Bunların hər hansı biri təhsilalanların aktivliyinə zəmin yaratmalıdır.

Təlim prosesinin fəallaşdırılması yollarının nəzəri və praktik axtarışı gedişində dərsin strukturu və onun mahiyyəti haqqında çox ziddiyyətli nöqteyi-nəzərlərə rast gəlirik. Baxışların təhlili göstərir ki, ənənəvi didaktikada “dərsin strukturu” anlayışının məzmunu yalnız tədris üsullarının ardıcıllığı kimi şərh olunmuşdur. XX əsrin 60-cı illərinədək həm nəzəriyyədə, həm də praktikada daha geniş yayılmış kombinə edilmiş dərsin empirik şəkildə formalaşdırılmış strukturu aşağıdakı kimi qəbul olunmuşdur: Sorğu, yeni materialın izahı, möhkəmləndirilməsi, evə tapşırıq. Metodika və müvafiq təlimatlar müəllimdən göstərilən ardıcıllığı ciddi şəkildə gözləməyi tələb edir.

N.A. Sorokin dərsin struktur elementlərinin ayrılmasının əsasına şagirdlərin fəaliyyətinin qoyulması ideyasına tərəfdar çıxmışdır: 1.Əvvəl öyrənilmişlərin bərpası; 2. Faktik materialla tanışlıq və onun müstəqil (və ya müəllimin köməyi ilə) mənimsənilməsi; 3.Təkrar, biliklərin yeni məzmuna köçürülməsi, çalışmalar; 4. Evə tapşırıq. [17, s 130-131]

V.T. Fomenko yazır ki, dərsin strukturunu onun didaktik vəzifəsi, bu vəzifəyə çatmaq üçün istifadə olunan tədris materiallarının məzmunu və məzmunun şagirdə çatdırılması üçün istifadə edilən priyomlar sistemi aşağıdakı əlaqə baxımından izah etmək lazımdır. Bunun üstünlükləri aşağdakılardan ibarətdir: 1) elementlər dərsin daxili elementləridir; 2) onlar kəmiyyətcə sabitdir (artırıla və azaldıla bilməz); 3) elementlər yerini dəyişə bilməz (onlar

ardıcıllıq nöqteyi-nəzərdən də sabitdir); 4) bu elementlər həmişə dərsdə özünü göstərir. Müəllifin fikrinə görə, dərsin ümumi məqsədi (didaktik vəzifə yarımməqsədlərə bölünür, hər yarımməqsədə müvafiq vasitə (material və s.) seçilir, hər materiala (vasitəyə) müvafiq priyomlar sistemi (metodlar) tətbiq edilir. [11, s 338]

Polyak didaktı E.Fleminq dərsin strukturu və şagirdlərin idrak fəaliyyəti mərhələlərinin vahidliyi ideyasını irəli sürmüşdür. O, problemli dərsin strukturunun müəyyənləşdirilməsi prinsiplərinə aşağıdakıları daxil edir: a) materialın həcm və keyfiyyətinin müəyyənləşdirilməsi; b) tədris predmetinin məntiqinə uyğun onun sistemləşdirilməsi; c) materialın asan mənimsənilə bilən hissələrə bölünməsi; ç) hissələrin müəllimin rəhbərliyi və müəllimin köməyi ilə mənimsənilməsi; e) mənimsəmənin fərdi tempinin uçota alınması. [18]

M.İ. Maxmutov dərsin strukturunun (təlim prosesinin məntiqi, biliklərin problemli mənimsənilməsi, onların möhkəmləndirilməsi və tətbiqi prosesində müəllim və şagirdlərin fəaliyyətlərinin mərhələləri (qurulmasının başlıca prinsiplərinin özünün psixoloji, qnoseoloji və didaktik əsaslarının olduğunu göstərir. Problemli dərsin struktur elementləri problemli təlimin mərhələləri olması ideyasını irəli sürür. Maxmutovun mövqeyi ilə əsasən razılaşmaq olar. Dərs özü təlimin mühüm təşkilat forması olmaqla təlim prosesinin komponentlərindən biridir. Təlimin komponentləri ilə forma arasında əlaqələr mövcuddur. Dərs sistemində təlimin tipindən asılı olaraq onun komponentləri qarşılıqlı asılılıq və müəyyənetmə əlaqələrinə malikdir.

M.İ. Maxmutovun fikrincə, dərsin strukturuna üç səviyyədə baxılmalıdır: didaktik; məntiqi-psixoloji; metodik. [17, s 134-135]. Dərs təlim-tərbiyə prosesinin mühüm tərkib hissəsi, onun ayrılmaz parçasıdır, məzmunu və tərkibi məktəbin ümumi məqsədləri ilə müəyyən olunur. Qarşıda duran məqsədin reallaşması müəyyən qaydada, müəyyən ardıcıllıqda müəllim və şagirdlərin fəaliyyəti sayəsində mümkün olur. Bu ardıcıllığı təlim prosesinin məntiqi müəyyənləşdirir. Əslində bu məntiq şagirdin biliksizlikdən biliyə hərəkətidir.

Məlum həqiqətdir ki, yeni biliyin öyrənilməsi və mənimsənilməsi keçmiş biliklərə və təcrübəyə istinad etmədən mümkün deyildir. Hər hansı yeni biliyin formalaşması (2-ci etap) şagirdin əldə etmiş olduğu bilik və təcrübənin aktuallaşması (1-ci etap) və mənimsənilmiş bilik və təcrübənin nəzəri və praktik təlim fəaliyyətində sistematik tətbiqi (3-cü etap) bazasında gedir. Üçüncü mərhələnin məqsədi şagirdlərin bacarıq və vərdişlərinin formalaşdırılmasıdır.

Deməli, didaktik məqsədləri, təlim materialının məzmununu, həmçinin təlimin ümumi metodlarını nəzərə almadan dərsin strukturunu qurmaq olmur. Aktuallaşdırma, yeni anlayış və fəaliyyət üsullarının formalaşması və mənimsənilmişlərin tətbiqi öyrənmə prosesinin mərhələləri kimi çıxış edir, həm də bunlar dərsin üç ümumiləşmiş didaktik vəzifəsi kimi bir dərsdə, müxtəlif dərəcələrdə, onun tipindən, növündən asılı olmayaraq həll olunur. Onlar həm də dərsin ümumi didaktik strukturunun komponentləridir (eyni zamanda dərsin əsas mərhələləridir. Dərsin ümumi didaktik strukturu dərslərin təşkilinin ümumi alqoritmi, ümumi təlimatıdır. Bu struktur dərsin metodik strukturunda açılır və konkretləşir. Onun elementləri müəllim və şagirdin müxtəlif fəaliyyət növləridir. Əgər didaktik strukturun komponentlərinin sayı dəyişməzdirsə, metodik altstrukturun elementlərinin sayı dəyişən kəmiyyətdir. Bu dərsin metodik strukturunun müxtəlif variantlarını şərtləndirir. Praktik olaraq bütün fənlər üçün, bütün növ və tip dərslər üçün vahid metodik struktur vermək qeyri-mümkündür. Bu strukturu yalnız model şəklində təsəvvür etmək olar.

Dərsin daxili alt strukturu tədris-idrak prosesini əks etdirən elementlərin elə münasibətlərindən ibarətdir ki, burada tədris-idrak prosesi əldə olunmuş bilik və təcrübənin bərpası və

yeninin mənimsənilməsi prosesi ilə başlanır, sonra məntiqi əməliyyatlarla yeni bilik hasil edilir, anlaşılır, dərk olunur. Ayrı-ayrı xassə, əlamətlərin ümumiləşdirilməsi öyrənilmişləri sistemləşdirməyə imkan verir. Bu proses yeni biliyin köhnə biliklər (əldə olunmuşlar, əxz olunmuş təcrübə) sisteminə daxil olması ilə başa çatır. Bu prosesdə, adətən, tədris-idrak prosesinin elementləri bilavasitə görünmür, hiss olunmur, onlar metodik altstrukturun aşağıdakı elementlərində ifadə olunur: *bərpaetmə*-sorğuda, çalışmalarda və s.; *anlama*–cavabların düzgünlüyündə, sualın qoyuluşunda, mühakimə və məntiqi nəticələrdə, tətbiq qaydalarında və s.; *ümumiləşdirmə*-biliyin hissələrini əlaqələndirməyi bacarmaqda, keçmiş mənimsənilmişlərdə, yeninin yerini müəyyən etmənin düzgünlüyündə və s. Bu elementlərin funksional bağlılığı və onların ardıcıllığı mənimsəmənin ümumi məntiqini determinləşdirir. Onlar şagirdlərin reproduktiv və produktiv fəaliyyət növləri ilə birbaşa bağlıdır. Mənimsəmənin yaradıcı xarakteri produktiv əqli prosesin məntiqi ilə (təlim probleminin qoyuluşu və həlli ilə) bilavasitə əlaqədardır. Odur ki, yaradıcı axtarış fəaliyyəti ilə bağlı təlim prosesinin idarə olunmasında daha bir altstruktur da nəzərə alınmalıdır. Deməli, təlim prosesinin əsas təşkilat formasının metodik strukturunun öz daxili altstrukturları ilə uzlaşması məsələsinin həlli zamanı şagirdin və müəllimin fəaliyyətinin xarakteri, növləri nəzərə alınmalıdır. Şagirdin analitik fəaliyyətinə yönələn metodik struktur, yaradıcı axtarış fəaliyyətinə yönələn metodik strukturla əlaqəli olsa da, bunlar eyniyyət təşkil etmir. Belə ki, şagirdin təlim fəaliyyəti analitik xarakter daşıdığı təqdirdə, metodik struktur mənimsəmə prosesinin ümumi məntiqinə uyğun gəlir, evristik xarakter daşıdıqda isə şagirdin produktiv əqli fəaliyyət strukturu həm didaktik struktur, təhsil, tərbiyə və inkişaf vəzifələri, həm də müəllim və şagirdin fəaliyyət növü ilə müəyyən olunur.

Dərsin strukturunun optimallığı başlıca olaraq aşağıdakı amillərin nəzərə alınmasından asılıdır: a) təlim materialının məzmunu; b) didaktik məqsəd və vəzifələr; c) təlimin metod və vəzifələri; ç) şagirdlərin yaş və fərdi xüsusiyyətləri; d) şagirdlərin öyrənməyə qabillik səviyyəsi.

Nəticə. 1.Təlim materialının məzmunu, təlimin metodları və təşkilat formaları arasında da mövcuddur. Təlimin təşkili formaları, o cümlədən onun əsas təşkilat forması olan dərs təlim prosesinin komponentlərindən biridir. Vahid sistemin komponenti kimi təşkilat forması həmin sistemin digər komponentləri ilə qarşılıqlı münasibətlərə malikdir. Təlim materialının məzmunu və metodları təlimin təşkilat formasına nəzərən məzmundur. Məzmunla forma arasındakı dialektik əlaqə təlim materialının məzmunu, təlim metodları və təşkilat formaları arasında da mövcuddur;

2. Sosial təcrübənin bir hissəsi (bilik, bacarıq və vərdişlər sistemi, yaradıcılıq təcrübəsi, sivilizasiyalı cəmiyyətə məxsus birgəyaşayış normalarının bir sıra obyektiv əsaslara malik kriteriyalarla müəyyənləşdirilən hissəsi) təhsilalan tərəfindən fəaliyyətinin nəticəsi kimi əldə olunur. Odur ki, təlim prosesində idarəetmə subyekti olan müəllim şagirdin həmin təcrübəni mənimsəməyə yönələn (və onun əsasında inkişaf və tərbiyəsini azad insan şəxsiyyəti modelinə yaxınlaşdıran) fəaliyyətini təşkil və idarə edir, o çalışır ki, təhsilalan fəaliyyətinin məqsədini dərk etmiş subyektə çevrilsin; Özünün dərk olunmuş məqsədləri ilə müəllim təlim materialının məzmunu və ona uyğun istifadə etdiyi metodlar vasitəsi ilə təhsilalanın formal-məntiqi və dialektik idrak fəaliyyətini tənzimləyir; Təhsilverən təhsilalanın müstəqil idrak qabiliyyətlərinin və yaradıcılığının inkişafını onun məntiqi və dialektik fəaliyyətinin mümkün və zəruri nisbətdə cərəyan etməsinə istiqamətlənməklə idarə edir;

3. Təlimin təşkilat formalarının, həmçinin onların hər hansı birinin bu və ya digər tipi təhsilalanın alqoritmik və evristik əqli fəaliyyətlərinin vəhdətinə təminat verilməlidir;

4. Təlimin təşkilat formalarının strukturunun mahiyyəti təhsilalanın idrak fəaliyyətinin dialektik və məntiqi formalarının vəhdətinin məqsədəuyğun nisbətini təmin etməyə yönələn tərzləri əmələ gətirir;

5. Təhsilalanların idrak fəaliyyətinin dialektik və məntiqi formalarının vəhdəti, bu fəaliyyət növlərini yerinə yetirərkən onların fəallığının yüksək səviyyəsi dərsin struktur komponentlərinin, altstrukturlarının elementlərinin optimal uzlaşması şəraitində mümkündür. Ona görə ki, yalnız bu halda təhsilalanın müstəqil tədris-idrak fəaliyyətinin idarə olunması imkanı mövcud olur;

6. Dərsin altstrukturları, onların arasındakı münasibətlər bu təşkilat formasının mənsub olduğu sistemin altsistemləri ilə bağlıdır.

**Problemin aktuallığı.** IV sənaye inqilabının çağırışlarına adekvat, səmərə verən mükəmməl təlim konsepsiyası işlənib praktiklərin sərəncamına verilməmişdir. Elə bir konsepsiya ki, təhsilalanların hər birinin potensial imkanlarına uyğun inkişafını sürətləndirməyin nəzəri və praktik yollarını tam şəkildə açıb göstərmiş olsun. Bu sistem təhsilalanların təlim fəaliyyətinin elə təşkili və idarə olunmasından ibarətdir ki, o, bəşərin sosial təcrübəni əldə etmək, onu qoruyub saxlamaq və yaradıcılıqla inkişaf etdirməyə yönələn fəaliyyət təcrübəsinə istinad etməlidir. Belə bir fəaliyyət analitik və evristik növlərin müəyyən nisbətini ehtiva etməli, onu özündə saxlamalıdır. Analitik və evristik fəaliyyətin optimal münasibətlərini o təlim sistemi ehtiva edir ki, o təhsilalan mərkəzli əlamətə malik olur. Təlim prosesində belə bir mühitin mövcudluğu onun təşkilat formasının altstrukturların (xarici və daxili strukturların) məntiqi bağlılığından, hər bir altstrukturun elementlərinin seçilməsindən və bu elementlərin funksiyalarının reallaşma səviyyəsindən asılıdır. Söylənilənlərə rəğmən iddia edirik ki, "Yeni pedaqoji təfəkkür işığında təhsilalan mərkəzli təlimin əsas təşkilat formasının xüsusiyyətlərinin interpretasiyası" IV sənaye inqilabının çağırışlarına müvafiq təhsilin həyata keçirilmə yolu kimi dərk edilən təhsilalan mərkəzli təlim prosesinin formalaşdırılması problemin həllinə yönələn aktual tədqiqat məsələsidir.

**Problemin elmi yeniliyi.** 1) IV sənaye inqilabının çağırışlarına müvafiq formalaşması zəruri sayılan təhsilin həyata keçirilmə yolu kimi dərk edilən təlim prosesi təhsilalan mərkəzli olmalıdır, hansı ki, sözügedən proses yeni pedaqoji təfəkkür əsasında reallaşa bilər; 2) Təhsilalan mərkəzli təlimin mövcudluq şərtlərindən biri hesab olunan təhsilalanın analitik və evristik fəaliyyətin optimal münasibətlərinin tənzimlənməsi mühitinin mövcudluğu onun təşkilat formasının altstrukturlarının (xarici və daxili strukturların) məntiqi bağlılığından, hər bir altstrukturun elementlərinin seçilməsindən və bu elementlərin funksiyalarını reallaşdıra bilməsi səviyyəsindən asılıdır;

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** İnanırıq ki, tədqiqat prosesində əldə olunan elmi yeniliklərə istinad olunması praktik pedaqoqun fəaliyyətinin (təlim prosesinin təşkil və idarə olunması üzrə fəaliyyətinin) səmərəliliyinə müsbət təsir edəcəkdir.

**Ədəbiyyat**

1. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqoqika, 2004, 432 s.

2. Махмутов М.И. Теория и практика проблемного обучения. Казань^ Татарское книжное издательство, 1972, 551 с.

3. Богоявленский Д.Н. и Менчинская Н.А. Психология усвоения знаний в школе. М.: Изд-во АПН РСФСР, 1960, 316 с.

4. Костюк Г.С. Вопросы психология мышления. В кн. «Психологическая наука в СССР» т.1 М.: Изд-во АПН РСФСР, 1959, 416 с.

5. Эльконин Д.Б. Интеллектуальные возможности младших школников и содержание обучения. В сб. «Возрастные возможности усвоения знаний, под ред. Д.Б. Элконина и В.В.Давыдова. М.: Просвещение, 1966. 312 с.

6. Гальперин П.Я. Развитие исследований по формированию умственных действий. В кн.: «Психологическая наука в СССР», част I, М.: Изд-во АПН РСФСР, 1959, 468 с.

7. Kazımov N.M., Haşmov Ə. Ş. Pedaqogika, Bakı: Maarif, 1996, 416 s.

8. Леонтьев А.Н. Мышление. «Вопросы философии», 1967, №1

9. Лингарт Й. Процесс и структура человеческого учения. М.: Прогресс, 1970, 571с.

10. Mehdizadə M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı: Maarif, 1982, 382 s.

11. İbrahimov F.N. Təlimdə alqoritmik və evristik fəaliyyətin optimal nisbətlərinin əsaslarına dair oçerklər (monoqrafiya). Bakı: Mütərcim, 1998, 398 s.

12. Скаткин М.Н. Активизасия познавательной деятельности учащихся // Народное образование, 1966, № 1.

13. Əhmədov B.A. Pedaqogikadan mühazirə konspektləri. Bakı: Maarif, 1983, 352 s.

14. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010, 516 s.

15. Abbasov A.N., Məmmədzadə R.R., Məmmədli L.A. Pedaqogika: Müntəxəbat (Ali təhsil müəssisələri üçün dərs vəsaiti). Bakı: "Mütərcim", 2021, 608 s.

16. Есипов Б.П. Самостоятельная работа учащихся на уроке. М.: Учпедгиз, 1961, 412 с.

17. Махмутов М.И. Современный урок. Вопросы теории. М.: Педагогика, 1981, 192 с.

18. Флеминг Э. Структура проблемного урока // Народное образование, 1966, № 6.

**Ф.Н. Ибрагимов В.А. Абдурахманов**

**Интерпретация особенностей основной формы организации образовательно-ориентированного обучения в свете нового педагогического мышления**

**Резюме**

В статье подчеркивается на необходимости формирования нового педагогического мышления и обрашает внимание на том, что благодаря успешным исследованиям психологов и педагогов закладываются основы этого процесса-формирования нового педагогического мышления. Даны научно-педагогические комментарии к некоторым

концепциям, рассуждения, основанные на содержательных аргументах, которые внесли вклад в формирование нового педагогического мышления. В работе интерпретируются специфические особенности основной организационной формы процесса-урока, который содержит оптимальные отношения адекватного, образовательно-ориентированного обучения, аналитической и эвристической деятельности к вызовам IV промышленной революции, сформировавшейся в свете нового педагогического мышления.

**F.N. İbrahimov, V.A. Abdurahmanov**

**Teacher-centered learning in the light of new pedagogical thinking interpretation of the characteristics of the basic organizational form**
**Summary**

The article emphasizes the need to form a new pedagogical thinking, and thanks to successful research by psychologists and teachers, attention is focused on creating a basis for the formation of this process - new pedagogical thinking. Scientific and pedagogical comments are given on some concepts and considerations based on fundamental arguments that contributed to the formation of new pedagogical thinking. This work interprets the features of the basic organizational form of the process, including optimal ratios of analytical and heuristic activities, adequate to the associations of the IV industrial revolution, formed in the light of new pedagogical thinking.

**Redaksiyaya daxil olub:** 19.02.2025

*UOT 37.01*

# TƏHSİL CƏMİYYƏTİN İNKİŞAFININ ƏSASI KİMİ

**Fəridə Poladxan qızı Poladxanlı**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0007-2423-8864
**E-mail:** feride06011991@gmail.com

***Açar sözlər:*** *təhsil, əsas istiqamətlər, rəqəmsallaşma, inteqrasiya, təhsildə inkluzivlik, bacarıqlar, davamlı inkişaf.*
***Ключевые слова:*** *образование, основные направления, цифровизация, интеграция, инклюзивность в образовании, навыки, устойчивое развитие*
***Key words:*** *education, main directions, digitization, integration, inclusiveness in education, skills, sustainable development*

Təhsil, ictimai tərəqqinin əsas sütunu kimi, daim dəyişən dünyanın tələblərinə cavab vermək üçün davamlı olaraq inkişaf etmişdir. Müasir dövrdə təhsilin inkişafı texnoloji tərəqqidən və qloballaşmadan tutmuş dəyişən ictimai ehtiyaclara və təhsil islahatlarına qədər bir çox amillərlə formalaşmışdır. Bu araşdırmamızda rəqəmsallaşma, inklüzivlik, səriştə əsaslı öyrənmə, ömür boyu öyrənmə, qlobal vətəndaşlıq təhsili və davamlılığa diqqət yetirməklə müasir cəmiyyətdə təhsilin inkişafının əsas istiqamətlərini qruplaşdırmağa çalışacağıq.

Müasir təhsildə ən mühüm tendensiyalardan biri texnologiyanın tədris və təlim prosesinə inteqrasiyasıdır. Rəqəmsal inqilab ənənəvi təhsil metodlarını dəyişdirərək daha fərdiləşdirilmiş, interaktiv və əlçatan öyrənmə təcrübələrini təmin etdi. Onlayn platformalar, təhsil proqramları və rəqəmsal resurslar hər yerdə yayılıb, şagirdlərə və müəllimlərə vaxt və məkan məhdudiyyətlərindən kənarda əlaqə saxlamağa imkan verir.

Elektron təhsil, hibrid öyrənmə modelləri və virtual sinif otaqları xüsusilə rəqəmsal vasitələrin qəbulunu sürətləndirən COVID-19 pandemiyasından sonra ön plana çıxdı. Süni intellektin və məlumat analitikasının təhsildə istifadəsi də artmaqdadır, süni intellektə əsaslanan adaptiv öyrənmə sistemləri fərdi şagird performansına əsaslanan fərdiləşdirilmiş təlim yollarını təmin edir. Bundan əlavə, virtual və genişlənmiş reallıq kimi oyunlaşdırma və müxtəlif texnologiyaların birləşdirilməsi öyrənməni daha cəlbedici və effektiv etdi.

Təhsildə rəqəmsallaşmanın rolu təhsil müəssisələrinin fəaliyyətini və icmaları ilə qarşılıqlı əlaqəsini əsaslı şəkildə dəyişdirərək sinifdən kənara çıxır. İnzibati proseslər qeydiyyat, davamiyyətin izlənməsi və qiymətləndirmə üçün rəqəmsal alətlərin istifadəsi ilə daha sadələşdirilmişdir. Bundan əlavə, rəqəmsal kitabxanaların və açıq təhsil resurslarının mövcudluğu biliyə çıxışı demokratikləşdirərək, şagirdlərə və pedaqoqlara əvvəllər fiziki kitabxanalarla və ya bahalı dərsliklərlə məhdudlaşan çoxlu məlumatı araşdırmaq imkanı verib. Rəqəmsal transformasiya həm də dünyanın müxtəlif yerlərindən olan şagirdlərin layihələr üzərində əməkdaşlıq edə, ideyaları bölüşə və müxtəlif perspektivlər qazana bildiyi qlobal öyrənmə şəbəkələrinin yaradılmasına imkan yaradıb və bununla da daha bir-biri ilə əlaqəli və mədəni cəhətdən məlumatlı şagird korpusunu gücləndirib.

Təhlükəsiz və inklüziv rəqəmsal təhsil mühitinin yaradılması üçün bütün şagirdlərin texnologiyaya bərabər çıxışının təmin edilməsi, onların şəxsi məlumatlarının qorunması və kibertəhlükələrdən qorunma vacibdir. Üstəlik, texnoloji dəyişikliyin sürətli tempi texnologiyanı öz tədrislərinə effektiv şəkildə inteqrasiya etmək üçün ən son alətlər və üsullardan xəbərdar olmalı olan pedaqoqların davamlı peşəkar inkişafını tələb edir. Rəqəmsallaşmayla davam edən bu uyğunlaşma təhsilin keyfiyyətini və əlçatanlığını artırmaq üçün onun problemlərini həll edərkən texnologiyanın üstünlüklərindən istifadə edən balanslaşdırılmış yanaşma ehtiyacını vurğulayır.

Müasir təhsil getdikcə daha çox inklüzivliyin və bərabərliyin təmin edilməsinə, müxtəlif fonlardan olan öyrənənlərin müxtəlif ehtiyaclarına yönəldilmişdir. Əsas diqqət sosial-iqtisadi statusundan, fiziki və ya idrak qabiliyyətindən, cinsindən, irqindən və etnik mənsubiyyətindən asılı olmayaraq hamı üçün əlçatan olan təhsil mühitinin yaradılmasına yönəlib. Bu istiqamət öyrənmə qarşısındakı maneələri aradan qaldırmaq və hər bir şagirdin uğur qazanmaq imkanını təmin etmək məqsədi daşıyan inklüziv təhsil siyasətlərinə qlobal təkanla öz əksini tapır.

Həmçinin təhsildə inklüzivlik və bərabərliyə doğru addım sosial ədalətlə sıx bağlıdır. Təhsil sosial bərabərliyi təşviq etmək, bərabərsizliyi azaltmaq və fərdlərə cəmiyyətdə tam iştirak etmək üçün səlahiyyət vermək üçün güclü bir vasitə kimi qəbul edilir. Mənşəyindən asılı olmayaraq bütün şagirdlərin keyfiyyətli təhsilə çıxışını təmin etməklə, təhsil müəssisələri yoxsulluq dövrəsinin qırılmasında, stereotiplərə qarşı mübarizədə və daha ədalətli cəmiyyətin təşviqində mühüm rol oynaya bilər. Təhsilin bu transformativ potensialı müasir təhsilin inkişafının mərkəzi sütunları kimi inklüzivliyin və bərabərliyin vacibliyini vurğulayır.

Yekun olaraq, təhsildə inklüzivliyə və bərabərliyə diqqət yetirilməsi təhsil müəssisələrinin tədris və öyrənməyə yanaşma tərzini yenidən formalaşdırır, bütün şagirdlərin inkişaf edə biləcəyi mühitlər yaratmağa çalışır. İnklüziv təcrübələrin, mədəni cəhətdən həssas tədrisin, məqsədyönlü müdaxilələrin və dəstəkləyici siyasətlərin qəbulu vasitəsilə müasir təhsil hər bir şagirdin uğur qazanmaq və daha ədalətli  cəmiyyətə töhfə vermək imkanına malik olmasını təmin etmək üçün çalışır.

Bacarıqlara əsaslanan təhsil müəyyən edilmiş tədris saatlarının tamamlanması ilə bağlı xüsusi bacarıq və biliklərin mənimsənilməsini vurğulayaraq, ənənəvi vaxta əsaslanan təhsil modellərindən əhəmiyyətli dərəcədə uzaqlaşmanı təmsil edir. Bu yanaşma şagirdlərə sərt akademik cədvələ bağlı olmaqdansa, xüsusi səriştələr üzrə bacarıq nümayiş etdirərək irəliləyərək öz sürətləri ilə irəliləməyə imkan verir. Nəticə etibarı ilə o, daha çevik, fərdiləşdirilmiş və nəticəyə yönəlmiş, xüsusilə günümüzün müxtəlif öyrənənlərinin ehtiyaclarına və sürətlə dəyişən işçi qüvvəsinin tələblərinə uyğun gələn təhsil modeli kimi diqqəti cəlb edir.

Bu təhsil yanaşmasının əsas prinsiplərindən biri onun aydın şəkildə müəyyən edilmiş təlim nəticələrinə yönəlməsidir. Bu çərçivədə şagirdlərin mənimsəmələri gözlənilən səlahiyyətlər əvvəldən açıq şəkildə ifadə edilir. Bu səriştələr çox vaxt şagirdlərin gələcək karyeralarına və ya şəxsi inkişaf məqsədlərinə birbaşa tətbiq olunan real dünya bacarıqları ilə uyğunlaşdırılır. Təlim məqsədlərini aydın və ölçülə bilən etməklə, bu model həm şagirdlərin, həm də müəllimlərin uğurun nədən ibarət olduğu barədə ümumi anlayışa malik olmasını təmin edir, daha məqsədyönlü və effektiv təlimata imkan verir.

Bu modelə xas olan çeviklik onun müəyyənedici xüsusiyyətlərindən biridir. Şagirdlərdən tez-tez vahid sürətlə təhsil kursunda irəliləyiş tələb edən ənənəvi təhsil modellərindən fərqli

olaraq, bu yanaşma öyrənənlərə fərdi öyrənmə ehtiyaclarına uyğun gələn sürətlə materialda hərəkət etməyə imkan verir. Konsepsiyaları tez qavrayan şagirdlər öz öyrənmələrini sürətləndirə, potensial olaraq proqramları adi şəraitdə olduğundan daha tez tamamlaya bilərlər. Əksinə, müəyyən səriştələrə yiyələnmək üçün daha çox vaxta ehtiyacı olan şagirdlər müəyyən edilmiş cədvələ əməl etmək təzyiqi olmadan lazımi vaxtı ala bilərlər.

Bu təhsil növündə qiymətləndirmə də ənənəvi modellərdən əsaslı şəkildə fərqlənir. Test ballarının, iştirakın və digər amillərin qarışığını əks etdirən qiymətlərə etibar etmək əvəzinə, qiymətləndirmələr hər bir səriştənin mənimsənilməsini ölçmək üçün xüsusi olaraq tərtib edilir. Bu qiymətləndirmələr qiymətləndirilən səriştənin xarakterindən asılı olaraq layihələr, praktiki nümayişlər, imtahanlar və ya portfoliolar daxil olmaqla müxtəlif formalarda ola bilər. Əsas odur ki, qiymətləndirmə şagirdin sözügedən bacarıq və ya biliyə həqiqətən yiyələnməsini təmin etmək üçün kifayət qədər ciddi olmalıdır. Bir çox hallarda qiymətləndirmələr şagirdlərə peşəkar həyatlarında qarşılaşacaqları çətinlikləri əks etdirən kontekstlərdə öz səriştələrini nümayiş etdirmək imkanları təqdim edərək, real dünya tapşırıqlarını simulyasiya etmək üçün nəzərdə tutulub.

Təhsilə bu yanaşma işəgötürənlərin ənənəvi akademik etimadnamələrdən daha çox bacarıq və səriştələrə üstünlük verdiyi bugünkü iş bazarı kontekstində xüsusilə aktualdır. Bir çox sənaye sahələrində texnoloji dəyişikliklərin sürəti o deməkdir ki, uğur qazanmaq üçün lazım olan bacarıqlar sürətlə inkişaf edir və təhsil müəssisələrində işin öhdəsindən gəlməyə hazır olan məzunlar yetişdirmək üçün təzyiqlər var. Praktik, işə uyğun kompetensiyalara diqqət yetirməklə, bu model şagirdlərin təkcə nəzəri anlayışları öyrənmələrini deyil, həm də seçdikləri sahələrdə uğurlu olmaq üçün lazım olacaq bacarıqları inkişaf etdirmələrini təmin edir.

Bundan əlavə, bu təhsil yanaşması daha fərdiləşdirilmiş və uyğunlaşdırılmış öyrənmə təcrübələri təqdim etməklə təhsildə ədalətlilik məsələlərini həll etmək potensialına malikdir. Ənənəvi təhsil modelləri çox vaxt adi sinif mühitində inkişaf edən şagirdlərə üstünlük verir, lakin bu çevik yanaşma müxtəlif şagirdlərin ehtiyaclarını ödəmək üçün uyğunlaşdırıla bilən daha fərdiləşdirilmiş təlimata imkan verir. Bu fərdiləşdirilmiş yanaşma ənənəvi təhsildən kifayət qədər yararlana bilməyən, məsələn, öyrənmə əlilliyi olan şagirdlər və ya hər kəsə uyğun bir təhsil sistemində mübarizə aparan şagirdlər üçün xüsusilə faydalı ola bilər. Proseslərə deyil, nəticələrə diqqət yetirməklə, bu model uğura daha əhatəli və ədalətli yol təqdim edə bilər.

Davamlı inkişaf üçün təhsil XXI əsrin aktual ekoloji, sosial və iqtisadi çağırışlarını həll etmək üçün öyrənənləri zəruri bilik, bacarıq, dəyərlər və münasibətlərlə təchiz etmək üzrə qlobal öhdəliyi əks etdirən müasir təhsilin mühüm komponenti kimi meydana çıxdı. Bu yanaşma təkcə ekoloji təhsillə bağlı deyil; bu, ekoloji bütövlüyün, sosial ədalətin və iqtisadi səmərəliliyin qarşılıqlı asılılığını əhatə edən və davamlı təcrübələrdə məsuliyyət hissini və fəal iştirakını inkişaf etdirməyi hədəfləyən vahid çərçivədir. Cəmiyyətlər iqlim dəyişikliyi, resursların tükənməsi və qeyri-bərabərlik kimi getdikcə daha mürəkkəb problemlərlə üzləşdikcə, bu sahədə təhsil gələcək nəsillərin davamlı düşünmək və hərəkət etmək üçün formalaşmasında mühüm vasitə kimi qiymətləndirilir.

Davamlı inkişaf üçün təhsilin əsas aspektlərindən biri onun tənqidi düşüncəyə və problemlərin həllinə önəm verməsidir. Şagirdlər real dünya problemləri ilə məşğul olmağa, onları müxtəlif nöqteyi-nəzərdən təhlil etməyə və həm insanlara, həm də planetə uzunmüddətli

təsirləri nəzərə alan innovativ həllər hazırlamağa təşviq edilir. Bu yanaşma ənənəvi kurikulumdan kənara çıxır, davamlılığı elm və riyaziyyatdan tutmuş humanitar və sosial elmlərə qədər bütün təhsil sahələrinə inteqrasiya edir. Davamlılığı intizamlar arası mövzuya çevirməklə, pedaqoqlar şagirdlərin istər şəxsi həyatlarında, istər gələcək karyeralarında, istərsə də qlobal vətəndaş kimi müxtəlif kontekstlərdə davamlı prinsipləri tətbiq edə bilmələrini təmin etməyi hədəfləyirlər.

Bu təhsil yanaşmasının digər əsas komponenti onun dəyərlərə və etikaya diqqət yetirməsidir. Şagirdlərə davamlılıq haqqında öyrətmək ətraf mühitə və digər insanlara qayğı hissi aşılamağı əhatə edir. Bu əlaqələri vurğulamaqla, davamlı inkişaf üçün təhsil təkcə davamlılıq məsələləri haqqında məlumatlı deyil, həm də etik seçimlər etməyə və daha ədalətli dünyaya töhfə verməyə sadiq olan fərdlər nəslini yetişdirməyə çalışır.

Davamlı inkişaf üçün təhsil tənqidi düşüncə və etikaya diqqət yetirməklə yanaşı, ömür boyu öyrənmənin vacibliyini də vurğulayır. Davamlılıq problemləri dinamik və inkişaf edəndir, fərdlərdən öz bilik və bacarıqlarını daim yeniləməyi tələb edir. Bu yanaşma şagirdləri ömürboyu öyrənmə düşüncə tərzini mənimsəməyə təşviq edir, burada onlar həmişə yeni məlumatlar axtarırlar, qlobal tendensiyalar haqqında məlumatlı olurlar, ətraf mühit və cəmiyyətdəki dəyişikliklərə uyğunlaşırlar. Bu davamlı öyrənmə, gələcəyin qeyri-müəyyənliklərini idarə etmək və həyatları boyu davamlı inkişafa töhfə vermək üçün lazım olan möhkəmliyi inkişaf etdirmək üçün vacibdir.

Bundan əlavə, davamlı inkişaf üçün təhsil şagirdlərə öz əhatələrində fəaliyyət göstərməyə imkan verən fəal, iştirakçı öyrənmə üsullarını təşviq edir. Bu, çox vaxt layihə əsaslı öyrənməni əhatə edir, burada şagirdlər icma bağları, tullantıların azaldılması təşəbbüsləri və ya enerjiyə qənaət kampaniyaları kimi nəzərəçarpacaq təsirə malik davamlılıq layihələri üzərində işləyirlər. Təcrübəli fəaliyyətlərlə məşğul olmaqla, şagirdlər davamlılığın nəzəri aspektlərini deyil, həm də bu anlayışları praktiki, real dünya vəziyyətlərində necə tətbiq etməyi öyrənirlər. Bu təcrübi öyrənmə davamlılığın əhəmiyyətini gücləndirməyə kömək edir və fərdi və kollektiv fəaliyyətlərin müsbət dəyişikliyə necə töhfə verə biləcəyini nümayiş etdirir.

Davamlı inkişaf üçün təhsildə texnologiyanın inteqrasiyası da mühüm rol oynayır. Rəqəmsal alətlər və onlayn platformalar şagirdlərə davamlılıq məsələləri ilə bağlı zəngin məlumat və resurslara çıxış, eləcə də dünya üzrə həmyaşıdları, ekspertlər və təşkilatlarla əlaqə yaratmaq imkanlarını təmin edir. Texnologiya həmçinin şagirdlərə idarə olunan mühitdə mürəkkəb davamlılıq ssenarilərini araşdırmağa imkan verən simulyasiyalar və virtual reallıq təcrübələri kimi innovativ tədris metodlarını asanlaşdıra bilər. Bu texnoloji irəliləyişlər öyrənmə təcrübəsini artırır və şagirdləri davamlılığı təşviq etmək səylərində rəqəmsal vasitələrdən istifadə etməyə hazırlayır.

Bununla belə, davamlı inkişaf üçün təhsilin həyata keçirilməsi bir sıra problemlər yaradır. Əsas maneələrdən biri bütün fənlər üzrə davamlılıq prinsiplərini effektiv şəkildə özündə birləşdirən müəllim hazırlığına və kurikulumun hazırlanmasına ehtiyacdır. Bir çox pedaqoqlar bu anlayışları öyrətmək üçün lazımi məlumat və ya resurslara malik olmaya bilər ki, bu da peşəkar inkişafı və dəstəyi vacib edir. Bundan əlavə, erkən uşaqlıq dövründən tutmuş ali təhsilə qədər bütün səviyyələrdə davamlılığı prioritetləşdirən təhsil siyasəti və çərçivələrinə

ehtiyac var. Davamlılığın təhsil standartlarına və qiymətləndirmələrinə daxil edilməsinin təmin edilməsi davamlılığın tədrisinə ardıcıl və hərtərəfli yanaşma üçün vacibdir.

Onu da qeyd etmək lazımdır ki, müasir dövrdə ölkəmizdə aparılan təhsil islahatları respublikamızda təhsilin inkişafı üçün geniş perspektivlər açır. Azərbaycan təhsili milli zəmin üzərində qurulmaqla, eyni zamanda Avropaya, dünya təhsil məkanına inteqrasiya edilir.

**Problemin aktuallığı.** Müasir dövrdə cəmiyyətin inkişafının əsas amili təhsilin inkişafının aktuallığıdır. Elektron təhsil, hibrid öyrənmə modelləri və virtual sinif otaqları xüsusilə rəqəmsal vasitələrin qəbulunu sürətləndirən COVID-19 pandemiyasından sonra ön plana çıxdı və rəqəmsal öyrənmə modellərini aktuallaşdırdı.

**Problemin yeniliyi.** Süni intellekt, məlumat analitikasının artması və hibrid təhsilin əlçatanlığı təhsildə yeni yanaşmalardan biridir, süni intellektə əsaslanan adaptiv öyrənmə sistemləri fərdi şagird performansına əsaslanan fərdiləşdirilmiş təlim yollarını təmin edir. Bundan əlavə, virtual və genişlənmiş reallıq kimi oyunlaşdırma və müxtəlif texnologiyaların birləşdirilməsi öyrənməni daha cəlbedici və səmərəli etdi.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Təhsil, ictimai tərəqqinin əsas sütunu kimi, daim dəyişən dünyanın tələblərinə cavab vermək üçün davamlı olaraq inkişaf etmişdir. Müasir təhsildə ən mühüm tendensiyalardan biri texnologiyanın tədris və təlim prosesinə inteqrasiyasıdır. Rəqəmsal inqilab ənənəvi təhsil metodlarını dəyişdirərək daha fərdiləşdirilmiş, interaktiv və əlçatan öyrənmə təcrübələrini təmin etdi.

## Ədəbiyyat

1. Abbasov Ə.M. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri // Kurikulum, 2008, №1, s. 31-37.

2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. “Azərbaycan müəllimi” qəzeti, 2013, 25 oktyabr, № 41.

3. Bovens M., Zouridis S. From street-level to system-level bureaucracies: How information and communication technology is transforming administrative discretion and control. Public Administration Review, 2002, s. 174-184.

4. Balcı, A. Eğitimde Etkili Liderlik. Pegem Yayınları, 2007.

5. Başar, H. Eğitim Denetçileri ve Yönetimi. Pegem Akademi, 2013.

**Ф.П. Поладханлы**

## Образование как основа развития общества
## Резюме

Развитие образования в наше время определяется многими факторами: от технического прогресса и глобализации до изменения потребностей общества и образовательных реформ. Кроме того, движение к инклюзивности и равенству в образовании тесно связано с социальной справедливостью. Образование рассматривается как мощный инструмент для содействия социальному равенству,

сокращения неравенства и предоставления людям возможности полноценно участвовать в жизни общества.

**F.P. Poladkhanlı**

**Education as the basis of society's development**

**Summary**

The development of education in our time is determined by many factors: from technical progress and globalization to changes in the needs of society and educational reforms. Also, the move towards inclusion and equality in education is closely related to social justice. Education is seen as a powerful tool to promote social equality, reduce inequality and empower individuals to participate fully in society.

**Redaksiyaya daxil olub:** 13.03.2025

*UOT 37.*

# PEDAQOJİ VƏ PSİXOLOJİ TƏDQİQATLARDA "İDRAKİ MARAQ" MƏFHUMUNUN MAHİYYƏTİNƏ DAİR MÜLAHİZƏLƏR

**Lalə Malik qızı Bayramova**
*Gəncə Dövlət Universiteti Ümumi pedaqogika kafedrasının dissertantı*
**ORCİD:** 0009-0001-1273-1869
**E-mail:** lala.bayramova2013@mail.ru

***Açar sözlər:*** *pedaqoji və psixoloji tədqiqatlar, idraki maraq, idrak fəaliyyətinin aktivləşdirilməsi, idrakın hərəkətverici və tənzimləyici imkanları, insan psixikası, fəaliyyət mexanizmi.*

***Ключевые слова:*** *педагогические и психологические исследования, познавательный интерес, активизация познавательной деятельности, движущие и регулятивные возможности познания, психика человека, механизм действия.*

***Key words:*** *pedagogical and psychological research, cognitive interest, activation of cognitive activity, driving and regulatory capabilities of cognition, human psyche, mechanism of action.*

"Maraq" anlayışı fəlsəfi, sosioloji, psixoloji və pedaqoji elmlər baxımından tədqiqatçılar tərəfindən müxtəlif prizmalardan şərh edilir.

Fəlsəfədə "maraq" anlayışı cəmiyyətin müxtəlif sahələrinə və fərdin fəaliyyətinə nüfuz edən tələbat və dəyərlərlə əlaqələndirilir. Fəlsəfə elmi təsdiqləyir ki, insanın maraqları nə qədər müxtəlifdirsə, onların həyatı daha geniş şəkildə elm, incəsənət, texnika və mədəniyyətlə ifadə olunan cəmiyyətdə öz əksini tapır.

Sosiologiya elmi nöqteyi-nəzərdən, maraq sahəsi cəmiyyətin və insanın sosial, etik və estetik həyatına aiddir. Sosiologiya elmi nöqteyi-nəzərindən, – maraq –"bu, tam-ümumi bir ifadədir, insan şüurunda ümumbəşəri mədəniyyətin, maddi və mənəvi dəyərlərin məcmusudur, insanın daxili aləminin təzahürü və real aləmin əks olunmasının tam ifadəsidir. Maraq insanın arzu və meyllərinin obyekti olub, şəxsi və ictimai dəyərlərin birləşməsinə kömək edir" [7, s.18-34].

Böyük Sovet Ensiklopediyasında "maraq (sosial mənada) fərdlərin, sosial qrupların, siniflərin hərəkətlərində iştirak edən birbaşa impulslar, motivlər, düşüncələr, fikirlər və s. arxasında duran sosial hərəkətlərin, hadisələrin, nailiyyətlərin əsl səbəbi hesab olunur". Q.Y. Qlezermanın fikrincə [9], bu səbəbdən XX əsr sosiologiyasının mərkəzi məsələlərindən birini marağın obyektiv - subyektiv xarakteri, insanların real maraqları və bu maraqlarla bağlı təsəvvürlərin fərqləndirilməsi təşkil edir.

Bir sıra ensiklopedik nəşrlərdə pedaqoji elm kontekstində marağın müxtəlif tərifləri verilir. Təriflərin təhlili bizi marağın ən vacib cəhətlərini vurğulamağa məcbur edir. Bir tərəfdən maraq - gerçəkliyin daha dərindən əks olunmasına kömək edən idraki tələbatların təzahür formasıdır. Ali pedaqoji məktəblər üçün son dövrdə yazılmış ən möhtəşəm "Pedaqogika" dərsliyində idrak və təlim məsələlərini [1, s.259-262] müzakirə edərkən, müəlliflər prof. A.N. Abbasov və prof. H.Ə. Əlizadə xüsusi olaraq vurğulayırlar ki, "idraki proses dedikdə, obyektiv gerçəkliyin insan beynində subyektiv inikası nəzərdə tutulur. Burada işlənən subyektiv inikas (dərketmə) ifadəsi gerçəkliyin dərk olunması prosesinin insanın bilik və inkişaf səviyyəsindən, yaş və fərdi xüsusiyyətlərindən, həyat təcrübəsindən, münasibətlər

sistemindən və s. asılı olduğunu bildirir" [1, s.159]. Digər tərəfdən, prof. Ə.Ə. Əlizadənin qeyd etdiyi kimi, "bilikləri mənimsəmək və dünyagörüşü genişləndirməyin ən vacib stimullardan biri kimi, obyektin dərk olunması və hər hansı fəaliyyətin mənimsənilməsi üçün müsbət emosional çalarlarla bağlı olan, bu və ya digər əşyaya, real hadisəyə yönəlmiş idraki istiqamətdir" [2, s.166].

Psixoloji elm baxımından "maraq" anlayışının izahı bir neçə mövqeyi birləşdirir. Və marağın ən əsas şərhlərindən biri şəxsiyyətin bir obyektə xüsusi fərqləndirici münasibəti, şəxsiyyətin yönəldilməsidir. Bununla yanaşı, marağa şəxsiyyətin emosional və intellektual sahələri ilə əlaqəsi də xasdır.

"İdrak fəaliyyətinin inkişafı üzrə psixoloji tədqiqatlar" [8] adlı əsərdə D. Freyerin, Ş. Byullerin, E. Torndaykın fikirləri təhlil edilir, burada "maraq" anlayışı müxtəlif hisslərin aktivatoru kimi, insanın ehtiyac və özünəməxsus duygulardan ibarət struktur kimi, oyanış hissi, zehni həyacan, əsyaya cazibə kimi təqdim olunur.

Ə.İ. Anastasiyevanın məqaləsində [4] maraq şəxsiyyətin şüur və fəaliyyətini artıran emosional – iradi və intellektual proseslərin xüsusi bir qarışığı kimi ortaya çıxır. Şəxsiyyətin maraqları ilə bağlı analoji təsəvvürlərə V.N. Myasişevin və A.Q. Kovalyovun tədqiqatlarında da rast gəlirik. Bu işlərdə maraq, gerçəkliyə aktiv idraki münasibət kimi, insanın bir obyektə özünəməxsus münasibəti kimi, onun həyati əhəmiyyətinin və emosional cəlbediciliyinin dərk edilməsi kimi xarakterizə olunur.

Bu şərhlərin fərqli cəhətləri ilə yanaşı bəzi istiqamətlərdə onların müştərəkliyi də vardır. Məsələn, marağın müxtəlif psixoloji proseslərlə əlaqəsi (emosional, intellektual, tənzimləmə), onun şəxsiyyətin formalaşmasına, əlaqələrə, ehtiyaclara, şəxsiyyət yönümünə, şüur və fəaliyyət proseslərinə daxil edilməsi.

Marağın mahiyyətinin açıqlanması ilə bağlı müxtəlif araşdırmalarda onun meydana gəlməsinin ilə bağlı fərziyyələr irəli sürülmüşdür. Onların əsasında aparıcı rol müxtəlif psixi proseslərin ideyası dururdu: emosional - tənzimləyici və intellektual.

Psixologiyada marağın ayrı bir tədqiqat probleminə ayrılması XVII əsrə, insanın öyrənilməsində ona bir şəxsiyyəti kimi müraciət olunmağa başlandığı vaxta təsadüf edir. Uşaq şəxsiyyətinin tərbiyəsinə böyük əhəmiyyət verən xarici psixoloqlar, fərqli dövrlərdə marağın zəka, emosiya və iradə ilə əlaqəli bir sıra fərziyyələr irəli sürmüşlər. "İdrak fəaliyyətinin inkişafı üzrə psixoloji tədqiqatlar"da intellektual nəzəriyyə nümayəndəsi olan İ.F. Herbart tərəfindən marağın qiymətləndirilməsini tapırıq. O, şəxsin marağını "mənəvi aktivliyi" vəziyyəti ilə müqayisə edir, onu zehni fəaliyyət kimi anlayır və qeyri-ixtiyari diqqət kimi müəyyənləşdirir. Bu nəzəriyyədəki şüur və təşəbbüsün daşıyıcıları şüur qazanan və itirən fikirlərdir. Maraq Herbart tərəfindən "özfəaliyyət" adlandırılır [8, s.18], bu isə fikirlərin müstəqilliyi kimi başa düşülməlidir. Maraqlar şüur həddindən çox olduqda, yaranmış vəziyyət intensiv, aydın, ayrı-ayrı olur. Ancaq S.A. Ananin hesab edir ki, bu nəzəriyyə "atomist və əsassızdır" [4, s.27]. Sonra, S.A. Ananində [4] valyuntarist maraq nəzəriyyəsi (valyuntarizm) tərəfdarlarının P. Natorpun, A. Valzemanın, O. Vilmanın, P. Kapterevin ifadələrinə rast gəlirik ki, burada marağı onlar iş zamanı diqqəti cəmləşdirən xüsusi bir iradi vəziyyət olaraq qiymətləndirirlər. Həm də orada XX əsrin mütəfəkkirlərinin V. İeruzalemanın, A. Şopenhauerin, F. Paulsenin, T. Lippsin fikirləri təqdim olunur. Öz baxışlarında onlar, marağı duyğu, hiss və iradi sərbəstlik ilə əlaqələndirirlər. V. İeruzaleman yazır: "Maraq - zövq

duyğusudur, xüsusi bir hissi meyldir" [4, c.12-14].

Q.İ. Şukinanın redaktoru olduğu "Təhsildə marağın formalaşmasının aktual problemləri" əsərində U. Jemsin "Psixologiya haqqında müəllimlərlə söhbətlər" kitabından müəyyən fikirlər verilir. Burada maraq instinktlərlə əlaqələndirilir, müəyyən stimullara qarşı onlarda anadangəlmə reaksiyaların olması kimi nəzərdən keçirirlir. Onun fikrincə, istedad və qabiliyyət marağın əsası kimi anadangəlmədir və tərbiyə yalnız uşağa təbiətən xas olanları inkişaf etdirə bilər [4, s.67].

J. Brunerin "İdrak psixologiyası" [6] kitabında U. Cemsin tələbəsi olan C. Hollın fikirləri təqdim olunur ki, burada da uşaq maraqlarının anadangəlmə qabiliyyətlərlə şərtlənməsi göstərilir. Eyni zamanda marağın instinkt və ehtiyaclarla (tələbatlarla) əlaqəsini aşkar edən A. Binenin, E. Meymanın, V. Preyerin araşdırmaları da xarakterizə olunur. Eyni əsərdə [38], E. Klaparedin marağın ehtiyaclarla qiymətləndirilməsi diqqəti çəlb edir. Onun fikrincə, bunlar ən aşağı – heyvani və ya instinktiv, və ya da ali - mənəvi xasiyyət daşıya bilir, və bu ehtiyacları ödəyə biləcək hər bir şey uşaq üçün maraqlı olur. E. Klaparedin bilgilərinə görə, maraqların inkişafında daimi bir yaş dövrləri var ki, onlar müəyyən zamanda görünür və başqa bir mərhələyə keçərək əvəz olunur. Anadangəlmə əsasa malik olduğu üçün onlar tərbiyədən asılı olmayaraq yaranır və inkişaf edir. Tərbiyəçi uşağın maraqlarına uyğun fəaliyyət zamanı tapşırıqların təşkilatçısıdır. O, uşaqda instinkt halında olmayan, fəaliyyətə qarşı tələbatların yaranmasında mənbə rolunu oynayır [6, s.27].

Lakin bu nəzəriyyələrdə bütün psixoloji prosesləri, vəziyyətləri, şəxsi xüsusiyyət və maraqları inkişaf etdirən təlim və tərbiyənin rolunun nəzərə alınmadığı açıq-aşkar görünür.

"Uşaq psixologiyası oçerkləri"ndə [9] biz əsasını orijinal tərbiyə sistemi təşkil edən maraqlar nəzəriyyəsini işləyib hazırlamış. O, Dekrolinin baxışlarına rast gəlirik. Bu sistemin məzmununu, maraqların təmin edilməsi kimi müəyyənləşdirən alim "maraq mərkəzləri" yaratmışdır ki, bu, sonralar bir çox ölkələrdə təhsil müəssisələrinin praktik işlərində istifadə olunmuşdur. O, Dekrolinin planına əsasən, hər bir "mərkəz" daha çox uşaq maraqlarına uyğun olan və onların həyata keçirilməsini təmin edən mövzular məcmusudur [9, s.56].

Həmin əsərdə maraqlar haqqında digər baxışlara, o cümlədən E. Torndaykın, R. Vudvortsun və U. Makdauqolun təsəvvürlərinə də rast gəlirik. E. Torndayk, maraqları anadangəlmə və sonradan qazanılmış kimi təsvir etmişdir. Meyillilik və maraq arasındakı əlaqəni o, anadangəlmə və sonradan qazanılmış reaksiyalar arasındakı əlaqə kimi müəyyənləşdirmişdir.

Maraqların inkişafına dair mexanistik təsəvvür R. Vudvortsun baxışlarında əks olunmuşdur. Onun fikrincə, insan psixikasının qabiliyyəti yeni mexanizm və istəklər əldə etməkdir. Bu, çoxsayda icra olunmuş və adət şəklini almış hərəkətlərin nəticəsi kimi yaranan, bacarıqların inkişafı ilə müşayiət olunan maraqların inkişafı haqqında mexaniki təsəvvür, davranışın sadə ətalətidir.

U. Makdauqoll isə, əksinə, fəaliyyət mexanizmi ilə marağı eyniləşdirmir. O hesab edir ki, istənilən hər bir istəyin, marağın əsasında müxtəlif davranış mexanizmləri ilə ifadə olunan anadangəlmə instinktiv meyllilik durur. Bacarıq özü özlüyündə heç bir maraq kəsb etmir, lakin psixoloji proses zamanı tabeolunan məqama çevrilir [9, s.71-96]..

Bununla birlikdə bir sıra burjua psixoloqları: V.A. Lai, E. Meyman marağın təbiətini mürəkkəb proses hesab etmiş və onu, duyğunun, iradənin və intellektin mexaniki birləşməsi kimi, özlərinə xas olan bir tərzdə izah etməyə çalışmışlar.

Beləliklə, bu nəzəriyyələrdə şəxsiyyətin maraqlarının inkişafı sosial-ictimai şəraitdən təcriddə, tarixi inkişafdan və şəxsiyyətin ətraf aləm ilə qarşılıqlı təsiri prosesindən kənarda baxılırdı. Maraqlar hər hansı bir psixoloji mexanizmlə eyniləşdirilirdi. Bu isə onların özünəməxsuzluğunun və spesifikliyinin itirilməsinə səbəb olurdu. Uşaq davranışının motivləri anadangəlmə hesab olunurdu. Bu da təlim-tərbiyənin rolunun azalmasına və uşaqların şəxsi fəallığının və ona məqsədyönlü, sistemli pedaqoji rəhbərlik işinə məhəl qoyulmamasına gətirib çıxarır.

"XX əsr Rusiya pedaqoji fikir antologiyası"nda [5] K.D. Uşinskinin fikirləri təqdim olunur. Marağı təlim üçün müvəffəqiyyət vasitəsi, eyni zamanda mənəvi tərbiyə vasitəsi kimi hesab edərək qeyd edir ki, insanda faydalı, ali və mənəvi olan hər şeyə səmimi maraq oyadın, əmin ola bilərsiz ki, o həmişə insan ləyaqətini qoruyacaq. ... Əgər şagirdiniz çox şey bilirsə, amma boş şeylərlə maraqlanırsa və bununla bərabər özünü mükəmməl aparırsa və onda gözəlliyə və əxlaqa canlı bir diqqət oyanmayıbsa, deməli siz tərbiyə məqsədinizə çatmamısız [5, s.429].

Son dövrlərdə Respublikamızda idraki maraq probleminin tədqiqində, onun yeni bir prizmadan işıqlandırılmasında görkəmli psixoloq, prof. R.İ. Əliyevin müstəsna rolu vardır. İdrak məsələlərini müzakirə edərkən, o, eyni zamanda uşaqların maraqlarına toxunmuş və onu belə xarakterizə etmişlər ki, maraq – güclü təəssürat, emosional rəngarənglik, həvəslənmə, ilham, böyük diqqət, bir cismin və ya hadisənin mənimsənilməsinə yönəlmiş fəaliyyətin təsiri altında oyanmadır [3, s.26].

Marağın mahiyyəti idraki fəallığın formalaşdırılması ilə bağlı oxşar vurğular görkəmli Azərbaycan və rus psixoloqlarının, Ə.Ə. Əlizadənin, Ə.S. Bayramovun, R.İ. Əliyevin, Ə.Ə. Qədirovun, M.İ. Həmzəyevin, V.V.Davıdovun, L.M. Dolqopolovanın, N.A.Mençinskayanın, A.Z.Zakin, R.S.Nemovun və A.Q. Kovalyovun əsərlərində də vardır. Onlar, iddia edir ki, şəxsin marağının əsas əlaməti obyektə sabit, müsbət-emosional münasibətdir. Emosiyalar-idrak prosesini aktivləşdirə və ya ləngidə biləcək hərəkətverici qüvvədir. Ağıl və iradəyə təsir edərək emosiyalar zehni və könüllü hərəkətlərə güc verir və ya əksinə onları söndürür. M.F. Dobrınının araşdırmalarında isə maraq və diqqətin inkişafı arasında mövcud olan əlaqələr aşkar olunur.

Beləliklə, idraki marağın və idraki fəallığın formalaşdırılması probleminin pedaqoq və psixoloqlar tərəfindən araşdırılmasının təhlili əsasında sübut olunur ki, idraki maraq və fəallıq təfəkkür fəaliyyətinə və biliklərin mənimsənilməsi prosesinə müsbət təsir göstərir, iradi keyfiyyətlərin inkişafına stimul verir, hərəkətverici və tənzimləyici imkanlara malik olur. Onun əsasında isə ətraf mühit haqqında informasiyalar durur. İnformasiyaların dərk olunması və inkişafı isə idrak prosesində həyata keçirilir.

**Problemin aktuallığı.** Hal-hazırda şəxsiyyətin davamlı idrak aktivliyinin inkişafı problemi ən vacib məsələlərdən biridir. Bu problemi həll etmək üçün dünyanın bütün ölkələrində müxtəlif üsullar hazırlanır və sınaqdan keçirilir. Pedaqogikada aktivlik anlayışının iki mənasından istifadə olunur: müəyyən bir hərəkətin və ya ünsiyyət anının həyata keçirilməsi ilə bağlı vəziyyəti bildirən aktivlik və sosial vəzifələrlə əlaqəli şəxsiyyətə mənsub xüsusiyyət kimi aktivlik. Müasir pedaqogikada fənlərarası inteqrasiya kontekstində idrak aktivliyinin inkişaf etdirilməsi imkanları hələ də kifayət qədər öyrənilməmişdir.

**Problemin elmi yeniliyi.** İnteqrasiya olunmuş Azərbaycan dili, riyaziyyat və texnologiya dərslərində kişik məktəblilərin idrak aktivliyin inkişafı üçün pedaqoji şərait müəyyən edilmişdir.

**Problemin praktiki əhəmiyyəti və tətbiqi.** İnteqrasiya olunmuş dərslər zamanı kiçik yaşlı məktəblilərin idrak aktivliyinin inkişafı üzrə ibtidai sinif müəllimləri üçün pedaqoji və metodik tövsiyələr hazırlanmışdır.

## Ədəbiyyat

1. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika. Dərslik. Bakı: Mütərcim, 2024. 464 s.
2. Əlizadə Ə.Ə. İdrak prosesləri və hisslər. Bakı: ADPU-nun nəşriyyatı, 2006. 345 s.
3. Əliyev R.İ., Əliyeva G.B. Şəxsiyyət psixologiyası. Bakı: ADPU-nun nəşriyyatı, 2010. 144 s.
4. Актуальные вопросы формирования интересов в обучении / под ред. Г.И. Щукиной. – М.: Просвещение, 1999. 176 с.
5. Антология педагогической мысли России XX века / сост. П.А. Лебедев. – М.: Педагогика, 2010. 680 с.
6. Брунер Дж. Психология познания. За пределами непосредственной информации / Дж. Брунер. – М.: Прогресс, 2017. 413 с.
7. Здравомыслов А.Г. Потребности, интересы, ценности / А.Г. Здравомыслов. – М.: Педагогика, 2016. с.18-34.
8. Психологическое исследования развития познавательной деятельности / под ред. Дж. Брунера, О. Оливера, П. Гринфилда. – М., 2011. 173 с.
9. Очерки психологии детей / под ред. Л.И. Божович, А.Н. Леонтьева. – М.: АПН РСФСР, 2000. – 73 с.

**Л.М. Байрамова**

## Рассуждения о сущности понятия «Познавательного интереса» в педагогических и психологических исследованиях

### Резюме

В исследовании на основе анализа проблемы формирования познавательного интереса педагогами и психологами доказано, что познавательные интересы оказывают положительное влияние на мыслительную деятельность и процесс усвоения знаний, стимулируют развитие волевых качеств, обладают движущими и регулятивными возможностями. На основе которого стоит информация об окружающей среде. А усвоение и развитие информации осуществляется в процессе активного познания.

В ходе исследования выявлены, научно обоснованы и апробированы педагогические условия развития познавательной активности младших школьников на интегрированных уроках математики, технологии и Азербайджанского языка. Полученные результаты могут быть полезны как практикующим педагогам, так и исследователям.

**L.M. Bayramova**

**Reasoning about the essence of the concept of "Cognitive interest"in pedagogical and psychological research**

**Summary**

The study, based on the analysis of the problem of forming cognitive interest by teachers and psychologists, proved that cognitive interests have a positive effect on mental activity and the process of assimilation of knowledge, stimulate the development of volitional qualities, have driving and regulatory capabilities. On the basis of which is information about the environment. And the assimilation and development of information is carried out in the process of active cognition.

During the study, pedagogical conditions for the development of cognitive activity of younger students in integrated music and reading lessons were identified, scientifically substantiated and tested. The results obtained can be useful for both practicing teachers and researchers.

**Redaksiyaya daxil olub:** 10.02.2025

UOT 378.

# TƏLƏBƏLƏRİN UNİVERSİTET TƏŞKİLATLARINDA İŞTİRAKI

**Mehriban Əli qızı Şirəliyeva**
*SABAH qrupları, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCİD:** 0009-0001-5992-6233
**E-mail:** mehriban.sireliyeva01@mail.ru

***Açar sözlər:*** *universitet tələbələri, tələbə klubları, tələbələrin düşüncələri, idarəçilik*
***Ключевые слова:*** *студенты университета, студенческие клубы, мнения студентов, управление*
***Key words:*** *university students, student clubs, students' opinions, management*

İnsan sosial varlıq olaraq dünyaya gəlir. Yaşadığı mühitdə qarşılıqlı əlaqələr quraraq sosial və mədəni cəhətdən özünü inkişaf etdirir. İnkişaf prosesində öz dəyərlərini və prioritetlərini formalaşdırır. Bu proses zamanı həyata keçirilən fəaliyyətlər vasitəsilə fərd sosial varlıqda zəruri olan bacarıq və qabiliyyətlərini inkişaf etdirə bilər. Məktəblər fərdin erkən yaşlarında sosial bacarıqlarının formalaşmasında əsas rol oynayır. Xüsusilə, təhsil məqsədləri istiqamətində fərdin sosial bacarıqlarının inkişaf etdirməsi vacibdir. Fərdin cəmiyyətdə faydalı bir varlıq olaraq yer alması yalnız sosial yönünün inkişafı ilə mümkündür. İbtidai təhsildən ali təhsilə qədər keçən müddətdə fərd məktəb mühitində müxtəlif fəaliyyət və dərnəklərdə iştirak edir. Ali təhsil müstəvisində yetkin fərd olan tələbənin təşkilati işlərdə və cəmiyyətə yön verən fəaliyyətlərdə iştirak etməsi onun özünü inkişaf etdirməsində əhəmiyyətli rol oynayır.

Universitetlərin yalnız müəyyən sahəni tədris edən müəssisələr olmaması, eyni zamanda təhsil alan tələbələrin sosial yönlərini inkişaf etdirmək və onlara fərdi olaraq müxtəlif mövzularda tətbiqi bacarıqlar qazandırma missiyası daşıyan müəssisələr olması lazımdır. Bu kontekstdə tələbə klublarının yaradılması və fəaliyyət göstərməsi universitetlərin məqsədlərinə xidmət etməsi baxımından əhəmiyyətlidir. Bu klubların fəaliyyətinə dair tələbələrin fikirlərinin nəzərə alınması təşkilat işlərinin inkişafına müsbət şəkildə təsir edəcəkdir.

Tələbə klubları ali təhsildə tələbələrin maraq və istəkləri istiqamətində müəyyən məqsədlərlə həyata keçirilən fəaliyyətlərin baş verdiyi bir qurumdur. Bu kontekstdə universitetlərdə "teatr klubu", "rəsm klubu", "idman klubu", "kitab klubu" kimi müxtəlif sahələri özündə birləşdirən tələbə klubları mövcuddur.

Tələbə klublarının yaranma prosesində tələbələrin bir araya gələrək fikir birliyi və iş bölgüsü etmələri zəruridir. Beləliklə, tələbələr bir araya gələrək sosial bir mühit yaratmış olurlar. Tələbələrin toplanaraq yaratdığı bu mühitlərdə qruplar meydana gəlir. Qrup anlayışı gündəlik həyatda çox istifadə olunan bir anlayışdır. Qrup bir neçə elementin toplusunu ifadə edən bir məfhumdur. Barlıya (2007) görə, qrup anlayışı sosial psixologiyada ortaq məqsədləri, ortaq normaları olan və özlərini bir qrup olaraq hiss edən insanların bir araya gəlməsindən qaynaqlanır.

Məşhur psixoloq Abraham Maslovun yaratdığı "Ehtiyaclar iyerarxiyası" nəzəriyyəsinə baxaq:




Maslov tərəfindən hazırlanan ehtiyaclar iyerarxiyasında görüldüyü kimi, insan müxtəlif tələbləri olan bir varlıqdır. Buradan yola çıxaraq fərdlərin müxtəlif qruplarda aid olma və sevilmə ehtiyaclarının qarşılanması məqsədilə iştirak etdiyini söyləyə bilərik. Aid olma və sevgi tələbi qarşılanmadan dəyər, uğur və özünə hörmət mərhələsinə çıxmağın mümkün olmayacağını Maslovun “Ehtiyaclar iyerarxiyasında” görmək mümkündür. Bir yuxarı mərhələyə keçmək üçün alt mərhələlərin tamamlanması mütləqdir. Ən yüksək mərhələdəki özünü gerçəkləşdirmə tələbi yalnız bu şəkildə təmin oluna bilər (Cüceloğlu, 2012). Bütün bunların işığında, Maslovun piramidasında gördüyümüz kimi fərd aid olma və sevilmə ehtiyacını qarşıladığı təqdirdə daha xoşbəxt və uğurlu insana çevriləcəkdir.

Tələbə klublarının həyata keçirdiyi tədbirlər universitetlərin inkişafına əhəmiyyətli töhfələr verə bilər. Universitetin ictimaiyyətlə qurduğu əlaqələr bu tədbirlərin müsbət təsirlərinin yaranmasında mühüm rol oynayır. Belə ki, universitetlərdə fəaliyyət göstərən “sağlamlıq klubları” insanları qan vermək və orqan bağışlama mövzusunda məlumatlandıraraq hətta həyat xilas edə bilərlər. Tələbə təşkilatları çərçivəsində həyata keçirilən tədbirlərlə universitetin yerləşdiyi şəhərin ətraf mühitinin qorunması və gözəlləşdirilməsi mövzusunda ictimaiyyət və klub üzvlərinin əməkdaşlığı ilə səmərəli nəticələr əldə etmək olar. Sağır və İnci (2013) tərəfindən aparılan tədqiqatda da tələbələrin təşkil etdiyi tədbirlərin universitetin yerləşdiyi şəhərin inkişafında müsbət təsiri vurğulanmışdır. Bu mənada universitetlər, tələbələri və fəaliyyət göstərdiyi şəhərin əhalisi ilə birgə bir bütün halında fəaliyyət göstərmiş olurlar.

Bundan başqa, Arslan (1999), Blenay (1992), Çatalbaş (2007), Çetin (2007), Öztürk, Torun və Özkök (2011) tərəfindən aparılan digər tədqiqatlar da universitetlərin cəmiyyətin müxtəlif istiqamətlərində inkişafına kömək edən qurumlar olduğunu vurğulamışdır. Beləliklə, universitetlər olduqları şəhərləri diqqət mərkəzinə çevirmək potensialına malikdir. Tələbə klublarının fəaliyyəti bu baxımdan müstəsna rol oynayır.

Bu araşdırmanın məqsədi, ali təhsil müəssisələrində təhsil alan universitet tələbələrinin tələbə klublarına dair fikirlərini müəyyənləşdirməkdir. Eyni zamanda, bu araşdırma ilə tələbə klublarında iştirak edən universitet tələbələrinin yaşlarına, təhsil aldıqları ixtisaslara görə tələbə klublarına qatılma səbəbləri, tələbə klublarının fəaliyyətlərinin onlara töhfələri və bu təşkilatlarla bağlı təklifləri araşdırılmışdır.

Bu araşdırmada keyfiyyət tədqiqat metodundan istifadə edilmiş və məlumatlar müsahibə üsulu vasitəsilə əldə olunmuşdur.

Bu tədqiqat 2024-2025-ci tədris ilinin payız semestrində Azərbaycan Dövlət Pedaqoji Universitetində aparılmışdır. Tədqiqat məqsədilə tələbələrə "Tələbə təşkilatlarının onların fəaliyyətlərində rolu və universitet idarəçiliyinə təsiri" haqqında suallar ünvanlanmışdır. Tədqiqatda Tarix müəllimliyi ixtisası üzrə 5, Riyaziyyat və informatika müəllimliyi ixtisası üzrə 5, Coğrafiya müəllimliyi ixtisası üzrə 2, Fizika müəllimliyi ixtisası üzrə 8, Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə 10 tələbə olmaqla cəmi 30 tələbə iştirak etmişdir. Araşdırmada iştirak edən tələbələrin yaşları 18-23 aralığındadır və 1-ci, 2-ci, 3-cü və 4-cü kurslarda təhsil alırlar.

Məlumatları toplamaq məqsədilə tədqiqata qatılan tələbələrlə canlı görüş keçirilmiş və onlara cari mövzu ilə bağlı əvvəlcədən hazırlanmış suallar verilmişdir. Müsahibə zamanı verilən sualların ümumi məzmunu aşağıdakı kimidir:

1. Tələbə təşkilatlarında hansı fikirlərin qərarvermə zamanı nəzərə alınmasını istəyərdiniz?
2. Sizcə, tələbə təşkilatlarının fəaliyyəti universitetin inkişafında hansı dəyişikliklərə səbəb ola bilər?
3. Üzv olduğunuz təşkilatlarla bağlı təklifləriniz hansı istiqamətdədir?
4. Universitet idarəçiliyində tələbələri hansı rolda iştirakını istəyərdiniz?
5. Sizcə, tələbə təşkilatlarının fəaliyyəti universitetin ümumi təhsil və sosial mühitinə necə təsir edir?
6.Tələbə təşkilatlarında iştirak edən tələbələrin qərar qəbuluna təsiri nə dərəcədə nəzərə çarpır?
7. Universitet rəhbərliyi tələbə təşkilatlarının təkliflərinə necə reaksiya verir?
8.Tələbə təşkilatlarının idarəçiliyə daha fəal təsir etməsi üçün hansı təşəbbüslər həyata keçirilməlidir?
9. Sizcə, tələbə təşkilatlarının gücləndirilməsi üçün hansı resurslar və dəstək lazımdır?
10. Gələcək karyeranızda bu təşkilatların bir rolu olduğunu düşünürsünüzmü?

Təhlil göstərir ki, tələbə təşkilatları universitetin idarə olunmasında müsbət istiqamətdə əhəmiyyətli dəyişikliklər edə bilər. Respondentlər hesab edirlər ki, bu təşkilatların fəaliyyəti ali təhsil mühitində akademik və sosial fəaliyyətləri stimullaşdırır, tələbələrin idarəetmə prosesinə daxil edilməsini təmin edir və universitetin ümumi inkişafına müsbət təsir göstərir. Bununla yanaşı, bu mövzuda bəzi çatışmazlıqların da olduğu vurğulanmışdır.

1. Tələbə təşkilatlarının qərarvermə prosesində rolu

Respondentlərin böyük əksəriyyəti, tələbələrin təhsil proqramlarının inkişafında və sosial fəaliyyətlərin təşkilində daha çox söz sahibi olmasını arzulayır. Onlar tələbə problemlərinin müzakirə olunması və qərarvermə prosesində tələbə təşkilatlarının fikirlərinin nəzərə alınmasını vacib hesab edirlər. Cari vəziyyətin müzakirəsi zamanı isə onlar bu təşkilatlar tərəfindən təklif olunan qərarların idarəçilik tərəfindən bəzən dinlənilməməsindən şikayətlənirlər. Onlar universitet idarəçiliyinin daha tələbəyönümlü olması arzusundadırlar.

2. Tələbə təşkilatlarının universitetin inkişafına töhfəsi

Tələbələr, təşkilatların fəaliyyətinin universitetin təhsil proqramları, sosial və mədəni tədbirlər, hətta maddi-texniki bazasının inkişafında müsbət dəyişikliklər yaratdığını bildirir.

3. Üzv olduğunuz təşkilatlarla bağlı təkliflər

Respondentlərdən bir qismi tələbə təşkilatlarının daha interaktiv və şəffaf olmasını istəyir. Onlar qərar qəbul proseslərində daha çox açıq müzakirələrin aparılmasını və tələbələrin təşkilat işlərində daha aktiv iştirak etməsini təklif edirlər. Belə ki, respondentlər tələbə təşkilatlarının yeni yarandığı vaxtlarda daha aktiv olduğunu, ancaq sonradan eyni aktivliyi göstərmədiklərini qeyd edirlər.

4. Universitet idarəçiliyində tələbələrin rolu

Tələbələr universitet idarəçiliyində özlərini daha aktiv görmək istəyirlər. Respondentlər universitetin strateji qərarlarında tələbələrin səsini eşitmənin vacib olduğunu vurğulayıblar. Cavab verənlərin əksəriyyəti, təşkilatlarda iştirak edən tələbələrin qərar qəbulunda müəyyən təsirə malik olduğunu, lakin bu təsirin bəzi hallarda kifayət qədər nəzərə çarpmadığını düşünür. Onlar tələbə təşkilatlarının daha çox səlahiyyətlə təmin edilməsini vacib hesab edirlər.

5. Tələbə təşkilatlarının universitetin təhsil və sosial mühitinə təsiri

Respondentlərin fikrincə, tələbə təşkilatları tələbələrin sosial həyatlarını zənginləşdirmələrinə şərait yaradır. Onlar təşkilatlara qoşularaq yeni dostluqlar qazandıqlarını, eyni zamanda könüllük fəaliyyətlərinə cəlb olunaraq bir çox sahələrdə təcrübə qazandıqlarını qeyd edirlər. Respondentlərin əksəriyyəti bu fəaliyyətlərin tələbələr arasında birlik və əməkdaşlıq hissini gücləndirdiyini qeyd ediblər.

6. Universitet rəhbərliyinin tələbə təşkilatlarına münasibəti

Sorğuda iştirak edənlərin fikrincə, universitet rəhbərliyi bəzən tələbə təşkilatlarının təkliflərinə müsbət cavab verir, lakin bəzən bu təkliflər yetərincə nəzərə alınmır. Onlar tələbə təşkilatlarının təkliflərinə daha diqqətli yanaşılmasını tələb edir.

7. Tələbə təşkilatlarının idarəçiliyə təsirini gücləndirmək üçün təşəbbüslər

Respondentlər tələbə təşkilatlarının daha fəal rol oynaması üçün daha çox dialoq platformalarının yaradılmasını təklif edirlər. Məsələn, tələbə təmsilçilərinin universitetin idarə heyətinə daha çox daxil edilməsi və təşkilatların maliyyə dəstəyi ilə təmin olunması qeyd edilib.

8. Tələbə təşkilatlarının gücləndirilməsi üçün resurslar və dəstək

Tələbələr təşkilatların gücləndirilməsi üçün maliyyə dəstəyi, təlim və inkişaf proqramlarının vacibliyini vurğulayırlar. Eyni zamanda, universitet rəhbərliyinin təşkilatlara texniki və idarəetmə dəstəyi verməsinin zəruri olduğu bildirilib. Cari vəziyyətin təhlilində isə onlar universitet binasında resurs çatışmazlığını xüsusi şəkildə vurğulayaraq bu problemin tez bir şəkildə aradan qaldırılmasını arzulayırlar.

9. Gələcək karyera perspektivlərinə təsir

Tələbələrin əksəriyyəti tələbə təşkilatlarında iştirakın onların gələcək karyerasına müsbət təsir edəcəyini düşünür. Onlar bu təşkilatlarda qazandıqları liderlik və komanda işi, problem həlli və işgüzar kommunikasiya kimi bacarıqlarının inkişaf etdiyini bildirir.

Müsahibənin nəticələri göstərir ki, tələbə təşkilatlarının universitet idarəçiliyində rolu tələbələr tərəfindən əhəmiyyətli hesab edilir. Lakin təşkilatların gücləndirilməsi üçün daha çox resurs və təşəbbüsə ehtiyac vardır. Universitet rəhbərliyinin tələbə təşkilatlarının təkliflərinə daha açıq və pozitiv yanaşması tələb olunur. Nəticədə, bu təşkilatların fəaliyyəti universitetin həm təhsil mühitinə, həm də sosial inkişafına böyük təsir göstərə bilər.

Universitet tələbələrinin klub fəaliyyətlərinə dair fikirlərini öyrənməyi hədəfləyən bu araşdırmada tələbələrin bu fəaliyyətlərdə iştirak etmə səbəblərinin maraq sahələrinə uyğun olması,

sosial olmaq istəyi və dost çevrələrinin təşviqi ilə bağlı olduğu müəyyən edilmişdir. Bununla yanaşı, bəzi tələbələrin bu klubların onlara heç bir fayda vermədiyini düşünməsi tədqiqatın gözlənilməz nəticələrindən biri hesab olunur.

Universitet tələbələrinin klub fəaliyyətləri ilə bağlı təkliflərinin isə fəaliyyətlərin artırılması və daha əyləncəli tədbirlər planlaşdırılması şəklində ümumiləşdirilə biləcəyi müəyyən edilmişdir. Onlar universitet idarəçiliyinə inteqrasiya arzusunda olduqlarını xüsusilə qeyd etmişdirlər. Bu da onların qəravermə prosesində daha yaxından iştirak etmək arzusunda olduqlarının göstəricisi hesab olunur.

Bu araşdırmadan əldə edilən nəticələr əsasında universitetlərdəki klub fəaliyyətlərinin daha aktiv və səmərəli hala gətirilməsi təklif edilə bilər. Tələbələrin marağını cəlb etmək üçün daha sosial mühitlər yaradılaraq onların aktiv olmaları və əyləncəli vaxt keçirmələri təmin edilməlidir. Tələbələr klub fəaliyyətləri sayəsində maraq sahələrində özlərini inkişaf etdirmə imkanı tapacaq və universitetlərinin inkişafına töhfə verəcəklər, beləliklə, universitetlərin cəmiyyətlə olan qarşılıqlı əlaqəsinin də artacağı düşünülə bilər. Bu istiqamətdə ali təhsil müəssisələrində müxtəlif qurumlar arasında tələbələrlə əməkdaşlıq edilərək onların klub fəaliyyətlərində iştirak etmələri dəstəklənməlidir.

Universitetlərin əsas məqsədləri arasında tədqiqat aparmaq və tələbə yetişdirmək ilə yanaşı, yerləşdiyi bölgəni inkişaf etdirmək kimi məqsədlər də vardır. Universitetin yerləşdiyi şəhərin əhalisinin də klub fəaliyyətlərinə cəlb edilməsi təmin edilə bilər. Beləliklə, universitet həm şəhərin sosial və mədəni inkişafını təmin edərkən, əhali də dolayısı ilə universitetə töhfə verəcəkdir.

Universitetlərdə fəaliyyət göstərən tələbə klubları ilə bağlı daha çox tədqiqat aparılaraq tətbiqlərdəki problemlərin səbəbləri ortaya çıxarıla bilər və həll yolları tapıla bilər. Beləliklə, tələbə klublarının təsirliliyi artırıla bilər.

**Problemin aktuallığı.** Müasir dövrdə ali təhsil müəssisələrinin inkişafı yalnız akademik nailiyyətlərlə deyil, həm də tələbələrin aktiv iştirak etdiyi idarəetmə modelləri ilə sıx bağlıdır. Tələbə təşkilatları universitet həyatında mühüm rol oynayır və onların idarəetmə proseslərinə təsiri artmaqdadır. Bu təşkilatlar tələbələrin liderlik bacarıqlarını inkişaf etdirmək, sosial və akademik mühitin keyfiyyətini yüksəltmək və universitet rəhbərliyi ilə tələbələr arasında əlaqəni gücləndirmək baxımından əhəmiyyətlidir. Buna görə də, tələbə təşkilatlarının idarəçilikdə rolu və təsiri ilə bağlı aparılan araşdırmalar həm universitet rəhbərliyi, həm də tələbə cəmiyyəti üçün aktualdır.

**Problemin elmi yeniliyi.** Bu tədqiqat tələbə təşkilatlarının ali təhsil müəssisələrinin idarəçilik prosesinə təsirini sistematik şəkildə araşdıran və bu təsirin müxtəlif aspektlərini elmi cəhətdən əsaslandıran nadir araşdırmalardan biridir. Elmi yenilik ondan ibarətdir ki, bu araşdırmada tələbə təşkilatlarının universitet rəhbərliyi ilə əməkdaşlıq səviyyəsi, onların qərarvermə prosesindəki rolu və bu iştirakın ali təhsilin keyfiyyətinə təsiri dərin təhlil edilmişdir. Həmçinin, tələbə təşkilatlarının idarəetmədə daha aktiv iştirak etməsi üçün konkret mexanizmlər və strategiyalar təklif olunmuşdur. Bu yanaşma tələbə təşkilatlarının rolu ilə bağlı mövcud nəzəriyyələri genişləndirir və praktik həllər təqdim edir.

**Problemin praktiki əhəmiyyəti və tətbiqi.** Bu tədqiqat tələbə təşkilatlarının ali təhsil müəssisələrinin idarəçilik prosesinə təsirini sistematik şəkildə araşdıran və bu təsirin müxtəlif

aspektlərini elmi cəhətdən əsaslandıran nadir araşdırmalardan biridir. Elmi yenilik ondan ibarətdir ki, bu araşdırmada tələbə təşkilatlarının universitet rəhbərliyi ilə əməkdaşlıq səviyyəsi, onların qərarverмə prosesindəki rolu və bu iştirakın ali təhsilin keyfiyyətinə təsiri dərin təhlil edilmişdir. Həmçinin, tələbə təşkilatlarının idarəetmədə daha aktiv iştirak etməsi üçün konkret mexanizmlər və strategiyalar təklif olunmuşdur. Bu yanaşma tələbə təşkilatlarının rolu ilə bağlı mövcud nəzəriyyələri genişləndirir və praktik həllər təqdim edir.

## Ədəbiyyat


1. Barlı, Ö. Davranış bilimleri. Aktif Yayınevi. Ankara, 2007.
2. Bleaney, M. F. What does a university add to its local economy. Applied Economics, 24, 305-311 s, 1992.
3. Cüceloğlu, D. İnsan ve davranışı: Psikolojinin temel kavramları. Remzi Kitapevi. İstanbul, 2012.
4. Çatalbaş, N. Üniversite – yerel ekonomi ilişkisinde kutuplaşma teorisinin iyi model olabilir mi? Selçuk Üniversitesi Karaman İ.İ.B.F Dergisi Yerel Ekonomiler Özel Sayı Mayıs, 90-101 s. 2007.
5. Çetin, M. Bölgesel kalkınma ve girişimci üniversiteler, Ege Akademi, 7 (1), 217-238 s. 2007.
6. Öztürk, S., Torun, İ. ve Özkök, Y. Anadolu’da kurulan üniversitelerin illerin sosyo ekonomik yapılarına katkıları, Mustafa Kemal Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 16, 145-158 s. 2011.
7. Sağır, A. ve İnci, Ü. Karabük’te üniversite algısı: Karabük Üniversitesi örneği. İnsan ve Toplum Bilimleri Araştırmaları Dergisi. 2 (2), 49-81 s. 2013.


**М.А. Ширалиева**

## Участие студентов в университетских организациях
## Резюме


Данное исследование рассматривает влияние студенческих организаций, действующих в высших учебных заведениях, на социальное и академическое развитие студентов. В ходе исследования были проанализированы причины участия студентов в этих организациях, их роль в управлении университетом, а также влияние данных организаций на общее развитие вуза.

В исследовании был использован качественный метод. Для выяснения мнений студентов о студенческих клубах исследователи разработали вопросы для интервью. Исследование было проведено в течение 2024-2025 учебного года среди 30 студентов, обучающихся в Азербайджанском Государственном Педагогическом Университете.

Согласно результатам исследования, было установлено, что основной причиной участия студентов в деятельности студенческих клубов является желание социализироваться и создать дружественную атмосферу. Респонденты отметили, что участие в студенческих организациях помогает им получать приятные впечатления, расширять со-

циальные связи и развивать свой кругозор. Они также подчеркнули, что студенческие организации оказывают непосредственное влияние на управление университетом, а также что студенты принимают участие в процессе принятия решений. Однако некоторые студенты выразили мнение, что участие в деятельности студенческих клубов не приносит им никакой пользы.

Среди предложений студентов по улучшению деятельности студенческих клубов были выделены активизация работы клубов, увеличение количества поездок, увеличение финансирования клубов и организация развлекательных мероприятий, способствующих привлечению студентов.

**M.A. Shiraliyeva**

**The participation of students in university organizations**
**Summary**

This study examines the impact of student organizations operating in higher education institutions on students' social and academic development. The research analyzes the reasons for students' participation in these organizations, their role in university governance, and the overall influence of these organizations on the university's development.

A qualitative research method was employed. To explore students' opinions on student clubs, researchers prepared interview questions. The study was conducted during the 2024-2025 academic year with 30 students from the Azerbaijan State Pedagogical University.

According to the research findings, the primary reason students participate in student clubs is their desire to socialize and create a friendly atmosphere. Respondents noted that participation in student organizations helps them gain positive experiences, expand their social networks, and develop their worldview. They also emphasized that student organizations have a direct impact on university governance and that students take part in the decision-making process. However, some students stated that participation in student clubs did not provide them with any benefits.

Among the students' suggestions for improving the activities of student clubs were increasing club engagement, organizing more trips, allocating more financial resources to clubs, and hosting entertaining events to attract student participation.

**Redaksiyaya daxil olub:** 18.02.2025

*UOT 37.1*

# DƏSTƏKLƏYİCİ RƏHBƏRLİYİN TƏHSİLİN KEYFİYYƏTİNƏ TƏSİRİ

**Şərəf Şəmil qızı Əliyeva**
*SABAH qrupları, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCİD:** 0002-4978-8102
**E-mail:** sharaflyva@gmail.com

***Açar sözlər*:** dəstəkləyici rəhbərlik, məktəb idarəetməsi, müəllimlərin motivasiyası, keyfiyyət mədəniyyəti
***Ключевые слова*:** поддерживающее лидерство, управление школой, мотивация учителей, культура качества
***Key words:*** supportive leadership, school management, teacher motivation, quality culture

Müasir təhsil sistemində məktəb idarəetməsinin səmərəliliyi tədris prosesinin keyfiyyətinə birbaşa təsir göstərir. Dəstəkləyici rəhbərlik yanaşması, müəllim və şagirdlərin potensialını tam şəkildə ortaya çıxarmaq üçün əlverişli mühit yaradır. Bu yanaşma, təhsil müəssisələrinin dinamik inkişafını təmin edərək, tədris keyfiyyətinin yüksəldilməsinə və məktəb mədəniyyətinin formalaşmasına mühüm töhfə verir.

Dəstəkləyici rəhbərlik, məktəb rəhbərlərinin müəllimlərin peşəkar inkişafına dəstək verməsi və onların ehtiyaclarına həssas yanaşması ilə xarakterizə olunur. Bu, müəllimlərin motivasiyasını artırır və onların tədris prosesində daha fəal iştirakını təmin edir. Nəticədə, şagirdlərin akademik nailiyyətləri yüksəlir və məktəbin ümumi performansı yaxşılaşır [1].

Dəstəkləyici rəhbərlik anlayışının tərifi aşağıdakı kimi müəyyənləşdirilir.

Dəstəkləyici rəhbərlik, liderin əməkdaşlarına qarşı empatiya göstərməsi, onların peşəkar və şəxsi inkişafını dəstəkləməsi, açıq ünsiyyət və əməkdaşlıq mühitini təşviq etməsi kimi xüsusiyyətləri əhatə edir. Bu liderlik tərzi, liderin komanda üzvlərinin ehtiyac və duyğularını anlamaq, onlara həssas yanaşmaq bacarığını tələb edir. Empatiya, liderin əməkdaşlarının perspektivlərini və hisslərini dərk etməsinə imkan verir ki, bu da qarşılıqlı etimadın və hörmətin formalaşmasına şərait yaradır.

Dəstəkləyici rəhbərlik, həmçinin əməkdaşların peşəkar və şəxsi inkişafını təşviq edir. Liderlər, komanda üzvlərinin bacarıqlarını artırmaq üçün təlim və inkişaf imkanları təmin edir, onların karyera hədəflərinə çatmalarına dəstək olurlar. Bu, əməkdaşların motivasiyasını və işə bağlılığını artırır, nəticədə təşkilatın ümumi səmərəliliyinə müsbət təsir göstərir [2].

Açıq ünsiyyət və əməkdaşlıq mühitinin təşviqi dəstəkləyici rəhbərliyin digər vacib aspektidir. Liderlər, komanda üzvlərinin fikirlərini sərbəst ifadə etmələrinə və problemləri açıq şəkildə müzakirə etmələrinə şərait yaradırlar. Bu cür mühit, innovativ həllərin inkişafına və komanda daxilində yaradıcılığın təşviqinə imkan verir [4, 5].

Bu liderlik tərzi, müəllimlərin motivasiyasını artırır, onların işə bağlılığını gücləndirir və nəticədə tədris prosesinin səmərəliliyini yüksəldir. Dəstəkləyici rəhbərlik, müəllimlərin özlərini dəyərli hiss etmələrinə və peşəkar inkişaflarına dəstək olunduqlarını bilmələrinə səbəb olur ki, bu da onların işə olan bağlılığını və motivasiyasını artırır [3].

Məktəb idarəetməsində dəstəkləyici rəhbərliyin roluna ümumi baxışdan nəzər salsaq görərik ki, məktəb idarəetməsində dəstəkləyici rəhbərlik, təhsil müəssisəsinin strateji məqsəd-

lərinə çatmasında mühüm rol oynayır. Belə bir rəhbərlik yanaşması, müəllimlərin peşəkar inkişafını təşviq edir, onların tədris prosesində innovativ metodlardan istifadə etməsinə şərait yaradır və məktəb kollektivində müsbət iş mühitinin formalaşmasına kömək edir. Nəticədə, şagirdlərin akademik nailiyyətləri artır və məktəbin ümumi performansı yüksəlir [6].

Dəstəkləyici rəhbərliyin ənənəvi rəhbərlik modelləri ilə müqayisəsini apardıqda müəyyən etmək olur ki, ənənəvi rəhbərlik modelləri, əsasən avtoritar və ya avtokratik üslubları əhatə edir. Bu üslublarda liderlər tam səlahiyyətə malik olur, qərarları təkbaşına qəbul edir və əməkdaşların fikirlərinə məhdud əhəmiyyət verirlər. Ənənəvi liderlik tərzləri avtokratik, demokratik-iştirakçı və liberal (tam azadlığı tanıyan liderlik) kimi növlərə bölünür [7].

Dəstəkləyici rəhbərlik isə daha çox demokratik və iştirakçı üslublara yaxındır. Bu yanaşmada liderlər, əməkdaşların fikirlərini dinləyir, qərar qəbul etmə prosesinə onları cəlb edir və komanda üzvlərinin inkişafına xüsusi diqqət yetirirlər. Bu, əməkdaşların motivasiyasını artırır və onların təşkilata bağlılığını gücləndirir.

Dəstəkləyici rəhbərliyin əsas komponentləri aşağıdakılardır:

**1. Empatiya:** Liderin əməkdaşların hiss və ehtiyaclarını anlamaq və onlara həssas yanaşmaq bacarığı.

**2. Açıq ünsiyyət:** Liderin və komanda üzvlərinin fikirlərini sərbəst şəkildə ifadə edə bildikləri və problemləri açıq şəkildə müzakirə etdikləri mühitin yaradılması.

**3. Peşəkar inkişafın dəstəklənməsi:** Liderin əməkdaşların bacarıqlarını artırmaq üçün təlim və inkişaf imkanları təmin etməsi və onların karyera hədəflərinə çatmalarına dəstək olması.

**4. Etimadın qurulması:** Liderin və komanda üzvlərinin bir-birinə güvəndiyi və hörmət etdiyi bir mühitin yaradılması.

**5. Əməkdaşlıq:** Liderin komanda üzvləri arasında əməkdaşlığı təşviq etməsi və kollektiv işin səmərəliliyini artırması.

Bu komponentlər, dəstəkləyici rəhbərliyin effektivliyini təmin edir və təşkilatın ümumi səmərəliliyinə müsbət təsir göstərir.

Məktəb rəhbərlərinin dəstəkləyici liderlik strategiyaları onların fəaliyyətində mühümdür. Məktəb rəhbərləri, dəstəkləyici liderlik strategiyalarını tətbiq edərək təhsil müəssisələrinin səmərəliliyini artırmağa çalışırlar. Bu strategiyalar arasında müəllimlərin peşəkar inkişafını dəstəkləmək, açıq və şəffaf ünsiyyət kanallarını qurmaq, əməkdaşlıq və komanda işini təşviq etmək, müəllim və şagirdlərin rifahına diqqət yetirmək kimi tədbirlər yer alır. Məsələn, məktəb rəhbərləri müəllimlərin peşəkar inkişafını dəstəkləmək üçün müxtəlif təlim və seminarlar təşkil edə bilər, bu da onların bilik və bacarıqlarının artırılmasına kömək edir [2, 8 s]. Bununla yanaşı, açıq və şəffaf ünsiyyət kanallarının qurulması, müəllimlərin və şagirdlərin fikirlərini sərbəst şəkildə ifadə etmələrinə imkan verir ki, bu da məktəb daxilində etimadın və əməkdaşlığın güclənməsinə səbəb olur. Əməkdaşlıq və komanda işinin təşviqi isə müəllimlər arasında təcrübə mübadiləsini artırır və tədris prosesinin keyfiyyətini yüksəldir. Nəhayət, müəllim və şagirdlərin rifahına diqqət yetirmək, onların motivasiyasını və ümumi məmnuniyyətini artırır ki, bu da məktəbin ümumi performansına müsbət təsir göstərir [2].

Dəstəkləyici rəhbərlik yanaşması, həm müəllimlərə, həm də şagirdlərə birbaşa təsir göstərir. Müəllimlər, rəhbərliyin dəstəyini hiss etdikdə, özlərini daha dəyərli və motivasiyalı hiss edirlər ki, bu da onların tədris prosesinə daha çox enerji və səy sərf etmələrinə səbəb olur.

Şagirdlər isə dəstəkləyici rəhbərlik sayəsində daha müsbət və dəstəkləyici bir təhsil mühitində təhsil alırlar ki, bu da onların akademik nailiyyətlərinə və şəxsi inkişaflarına müsbət təsir göstərir. Belə bir mühitdə şagirdlər özlərini daha təhlükəsiz və dəyərli hiss edir, bu da onların öyrənmə motivasiyasını artırır [9, 10]. Dəstəkləyici rəhbərliyin məktəb mədəniyyətinə inteqrasiyası müasir təhsil sistemində diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Dəstəkləyici rəhbərlik, məktəb mədəniyyətinin formalaşmasında və inkişafında mühüm rol oynayır. Bu yanaşma, məktəbdə qarşılıqlı hörmət, etimad və əməkdaşlıq kimi dəyərlərin təşviqinə kömək edir. Məktəb rəhbərləri, dəstəkləyici liderlik strategiyalarını tətbiq edərək, məktəb daxilində müsbət və dəstəkləyici bir mədəniyyətin formalaşmasına şərait yaradırlar. Məsələn, məktəb rəhbərləri açıq ünsiyyət və əməkdaşlıq mühitini təşviq edərək, müəllimlər və şagirdlər arasında etimadın və hörmətin güclənməsinə kömək edə bilərlər. Bu da məktəbdə daha müsbət və dəstəkləyici bir atmosferin yaranmasına səbəb olur ki, bu da tədris prosesinin səmərəliliyini artırır [9, 11].

**Dəstəkləyici rəhbərliyin təhsil keyfiyyətinə təsiri aşağıdakılardır:**

**1. Müəllimlərin motivasiyası və performansı.**

Dəstəkləyici rəhbərlik, müəllimlərin motivasiyası və performansına əhəmiyyətli dərəcədə təsir göstərir. Rəhbərliyin dəstəyi və anlayışı, müəllimlərin özlərini dəyərli hiss etmələrinə və peşəkar inkişaflarına səy göstərmələrinə səbəb olur. Bu cür rəhbərlik yanaşması, müəllimlərin işə bağlılığını artırır və onların tədris prosesində daha yaradıcı və innovativ metodlardan istifadə etmələrinə şərait yaradır. Nəticədə, müəllimlərin performansı yüksəlir və tədris keyfiyyəti artır [12].

**2. Şagirdlərin akademik nailiyyətləri.**

Dəstəkləyici rəhbərlik, şagirdlərin akademik nailiyyətlərinə də müsbət təsir göstərir. Müəllimlərin motivasiyalı və yüksək performanslı olması, şagirdlərin öyrənmə prosesinə daha fəal qoşulmalarına və dərslərdə daha yaxşı nəticələr əldə etmələrinə səbəb olur. Bundan əlavə, dəstəkləyici rəhbərlik, məktəbdə müsbət və dəstəkləyici bir mühitin formalaşmasına kömək edir ki, bu da şagirdlərin özlərini təhlükəsiz və dəyərli hiss etmələrinə, nəticədə isə onların akademik uğurlarının artmasına səbəb olur [13].

**3. Ümumi təhsil mühitinin yaxşılaşdırılması.**

Dəstəkləyici rəhbərlik, ümumi təhsil mühitinin yaxşılaşdırılmasında mühüm rol oynayır. Nəticədə, məktəbdə daha müsbət və dəstəkləyici bir atmosfer yaranır ki, bu da həm müəllimlərin, həm də şagirdlərin rifahını və performansını artırır. Belə bir mühit, tədris prosesinin səmərəliliyini yüksəldir və təhsil keyfiyyətinin artmasına səbəb olur [14].

Bütün bunlarla yanaşı dəstəkləyici rəhbərliyin tətbiqi zamanı məktəb rəhbərləri bir sıra maneələrlə üzləşirlər. Bu maneələr arasında ənənəvi idarəetmə mədəniyyətinin təsiri, resurs çatışmazlığı, müəllimlərin dəyişikliklərə müqaviməti və vaxt məhdudiyyətləri kimi faktorlar yer alır. Ənənəvi idarəetmə mədəniyyəti, rəhbərlərin avtoritar yanaşmalarını təşviq edərək, dəstəkləyici liderlik prinsiplərinin tətbiqini çətinləşdirir. Resurs çatışmazlığı, həm maddi, həm də insan resurslarının məhdudluğu şəklində özünü göstərir ki, bu da dəstəkləyici tədbirlərin həyata keçirilməsini məhdudlaşdırır. Müəllimlərin dəyişikliklərə müqaviməti isə yeniliklərin qəbul edilməsini ləngidir və rəhbərlərin dəstəkləyici yanaşmalarını tətbiq etmələrinə mane olur. Vaxt məhdudiyyətləri də rəhbərlərin müəllim və şagirdlərlə səmərəli ünsiyyət qurmasını və dəstəkləyici tədbirləri həyata keçirməsini çətinləşdirir [15]. Dəstəkləyici rəhbərliyin tətbiqi

prosesində bir sıra spesifik problemlər ortaya çıxır. Bunlar arasında rəhbərlərin dəstəkləyici liderlik bacarıqlarının yetərsizliyi, müəllimlərin peşəkar inkişafına kifayət qədər diqqət yetirilməməsi, məktəb daxilində açıq ünsiyyətin olmaması və əməkdaşlıq mədəniyyətinin zəifliyi kimi məsələlər yer alır. Müəllimlərin peşəkar inkişafına kifayət qədər diqqət yetirilməməsi, onların motivasiyasının azalmasına və tədris keyfiyyətinin aşağı düşməsinə səbəb olur. Məktəb daxilində açıq ünsiyyətin olmaması, məlumat axınının zəifliyinə və anlaşılmazlıqlara gətirib çıxarır ki, bu da əməkdaşlıq və komanda işini çətinləşdirir. Əməkdaşlıq mədəniyyətinin zəifliyi isə müəllimlər arasında təcrübə mübadiləsinin və birgə işin səmərəliliyinin azalmasına səbəb olur [17]. Bu çətinliklərin aradan qaldırılması üçün bir sıra təkliflər irəli sürmək olar ki, bunlar aşağıdakılardır:

Dəstəkləyici rəhbərliyin qarşılaşdığı çətinliklərin aradan qaldırılması üçün bir sıra tədbirlər təklif olunur. Əvvəla, məktəb rəhbərlərinin dəstəkləyici liderlik bacarıqlarının inkişafı üçün müvafiq təlim və seminarların təşkil edilməsi vacibdir. Məktəb daxilində açıq və şəffaf ünsiyyət kanallarının qurulması, məlumat axınının yaxşılaşdırılmasına və anlaşılmazlıqların azalmasına kömək edəcək. Əməkdaşlıq mədəniyyətinin gücləndirilməsi üçün komanda işini təşviq edən tədbirlər və layihələr həyata keçirilməli, müəllimlər arasında təcrübə mübadiləsi dəstəklənməlidir. Bundan əlavə, resurs çatışmazlığının aradan qaldırılması üçün məktəblərin maddi və insan resurslarının artırılması istiqamətində tədbirlər görülməli, rəhbərlərin vaxt idarəetmə bacarıqları inkişaf etdirilməlidir ki, onlar müəllim və şagirdlərlə daha çox vaxt keçirə bilsinlər [16].

**Nəticə.** Dəstəkləyici rəhbərlik, məktəb rəhbərlərinin müəllim və şagirdlərə qarşı empatiya göstərməsi, onların peşəkar və şəxsi inkişafını dəstəkləməsi, açıq ünsiyyət və əməkdaşlıq mühitini təşviq etməsi kimi xüsusiyyətləri əhatə edir. Bu liderlik tərzi, təhsil müəssisələrinin dinamik inkişafını təmin edərək, tədris keyfiyyətinin yüksəldilməsinə və məktəb mədəniyyətinin formalaşmasına mühüm töhfə verir.

**Gələcək tədqiqatlar və tətbiqlər üçün tövsiyələr.** Gələcək tədqiqatlarda dəstəkləyici rəhbərliyin müxtəlif təhsil mühitlərində və fərqli mədəni kontekstlərdə tətbiqi və təsirləri araşdırılmalıdır. Bundan əlavə, dəstəkləyici rəhbərliyin tətbiqi zamanı qarşılaşılan spesifik çətinliklər və onların aradan qaldırılması üçün effektiv strategiyalar müəyyən edilməlidir. Tətbiq baxımından, məktəb rəhbərləri üçün dəstəkləyici liderlik bacarıqlarını inkişaf etdirməyə yönəlmiş təlim proqramları hazırlanmalı və həyata keçirilməlidir. Həmçinin, müəllimlərin peşəkar inkişafını dəstəkləyən və məktəb daxilində açıq ünsiyyət və əməkdaşlıq mədəniyyətini təşviq edən tədbirlər planlaşdırılmalıdır.

**Problemin aktuallığı.** Müasir təhsil sistemində məktəb idarəetməsinin səmərəli qurulması təhsilin keyfiyyətinə birbaşa təsir edir. Dəstəkləyici rəhbərlik yanaşmasının tətbiqinin müəllim və şagirdlərin inkişafına təsirinin araşdırılması təhsil sahəsi üçün aktualdır.

**Problemin elmi yeniliyi.** Dəstəkləyici rəhbərlik anlayışı, məktəb mədəniyyəti, müəllim motivasiyası və tədrisin keyfiyyətli qurulmasında yeni metodoloji yanaşmalar təqdim edəcəkdir.

**Problemin praktiki əhəmiyyəti və tətbiqi.** Məqaləni ümumtəhsil məktəblərinin rəhbərləri, müəllimləri, tələbələr və magistrantlar istifadə edə bilərlər.

**Ədəbiyyat**


1. Məktəbin Keyfiyyətli İdarə Edilməsində Hesabatlılıq Prinsipinin Tətbiqi Təcrübəsindən. academia.edu. https://www.academia.edu/50275132/M%C9%99kt%C9%99bin_Keyfiyy%C9%99tli_%C4%B0dar%C9%99_Edilm%C9%99sind%C9%99_Hesabatl%C4%B1l%C4%B1q_Prinsipinin_T%C9%99tbiqi_T%C9%99cr%C3%BCb%C9%99sind%C9%99n_From_the_experience_in_applying_the_principle_of_accountability_in_quality_management_of_the_school_
2. Sinfin İdarə Olunması. T-NETWORK. https://tnetwork.az/public/uploads/photo-32.pdf
3. Strateji Planlaşdırma və İdarəetmənin Həyata Keçirilməsi. Kvalifikasiya. https://www.kvalifikasiya.edu.az/modullar/mektebmeneceri/Stateji%20Planlashdirma%20Ve%20Idareetmenin%20Heyata%20Kechirilmesi.pdf
4. https://www.coaching.az/6-%C9%99sas-liderlik-uslubu/
5. https://pmo.az/az/news/lider-nece-olmaq-olar-neyi-bacarmalisan-ve-hansi-idareetme-terzini-secmelisen
6. https://anl.az/el/kitab2022/04/cd/Azf-321004.pdf
7. Bakı Dövlət Universiteti. Strateji idarəetmə və liderlik. Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı. 2020
8. Kvalifikasiya. (n.d.). Strateji planlaşdırma və idarəetmənin həyata keçirilməsi. https://www.kvalifikasiya.edu.az/modullar/mektebmeneceri/Stateji%20Planlashdirma%20Ve%20Idareetmenin%20Heyata%20Kechirilmesi.pdf
9. Milli Kitabxana. (n.d.). Məktəbin idarə edilməsinin pedaqoji, psixoloji aspektləri. https://anl.az/el/kitab2022/04/cd/Azf-321004.pdf
10. Kvalifikasiya. (n.d.). İnkişafetdirici, dəstəkləyici və təhlükəsiz mühitin yaradılması. https://www.kvalifikasiya.edu.az/modullar/Inkishafetdirici_Destekleyici_ve_Tehlukesiz_Muhitin_Yaradilmasi.pdf
11. Məktəb mədəniyyətinin və müsbət mühitin inkişafı: Təhsildə əsas problem və həlli yolları. https://tehsil.biz/news/az/78977/-Mktb-mdniyytinin-v-msbt-mhitin-inkiaf-Thsild-sas-problem-v-hlli-yollar
12. Həşimova, A. Təhsilin keyfiyyətinə təsir edən amillər. Azərbaycan Məktəbi, (2), 3-10 s, 2022
13. Hüseynova, S. Təhsildə əsas keyfiyyət faktorları. Azərbaycan Məktəbi, (1), 15-22 s, 2020
14. Kvalifikasiya. (n.d.). Təlim prosesi və daxili nizam-intizam qaydalarının təşkili. https://www.kvalifikasiya.edu.az/modullar/mektebmeneceri/Telim%20Prosesi%20Ve%20Daxili%20Nizam-Intizam%20Qaydalarinin%20Teshkili.pdf
15. https://www.researchgate.net/publication/372861127_Problems_of_implementation_of_international_environmental_conferences_and_decisions
16. Kazımov, N. Tətbiqi pedaqogika, 2011
17. Əliyeva, S. Məktəbin idarə edilməsinin pedaqoji, psixoloji əsasları, Azərbaycan Respublikası Təhsil Nazirliyi. Bakı, 2021

**Ш.Ш. Алиева**

**Влияние поддерживающего лидерства на качество образования**
**Резюме**

В данной статье подробно рассматриваются роль и значение поддерживающего лидерства в управлении школой. Поддерживающее руководство способствует профессиональному развитию учителей, повышая их мотивацию и улучшая качество процесса обучения. Такой подход также оказывает положительное влияние на успеваемость учащихся и помогает улучшить общую среду обучения.

**Sh.Sh. Aliyeva**

**The effect of supportive leadership on the quality of education**
**Summary**

This article examines the role and importance of supportive leadership in school management in detail. Supportive leadership promotes professional development by increasing teachers' motivation and improving the quality of the teaching process. This approach also has a positive impact on students' academic achievement and helps to improve the overall learning environment.

**Redaksiyaya daxil olub:** 12.02.2025

***LAYİHƏ ƏSASLI ÖYRƏNMƏ PROBLEMLƏRİ***
***ПРОБЛЕМЫ ПРОЕКТНОГО ОБУЧЕНИЯ***
***PROBLEMS OF PROJECT-BASED LEAR***

*UOT 378*

# LAYİHƏ ƏSASLI ÖYRƏNMƏNİN STRUKTURU

**Cavahir İsaxan qızı Maçanova**
*Azərbaycan Dillər Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**ORCİD:** 0000-0002-8437-3693
**E-mail:** cava_machanova@yahoo.com

***Açar sözlər:*** *texnologiya, üsul, şagird, bacarıq, bilik*
***Ключевые слова:*** *технология, метод, учащийся, навык, знание*
***Key words:*** *technology, method, student, skill, knowledge*

Layihə əsaslı təlimin banisi görkəmli Amerika filosofu və müəllimi Con Dyuidir. (1859-1952) Con Dyui "praqmatik pedaqogika"nın nəzəri konsepsiyalarına əsaslanır. C.Dyuinin nəzəriyyəsinin əsas müddəaları aşağıdakılardan ibarət idi:

* uşaq bilikdə insanlıq yolunu təkrarlayır;
* biliyin mənimsənilməsi kortəbii, idarə olunmayan prosesdir;
* biliyə yiyələnmək üçün şagirdə həyatdan götürülmüş və onun üçün əhəmiyyətli bir problem təqdim edilməlidir;
* təlim şagirdin şəxsi marağına uyğun olaraq məqsədəuyğun təhsilləndirici və layihə fəaliyyəti ilə aparılmalıdır;
* uşaq materialı təkcə dinləmək və ya hiss orqanları ilə qavramaqla deyil, onun tədrisinin fəal subyekti olmaqla, onda yaranan biliyə olan ehtiyac sayəsində öyrənir. C.Dyui uşaqlığı insan varlığının müstəqil və dəyərli dövrü hesab edirdi. O, təhsilin missiyasını, gələcəkdə lazım olacaq bilikləri o qədər də təmin etməməli, əksinə, uşağın aktual həyat problemlərini "burada və indi" həll etmək bacarığını inkişaf etdirməlidir. Uğurlu öyrənmənin şərtləri, Dyuinin fikrincə, aşağıdakılardır: tədris materialının problemləşdirilməsi; şagirdin idrak fəaliyyəti; öyrənmə ilə uşağın həyatı, oyun və iş arasında əlaqə. C. Dyuinin təhsilə humanist yanaşması ideyaları və onun layihə metodu nəzəri biliklərin rasional birləşməsi və reallığın konkret problemlərinin həlli üçün praktiki tətbiqi sayəsində Qərb ölkələrində geniş tiraj qazanmış və böyük populyarlıq qazanmışdır. [3]

İstənilən layihə müəyyən texnologiyalar dəstindən istifadə etməklə həyata keçirilir. Texnologiya müəyyən bir problemin həlli üçün şərtlər, formalar, üsullar və vasitələr sistemidir. Layihə fəaliyyəti, insanın mədəni (maddi və ya ideal) dəyərlər yaratmaq üçün layihələr həyata keçirməyi zəruri edir. Texnoloji, texniki, iqtisadi və digər biliklərdən istifadə etdiyi reallığın ümumiləşdirilmiş və dolayı idrak prosesi başa düşülür. Layihə fəaliyyəti yaradıcılığın spesifik forması kimi insan inkişafının universal vasitəsidir. Demək olar ki, hər yaşda olan tələbələrlə işləyərkən pedaqoji məqsədlər üçün istifadə edilə bilər. Xüsusi vurğulamaq lazımdır ki, müasir mütəxəssisin peşəkar fəaliyyəti müasir elmin nailiyyətlərinə əsaslanaraq getdikcə texnoloji cəhətdən təkmilləşir.

Yeni pedaqoji texnologiyaların tədris təcrübəsinə tətbiqi şagirdlərin intellektual, yaradıcı və mənəvi inkişafının ən mühüm şərti hesab edilməlidir.

Layihə metodologiyası faktiki biliklərin inteqrasiyasına deyil, onun tətbiqinə və şagirdlərin özünü təşkili və özünütərbiyəsi vasitəsilə yeni biliklərin mənimsənilməsinə yönəlmiş pedaqoji texnologiyadır.

Layihə əsaslı öyrənmə üsulunda problemin ətraflı işlənilməsi yolu ilə qarşıya qoyulmuş didaktik məqsədə nail olmaq yolu kimi baxılır, nəticədə bu və ya digər şəkildə rəsmiləşdirilmiş çox real, hiss olunan praktiki nəticə olmalıdır. Bu öyrənmə üsulundan istifadə edərkən aşağıdakı mühüm didaktik vəzifələr həll olunur:

— dərslər yalnız şagirdin bilik, bacarıq və bacarıqlara yiyələnməsi ilə məhdudlaşmır, onların emosional sferasına təsir edən praktiki hərəkətlərə keçir, bunun sayəsində tələbələrin motivasiyası artır;

— şagirdlər müxtəlif kitablardan müstəqil şəkildə lazımi məlumatları əldə edərək, verilmiş mövzu çərçivəsində yaradıcı iş aparmaq imkanı əldə edir, eyni zamanda müstəqil düşünməyi, problemləri tapıb həll etməyi, bu məqsədlə müxtəlif sahələrdən bilikləri cəlb etməyi, nəticələri proqnozlaşdırmağı öyrənirlər.

Layihə işində bütün proses şagirdlərə yönəldilir və onların maraqları, təcrübəsi və fərdi qabiliyyətləri nəzərə alınır.

Layihə əsaslı öyrənmənin ümumi xüsusiyyəti şəxsi əhəmiyyətli bir problemin olması və onu həll etmək vəzifəsidir. Problemin həlli bir tərəfdən müxtəlif tədqiqat, axtarış metodları və tədris vasitələrindən istifadəni, digər tərəfdən isə müxtəlif elm, texnika və yaradıcılıq sahələrindən bilik və bacarıqların inteqrasiyası zərurətini nəzərdə tutur.

Layihə anlayışı və layihə fəaliyyəti kimi bir məsələnin tədqiqi prosesində layihələrin tipologiyası ilə tanış olmaq, həmçinin onların əsas mərhələlərini və xüsusiyyətlərini vurğulamaq lazımdır. Hər hansı bir layihəyə başlamaq bir sıra xarakterik xüsusiyyətlərini bilməliyik. Bu aspektdə A.A. Bolşakova aşağıdakı xüsusiyyətləri vurğulayır:

1. Problem: Problemin olması hər hansı bir layihənin əsasını təşkil edir, müəllifi həll yolu axtarmağa sövq edən məhz odur.

2. Məqsəd: Layihənin həyata keçirilməsi üçün aydın və real məqsəd olmalıdır, onun təcəssümü layihə məhsulu olacaqdır.

3. İşin planlaşdırılması: Başlanğıc problemdən layihənin məqsədinin həyata keçirilməsinə qədər olan bütün yol, onların hər biri üçün öz aralıq vəzifələri olan ayrı-ayrı mərhələlərə bölünməlidir; bu vəzifələrin həlli yollarını müəyyənləşdirmək və resursları tapmaq vacibdir

4. Ədəbiyyat:. Layihə üzrə iş planının həyata keçirərkən, informasiya mənbələrini, müxtəlif təcrübələr, eksperimentlər, müşahidələr, tədqiqatlar, sorğular aparmadan, alınan məlumatların təhlili və ümumiləşdirilməsi, cari məsələ ilə bağlı nəticələrin formalaşdırılmasını nəzərdən keçirmədən reallaşa bilməz.

5. Yazılı hissə. Layihə işin bütün mərhələlərini, qəbul edilmiş qərarları, ortaya çıxan problemləri və onların həllini təsvir edən işin gedişi haqqında hesabatı olan yazılı sənəd olmadan təqdim edilə bilməz. Bu zaman toplanmış məlumatlar təhlil edilir, nəticələr yekunlaşdırılır, nəticələr çıxarılır, layihənin perspektivləri aydınlaşdırılır.

6. Təqdimat. Layihə üçün ilkin şərtdir və işin nəticələri əks etdirən təqdimatdır. Təqdimat zamanı müəllif nəinki işin gedişi haqqında danışır və onun nəticələrini göstərir, həm də layihə problemi ilə bağlı öz bilik və təcrübəsini, əldə etdiyi səriştəni nümayiş etdirir.

N.F. Yakovleva layihə metodunun didaktik dəyərini iki aspektdə – şagird baxımından və müəllim baxımından nəzərdən keçirir.

Layihənin növü strukturu, metodlarını, məlumat mənbələrini və hesabat formasını müəyyən edir. Həmin məsələlər aşağıdakı kimi sistemləşdirilir

1. Qrup layihəsi – tədqiqat qrup tərəfindən aparılır və hər bir şagird mövzunun konkret aspektini öyrənir;
2. Mini-layihə – Tədqiqat müşahidələrinin aparılmasından ibarətdir;
3. Fərdi layihə – tədqiqat şagird mövzusu üçün maraqlı və fərdi iş üçün uyğun olan oxunuşdan ibarətdir. Layihələr metodu oyun üsuludur və nəticə kollektiv qrup fəaliyyəti ilə əldə edilir və son məhsul kollektiv şəkildə hazırlanır və ictimaiyyətə təqdim olunur. Qrup işi şagirdlərin əməkdaşlıq və kommunikativ bacarıqlarını təkmilləşdirməyə kömək edir və layihə fəaliyyəti mövzuları şagirdlərin fərdiliyinə və maraqlarına uyğun keçdikləri mövzular arasından istədikləri mövzunu seçməyə imkan verir. Layihəyə hazırlaşarkən şagirdlər konkret kommunikativ situasiyada davranış xüsusiyyətləri ilə tanış olur, ictimai nitqdə təcrübə əldə edir və müəyyən mövzuda öz mövqeyini açıq ifadə etmək bacarığını inkişaf etdirir, yeni leksik və qrammatik vahidləri öyrənir. Layihə üzərində qrup cütlərlə və ya fərdi tapşırıqlar nümunəsi ilə təmsil etmək daha rahat və prespektivli olur.

Şagirdlərin və tələbələrin nöqteyi-nəzərindən layihə müstəqil, fərdi və ya qrup şəklində nəyisə yerinə yetirmək, maraqlı problemi həll etmək, öz imkanlarından maksimum səviyyədə istifadə etmək, faydalı bilikləri bir-birlərinə ötürmək, həmçinin özünü ifadə etmək və əldə olunan nəticəni ictimaiyyətə göstərməkdən ibarətdir.

**Problemin aktuallığı.** Layihə fəaliyyəti obyektiv pedaqoji potensiala malikdir. Layihə fəaliyyətinin səciyyəvi xüsusiyyətlərindən biri də dərhal nəticə (layihənin yaradılması) ilə paralel olaraq yeni bilik və bacarıqların, kompetensiyaların mənimsənilməsini, yeni mənaların meydana çıxmasını, dəyərlərin dinamikasını təmin etmək bacarığıdır. Bu fəaliyyət həm xüsusi dizayn bacarıqlarının, həm də bütövlükdə şəxsiyyətin inkişafı və özünü inkişaf etdirmə vasitəsinə çevrilir, şagirdlərin ünsiyyət bacarıqlarını inkişaf etdirir, şagird və müəllimlər arasında yaradıcı qarşılıqlı əlaqə yaradır. Bu öyrənmə üsulu insanın demək olar ki, bütün şəxsi bacarıqlarını inkişaf etdirir.

**Problemin elmi yeniliyi.** Layihə əsaslı öyrənmə bir tərəfdən müxtəlif texnika və tədris vasaitlərinin istifadəsini, digər tərəfdən isə elm, mühəndislik və texnologiyanın müxtəlif sahələrindən bilik və bacarıqların inteqrasiyasını nəzərdə tutan problemin həllinə yönəlmişdir. Hazırda peşə təhsili müəssisələrində layihə əsaslı təlim texnologiyası digər təhsil texnologiyaları ilə yanaşı, müxtəlif problemlərin həlli üçün şagirdlərin fəal idraki, kommunikativ, praktiki və digər fəaliyyət növlərinə cəlb edilməsi vasitəsinə çevrilir.

**Problemin praktik əhəmiyyəti.** Şagirdin bir şəxsiyyət kimi dəyərlərinin tanınması, onun azadlıq, xoşbəxtlik və sosial müdafiə hüquqları, qabiliyyətlərinin və fərdiliyinin inkişafı təzahürüdür. Təhsilin humanistləşdirilməsi o deməkdir ki, hər bir təhsil müəssisəsi, hər bir akademik fənnin tədrisi insana (şagirdə, tələbəyə), onun təbiətinə, sağlamlığına, mənəvi tələbat və maraqlarına, əxlaqi sferasına, duyğularına, istəklərinə çevirməlidir. İnsanı tərbiyə etmək onun mədəniyyətin, tarixi prosesin, öz həyatının subyektinə çevrilməsinə kömək etmək deməkdir, yəni həyat yaradıcılığını öyrətməkdir. Bunu isə bizdən həyatın özü tələb edir.

**Ədəbiyyat**

1. Большакова, А.А. Проектная деятельность в условиях реализации ФГОС // Проектная и исследовательская деятельность в условиях реализации ФГОС: сборник материалов конференции. Агентство образоват. инициатив, приклад. исслед. и консалтинга «Перспективы»; – Северодвинск, – 2012. – с. 4-6.

2. Muhammad Nur, Wangid. Scientific-based pictorial storybook with project-based learning method for improving the critical thinking skills of elementary school students // Jurnal Prima Edukasia, – 2019. № 7, – p. 94-105

3. Джонс, Дж.К. Методы проектирования: Пер. с англ. - 2-е изд., доп. / – М.: Мир, – 1986. – 326 с.

4. https://www.sciencedirect.com/science/article/pii/S240584402403737X

5. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası https://e-qanun.az/framework/29145

**Дж.И. Мачанова**

**Структура проектного обучения**
**Резюме**

В процессе исследования такого вопроса, как концепция проекта и проектная деятельность, необходимо ознакомиться с типологией проектов, а также выделить их основные этапы и характеристики. В методе проектного обучения он рассматривается как способ достижения дидактической цели посредством детальной проработки проблемы, результатом которой должен стать вполне реальный, осязаемый, практический, так или иначе формализованный результат. Обучение на основе проектов фокусируется на решении проблем, что предполагает использование различных методов и учебных пособий, с одной стороны, и интеграцию знаний и навыков из различных областей науки, техники и технологий, с другой стороны.

**C.İ. Machanova**

**Structure of project-based learning**
**Summary**

In the process of studying such an issue as the concept of a project and project activity, it is necessary to get acquainted with the typology of projects, as well as to highlight their main stages and features. The project-based learning method is considered as a way to achieve the set didactic goal through a detailed study of the problem, the result of which should be a very real, tangible practical result, formalized in one way or another. Project-based learning is aimed at solving a problem, which involves, on the one hand, the use of various techniques and teaching aids, and, on the other hand, the integration of knowledge and skills from various fields of science, engineering and technology.

**Redaksiyaya daxil olub:** 12.02.2025

***MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİ***
***ОТНОШЕНИЯ УЧИТЕЛЬ-УЧЕНИК***
***TEACHER-STUDENT RELATIONSHIP***

*UOT 37.*

# MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTİNDƏ PEDAQOJİ ÜNSİYYƏTİN FORMA VƏ TƏRZLƏRİ

**Elvira Haqverdi qızı Kərimova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya fakültəsinin dekan müavini, fəlsəfə doktoru proqramı üzrə doktorant*
**ORCİD**: 0009-0000-3052-1040
**E-mail:** elvira.karimova83@mail.ru
http://www.doi.org/10.62706/bqiz.2024.v21i4.02

***Açar sözlər:*** *müəllim, şagird, ünsiyyət, pedaqogika, tərz*
***Ключевые слова:*** *учитель, ученик, общения, педагогика, стиль*
***Key words:*** *teacher, pupil, communication, pedagogy, style*

Elmi məqalədə, ilkin olaraq, pedaqoji ünsiyyət anlayışının məzmununa aydınlıq gətirilmişdir. Bu sahədə bir sıra tədqiqatların müəlliflərinə istinad edilərək pedaqoji ünsiyyətin düzgün qurulması üçün müəyyən texnikalara yiyələnmənin müəllim üçün vacibliyi irəli - sürülmüşdür. Müəllimin rəhbərlik mövqeyinin formaları və onların müsbət və mənfi tərəfləri göstərilmişdir. Şagirdlərlə bir sıra ünsiyyət tərzləri və onların məzmunu açıqlanmışdır. Müəllim - şagird münasibətlərində nəzərə alınması vacib olan qaydalar, yanaşma üsulları və onların faydalılığı üzə çıxarılmışdır.

Müəllim dərsdə mövzuya maraq yaratmaq üçün motivasiyadan da öncə, ilk növbədə, şagirdlərlə ünsiyyəti düzgün qurmağı bacarmalıdır. Çünki, müəllim təlim müvəffəqiyyətini daha çox ünsiyyət vasitəsilə realizə edə bilir. Lakin bir şeyi yadımızda saxlamalıyıq ki, ünsiyyət yalnız müəllimlə şagird arasında mövcud deyildir. Bütün pedaqoji kollektivlə ünsiyyət yaratmaq müəllim üçün vacibdir. Onda belə bir sual ortalığa çıxır - pedaqoji ünsiyyət nədir?

Ümumiyyətlə, pedaqoji ünsiyyət dedikdə, müəllimlərlə şagirdlərin qarşılıqlı fəaliyyətinin və münasibətinin forması başa düşülür. Müəllimlərin pedaqoji ünsiyyət mədəniyyətinə yiyələnməsi özü də peşəkarlıq və böyük səy tələb edir. Bu, bir tərəfdən müəllimin özünün bioloji xüsusiyyətləri, temperament tərzi, nitq qabiliyyəti və s. ilə əlaqədardırsa, digər tərəfdən müəllimin uşaqlara olan humanist və nikbin münasibətinin səviyyəsi, həmçinin ünsiyyət bacarıqlarına nə dərəcədə malik ola bilməsi və s. ilə bağlıdır. Pedaqoji ünsiyyətin düzgün qurulması üçün müəllimin müəyyən texnikalara yiyələnməsi çox böyük önəm daşıyır. Pedaqoji aspektdə bir sıra tədqiqatların müəllifi olan V.A.Kan-Kalik pedaqoji ünsiyyəti aşağıdakı kimi xarakterizə edir:

“1. Sinifdə dərs prosesində qarşılıqlı ünsiyyətin müəllim tərəfindən realizə edilməsi (proqnozlaşdırma mərhələsi).
2. İlk təsir anında səmimi ünsiyyətin yaradılması (kommunikativ hücum).
3. Ünsiyyətin pedaqoji baxımdan müəllim tərəfindən idarə olunması.

4. Əldə edilən, yəni qazanılmış ünsiyyət sisteminin təhlili və gələcək fəaliyyətlər üçün onun modelləşdirilməsi” [1, s. 27].

Lakin təcrübə göstərir ki, heç də bütün müəllimlər yüksək ünsiyyət tərzlərinə malik ola bilmirlər. Onlar istəsələr belə, bu sahədə uğur əldə edə bilmirlər. Bu isə bəzən ünsiyyəti qura bilmək bacarığının olmamasından, yəni bu sahədə peşəkarlığın aşağı səviyyədə olmasından irəli gəlir. Müəllimin şagirdlərlə düzgün ünsiyyət yaratmasının pedaqoji aspektdən ən mühüm cəhəti ondan ibarətdir ki, şagird özünü məktəbdə tənha hiss etmir, ona qayğı ilə yanaşıldığını duyur, fənnə maraq yaranır, motivasiya olunur, onun dünyagörüşü dəyişir və sonda inkişaf edir.

Professor A.N. Abbasovun qənaətincə, “Müəllim-şagird münasibətlərinin necə qurulması pedaqoji prosesin səmərəliliyini şərtləndirən cəhətlərdəndir. Məktəblilərdə düzgün işgüzar və emosional münasibətlər yaratmaq heç də hər bir müəllimə müyəssər olmur. Bunun üçün müəllim yüksək ustalığa, peşə biliyinə və qabiliyyətinə yiyələnməlidir” (2, s. 85)

Belə hesab edirik ki, müəllim-şagird münasibətlərinin uğurla qurulmasından ötrü müəllimin rəhbərlik mövqeyi və eyni zamanda ünsiyyət üslublarının olması çox əhəmiyyətlidir. Müəllimin rəhbərlik mövqeyi hansılardır? Əlbəttə ki, bu rəhbərlik mövqeyi aşağıdakı formalarda özünü göstərə bilər:

1. Lokator mövqeyi. Belə müəllimlər şagirdlərə qarşı seçici münasibət bəsləyir. Müəllim bir neçə səbəblərdən şagirdlə ünsiyyət saxlaya bilər. Məsələn, müəllim şagirdin təlimə münasibəti və ya sinifdə tutduğu mövqe baxımından onunla ünsiyyət yaradır. Demək, buradan belə çıxır ki, müəllim bütün şagirdlərlə eyni formada ünsiyyət yarada bilmir. Bu da onun şagirdlərə qarşı seçici münasibət bəsləməsinə gətirib çıxarır.

2. Çin səddi mövqeyi. Bu mövqeyə malik olan müəllim, şagirdlə öz arasında böyük və keçilməz bir sərhəd yaradır. O sərhəd şagirdin müəllimlə ünsiyyətinə maneçilik törədir. Belə yanaşmada olan müəllimlər, şagirdlərin ona yaxınlaşaraq sual verməlırinə, məsləhət almalarına şərait yaratmır. Onlar yalnız qırx beş dəqiqəlik dərsi deməklə öz vəzifəsini bitmiş hesab edir. Baxmayaraq ki, müəllimin ən vacib peşə keyfiyyətlərindən biri də onun qayğıkeş olmasıdır. Məhz bu keyfiyyəti müəllimin şagirdlərlə düzgün ünsiyyət yaratmasını təmin edir.

3. Robot mövqeyi. Bu o deməkdir ki, şəraitin, vəziyyətin dəyişməsinə baxmayaraq müəllim ünsiyyət və münasibətini dəyişmir. Dərsini əvvəlki qaydada, yəni əvvəllər planlaşdırdığı formada aparır. Bu da şagirdlərdə dərsə maraq oyatmır, əksinə müəllimin danışdığı mövzu sinfə canlılıq gətirmir.

4. Dostluq mövqeyi. Dərsin gedişində müəllim heç bir əsəb gərginliyinə yol vermədən, ünsiyyəti elə qurur ki, şagirdlər müəlliminə hörmət edir, onun verdiyi tapşırıqları ürəklə yerinə yetirirlər. Müəllim yalnız səmimi münasibətlə, şagirdlərinin qayğısına qalmaqla bu mövqedə dayanır.

Müəllimin ünsiyyət zamanı mövqeyi şagirdlərin mənəvi cəhətdən formalaşmasına çox böyük təsir göstərir. Belə ki, müəllimin səmimi və qayğıkeş münasibəti şagirdlərdə humanistlik, inam, müəllimin cəfakeşliyi isə şagirdlərdə işgüzarlıq kimi əxlaqi-mənəvi keyfiyyətlər yaradır.

Müəllimin şagirdlərlə ünsiyyət və münasibətində əsas iki yanaşma üsulu vardır:

1. Neqativ yanaşma üsulu;
2. Pozitiv yanaşma üsulu.

Prof. Ə.Ə. Əlizadənin dediyi kimi, “Müəllimlər şagirdləri bir şəxsiyyət kimi təkcə bu iki ölçü axarında qiymətləndirəndə, onlara birtərəfli münasibət bəsləyirlər” [3, s.218].

Neqativ yanaşma üsulu deyəndə, müəllimin şagirdləri öz münasibətləri baxımından qruplaşdırması nəzərdə tutulur. Müəllimdə belə bir əqidə var ki, zəif şagird onsuz da dərsini bilmir. Belə şagirdlər dərsi öyrənsələr də, müəllim onların cavablarından heç vaxt razı qalmır. Əgər belə şagirdlər bir yerdə, yəni izahda çətinlik çəksə də müəllim onlara köməklik etmir. Ona görə də belə şagirdləri deyil, yaxşı oxuyan şagirdi ayağa qaldırır. Zəif cavab verən şagirdi danlayır, lakin belə şagirdlər hətta yaxşı cavab versələr belə, onları stimullaşdırmaq üçün heç nə demir.

Pozitiv yanaşma üsulu dedikdə, müəllim liberallıq göstərərək yaxşı oxuyan uşaqlar həmişə tərifləyir. Həmin şagirdlər bir söz deyərlərsə, müəllim onların üzlərinə gülümsəyir, tez-tez onlara tərəf çevrilir və verdikləri sualları cavablandırırlar. Sanki belə müəllimlər üçün sinifdə başqa şagirdlər yoxdur.

Amerika psixoloqu D. Karneginin tövsiyə etdiyi "Adamları təhqiretmədən və inciklik hissi yaratmadan onlara təsir etməyə imkan verən doqquz qayda" müəllim-şagird münasibətlərində də nəzərə alınması vacib olan qaydalar kimi faydalıdır:

1-ci qayda. Müsahibinizin tərifindən və onun layiqli cəhətlərini səmimi etirafdan başlayın.

2-ci qayda. Başqalarının səhvlərini birbaşa yox, dolaysı yolla göstərin.

3-cü qayda. Əvvəlcə öz səhvlərinizi görün və danışın, yalnız bundan sonra müsahibinizi tənqid edin.

4-cü qayda. Müsahibinizə əmr deyil, suallar verin.

5-ci qayda. Adamlara nüfuzlarını xilas etməyə imkan verin.

6-cı qayda. Adamların ən kiçik müvəffəqiyyətlərini belə bəyəndiyinizi bildirin və onların hər bir uğurunu qeyd edin. Qiymət verməkdə səmimi və tərifləməkdə səxavətli olun.

7-ci qayda. Adamlara yaxşı nüfuz yaradın, onlar bu nüfuzu doğrultmağa çalışacaqlar.

8-ci qayda. Həvəsləndirməyə əl atın. Düzəlmiş görmək istədiyiniz səhvin asan düzəldilə bilməsi təsəvvürünü yaradın; elə edin ki, adamları təhrik etdiyiniz məsələlər onlara çətin görünməsin.

9-cu qayda. Çalışın ki, adamlar təklif etdiklərinizi ürəklə yerinə yetirsinlər (4, s. 8].

Pedaqoji ünsiyyətin normal qurulduğu hər hansı sinifdə, qrupda və ya kollektivdə tədrisin yüksək səviyyədə olduğu müşahidə olunur və müəllim-şagird münasibətlərində qarşılıqlı anlaşma, sevgi özünü göstərir. Belə siniflərdə müəllim–şagird münasibətləri quru rəsmiyyətçilik hökm sürdüyü siniflərdən və qruplardan fərqli olaraq, qarşılıqlı hörmət, səmimiyyət üzərində qurulur və pedaqoji proses müəllim–şagird əməkdaşlığından faydalanır. Qarşılıqlı hörmət, mehribanlıq, xeyirxahlıq, şagirdin şəxsiyyət kimi qəbul edilməsi, onlara qarşı diqqət, qayğı və s. keyfiyyətlər pedaqoji dəyərlər səviyyəsinə yüksəlir və bunlar pedaqoji peşəkarlığın alətinə çevrilir.

Professor M. İlyasov müəllimin şagirdlərlə ünsiyyət tərzlərinə avtokratik, avtoritar, demokratik və liberal ünsiyyət tərzlərini aid etmişdir. O qeyd edir ki, bunların "...hər biri öz mahiyyətinə uyğun olaraq şagirdlərin xarakter və tərbiyəsinə təsir edir" [5, s. 75].

Avtokratik ünsiyyət tərzinə malik olan müəllim həmişə özünün hakim mövqeyi ilə seçilir. Anlayışın mahiyyətini araşdırdıqda da biz bunun şahidi oluruq. Belə ki,"avto" latın sözü olub "mən", "özüm","kratos" isə "hakimiyyət" deməkdir. Müəllim bu ünsiyyət tərzi ilə şagirdlərə quru əmrlər, göstəriş, tələblər vermək yolu ilə ünsiyyət saxlamağa çalışır. Uşaqlar hər an müəllimin onlara nəyisə irad tutacağını, onlarla sərt davranacağını gözləyirlər.

Qeyd edək ki, xüsusilə ibtidai siniflərdə belə rəhbərlik üslubu olduqca zərərlidir. Çünki belə müəllimlərin dərslərində şagirdlərin əqli inkişafı və bir çox mənəvi keyfiyyətləri yalnız müəllimin rəhbər göstərişlərinə tabe etdirilir. Şagirdlər belə müəllimdən çəkinir, onunla məsləhətə, əməkdaşlığa həvəs göstərmirlər.

Avtoritar ünsiyyət tərzi müəllimin şəxsiyyətinə əsaslanan ünsiyyət tərzidir. Bu zaman yalnız müəllimin göstərişləri həyata keçirilir və müəllim bütün işlərin onun özünün istədiyi kimi yerinə yetirilməsinə çalışır. Burada müəllim adətən yol göstərən, şagird icraçı obyektdir. Müəllim nə desə, necə hərəkət etsə, elə də olmalıdır.

Demokratik ünsiyyət tərzi müəllim-şagird ünsiyyətinin formalaşmasının ən əlverişli və təsirli vasitəsidir. Belə ünsiyyət nəticəsində müəllimlə şagird arasında qarşılıqlı əməkdaşlıq yaranır. Bu ünsiyyət tərzinə malik olan müəllimlər şagirdlərə bir şəxsiyyət kimi baxır, onların təkliflərinə diqqətlə yanaşır, dinləyir, nəzərə alır. Demokratik müəllimin dərslərində uğur daha çox olduğu kimi, o, şagirdlərə də daha yaxın olur.

Liberal ünsiyyət tərzi müəllim və şagird münasibətlərində qeyri-sağlam ünsiyyət tərzi kimi bütün təlim-tərbiyə prosesinə öz mənfi təsirini göstərməyə bilməz. Belə ünsiyyət tərzinə malik olan müəllimlər şagirdlərin bütün hərəkətlərinə adi hal kimi baxır, onlara həddən çox güzəştlər edir və tələbkarlıq göstərmirlər. Liberal ünsiyyətli müəllimlər bəzən şagirdlərlə ünsiyyətə xələl gətirən tərzdə söhbətlər edir, tərbiyə prosesinə laqeyd münasibət bəsləyirlər.

Bütün bunlar belə nəticəyə gəlməyə əsas verir ki, müəllimin kommunikativ qabiliyyəti, ünsiyyət bacarığı pedaqoji prosesdə çox mühüm rol oynayır. Çünki müəllimə məhəbbət fənnə məhəbbətdən əvvəl yaranır. Şagirdlər sevdikləri müəllimin dərsini daha yaxşı oxuyur, onun tapşırıqlarını həvəslə yerinə yetirirlər. Ona görə də hər bir müəllim şagirdlərinin timsalında gələcəyin böyük adamını görməyi, sinifdə sağlam mənəvi-psixoloji mühit yaratmağı bacarmalıdır.

**Problemin aktuallığı.** Pedaqoji ünsiyyət müəllimin şagirdlərlə təlim-tərbiyə prosesində həyata keçirdiyi peşə ünsiyyətidir. Bu cür ünsiyyət hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşması üçün əlverişli şəraitin kömək etmiş olur.

Düzgün qurulmayan pedaqoji ünsiyyət əlbəttə ki, qorxu, inamsızlıq yaradır, diqqətin, iş qabiliyyətinin zəifləməsinə və sonda müəllim-şagird münasibətlərində çətinliklərə səbəb olur. Ona görə də hər bir müəllim pedaqoji ünsiyyətin mahiyyəti, onun mexanizmləri ilə dərindən tanış olmalıdır.

**Problemin elmi yeniliyi.** Elmi məqalədə müəllim-şagird münasibətində özünü göstərən pedaqoji ünsiyyət formaları, tərzləri və üslubları, onların müsbət və mənfi tərəfləri şagirdlərlə əməkdaşlıq baxımından aşkarlanmışdır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Pedaqoji ünsiyyət müəllimdən peşəkarcasına, səriştəli yanaşma tələb edir. Ona yiyələnmək müəllimin bir təhsilverən, tərbiyəçi kimi nüfuzunu yüksəltməklə yanaşı, pedaqoji prosesin məhsuldarlığına da müsbət təsir göstərir. Buna görə də hələ tələbəlik illərindən gələcək müəllimlərə pedaqoji ünsiyyət bacarığına yiyələnməyin texnikası, texnologiyaları haqqında bilik və bacarıqlar aşılanmasında, onların bu sahədə praktik vərdişlər əldə etmələrində elmi məqalə dəyərli mənbədir.

**Ədəbiyyat**

1. Кан-Калик, В.А. Учителю о педагогическом общении / В.А Кан-Калик. - Москва: Просвещение, - 1987. - 190 с.
2. Abbasov, A.N. İxtisasa giriş: Ali təhsil müəssisələri üçün dərs vəsaiti / A.N. Abbasov, R.R. Məmmədzadə. -Bakı: Mütərcim, - 2020. – 164 s.
3. Əlizadə, Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri / Əlizadə Ə. - Bakı: Ozan, 1998, -368 s.
4.Karnegi, D. Dost qazanmaq və adamlara təsir göstərmək sənəti / D.Karnegi. - Bakı: Qanun nəşriyyatı, -2015. -264 s.
5. İlyasov, M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya / M.İ. İlyasov. -Bakı: Elm və təhsil, -2018, -208 s.
6. Abbasov, A.N. Təhsil sisteminin idarəolunmasının pedaqoji-psixoloji problemləri / A.N. Abbasov. -Bakı: Mütərcim, -2011. -340 s.

**Э.Х. Каримова**

**Формы и стили педагогического общения во взаимоотношениях учитель-ученик**
**Резюме**

В научной статье первоначально уточняется содержание понятия педагогического общения. Ссылаясь на авторов ряда исследований в этой области, подчеркивается важность освоения педагогами определенных приемов для правильного построения педагогического общения. Показаны формы лидерской позиции учителя, их положительные и отрицательные стороны.

Ученикам были разъяснены некоторые стили общения и их содержание. Раскрыты правила, подходы и их полезность, которые важно учитывать в отношениях учителя и ученика.

**E.H. Karimova**

**Forms and styles of pedagogical communacation in teacher-pupil relationship**
**Summary**

The scientific article initially clarified the content of the concept of pedagogical communication. Referring to the authors of a number of studies in this field, the importance of mastering certain techniques for the teacher to properly establish pedagogical communication was put forward. The forms of the teacher's leadership position and their positive and negative sides were shown.

A number of communication styles with students and their content were explained. The rules, approaches and their usefulness that are important to consider in teacher-student relations were revealed.

**Redaksiyaya daxil olub:** 03.03.2025

***ÖMÜRBOYU TƏHSİL PROBLEMLƏRİ***
***ПРОБЛЕМЫ НЕПРЕРЫВНОГО ОБРАЗОВАНИЯ***
***PROBLEMS OF CONTINUOUS EDUCATION***

*UOT 378*

# ÖMÜRBOYU TƏHSİLİ TƏMİN EDƏN TƏHSİL İNFRASTRUKTURUNUN ƏSAS ELEMENTLƏRİ VƏ ONLARIN TƏTBİQİ İLƏ BAĞLI AZƏRBAYCANDAKI VƏZİYYƏT

**Abbas İlham oğlu Babayev**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**ORCİD:** 0000-0002-3939-9237
**E-mail:** abbas.babayev@arti.edu.az

***Açar sözlər:*** *ömürboyu təhsil, Milli Kvalifikasiyalar Çərçivəsi, ali təhsil müəssisələrinə qəbul, distant təhsil, kredit toplanması və transferi sistemi, qeyri-formal və informal təhsilin tanınması.*

***Ключевые слова:*** *обучение на протяжении всей жизни, Национальная рамка квалификаций, прием в высшие учебные заведения, дистанционное обучение, система накопления и перевода кредитов, признание неформального и неофициального обучения.*

***Key words:*** *lifelong education, National Qualifications Framework, admission to higher education institutions, distance education, credit accumulation and transfer system, recognition of non-formal and informal learning,*

Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının beş strateji istiqamətindən biri ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasıdır [1]. Strategiyadan irəli gələn Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsində ömürboyu təhsil anlayışının tərifi verilsə də, ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun özündə nə ehtiva etməsi sonrakı dövrlərdə hər hansı bir sənəddə konkretləşdirilmədiyindən tam aydın olmamışdır [2]. Düzdür, həm adıçəkilən Strategiyada, həm də onun həyata keçirilməsi ilə bağlı qəbul edilmiş Fəaliyyət Planında ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması çərçivəsində əsas strateji hədəf və tədbirlər olaraq təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin qurulması, kampusların yaradılması, kitabxana fəaliyyətinin modernləşdirilməsi müəyyənləşdirilmişdir [3]. Yuxarıda sadalanan tədbirlərə diqqətlə nəzər salsaq görərik ki, həmin tədbirlərin, demək olar ki, hamısı formal təhsili əhatə edir, baxmayaraq ki, ömürboyu təhsil anlayışının mahiyyətində istənilən öyrənmə forması ilə, yəni formal, qeyri-formal və informal, bilik, bacarıq və səriştələrin artırılması durur [4, s.18]. Ömürboyu təhsil infrastrukturunun yaradılması istiqamətində tədbirlərin yalnız formal təhsil ilə əlaqələndirilməsi ömürboyu təhsilin təşviqi üzrə alətlərin spektrinin məhdudlaşdırılması və bu istiqamətdə qeyri-formal və

informal təhsilin verə biləcəyi töhfənin düzgün qiymətləndirilməməsi ilə yanaşı, ömürboyu təhsil fəlsəfəsinin yanlış başa düşülməsi ilə də nəticələnə bilər.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, bu məqalədə əsas məqsəd ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun əsas elementlərini və onların tətbiqi ilə bağlı Azərbaycandakı vəziyyəti şərh etməkdir. Tədqiqatın əsas məqsədlərinə nail olmaq mövzu üzrə elmi ədəbiyyat ətraflı öyrənilmiş, müstəqil ekspertlərdən, elm və təhsil istiqamətlərindən dövlət sektorunda çalışan şəxslərdən, habelə təhsil müəssisələrinin nümayəndələrindən müsahibələr götürülmüşdür.

Ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun elementlərinin nəyə xidmət etdiyini anlamaq üçün ömürboyu təhsil anlayışının mahiyyətini başa düşmək zəruridir. İlk növbədə xüsusi vurğulamaq lazımdır ki, ömürboyu təhsil təhsil sisteminə bir yanaşmadır və bu yanaşmanı hər hansı bir təhsil formasına, təhsil pilləsinə, yaş qrupuna, məkana və ya digər bir amilə məhdudlaşdırmaq anlayışın mahiyyətinə ziddir [4, s.19]. Çünki ömürboyu təhsili dəstəkləyən yanaşmanın əsas ideyası insanların bilik, bacarıq və səriştələrinin formalaşdırılmasına və təkmilləşdirilməsinə xidmət edə biləcək öyrənmə imkanlarının onlar üçün əlçatan edilməsi və öyrənmə nəticələrinin tanınmasıdır [5]. Burada ömürboyu təhsil anlayışı ilə bağlı müəyyən dairələrdə mövcud yanlış təsəvvürün aradan qaldırılması üçün əlavə etmək lazımdır ki, ömürboyu öyrənmənin təkcə məşğulluq imkanlarının yaxşılaşdırılmasına və ya işsizliyinin qarşısının alınmasına xidmət etməsi şərt deyil [6]. Başqa sözlə desək, əlçatanlığının artırılması nəzərdə tutulmalı öyrənmə imkanları təkcə iqtisadi məqsədlərə deyil, istənilən məqsədə, məsələn, şəxsi inkişaf, sağlam həyat tərzi, cəmiyyətə xidmət, ekoloji savadlılıq və iqlim dəyişikliyinə qarşı mübarizə və sair xidmət etməlidir [4, s.22].

Qeyd olunanları və mövzu üzrə elmi ədəbiyyatın nəticələrini nəzərə alaraq, ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun əsas elementlərini aşağıda göstərilən şəkildə sistemləşdirmək olar (sxem 1):




**Sxem 1: Ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun əsas elementləri**

İnfrastrukturun əsas elementlərinin ayrıca təhlilinə keçid etmədən öncə infrastruktur ilə bağlı ümumi şəkildə qeyd etmək olar ki, belə təhsil infrastrukturu əsas diqqəti əldə olunan (və gözlənilən) öyrənmə nəticələrinə yönəltməklə müxtəlif təhsil formaları (formal, qeyri-formal və informal), təhsil pillələri və səviyyələri arasında vəhdəti və varisliyi təmin edir, təhsilin əlçatanlığının və cəlbediciliyinin (əvvəlki bilik və bacarıqlar nəzərə alınmaqla qısaldılmış təhsil müddəti) artırılmasını hədəfləyir və qeyd olunanların icrası üçün insanlara dəstək mexanizmlərinin təklif olunmasını nəzərdə tutur [7].

Sözügedən infrastrukturun əsas elementləri ilə bağlı ölkəmizdəki vəziyyətə gəldikdə isə, təhlilin nəticələri aşağıdakı qaydada ümumiləşdirmək olar:

— Qeyri-formal və informal təhsil vasitəsilə əldə edilmiş səriştələrin tanınması mexanizmlərinin formalaşdırılması üzrə son illər ərzində mühüm işlər görülsə də, xüsusilə ilk peşə təhsili səviyyəsi üzrə belə mexanizmlərin qurulması, belə xidmətlərdən istifadə geniş populyarlıq qazanmayıb [8].

— Kredit toplanması və transferi sistemi də hazırda ölkədə natamam formada tətbiq olunur. Belə ki, hazırda kredit sistemi ali təhsilin bakalavriat və magistratura, həmçinin orta ixtisas və yüksək texniki peşə təhsili səviyyələrində tətbiq olunur. Vəziyyətin belə olması insanların hər bir təhsil səviyyəsində kredit toplamasına imkan yaratmır. Bu da öz növbəsində toplanmış kreditləri nəzərə almaqla öyrənənlər üçün qısaldılmış təhsil müddətlərinin tətbiqini hazırkı mərhələdə qeyri-mümkün edir.

— Ölkəmizdə ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi qəbul edilsə də, bu sənəd ömürboyu təhsilin təşviqində effektiv bir alətə çevrilə bilməmişdir. Buna əsas səbəblər olaraq adıçəkilən sənədin kommunikasiya məqsədli sənəd olmasını, yəni onun əsas məqsədinin ölkədəki mövcud kvalifikasiya səviyyələri haqqında məlumatlılığın artırılması olmasını, habelə onun əsas tərkib hissəsi hesab olunan kvalifikasiya deskriptorlarının (hər bir kvalifikasiya səviyyəsi üzrə əsas təlim nəticələri) ümumiləşdirilmiş formada təsvir edilməsini göstərmək olar. Qeyd olunanlar sənədin praktiki bir alətə çevrilməsinə maneə yaradır.

— Distant təhsil "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu ilə təhsilalma formalarından biri kimi müəyyənləşdirilsə də, hazırda ölkədə distant təhsil tanınması mexanizmi kifayət qədər inkişaf etdirilməmişdir [9]. Buna əsas səbəblərdən biri olaraq tədqiqat çərçivəsində həyata keçirilmiş müsahibələrdə distant təhsilin keyfiyyətinə nəzarətdə boşluqlar göstərilmişdir.

— Qəbul mexanizmləri ilə bağlı elmi ədəbiyyatda əsasən ali təhsil müəssisələrinə alternativ qəbul mexanizmlərinin yaradılmasından söhbət gedir. Burada əsas məqsəd müxtəlif seqmentlərdən olan şəxslər üçün ali təhsilin əlçatanlığının artırılmasıdır. Hazırda Azərbaycanda ali təhsil müəssisələrinə əsas qəbul mexanizmini Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilən qəbul imtahanlarında iştirak təşkil edir [10]. Bundan əlavə, subbakalavr peşə-ixtisas dərəcəsinə yiyələnmiş şəxslər, yəni yüksək texniki peşə təhsil səviyyəsinin və orta ixtisas təhsil pilləsinin məzunları, qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə qəbul üçün müsabiqədə iştirak edə bilərlər. Belə mexanizmlər yaradılsa da, onlar yüksək ictimai tələbatla üzləşməmişdir. Bundan əlavə, müsahibələr zamanı ali təhsildə qeyri-formal və informal təhsil vasitəsilə əldə olunmuş səriştələrin tanınması sisteminin olmadığı da vurğulanmışdır. Məsləhət və dəstək xidmətlərinə gəldikdə isə, hazırda belə xidmətlər əsasən peşəyönümlüdür [11].

— Yəni müxtəlif seqmentlərdən olan insanların təhsil trayektoriyalarının formalaşdırılması istiqamətində, məsələn qeyri-formal və informal təhsil vasitəsilə əldə olunmuş səriştələrin tanınması və onun nəticələrinə uyğun olaraq fərdlər üçün yeni təhsil trayektoriyalarının müəyyənləşdirilməsi üzrə dəstək xidmətləri və sair, mövcud deyildir. Belə xidmətlərin sistemləşdirilməsi üçün zəruri amillərdən biri yuxarıda qeyd olunan digər elementlərin tam işlək vəziyyətə gətirilməsidir.

**Problemin aktuallığı.** Ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması təhsilin inkişafı üzrə Azərbaycan Respublikasının Dövlət Strategiyasının əsas strateji istiqamətlərindən biri kimi müəyyən olunmuşdur. Bu səbəbdən belə təhsil infrastrukturunun mahiyyətinin başa düşülməsi, onun əsas elementlərinin təhlili qeyd olunan Strategiyanın effektiv icrasının təmin edilməsi baxımından çox aktualdır.

**Problemin elmi yeniliyi.** Ömürboyu təhsil anlayışının tərifi Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsində verilsə də, ömürboyu təhsili təmin edən təhsil infrastrukturu dedikdə nəyin nəzərdə tutulduğu və bu infrastrukturun ilə bağlı Azərbaycandakı vəziyyət elmi baxımdan araşdırılmamışdır. Bu məqamı məqalənin elmi yeniliyi kimi dəyərləndirmək olar.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Araşdırmanın nəticələri ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması istiqamətində görülən işlərin əhatə dairəsinin genişləndirilməsi və nəticəliliyin təmin edilməsi baxımından əhəmiyyətlidir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // 24 oktyabr 2013-cü ildə təsdiq edilmişdir. Bakı, 2013.

2. Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi // 18 iyul 2018-ci ildə təsdiq edilmişdir. Bakı, 2018.

3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı // 19 yanvar 2015-ci ildə təsdiq edilmişdir. – Bakı, 2015.

4. Making lifelong learning a reality: A handbook / UNESCO Institute for Lifelong Learning. Hamburg, 2022.

5. Education 2030. Incheon Declaration and Framework for Action for the implementation of Sustainable Development Goal 4: Ensure inclusive and equitable quality education and promote lifelong learning opportunities for all / UNESCO. Incheon, 2015.

6. Conceptions and realities of lifelong learning. Background paper prepared for the 2016 Global Education Monitoring Report, Education for people and planet: Creating sustainable futures for all / UNESCO Institute for Lifelong Learning. Hamburg, 2016.

7. International trends of lifelong learning in higher education / UNESCO Institute for Lifelong Learning. Hamburg, 2023.

8. Vətəndaşların peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması məqsədilə imtahanın keçirilməsi və onlara peşə ixtisasını təsdiq edən sənədin verilməsi Qaydası // 5 avqust 2020-ci ildə təsdiq edilmişdir. Bakı, 2020.

9. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu // 19 iyun 2009-cu ildə qəbul edilmişdir. Bakı, 2009.

10. Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları // 8 fevral 2017-ci ildə təsdiq edilmişdir. Bakı, 2017.

11. Peşəyönümünə dair məsləhət xidmətlərinin göstərilməsi Qaydası // 11 iyun 2019-cu ildə təsdiq edilmişdir. Bakı, 2019.

**А.И. Бабаев**

**Основные элементы образовательной инфраструктуры, обеспечивающей обучение на протяжении всей жизни, и состояние их реализации в Азербайджане**

**Резюме**

Принимая во внимание, что создание образовательной инфраструктуры, обеспечивающей обучение на протяжении всей жизни, является одним из основных приоритетных направлений Государственной стратегии Азербайджанской Республики по развитию образования, в статье анализируется сущность такой образовательной инфраструктуры. К основным элементам образовательной инфраструктуры, обеспечивающей обучение на протяжении всей жизни, относятся механизмы признания компетенций, приобретенных посредством неформального и неофициального обучения, Рамка квалификаций, система накопления и перевода кредитов, возможности дистанционного обучения, механизмы приема в высшие учебные заведения, а также службы поддержки. В статье также прокомментировано нынешнее состояние работ, проводимых в Азербайджане по вышеуказанным направлениям, в том числе имеющиеся недостатки.

**A.I. Babayev**

**The main elements of the education infrastructure ensuring lifelong education and the state of their implementation in Azerbaijan**

**Summary**

Considering that creating an education infrastructure that ensures lifelong education is one of the main priorities of the State Strategy of the Republic of Azerbaijan for the development of education, the article analyzes the essence of such an education infrastructure. The main elements of the education infrastructure that ensures lifelong education include mechanisms for recognizing competencies acquired through non-formal and informal learning, the Qualifications Framework, the credit accumulation and transfer system, distance learning opportunities, mechanisms for admission to higher education institutions, as well as information and guidance services. The article also describes the current state of the work done in the above-mentioned areas in Azerbaijan, including the existing shortcomings.

**Redaksiyaya daxil olub:** 16.01.2025

UOT378

# ÖMÜRBOYU TƏHSİL: MÜASİR CƏMİYYƏTİN TƏLƏBİ VƏ ZƏRURƏTİ

**İsmət Şahlar oğlu Qəribov**
*SABAH qrupları, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCİD:** 0009-0003-0402-5555
**E-mail:** i.garibov02@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2024.v21i4.03

***Açar sözlər:*** *ömürboyu öyrənmə, fasiləsiz təhsil*
***Ключевые слова:*** *непрерывное обучение, непрерывное образование*
***Key words:*** *lifelong learning, continuous education*

**Ömürboyu təhsil anlayışı və mahiyyəti -** Ömürboyu təhsil insanın doğulandan ömrünün sonuna qədər davamlı şəkildə öyrənməsi və biliklərini təkmilləşdirməsi prosesidir. Bu anlayış formal təhsildən (məktəb, universitet, peşə təhsili) tutmuş qeyri-formal (kurslar, təlimlər, sertifikat proqramları) və informal (öz-özünə öyrənmə, iş təcrübəsi, sosial öyrənmə) təhsil formalarını da əhatə edir. Ömürboyu təhsil, yalnız peşəkar inkişafı deyil, həm də şəxsi və sosial inkişafı təşviq edər, fərdlərin cəmiyyətə daha fəal və səmərəli şəkildə inteqrasiya olunmasına şərait yaradır.

**Ömürboyu təhsilin tarixi inkişafı -** Ömürboyu təhsil anlayışı XX əsrin ikinci yarısından etibarən təhsil siyasətində və nəzəriyyəsində mühüm yer tutmağa başlamışdır. Bu konsepsiya, fərdlərin həyat boyu davamlı olaraq bilik və bacarıqlarını yeniləməsini və təkmilləşdirməsini nəzərdə tutur. Təhsil nəzəriyyəsi və tarixi üzrə aparılan tədqiqatlar göstərir ki, təhsilin inkişafında praktik fəaliyyətlə yanaşı, nəzəri və tarixi aspektlər də mühüm rol oynayır. Bu yanaşma, cəmiyyətin sosial-iqtisadi, siyasi və mədəni baxımdan harmonik inkişafı üçün əhəmiyyətlidir [3].

**Formal, qeyri-formal və informal təhsil anlayışları -** Ömürboyu təhsil müxtəlif təhsil formalarını əhatə edir:

**Formal təhsil:** Dövlət təhsil sənədinin verilməsi ilə başa çatan təhsil formasıdır. Ümumi təhsil, ilk peşə-ixtisas təhsili, orta ixtisas təhsili və ali təhsil formal təhsilə misal ola bilər [1].

**Qeyri-formal təhsil:** Müxtəlif kurslar, dərnəklər və fərdi məşğələlər vasitəsilə əldə edilən və dövlət təhsil sənədinin verilməsi ilə müşayiət olunmayan təhsil formasıdır. Bu təhsil forması, fərdlərin müəyyən sahələrdə bilik və bacarıqlarını artırmaq üçün istifadə olunur [1].

**İnformal təhsil:** Özünütəhsil yolu ilə biliklərə yiyələnmənin formasıdır. Bu, fərdlərin şəxsi təşəbbüsü ilə, müstəqil şəkildə əldə etdiyi bilik və bacarıqları əhatə edir [1].

**XXI əsrdə ömürboyu təhsilin yeni tələbləri -** Sürətli texnoloji inkişaf və qloballaşma, fərdlərin bilik və bacarıqlarını daim yeniləməsini zəruri edir. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında qeyd olunur ki, təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq imkanı verir [2]. Bu səbəbdən, XXI əsrdə ömürboyu təhsil, fərdlərin həm peşəkar, həm də şəxsi inkişafı üçün əvəzolunmaz bir vasitə kimi qəbul edilir. Qloballaşma, iqtisadi, texnoloji, siyasi və mədəni sahələrdə geniş və əhəmiyyətli dəyişikliklərə səbəb olur. Təhsil müəssisələri, qloballaşmanın gətirdiyi yeni reallıqlara uyğun olaraq proqramlarını və tədris metodlarını yenidən nəzərdən keçirməlidirlər. Bu, tələbələrin qlobal əmək bazarında rəqabət qabiliyyətini artırmaq üçün vacibdir [4].

Texnoloji inkişaf təhsil prosesini və metodlarını dəyişdirir. İnternet və rəqəmsal texnologiyaların geniş yayılması, onlayn təhsil platformalardan və rəqəmsal resurslardan istifadəni artırır. Bu, təhsilin daha əlçatan və çevik olmasına imkan yaradır, amma eyni zamanda müəllim və tələbələrdən yeni bacarıqlar tələb edir.

**Əmək bazarında dəyişikliklər və ömürboyu öyrənmənin rolu -** Əmək bazarı, qloballaşma və texnoloji inkişafın təsiri ilə sürətlə dəyişir. Yeni peşələr yaranır, bəzi ənənəvi peşələr isə əhəmiyyətini itirir. Bu dəyişikliklər, fərdlərin əmək bazarında rəqabət qabiliyyətini qorumaq üçün bilik və bacarıqlarını daim yeniləməsini tələb edir.

Ömürboyu öyrənmə, fərdlərin bu dəyişikliklərə uyğunlaşmasına və yeni imkanlardan yararlanmasına kömək edir. Davamlı təhsil, fərdlərin yeni bilik və bacarıqlar əldə etməsinə, mövcud biliklərini təkmilləşdirməsinə və əmək bazarının tələblərinə uyğunlaşmasına şərait yaradır. Bu, həm fərdi, həm də cəmiyyətin ümumi inkişafı üçün əhəmiyyətlidir.

Ömürboyu təhsil, fərdlərin şəxsi və peşəkar inkişafını dəstəkləyir. Eyni zamanda ömürboyu təhsil, fərdlərin cəmiyyətə daha fəal və səmərəli inteqrasiyasına şərait yaradır. Davamlı öyrənmə, insanların sosial bacarıqlarını inkişaf etdirir, onların cəmiyyətin müxtəlif sahələrində fəal iştirakını təmin edir və onların əmək bazarında rəqabət qabiliyyətini yüksəldir. Tədqiqatlar göstərir ki, ali təhsil alan şəxslərin məşğulluq imkanları və gəlir səviyyəsi daha yüksəkdir. Məsələn, ABŞ və Avropa İttifaqında universitet məzunlarının orta gəlir səviyyəsi, ali təhsili olmayanlarla müqayisədə 60-75% daha yüksəkdir. Bu nisbət Braziliya, Çili və Türkiyə kimi ölkələrdə təxminən 150%-ə çatır [6].

**İqtisadi inkişafa və innovasiyalara töhfəsi -** Ömürboyu təhsil, iqtisadi inkişafın və innovasiyaların əsas amillərindən biridir. Təhsil, insanlara yeni bilik və bacarıqlar qazandıraraq, onların məhsuldarlığını və gəlir səviyyəsini artırır. Bu da öz növbəsində, iqtisadi inkişafa və yoxsulluğun azaldılmasına töhfə verir. Təhsilin iqtisadi inkişafa təsiri ilə bağlı tədqiqatlar göstərir ki, təhsil, iqtisadi artıma təkan verir və ölkənin ÜDM-nin artmasına səbəb olur [7].

Müasir dövrdə ömürboyu təhsilin tətbiqi və problemləri – Ömürboyu təhsil, müasir cəmiyyətin dinamik tələblərinə cavab vermək üçün vacib bir vasitədir. Bu təhsil yanaşması, fərdlərin bilik və bacarıqlarını daim yeniləməsinə imkan yaradır və cəmiyyətin ümumi inkişafına töhfə verir. Lakin, ömürboyu təhsilin tətbiqi prosesində bir sıra imkanlar və problemlər mövcuddur.

Müasir texnologiyalar, ömürboyu təhsil üçün geniş imkanlar və platformalar təqdim edir. Onlayn təhsil platformaları, fərdlərə istənilən vaxt və məkanda öyrənmə imkanı yaradır. Məsələn, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Ömürboyu Təhsil Mərkəzi, müxtəlif kurslar təklif edir və hər bir tələbə üçün fərdi kabinetlər yaradır. Bu kabinetlərdə dərs vəsaitləri və dərslərin video yazıları yerləşdirilir ki, bu da öyrənmə prosesini daha əlçatan və rahat edir [8].

Bundan əlavə, müxtəlif onlayn platformalar və mobil tətbiqlər vasitəsilə fərdlər müxtəlif sahələrdə bilik və bacarıqlarını artırmaq imkanı əldə edirlər. Bu platformalar, ömürboyu təhsilin daha geniş kütlələrə çatdırılmasına və fərdlərin öz inkişaflarını davam etdirməsinə şərait yaradır.

İnkişaf etməkdə olan ölkələrdə isə ömürboyu təhsilin tətbiqi müəyyən çətinliklərlə üzləşir. Ömürboyu təhsilin inkişafı üçün əlavə səylər və resurslar tələb olunur. Bu ölkələrdə təhsil sistemlərinin maliyyələşdirilməsi, infrastrukturun yetərsizliyi və rəqəmsal texnologiyaların məhdud əlçatanlığı kimi problemlər mövcuddur. Təhsil sisteminin inkişafı və davamlılığı üçün adekvat maliyyə resurslarının təmin edilməsi vacibdir. Lakin, bəzi ölkələrdə təhsil sisteminin

maliyyələşdirilməsi kifayət qədər deyil və bu da ömürboyu təhsilin tətbiqini çətinləşdirir [9].

Digər bir problem isə rəqəmsal texnologiyaların əlçatanlığı ilə bağlıdır. Onlayn təhsil platformalarının effektiv istifadəsi üçün yüksək sürətli internet və müvafiq texnoloji avadanlıqların mövcudluğu vacibdir. Lakin, bəzi bölgələrdə bu resurslar məhduddur və bu da ömürboyu təhsilin tətbiqini məhdudlaşdırır.

Bundan əlavə, fərdlərin ömürboyu təhsilə motivasiyası və marağı da əhəmiyyətli bir göstəricidir. Təhsil sistemləri və cəmiyyət, fərdlərin davamlı öyrənməyə olan marağını artırmaq üçün təşviqedici tədbirlər görməlidir.

**Azərbaycan kontekstində ömürboyu təhsil -** Ömürboyu təhsil, Azərbaycanın təhsil siyasətində mühüm yer tutur və ölkənin davamlı inkişaf strategiyalarının əsas komponentlərindən biri hesab olunur. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, ömürboyu təhsilin əhəmiyyətini vurğulayır və bu sahədə bir sıra prioritet istiqamətlər müəyyən edir. Strategiyada qeyd olunur ki, müasir tələblərə cavab verən və ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması vacibdir. Bu məqsədlə, kitabxana fəaliyyətinin modernləşdirilməsi və rəqəmsal təhsil resurslarından istifadə imkanlarının genişləndirilməsi kimi tədbirlər nəzərdə tutulur [10]. Bundan əlavə, Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi (AzMKÇ) təsdiq edilmişdir ki, AzMKÇ, milli kvalifikasiyaların sistemləşdirilməsi üçün əsas sənəd olaraq, ömürboyu təhsilin inkişafına və təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasına xidmət edir [11].

**Yerli və beynəlxalq təcrübələrin müqayisəsi –** Azərbaycanda ömürboyu təhsilin inkişafı istiqamətində atılan addımlar, beynəlxalq təcrübələrlə müqayisədə müəyyən oxşarlıqlara və fərqlərə malikdir. İnkişaf etmiş ölkələrdə ömürboyu təhsil sistemləri daha geniş yayılmış və müxtəlif formalarda təşkil olunmuşdur. Məsələn, Avropa ölkələrində ömürboyu təhsil proqramları geniş yayılmışdır və fərdlərin peşəkar və şəxsi inkişafını dəstəkləyir.

Azərbaycanda isə ömürboyu təhsilin inkişafı üçün UNEC Ömürboyu Təhsil Mərkəzi kimi qurumlar fəaliyyət göstərir. Bu mərkəzlər, beynəlxalq təcrübəni əsas götürərək, Azərbaycan bazarının real ehtiyaclarına uyğun kurslar və proqramlar təklif edir. Bu yanaşma, ölkədə ömürboyu təhsilin inkişafına və beynəlxalq standartlara uyğunlaşdırılmasına töhfə verir [8].

Lakin, ömürboyu təhsilin inkişafı prosesində bəzi çətinliklər də mövcuddur. Məsələn, rəqəmsal texnologiyaların əlçatanlığı və istifadəsi sahəsində bəzi məhdudiyyətlər mövcuddur ki, bu da ömürboyu təhsilin tətbiqini çətinləşdirir. Bu səbəbdən, beynəlxalq təcrübələrin öyrənilməsi və yerli şəraitə uyğunlaşdırılması, ömürboyu təhsilin inkişafı üçün vacibdir. Cəmiyyət və dövlət, ömürboyu təhsilin inkişafı üçün birgə səylər göstərməlidir. Dövlət, təhsil siyasətini ömürboyu təhsili dəstəkləyəcək şəkildə formalaşdırmalı, müvafiq qanunvericilik bazasını yaratmalı və təhsil infrastrukturunu inkişaf etdirməlidir. Cəmiyyət isə, ömürboyu təhsilin əhəmiyyətini qəbul etməli və fərdləri bu prosesə cəlb etməlidir. Təhsil müəssisələri, müxtəlif yaş qruplarına və ehtiyaclara uyğun proqramlar hazırlamalı və tədris metodlarını müasir tələblərə uyğunlaşdırmalıdır.

Ömürboyu təhsilin gələcəyi, texnoloji inkişaflar və qlobal dəyişikliklərlə sıx bağlıdır. Rəqəmsal texnologiyaların sürətli inkişafı, təhsil sahəsində yeni imkanlar və çağırışlar yaradır. Onlayn təhsil platformaları və rəqəmsal resurslar, fərdlərə istənilən vaxt və məkanda öyrənmə imkanı təqdim edir. Bu, ömürboyu təhsilin daha geniş kütlələrə çatdırılmasına və fərdlərin öz inkişaflarını davam etdirməsinə şərait yaradır. Lakin, rəqəmsal uçurum və texnoloji infrast-

rukturun məhdudiyyəti kimi problemlər də mövcuddur. Bu səbəbdən, rəqəmsal təhsil infrastrukturunun inkişafı və texnoloji bərabərliyin təmin edilməsi vacibdir.

**Problemin aktuallığı.** Müasir dövrdə sürətli texnoloji inkişaf, qloballaşma və əmək bazarının dəyişkənliyi fərdlərin bilik və bacarıqlarını daim yeniləməsini zəruri edir. Ənənəvi təhsil sistemi insanlara müəyyən bir yaş dövründə bilik qazandırsa da, bu biliklərin uzunmüddətli perspektivdə yetərsiz olması, yeni şəraitlərə uyğunlaşma zərurəti ömürboyu təhsili vacib hala gətirir. XXI əsrdə bilik və informasiya cəmiyyətinə keçid baş verdikcə, hər bir insanın davamlı olaraq yeni bacarıqlar əldə etməsi və biliklərini yeniləməsi uğurlu həyat və karyera üçün əsas şərtə çevrilir.

İnformasiyanın sürətlə artdığı və dəyişdiyi bir dövrdə peşə sahəsində rəqabətədavamlı qalmaq, iqtisadi və sosial həyatda aktiv iştirak etmək üçün insanlar yeni bilik və bacarıqlara yiyələnməlidir. Ömürboyu təhsil bu ehtiyacları ödəyərək fərdlərə davamlı inkişaf və yeniliklərə uyğunlaşma imkanı yaradır. Bu yanaşma təkcə peşəkar biliklərin artırılması ilə məhdudlaşmır, həm də insanın sosial, mədəni və şəxsi inkişafını təmin edir.

**Problemin elmi yeniliyi.** Ömürboyu təhsil müasir cəmiyyətdə yalnız təhsil sahəsinin deyil, həmçinin sosial, iqtisadi və texnoloji sahələrin transformasiyası üçün strateji bir konsepsiya kimi çıxış edir. Müasir dövrdə texnologiyaların sürətli inkişafı və rəqəmsal transformasiya biliklərin və bacarıqların daim yenilənməsini tələb edir. Bu səbəbdən, ömürboyu təhsil konsepsiyası ənənəvi təhsil anlayışlarından fərqli olaraq, insan həyatının bütün mərhələlərini əhatə edir və fasiləsiz öyrənmə mədəniyyətini təşviq edir.

**Problemin praktiki əhəmiyyəti və tətbiqi.** Ömürboyu təhsilin praktiki əhəmiyyəti, onun fərdlərin şəxsi və peşəkar inkişafını dəstəkləməsi, əmək bazarının tələblərinə uyğun yüksək ixtisaslı kadrların hazırlanması və sosial inteqrasiyanın təşviq olunmasından ibarətdir. Müasir dövrdə sürətli texnoloji dəyişikliklər və qloballaşmanın təsiri ilə rəqabətədavamlı olmaq istəyən hər bir şəxs yeni bilik və bacarıqlar əldə etməli, mövcud biliklərini təkmilləşdirməlidir.

Nəticə – Ömürboyu təhsil, müasir cəmiyyətin inkişafında və fərdlərin şəxsi inkişafında əvəzsiz bir rol oynayır. Bu yanaşma, fərdlərin bilik və bacarıqlarını daim yeniləməsinə, əmək bazarının dəyişən tələblərinə uyğunlaşmasına və cəmiyyətin ümumi inkişafına töhfə verir. Lakin, ömürboyu təhsilin effektiv tətbiqi üçün bir sıra tədbirlər və strategiyalar tələb olunur.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu, 833-IIIQ (2009). E-qanun.az. https://e-qanun.az/framework/18343

2. Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası (2013). President.az. https://president.az/az/articles/view/9779

3. Cəbrayılov, İ. (2019). Təhsilin nəzəriyyəsi və tarixi: fəaliyyətin trayektoriyası. Azərbaycan Məktəbi Jurnalı. https://as-journal.edu.az/t%C6%8Fhsilin-n%C6%8Fz%C6%8Friyy%C6%8Fsi-v%C6%8F-tarixi-f%C6%8Faliyy%C6%8Ftin-trayektoriyasi

4. Azərbaycan Dillər Universiteti. (n.d.). Qloballaşmış dünyada ali təhsilin perspektivləri. ADU.edu.az. https://adu.edu.az/az/xeberler/xeberler/3023.html

5. İzcosoft. (2022, Aprel 5). Rəqəmsal Transformasiya nədir? Nəyi əhatə edir? İzcosoft.com. https://www.izcosoft.com/blog/r-q-msal-transformasiya-n-dir-n-yi-hat-edir-a-15

6. https://tehsil.biz/news/az/24154/Mstqil-
7. https://unec.edu.az/application/uploads/2022/11/Abdullayev-Tural-B-y-kxan.pdf
8.Azərbaycan Dövlət İqtisad Universiteti. (n.d.). Ömürboyu Təhsil Mərkəzi. UNEC.edu.az. https://unec.edu.az/education/omurboyu-tehsil-merkezi/
9. Azərbaycan Məktəbi Jurnalı. (2021). Təhsil sisteminin maliyyələşdirilməsi prosesi təhsilin inkişafı üzrə dövlət strategiyasının əsas istiqamətlərindən biri kimi. AS-Journal.edu.az. https://as-journal.edu.az/t%C6%8Fhsil-sisteminin-maliyy%C6%8Fl%C6%8Fsdirilm%C6%8Fsi-prosesi-t%C6%8Fhsilin-inkisafi-uzr%C6%8F-dovl%C6%8Ft-strategiyasinin-%C6%8Fsas-istiqam%C6%8Ftl%C6%8Frind%C6%8Fn-biri-kimi

**И.Ш. Гарибов**

**Непрерывное образование: требование и необходимость современного общества**

**Резюме**

Непрерывное обучение подразумевает процесс непрерывного обучения людей и играет важную роль в развитии современного общества. Такой подход подчеркивает, что образование не ограничивается школами и университетами, а скорее, что возможности обучения существуют в любом возрасте и при любых обстоятельствах. Непрерывное обучение способствует личностному и профессиональному развитию личности, способствует социальной интеграции и экономическому развитию. Эта концепция также повышает общее благосостояние общества и обеспечивает социальную справедливость. Непрерывное обучение можно выразить как изменчивое, разнообразное, гибкое обучение, которое может продолжаться на протяжении всей жизни, независимо от времени и места.

**I.Sh. Garibov**

**Lifelong learning: a requirement and necessity of modern society**

**Summary**

Lifelong learning refers to the lifelong learning process of individuals and plays an important role in the development of modern society. This approach emphasizes that education is not limited to schools and universities, but rather that learning opportunities exist at all ages and in all circumstances. Lifelong learning supports the personal and professional development of individuals, contributes to social integration and economic development. This concept also increases the general well-being of society and ensures social justice. Lifelong learning can be expressed as learning that is changeable, diverse, flexible and can be continued throughout life, regardless of time and place.

**Redaksiyaya daxil olub:** 27.02.2025

***GƏNC MÜƏLLİMLƏRİN PROBLEMLƏRİ***
***ПРОБЛЕМЫ МОЛОДЫХ УЧИТЕЛЕЙ***
***PROBLEMS OF YOUNG TEACHERS***

*UOT 376.1*

# GƏNC MÜƏLLİMLƏRİN PEŞƏ FƏALİYYƏTİNDƏ QARŞILAŞDIĞI ÇƏTİNLİKLƏRLƏ MÜBARİZƏ ÜSULLARI

**Şəfəq İslam qızı İslamova**
*Azərbaycan Dillər Universitetinin baş müəllimi*
**ORCİD:** 0009-0004-0546-3220
**E-mail:** sh.islamova@mail.ru

***Açar sözlər:*** *motivasiya, mentorluq, texnoloji resurslar, online resurslar, təlim strategiyası, prioritetlər, stress səviyyəsi.*

***Ключевые слова:*** *мотивация, наставничество, технологические ресурсы, онлайн-ресурсы, стратегия обучения, приоритеты, уровень стресса.*

***Key words:*** *motivation, mentoring, technological resources, online resources, learning strategy, priorities, stress level.*

Gənc müəllimlərin peşə fəaliyyətində qarşılaşdıqları çətinliklər və bu çətinliklərlə mübarizə üsulları müxtəlifdir. Bu çətinliklər müəllimlik fəaliyyətinin ilk illərindəki təcrübə çatışmazlığı, sinfin idarə edilməsi problemləri, motivasiya əskikliyi və ya iş yükünün ağırlığı, rəhbərlik və mentorluq əskikliyi, həmçinin texnologiya və resurslardan istifadə ilə əlaqədar yaranan çətinlikləri əhatə edir. Bu problemlərin hər biri ilə mübarizə üsullarını daha ətraflı şəkildə araşdırmaq və çətinliklərin həlli yollarını aşağıdakı kimi ümumiləşdirmək olar:

— Gənc müəllimlər təcrübəsiz olduqları üçün dərs planlaşdırma, sinfin idarə edilməsi və təlim strategiyaları sahəsində çətinlik çəkə bilərlər. Müxtəlif yaş qruplarından olan şagirdlərin fərqli mənəvi ehtiyaclarını və davranışlarını idarə etmək və onlara uyğun tədris metodları tətbiq etmək təcrübə tələb edir. Bu, həm onların dərsinin keyfiyyətinə, həm də şagirdlərin uğurlarına təsir edə bilər [4, s. 127].

— İlk illərdə müəllimlər ağır dərs yükü və stresslə üzləşə bilər ki, bu da onlarda motivasiyanın azalmasına səbəb ola bilər. Sinifdə nizam-intizamı təmin etmək, şagirdlərin diqqətini dərsə yönəltmək və onların motivasiyasını yüksək saxlamaq müəllim üçün böyük bir sınaqdır. Müxtəlif dərs planlarının hazırlanması, sinifdəki vaxtın idarə edilməsi, ev tapşırıqlarının yoxlanması və digər peşə vəzifələri müəllimlərin yorulmasına və onların işə olan həvəsinin azalmasına səbəb ola bilər. Bu hal, sinifdəki ümumi mühitə və təlim prosesinə güclü təsir edə bilər.

— Təcrübəli müəllimlərdən və ya rəhbərlikdən dəstək almaq adətən çətin ola bilir. Təcrübəli müəllimlər və rəhbərlərdən mentorluq məsləhəti almaq, gənc müəllimlərin çətinliklərin öhdəsindən daha asan gəlməsinə çox kömək edər. Müəllimlərə peşəkar məsləhət və dəstək verən mentorların olmaması onların peşəkar inkişafını ləngidə və onların özlərini tək hiss etmələrinə səbəb ola bilər [3, s. 233].

— Peşəkar dəstək qruplarına və uyğun sosal şəbəkələrə qoşulmaq, təcrübə paylaşımı etmək emosional dəstək üçün faydalı ola bilər. Müəllimlər üçün yaradılmış yerli və beynəlxalq şəbəkələrdə iştirak etmək, təcrübə mübadiləsi və peşəkar əlaqələrin qurulması baxımından əhəmiyyətlidir. Bu qruplar müəllimlərin təcrübələrini bölüşməsinə, yaranan çətinlikləri birlikdə müzakirə etməsinə və birgə həll yolları tapmasına kömək edir [2, s. 236].

— Gənc müəllimlər üçün davamlı təlim və peşə inkişafı proqramlarına qatılmaq, onların bilik və bacarıqlarını artırmalarına kömək edir. Bu proqramlar müəllimlərə təlim metodları, sinif idarəetməsi və şagirdlərlə səmərəli ünsiyyət qurma haqqında daha çox məlumat verir. Müəllimlər üçün xüsusi hazırlanmış seminarlar, kurslar və dərnəklər onların öz təcrübəsini artırmağa və peşəkar bacarıqlarını təkmilləşdirməyə kömək edir.

— Özləri barədə həmkarlarının rəyini almaq, özlərini davamlı olaraq düzgün qiymətləndirmək və inkişaf etdirmək üçün vacibdir. Gənc müəllimlərin dərs metodlarının və tədris üsullarının digərləri tərəfindən müntəzəm olaraq qiymətləndirməsi, onların öz zəif tərəflərini müəyyən etmələrinə və təkmilləşdirmələrinə kömək edir. Özləri haqqında rəy almaq müəllimlərin şagirdlərlə daha yaxşı ünsiyyət qurmasına və onların ehtiyaclarını daha yaxşı anlamasına da imkan yaratmış olur.

— Dərs yükünü və vaxtı düzgün balanslaşdırmaq üçün vaxt idarəetmə strategiyalarını öyrənmək vacibdir. Müəllimlər üçün vaxt idarəetmə təlimləri və resursları mövcuddur ki, bunlar onların dərs planlaşdırma və digər peşə vəzifələrini daha effektiv şəkildə yerinə yetirmələrinə kömək edir. Prioritetləri müəyyənləşdirmək və işləri daha səmərəli şəkildə idarə etmək müəllimlərin stres səviyyəsini azaldır və onların işdən məmnunluğunu artırır [8, s. 156].

— Müasir təhsil texnologiyaları və onlayn resurslardan istifadə etməklə dərs prosesini daha maraqlı və effektiv etmək mümkündür. Müəllimlər üçün nəzərdə tutulmuş onlayn platformalar və tədris resursları onların dərs planlaşdırma, tədris materiallarının hazırlanması və şagirdlərin qiymətləndirilməsi prosesində kömək edir. Texnologiyadan səmərəli istifadə etmək, həm də şagirdlərin tədris prosesinə olan marağını artırır və dərs prosesini daha interaktiv edir. Lakin yeni texnologiyalara uyğunlaşmaq və onlardan dərs prosesində səmərəli şəkildə istifadə etmək bəzi müəllimlər üçün çətin ola bilir. Bu zaman müasir təhsil texnologiyaları və resurslardan səmərəli istifadə etmək üçün əlavə təlimlər tələb oluna bilər [7, s. 197].

Bu üsullar, gənc müəllimlərin öz peşə fəaliyyətində qarşılaşdıqları çətinliklərin öhdəsindən gəlmək və uğurlu bir müəllim karyerası qurmaq üçün əhəmiyyətli addımlardır. Gənc müəllimlər, bu çətinliklərin öhdəsindən gəlmək üçün lazımi dəstək və resurslarla təmin edildikdə, tədris prosesində daha effektiv və inamlı ola bilərlər [5, s. 204].

**Problemin aktuallığı.** Gənc müəllimlərin peşə fəaliyyətində qarşılaşdığı çətinliklərin tədqiqi və bu çətinliklərin aradan qaldırılması üsullarının öyrənilməsi hazırkı dövrdə təhsil sahəsi üçün xüsusi aktuallıq kəsb edir. Müasir təhsil sistemi sürətlə dəyişən sosial, texnoloji və pedaqoji tələblərlə qarşı-qarşıya qalır və bu şəraitdə gənc müəllimlərin peşəkar inkişafı, həmçinin onların gündəlik iş mühitində üzləşdikləri problemlərin həlli prioritet məsələlərdən biri kimi qəbul olunur. Məqalə - gənc müəllimlərin qarşılaşdığı çətinliklərin səbəblərini və bu çətinliklərin aradan qaldırılması üçün mümkün üsulları ətraflı şəkildə tədqiq edir. Eyni zamanda, təqdim olunan araşdırma nəticələri təhsil siyasəti və strategiyalarının formalaşdırılmasında rəh-

bər rol oynaya bilər. Belə yanaşma təhsil prosesinin daha keyfiyyətli və səmərəli şəkildə təşkil olunmasına imkan yaradacaqdır.

**Problemin elmi yeniliyi.** Bu məqalədə gənc müəllimlərin peşə fəaliyyətində və şəxsiyyətlərində mövcud olan psixoloji parametrlərin tədqiqinə yeni bir yanaşma təqdim edilir. Müasir təhsil sistemində gənc müəllimlərin psixoloji vəziyyəti və peşəkar çətinlikləri üzərində aparılan araşdırmaların sayı məhdud olduğuna görə bu mövzunun daha dərindən araşdırılması böyük əhəmiyyət daşıyır. Tədqiqatın yeniliyi ondadır ki, müəllimlərin yalnız peşəkar fəaliyyətləri deyil, eyni zamanda onların şəxsi xüsusiyyətləri və bu xüsusiyyətlərin iş mühitinə təsiri sistemli şəkildə təhlil edilmişdir. Bu yanaşma, təhsil müəssisələrinin rəhbərlərinə və təhsil siyasəti ilə məşğul olan qurumlara gənc müəllimlərə dəstək olmaq üçün daha məqsədyönlü strategiyalar hazırlamağa kömək edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Bu məqalə gənc tədqiqatçılar və tələbələr üçün çox faydalı olmaqla yanaşı, onların akademik inkişafında və peşəkar bacarıqlarının təkmilləşdirilməsində dəyərli bir mənbə rolunu oynayacaqdır. Gənc müəllimlərin öz peşə fəaliyyətlərində qarşılaşdıqları çətinliklərin və bu çətinliklərin aradan qaldırılması yollarının dərindən öyrənilməsi, təhsil sahəsində çalışanların gələcəkdə daha hazırlıqlı, təcrübəli və innovativ yanaşmalar sərgiləmələrinə şərait yaradacaqdır. Məqalə yalnız mövcud problemlərin təsvir olunması ilə kifayətlənmir, eyni zamanda gənc müəllimlərin müxtəlif iş mühitlərində qarşılaşdıqları çətinlikləri aşmaq üçün səmərəli strategiya və üsulları da təqdim edir. Belə yanaşma gənc müəllimlərin gələcəkdə öz sahələrində uğurlu karyera qurmasına və yeni nəsil üçün daha keyfiyyətli təhsil mühiti təmin etməsinə kömək edəcəkdir.

## Ədəbiyyat

1. Ağayeva K.C. Sosial-əxlaqi davranışın təhlili. Bakı: Sabah nəşr, 2007.
2. Babayeva.Ş.R., Həsənova.M.F. Sosial psixologiya. Bakı: ADPU-nun nəşri. 2019, 338 s.
3. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Qapp-Poliqraf, 2003, 356 s.
4. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri . Bakı, 2004.
5. Seyidov S.İ., Həmzəyev M.Ə. Psixologiya. Bakı: 2007, 626 s.
6. Dreikurs, R. & Soltz V. Children the Challenge. New York: Hawthorn Books – 2016.
7. Ehrenwald, J. The History of Psychotherapy: From healing magic to encounter. Northvale, NJ: Jason Aronson Inc. – 2011.
8. V.V. Boyko. Educational Psychology. Pearson Edu. Comp. – 2000.

**Ш.И. Исламова**

## Методы преодоления трудностей, с которыми сталкиваются молодые учителя в своей профессиональной деятельности

## Резюме

Трудности с которыми сталкиваются молодые педагоги в своей профессиональной деятельности, и методы борьбы с этими трудностями различны. Эти проблемы включают отсутствие опыта в первые годы преподавания, проблемы управления классом,

отсутствие мотивации или большую рабочую нагрузку, отсутствие руководства и наставничества, а также проблемы, связанные с использованием технологий и ресурсов. В данной статье более подробно рассмотрены способы борьбы с каждой из проблем, а способы решения затруднений изложены в правильной форме.

**Sh.I. Islamova**

**Methods for overcoming the challenges faced by young teachers in their professional activities**

**Summary**

The challenges that young teachers face in their professional lives and the ways they deal with them are diverse. These challenges include lack of experience in the early years of teaching, classroom management problems, lack of motivation or workload, lack of guidance and mentoring, and difficulties related to the use of technology and resources. This article examines the ways to deal with each of these challenges in more detail and summarizes the solutions to the challenges in a concise manner.

**Redaksiyaya daxil olub:** 23.01.2025

*UOT 37.1*

# GƏNC MÜƏLLİMİN PROBLEM HƏLLETMƏ ÜSULLARININ SƏMƏRƏLİLİYİ

**Tahirə Təyyar qızı İbrahimova**
*Azərbaycan Dillər Universitetinin baş müəllimi*
**ORCİD:** 0009-0003-0496-1706
**E-mail:** taira.ibr@mail.ru
**Heyran Məmməd qızı Zeynalova**
*Azərbaycan Dillər Universitetinin baş müəllimi*
**ORCİD:** 0009-0005-4608-3627
**E-mail:** zcavidz@mail.ru

***Açar sözlər:*** *yaradıcı düşünmə, tənqidi düşünmə, komanda işi, emosional intellekt, empatiya, təhlil və monitorinq, strategiya qurmaq.*

***Ключевые слова:*** *творческое мышление, критическое мышление, работа в команде, эмоциональный интеллект, эмпатия, анализ и мониторинг, выработка стратегии.*

***Key words:*** *creative thinking, critical thinking, teamwork, emotional intelligence, empathy, analysis and monitoring, strategy building.*

Müasir tədris mühiti dinamik, rəqabətli və çoxşaxəlidir. Bu mühitdə gənc müəllimlər həm akademik, həm də sosial problemlərlə üzləşə bilərlər. Müasir tədris mühitində problemləri səmərəli həll etmək üçün gənc müəllimlərin aşağıdakı əsas yanaşmaları mənimsəməsi vacibdir. Gənc müəllimin problem həlletmə üsullarının səmərəliliyini artırmaq üçün bəzi əsas yanaşmaları və prinsipləri təqdim edək:

***Problemi düzgün müəyyənləşdirmək.*** Hər bir problemin səmərəli həlli onun dəqiq müəyyənləşdirilməsindən başlayır. Gənc müəllimlər problemi əsas səbəbləri ilə birgə təhlil etməyi bacarmalıdır. Bu, problemləri dərindən anlamaq və uyğun həll yollarını axtarmaq üçün vacibdir. Problemin əsas səbəbini dəqiq təhlil etmək müəllimin həllə doğru ilk addımıdır.

Bir şagirdin dərsdə iştirakının az olması müxtəlif səbəblərdən qaynaqlana bilər: davranış problemi, ailə dəstəyi çatışmazlığı və ya motivasiya əskikliyi. Müəllim bu səbəbləri dəqiq müəyyənləşdirərək məsələyə uyğun həll tapmalıdır.

*Təhlil üsulu:* Müxtəlif məlumat mənbələri, o cümlədən şagirdin davranışı, sinifdaxili mühit və valideynlərin rolu araşdırılmalıdır.

***Əlaqələrin gücləndirilməsi.*** Şagirdlər, valideynlər və həmkarlarla açıq və davamlı ünsiyyət qurmaq tədris prosesində ortaya çıxan problemləri birgə həll etməyə şərait yaradır. Əlaqələrin inkişafı yalnız problemlərin həllini sürətləndirmir, həm də ümumi təhsil mühitini daha sağlam edir. Tədris prosesində şagird, valideyn və həmkarlar arasındakı əlaqələrin gücləndirilməsi problemi həll etməyin əsas komponentlərindən biridir. Gənc müəllimlər açıq və davamlı ünsiyyət qurmağa önəm verməlidirlər. [3, s.160]

*Valideynlərlə əlaqə:* Müəllim, valideynləri təhsil prosesinə cəlb edərək, onların dəstəyini təmin etməlidir. Bu, şagirdlərin akademik və sosial inkişafını stimullaşdırır.

Təcrübəli müəllimlərdən məsləhət almaq və birgə həll yolları axtarmaq problemlərin daha tez və effektiv həllinə kömək edir.

*Nəticə:* Güclü əlaqələr şagirdlərin daha çox dəstəklənməsini və tədris prosesində problemlərin kollektiv şəkildə həll olunmasını təmin edir. Problemləri müzakirə edərək ortaq həll yolları tapmaq mümkün olur.

***Tənqidi və yaradıcı düşünmə.*** Problemi müxtəlif perspektivlərdən analiz etmək və yaradıcı həll yolları tapmaq səmərəliliyi artırır. Alternativ yanaşmaları nəzərdən keçirərək ən uyğun olanını seçmək müəllimin çevik düşünmə qabiliyyətini gücləndirirə.

Gənc müəllim tənqidi düşünmə qabiliyyəti ilə problemi müxtəlif perspektivlərdən analiz etməlidir. [4, s.168]

Alternativ həll yollarını nəzərdən keçirərək ən uyğun olanını seçmək vacibdir.

***Komanda işindən istifadə.*** Komanda işi problemlərin həlli zamanı gənc müəllimlər üçün dəyərli bir resursdur. Digər müəllimlər, məktəb rəhbərliyi və dəstək qrupları ilə əməkdaşlıq həm təcrübəni artırır, həm də problemləri daha təsirli şəkildə həll etməyə kömək edir. Komanda işi resursların genişlənməsinə və təcrübələrin paylaşılmasına şərait yaradır.

Problemi həll etmək üçün digər müəllimlərdən, məktəb rəhbərliyindən və ya dəstək qruplarından kömək istəmək həm təcrübəni artırar, həm də resursları genişləndirər.

*Həmkar dəstəyi:* Müxtəlif müəllimlərin təcrübələrindən öyrənmək yeni anaşmalar tətbiq etməyə şərait yaradır.

*Rəhbərliklə əməkdaşlıq:* Məktəb rəhbərliyindən məsləhət və dəstək almaq resurslardan səmərəli istifadəni təmin edir.

*Nəticə:* Komanda işində iştirak müəllimlər arasında həm təcrübə mübadiləsini artırır, həm də problemlərin kompleks həllinə töhfə verir.

*Texnologiya və resurslardan faydalanmaq.* Tədris texnologiyaları müasir tədris mühitində problemlərin həllində əvəzedilməz vasitədir. Tədris texnologiyalarının tətbiqi problemlərin həllini asanlaşdırır. Məsələn, zəif oxu bacarığı olan şagirdlər üçün interaktiv öyrənmə proqramları tətbiq etmək səmərəli nəticələr verə bilər. Texnologiya müasir tədris mühitində əvəzolunmaz vasitədir.

Şagirdlərin zəif oxu bacarığını inkişaf etdirmək üçün interaktiv tədris proqramlarından istifadə etmək mümkündür. Bu, onların marağını artırmaq və öyrənmə prosesini əyləncəli etmək üçün təsirli vasitədir. Təhsil texnologiyalarından istifadə problemlərin həllini asanlaşdıra bilər. Məsələn, zəif oxu qabiliyyətinə malik şagirdlər üçün interaktiv öyrənmə proqramları tətbiq edilə bilər.

*Digər resurslar:* Kitabxanalar, təhsil platformaları və digər əlavə mənbələrdən istifadə müəllimin tədris prosesindəki effektivliyini artırır.

*Emosional intellekt və empatiya.* Müəllim şagirdlərin yalnız akademik deyil, şəxsi ehtiyaclarını da başa düşməlidir. Gənc müəllimlər şagirdlərin emosional vəziyyətini anlamağa çalışmalı və onların fərdi xüsusiyyətlərini nəzərə almalıdır.

Şagirdin davranışının yalnız akademik səbəblərə deyil, şəxsi problemlərə də bağlı ola biləcəyini qəbul etmək vacibdir.

Empatiya, müəllimin problemləri daha dərindən anlamasına və uyğun həllər tapmasına kömək edir.

Müəllim şagirdləri emosional cəhətdən anlamağa çalışmalıdır. Problemin yalnız akademik deyil, şəxsi səbəblərini də nəzərə almaq faydalıdır.

*Nəticə:* Müəllim empatik yanaşma ilə şagirdlə daha dərin bir əlaqə qura bilər, bu da problemin həllini asanlaşdırır.

***Təhlil və monitorinq.*** Problemlərin həlli üçün tətbiq olunan üsulların təsirini izləmək və təhlil etmək vacibdir. Tətbiq olunan həll üsullarının təsirini davamlı olaraq izləmək və lazım olduqda yeni yanaşmalara keçmək lazımdır. Monitorinq səmərəliliyi təmin edir və tədris prosesini inkişaf etdirir.

Hər hansı bir həll üsulunun təsirini davamlı olaraq izləmək lazımdır. Müəllim davamlı olaraq tətbiq etdiyi həll üsullarının effektivliyini qiymətləndirməli və lazım olduqda yeni yanaşmalar tətbiq etməlidir.

Əgər tətbiq olunan həll təsirli deyilsə, fərqli yanaşma seçilməlidir.

***Nəticə:*** Təhlil və monitorinq səmərəli tədris mühitinin davamlı olaraq inkişaf etdirilməsinə şərait yaradır.

***Məqsəd qoymaq və strategiya qurmaq.*** Problemlərin həllində məqsədlərin dəqiq müəyyən edilməsi və strategiyanın qurulması prosesin uğurlu həyata keçirilməsinə kömək edir. Hər problem üçün qısa və uzunmüddətli məqsədlər müəyyən edilməli və konkret strategiyalar qurulmalıdır. Bu, prosesin daha effektiv və idarəolunan olmasına kömək edir. [2, s.135]

Hər bir problemin mərhələlərlə həlli üçün konkret məqsədlər təyin edilməlidir. Qısa və uzunmüddətli məqsədlər müəyyən edilməli, hər mərhələdə konkret addımlar atılmalıdır.

***Tətbiq planı:*** Hər mərhələdə konkret addımların həyata keçirilməsi səmərəliliyi artırır.

***İnnovasiyalara açıq olmaq.*** Müasir tədris metodlarının tətbiqi və fərdi tədris yanaşmalarının tətbiqi problemlərin həllini daha təsirli edir.

Şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun dərs planları onların tədris mühitində daha fəal iştirak etməsinə imkan yaradır. Yaradıcı dərs planları və müasir metodlar təhsil keyfiyyətini yüksəldir.

***Yeni metodikalar:*** Fərqli yanaşmaların tətbiqi təhsilin keyfiyyətini artırır. Yeni metodikalar, fərdi tədris yanaşmaları və yaradıcı dərs planları tətbiq etmək, problemləri daha effektiv şəkildə həll etməyə kömək edir.

***Müsbət yanaşma və səbir.*** Problemlərin həlli uzun müddət tələb edə bilər.

Problemlərin həlli vaxt və səbir tələb edir. Səbirli və optimist olmaq müəllimin həm şəxsi inkişafına, həm də mühitin yaxşılaşmasına töhfə verir.

***Müsbət yanaşma:*** Müəllim pozitiv düşünərək qarşılaşdığı problemlərə həll mərkəzli yanaşır.

***Səbir:*** Uğursuzluqlara qarşı dözümlü olmaq və davamlı olaraq yeni yollar axtarmaq vacibdir. Problemlərin həlli uzun müddət tələb edə bilir. Gənc müəllim səbirli olmalı və prosesdə optimist yanaşmasını qorumalıdır. [1, s. 277]

Bu üsulların mütəmadi olaraq tətbiqi gənc müəllimin həm şəxsi, həm də peşəkar inkişafına kömək edəcək və problemin həlli daha səmərəli olacaqdır. Gənc müəllimlər yuxarıda göstərilən üsulları tətbiq edərək problemləri daha səmərəli şəkildə həll edə bilər. Bu yanaşmalar təkcə problemlərin həllinə deyil, həm də müəllimin peşəkar inkişafına və tədris mühitinin keyfiyyətinin artmasına səbəb olacaqdır.

**Problemin aktuallığı.** Müasir tədris mühitində gənc müəllimlərin qarşılaşdığı problemlərin aktuallığı, təhsil sistemində baş verən dinamik dəyişikliklər və artan tələblərlə

əlaqəlidir. Rəqəmsal texnologiyaların sürətlə inteqrasiyası, fərqli sosial-iqtisadi və mədəni mənşəli şagirdlərlə işləmək, valideynlərin təhsil prosesində iştirakı kimi məsələlər gənc müəllimlər üçün yeni çağırışlar yaradır. Bu səbəbdən problem, təhsil mühitində daha yüksək keyfiyyət və effektivlik əldə etmək üçün həmişəkindən daha çox əhəmiyyət kəsb edir.

**Problemin elmi yeniliyi.** Problemin yeniliyi, müasir texnologiyalar, fərdiləşdirilmiş tədris metodları və innovativ yanaşmaların istifadəsi ilə bağlıdır. Gənc müəllimlər üçün ənənəvi problemlərə müasir həll yolları tapmaq zərurəti yaranır. Xüsusilə rəqəmsal təhsil vasitələrinin tətbiqi, emosional intellektə əsaslanan metodikalar və interaktiv öyrənmə yanaşmaları bu sahədə yenilikçi yanaşmaların əsasını təşkil edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Problemin praktik əhəmiyyəti, onun təhsil keyfiyyətinə və şagirdlərin akademik-sosial inkişafına birbaşa təsiri ilə əlaqədardır. Müasir yanaşmaların tətbiqi gənc müəllimlərin daha effektiv və çevik şəkildə problemləri həll etməsinə imkan yaradır. Bunun nəticəsində:

- Şagirdlərin tədris nəticələri yaxşılaşır.
- Sinif mühiti daha inklüziv və müsbət hala gəlir.
- Müəllimlərin peşəkar bacarıqları təkmilləşir və onların stress səviyyəsi azalır. Bu, təhsil sektorunda ümumi inkişafın təmin olunmasına töhfə verir.

### Ədəbiyyat

1. Həmzəyev M.Ə. Yaş və pedoqoji psixologiyanın əsasları. Bakı: Adiloğlu, 2003.
2. Məmmədov Q. Ş. Xəlilov M. Y. Ensiklopedik ekoloji lüğət. Bakı: Nurlan, 2008.
3. Xəlilov İ.Ə. Hacıyeva A.N. Kitab-Ekologiya-2. Bakı: Mütərcim, 2009.
4. Məmmədov Q.Ş. Xəlilov M.Y. Ekolgiya, ətraf mühit və insan. Bakı: Mütərcim, 2006.
5. Белов С.В. Бабинов Ф.А. Охрана окружающей среды. Москва: Верс, 2019.

**Т.Т. Ибрагимова, Х.М. Зейналова**

### Эффективность методов решения проблем молодого учителя
### Резюме

Для эффективного решения проблем в современной педагогической среде молодым учителям важно применять современные подходы. Регулярное применение методов решения проблем в процессе обучения молодого учителя способствует как его личностному, так и профессиональному развитию. Молодые учителя могут более эффективно решать проблемы, применяя вышеперечисленные современные методы. Данные подходы приведут не только к решению проблем, но и к профессиональному развитию учителя и повышению качества педагогической среды.

**T.T. Ibrahimova, H.M. Zeynalova**

**The effectiveness of a young teacher's problem-solving methods**
**Summary**

For the effective solution of problems in the modern pedagogical environment, it is important for young teachers to apply modern approaches. Regular use of problem solving methods in the process of training a young teacher contributes to both his personal and professional development. Young teachers can solve problems more effectively using the above-mentioned modern methods. These approaches lead not only to solving problems, but also to the professional development of the teacher and the improvement of the quality of the pedagogical environment.

**Redaksiyaya daxil olub:** 23.01.2025

***SABAH QRUPLARINDA İŞ***
***РАБОТА В ГРУППАХ САБАХ***
***WORK in SABAH GROUPS***

*UOT378*

# AZƏRBAYCAN ALİ TƏHSİL SİSTEMİNDƏ SABAH QRUPLARI LAYİHƏSİNİN ZƏRURƏTİ

**Aytən Araz qızı Davud**
*SABAh qrupları, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCID:** 0009-0005-9192-5002
**E-mail:** aytan.davud.a@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2024.v21i4.04

***Açar sözlər:*** *Azərbaycan ali təhsili, SABAH qrupları layihəsi, rəqabətli mühit, innovativ təhsil, əmək bazarı*

***Ключевые слова:*** *высшее образование в Азербайджане, проект групп SABAH, конкурентная среда, инновационное образование, рынок труда*

***Key words:*** *higher education in Azerbaijan, SABAH groups project, competitive environment, innovative education, labor market*

Müasir dövrdə təhsilin keyfiyyəti və məzunların əmək bazarına uyğunluğu hər bir ölkənin iqtisadi və sosial tərəqqisi üçün vacib amillərdən biridir. Azərbaycan öz ali təhsil sistemini beynəlxalq standartlara uyğunlaşdırmaq və rəqabətqabiliyyətli kadrlar yetişdirmək məqsədilə bir sıra islahatlar həyata keçirmişdir. Yeni təhsil modellərinin tətbiqi, innovativ yanaşmaların qəbul edilməsi və yüksək ixtisaslı mütəxəssislərin hazırlanması, ölkənin təhsil siyasətində prioritet məsələlərdən biridir. Bu kontekstdə, SABAH qrupları layihəsi Azərbaycan ali təhsil sistemindəki mövcud ehtiyaclara cavab olaraq yaradılmış və gənc istedadlı tələbələrə yüksək keyfiyyətli təhsil imkanları təqdim edən bir təşəbbüs kimi diqqət çəkir.

SABAH qrupları layihəsi 2014-cü ildən etibarən Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən həyata keçirilən xüsusi təhsil proqramıdır. Layihənin əsas məqsədi ali təhsilin keyfiyyətini yüksəltmək, istedadlı tələbələr üçün daha əlverişli akademik mühit yaratmaq və əmək bazarının tələblərinə uyğun yüksək ixtisaslı mütəxəssislər yetişdirməkdir.

XXI əsrin tələblərinə uyğun, müasir kompetensiyalara cavab verən, beynəlxalq arenada rəqabətədavamlı kadrların yetişdirilməsi müasir təhsilin qarşısında duran əsas tələblərdəndir. Bu səbəbdən, tədris keyfiyyətinin artırılması, məzunların əmək bazarına uyğunluğu və innovativ yanaşmaların tətbiqi kimi məsələlərə ali təhsil siyasətinin formalaşdırılmasında xüsusi diqqət ayrılır.

Statistika göstərir ki, ali təhsil müəssisələrində tədris prosesinin keyfiyyəti müasir dövrün tələblərinə yetərincə cavab vermir. Bu, ali təhsil müəssisələrində praktiki biliklərin kifayət qədər tədris olunmaması, ənənəvi metodların dominant olması ali təhsil proqramlarının əmək bazarının real tələbləri ilə tam uzlaşmaması və təcrübəyə əsaslanan öyrənmə metodlarının az tətbiq olunması ilə əlaqələndirilir.

Bütün bu problemlər ali təhsildə yeni yanaşmalara ehtiyac olduğunu göstərir. Son illərdə tətbiq edilən bir sıra strateji sənədlər və qanunlar, yaradılan layihələr ali təhsilin modernləşdi-

rilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində mühüm addımlar atıldığını göstərir. Misal olaraq, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasını, 2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramını, Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetləri vurğulaya bilərik (1).

SABAH qrupları layihəsi də məhz dövlətin bu sahədə apardığı islahatların bir hissəsi kimi yaradılmışdır. 2014-cü il 19 iyun tarixində Azərbaycan Respublikasının Təhsil nazirinin 734 №-li əmri ilə əmək bazarının artan tələblərinə müvafiq olaraq intellektual və yaradıcılıq potensialının inkişafı və ixtisaslar üzrə kompetensiyalara tam yiyələnməni, ali təhsilin keyfiyyətinin yüksəldilməsini və tədrisin təşkilində mütərəqqi forma və metodların tətbiqini təmin etmək məqsədi ilə yaradılmışdır. Dövlət tərəfindən maliyyələşdirilən bu proqram çərçivəsində tələbələrə təqaüdlər, xaricdə təcrübə imkanları və müasir laboratoriyalardan istifadə hüququ təqdim olunur (2). Fəaliyyət göstərdiyi 10 il ərzində layihə tələbə və müəllimlərin xüsusi meyarlar əsasında seçimini müəyyənləşdirmiş, onların inkişafını təmin etmək məqsədilə müxtəlif təlimlər, seminarlar, qış məktəbləri, yarışlar, festivallar və s. təşkil etmişdir.

Layihə, yalnız ali təhsil müəssisələrinin strukturlarında deyil, həm də ölkənin sosial və iqtisadi inkişafında mühüm dəyişikliklərə səbəb ola biləcək bir təhsil yeniliyi olaraq qiymətləndirilir. SABAH qruplarının məqsədi, Azərbaycan gənclərinin innovativ düşünmə qabiliyyətlərini inkişaf etdirmək, müasir tədris metodları və qabaqcıl elmi tədqiqat imkanları təqdim etməklə, onların ölkə iqtisadiyyatına və cəmiyyətə töhfə verməkdir.

Layihənin fəaliyyəti zamanı əsas diqqət yetirilən məsələlər aşağıdakı kimidir:

— **Keyfiyyətli kadr hazırlığının aktuallığı və məzunların əmək bazarında rəqabət qabiliyyətinin artırılması.** Müasir dövrdə əmək bazarı daim dəyişir və yeni texnologiyaların tətbiqi ilə işəgötürənlərin tələbləri də yüksəlir. Ənənəvi təhsil metodları tələbələrin praktiki bacarıqlarını tam inkişaf etdirmədiyi üçün məzunlar iş tapmaqda çətinlik çəkirlər. SABAH qrupları tələbələrə daha dərin biliklər və praktiki təcrübə qazanmaq üçün geniş imkanlar yaradır.

Tədqiqatlar göstərir ki, SABAH qruplarını bitirən 85% məzunlara universiteti bitirdikdən sonra bir il ərzində iş tapmaq imkanı yaranır. 2024-ci ildə SABAH qrupları çərçivəsində məzunların 70%-inin Azərbaycanda və xarici ölkələrdə əmək fəaliyyəti ilə məşğul olduğu bildirilmişdir (3).

— **Təhsil və əmək bazarı arasında əlaqənin gücləndirilməsi.** Əmək bazarı ilə təhsil müəssisələri arasında əlaqənin zəif olması məzunların işə qəbul prosesində çətinlik çəkməsinə, əmək fəaliyyətində zəruri və müasir bacarıqlara yiyələnə bilməməsinə səbəb olur. Bu istiqamətdə, SABAH qrupları layihəsi əmək bazarının nümayəndələrinin tədris prosesinə cəlb olunmasına, xüsusilə ixtisas fənlərinin sahənin professionalları tərəfindən tədris olunmasına xüsusi diqqət ayırır. Həmçinin, tələbələrin ixtisasları üzrə müxtəlif təcrübə proqramlarında, seminarlarda, təlimlərdə iştirak etməsinə şərait yaradır.

— **Beynəlxalq təcrübənin tətbiqi və innovativ yanaşmalar.** Layihə çərçivəsində professor-müəllim heyətinin peşəkarlığının artırılması məqsədilə xarici mütəxəssilərin iştirakı ilə seminarlar təşkil edilir, tələbələr üçün xarici ali təhsil müəssisələrinin müəllimləri ilə seminarlar, təlimlər, ustad dərsləri və s. təşkil olunur. Bu yanaşma təhsilin keyfiyyətini artıraraq tələbələri daha geniş perspektivlərə hazırlayır.

— **Tədris keyfiyyətinin yüksəldilməsi.** SABAH qrupları layihəsi ali təhsil müəssisələrində keyfiyyət standartlarını artırmaq məqsədi daşıyır.

**Nəticə.** SABAH qrupları layihəsi Azərbaycan ali təhsilində mühüm islahatlardan biri kimi tələbələrin akademik və praktiki biliklərinin artırılmasına, onların əmək bazarında daha rəqabətqabiliyyətli kadrlar kimi formalaşmasına xidmət edir. Layihənin həyata keçirildiyi müddət ərzində təhsilin keyfiyyətinin yüksəlməsi, tələbələrin innovativ düşüncə və praktiki bacarıqlarının inkişaf etdirilməsi, eyni zamanda əmək bazarına daha yaxşı hazır olmaları istiqamətində mühüm irəliləyişlər əldə olunmuşdur.

Bütün bu amillər nəzərə alındıqda, SABAH qrupları Azərbaycan təhsil sistemində innovativ və dayanıqlı inkişaf modelinin nümunəsi kimi çıxış edir. Layihənin genişləndirilməsi və təkmilləşdirilməsi ölkədə yüksək keyfiyyətli ali təhsilin inkişafına və gələcək nəsillərin daha bilikli, bacarıqlı və rəqabətqabiliyyətli olmasına mühüm töhfə verəcəkdir.

**Problemin aktuallığı.** Fəaliyyəti boyunca yüksək göstəricilər və hazırda əmək bazarında SABAH məzunlarına olan tələbat araşdırmanın aktual olduğunu qeyd etməyə əsas verir.

**Problemin elmi yeniliyi.** Son 10 ildə fəaliyyət göstərən və hazırda da fəaliyyətini davam etdirən layihə ilə bağlı tədqiqatların çox az olması bu mövzunun araşdırılmasını zəruri edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** SABAH qrupları layihəsinin tələbələrin sadəcə akademik biliklərinin deyil, həmçinin işgüzar bacarıqlarının, sosial fəaliyyətlərinin dəstəklənməsini təmin etdiyini nəzərə alaraq, fəaliyyətinin və əldə etdiyi nəticələrin araşdırılması effektiv tədris üsullarının müəyyənləşdirilməsində önəmli rol oynayacaqdır.

### Ədəbiyyat

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. 2020-ci il üzrə Hesabat. 2020.

2. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Təhsildə yüksək nəticələr göstərən tələbələrdən ibarət SABAH qruplarının yaradılması barədə Əmr. 2014.

3. Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın hesabatı. 2024.

4. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // 2013, 24 oktyabr.

5. 2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı // 2018, 16 noyabr.

6. https://edu.gov.az/uploads/Hesabat/TN-hesabat-2021.pdf

7. https://edu.gov.az/uploads/Hesabat/TN-hesabat-2022.pdf

8.https://www.anl.az/down/meqale/az_muellimi/2014/oktyabr/395687.htm

9.https://www.oecd.org/content/dam/oecd/en/about/projects/edu/education-2040/concept-notes/OECD_Learning_Compass_2030_concept_note.pdf

**А.А. Давуд**

**Необходимость проекта группы сабах (SABAH) в системе высшего образования Азербайджана**
**Резюме**

Проект групп САБАХ (SABAH) является успешным примером инновационной и устойчивой модели развития в системе высшего образования Азербайджана. Группы САБАХ (SABAH) были созданы с целью повышения качества в системе высшего образования, внедрения инновационных подходов и повышения конкурентоспособности выпускников на рынке труда. В статье раскрыта необходимость и основные особенности проекта групп САБАХ (SABAH), рассматривается положительное влияние проекта на общество, экономическое развитие, а также высшее образование и рынок труда, анализируются его дальнейшие перспективы. Устойчивое развитие проекта имеет большое значение для укрепления человеческого капитала в стране.

**A.A. Davud**

**The necessity of SABAH groups project in the Azerbaijan higher education system**
**Summary**

SABAH groups project is a successful example of an innovative and sustainable development model in the Azerbaijani higher education system. SABAH groups were created with the aim of improving the quality of the higher education system, introducing innovative approaches and increasing the competitiveness of graduates in the labor market. The article explains the necessity of SABAH groups project, its main features, examines the positive impact of the project on society, economic development, as well as higher education and the labor market, and analyzes its future prospects. The sustainable development of the project is of great importance in strengthening human capital in the country.

**Redaksiyaya daxil olub:** 03.03.2025

***TƏRBİYƏ TEXNOLOGİYALARI***
***ВОСПИТАТЕЛЬНЫЕ ТЕХНОЛОГИИ***
***UPBRINGING TECHNOLOGIES***

*UOT 37.*

# ŞAGİRDLƏRİN HƏRBİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ İŞİNİN TƏŞKİLİ

**Əfsanə İsa qızı Məmmədova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0001-4504-5355
**E-mail:** efsane.memmedova.0110@gmail.com

***Açar sözlər:*** *Vətən, dərs, şagird, hərbi vətənpərvərlik, məktəb.*
***Ключевые слова:*** *Родина, урок, ученик, военный патриотизм, школа.*
***Key words:*** *Motherland, lesson, student, military patriotism, school.*

Şagirdlərin vətənpərvərlik tərbiyəsi, xüsusi ilə hərbi vətənpərvərlik tərbiyəsi onların vətənə, torpağa bağlılıq hisslərinin inkişaf etdirilməsi, milli-mənəvi dəyərlərin aşılanması və vətəndaşlıq şüurunun formalaşdırılmasına xidmət edir. Hərbi vətənpərvərlik tərbiyəsi uşaqların kiçik yaşlarından başlayaraq ailədə, məktəbdə və eyni zamanda cəmiyyətdə həyata keçirilir.

1-ci və 5-ci siniflərdə hərbi vətənpərvərlik tərbiyəsinin təşkili ilk növbədə vətən anlayışının aşılanması, şagirdlərin vətəninə sevgi və hörmət hissi ilə yanaşması, vətənin müdafiəsinə hazırlıqlı olması üçün mühüm əhəmiyyət daşıyır. Bu yaş dövrü şagirdlərin kiçik yaş dövrünü əhatə etdiyinə görə, mövzuya həssas yanaşmaq lazımdır.

Ədəbiyyatı, mədəni irsi qədim olan xalq zəngin xalqdır. Xalqımızın tarixinə nəzər saldıqda hərbi vətənpərvərlik mövzusu haqqında kifayət qədər bədii materiallar mövcuddur. Şifahi xalq ədəbiyyatından "Kitabi-Dədə Qorqud" dastanı, "Koroğlu" eposu, "Qaçaq Nəbi" kimi dastanları yazıb-yaşadan xalq qəhrəmanlıq tarixinə malikdir "Vətən borcu" bir neçə şəxsin deyil, bütövlükdə cəmiyyətin məsələsi hesab olunur. Mövzu Vətən olduqda, qadını da, kişisi də, yeri gəlsə uşağı da, bir yumruq kimi birləşərək, mübarizə aparmalıdır. Dastanlarda birləşən müxtəlif sosial və mədəni mövzular xalqımızın müstəqillik mübarizəsi, sevgi, ədalət, vətənpərvərlik anlayışları müasir ədəbiyyatın da təməl mövzuları olmuşdur. Şairlərimiz də bu dəyərləri yaşatmaq və gələcək nəsillərə çatdırmaq üçün dastanlardakı mövzuları öz əsərlərində istifadə etmişlər.

Səməd Vurğunun "Azərbaycan" şeirinin "Mən bir uşaq, sən bir ana, odur ki, bağlıyam sana" misralarında (1) Vətən sevgisinin ana sevgisi ilə bir tutulması, Vətənin ana qədər dəyərli olmasını görmək mümkündür. Hərbi vətənpərvərlik tərbiyəsinin vacibliyi və önəmi haqqında atalar sözlərinə fikir yetirsək, "Vətən sevgisi hər bir kəsin borcudur", "Vətənini sevən, millətini də sevər", "Vətənini qoruyan özünü qoruyar" və s. kimi kifayət qədər ibrətamiz ifadələr mövcuddur.

Müharibəni yenicə qalibiyyətlə bitirən bir xalq olaraq, neçə-neçə igidlərimizin qorxmadan, ölümü gözə alaraq, qürurla müharibədə iştirak etməsi, "Kitabi-Dədə Qorqud" eposunda Qorqud atanın igidlərini səsləyərək, onlar üçün həvəsləndirici nəğmələr deyərək müharibəyə sövq

etməsi, xalqın gücünə arxalanaraq onları qalibiyyətə inandırmasına bənzəyir. Xalqımızın qəlbinin daim əsgərləri ilə birgə döyünməsi, Vətən dərdinin xalq dərdi olması bizə keçmişimizi xatırladır.

Ailədə əsası qoyulan tərbiyənin daha sonrakı inkişafı məktəbdə həyata keçirilir. Lakin şagirdlərdə hərbi vətənpərvərlik tərbiyəsi aşılamaq nisbətən mürəkkəb proses sayılır. Birinci sinif şagirdlərinin ümumi psixoloji dəyərləndirilməsi aparıldıqda, şagirdlərdə mücərrəd təfəkkürün tam formalaşmadığı nəzərə alınır.

1-ci sinifdə şagirdlər kiçik yaşda olduqları üçün onlarda hərbi vətənpərvərlik hisslərinin formalaşdırılması daha çox oyunlar, nağıllar, şeirlər və digər əyləncəli vasitələrlə həyata keçirilməlidir. Bu mərhələdə şagirdlərə aşağıdakı mövzular üzrə məlumatlar verilə bilər:

Vətənimizin təbiəti: Şagirdlərə Azərbaycanın təbiəti, meşələri, dağları, dənizləri haqqında məlumatlar verilir. Onlarda vətənə sevgi hissi oyadılır. Bunların nəticəsi olaraq, şagirdlərə Azərbaycanın coğrafi tarixi barədə məlumat verilir.

Milli qəhrəmanlarımız: Uşaqlara Azərbaycanın milli qəhrəmanları, onların igidlikləri haqqında nağıllar danışılır, şeirlər oxunur.

Dövlət rəmzlərimiz: Uşaqlara Azərbaycanın bayrağı, gerbi və himni haqqında məlumatlar verilir. Onların dövlət rəmzlərinə hörmət hissi aşılanır.

Professor A.N. Abbasov şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsindən danışarkən aşağıdakı məsələləri diqqət mərkəzinə gətirir: "Hərbi vətənpərvərlik tərbiyəsi üzrə məqsədyönlü iş vətənpərvərlik tərbiyəsinin təcrübədə özünü doğrultmuş səmərəli istiqamətlərindəndir. Döyüş şöhrəti muzeylərinin və guşələrinin yaradılması, ikinci dünya müharibəsinin və Qarabağ müharibəsinin iştirakçılarına, veteranlara, şəhidlərə, qəhrəmanlara həsr olunmuş söhbət və axşamların,, görüşlərin keçirilməsi, "Qartal balası", "Üfüqdə parıltı", "Şahin" və s. idman oyunlarının təşkili, "Mərdlik dərsləri" və s. hərbi vətənpərvərlik üzrə işin mühüm fformalarındandır" (2 , s. 191).

Məktəblərdə isə hərbi vətənpərvərlik tərbiyəsinin aşılanması müəllimlərin bu məsələyə olan ciddi yanaşmasından çox asılıdır. Kiçikyaşlı məktəblilərdə vizual materiallardan istifadə etmək daha məqbul hesab olunur. Oyunun uşaq inkişafında rolu danılmazdır. A.S. Makarenkonun deyimi ilə desək, "yaşlıların həyatında əmək nə qədər önəmlidirsə, uşaqlarında həyatında oyunun rolu önəmlidir" [3, s. 112]. Rollu oyunlardan istifadə edərək, hər hansı bir əsərdən bir səhnəni oynamaq, səhnəciklər qurmaq və bu prosesi şagirdlərin iştirakı ilə həyata keçirmək onların diqqətini cəlb edər.

Oyunlar və fəaliyyətlər: Şagirdlərə Vətəni sevmək və onun tarixinə hörmət etmək, vətənin qəhrəmanlarını tanımaq üçün əyləncəli oyunlar təşkil edilə bilər. Məsələn, "Vətəni qoru" kimi sadə oyunlarla uşaqlara vətənə aid məlumatlar verə bilərik:

Şeir və mahnılar: Şagirdlərə sadə vətənpərvər şeirlər oxumaq, mahnılar öyrətmək onları vətənpərvərlik sevgisi ilə tanış edər. "Azərbaycan" kimi şeirlər və onların öyrədilməsi vətənə bağlılıq hissini artırar. Bunun üçün məktəblərdə uşaqlara musiqi fənni aşılanır. Dərsdə musiqinin və ya şeirlərinin aydın dildə şagirdlər üçün izahı lazmdır. Şagirdlər arasında səsinin fərqliliyi ilə seçilənlərə musiqinin öyrədilməsi və onun sinifdə ifa olunması da yaxşı nəticələr verir. Hal-hazırda Azərbaycanda müxtəlif mövzularda olimpiadalar keçirilir. Həmin şagirdlərin olimpiadalara cəlb olunması, Azərbaycanda tanınması onlarda vətəni ilə qürur-duyma hissini artırar.

Rəsm işləri: Məktəblilərə bayrağımızı, qəhrəmanlarımızı təsvir edən rəsmlər çəkmək onların dərk etməsi üçün faydalıdır. Məktəbdaxili rəsm sərgilərinin keçirilməsi, şagirdlərin çəkdikləri rəsmləri ilə çıxış etməsi onların həm bilik əldə etməsinə, həm də daha çox həvəslənməsinə səbəb olur.

5-ci sinifdə şagirdlərin yaşı böyük olduğu üçün və şüur, əsasən də mücərrəd təfəkkür inkişaf etdiyi üçün onlarda hərbi vətənpərvərlik hisslərinin formalaşdırılması daha ciddi, məqsədyönlü həyata keçirilməlidir. Bu mərhələdə şagirdlərə sadalanan mövzular üzrə daha ətraflı məlumat verilə bilər:

Azərbaycan tarixi: Şagirdlərə Azərbaycanın tarixi keçmişi, müstəqillik uğrunda mübarizəsi, Qarabağ müharibəsi və digər tarixi mövzular haqqında ətraflı məlumat verilir.

Silahlı Qüvvələrimiz: Şagirdlərə Azərbaycan ordusu, əsgərlərimizin qəhrəmanlığı haqqında məlumat verilir. Onlarda orduya hörmət hissi oyadılır.

Vətənpərvərlik və vətəndaşlıq: Uşaqlara vətənpərvərlik, vətəndaşlıq, dövlətə, millətə sədaqət kimi anlayışların mahiyyəti izah olunur. Metodik ədəbiyyatda məktəblər üçün istifadə edilən dahi şairimiz M.Arazın "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" misralarından Vətəndaş anlayışının mahiyyətini anlamaq mümkündür. [4]

Hərbi vətənpərvərlik tərbiyəsi haqqında istər tarix kitablarında, istərsə də, Azərbaycan dili dərsliyində məlumatlara rast gəlmək mümkündür. Lakin prosesin daha da uğurlu olması üçün metodik vəsaitdən istifadə kifayət etmir, paralel olaraq tədbirlər, ekskursiyalar, görüşlər, film və video materiallar, simulyasiyalar və yarışlar, müsahibələr aparılmalıdır. Yaş və psixoloji inkişafı da nəzərə alaraq, şagirdlərin bu kimi proseslərə yönləndirilməsi onlar üçün həm öyrədici, həm də maraqlı olacaqdır.

Tədbirlər məktəbdaxili və ya daha böyük əhatəli (rayon, şəhər daxilində) ola bilər. Buraya hərbi vətənpərvərlik mövzusunda səhnəli oyunlar, konsertlər, sərgilər aid aiddir. Sərgilərdə həm uşaqların əl əməyi, həm də mövzu daxilində biliyi nümayiş etdirilir.

Ekskursiyaların təşkili şagirdlərin muzeylərə, tarixi yerlərə, hərbi hissələrə aparılmasını əhatə edir. Həmçinin burada müharibə veteranları, qazilərlə görüşlər, canlı söhbətlər aparıla bilər. Şagirdlər özləri üçün maraqlı olan sualları birbaşa onlara yönləndirə bilirlər. Şagirdlər arasında "Vətən nədir?", "Vətən uğrunda" kimi simulyasiya yarışları və oyunları keçirərək onlara komanda işləməyə sövq etmək olar. Dərsdənkənar məşğələlərdə qəhrəmanlıq haqqında film və video materialları izləmək, daha sonra onun haqqında disputlar, müzakirələr təşkil etmək olar. Hərbi hissələrdə hərbi avadanlıqları izləmək, məlumat sahibi olmaq, komandir və digər şəxslərlə danışıqların aparılması şagirdlərdə vətənlə qürurduyma hissini formalaşdıracaqdır.

1-ci və 5-ci siniflərdə hərbi vətənpərvərlik tərbiyəsinin təşkili, şagirdlərin vətənlərinə sevgi və hörmət hissi yaratmaq, vətənin müdafiəsinə hazırlıqlı olmaq üçün onların tərbiyəsində mühüm əhəmiyyət daşıyır. Bu yaş dövründə uşaqlara hərbi vətənpərvərlik tərbiyəsini sadə və anlaşılan şəkildə öyrətmək lazımdır ki, qorxu hissi deyil də, qəhrəmanlıq hissi formalaşsın. Kiçik yaş dövrü uşaqların emosional sferasında həssaslıq daha çox olur. Məktəblərdə hərbi vətənpərvərlik tərbiyəsinin aşılanmasında məqsəd şagirdlərə öz ölkələrinin tarixi keçmişi, mədəniyyəti, vətənə bağlılıq və həmrəylik hissini gücləndirmək, vətənin müdafiəsinə olan məsuliyyətləri haqqında düşünmələrini kiçik yaşlardan təmin etməkdir. Bu prosesi şagirdlərə sadə, amma təsirli metodlarla tədris etmək lazımdır ki, onlar bu mövzuları mənimsəsinlər.

**Problemin aktuallığı.** Uzunömürlü xalq olaraq, bugünümüzə baxsaq, çox çətinliklərdən keçdiyimizin şahidi oluruq. Əxlaqi dəyərlərində tərbiyəyə, o cümlədən hərbi vətənpərvərlik tərbiyəsinə geniş yer verən xalq olaraq, bu dəyərləri gənc nəslə aşılamaq və bu mənəvi dəyərlərdən istifadə etmək olduqca vacibdir.

Şagirdlərdə hərbi vətənpərvərlik tərbiyəsinin məqsədyönlü təşkili cəmiyyətin gələcəyi üçün olduqca vacib məsələdir. Hərbi vətənpərvərlik şagirdlərə vətən sevgisini, mənlik hissini və mənəvi dəyərlərə hörməti aşılayır.

**Problemin elmi yeniliyi.** Hərbi vətənpərvərlik tərbiyəsinin şagirdlərə məktəb dövründən aşılanması və bu prosesdə istifadə olunan yeniliklər həm inteqrativ təhsilə uyğun, həm də milli mənsubiyyətinə yiyələnən şəxsiyyətlərin yetişdirilməsi məqsədi güdür. Şagirdləri kiçik yaşlardan psixoloji, eyni zamanda fiziki olaraq da sağlam yetişdirmək lazımdır. Hərbi vətənpərvərlik tərbiyəsi şagirdlərin fiziki inkişafını da təmin edir. Məqalədə hərbi vətənpərvərlik tərbiyəsinin şagirdlərə aşılanması yolları geniş şərh edilmişdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə əksini tapmış ideyalardan şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinin inkişafında istifadə oluna bilər.

## Ədəbiyyat


1. 5. S.Vurğun. “Azərbaycan” şeiri. https://kayzen.az/blog/poeziya/5568/az%C9%99rbaycan-%7C-s%C9%99m%C9%99d-vur%C4%9Fun.html

2.Abbasov, A.N. Pedaqogika nəzəriyyəsi və tarixi: Ali təhsil müəssisələri üçün dərslik / A.N. Abbasov, L.A. Məmmədli, İ.B. Əmirəliyeva. – Bakı: Mütırcim, - 2022. - 464 s.

3. Makarenko, A.S. Seçilmiş pedaqoji əsərləri. Bakı: Maarif, 1983, s. 224.

4. Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı. https://mod.gov.az/az/pre/34627.html.

5. Cəbrayılov, İ.H. Ümumtəhsil məktəblərində tərbiyə işinin təşkili. Bakı: CN POLİGRAFİYA, 2023, 242 s.


**А.И. Мамедова**

**Организация воспитания военного патриотизма у студентов**

**Резюме**


Воспитание военного патриотизма формирует у студентов чувство ответственности и уверенности в истории, народе и будущем страны. Привитие воспитания военного патриотизма в школах должно осуществляться комплексными подходами, поскольку оно связано не только с военной службой, но и тесно связано с общегражданским долгом, национальными ценностями и любовью к Родине.

Воспитание военного патриотизма у детей следует целенаправленно начинать со школьного периода. Однако при работе с младшими школьниками желательно быть еще более осторожными. Прививать им военный патриотизм – значит готовить отважных и отважных граждан для будущего.

**A.İ. Mammadova**

**Organization of military patriotic education among students**

**Summery**

Education of military patriotism forms a sense of responsibility and confidence in the history, nation and future of the country in students. Instilling military patriotism education in schools should be carried out with comprehensive approaches, because it is not only related to military service, but also closely related to general civic duty, national values and love for the motherland.

Instilling military patriotism in children should be started more purposefully from the school period. However, it is advisable to be even more careful when working with younger students. Inculcating military patriotism in them means training brave and brave citizens for the future.

**Redaksiyaya daxil olub:** 17.02.2025

*UOT 37.01*

# TƏLİM-TƏRBİYƏDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN ROLU

**Afaq Ramiz qızı Nəbiyeva**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0002-3161-3283
**E-mail:** nebiyevaafaq198@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2024.v21i4.05

***Açar sözlər:*** *təlim-tərbiyə, milli-mənəvi dəyərlər, vətənpərvərlik, əxlaqi tərbiyə, mədəni irs, ailə dəyərləri, milli kimlik, mənəvi inkişaf, pedaqogika.*

***Ключевые слова:*** *образование и воспитание, национально-нравственные ценности, патриотизм, моральное воспитание, культурное наследие, семейные ценности, национальная идентичность, духовное развитие, педагогика, инновационные методы обучения, образование и мораль, молодое поколение, глобализация, этические ценности.*

***Key words:*** *education and upbringing, national and moral values, patriotism, ethical education, cultural heritage, family values, national identity, spiritual development, pedagogy, innovative teaching methods, education and ethics, young generation, globalization, ethical values.*

Tərbiyə nəsildən-nəslə keçən biliklər, ideyalar, sosial təcrübələr, davranış üsulları mənimsənilməsidir. Tərbiyənin tarixi şəraitə dəyişə və cəmiyyət həyatının inkişafında maddi şərait ilə, ictimai münasibətlər, ideologiyaların mübarizəsi ilə müəyyənləşir. Tərbiyə cəmiyyətdə əsas münasibətlərin idarəedicisi kimi çıxış edir, o, insan tərəfindən özünü reallaşdırmağa təkan verməli, cəmiyyətlə fərdin sosial tələbləri arasında tarazlığı təmin etməlidir. Əgər bu prosesdə yanlışlıqlar buraxılarsa, onda tarazlıq pozularaq müxtəlif sosial deformasiyalara gətirib çıxara bilər. Tərbiyə insanın və cəmiyyətin sosial inkişafının mühüm şərtidir. Ona görə də insanın cəmiyyətə inteqrasiyası və sosial münasibətlərin keyfiyyəti sosial konvergensiyanın əsas tərkib hissəsidir (4, s.70).

Milli birliyi yaradan əsas amil milli özünüdərk adlanır. Milli özünüdərkini itirmiş millətlər dağılmağa məruz qalır. Müxtəlif baxışlara, əqidələrə, inanclara baxmayaraq milli özünüdərkin olması dövlətin qorunmasına kömək edir. Dövlət isə müxtəlif amillərin təsiri altında meydana gələn ictimai qurumdur və bu təsirlərdən birincisi və başlıcası milli özünüdərkdir. Milli dövlət təbii ictimai quruma uyğun gələn yeganə siyasi quruluş formasıdır (8, s. 45).

İnsanın mənəviyyatı təkcə mühitin təsiri ilə formalaşmır. Hər bir şəxsin maddi genetik təmələ malik olması, bir növ kodlaşdırılmış sistem olması onun gələcəkdə özünü necə aparması, nəyə daha çox meylli olması üçün zəmindir. Genetik amillərin görkəmli araşdırıcısı Erix Fromm da mənəviyyatın, əxlaqi-meyarların formalaşması prosesində ictimai mühitin təsirini önə çəkir.

Yəni uşaqda əxlaqi meyarlar, dəyərləndirmə sistemi onların inandığı, "avtoritet" saydığı adamların mühitində formalaşır. E. Fromm yazır: "Uşaq yaxşı ilə pisin fərqini əqllə dərk etməzdən əvvəl hiss edir. Onun subyektiv rəyi onun həyatında önəmli olan adamların müsbət və ya mənfi reaksiyası əsasında formalaşır". Uşağa ən yaxın olan, şübhəsiz, onun valideynləridir. Ona görə də, ilk dəyərləndirmə meyarları ailədə formalaşır. Sonralar məntiqi

təhlil qabiliyyəti formalaşdıqca nəyin yaxşı, nəyin pis olduğu, faydalı və ya ziyanlı olmaq baxımından müəyyənləşdirilir (19, s. 19).

Professor Y.R. Talıbov, Ə.Ə. Ağayev, dosent A.İ. Eminov və İ.N. İsayeva əxlaq tərbiyəsinin məzmununa ümumi ləyaqət, vicdan, doğma yurda, vətənə məhəbbət, düzük, doğruluq, dostluq, sədaqət və təvazökarlıq, əməksevərlik, humanizm, ailə həyatına hazırlanmada nəzərdə tutur (16, s. 56)

Azərbaycan dilinin izahlı lüğətində "mənəviyyat" anlayışı belə izah olunur: "Mənəvi həyat, mənəvi aləm ilə bağlı olan". Mənəviyyat insanın əxlaqi keyfiyyətləri, onun seçim edərkən rəhbər tutduğu qaydalar topluluğudur. Bu termin danışıq dilində və ya ədəbiyyatlarda çox zaman "əxlaq", bəzən isə "etika" terminlərinin sinonimi kimi işlənir. Mənəviyyat bir fənn olan etikanın obyektidir və etikanın içərisində öyrənilir. Hesab edilir ki, mənəviyyat ailə, cəmiyyət, maariflənmə, ideya-siyasi və vətənpərvərlik işi vasitəsilə əldə edilir (10, s. 294).

Mənəvi fəaliyyət: mənəvi dəyərlərin (ideyalar, təsəvvürlər, bədii obrazlar, tarix və incəsənətin) qorunmasına da aid edilir. Mənəvi tələbat cəmiyyətin həyatında da yaranır. Mədəniyyət bu kimi mənəvi tələbatı dəyişir. Cəmiyyət inkişaf etdikcə mənəvi tələbat da tarix axarında dəyişir. Cəmiyyət inkişaf etdikcə mənəvi dəyərlər də yenilənir və zənginləşir (13, s.78).

Pedaqoqlarımızın bəziləri mənəvi tərbiyə ilə əxlaq tərbiyəsi arasında kəskin fərq qoyurlar. Bu barədə Z.T. Müslümov yazır: "Mənəvi tərbiyə anlayışı ictimai şüur formalarından biri olan əxlaqla sıx surətdə bağlıdır. Əxlaq normaları, əxlaq dəyərləri insanların həyatına konkret şərait daxilində sosial münasibətlərin təzahürü ilə daxil olur. Buraya nəyi sevmək, dəyərləndirmək, nəyi insanın əməyinin məqsədi, kollektivin mənafeyi baxımından zəruri hesab etmək, nəyə nifrət etmək məsələləri daxildir. Ən başlıca xüsusiyyətlərdən biri budur ki, əxlaq normaları ideallar, əxlaq tələbləri və dəyərləri bir-biri ilə sıx vəhdət təşkil edir (15, s.89).

Məktəblinin mənəvi tələbatları daha çox asudə vaxtda ödənilir. Ümummilli liderimiz Heydər Əliyev bu məsələ ilə əlaqədar demişdir: "... asudə vaxt problemdir, bunun həll edilməsi ailə və şəxsiyyətin, kollektivin və bütövlükdə cəmiyyətin mənəvi sağlamlığını möhkəmlətməyə xidmət edir..." (9, s. 34).

Professor Z.İ. Qaralov tərbiyənin məzmunu və mərhələlərini aşağıdakı şəkildə şərh edir: "Xalq tərəfindən yaradılan milli-mənəvi dəyərlər xəzinəsi qədim dövrlərdən üzü bəri tarixən toplanmış, sınaqlardan çıxmış, yazılı və şifahi formada nəsildən-nəslə ötürülmüş, tərbiyəvi əhəmiyyətinə görə insanlara mənəviyyat aşılayan ən mühüm vasitədir".

Professor N.M. Kazımov tərbiyənin mənəvi dəyərlərlə bağlılığı məsələsini bu şəkildə izah edir: "Tərbiyə zamanı gənc nəslə aşılanan nədir? Ya əxlaqi dəyərlərdir, ya əmək, sağlamlıqla əlaqədar dəyərlərdir, ya estetik, ideya-siyasi, iqtisadi, hüquqi, ekoloji dəyərlərdir. Azərbaycan xalqının adət-ənənələri ilə əlaqədar olan dəyərlərdir, yaxud da dini və ümumbəşəri dəyərlərdir."

Professor bu fikirləri müvəffəq bacarıq və vərdişlərə aid edərək belə nəticəyə gəlir: "Mənəvi dəyərlər müvafiq bacarıq və vərdişlərsiz mövcud ola bilməz. Əksinə, mənəvi dəyərlərin faydası tərbiyə sahəsində tətbiq ediləndə üzə çıxır. Səliqəlilik, məsələn, geyimdə səliqə tərbiyəsi söhbət zamanı vurğulandıqda və möhkəmləndirildikdə tamam başqa mənzərənin şahidi oluruq" (17, s.252). Tamamilə doğru fikirdir ki, mənəvi dəyərlər müvafiq bacarıq və vərdişlə möhkəmləndirilir. Hər bir insanın davranışı onun mənəviyyatı ilə əlaqələndirilməlidir.

Professor A.N. Abbasov mənəvi dəyərlərə yiyələnmədə mənəvi tərbiyə üzrə aparılan işlərin rolunu yüksək qiymətləndirir. Professora görə, "insanın ağlını, təfəkkürünü inkişaf etdirmək (əqli tərbiyə) nə qədər vacibdirsə, şəxsiyyətin mənəvi aləminin, mənəviyyatının, müsbət əxlaqi keyfiyyətlərinin formalaşdırılması bir o qədər mühüm və zəruridir" (10, s. 273).

Gənclərin milli-mənəvi tərbiyəsi problemindən danışan professorlar Y.R. Talıbov, F.B. Sadıqov, S.M. Quliyev bu məsələləri belə şərh edirlər: "Əxlaqda, mənəviyyatda insanların bir-birinə münasibəti və davranış normaları öz ifadəsini tapır. Mənəviyyatın tərkib hissələrinə davranış qaydaları, prinsiplər, kateqoriyalar və ideallar daxildir" (16 s. 8)

Milli-mənəvi dəyərlər insanın formalaşmasında və cəmiyyətin inkişafında mühüm rol oynayır. Bu dəyərlərin təhsil və tərbiyədə düzgün tətbiqi gənc nəslin sağlam düşüncəli, vətənpərvər və əxlaqlı bir şəxsiyyət kimi yetişməsinə zəmin yaradır. Buna görə də hər bir valideyn, müəllim və cəmiyyətin digər üzvləri bu dəyərləri yaşatmaq və qorumaq üçün məsuliyyət daşımalıdır.

**Problemin aktuallığı.** Müasir dövrdə qloballaşma və texnoloji inkişaf milli-mənəvi dəyərlərin qorunmasını və gələcək nəsillərə ötürülməsini çətinləşdirir. Qərb mədəniyyətinin və sosial medianın təsiri altında bəzi milli və əxlaqi dəyərlərin zəifləməsi müşahidə olunur. Bu vəziyyət gənc nəslin milli kimliyini dərk etməsində, vətənpərvərlik ruhunun formalaşmasında və sağlam cəmiyyətin qurulmasında çətinliklər yaradır. Buna görə də, təlim-tərbiyə sistemində milli-mənəvi dəyərlərin aşılanması aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi.** Bu məqalə təlim-tərbiyə prosesində milli-mənəvi dəyərlərin rolunu müasir yanaşmalar əsasında təhlil edir. Burada psixoloji və pedaqoji araşdırmalara əsaslanaraq milli dəyərlərin formalaşmasına təsir edən amillər araşdırılır və onların təhsil sistemində tətbiqinə dair yeni metodoloji yanaşmalar irəli sürülür. Bundan əlavə, milli dəyərlərin qorunması üçün ailə, məktəb və cəmiyyətin birgə fəaliyyəti haqqında yeni elmi nəticələr təqdim olunur.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Bu məqalənin nəticələri təhsil müəssisələri, müəllimlər, valideynlər və tərbiyəçilər üçün faydalı ola bilər. Məqalədə göstərilən metod və yanaşmalar tədris proqramlarına inteqrasiya edilərək şagirdlərə milli-mənəvi dəyərlərin aşılanmasında effektiv rol oynaya bilər.

### Ədəbiyyat

1. 2000-2005-ci illərdə Azərbaycan Respublikasının təhsil sistemində tərbiyə işinin inkişaf proqramı. Bakı, 2001.

2. Zəkiyev O.K. Vətəndaşların fəlsəfi görüşləri. Bakı: Azərbaycan. EA nəşriyyatı, 1958.

3. Əfəndiyev M.Ə. Sənin mənəvi dünyan. Bakı, Gənclik, 1989.

4. Şahbazov P., Ələkbərov Ə.Q., Eminov A., İsayev İ. Pedaqogika: Ali məktəblər üçün dərslik. Bakı Dövlət Universiteti nəşriyyatı, 2004.

5. Şərq fəlsəfəsi tarixi. II bölmə. Bakı, 1999.

6. Şükürov Q.M. Azərbaycanın milli mədəniyyəti və onun antik əsasları. Bakı, 2000.

7. Əliyev H.Ə. “Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri”. Ümumittifaq elmi-praktik konfransında məruzə. 25 aprel 1979-cu il. Bakı: Azərnəşr, 1993.

8. Əliyev H.Ə. Gənclərin I respublika forumunda çıxışı. Bakı, 1993.

9. Azərbaycan dilinin izahlı lüğəti. III c., Bakı: Elm, 1983.

10. Abbasov, A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün ndərslik / A.N. Abbasov. - Bakı: Mütərcim, 2015.

11. Quliyev S.M. Məktəblinin mənəvi siması. Bakı: Maarif, 1983.

12. Məmmədova M. Məktəblilərin mənəvi siması və mənəvi tərbiyəsi. Bakı: Gənclik, 1992.

13. Məmmədova M. Pedaqoji tərbiyənin əsasları və imkanları. Bakı, 1996.

14. Məmmədova M.M. Mənəvi tərbiyə. Bakı: Maarif, 1983.

15. Əliyev P.B., Quliyeva S.M. və b. Ümumtəhsil məktəblərində tərbiyə işinin planlaşdırılması. Bakı: Nurlan, 2002.

16. Kazımov N.M. Milli pedaqogika yollarında. Bakı: Maarif, 1996.

17. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı, 2003.

18. Xəlilov S. Mənəviyyat. 525-ci qəzet. - 2012.- 10 mart. - s.19.

**А.Р. Набиева**

**Роль национальных и нравственных ценностей в образовании и воспитании**
**Резюме**

В данной статье рассматривается роль национальных и моральных ценностей в образовании и воспитании, подчеркивается их важность в формировании личности и укреплении национальной идентичности. Исследование анализирует инновационные педагогические подходы и использование ИКТ в преподавании моральных ценностей. Результаты работы имеют практическое значение для педагогов, родителей и политиков, способствуя воспитанию будущих поколений с высоким уровнем патриотизма, этики и культурной идентичности.

**A.R. Nəbiyeva**

**The role of national and moral values in education and upbringing**
**Summary**

This article explores the role of national and moral values in education and upbringing, emphasizing their importance in shaping individuals and fostering a strong sense of national identity. The study highlights innovative pedagogical approaches and the use of ICT in teaching moral values. The findings have practical implications for educators, parents, and policymakers, ensuring that future generations grow up with a strong sense of patriotism, ethics, and cultural identity.

**Redaksiyaya daxil olub:** 03.03.2025

***MƏKTƏBƏQƏDƏR TƏHSİL VƏ TƏRBİYƏ***
***ДОШКОЛЬНОЕ ОБРАЗОВАНИЕ И ВОСПИТАНИЕ***
***PRESCHOOL EDUCATION AND UPBRINGING***

*UOT 373.2.*

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ƏTRAF ALƏMLƏ TANIŞ EDİLMƏSİNDƏ İNNOVATİV METODLARDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

**Gültəkin Zöhrab**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCID:** 0009-0007-5083-0757
**E-mail:** gultekin.zohrabqizi@gmail.com

***Açar sözlər:*** *innovasiya, tərbiyə, məktəbəqədər yaşlı uşaq, metod, ətraf aləm*
***Ключевые слова:*** *инновации, воспитание, ребенок дошкольного возраста, метод, окружающий мир*
***Key words:*** *innovation, upbringing, preschool-aged child, method, environment*

Son onilliklərdə uşaqların ətraf aləmlə tanış edilməsində innovativ metodlar sahəsində mühüm dəyişikliklər müşahidə olunmuşdur.

Məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanış edilməsində innovativ metodlardan istifadənin əhəmiyyəti böyükdür, çünki bu metodlar uşaqların marağını, yaradıcı düşüncəsini və ətraf aləmi daha dərindən anlamaqlarını inkişaf etdirir. İnnovativ tədris strategiyalarının tətbiqi ilə müəllimlər, xüsusilə elm, təbiət və sosial fənlər kimi sahələrdə uşaqların öyrənmə prosesini daha cəlbedici və mənalı edə bilərlər.

Məktəbəqədər yaşlı uşaqların yaradıcı inkişafı üçün vacib bir şərt müasir innovativ texnologiyaların tətbiqidir. "Pedaqoji texnologiya" anlayışı, təhsil və tərbiyə üsullarının, metodlarının və vasitələrinin birləşməsindən ibarət psixoloji və pedaqoji yanaşmaların toplusunu ifadə edir.

Məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanış edilməsində innovativ metodlar onların təhsil prosesini daha maraqlı, effektiv və interaktiv hala gətirir. Bu metodlar uşaqlarda təbii marağı, yaradıcılığı və tədqiqat bacarıqlarını inkişaf etdirməyə yönəlib. Aşağıda belə innovativ metodlardan bəzilərini təqdim edirik:

Texnologiyadan istifadə

- Virtual Reallıq (VR) və Artırılmış Reallıq (AR) vasitəsilə uşaqlar müxtəlif ölkələrə, təbiət parklarına və hətta kosmosa "səyahət" edə bilərlər.
- Tədris proqramları və mobil tətbiqlər uşaqlara oyun əsasında öyrənmə imkanı yaradır.
- Robototexnika və kodlaşdırma dərsləri uşaqların texniki bacarıqlarını inkişaf etdirir.

Layihə əsaslı tədris

- Uşaqlara müəyyən bir mövzu ətrafında araşdırma aparmaq və nəticəni təqdim etmək üçün layihələr tapşırılır. Məsələn, "planetlərin araşdırılması" və ya "ekoloji problemlər və həll yolları" kimi mövzular.
- Layihə prosesində komanda işi uşaqların sosial bacarıqlarını inkişaf etdirir.

Məsələn, layihə əsaslı öyrənmə, texnologiyanın istifadəsi, interaktiv oyunlar və əyani fəaliyyətlər kimi innovativ metodlar yalnız öyrənmə prosesini interaktiv etmək demək deyil, həm də tənqidi düşünmə və problemləri həll etmə bacarıqlarını inkişaf etdirir. Layihə işləri vasitəsilə uşaqlar real dünyadakı məsələləri araşdıra bilər, həll yolları ilə eksperimentlər aparar və həmyaşıdları ilə əməkdaşlıq edərək yaradıcı təfəkkürlərini ifadə edə bilərlər.

Layihə fəaliyyəti texnologiyası məktəbəqədər yaşlı uşaqlara təcrübə aparmağa, bilikləri birləşdirməyə və yaradıcı bacarıqları inkişaf etdirməyə imkan verir. Layihə fəaliyyəti uşaqların sosiallaşmasını sürətləndirir, araşdırma qabiliyyətlərini inkişaf etdirir və kollektiv iş bacarıqlarını gücləndirir. Bu texnologiya müxtəlif layihə növlərini əhatə edir: rollu, araşdırma və praktik yönümlü layihələr.

Layihə fəaliyyətinin əsas məqsədi məktəbəqədər yaşlı uşaqlar üçün komfortlu təhsil mühiti yaratmaqdır. Bu mühit məktəbəqədər yaşlı uşaqların yaradıcı potensialını üzə çıxarmağa, ətraf aləmlə tanış olmağa və öyrəndikləri bilikləri tətbiq etməyə imkan verir. Uşaqların yaradıcı bacarıqlarının inkişafı bu texnologiyanın tətbiqi ilə mümkün olur, çünki yalnız yaradıcı fəaliyyət uşaqların özünütəkmilləşdirməsini təmin edir.

Bundan əlavə, bu metodlar fərdi öyrənmə imkanları təqdim edir, müxtəlif öyrənmə üslublarına və sürətlərinə uyğunlaşmağa kömək edir. Bu çeviklik uşaqların mürəkkəb anlayışları öz sürətlərində qavrayıb tətbiq etmələrinə imkan yaradır, nəticədə məlumatların yadda saxlanması və praktiki tətbiqi artır. İnnovativ metodların tətbiqi müasir təhsil fəlsəfələri ilə də uyğundur, çünki bu yanaşma uşaqların akademik, sosial və emosional inkişafını ön planda tutur.

Bu metodların tədris proqramına daxil edilməsi uşaqları gələcəkdə vacib olan əməkdaşlıq, uyğunlaşma və texnoloji savadlılıq kimi bacarıqların inkişafına hazırlayır ki, bunlar da bu sürətlə dəyişən dünyada olduqca vacibdir.

Məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanış edilməsi prosesi onlarda təbiətə maraq yaratmaq və dünyagörüşünü inkişaf etdirmək baxımından olduqca vacibdir. Ənənəvi metodlardan fərqli olaraq, innovativ metodlar uşaqlarda mövzulara daha dərin maraq oyatmağı və öyrənmə prosesinə aktiv qatılmağı stimullaşdırır.

İnteqrativ metodlar: Eyni zamanda, inteqrativ metodlardan istifadə etməklə ətraf aləmlə bağlı biliklər mütərəqqi formada uşaqlara təqdim edilir. İnteqrativ metodlar məktəbəqədər yaşlı uşaqların hərtərəfli inkişafını dəstəkləyir və onları gələcək təhsil mərhələlərinə hazırlayır. Bu metodlar uşaqların maraq dairəsini genişləndirir, öyrənmə prosesini asanlaşdırır.

İnnovativ metodların istifadəsi məktəbəqədər yaşlı uşaqların özünüifadə bacarıqlarını və özgüvənini formalaşdırmaqla yanaşı yarıdıcı təfəkkürü və sosial bacarıqlarını da əhəmiyyətli dərəcədə inkşaf etdirir.

Ətraf aləm haqqında biliklərin öyrənilməsi böyüməkdə olan uşaqlar üçün ən mühüm pedaqoji istiqamətlərdən biridir və bu sahədə mühüm metodik təcrübə toplanmışdır. Müasir uşaq təhsili konsepsiyası (V.İ.Slobodçikov, V.V.Rubtsov, V.T.Kudryavtsev və digər müəlliflər) uşaqları məktəb təhsili üçün hazırlamaq məqsədilə hazırlanmışdır, bu zaman müxtəlif uşaq bağçalarının proqramlarının dəyişkənliyi, uşaqların psixoloji və fiziki inkişaf səviyyəsi nəzərə alınır və fərdi yanaşma tətbiq olunur (İ.S.Yakimanskaya).

Müasir təhsil konsepsiyası L.A.Venger, A.V.Zaporojets, A.N.Leontiev, N.N.Poddyakov, L.B.Elkonin, A.P.Usova və digər mütəxəssislərin pedaqoji tədqiqatlarına əsaslanır və onlar uşaqların əqli inkişafını nəzəri cəhətdən qurmuşlar.

E.F. Kozina müasir uşaq bağçası proqramlarının ətraf aləmlə tanışlıqla inteqrasiya edilmiş olduğunu qeyd edir və onların coğrafiya, biologiya, təbiətşünaslıq və ictimai elmlər sahələrində məlumatları birləşdirdiyini bildirir. Bu yanaşma insanın, təbiətin və cəmiyyətin vahidliyi barədə uşaqların anlayışlarını formalaşdırmağa kömək edir və insan ilə təbiət arasındakı qarşılıqlı əlaqənin vacibliyini göstərir.

Müasir təhsil texnologiyalarının tətbiqi məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanışlığını artırmaq üçün müxtəlif üsul və vasitələrdən istifadə etməyə imkan verir, eşitmə və görmə hisslərini zənginləşdirir, uşaqların qavrayışını artırır və onların təhsil prosesinə fəal qatılmalarını təmin edir. Bu yanaşmalar uşaqların təbiətə və ətraf mühitə münasibətini formalaşdırmaq, onların ətraf mühitlə əlaqələrini gücləndirmək üçün əsas vasitələrdən biridir.

Məqsədli eksperimentlər, təcrübələr, oyunlar və kolleksiya vasitəsilə uşaqların ətraf aləmi öyrənmələri və təbiət hadisələri ilə tanış olmaları təmin edilir. Bu metodlar, onların düşüncə proseslərini stimullaşdırır və təbiətə olan maraqlarını artırır.

Pedaqoji texnologiyalar müxtəlif təsnifatlarla (məsələn, V.Q.Qulçevskaya, V.T.Fomenko, T.I.Şamova və T.M.Davıdenko tərəfindən) təqdim olunmuşdur. Pedaqoji texnologiyaların tətbiqi zamanı müəyyən tələblər mövcuddur ki, bunlar arasında konseptualizm (təhsil prosesinin müəyyən elmi konsepsiyaya əsaslanması), harmoniyalıq, idarəolunma və təkrarlanmaq kimi şərtlər yer alır.

Bu texnologiyaların strukturu üç hissədən ibarətdir:

- konseptual hissə (elmi əsaslar);
- kontekstual hissə (məqsəd və məzmun);
- prosedur hissə (pedaqoji iş metodları və uşaqların fəaliyyətinin birləşməsi).

Beləliklə, məktəbəqədər yaşlı uşaqların yaradıcı bacarıqlarını inkişaf etdirmək üçün innovativ texnologiyaların tətbiqi təhsil prosesində mühüm əhəmiyyət kəsb edir.

**Problemin aktuallığı.** Məktəbəqədər yaşlı uşaqlar ətraf aləm haqqında biliklərin başlanğıcındadırlar. Məhz məktəbəqədər yaşda ətraf aləm haqqında təsəvvürlər innovativ metodlar vasitəsilə formalaşır, nitqi mənimsəyir, ətraf mühitə idrak marağı yaranır və əldə etdikləri bilikləri müstəqil şəkildə praktikada tətbiq edirlər və bu da günümüzün aktual məsələlərindən biridir.

**Problemin elmi yeniliyi.** Uşaqların ətraf aləmlə tanış edilməsində innovativ metodlardan istifadənin əhəmiyyəti danılmazdır, nəticə etibarı ilə müasir mərhələdə yeni innovativ metodlar meydana gəlir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Araşdırma nəticəsində əldə olunan məlumatlar məktəbəqədər təhsil sahəsində fəaliyyət göstərən tərbiyəçi müəllimlər və bu sahədə təhsil alan tələbələr üçün faydalı ola bilər. Məqaləni məktəbəqədər təhsil müəssisələrinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. T. Ə. Quliyev. Pedaqogikada innovativ yanaşmalar və onların tətbiqi. Bakı, 2020.
*2.* S. R. Hüseynova. Ekoloji təlimin məktəbəqədər təhsil müəssisələrində rolu. Bakı, 2018.
3. N. Q. Hacıyeva. “STEAM təhsili və uşaq inkişafı”. Bakı, 2021.
4. C. S. Məmmədov. Məktəbəqədər təhsil sistemində oyun texnologiyalarının tətbiqi. Bakı, 2017.

**G. Zöhrab**

**Важность использования инновационных методов в ознакомлении детей дошкольного возраста с окружающим миром**

**Резюме**

В статье обсуждается важность использования инновационных методов в познании окружающего нас мира. Важность использования инновационных методов знакомства детей с окружающим миром является одной из важнейших проблем современного образования и воспитания. Инновационные методы — это подходы, которые позволяют детям дошкольного возраста более глубоко и интересно познавать окружающую среду. Интеграция роли окружающей среды как ключевого подхода в развитии детей дошкольного возраста становится все более популярной. Использование этих методов дает много преимуществ в процессе обучения детей дошкольного возраста.

**G. Zohrab**

**The importance of using innovative methods in introducing preschool children to the world around them**

**Summary**

The article discusses the importance of using innovative methods in introducing children to the world around them. The importance of using innovative methods in introducing children to the world around them is one of the most important issues of modern education and upbringing. Innovative methods are approaches that allow preschool children to study the environment in a deeper and more interesting way. The integration of the role of the environment as a key approach in the development of preschool children is becoming increasingly popular. The use of these methods provides many advantages in the process of educating preschool children.

**Redaksiyaya daxil olub:** 05.02.2025

***İBTİDAİ SİNİFLƏRDƏ TƏHSİL VƏ TƏRBİYƏ***
***ОБРАЗОВАНИЕ И ВОСПИТАНИЕ В НАЧАЛЬНЫХ КЛАССАХ***
***EDUCATION AND UPBRINGING IN PRIMARY CLASSES***

*UOT 372.3/.4*

# İBTİDAİ SİNİFLƏRİN RİYAZİYYAT DƏRSLƏRİNDƏ QEYRİ-STANDART ÇALIŞMALARIN HƏLLİ YOLLARI HAQQINDA

**Elnurə Məhəmməd qızı Hüseynova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyas kafedrasının müəllimi*
**ORCİD:** 0009-0006-1989-8705
**E-mail:** huseynlixeyrense@gmail.com

***Açar sözlər:*** *təlim, məktəb, qeyri-standart çalışma, şagird, sinif*
***Ключевые слова:*** *обучение, школа, нестандартные задачи, ученик, класс*
***Key words:*** *training, school, non-standard tasks, pupil, class*

Riyaziyyat dərslərində əyləncənin böyük pedaqoji əhəmiyyəti var. Blez Paskal qeyd edirdi ki, “riyaziyyatın mövzusu o qədər ciddidir ki, onu bir az əyləncəli etmək üçün fürsətləri qaçırmamaq faydalıdır”. Eyni zamanda, əyləncədən danışarkən məktəbliləri boş əyləncələrlə əyləndirmək yox, riyazi tapşırıqların məzmununun və ya onların keçdiyi formanın maraqlılığını nəzərdə tutmalıyıq.

L.M. Fridman və E.N. Turetski [5, səh.48] öz kitablarında qeyri-standart çalışmalar haqqında belə yazırlar: “Qeyri-standart çalışmalar riyaziyyat təlimində həlli üçün dəqiq qaydası olmayan çalışmalardır.”

İbtidai sinif şagirdləri üçün ən böyük çətinliklər, bir qayda olaraq, qeyri-standart çalışmaların həlli ilə əlaqədardır, yəni, həll alqoritmi onlara məlum olmayan çalışmalarla bağlıdır.

Mövcud ibtidai sinif dərsliklərinin təhlili belə bir nəticəyə gəlməyə imkan verir ki, bu dərsliklərdə şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirən çoxlu sayda qeyri-standart çalışmalar var.

Qeyri-standart çalışmalar ancaq I-IV siniflərin riyaziyyat dərsliklərində deyil, həm də metodik və didaktik vəsaitlərdə də öz əksini tapmışdır. Q.Q. Levitasın ibtidai siniflər üçün yazdığı kitablarda [1; 2; 3; 4] kifayət qədər qeyri-standart çalışmalar və onların həlli yolları verilmişdir. Bu kitablardakı çalışmalardan riyaziyyat dərslərində istifadəni zəruri hesab edirik.

Riyaziyyatdan qeyri-standart çalışmaların həlli zamanı deduktiv yanaşma və yaradıcı mühakimə tələb olunur.

Qeyri-standart çalışmalardan sinifdənkənar işlərin müxtəlif formalarında və məktəb riyaziyyat olimpiadalarında da istifadə olunur. Eyni zamanda, qeyri-standart çalışmaların həllində bəzən təkcə şagirdlər deyil, müəllimlər də çətinlik çəkirlər. Bu, qismən təhsil müəssisələrində riyazi fənlərin öyrənilməsi prosesində və müəllimlərin pedaqoji fəaliyyətində bu növə aid çalışmaların həllində kifayət qədər təcrübənin olmaması, habelə onlardan istifadə ilə müşayiət olunan obyektiv çətinliklərin olması ilə izah olunur.

Qeyri-standart çalışmaların həllinin öyrədilməsi zamanı 2 pedaqoji şərtə əməl edilməsini vacib hesab edirik:

1. İbtidai sinif şagirdlərinin qeyri-standart çalışmanın həllinə marağı artırılmalıdır. Bunun üçün seçilmiş çalışmalar şagirdlər üçün cəlbedici olmalıdır.

2. Qeyri-standart çalışmaların nə çox asan, nə də çox çətin olmamasına diqqət yetirmək lazımdır. Çünki çalışmaların çox asan və ya çox çətin olması şagirdlərin marağının azalmasına səbəb ola bilər. Bu sonda şagirdlərdə özlərinə olan inamın itirilməsiə səbəb ola bilər.

İbtidai siniflərdə qeyri-standart çalışmaların həllinin öyrədilməsinin səmərəliliyi 2 şərtdən asılıdır:

1. Qeyri-standrat çalışmaların tədricən mürəkkəbliyi artırılmalıdır.

2. Qeyri-standart çalışmaların həlli yollarını tapan zaman şagirdlərə müstəqillik verilməlidir. Şagird səhv yollla həll etsə də, səhvdən əmin olub əvvələ qayıtmasını və düzgün həll yolunu yenidən axtarmasına şərait yaratmaq lazımdır.

Aşağıda ibtidai sinif şagirdlərinin yaradıcılıq və məntiqi təfəkkürlərinin inkişaflarına xidmət edən bir neçə qeyri-standart çalışmanın həlli yollarını təqdim edirik:

**№1.** Kitabdan bir neçə vərəq düşdü. İlk düşmüş səhifənin nömrəsi 213-dür və sonuncu səhifənin nömrəsi eyni rəqəmlərlə, lakin tərs qaydada təsvir olunur. Kitabdan neçə vərəq düşüb?

**Həlli.** Sonuncu düşmüş səhifənin nömrəsi aşağıdakı xüsusiyyətlərə malik olmalıdır: 1, 2, 3 rəqəmlərindən ibarət olmalıdır, cüt ədəd və 213-dən böyük olmalıdır. 312 ədədi bu xüsusiyyətlərə malikdir. 312 səhifə arasında ilk 212 səhifə kitabda qaldı, yəni, 312–212=100 səhifə düşdü, bu da 50 vərəqdir.

**Cavab:** 50 vərəq

**№2.** Oğlan dostuna deyir: "Mən hesablamışdım ki, bu kiçik kitabın ilk səhifəsindən başlayaraq bütün səhifələrini nömrələmək üçün düz 100 rəqəm lazımdır".

Kitabın özünə baxmadan, oğlanın rəqəmlərin sayını düzgün saydığını yoxlaya bilərsinizmi? Məlumdur ki, kitabın bütün səhifələri nömrələnib.

**Həlli.** Birrəqəmli ədədləri yazmaq üçün 9 rəqəm lazım idi, 91 rəqəm qaldı. Səhifələrin nömrələnməsi üçün qalan nömrələr ikirəqəmli olacaq, lakin 91 isə 2-yə bölünmür, ona görə də oğlan səhv etdi.

**№3.** Üç oğlan bir yerdə top almağa qərar verdilər, amma birinin yanında pulu olmadığı üçün yoldaşlarından biri 1 man.20 qəpik, ikincisi isə 1 man.80 qəpik verdi. Elə həmin axşam o, onlara 1 manat pul verdi. Bu pul oğlanlar arasında necə bölünməlidir?

**Həlli.**

1) 1 man. 20 qəp. + 1 man 80 qəp. =300 (qəp.) – topun qiyməti;

2) 300:3=100 (qəp.) =1 man. – hər oğlan bu qədər pul verməlidir;

3) 1 man.20 qəp.–1 man. = 20 (qəp.) – birinci oğlan alacaq;

4) 1 man.80 qəp.–1 man. = 80 (qəp.) - ikinci oğlan alacaq.

**Cavab:** Birinci oğlan – 20 qəp.; ikinci oğlan – 80 qəp.

**№4.** Bir neçə dirəyi 6 yerdən kəsim etməklə doğradılar. Nəticədə 10 sayda taxta parçası alındı. Neçə dirəyi doğradılar?

**Həlli.** Bir dirəyi doğradıqda taxta parçalarının sayı edilən kəsimlərdən 1 dənə çox alınır. Məsələnin şərtinə əsasən 6 kəsim edilib. Taxta parçalarının sayı kəsimlərdən 10–6=4 çoxdur. Deməli, 4 dənə dirək doğranmışdır. Burada bir neçə variant ola bilər:




**Cavab:** 4 dirək doğranmışdır.

**№5.** Tərəfi 6 sm olan kvadratı damaların xətti üzrə kəsdilər. Alınan kəsiklərdən düzbucaqlı düzəltdilər. Bunu necə etmək olar? Məsələnin həllini şəkillə təsvir edin.

**Həlli:**



**№6.** Lift beşinci mərtəbədən birinci mərtəbəyə 10 saniyəyə düşür. Lift sabit sürətlə hərəkət edirsə, iyirmi beşinci mərtəbədən birinci mərtəbəyə neçə saniyəyə düşər?

**Həlli.** Lift beşinci mərtəbədən birinci mərtəbəyə düşmək üçün 4 mərtəbə keçməlidir. Həmin lift 25-ci mərtəbədən 1-ci mərtəbəyə düşmək üçün 24 mərtəbə keçməlidir. Liftin ikinci dəfə düşdüyü məsafə birinci dəfədən 24:4=6 dəfə çox olacaq. Deməli, 25-ci mərtəbədən 1-ci mərtəbəyə düşmək üçün liftin sərf etdiyi vaxt 5-ci mərtəbədən 1-ci mərtəbəyə düşdüyündən 6 dəfə çox olacaq: 10·6=60 (san).

**Cavab:** 25-ci mərtəbədən 1-ci mərtəbəyə düşmək üçün lift 60 saniyə sərf edəcək.

**№7.** Aşağıdakı ədədi sıralarda ədədlər qanunauyğunluqla yazılmışdır. Hər sıranın öz qanunauyğunluğu var. Qanunauyğunluğu müəyyən edin və hər sıraya daha 3 ədəd əlavə edin.

*a*) 19, 20, 22, 25, 29, …;

*b*) 5, 8, 14, 26, 50, …;

*c*) 901, 802, 703, …;

*ç*) 101, 1002, 10 003, …;

*d*) 7, 67, 567, …

**Həlli.** *a*) Ədədi sırada ədəd 1 vahid, 2 vahid, 3 vahid və s. qədər artır. Ədədi sıraya 3 ədəd əlavə etsək aşağıdakı ədədi sıranı alarıq:

19, 20, 22, 25, 29, 34, 40, 47, ...

*b*) Hər növbəti ədəd aşağıdakı qanunauyğunluqla alınır: bilavasitə əvvəlki ədəd 2 dəfə artırılır və hasildən 2 vahid çıxılır. Ədədi sıraya 3 ədəd əlavə etsək aşağıdakı ədədi sıranı alarıq:

5, 8, 14, 26, 50, 98, 194, 386, ...

*c*) Yüzlük mərtəbəsindəki rəqəm 1 vahid azalır, təklik mərtəbəsindəki rəqəm 1 vahid artır. Ədədi sıraya 3 ədəd əlavə etsək aşağıdakı ədədi sıranı alarıq:

901, 802, 703, 604, 505, 406, ...

*ç*) Hər növbəti ədəddə 0 rəqəminin sağına 1 dənə 0 rəqəmi əlavə edilir və sonuncu rəqəm 1 vahid artırılır. Ədədi sıraya 3 ədəd əlavə etsək aşağıdakı ədədi sıranı alarıq:

101, 1002, 10 003, 100 004, 1 000 005, 10 000 006, ...

*d*) Hər sonrakı ədəddə mərtəbələr sayı artır. Belə ki, hər sonrakı ədəd bilavasitə əvvəlki ədədin soluna 1 dənə mərtəbə rəqəmi artırılmaqla alınır. Burada artırılan mərtəbədəki rəqəm özündən sağdakı rəqəmdən 1 vahid az olur. Ədədi sıraya 3 ədəd əlavə etsək aşağıdakı ədədi sıranı alarıq:

7, 67, 567, 4567, 34567, 234567, ...

**№8.** 4 m və 5 m uzunluğunda, eyni qalınlıqda dirəklər var. Bir dirək 1 dəqiqə ərzində mişarlanır. Hər biri 1 m uzunluğunda 20 dirək əldə etmək üçün hansı dirəkləri kəsmək vaxta qənaət baxımından daha sərfəlidir?

**Həlli.** Dördmetrlik dirəkdən hər biri 1 m olan dirək kəsmək üçün 3 kəsik etməli olacaqsınız. 20 dənə 1 metrlik dirək almaq üçün 5 dənə dördmetrlik dirək götürmək və 15 kəsik etmək lazımdır. Bu 15 dəqiqə çəkəcək.

Beşmetrlik dirəkdən hər biri 1 metr olan dirəkləri kəsmək üçün 4 kəsik etmək lazımdır. 20 dənə 1 metrlik dirək almaq üçün beşmetrlik dirəklərdən 4 dənə götürmək lazımdır. 4 dənə beşmetrlik dirəyi kəsmək üçün 16 kəsik etməli olacaqsınız. Bu işə 16 dəqiqə vaxt sərf ediləcək.

Deməli, 5 dənə dördmetrlik dirəyi kəsmək vaxta qənaət baxımından daha sərfəlidir.

**Cavab:** 5 dənə dördmetrlik dirəyi kəsmək vaxta qənaət baxımından daha sərfəlidir.

**№9.** On kisənin hər birində on ədəd pul vardır və bu kisələrdən birindəki pullar qəlpdir. Məlumdur ki, bir ədəd əsl pulun çəkisi 20 *q*, bir ədəd qəlp pulun çəkisi isə 15 *q*-dır. Tərəzidə yalnız bir dəfə çəkməklə hansı kisədəki pulların qəlp olduğunu necə tapmaq olar?

**Həlli.** Kisələri nömrələyirik, sonra birinci kisədən bir pul, ikinci kisədən iki pul, üçüncü kisədən üç pul və i.a. onuncu kisədən on pul götürürük və bu pulların hamısını birlikdə çəkirik. Pulların hamısı əsl pul olsa idi, seçdiyimiz pulların birlikdə çəkisi $(1+2+3+4+5+6+7+8+9+10)\cdot 20=1100$ *q* edərdi. Lakin bunların içərisində qəlp pul da vardır, ona görə bütün 55 pulun hamısının çəkisi onların əsl çəkisindən, yəni 1100 q-dan az olacaqdır. Əgər 5 *q* az olsa, onda qəlp pullar birinci kisədədir, 10 *q* olarsa, onda qəlp pullar ikinci kisədədir və i.a. Beləliklə, biz çatışmayan kütləni (qramlarla) 5-ə bölməklə hansı kisədə qəlp pulların olduğunu tapacağıq.

**№10.** Həkim Aybolit anasının kisəsində oturan kenquru balası ilə tanış olmaq qərarına gəldi. Lakin kenquru balası yad adamla ünsiyyət qurmaq istəmir və qaçır. Sual: Bir kenquru balasının 1 dəqiqədə 70 tullanış etdiyini və hər bir tullanışının uzunluğunun 10 metr olduğu və həkim Aybolitin 1 saniyədə 10 metr sürətlə qaçmağa çalışacağı məlum olsa, Aybolit kenquru balasına çata biləcək?

**Həlli.** Kenquru balası 1 dəqiqə ərzində $10\cdot 70=700$ (m) məsafəni qət edəcək. Bu müddət ərzində həkim Aybolit yalnız $10\cdot 60=600$ (m) məsafəni qət edəcək. 600 m isə 700 m-dən azdır, yəni Aybolit kenquru balasına çatmayacaq.

Sadə hesablamalar göstərir ki, Aybolitin hərəkət sürəti - saatda 36 km – kenquru balasının sürəti (42 km/saat) ilə müqayisə edilə bilməz.

**Cavab:** Həkim Aybolit kenquru balasına çata bilməyəcək.

Yuxarıda verdiyimiz qeyri-standart çalışmaların həlli ibtidai sinif şagirdlərinin riyaziyyat fənninə marağını artırır və onların məntiqi təfəkkürünü inkişaf etdirir.

**Problemin aktuallığı.** Müasir dövrdə ibtidai siniflərdə riyaziyyat fənninin tədrisinin əsas məqsədlərindən biri şagirdlərdə məntiqi təfəkkürü inkişaf etdirməkdir. Məntiqi təfəkkürü inkişaf etdirməyin yollarından biri də riyaziyyat dərslərində qeyri-standart çalışmaların həllidir. Riyaziyyatda hər hansı bir qeyri-standart çalışmanı həll etməyə imkan verən universal bir metod yoxdur, çünki qeyri-standart çalışmalar müəyyən dərəcədə unikaldır. Apardığımız tədqiqat bu problemin öyrənilməsinə və həlli yollarının araşdırılmasına həsr edilmişdir.

**Problemin elmi yeniliyi.** Bu məqalədə ilk dəfə olaraq ibtidai siniflərin riyaziyyat dərslərində qeyri-standart çalışmaların həllinin səmərəli öyrədilməsi üçün pedaqoji şərtlər irəli sürülmüş və bəzi qeyri-standart çalışmaların həlləri geniş şəkildə izahlı verilmişdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə qeyri-standart çalışmaların həllinin öyrədilməsi zamanı irəli sürülən pedaqoji şərtlər və müxtəlif qeyri-standart çalışmaların izahlı həll nümunələri şagirdlərin məntiqi təfəkkürünün inkişafına kömək göstərəcəkdir. Bu məlumatlar vasitəsilə ibtidai sinif müəllimləri və valideynlər uşaqlarının məntiqi təfəkkürünü inkişafını müvəffəqiyyətlə həyata keçirə bilərlər.

## Ədəbiyyat

1. Левитас Г.Г. Нестандартные задачи на уроках математики в первом классе. М: ИЛЕКСА, 2017, 56 с.
2. Левитас Г.Г. Нестандартные задачи на уроках математики во втором классе. М: ИЛЕКСА, 2017, 52 с.
3. Левитас Г.Г. Нестандартные задачи на уроках математики в третьем классе. М: ИЛЕКСА, 2016, 60 с.
4. Левитас Г.Г. Нестандартные задачи на уроках математики в четвертом классе. М: ИЛЕКСА, 2016, 72 с.
5. Фридман Л.М., Турецкий Е.Н Как научиться решению задачи. М.: Просвещение, 1989,192 с.

**Э.М. Гусейнова**

## О способах решения нестандартных задач на уроках математики начальных классов

### Резюме

В статье рассмотрены пути решения нестандартных задач на уроках математики начальных классов. Представлены примеры решения упражнений, связанных с нахождением интервалов, логических и математических закономерностей.

**E.M. Huseynova**

## On ways to solve non-standard problems in primary school mathematics lessons

### Summary

The article discusses ways to solve non-standard problems in elementary school mathematics lessons. Examples of solving exercises related to finding intervals, logical and mathematical patterns are presented.

**Redaksiyaya daxil olub:** 06.01.2025

*UOT 372.3/.4*

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNDƏ HÜQUQ MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASI

**Cəmilə Qabil qızı Qasımova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-00093948-2485
**E-mail:** cemilegasimova52@gmail.com

***Açar sözlər:*** *hüquq, mədəniyyət, tərbiyə, məsuliyyət, hüquqi şüur*
***Ключевые слова:*** *закон, культура, образование, ответственность, правовое сознание*
***Key words:*** *law, culture, education, responsibility, legal awareness*

Tərbiyənin bir prosesi kimi məqsədi: “Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqın milli ənənələrinə və demokratik prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik ideyalarına sadiq olan və yaradıcı düşünən, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü vətəndaş yetişdirməkdir” (1, s. 261).

Elmi araşdırmalar və təcrübə göstərir ki, müasir dövrdə şagirdlərin tərbiyəsi, o cümlədən onların hüquq mədəniyyəti mühüm əhəmiyyət kəsb edir. Hüquq tərbiyəsi üzrə aparılan işlər isə şagirdlərdə hüquq mədəniyyətinin formalaşmasına ciddi şəkildə təsir göstərir. Bu baxımdan hüquq mədəniyyəti anlayışının mahiyyətinin tədqiqi önəmlidir.

Şagirdlərdə hüquq mədəniyyətinin formalaşması həm dərs prosesində, həm də dərsdənkənar fəaliyyətlər zamanı həyata keçirilir. Onlar birinci sinifdən etibarən tədris materialları vasitəsilə birgə yaşayış qaydaları və hüquq normaları ilə tanış olurlar. Bu materiallar şagirdlərdə vətənə sevgi, böyüklərə hörmət, düşmənə nifrət kimi hisslər formalaşdırır. İbtidai siniflər üçün hazırlanan materiallar şagirdlərin yüksək əxlaqi keyfiyyətlərə yiyələnməsinə və cəmiyyət qaydalarına uyğun davranış sərgiləməsinə kömək edir. Şagirdlər sinifdən sinfə keçdikcə qanunlar, dövlət və hüquq kimi anlayışların mahiyyətini daha dərindən dərk etməyə başlayırlar.

Şagirdlər hüquqi bilik və bacarıqları tədris zamanı əldə etdikləri kimi, sinifdənkənar tədbirlər vasitəsilə də bu bilikləri daha da inkişaf etdirirlər. Məsələn, disputlar, bədii əsərlərin müzakirəsi, mühazirələr və digər tədbirlər bu məqsədlə istifadə olunur.

Məktəblilərdə hüquqi şüurun formalaşması üçün hüquqi biliklərin verilməsi məktəbin əsas vəzifəsidir. Hüquqi biliklərin verilməsi dedikdə, sadəcə quru məlumat verməklə deyə bilmərik ki, onlar bunu bilib əməl edəcəklər. Hüquqi tərbiyə elə təşkil edilməlidir ki, yeniyetmələr, şagirdlər bu normalara əməl etməyi öz tələbatlarına çevirsinlər (1, s. 302).

Hüquq mədəniyyəti şəxsiyyətin ahəngdar inkişafına yönəlmiş tərbiyə işlərinin mühüm bir sahəsidir. Bu, hüquqi dövlətin qurulması prosesində gənc nəslin hüquqi tərbiyəsinin önəmli olduğunu göstərir. Hüquq tərbiyəsi, tərbiyə prosesinin bir hissəsidir. Bu vasitə ilə insanlar hüquqi biliklər əldə edir, cəmiyyətdəki hüquq normalarını, onların mahiyyətini və hüquq pozuntularının nəticələrini öyrənirlər. Hüquq tərbiyəsi insanların vətəndaş hüquqları haqqında lazım olan məlumatları əldə etmələrinə imkan yaradır və bu biliklər vasitəsilə cəmiyyətdəki hüquq normalarına münasibətləri formalaşır.

İnsanın hüquqa dair təsəvvürləri, ideya və düşüncələri onun hüquq düşüncəsində özünü göstərir. Hüquq düşüncəsi nə qədər inkişaf etmiş olsa, insan hüquq normalarını daha şüurlu şəkildə yerinə yetirər və onların pozulmasına yol verməz.

Hüquq mədəniyyətinin ailədə başlaması gənc nəsil üçün daha faydalıdır. Valideynlər hüquqi normalara və qanunlara hörmət etməklə, öz övladlarına nümunə ola bilərlər. Ailədən sonra bu tərbiyə məktəblərdə davam etdirilməli və ali təhsildə daha da dərinləşdirilməlidir. Hüquq tərbiyəsində qanunlardan başqa, müdrik sözlərdən və hikmətlərdən də istifadə etmək yaxşı nəticələr verir.

Professor A.N. Abbsovun təbirincə, şagirdlərin hüquq mədəniyyəti onlarla hüquq tərbiyəsi üzrə məqsədyönlü, sistemli və fasiləsiz işlər aparmaqla həyata keçir. Professor hüquq tərbiyəsindən söz açarkən bildirir ki, "Hüquq tərbiyəsi qanunun tələblərini gözləmək, birgəyaşayış qaydalarına hörmət etmək, gənc nəslin öz hüquq və vəzifələrini bilmək, hüquqlarından istifadə etməklə yanaşı üzərlərinə düşən vəzifələri yerinə yetirmək və s. sahəsində aparılan işləri nəzərdə tutur. Ümumiyyətlə, *hüquq tərbiyəsi* dedikdə, uşağın (məktəblinin) şəxsiyyətinə mütəşəkkil, mütəmadi, məqsədyönlü və planlı şəkildə təsir göstərilməsi əsasında onda hüquqi şüur və hüquq mədəniyyətinin, hüquqauyğun davranışı, düzgün adət və vərdişlərin formalaşdırılması, qanuna, hüquqa, birgəyaşayış qaydalarına hörmət hissinin, cəmiyyət zidd hallara qarşı dözülməzlik münasibətlərinin yaradılması başa düşülür" (4, s. 334).

Məktəbdə, məktəbdənkənar və sinifdənxaric tədbirlərdə, ən nəhayət, dərs prosesində şagirdlərə elə bir azadlıq və sərbəstlik verilməlidir ki, onlar sabahın qurucuları, idarəedicilərі kimi yetişə bilsinlər. Qeyd olunan keyfiyyətlərə malik olan şəxsiyyətləri yetişdirmək üçün biz müəllimlər şagirdlərdə özünəinam hissi tərbiyə etməliyik. Şagirdlərdə bu xüsusiyyət o zaman formalaşır ki, onlara sinfin təşkilində, öyrənmədə sərbəstlik verilir və onların fikirləri nəzərə alınır. Əlbəttə ki, bu da müəllimlə şagird arasında müsbət mənada mövcud olan əməkdaşlıqdan başlayır (3, s.71).

Bu gün ibtidai siniflərin proqram və dərslikləri üzrə təlimin məqsədi kiçikyaşlı məktəblilərin yaş xüsusiyyətləri və imkanlarına lazımınca yönəldilmir. İndiki mərhələdə ibtidai təhsilin qarşısında qoyulmuş vəzifələrin müəllimlər tərəfindən düzgün başa düşülməsi kiçikyaşlı məktəblilərin təlimi, tərbiyəsi və inkişafı üzrə daha məzmunluvə intensiv təşkilinə təsir göstərər bilər.

İbtidai sinif şagirdlərində hüquq mədəniyyətinin formalaşması, uşaqların kiçik yaşlardan hüquq və ədalət anlayışını qavrayıb bu prinsipləri gündəlik həyatlarına tətbiq etmələrini təmin edən mühüm bir sahədir. Hüquq mədəniyyəti, fərdlərin hüquqlarına hörmət, məsuliyyətli davranış və ədalət prinsiplərini anlama və tətbiq etmə bacarıqlarının inkişafını əhatə edir.

İbtidai sinif dərsliklərində hüquq mədəniyyəti uşaqlarda erkən yaşlardan hüquq biliklərinin formalaşması, öz hüquq və vəzifələrini dərk etməsi üçün vacibdir. Bu tərbiyə, ilk növbədə, sosial qaydalar, hörmət, ədalət anlayışları və ətraf mühitə məsuliyyət kimi mövzularla bağlı təqdim olunan məzmun vasitəsilə həyata keçirilir.

Kurikulumda şagirdlərin hüquq mədəniyyətini inkişaf etdirmək üçün müxtəlif mövzulara yer verilir. Burada əsas məqsəd şagirdlərə hüquqlarını, vəzifələrini və qanunların əhəmiyyətini başa salmaqdır.

İbtidai təhsildə yaradıcı fəaliyyətin psixoloji əsası qoyulur. Fantaziya və təxəyyül, yaradıcı təfəkkür inkişaf etdirilir, maraq tərbiyə olunur, müşahidə və təhlil etmək, müqayisə aparmaq, faktları ümumiləşdirmək, nəticə çıxartmaq bacarıqları formalaşır. (4, s. 15)

İbtidai siniflərdə hüquq mədəniyyətini formalaşdırmaq üçün müxtəlif metodlar və yanaşmalar mövcuddur. Bu yanaşmaların məqsədi uşaqların hüquq və ədalət haqqında düşünmə bacarıqlarını inkişaf etdirmək və onlara bu sahədəki bilikləri effektiv şəkildə ötürməkdir.

Təsirli metodlardan biri kimi rol oyunlarını göstərə bilərik. Bu oyunlar, uşaqların hüquq və ədalət anlayışlarını praktiki şəkildə tətbiq etmələrini təmin edir. Məsələn, uşaqlar bir mübahisənin həlli və ya bir hüquqi məsələnin müzakirəsi kimi vəziyyətlərdə müxtəlif rolları oynayaraq, öz hüquqlarını müdafiə etməyi və başqalarının hüquqlarına hörmət etməyi öyrənə bilərlər.

Rollu oyunlar uşaqların hüquq mövzularını real həyat situasiyalarında tətbiq etməsinə kömək edir. Məsələn: "Məhkəmə zalı" oyunu – Şagirdlər müxtəlif rolları (hakim, vəkil, şahid, təqsirləndirilən şəxs və s.) oynayaraq məhkəmə prosesinin necə işlədiyini öyrənirlər. Bu, onlara ədalət anlayışını dərin başa düşməyə kömək edir. "Dostluq müqaviləsi" – Şagirdlər bir-biri ilə saziş bağlamaqla (məsələn, "sinifdə səs-küy etməmək", "bir-birinə hörmət etmək") hüquqi müqavilələrin mahiyyətini başa düşürlər.

Müəllimlər hüquq mövzularını daha maraqlı və dərin izah etmək üçün müzakirələr təşkil edirlər. Məsələn: "Şagirdlərin məktəbdə hansı hüquqları var?" mövzusunda müzakirələr aparılır. Uşaqlar öz hüquqlarını dərk edir və hansı hallarda bu hüquqların pozula biləcəyini öyrənirlər. "Hüquq və məsuliyyət" haqqında debatlar keçirilir. Şagirdlər fərqli fikirlər səsləndirir və arqumentlərini müdafiə etməyi öyrənirlər.

İbtidai siniflərdə hüquq mədəniyyətinin formalaşması üçün qabaqcıl müəllimlər fənn proqramına hüquq biliklərini daxil etməyə xüsusi önəm verirlər. Çünki uşaqlar kiçik yaşlardan hüquqlarını və vəzifələrini öyrəndikdə, gələcəkdə cəmiyyətin qaydalarına daha yaxşı əməl edir və ədalətli davranmağı öyrənirlər.

Uşaqların hüquq mədəniyyətinə yiyələnməsi üçün dərsliklər və tədris materiallarının da uyğunluğu vacibdir. Bu materiallarda uşaqlar üçün anlaşılan dil və sadə nümunələr istifadə olunmalıdır ki, onlar hüquq mövzularını asanlıqla başa düşsünlər. Dərsliklərdə hüquq anlayışları və onların gündəlik həyatda tətbiqi ilə bağlı hekayələr, şəkillər və qrafiklər yer almalıdır.

Şagirdlərə hüquq mədəniyyəti haqqında düşünmə və öz fikirlərini ifadə etmə imkanı yaratmaq, onların kritik düşünmə bacarıqlarını inkişaf etdirə bilər. Müəllimlər, şagirdlərə fərqli hüquqi vəziyyətləri təqdim edərək müzakirələr aparmalarını təşviq edə bilərlər. Bu müzakirələr, uşaqların hüquq və ədalət haqqında daha dərin anlayışlar formalaşdırmalarına kömək edər.

Hüquq mədəniyyətinin ibtidai siniflərdə tədrisi zamanı şagirdlərin hüquqi bilikləri yalnız nəzəri qaydada deyil, eyni zamanda müzakirələr və diskussiyalar vasitəsilə mənimsəməsi çox vacibdir. Bu metodlar uşaqlara hüquqi anlayışları real həyat kontekstində anlamaq, arqumentlərini əsaslandırmaq və başqalarının baxış bucaqlarına hörmətlə yanaşmaq imkanı yaradır.

Həyat bilgisi dərsliyinin III bölməsinin "hüquqlarımız" adlı paraqrafında insan hüquqları, uşaq hüquqları haqqında bir sıra məsələlər qeyd edilir. Dilindən, dinindən, cinsindən asılı olmayaraq insan hüquqları hamıya şamil edilir. Azərbaycanda uşaq hüquqlarının qorunması ilə bağlı "Uşaq hüquqları haqqında" Qanun mövcuddur. Qanun uşaqlara valideynlərlə birlikdə və onların qayğısı altında, normal şəraitdə yaşamaq hüququ verir. Dövlət bu şəraiti təmin etməyi, bunun üçün tədbirlər görməyi, sağlam və təhlükəsiz mühit yaratmağı öz öhdəsinə götürür (2, s.74).

Araşdırmalara görə, ibtidai siniflərdə hüquq mədəniyyətinin formalaşdırılması üçün bir neçə əsas amil vacibdir. Birincisi, məktəb proqramlarında hüquqi biliklərə yer verilməli, şagirdlərə onların hüquq və vəzifələri izah edilməlidir. İkincisi, interaktiv tədris metodları – rollu oyunlar, debatlar və real həyat situasiyalarının təhlili tətbiq olunmalıdır ki, uşaqlar hüquqi anlayışları praktik şəkildə mənimsəsinlər. Üçüncüsü, müəllimlərin hüquqi biliklərinin artırılması və valideynlərin də bu prosesə cəlb edilməsi mühüm rol oynayır. Ümumiyyətlə, hüquq mədəniyyəti erkən yaşlardan aşılanarsa, gələcəkdə daha ədalətli, məsuliyyətli və hüquqşünas vətəndaşlar yetişdirmək mümkün olar.

**Problemin aktuallığı.** İbtidai siniflərdə hüquq mədəniyyətinin formalaşdırılması cəmiyyətin gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir. Uşaqların hüquq və vəzifələr haqqında kifayət qədər məlumata malik olmaması onların gələcəkdə sosial mühitdə çətinliklərlə qarşılaşmasına səbəb ola bilər. Bu məsələnin aktuallığı ondan irəli gəlir ki, hüquqi biliklərə yiyələnməyən uşaqlar öz haqlarını qorumaqda və başqalarının hüquqlarına hörmət etməkdə çətinlik çəkə bilərlər. Məktəblərdə hüquq mədəniyyətinin lazımi səviyyədə tədris olunmaması, gələcək nəsillərdə qanunlara riayət etmə və ədalətli qərar vermə bacarıqlarının zəifləməsinə gətirib çıxara bilər. Buna görə də, hüquq anlayışlarının kiçik yaşlardan düzgün izahı, məsuliyyətli və ədalətli vətəndaşların yetişdirilməsində mühüm rol oynayır.

**Problemin elmi yeniliyi.** Ənənəvi tədris metodlarından fərqli olaraq, hüquq biliklərinin erkən yaşlarda oyunlar, debatlar və interaktiv fəaliyyətlər vasitəsilə mənimsədilməsi uşaqların hüquqi şüurunun daha effektiv inkişaf etməsinə kömək edir. Müasir təhsil yanaşmaları göstərir ki, hüquq mədəniyyətinin kiçik yaşlardan formalaşdırılması gələcəkdə sosial məsuliyyətin və hüquqa hörmətin güclənməsinə səbəb olur. Bu sahədə aparılan araşdırmalar, ibtidai siniflərdə hüquq dərslərinin xüsusi kurikulum və innovativ metodlarla inteqrasiyasının təhsil sisteminə müsbət təsir etdiyini ortaya qoyur. Beləliklə, problemin elmi yeniliyi onun müasir cəmiyyətin hüquqi şüurlu vətəndaşlarını yetişdirmək üçün yeni pedaqoji və hüquqi yanaşmalar tələb etməsindədir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi**. Uşaqlar erkən yaşlardan hüquq və vəzifələrini mənimsəyərək sosial mühitdə daha şüurlu davranırlar. Bu biliklər onlara gündəlik həyatda qarşılaşdıqları haqsızlıqlara qarşı necə reaksiya verməyi və hüquqlarını necə qorumağı öyrədir. Hüquqi maarifləndirmə şagirdlərdə ədalət anlayışını, sosial məsuliyyət hissini və konfliktlərin dinc yolla həll edilməsi bacarıqlarını inkişaf etdirir.

### Ədəbiyyat

1. Allahverdiyeva F., Tağıyeva S. Pedaqogika. Bakı: Elm və Təhsil, 2018.

2. N. Cabbarlı, K. Mahmudova, F. Əzizova. Həyat bilgisi. Bakı: Şərq-Qərb, 2021, 104 s.

3. Maqsudova N. "Kiçik yaşli məktəblilərdə fəal öyrənmə zamani özünəinam hissinin formalaşdırılması //Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2024, № 2.

4. Mehdiyeva Z. Həyat bilgisi fəninin tədrisində şagirdlərin həyati bacarıqlarının formalaşdırılması. Naxçıvan, 2024.

5. A.N. Abbasov, H.Ə. Əlizadə. Pedaqogika. Ali təhsil müəssisələrinin bakalavriat səviyyəsi üçün dərslik. Bakı: Mütərcim, -2024. – 408 s.

**Дж.Г. Гасымова**

**Формирование правовой культуры в начальных классах**
**Резюме**

Формирование правовой культуры в начальной школе учит детей понимать и соблюдать закон с раннего возраста. Такой подход помогает учащимся понять свои права и обязанности, уважать права других и освоить концепцию социальной справедливости. Учителя объясняют юридические знания посредством ролевых игр, дебатов и интерактивных занятий, что позволяет детям лучше понять предмет. Таким образом, привитие правовой культуры с раннего возраста способствует развитию в будущем сознательных, справедливых и ответственных граждан.

**J.Q. Gasimova**

**Formation of legal culture in primary classes**
**Summary**

The formation of a legal culture in primary schools teaches children to understand and obey the law from an early age. This approach helps students to understand their rights and responsibilities, to respect the rights of others and to master the concept of social justice. Teachers explain legal knowledge through role-playing games, debates and interactive activities, enabling children to better understand the subject. Thus, inculcating legal culture from an early age contributes to the development of conscious, fair and responsible citizens in the future.

**Redaksiyaya daxil olub:** 04.03.2025

*UOT 372.3/.4*

# KİÇİKYAŞLI MƏKTƏBLİLƏRDƏ KOMMUNİKATİV BACARIQLARIN FORMALAŞDIRILMASINDA ƏNƏNƏVİ VƏ FƏAL-İNTERAKTİV TƏLİM METODLARININ YERİ VƏ ONUN NƏTİCƏSİ

**Ceyhunə Gündüz qızı Məmmədova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0002-8148-8396
**E-mail:** memmedovaceyhune49@gmail.com

***Açar sözlər:*** *kiçikyaşlı məktəblilər, kommunikativ bacarıqlar, ənənəvi təlim metodları, fəal-interaktiv təlim metodları, təlim metodları, kommunikasiya bacarıqları, məktəb təhsili, bacarıq inkişafı, təlim nəticələri, təhsil metodları, şagird inkişafı, ənənəvi və interaktiv təlim, intellektual inkişaf, təlim mühiti, müəllim və şagird əlaqəsi*

***Ключевые слова:*** *младшие школьники, коммуникативные навыки, традиционные методы обучения, активно-интерактивные методы обучения, методы обучения, коммуникативные навыки, школьное образование, развитие навыков, результаты обучения, методы обучения, развитие учащихся, традиционное и интерактивное обучение, интеллектуальное развитие, учебная среда, отношения учитель-ученик*

***Key words:*** *primary school students, communication skills, traditional learning methods, active-interactive learning methods, learning methods, communication skills, school education, skill development, learning outcomes, learning methods, student development, traditional and interactive learning, intellectual development, learning environment, teacher-student relationship*

İbtidai siniflərdə kiçikyaşlı məktəblilərlə təşkil olunmuş ənənəvi təlim, şagirdlərin məktəb həyatının başlanğıc mərhələlərində daha çox müəllim mərkəzli və sərt qaydalara əsaslanan bir yanaşmadır. Bu metodla təşkil olunmuş təlimdə əsasən müəllim dərsi keçir, şagirdlər isə müəllimin verdiyi məlumatları qəbul edərək öyrənirlər. Ənənəvi təlimin xüsusiyyətləri aşağıdakı kimi ümumiləşdirilə bilər:

- Müəllim mərkəzli yanaşma: Müəllim dərsi idarə edir, kiçikyaşlı məkətblilər isə dərsə passiv şəkildə qoşulurlar. Müəllimin rolu məlumat vermək və istiqamət verməkdir.
- Dərs planları və məqsədlər: Ənənəvi təlimdə dərs proqramı daha çox mövzu və tədris materiallarına əsaslanır.
- Qiymətləndirmə: Ənənəvi təlimdə şagirdlər daha çox yazılı imtahanlar və testlər vasitəsilə qiymətləndirilir.
- Dərsliklər və yazılı materiallar: Ənənəvi təlimdə dərsliklər və digər yazılı materiallar şagirdlərə əsas tədris vasitəsi kimi təqdim edilir.
- Disiplin və qaydalar: Ənənəvi təlimdə məktəbdə ciddi disiplin qaydaları mövcuddur.
- Şagirdin aktivliyi: Bu yanaşmada şagirdlərin dərsdə iştirakları çox vaxt passiv olur.

Ənənəvi təlim yanaşması, şagirdlərin əsas bacarıqları, bilikləri və davranışları mənimsəmələrini təmin etmək məqsədi güdsə də, bu metodla qurulan təlimdə fəal şəkildə tədqiqat aparmaq, araşdırmaq qabiliyyəti, kommunikativ əlaqəyə girmək cəhdəri çox az bəzən də heç

olmadığından bu istiqamətdə inkişaf ləngiyir. Lakin, müasir təhsil yanaşmalarında şagirdin aktiv iştirakının önəmi artır, buna görə də ənənəvi təlim üsullarında bəzən məhdudiyyətlər görülür.

Kiçikyaşlı məktəblilərdə kommunikativ bacarıqların formalaşdırılmasında ənənəvi təlimin rolu aşağıdakı kimi səciyyələndirə bilərik:

1. Dil və nitq bacarıqlarının inkişafı
2. Sosial bacarıqların inkişafı
3. Müəllimin rəhbərliyi və model rolu
4. Şagirdlərin fikir və düşüncələrinin ifadə edilməsi

Kiçikyaşlı məktəblilərdə kommunikativ bacarıqların formalaşdırılmasında ənənəvi təlim metodlarının rolu olsa da, fəal-interaktiv təlim metodlarının rolu daha çox mühüm və əhəmiyyətlidir. Belə ki, bu metodlar şagirdlərin təkcə məlumat əldə etməsini deyil, həm də onları gündəlik həyatda qarşılaşdıqları vəziyyətlərdə aktiv şəkildə iştirak etməyə, başqalarına fikir bildirməyə, fikirlərini ifadə etməyə və əməkdaşlıq etməyə təşviq edir. Fəal-interaktiv təlim metodlarının kiçikyaşlı məktəblilərin kommunikativ bacarıqlarını formalaşdırmağa necə təsir etdiyini aşağıdakı əsas məqamlarla izah etmək olar:

1. Şagird mərkəzli yanaşma
2. Qrup işi və əməkdaşlıq
3. Təcrübə və oyunlar
4. Fikir mübadiləsi və müzakirə

Azərbaycan təhsil nəzəriyyəçisi və pedaqoqu İsmayıl Şıxlıya görə "Pedaqoji prosesdə fəal iştirak tələb edən təlim metodları, tələbənin yalnız passiv öyrənici deyil, həm də aktiv iştirakçı olmasına imkan verir. Təlimin interaktiv qurulması, şagirdlərin öz fikirlərini ifadə etməsi və öyrənmə prosesində aktiv rol alması məqsədini güdür".

Kiçikyaşlı məktəblilərdə kommunikativ bacarıqların formalaşdırılması, onların sosial və emosional inkişafı baxımından çox əhəmiyyətlidir. Bu prosesin inkişafında müxtəlif təlim metodları istifadə edilir. Bu metodlar arasında ənənəvi və fəal-interaktiv təlim metodlarının müqayisəsi aşağıdakı şəkildə təqdim oluna bilər:

Müqayisə və nəticə:

| Aspekt | Ənənəvi metodlar | Fəal-interaktiv metodlar |
|---|---|---|
| Müəllim və şagirdin rolu | Müəllim mərkəzli, şagird passiv | Şagird mərkəzli, müəllim rəhbər |
| Kommunikasiya | Məhdud, müəllim-şagird istiqamətində | Aktiv və qarşılıqlı kommunikasiya |
| Bacarıqların inkişafı | Kommunikativ bacarıqlar zəif inkişaf edir | Güclü sosial və kommunikativ bacarıqların inkişafı |
| İnteraktivlik | Az və ya yoxdur | Yüksək, şagirdlər qarşılıqlı fəaliyyət göstərirlər |
| Motivasiya | Şagirdlərin marağı az ola bilər | Şagirdlər daha motivasiyalıdır |

Nəticə olaraq qeyd edə bilərik ki, kiçikyaşlı məktəblilərin kommunikativ bacarıqlarının inkişafı üçün fəal-interaktiv təlim metodları daha effektivdir. Bu metodlar şagirdlərin daha aktiv və qarşılıqlı şəkildə iştirak etmələrinə imkan verir, bu da onların sosial bacarıqlarını gücləndirir. Ənənəvi metodlar isə daha çox məlumatın ötürülməsinə yönəlmişdir və bu metodda şagirdlərin real həyatda lazım olan kommunikativ bacarıqları inkişaf etdirmək çətin olur. Bu səbəbdən, fəal-interaktiv təlim metodlarının kiçikyaşlı məktəblilərdə kommunikativ bacarıqların inkişafı bxımından üstünlüyü, aktuallığı daha aydındır.

**Problemin aktuallığı.** Kiçikyaşlı məktəblilərdə kommunikativ bacarıqların inkişafı, onların gələcək təhsil və sosial həyatında uğurlu olmaları üçün mühüm rol oynayır. Ənənəvi və fəal-interaktiv təlim metodlarının birgə tətbiqi, şagirdlərin aktiv iştirakı ilə bu bacarıqları daha effektiv şəkildə formalaşdırmağa imkan verir.

**Problemin elmi yeniliyi.** Kiçikyaşlı məktəblilərdə kommunikativ bacarıqların inkişafı sahəsində ənənəvi və fəal-interaktiv təlim metodlarının birləşdirilməsi, müasir tədris prosesində yenilikçi yanaşmaların tətbiqini təmin edir. Bu metodların sinergiyası, şagirdlərin daha yaxşı ünsiyyət qurma bacarıqlarını inkişaf etdirərək, təhsil sisteminə yeni bir perspektiv gətirir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Kiçikyaşlı məktəblilərdə kommunikativ bacarıqların formalaşdırılması, onların sosial inteqrasiyası və gələcək təhsil uğurları üçün vacibdir. Ənənəvi və fəal-interaktiv təlim metodlarının tətbiqi, şagirdlərin gündəlik həyatda ünsiyyət bacarıqlarını daha yaxşı inkişaf etdirərək, tədris prosesini daha effektiv və əhatəli edir.

## Ədəbiyyat

1. Sadıqova, N.R. Kiçikyaşlı məktəblilərdə kommunikativ bacarıqların inkişafı. Bakı: Elm və Təhsil, 2015.

2. Quliyeva, S.N. Fəal-interaktiv təlim metodları və onların təhsil sistemində tətbiqi. Bakı: Maarif, 2018.

3. Əhmədova, L.H. Kiçikyaşlı məktəblilərdə kommunikativ bacarıqların inkişafında oyun metodlarının rolu. Bakı: Təhsil, 2020.

**С.Г. Маммедова**

## Место традиционных и активно-интерактивных методов обучения в формировании коммуникативных умений младших школьников и его результаты

### Резюме

По сравнению с традиционными методами активно-интерактивные методы обучения оказывают большее влияние на развитие коммуникативных навыков. Эти подходы позволяют детям выражать себя, развивать свои социальные навыки и поощрять дух сотрудничества. Используя эти методы, учащиеся лучше общаются и выражают свои мысли более четко и уверенно.

В результате активно-интерактивные методы обучения предлагают более эффективный подход к развитию коммуникативных навыков учащихся. Применение этих

методов помогает студентам добиться успеха не только в сфере образования, но и в общественной жизни.

**C.G. Mammadova**

**The place and results of traditional and active-interactive teaching methods in the formation of communicative skills of younger schoolchildren**

**Summary**

Compared to traditional methods, active-interactive teaching methods have a greater impact on the development of communication skills. These approaches give children the opportunity to express themselves, develop their social skills and encourage a spirit of cooperation. Students communicate better with these methods, and also express their ideas more clearly and confidently. As a result, active-interactive teaching methods offer a more effective approach to developing the communication skills of schoolchildren. The application of these methods helps students to be successful not only in the academic field, but also in their social lives.

**Redaksiyaya daxil olub:** 12.03.2025

*UOT 372.3/.4*

# BİRİNCİ SİNİFDƏ ŞAGİRDLƏRİN TƏLİM FƏALLIĞINA VARİSLİK PRİNSİPİNİN TƏSİRİ

**Türkan Bəxtiyar qızı Əliyeva**
SABAH qrupları, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı
**ORCID:** 0009-0007-2516-6196
**E-mail:** eliyevaturkan942@gmail.com

***Açar sözlər:*** *varislik prinsipi, kurikulum, şagird, məktəbəqədər təhsil, ibtidai sinif, standart, təlim nəticəsi*
***Ключевые слова:*** *принцип преемственности, учебный план, студент, дошкольное образование, начальная школа, стандартный, результат обучения*
***Key words:*** *principle of continuity, curriculum, student, preschool education, elementary school, standard, learning outcome*

Məktəbəqədər təhsil uşaqların ilk təhsil təcrübəsidir və onların məktəb həyatına daha asan uyğunlaşmasına kömək edir. Birinci sinifdə şagirdlərin təlim fəallığını artıran ən mühüm amillərdən biri də varislik prinsipidir. Varislik prinsipi məktəbəqədər təhsildə öyrədilən bilik və bacarıqların ibtidai təhsildə davam etdirilməsini nəzərdə tutur. Əgər uşaq məktəbəqədər təhsildə müəyyən vərdişlər əldə edibsə və məktəbdə bu bacarıqlar nəzərə alınaraq tədris təşkil edilirsə, o zaman uşağın təlim fəallığı daha yüksək olur.

Məsələn, məktəbəqədər təhsildə uşaqlara sadə oyunlarla sayma, hərfləri tanıma, hekayələr danışma və diqqət cəmləmə bacarıqları öyrədilir. Əgər birinci sinifdə dərslər bu biliklərin üzərində qurularsa və uşaqlara tanış üsullarla yeni biliklər təqdim edilərsə, onlar dərs prosesinə daha həvəslə qoşularlar. Bunun əksinə, əgər müəllim uşaqların əvvəlki təcrübəsini nəzərə almadan dərs keçərsə, bəzi şagirdlər çətinlik çəkə və öyrənməyə maraqları azala bilər.

Təsəvvür edək ki, bir uşaq məktəbəqədər təhsil zamanı qrup halında işləməyi, suallara cavab verməyi və tapşırıqları yerinə yetirməyi öyrənib. Birinci sinifdə isə müəllim dərsi yalnız fərdi tapşırıqlar əsasında təşkil edirsə və uşaqları bir-biri ilə əməkdaşlıq etməyə təşviq etmirsə, həmin uşaq özünü rahat hiss etməyə bilər. Bu da onun təlim fəallığını aşağı sala bilər. Lakin əgər dərslər oyunlar, qrup tapşırıqları və şagirdlərin əvvəlki biliklərini aktiv istifadə etmələri üzərində qurulsa, uşaqlar daha motivasiyalı və fəal olarlar.

Bundan əlavə, varislik prinsipi emosional uyğunlaşmada da mühüm rol oynayır. Bir çox uşaq üçün məktəbə ilk dəfə getmək həyəcanverici və eyni zamanda qorxulu bir təcrübə ola bilər. Əgər məktəbəqədər təhsildə onlar öz fikirlərini ifadə etməyi, müəllimlə və digər uşaqlarla ünsiyyət qurmağı öyrəniblərsə, məktəbdə daha tez uyğunlaşa bilərlər. Məsələn, bir uşaq bağçada müəllimin hekayə danışmasını dinləməyə və sonra öz fikirlərini bölüşməyə alışıbsa, birinci sinifdə də dərslərə daha rahat qoşula bilər. Lakin heç vaxt belə bir təcrübəsi olmayan bir uşaq ilk dərslərdə müəllimin suallarına cavab verməkdə və aktiv iştirak etməkdə çətinlik çəkə bilər.

Varislik prinsipi eyni zamanda öyrənmə vərdişlərinin davamlı inkişafını təmin edir. Əgər birinci sinifdə müəllim məktəbəqədər dövrdə formalaşan biliklərə əsaslanaraq yeni mövzuları

izah edirsə, uşaqlar mövzuları daha asan mənimsəyir. Məsələn, məktəbəqədər dövrdə uşaqlar oyun formasında sadə riyazi anlayışlarla tanış olurlar. Əgər birinci sinifdə müəllim dərsləri bu oyunları davam etdirərək keçir və riyazi bilikləri daha da inkişaf etdirirsə, uşaqlar çətinlik çəkmədən yeni mövzuları mənimsəyə bilərlər. Lakin əgər müəllim bu keçidi nəzərə almasa və mövzuları tamamilə fərqli üsulla izah etməyə başlasa, uşaqlar dərsdən uzaqlaşa və motivasiyaları azala bilər.

Bütün bunlar göstərir ki, varislik prinsipi birinci sinifdə şagirdlərin təlim fəallığının artırılmasında mühüm rol oynayır. Məktəbəqədər təhsildə formalaşan bacarıqların ibtidai sinifdə davam etdirilməsi uşaqların dərslərə marağını qoruyub saxlamağa, öyrənmə prosesindən həzz almağa və uğur qazanmalarına kömək edir. Müəllimlər bu prinsipi nəzərə alaraq dərsləri planlaşdırdıqda, şagirdlərin motivasiyası və fəallığı artır, onların məktəb həyatına adaptasiyası daha rahat olur.

**Problemin aktuallığı.** Birinci sinif şagirdlərinin təlim fəallığının artırılması təhsilin keyfiyyətinə birbaşa təsir göstərdiyi üçün bu mövzu aktuallığını qoruyur. Məktəbəqədər təhsildə əldə edilən bacarıqların ibtidai sinifdə davamlı inkişaf etdirilməməsi uşaqların öyrənmə motivasiyasını azalda bilər. Varislik prinsipi nəzərə alınmadıqda, birinci sinif şagirdləri məktəb mühitinə çətin uyğunlaşır və dərs prosesinə passiv yanaşa bilirlər. Müəllimlərin məktəbəqədər dövrdə formalaşan bilik və vərdişlərdən xəbərdar olması, onların tədris metodlarını daha effektiv qurmasına kömək edir.

**Problemin elmi yeniliyi.** Bu tədqiqatın elmi yeniliyi birinci sinifdə, dərsdə şagirdlərin təlim fəallığına varislik prinsipinin təsirinin uşaqların hərtərəfli inkişafına necə təsir etdiyini göstərir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Bu tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, o, məktəbəqədər və ibtidai təhsil arasında varislik prinsipinin tətbiqini əsaslandıraraq, müəllimlərə birinci sinifdə şagirdlərin təlim fəallığını artırmaq üçün səmərəli pedaqoji metodlar təqdim edir və bununla da təhsil proqramlarının daha səmərəli qurulmasına töhfə verir.

## Ədəbiyyat

1. Məktəbəqədər təhsil proqramı, Bakı, 2022.

2. Hüseynov A. İbtidai siniflərdə tədris metodları və məktəbəqədər hazırlığın əhəmiyyəti, Bakı: Müasir təhsil, 2018, 81 s.

3. Elif Beyan. “Okul öncesi ve ilkokul arası uyum: öğretmen uygulamaları ve beklentiler”, 2024.

4. UNESCO. Education for All: Early Childhood Care and Education. Paris: UNESCO Publishing, 2006.

5. Oktay, A (Ed.). İlköğretime hazırlık ve ilköğretim programları. Ankara: Pegem Akademi. 2010.

**Т.Б. Алиева**

**Влияние принципа преемственности на учебную деятельность учащихся первого класса**
**Резюме**

Основная цель этой статьи — исследовать влияние принципа наследования на учебную активность учеников первого класса. Принцип наследования показывает, как опыт и знания, полученные от предыдущих поколений, отражаются в учебном процессе ребенка. В статье анализируется, как этот принцип влияет на учебную активность учеников и их отношение к урокам. Также рассматривается, как знания, полученные в дошкольном образовании, влияют на адаптацию и учебную деятельность учеников первого класса. Цель — понять этот принцип и показать, как образовательные стратегии и методы могут повысить учебную активность учеников.

**T.B. Aliyeva**

**The impact of the succession principle on the learning activity of students in the first grade**
**Summary**

The main purpose of this article is to explore the impact of the principle of inheritance on the learning engagement of first-grade students. The principle of inheritance shows how the experiences and knowledge gained from previous generations are reflected in a child's learning process. The article analyzes how this principle affects the students' learning engagement and their attitude towards lessons. It also discusses how the knowledge acquired during preschool education influences the adaptation and learning activities of first-grade students. The aim is to understand this principle and demonstrate how educational strategies and methods can enhance students' learning engagement.

**Redaksiyaya daxil olub:** 12.03.2025

*UOT 372.3/.4*

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN HƏYATI BACARIQLARININ İNKİŞAFI ÜZƏRİNDƏ İŞ

**Samirə İltifat qızı Kazımlı**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD**: 0009-0001-3434-3402
**E-mail:** kazimlizehra914@gmail.com

***Açar sözlər:*** *ibtidai təhsil, evristik fəaliyyət, yaradıcılıq, mövcud çətinliklər*
***Ключевые слова:*** *начальное образование, эвристическая деятельность, творчество, существующие трудности*
***Key words:*** *elementary education, heuristic activity, creativity, existing difficulties*

İbtidai təhsil prosesi zamanı bir sıra nüanslara nəzər yetirmək lazımdır. Bu cür təhsilin ilkin çətinlikləri məktəbəqədərki dövrdə şagirdlərin idrak qabiliyyətlərinin yetərsiz inkişafı ilə müşahidə olunur ki, bu da onların ibtidai sinfə başlayarkən çətinlik çəkməsi ilə nəticələnir. Bu adətən:

* riyaziyyat və digər fənlərlə çətinlik - məntiq, analitik düşünmənin yetərsizliyindən;

* mətnlərin nəql edilməsi ilə çətinliklər təxəyyülün, məntiqi yaddaşın, nitq qabiliyyətinin inkişafında buraxılan səhvlərdən irəli gəlir;

* müəllimin izahının məğzini dərk etmək bacarıqsızlığı (məhdud diqqət həcmi, canlı marağın olmaması);

* şeirlərin, vurma cədvəlinin öyrənilməsində çətinliklər - pis inkişaf etmiş mexaniki və uzunmüddətli yaddaş, zəif diqqət toplaması ilə bağlı olur.

Təhsilin konsepsiyasında ibtidai təhsilin məqsədini əks etdirən oxu, yazı və hesablama vərdişləri yaratmaq və möhkəmləndirmək; məktəblilərə insan, cəmiyyət, təbiət və onlar arasındakı qanunauyğunluqlar haqqında ilkin həyati bilik və bacarıqların verilməsini təmin etmək; məntiqi və yaradıcı təfəkkür elementlərini formalaşdırmaq, istedadlı uşaqların erkən yaşdan üzə çıxarılmasını və inkişafını təmin etmək; şagirdlərə həssaslıq, estetik və bədii zövq, əxlaqi-mənəvi keyfiyyətlər, fiziki mədəniyyət və özünəxidmət bacarıqları aşılamaq kimi dəyərlərin təmin olunması pedaqoji əməyin hazırlığının nəzəri və praktik həlli ilə əlaqədardır.

Pedaqoji əməyin tərbiyəedici funksiyası təlim prosesində hər bir fərddə ictimai əhəmiyyətli keyfiyyətlərin və şəxsiyyətin xüsusiyyətlərinin möhkəmləndirilməsi, həyata və fəaliyyətə əxlaqi, estetik münasibətin inkişafını təmin edir.

Pedaqoji prosesdə tərbiyəçilərlə tərbiyə olunanların əməyi bir-birinə qovuşmalı və qarşılıqlı təsir münasibətləri yaradılmalıdır. Məktəbdə fənlərin tədrisi və müxtəlif təlimlərlə yanaşı həm də oyunlar keçirilməlidir. Oyun şagirdin başlıca fəaliyyətlərindən biri olmaqla onun inkişafında və bacarıqlarının formalaşmasında mühüm əhəmiyyətə malikdir. Oyunda əl hərəkətləri və əqli əməliyyatlar tamamlanır. Ona görə birincilərin peşə marağı mövzusuna aid, hər hansı sadə əməliyyatlarla bağlı 2-3 psixoloji oyun daxil edilməklə, diqqətin, mənimsəmə və düşüncənin vəhdəti təmin olunmalıdır. Mövzuların həyati bacarıqlar aşılayan tərəflərini fəal dərsin ayrı-ayrı mərhələlərində məqsədyönlü və planlı şəkildə təhlilə cəlb etmək xüsusilə

vacibdir. Bunun üçün fəal dərsin bütün mərhələlərində ibtidai sinif müəllimləri məqsədyönlü, mütəşəkkil, planlı olaraq iş aparmalıdırlar.

İbtidai sinif müəllimlərinin fəal iş formaları yaratmaları şagirdlərin həyati bacarıqlarının formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Təlimin əsas təşkili forması ümumtəhsil məktəblərində təlim praktikasının təsdiq etdiyi kimi dərsdir. Dərs təlimin elə bir formasıdır ki, burada müəllim-şagird əməkdaşlığı formalaşır, yeni biliklər əldə edilir, yeni bacarıqlar aşılanır, yeni qabiliyyətlər üzə çıxır. Şagird şəxsiyyətinin formalaşmasında müəllim nümunəsinin, müəllim nüfuzunun və xüsusilə də müəllim-şagird əməkdaşlığının böyük rolu vardır.

Həyat bilgisi dərslərində şagirdlərin fəallaşdırılması fəal dərsin təşkilinə zəmin yaradır. Bu imkanlardan faydalanmaqla fəal dərsin mərhələlər üzrə həyata keçirilməsi işi asanlaşır. Dərsdə şagirdlərin fəallaşdırılması diqqət mətkəzində dayanmalıdır. Həyat bilgisinin tədrisi prosesində ümumdidaktik metodlara, o cümlədən müstəqil iş, əyani, müşahidə, demostrasiya, illüstrasiya, yaradıcı, təlimin texniki vasitələri, proqramlaşdırılmış təlim, fəaliyyət motivləri, qruplarla iş, cütlərlə iş, fərdlərlə iş və bu kimi digər təlim metodlarına istinad etmək məsləhətdir. Bununla ibtidai sinif şagirdlərinin həyati bacarıqlarını günün tələbləri səviyyəsində formalaşdırmaq mümkündür.

Riyaziyyatın səmərəli öyrədilməsi şagirdlərin zehni fəaliyyətinə, onların müəyyən düşüncə strukturlarının inkişafına, təsəvvür və anlayışların formalaşmasına, materialın mənimsənilməsinin keyfiyyətinə sistematik nəzarəti təmin edir. Bu zaman aşağıdakıların nəzərə alınması xüsusilə vacibdir:

1) ibtidai təhsilin ümumi təhsilin digər səviyyələrində tədris olunacaq fənlərin bünövrəsi olması;

2) təlimin ilkin mərhələsində təfəkkürün inkişafının, xüsusilə çatışmazlıqları sonradan aradan qaldırmağın çətin və mürəkkəb proses olması.

Tədris prosesinin səciyyəvi idarəetmə prosesi kimi başa düşülməsi ilə biz yalnız mümkün modellərdən birini nəzərdən keçiririk ki, bu da mürəkkəb modelləşdirilmiş obyektin yalnız sadələşdirilmiş təsvirini verir. Ümumiyyətlə, real öyrənmə prosesi, xüsusilə ibtidai təhsildə riyaziyyatın tədrisi təsvir edilən modellə eyni deyil və bu modelin öyrənilməsi ilə məhdudlaşdırılmamalıdır, çünki hər bir mərhələdə çətinliklər yarana bilər: müəllimin verdiyi məlumatları bütün şagirdlər eyni səviyyədə qavramır, hər kəs onu düzgün başa düşmür. Nəzərdən keçirdiyimiz tədris modeli isə modelləşdirilmiş obyektin bəzi əhəmiyyətli xüsusiyyətlərini də özündə saxlayır. Bu modeldə tədris metodu müəllim və şagirdin qarşılıqlı fəaliyyəti kimi izah edilə bilər.

Riyaziyyat fənninin öyrənilməsində ən başlıca amil onun tədrisi üsuludur. Tədris prosesi ibtidai sinif şagirdlərində riyaziyyatda tətbiq olunan əsaslandırma üsullarına yiyələnməyi təmin etməli və onları say, həndəsi fiqur, funksiya, ölçü kimi mühüm riyazi anlayışları mənimsəməyə hazırlamalıdır. Riyaziyyatı "ciddi şəkildə" öyrətmək məqsədilə məktəbliləri parta arxasına əyləşdirməzdən əvvəl, onlarla riyaziyyat üzrə oyunlar (təlim oyunları) oynamaq lazımdır. Oyunlar həmişə şagirdlərə sevinc gətirir. Deməli, oyun metodikasını tətbiq etməklə, tədris prosesini də yaxşılaşdırmaq mümkündür. Buna görə də ibtidai sinif şagirdlərini oyundan ayırmaq deyil, onları, ilk növbədə oyun vasitəsilə öyrətmək daha əlverişli və uşaq təbiətinə uyğundur.

Yaradıcılıq və yaradıcı təfəkkür bir-biri ilə sıx əlaqədə olub, elə məqsədyönlü fəaliyyətdir ki, onun nəticəsində yeni, orijinal fikir, təklif meydana gəlir. Çünki təfəkkür və təxəyyül yaradıcılığın mühüm komponentləridir. Şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişaf xüsusiyyətləri təxəyyül vasitələrindən düzgün istifadə edilməsindən birbaşa asılıdır və bu da öz növbəsində şagird təfəkkürünün orijinallığını və aktivliyini təmin edir.

İbtidai siniflərdə riyaziyyatın təlimi prosesində, həmçinin dərsdənkənar məşğələlərdə şagirdlərin yaradıcı təfəkkürünün formalaşdırılması və inkişaf etdirilməsi məhz I sinifdən başlanmalı, bu proses təhsilin digər pillə və səviyyələrində də davam etdirilməlidir. İbtidai siniflərdən etibarən riyaziyyatı öyrətməklə həm də şagirdlərin mühakimə qabiliyyəti inkişaf etdirilir. Onlar hər hansı bir obyekt və ya hadisəni müşahidə və təhlil etməyi bacarır, onun haqqında müəyyən nəticə çıxarmaq vərdişləri qazanırlar.

Məlumdur ki, I-V siniflərdə və qismən V-VI siniflərdə riyaziyyat təlimi, əsasən induktiv şəkildə qurulur və daha çox şagirdlərin intuitiv təfəkkürünə istinad edilir. Riyaziyyat təlimində intuisiya və intuitiv təfəkkür şagirdlərin evristik təfəkkürünün inkişaf etdirilməsində mühüm rol oynayır. İbtidai sinif şagirdlərində riyazi təfəkkürün formalaşdırılması dedikdə, riyaziyyat fənni vasitəsilə elmi təfəkkürün məqsədyönlü inkişaf etdirilməsi, elmi idrak metodlarının əsası olan düşünmə bacarıqları kompleksi nəzərdə tutulur. Odur ki, ibtidai siniflərdə riyaziyyat dərslərində qoyulmuş problemin həlli vasitəsilə şagirdlərin evristik fəaliyyətinin formalaşdırılması prosesinin tədqiqi həmişə aktual olaraq qalır və riyaziyyatın tədrisinin təkmilləşdirilməsində böyük əhəmiyyətə malikdir.

**Problemin aktuallığı.** Müasir dövrün bəzi səciyyəvi xüsusiyyətlərini əsas götürərək deyə bilərik ki, qeyd olunan üsullar ibtidai sinif müəllimlərinə elmi-pedaqoji və metodik cəhətdən istiqamət verməkdədir. Fənlərin tədrisi prosesində kiçikyaşlı məktəblilərin həyati bacarıqlarının formalaşdırılması tədqiqat probleminin aktuallığını əsaslandıran cəhətlərdən biridir.

**Problemin elmi yeniliyi.** Qeyd olunan fənlərin tədrisi prosesində şagirdlərə həyati bacarıqların aşılanması ilə bağlı metodika hazırlanmışdır. Bu metodikanı Azərbaycan Respublikasının pedaqoji fikir tarixində ilkin metodika kimi və Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərində tətbiq olunan yeni pedaqoji texnologiya kimi dəyərləndirmək mümkündür.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Ölkəmizdə və bir sıra regionlarda ibtidai siniflərdə həyat bilgisi, texnologiya, riyaziyyat fənninin tədrisi prosesində şagirdlərə həyati bacarıqların aşılanması ilə bağlı yeni və müasir tələblərə cavab verən iş modeli hazırlanaraq təqdim olunmuşdur. Pedaqoji ədəbiyyatda şagirdlərin bilik, bacarıq və vərdişlərinin formalaşdırılması ilə bağlı çoxsaylı əsərlər yazılmış, həmçinin fənlərin tədrisində şagirdlərə bir sıra bacarıqların aşılanması ilə əlaqədar çoxsaylı tədqiqatlar aparılaraq məqalələr, kitablar və dissertasiyalar hazırlanmışdır.

## Ədəbiyyat

1.https://www.muallim.edu.az/news.php?id=5993
2.https://as-journal.edu.az/ibtidai-sinifl%C6%8Frd%C6%8F-riyaziyyatin-t%C6%8Fdrisi-prosesind%C6%8F-sagirdl%C6%8Frd%C6%8F-yaradici-t%C6%8Ff%C6%8Fkkurun-

inkisaf-etdirilm%C6%8Fsi-metodlari-222
3.https://tehsiljurnali.az/sagxeberler/3979-btidai-siniflrd-agird-myi.html
4.https://aak.gov.az/upload/dissertasion/pedaqogika/Z_Mehdiyeva_avtoreferat_az%C9%99rbaycan_dili.pdf

**С.И. Кязымли**

**Работа по развитию жизненных навыков учащихся начальных классов**
**Резюме**

При преподавании указанных предметов развитие и формирование жизненных умений учащихся начальных классов осуществляется целенаправленно, планово и организованно при организации урока. С этой точки зрения в первых и четвертых классах должны быть подготовлены образцовые модели уроков по методике преподавания культурных ценностей, исторических ценностей, в том числе нашего государства, прав, обязанностей, духовного мира, здоровья, безопасности и других подобных тем.

**S.I. Kazimly**

**Work on the development of life skills of primary class students**
**Summary**

When teaching these subjects, the development and formation of life skills of primary school students is carried out purposefully, planned and organized during the organization of the lesson. From this point of view, exemplary lesson models should be prepared in the first and fourth grades on the methods of teaching cultural values, historical values, including our state, rights, responsibilities, spiritual world, health, safety and other similar topics. Research conducted on such facts and events forms policy documents on educational reforms and scientific and theoretical ideas on developing life skills in students when organizing life lessons.

**Redaksiyaya daxil olub:** 13.03.2025

*UOT 372.3/.4*

# III SİNİFLƏRİN AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ MƏZMUN STANDARTLARININ YERİ VƏ ROLU

**Aysu Habil qızı Əliyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCİD:** 0009-0008-8828-6598
**E-mail:** aysualiyeva2001@mail.ru

***Açar sözlər:*** *məzmun standartı, məzmun xətti, Azərbaycan dili dərslikləri, standartların təhlili, ibtidai təhsil*
***Ключевые слова:*** *стандарт содержания, строка контента, учебники азербайджанского языка, анализ стандартов, начальное образование*
***Key words*****:** *content standart, content line, Azerbaijani language textbooks, analysis of standarts, primary education*

Azərbaycanda tətbiq edilən təhsil islahatlarının başlıca məqsədi bütün təhsil mərhələləri və səviyyələri üzrə təkmilləşdirilmiş təhsil sisteminin formalaşdırılmasına nail olmaqdır. Bu innovasiyaya daxil olan ən ümdə məsələlərdən biri və ən vacibi də ümumi təhsilin tərəqqisidir. Ümumi təhsilin özülünü təşkil edən ibtidai təhsildə tətbiq edilən innovativ addımlar baza rolunu oynayır.

İbtidai təhsil pilləsi ölkəmizdə dörd il ərzində tədris edilir. Bu müddət ərzində tətbiq edilən innovasiyalar uzun müddət ərzində sınaqdan keçirilmiş və məqbul nəticələr əldə edilmişdir. İbtidai təhsilin səmərəli və optimal təşkil edilməsi növbəti təhsil pillələrinin uğurlu qurulmasına zəmin yaradır. Eyni zamanda ən vacib aspektlərdən biri də onun məqsədlərinə uyğun məzmununun formalaşdırılmasıdır.

Bildiyimiz kimi təhsilin məzmunu müxtəlif fənlərin tədrisi zamanı yaranır. Təhsilalanlar yəni şagird və tələbələr üçün vacib olan bilik, bacarıq vərdişlər sistemi kimi bu məzmun nəzərdə tutulur. Bunların hər biri özlüyündə elmilik təşkil etməli və həyati bacarıqlara əsaslanmalıdır. İbtidai təhsilin məzmunu üçün isə qeyd edə bilərik ki, öyrədilməsi vacib olan bilik, bacarıq və vərdişlər sistemidir. İbtidai siniflərdə nitq inkişafı ana dili tədrisinin başlıca prinsipidir. "Azərbaycan dili" kursunun nitqyönlü olması, yəni tədris prosesində üstünlüyün qrammatik, orfoqrafik qaydaların öyrənilməsinə, nəzəriyyəyə deyil, praktik cəhətə-nitq inkişafına verilməsi inteqrasiya üçün əlverişli şərait yaradır. Məlumdur ki, nitq fəaliyyəti olmadan heç bir dərsin qurulması mümkün deyil. Şifahi nitqin inkişafı üzrə məşğələ eşitmə, danışma və oxuma kimi nitq fəaliyyətlərini də birləşdirir. Yaş mərhələlərinə müvafiq olaraq nitqin inkişafına nail olmaq üçün kurikulum, məzmun standartlarının tələbinə uyğun keyfiyyətli, optimal təlim prosesi qurulmalıdır. Eyni zamanda fənlərin inteqrasiyası öz-özlüyündə məqsəd də ola bilməz. İnteqrasiyanın məqsədi fənlərin qarşılıqlı təsiri nəticəsində bir-birini zənginləşdirməsidir. Ana dilinin digər fənlərlə inteqrasiyasının təbii əsası mətn qurmağın təlimi hesab olunur. Müstəqil mətn qurmaq vərdişinin bütün fənlər üçün xarakterik olması ana dili ilə təbii, real inteqrasiyaya zəmin yaradır [3 s. 70-82].

Kurikulum, təhsil sistemində müəyyən bir mərhələdə öyrəniləcək bilik, bacarıq və anlayışların cəmini ifadə edir. Bu, dərsliklər, tədris proqramları, qiymətləndirmə metodları və tədris strategiyalarını əhatə edir. Kurikulum təhsilin keyfiyyətini artırmaq, şagirdlərin bacarıqlarını inkişaf etdirmək və onların fərdi ehtiyaclarına cavab vermək məqsədini güdür. Müasir kurikulum şagird mərkəzli öyrənməni təşviq edir və daha geniş düşüncə tərzini inkişaf etdirmək üçün imkanlar yaradır. Böyük elmi-metodiki potensiala malik işçi qrup tərəfindən Azərbaycan dili fənni üzrə kurikulum artıq hazırlanmış, ümumi təlim nəticələri, məzmun xətləri və bununla bağlı təlim nəticələri, standartlar müəyyən edilmişdir.

Məzmun standartları kurikulumun ən vacib məhfumlarından biri olmaqla, şagirdlərin bilik və bacarıqlarına qoyulan tələbdir. Məzmun standartları tərtib edilərkən təhsil alanların idrak, kommunikasiya, emosional və psixomotor bacarıqlarının inkişafına uyğun hazırlanır. Azərbaycan dili təlim prosesi planlaşdırılarkən məzmun standartları bələdçi rol oynayır. Belə ki, nəticələrin öncədən təyin edilməsi müəllimə imkan verir ki, şagirdlərin inkişafını təqib etsin və uğurlu nəticə almaları üçün istiqamətləndirə bilsin. Fənn üzrə dərslik komplektləri (dərslik, iş dəftəri, müəllim üçün vəsait) tədris prosesində məzmun standartlarına nail olmaq üçün yaradılmış əsas və minimum resurslardır.

Dərs bir deyil, bir neçə məzmun xətti (dinləmə və anlama və danışma, oxuma, yazma, dil qaydaları) üzrə dərsləri əhatə edə bilər. Müəllim dərs vaxtını bu fəaliyyətlərə görə bölməli, təqdim olunan sualları və dərsdə araşdırmaları tamamlamalı və ya evə göndərməlidir. Dərslik komplektinin əsas məqsədi "Ana dili kurikulumu"nda müəyyən edilmiş məzmun standartlarının tədrisdə tətbiqi üçün kifayət qədər material verməkdir. Bundan əlavə tədqiqat və layihələr üzərində işlərin ev tapşırığı kimi verilməsi daha məqsədəuyğundur.

3-cü sinif Azərbaycan dili dərsliklərində məzmun standartlarının təhlili, təhsilin keyfiyyətinin artırılması və şagirdlərin dil bacarıqlarının inkişafı üçün vacibdir. Bu təhlildə əsasən aşağıdakı məqamlar nəzərə alınmalıdır:

1.Dil bacarıqlarının inkişafı, yəni dinləmə və danışma, oxu, yazı, dil qaydaları kimi dörd əsas dil bacarığının hər birinin 3-cü sinif dərsliklərində necə tədris edildiyi diqqətə alınmalıdır. Məzmun standartları bu bacarıqların mərhələli şəkildə inkişafını təmin etməlidir:

Oxu bacarıqları: Şagirdlər mətnləri oxuyaraq anlamağa çalışır, məzmunu dərk edir və suallara cavab verirlər.

Yazı bacarıqları: Məlumatın düzgün və məntiqli şəkildə yazılı ifadəsi öyrədilir.

Dinləmə və danışma bacarıqları: Şagirdlərin nitq mədəniyyəti, düzgün danışıq tərzi və başqalarının dediklərini düzgün anlama qabiliyyəti üzərində çalışılır.

2. Məlumatın dəqiqliyi və uyğunluğu:

3-cü sinif Azərbaycan dili dərsliklərində təqdim olunan mətn və tapşırıqlar şagirdlərin yaş və təhsil səviyyəsinə uyğun olmalıdır. Dərslikdəki mətnlərin və dil qaydalarının şagirdlərin idrak və anlayış səviyyəsinə uyğun olması vacibdir:

Sadəlik: Təqdim edilən məlumat sadə, anlaşılan və əyləncəli şəkildə təqdim edilməlidir.

Mövzuların uyğunluğu: Dərslikdəki mövzular şagirdlərin gündəlik həyatına yaxın və onların maraq dairəsinə uyğun seçilməlidir.

3. Dil qaydalarının mərhələli öyrədilməsi:

Dil qaydalarının öyrədilməsi zamanı ardıcıllıq və mərhələlilik təmin edilməlidir. Hər bir dil qaydası əvvəlcə sadə səviyyədə izah olunmalı, sonra mürəkkəbləşdirilərək praktik

tapşırıqlar vasitəsilə şagirdlərə mənimsədilməlidir. Bu, şagirdlərin dil qaydalarını daha yaxşı qavramalarına kömək edir.

4. İnteqrasiya olunmuş tədris:

Dil dərsləri digər fənlərlə inteqrasiya edilə bilər. Məsələn, ədəbiyyat, coğrafiya və ya tarixlə bağlı mövzular vasitəsilə dilin tədrisi daha maraqlı və dərin ola bilər. Bu, şagirdlərə həm dil bacarıqlarını, həm də digər fənlər üzrə biliklərini inkişaf etdirmək üçün imkan yaradır.

5. Düzgünlük və obyektivlik

Dərslikdə verilən məlumatlar qərəzsiz olmalı, məzmun milliyyət, din və digər fərqliliklər baxımından obyektiv və ədalətli olmalıdır. Həmçinin, dil qaydaları və mətnlər düzgün şəkildə tərtib edilməlidir ki, şagirdlər dilin qayda və normalarını səhv başa düşməsinlər.

6. Şagirdlərin yaradıcı potensialının inkişafı:

Məzmun standartlarının bir hissəsi də şagirdlərin yaradıcı təfəkkür və problem həll etmə bacarıqlarını inkişaf etdirmək olmalıdır. Dərsliklərdə tapşırıqlar və mətnlər şagirdlərin öz fikirlərini sərbəst şəkildə ifadə etməyə və yaradıcılıqlarını nümayiş etdirməyə şərait yaratmalıdır.

3-cü sinif Azərbaycan dili dərsliklərində məzmun standartlarının təhlili göstərir ki, bu dərsliklərin məqsədi şagirdlərin dil bacarıqlarını sistemli və ardıcıl şəkildə inkişaf etdirmək, onların tədris səviyyəsini yüksəltməkdir.

Cari dövrdə Azərbaycan dili fənni ənənəvidən fərqli olaraq sadəcə dil qaydalarının üzərində qurulmur. Dil qaydaları ilə paralel dinləmə, anlama, oxu, yazı bacarıqları inkişaf etdirilir. Bu səbəbdən də Azərbaycan dili təlim prosesi üçün dörd məzmun xətti müəyyənləşdirilmişdir. Hansı ki məzmun xətti ibtidai sinifdən 11-ci sinfə qədər sabit olaraq davam etdirilir.

Məzmun xətlərinə aid alt standartların məzmununa nəzər yetirsək görərik ki, varislik prinsipinə əsasən sinifdən- sinfə keçdikdə sadədən çətinə doğru genişlənir. Bu imkan verir ki, təlimdə tərəqqi, inkişaf prosesi baş tutsun.

Dinləmə məzmun xəttinin tələbi budur ki, şagird müəllimin, sinif yoldaşının səsləndirməsi ilə yaxud texniki qurğu vasitəsilə mətni dinləməli, daha sonra müvafiq çalışma və suallarla dinləmə qabiliyyətinin səviyyəsi dəyərləndirilməlidir. Lakin reallığa nəzər salsaq görərik ki, dinləmə məzmun xəttinin reallaşması zamanı bəzi əngəllər və nöqsanlar yaranır. Bunlardan ən vacibi texniki qurğuların olmamasıdır.

Oxu məzmun xəttinin reallaşması zamanı şagird mətni aydın oxumalı, oxuduğu mətnin mahiyyətini dərk etməli, məzmununu anlamalı, onlar arasında assosiasiya qurmağı bacarmalı, öz fikir və yanaşmaları ilə mətni genişləndirməyi bacarmalıdır. Şagird əgər oxu zamanı nabələd olduğu sözlə rastlaşarsa, sinonimini tapmaqla şərh etməli, eyni zamanda sözlərin omonim, çoxmənalı, həqiqi məcazi anlamda olmasını bilməli və tətbiq etməyi bacarmalıdır. Qeyd etdiyimiz standartlar aşağı siniflərdən yuxarıya doğru getdikdə çətinləşdirilərək davam etdirilir.

Yazı məzmun xətti şagirdin protokol, məktub, arayış bundan əlavə müxtəlif məzmunda mətnlər yazmaq, mətni redaktə etmək bacarıqlarını formalaşdırmağa yönəlmişdir. Ədəbi dil normalarına əməl edərək düzgün yazı bacarığının ilkin təməli dil qaydalarından yerli yerində istifadə etməyi bacarmaqdır.

Məzmun xətti nitq bacarıqlarının tələblərini təşkil edir. Məzmun xətlərinə nəzər salsaq görərik ki, nitq bacarıqlarının tələblərini nəzərdə tutur. Eyni zamanda nitq həm də şəxsiyyətin əsas və ən vacib göstəricisidir. Oxu vərdişləri formalaşdırmaq üçün şagird səbirlə oxumağı, mütaliə qabiliyyətini, özünüifadə bacarıqlarını, lüğət ehtiyatını inkişaf etdirməlidirlər. Dil qaydaları mənimsədilərkən lazımlı qaydalar lakonik şəkildə şagirdlərə tədris edilməlidir. Mexaniki əzbərləmə yol verilməzdir. Şagirdlər lazımlı dil qaydalarını öyrənməli, eyni zamanda yazılı və şifahi nitqində bu qaydalardan istifadə etməlidirlər.

İbtidai siniflərdə nitq inkişafı ana dili tədrisinin başlıca prinsipidir. "Azərbaycan dili" kursunun nitqyönlü olması, yəni tədris prosesində üstünlüyün qrammatik, orfoqrafik qaydaların öyrənilməsinə, nəzəriyyəyə deyil, praktik cəhətə-nitq inkişafına verilməsi inteqrasiya üçün əlverişli şərait yaradır. Məlumdur ki, nitq fəaliyyəti olmadan heç bir dərsin qurulması mümkün deyil. Şifahi nitqin inkişafı üzrə məşğələ eşitmə, danışma və oxuma kimi nitq fəaliyyətlərini də birləşdirir. Eyni zamanda fənlərin inteqrasiyası öz-özlüyündə məqsəd də ola bilməz. İnteqrasiyanın məqsədi fənlərin qarşılıqlı təsiri nəticəsində bir-birini zənginləşdirməsidir. Ana dilinin digər fənlərlə inteqrasiyasının təbii əsası mətn qurmağın təlimi hesab olunur. Müstəqil mətn qurmaq vərdişinin bütün fənlər üçün xarakterik olması ana dili ilə təbii, real inteqrasiyaya zəmin yaradır [3 s. 70-82].

Azərbaycan dilinin tədrisi vasitəsilə şagirdlərin kommunikasiya bacarıqları hərtərəfli inkişaf edir, nitqin inkişafı ilə paralel düşünmə, dərketmə və danışma bacarıqlarının təkmilləşməsinə vasilə olur. Nəticə etibarilə, Azərbaycan dili düşünmə, dərketmə və danışma üçün ifadə vasitəsi rolunu oynayır.

**Problemin aktuallığı.** Kurikulum təhsil sisteminin uğurlu tətbiq edilməsində məzmun standartları müstəsna rola malikdir. 3-cü sinif Azərbaycan dili dərsliklərində məzmun standartlarının təhlili, təhsilin keyfiyyətinin artırılması və şagirdlərin dil bacarıqlarının inkişafı üçün vacibdir.

**Problemin elmi yeniliyi.** İbtidai təhsildə nəticəyönlü xarakter daşıyan məzmun standartlarının əhəmiyyətli məqamları məqalədə yeni bir elmi prizmadan təhlil edilmişdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqaləni ibtidai sinif müəllimləri və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Nurullayeva Ü., Zahidova Ş., Bayramova İ., Xanalıyeva A., Məhyəddinova K. (2022) Azərbaycan dili: 3-cü sinif üçün dərslik. Bakı: Radius MMC, 104 s.

2. Nurullayeva Ü., Zahidova Ş., Bayramova İ., Xanalıyeva A., Məhyəddinova K. (2022) Azərbaycan dili (3-cü sinif üçün metodik vəsait). Bakı: "Tuna" QSC, 208 s.

3. A.Ş. Mikayılov .Ədəbiyyat dərslərində inteqrasiyadan istifadə imkanları. Bakı, 2006.

4. Y.Ş. Kərimov. Ana dilinin tədrisi metodikasının nəzəri problemləri. Bakı, 2005.

**А.Г. Алиева**

**Место и роль стандартов содержания в учебниках Азербайджанского языка для 3-го класса**

**Резюме**

Стандарты содержания являются одним из наиболее важных аспектов учебной программы и представляют собой требования к знаниям и навыкам учащихся. Стандарты содержания разрабатываются с учетом развития познавательных, коммуникативных, эмоциональных и психомоторных навыков учащихся. При планировании процесса изучения азербайджанского языка стандарты содержания играют направляющую роль. Таким образом, предопределение результатов позволяет преподавателю следить за развитием учащихся и для достижения успешных результатов может направлять. Комплекты учебников по предмету (учебник, рабочая тетрадь, материалы для учителя) являются основными и минимальными ресурсами, создаваемыми для достижения стандартов содержания в образовательном процессе.

**A.H. Aliyeva**

**Place and role of content standards in 3rd grade Azerbaijani language textbooks**

**Summary**

Content standards are one of the most important aspects of the curriculum, and they are requirements for students' knowledge and skills. Content standards are developed according to the development of cognitive, communication, emotional and psychomotor skills of students. When planning the Azerbaijani language learning process, content standards play a guiding role. Thus, predetermining the results allows the teacher to follow the development of students and to achieve successful results. can guide. Textbook sets for the subject (textbook, workbook, teacher's materials) are the basic and minimum resources created to achieve the content standards in the educational process.

**Redaksiyaya daxil olub:** 26.12.2024

***AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА***
***METHODS OF TEACHING AZERBAIJANI LANGUAGE***

*UOT 37.*

# ŞAGİRDLƏRDƏ NİTQ MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASI METODİKASININ BƏZİ MƏSƏLƏLƏRİ

**Nigar Xanməhəmməd qızı Kazımzadə**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0003-3006-5200
**E-mail:** nigarkazimzade2001@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v22.i1.05

***Açar sözlər:*** *nitq mədəniyyəti, metodik sistem, müəllim rolu, nailiyyətlər*
***Ключевые слова:*** *культура речи, методическая система, фактор учителя, достижения*
***Key words:*** *speech culture, methodical system, the teacher factor, achievements*

Nitq mədəniyyəti kontekstində yeni yanaşmalar praktiki öyrənmə təcrübələrinin, problemlərin həlli fəaliyyətlərinin və şagirdləri sosial kontekstlərdə dili kəşf etməyə, fikirləri ifadə etməyə və məna müzakirə etməyə çağıran birgə sorğunun vacibliyini vurğulayır. Müzakirələrdə, debatlarda və birgə layihələrdə iştirak etməklə şagirdlər təkcə ünsiyyət bacarıqlarını inkişaf etdirmir, həm də müxtəlif kontekstlərdə effektiv ünsiyyəti formalaşdıran dil konvensiyalarını, mədəni normaları və müxtəlif perspektivləri dərk edirlər.

Şagirdlərin şifahi nitqinin inkişaf etdirilməsində situativ vəziyyətin yaradılması zərurəti bir metodik vasitə kimi meydana çıxır. Bu zaman şagirdlərdə hər hansı bir hadisənin məzmununu, mahiyyətini olduğu kimi nağıl etmək arzusu, həvəsi oyanır. (5, s 350).

Nitq mədəniyyətini inkişaf etdirmək üçün pedaqoji vasitələrin praktiki tətbiqləri effektiv ünsiyyət və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirən müxtəlif təlim təcrübələrini əhatə edir:

Sinif şəraitlərində strukturlaşdırılmış müzakirələr və debatlar şagirdlərə öz fikirlərini ifadə etmək, sübuta əsaslanan mülahizələrlə məşğul olmaq və bir-birinin fikirlərinə hörmətlə etiraz etmək imkanı verir. Bu fəaliyyətlər təkcə fəal iştiraka təşviq etmir, həm də şagirdlərin inandırıcı ünsiyyət qurmaq və mürəkkəb məsələlər haqqında tənqidi düşünmək bacarıqlarını artırır (1).

Rollu oyunlar və simulyasiyalar şagirdləri danışıqlar aparmaq, inandırmaq və ya münaqişələrin həlli kimi real dünyadakı ünsiyyət ssenarilərinə cəlb edir. Fərqli rollar və perspektivlər götürməklə, şagirdlər müxtəlif sosial və peşəkar mühitlərdə naviqasiya üçün vacib olan empatiya, uyğunlaşma və şəxsiyyətlərarası ünsiyyət bacarıqlarını inkişaf etdirirlər.

Birgə öyrənmə layihələri şagirdlərdən araşdırma aparmaq, məlumatları təhlil etmək və nəticələri şifahi şəkildə təqdim etmək üçün əməkdaşlıq etməyi tələb edir. Bu əməkdaşlıq yanaşması komanda işini təşviq edir, ünsiyyət bacarıqlarını artırır və şagirdləri effektiv ünsiyyət və əməkdaşlığın vacib olduğu birgə iş mühitinə hazırlayır.

Ədəbiyyat dərnəkləri və seminarlar şagirdləri ədəbi mətnləri təhlil etməyə və ya fəlsəfi sualları araşdırmağa yönəlmiş kiçik qrup müzakirələrinə cəlb edir. Bu müzakirələr tənqidi araşdırmanı təşviq edir, şagirdləri araşdırıcı suallar verməyə, arqumentlərini dəlillərlə dəstək-

ləməyə və mürəkkəb anlayışları anlamalarını dərinləşdirən və ünsiyyət bacarıqlarını artıran ciddi intellektual diskursda iştirak etməyə təşviq edir.

Təhsil və öyrənmə sahəsində həm proqram təminatı, həm də dərsliklər şagirdlər arasında biliklərin ötürülməsi, başa düşülməsini asanlaşdırmaq və problemləri həll etmək bacarıqlarını artırmaq üçün vacib vasitələr kimi xidmət edir. Hər bir mühit tənqidi düşünmə bacarıqlarının, analitik əsaslandırmanın və mürəkkəb problemlərin həllində biliklərin praktiki tətbiqinin inkişafına töhfə verən fərqli üstünlüklər və imkanlar təklif edir.

Dərsliklər akademik standartlara, təlim məqsədlərinə və təhsil nəticələrinə uyğun gələn standart məzmun təmin etməklə kurikulumun hazırlanmasında və tədris təcrübələrində mühüm rol oynayır. Müəllimlər dərs planlarını qurmaq, öyrənmə fəaliyyətlərini tərtib etmək və kurs məzmununu ardıcıl, mütəşəkkil şəkildə çatdırmaq üçün dərsliklərə etibar edirlər ki, bu da öyrənmədə davamlılığı dəstəkləyən və effektiv sinif təlimatını asanlaşdırır.

Pedaqoqlar və metodistlər öyrənmə təcrübələrini artırmaq, şagird cəlbini təşviq etmək və fərdiləşdirilmiş öyrənmə yollarını dəstəkləmək üçün dərsliklərin dizaynına, çatdırılmasına və əlçatanlığına rəqəmsal texnologiyaların yeniliklərini və inteqrasiyasını davam etdirirlər. Rəqəmsal transformasiyanı əhatə etməklə, dərsliklər ənənəvi və rəqəmsal öyrənmə mühitlərində əvəzolunmaz resurslar olaraq qalır, bütün dünyada şagirdlər arasında akademik mükəmməlliyi, tənqidi düşünmə bacarıqlarını və ömür boyu öyrənmə vərdişlərini inkişaf etdirir.

Məktəbdəki mövcud vəziyyəti öyrənmək və təhlil etmək təhsil nəticələrinə və ümumi məktəb səmərəliliyinə təsir edən müxtəlif aspektlərin ətraflı araşdırılmasını tələb edir. Bu hərtərəfli yanaşma müxtəlif məlumat mənbələrinin toplanması, maraqlı tərəflərin cəlb edilməsi və əsas problemlərin aşkar edilməsi və strateji həllərin formalaşdırılması üçün dərin təhlillərin aparılmasını əhatə edir.

Son illərdə məktəblərdə nitqin inkişafının vacibliyi daha çox qəbul edilir. Təhsil kurikulumları şagirdlərin fikirlərini aydın ifadə etmələri, dialoqlarda iştirak etmələri və məlumatları effektiv təqdim etmələri zərurətini vurğulayaraq, əsas komponent kimi getdikcə daha çox ünsiyyət bacarıqlarını birləşdirir. Şifahi ünsiyyətin gücləndirilməsinə yönəlmiş proqramlar və təşəbbüslər bir çox təhsil sistemlərində həyata keçirilir ki, bu da nitq bacarıqlarının həm akademik nailiyyətlər, həm də sosial qarşılıqlı əlaqə üçün vacib olduğunu daha geniş anlayışı əks etdirir.

Məsələn, məktəblər debatlar, təqdimatlar və qrup müzakirələri kimi fəaliyyətləri adi kurikuluma inteqrasiya edirlər. Bu fəaliyyətlər şagirdlərə ictimai nitqlə məşğul olmaq, tənqidi təfəkkür inkişaf etdirmək və birgə öyrənməyə cəlb etmək imkanları yaradır. Bundan əlavə, dil sənəti proqramları tələffüz məşqləri, şifahi oxu və hekayələr kimi nitqin inkişafı elementlərini daxil etmək üçün hazırlanır.

Texnologiyanın təhsilə inteqrasiyası nitqin inkişafına da müsbət təsir göstərmişdir. Rəqəmsal alətlər və platformalar şagirdlərin nitq bacarıqlarını artırmaq üçün innovativ yollar təklif edir. Dil öyrənmə proqramları, nitqin tanınması proqramı və interaktiv təhsil oyunları ünsiyyət bacarıqlarının inkişafı üçün cəlbedici və fərdiləşdirilmiş yanaşmalar təqdim edir. Bu texnologiyalar şagirdlərə təhlükə yaratmayan mühitdə nitqlə məşğul olmağa, dərhal rəy almağa və zamanla onların irəliləyişlərini izləməyə imkan verir.

Nitq mədəniyyətinin elementlərini müxtəlif fənlərə toxunduran inteqrativ kurikulum şagirdlərin şifahi bacarıqlarını əhəmiyyətli dərəcədə artıra bilər. Müxtəlif fənlər üzrə ünsiyyət-

yönlü fəaliyyətləri və qiymətləndirmələri birləşdirməklə, pedaqoqlar təhsilin bütün sahələrində effektiv nitqin vacibliyini vurğulayan vahid öyrənmə təcrübəsi yarada bilərlər. Məsələn, təbiət elmləri dərslərində elmi mövzularda şifahi təqdimatlar və debatlar, tarix dərslərində isə tarixi şəxsiyyətlərin rollarını oynamaq, onların çıxışlarını və ritorikasını müzakirə etmək olar. Bu yanaşma müxtəlif kontekstlərdə nitq mədəniyyətinin aktuallığını gücləndirməklə yanaşı, həm də şagirdlərin davamlı olaraq təcrübə keçməsinə və bacarıqlarını təkmilləşdirməsinə kömək edir.

Şagirdlərin nitq mədəniyyətinin inkişafı üçün interaktiv və birgə təlim mühitləri mühüm əhəmiyyət kəsb edir. Qrup layihələri, müzakirələr və həmyaşıdlara tədris şagirdlər arasında fəal iştirak və şifahi qarşılıqlı əlaqəni təşviq edir. Bu fəaliyyətlər şagirdlərə öz fikirlərini ifadə etmək, başqalarını dinləmək və konstruktiv dialoq aparmaq üçün platforma yaradır. Birgə öyrənmə həm də tənqidi düşünmə və problem həll etmə bacarıqlarını inkişaf etdirir, çünki şagirdlər qrup dinamikasında hərəkət etmək və ümumi məqsədlərə nail olmaq üçün səmərəli ünsiyyət qurmalıdırlar (2).

Tənqidi düşüncə və mübahisə nitq mədəniyyətinin vacib komponentləridir. Şagirdləri debatlarda iştirak etməyə təşviq etməklə, pedaqoqlar onlara ardıcıl arqumentlər qurmaq, sübut təqdim etmək və əks arqumentlərə cavab vermək bacarıqlarını inkişaf etdirməyə kömək edə bilər. Debat fəaliyyətləri şagirdlərdən ayaq üstə düşünməyi, fikirlərini aydın ifadə etməyi və müxtəlif perspektivlərlə məşğul olmağı tələb edir. Bu bacarıqlar daha geniş ictimai kontekstlərdə akademik uğur və effektiv ünsiyyət üçün əvəzolunmazdır.

Təlim prosesində texnologiyanın inteqrasiyası şagirdlərin nitq mədəniyyətinin inkişafı üçün innovativ imkanlar təklif edir. Nitq təhlili proqramı, video qeyd və onlayn müzakirə platformaları kimi rəqəmsal alətlər şagirdlərə şifahi ünsiyyət bacarıqları haqqında dərhal rəy verə bilər. Virtual sinif otaqları və vebinarlar şagirdlərə dünyanın hər yerindən həmyaşıdları və ekspertləri ilə real vaxt rejimində müzakirələr aparmaq imkanları təklif edir. Bundan əlavə, dil öyrənmə proqramları və onlayn resurslar nitq mədəniyyətini yaxşılaşdıran interaktiv və fərdiləşdirilmiş öyrənmə təcrübələrini təmin edərək ənənəvi təlimatı tamamlaya bilər.

Vizual, eşitmə və mətn elementlərinin inteqrasiyasını nəzərdə tutan multimodal savadlar təlim prosesini zənginləşdirə və nitq mədəniyyətinin inkişafına dəstək verə bilər. Pedaqoqlar şifahi təlimatı artırmaq və şagirdləri daha effektiv şəkildə cəlb etmək üçün multimedia təqdimatlarından, audio yazılardan və əyani vəsaitlərdən istifadə edə bilərlər. Məsələn, məşhur natiqlərin video kliplərindən və ya interaktiv rəqəmsal nağıllardan istifadə şagirdlərə müxtəlif effektiv ünsiyyət nümunələrini təqdim edə və onları öz nitq mədəniyyətlərini inkişaf etdirməyə ruhlandıra bilər.

Şagirdlərin nitq mədəniyyətinin formalaşmasında pedaqoqların peşəkar inkişaf proqramları həlledici rol oynayır. Davam edən təlimlər və seminarlar müəllimləri effektiv ünsiyyət bacarıqlarını öyrətmək üçün ən son pedaqoji strategiya və alətlərlə təchiz edə bilər. Pedaqoqlar cəlbedici və interaktiv dərslər yaratmağı, mənalı rəy bildirməyi və şifahi ifadə üçün əlverişli sinif mühiti yaratmağı öyrənə bilərlər. Peşəkar inkişaf həm də müəllimləri öz tədris təcrübələri üzərində düşünməyə və şagirdlərin nitq mədəniyyətini dəstəkləmək üçün öz metodlarını daim təkmilləşdirməyə həvəsləndirir.

Səmərəli qiymətləndirmə və əks əlaqə şagirdlərin nitq mədəniyyətinin inkişafı üçün həyati əhəmiyyət kəsb edir. Şifahi ünsiyyət bacarıqlarına diqqət yetirən formativ və summativ qiy-

mətləndirmələri daxil etməklə, pedaqoqlar şagirdlərə onların tərəqqi ilə bağlı mütəmadi rəy bildirə bilərlər. Bu dəyərləndirmə konkret, hərəkətə keçə bilən və dəstəkləyici olmalı, şagirdlərə güclü tərəflərini və təkmilləşdirmələri lazım olan sahələri müəyyən etməyə kömək etməlidir. Özünüqiymətləndirmə və həmyaşıdların qiymətləndirilməsi fəaliyyətləri şagirdlərin özlərinin və başqalarının ünsiyyət bacarıqlarını qiymətləndirmək qabiliyyətini daha da artıra, davamlı öyrənmə və inkişaf mədəniyyətini inkişaf etdirə bilər (3).

**Problemin aktuallığı.** Şagirdlər arasında nitq mədəniyyətinin formalaşmasına yardım edən metodik sistemin həyata keçirilməsi bütün dövr üçün aktuallığını qoruyub saxlayacaqdır. Bu mövzunun öyrənilməsi nəzəri və praktik cəhətdən böyük əhəmiyyət daşıyır. Bu sahədə aparılan işlər şagirdlərin şəxsi və ictimai həyatlarında uğurlu nəticələrin alınmasına gətirib çıxarır.

**Problemin elmi yeniliyi.** Burada aparılan araşdırmanın yeniliyi şagirdlərdə nitq mədəniyyətinin inkişafına yardım edən müxtəlif metodik sistemlərin tətbiqi və buradan alınan müsbət nəticələri əhatə edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali məktəb müəllimləri, tələbələr o cümlədən magistrantlar istifadə edə bilər.

## Ədəbiyyat


1. Nəzərov A., Mollayeva E. Müasir dövrün təhsil problemləri. (Dərs vəsaiti). Bakı, 2011.
2. Kennedy, R. In-Class Debates: Fertile Ground for Active Learning and the Cultivation of Critical Thinking and Oral Communication Skills. International Journal of Teaching and Learning in Higher Education, 2007.
3. Brookfield S. D., & Preskill, S. Discussion as a Way of Teaching: Tools and Techniques for Democratic Classrooms, 2005.
4. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı, 2013.
5. A.N.Rəhimov. Ana dilinin tədrisi metodikası. Bakı, 2003.


**Н.Х. Казимзаде**

## Внедрение методической системы, способствующей формированию культуры речи у студентов

## Резюме

Для реализации методической системы следует выбирать эффективные методы обучения с учетом возрастных и психологических особенностей обучающихся. В ходе занятия следует использовать интерактивные методы, ролевые игры и дискуссии, приоритет следует отдавать развитию практических речевых навыков. Посредством систематической и постоянной оценки следует контролировать речевое развитие учащихся и вносить соответствующие исправления.

**N.X. Kazimzade**

**İmplementation of a methodical system that helps the formation of speech culture among students**

**Summary**

For the implementation of the methodical system, effective teaching methods should be selected according to the age and psychological characteristics of the students. In the course of the lesson, interactive methods, role-playing games and discussions should be used, priority should be given to the development of practical speech skills. Through systematic and continuous evaluation, students' speech development should be monitored and appropriate corrections should be made.

**Redaksiyaya daxil olub:** 27.02.2025

***RİYAZİYYATIN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ МАТЕМАТИКИ***
***METHODS OF TEACHING MATHEMATICS***

*UOT 372.851*

# ÜÇBUCAQLAR VƏ ONLARA AİD BƏZİ MƏSƏLƏLƏRİN İSBAT YOLU İLƏ HƏLLİNƏ DAİR

**Leyla Sübhan qızı Şıxlinskaya**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCID:** 0009-0004-7842-0918
**E-mail:** hleeyla234@gmail.com

***Açar sözlər*:** *üçbucaq, median, hündürlük, isbat, induksiya, deduksiya, anlayış, məntiq, xassə, teorem, təklif, obyekt, analtik, sintetik.*

***Ключевые слова:*** *треугольник, медиана, высота, доказательство, индукция, дедукция, понятие, логика, свойство, теорема, утверждение, объект, аналитическое, синтетическое.*

***Key words:*** *triangle, median, altitude, proof, induction, deduction, concept, logic, property, theorem, proposition, object, analytical, synthetic.*

İsbat anlayışı riyaziyyatın və məntiqin mərkəzi anlayışlarından biri olub, onun bütün hallarda və ixtiyari elmi nəzəriyyələrdə tətbiq edilə bilən birqiymətli tərifi yoxdur. Məntiqdə ən ümumi şəkildə isbat dedikdə, hər hansı təklifin doğruluğunu, doğruluğu artıq isbat edilmiş digər təkliflərə gətirmək yolu ilə müəyyən edən mühakimə başa düşülür.

Riyaziyyatda isbat prosesinin özünəməxsus xüsusiyyəti var. Belə ki, hər bir isbat prosesi heç bir təcrübəyə və ya əyaniliyə istinad etmədən, yalnız və yalnız məntiq qanunlarına əsaslanır. Bu baxımdan riyazi məntiqə aid bəzi ədəbiyyatlarda isbat prosesinə verilən aşağıdakı tərif də cəlbedicidir.

İsbat — doğruluğu isbat edilmiş təkliflərə əsaslanaraq, yeni təkliflərin doğruluğunun müəyyən edilməsinə imkan verən təfəkkür prosesidir.

İsbat prosesində tezis və arqument arasındakı asılılığı göstərən mühakimələri müxtəlif yollarla qurmaq olar. Həmin yollar isbat üsulları adlanır. Bu üsullar müxtəlif məntiqi struktura malik ola bilər və müxtəlif məntiq qanunlarına əsaslana bilər. Bu səbəbdən də riyaziyyatda müxtəlif isbat üsullarından istifadə olunur. Bütün isbat üsulları iki əsas qrupa bölünür.

1) Düzünə isbat üsulları, 2) Dolayı isbat üsulları.

Düzünə isbat prosesinin qarşısında duran əsas vəzifə elə bir inkar edilməz arqument tapmaqdır ki, teoremin tezisi ondan məntiqi olaraq alınsın. Bu zaman arqument kimi elə doğru təkliflərə istinad etmək zəruri olur ki, tezisin doğruluğuna gətirə bilən deduktiv mühakimələr zənciri qurula bilsin. Düzünə isbat üsullarının ən tipik növü induksiya üsuludur.

Dolayı isbat üsullarında isə tezisin doğruluğu onun əks təklifinin — antitezisin səhv olmasının aşkar edilməsi yolu ilə müəyyən edilir. Deməli, dolayı isbat üsullarının tətbiqi prosesində tezisin doğruluğunu göstərmək üçün bir başa arqumentlər axtarmaq əvəzinə, antitezis (tezisin inkarı) şərh edilir, bu və ya digər yolla onun doğru olmadığı göstərilir.

Beləliklə, dolayı isbat üsulunun əsasında tezisin inkarı qaydası durduğundan, əksini fərzetmə üsulu dolayı isbat üsullarının tipik növüdür. Məktəb riyaziyyat kursunda tətbiq

olunan əsas isbat üsulları aşağıdakılardır.

1) Analitik isbat; 2) Sintetik isbat; 3) Əksini fərzetmə; 4) Kontrapozisiya üsulu; 5) Riyazi induksiya.

Məktəb riyaziyyat təlimində "Həndəsə" məzmun xəttinin əsas bölmələrindən biri üçbucaqlar bölməsidir. Üçbucaqlar "Həndəsə" məzmun xəttinin əsas fiqurlarından biridir. Əvvəlcə üçbucağın sadə riyazi tərifini verək: ***Müstəvinin bir düz xətt üzərində olmayan 3 nöqtəsini (üçbucağın təpələri) cüt-cüt birləşdirən 3 parçası (üçbucağın tərəfləri) ilə hüdudlanmış hissəsinə üçbucaq deyilir***. Üçbucaqlara aid isbat məsələlərini yerinə yetirmək üçün üçbucağın bəzi xassələri ilə qısa-qısa tanış olaq və əsas mövzuya keçək.

- Üçbucağın daxili bucaqlarının cəmi 180°-dir.
- Üçbucağın xarici bucaqlarının cəmi 360°-dir.
- Üçbucaqda böyük bucaq qarşısında böyük tərəf, kiçik bucaq qarşısında kiçik tərəf olur.
- Üçbucağın hər hansı bir tərəfinin uzunluğu digər iki tərəfin uzunluqları cəmindən kiçik, fərqinin modulundan böyükdür (bu, ***üçbucaq bərabərsizliyi*** adlanır).
- Üçbucağın tənbölənləri bir nöqtədə kəsişir.
- Üçbucağın medianları bir nöqtədə kəsişir.

Yuxarıda ümumi şəkildə verilmiş qaydalardan istifadə edərək üçbucaqlar bölməsinə dair aşağıdakı məsələləri isbat edək.

***Məsələ 1.*** Bir üçbucağın bir tərəfi və həmin tərəf qarşısındakı bucaq və onun tənböləni, o biri üçbucağın uyğun olaraq o biri tərəfinə və həmin tərəfin qarşısındakı bucağa və onun tənböləninə bərabər olarsa, həmin üçbucaqlar bərabər olar. Bunu isbat edin.

***İsbatı.***

Tutaq ki, $\boldsymbol{ABC}$ və $\boldsymbol{A_1B_1C_1}$ üçbucaqlarında (şəkil 1).

$\boldsymbol{AC = A_1C_1, \angle B = \angle B_1}$ və $\boldsymbol{BP = B_1P_1}$

($\boldsymbol{BP}$ və $\boldsymbol{B_1P_1}$ uyğun olaraq $\boldsymbol{ABC}$ və $\boldsymbol{A_1B_1C_1}$ üçbucaqlarının tənbölənləridir. $\boldsymbol{DE}$ diametri $\boldsymbol{AC}$ tərəfinə perpendikulyar olmaq şərti ilə $\boldsymbol{ABC}$ üçbucağının xaricinə çevrə çəkək. Sonra $\boldsymbol{A_1C_1}$ tərəfi $\boldsymbol{AC}$ tərəfinin üzərinə düşmək şərti ilə $\boldsymbol{A_1B_1C_1}$ üçbucağı $\boldsymbol{ABC}$ üçbucağı üzərinə qoyaq. Fərz edək ki, $\boldsymbol{B_1}$ təpəsi $\boldsymbol{B}$ təpəsi üzərinə düşməyib o, $\boldsymbol{B'}$ vəziyyətini almışdır. $\boldsymbol{D}$ nöqtəsini $\boldsymbol{B}$ və $\boldsymbol{B'}$ ilə birləşdirək.



*Şəkil 1*

Tutaq ki, $\boldsymbol{\smile DCB < \smile DCB'}$ onda $\boldsymbol{DB > DB'}$ və $\boldsymbol{DP < DP'}$ olar. (çünki $\boldsymbol{DP}$-nin $\boldsymbol{AC}$ üzərindəki proyeksiyası $\boldsymbol{DP'}$-in $\boldsymbol{AC}$ üzərindəki proyeksiyasından kiçikdir).

$\begin{cases} \boldsymbol{DB > DB'} \\ \boldsymbol{DP < DP'} \end{cases}$ tərəf-tərəfə çıxaq.

$\boldsymbol{DB - DP' > DB' - DP'}$ olur. Buradan $\boldsymbol{DP > B'P'}$ olur ki, bu da şərtə zidd olur. Deməli, $\boldsymbol{B_1}$ nöqtəsi $\boldsymbol{B'}$ vəziyyətində ola bilməyib $\boldsymbol{B}$-nin üzərinə düşməlidir.

Bu halda isə $\boldsymbol{\Delta ABC = \Delta A_1B_1C_1}$ olur.



*Şəkil 2*

***Məsələ 2.*** Üçbucaqda $\boldsymbol{3sinB = 4cos\frac{A}{2} \cdot cos\frac{B}{2} \cdot cos\frac{C}{2}}$ doğru olduqda üçbucağın tərəfləri arasındakı münasibəti tapın.

*Həlli.* Verilən bərabərlik üzərində aşağıdakı çevirmələri aparaq.

$6sin\frac{B}{2}\cdot cos\frac{B}{2} = 4cos\frac{A}{2}\cdot cos\frac{B}{2}\cdot cos\frac{C}{2}$. Buradan $\frac{3}{2} = \frac{cos\frac{A}{2}\cdot cos\frac{C}{2}}{sin\frac{B}{2}}$ olur.

$cos\frac{A}{2} = \sqrt{\frac{p(p-a)}{bc}}$; $cos\frac{C}{2} = \sqrt{\frac{p(p-c)}{ab}}$; $sin\frac{B}{2} = \sqrt{\frac{(p-a)(p-c)}{ac}}$ düsturlarını sonuncu ifadədə nəzərə alsaq: $\frac{3}{2} = \frac{\sqrt{\frac{p^2(p-a)(p-c)}{acb^2}}}{\sqrt{\frac{(p-a)(p-c)}{ac}}} = \frac{p}{b}$ alarıq.

Buradan $2p = 3b$ və ya $a + b + c = 3b; a + c = 2b$ olur. Buradan aşkar olunur ki, verilən münasibətdə üçbucağın tərəfləri ədədi silsilə əmələ gətirir.

***Məsələ 3.*** Üçbucağın tərəfləri ədədi silsilə əmələ gətirirsə, onda bu üçbucağın daxilinə çəkilmiş çevrənin radiusu onun hündürlüklərindən birinin $\frac{1}{3}$-nə bərabər olduğunu isbat edin.

***İsbatı.*** Üçbucağın tərəflərini $a, b, c$ ilə işarə edək. Məsələnin şərtinə əsasən $a, b, c$ ədədi silsilə əmələ gətirir. Onda $b = a + d$; $c = a + 2d$ olar. Bu qiymətləri $S = pr$ düsturunda yerinə yazaq və onun üzərində çevirmələr aparsaq $S = pr = \frac{a+b+c}{2}\cdot r = \frac{(3a+3d)r}{2} = \frac{3(a+d)r}{2}$.

Üçbucağın B təpəsindən qarşıdakı tərəfə çəkilən hündürlüyü $h_b$ ilə işarə etsək, həmin üçbucağın sahəsi $S = \frac{bh_b}{2} = \frac{(a+d)h_b}{2}$ ifadəsinə bərabər olar. Üçbucağın sahəsi üçün alınan bu iki ifadəni tutuşdursaq $\frac{3(a+d)r}{2} = \frac{(a+d)h_b}{2}$ olar. Buradan isə $3r = h_b$ və ya $r = \frac{h_b}{3}$ olar.

***Məsələ 4.*** Hər hansı üçbucaq üçün $OH \geq KH\sqrt{2}$ bərabərliyin doğruluğunu isbat edin. O, $K$ uyğun olaraq üçbucağın xaricinə və daxilinə çəkilmiş çevrələrin mərkəzləri, $H$ isə hündürlüklərin kəsişdiyi nöqtədir.

***İsbatı.*** Aşağıdakı məlum ifadələri yazaq və onların üzərində göstərilən çevirmələri aparaq.

$$OH^2 = 9R^2 - (a^2 + b^2 + c^2), R^2 \geq 4r^2 + KH^2 = 4R^2 + 4Rr + 3r^2 - p^2,$$

$$a^2 + b^2 + c^2 = 2(p^2 - r^2 - 4Rr)$$

Buradan, $OH^2 = R^2 + 2(4R^2 + 4Rr + 3r^2 - p^2) - 4r^2 \geq 2(4R^2 + 4Rr + 3r^2 - p^2)$.

Beləliklə, $OH^2 \geq 2KH^2$ və ya $OH \geq KH\sqrt{2}$ olur.

Baxdığımız hər bir həndəsə məsələlərində bir neçə xüsusi hala əsaslanaraq ümumi nəticə çıxartdıq. Belə mühakimələr deduksiya və natamam induksiya adlanır. Beləliklə, deduksiya və natamam induksiya elə mühakimə prosesinə deyilir ki, bu mühakimə zamanı hər hansı obyektlər toplusunun sonlu sayda obyektləri müəyyən xassələrə malik olduqda, bütün obyektlərin həmin xassələrə malik olması nəticəsi çıxarılır.

**Problemin aktuallığı.** Riyaziyyatın tədrisində isbat məsələlərinə hər sinifdə müəyyən qədər yer ayrılır. Şagirdlərin nəzərinə çatdırılmalıdır ki, isbat məsələlərinin həlli sistemli, dəqiq, ardıcıl olmalıdır. Riyaziyyat təlimində isbat məsələləri şagirdlərdə analiz və sintez kimi məsələləri, tədqiqatçılıq qabiliyyətini, müstəqil düşünməni inkişaf etdirir. Eyni zamanda isbat məsələlərinin təfəkkür fəallığını inkişaf etdirməkdə rolu danılmazdır. Bu isə müasir təlim texnologiyaları baxımından aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi.** Məqalədə həndəsə məsələlərinin isbat yolu ilə həlli prosesində müxtəlif metodlardan istifadə yollarından bəhs edir. Xüsusilə də, riyaziyyatın həndəsə

məzmun xəttində bir bölmə olan "Üçbucaqlar" mövzusunda isbat məsələlərinə baxılır. Bu isbat məsələlərini həll etmək üçün istifadə olunan isbat üsulları qeyd edilir. İsbatların həndəsə məsələlərinin həllində əhəmiyyətindən bəhs edir. Hal-hazırda istifadə olunan müasir riyaziyyat dərsliklərində və növbəti illərdə ümumtəhsil müəssisələrində istifadəyə veriləcək dərsliklərdə isbat məsələlərinə xüsusilə yer ayrılır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Orta məktəbin riyaziyyat təlimində "Həndəsə" məzmun xəttinə dair müxtəlif siniflərdə isbat məsələlərinin həllindən gənc tədqiqatçılar, tələbələr, magistrantlar və o cümlədən orta məktəb müəllimləri və şagirdləri kifayət qədər yararlana bilərlər.

## Ədəbiyyat

1. Adigözəlov A.S., Acalova N.A., Xudaverdiyeva G.N. Həndəsədən qurma məsələlərinin həlli metodları: Metodik göstəriş). Bakı: N.Tusi adına ADPU, 1993. 69 s.
2. Əliyev İ.F. Elementar həndəsə. Bakı, 2009.
3. Əsgərov K.S., Adigözəlov A.S., Məmmədov A.A. Həndəsədən məsələ həlli praktikumu: Dərs vəsaiti. Bakı: V.İ.Lenin adına APİ-nin nəşri, 1986. - 117 s.
4. Əsgərov K.S., Axundov S.S. Elementar həndəsə. Bakı: APİ-nin nəşri, 1974. 211 s.
5. Адамар Ж. Элементарная геометия. Ч.II.Стерометрия. М., 1958, 787 с.
6. Аргунов Б.Ф., Балк М.Б. Элементарная геометия. М., 1966.
7. Базылев В.Т. и.др. Геометрия, ч. I. М.: Просвешение, 1986, ч. II, 1987.
8. Василевский А.Б. Методы решения геометрических задач. Минск: Высшая школа, 1969. - 232 с.

**Л.С. Шихлинская**

## О решении треугольников и некоторых связанных с ними задач путем доказательства

## Резюме

Помимо решения задач и примеров в математическом образовании особое значение имеют также вопросы, связанные с доказательством. Математические проблемы доказательства побуждают учащихся проводить исследования, включая логические суждения, анализ и синтез. В статье даются общие сведения о понятии доказательства и показаны способы доказывания вопросов, относящихся к разделу "Треугольники", имеющему большое значение в содержательной линии "геометрия".

**L.S. Shikhlinskaya**

**On the solution of triangles and some problems related to them by means of proof**

**Summary**

In addition to solving problems and examples in mathematics education, issues related to proof are also of special importance. Mathematical problems of proof encourage students to conduct research, including logical judgments, analysis and synthesis. The article provides general information about the concept of proof and shows the ways of proving issues related to the "Triangles" section, which is of great importance in the "geometry" content line.

**Redaksiyaya daxil olub:** 19.12.2024

***TARİXİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИСТОРИИ***
***METHODS OF TEACHING HISTORY***

*UOT372.894(47)Az*

# TARİX DƏRSLƏRİNDƏ LİDERLİK MODELLƏRİ: HEYDƏR ƏLİYEV NÜMUNƏSİNİN TƏRBİYƏVİ TƏSİRİ

**Ülvi Anar oğlu Heydərov**
*SABAH qrupları, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCID:** 0009-0007-3016-2624
**E-mail:** lvhydrv@gmail.com

***Açar sözlər:*** *Heydər Əliyev, liderlik modeli, tarix dərsləri, şagirdlərin liderlik bacarıqları, milli dəyərlər*
***Ключевые слова:*** *Гейдар Алиев, модель лидерства, уроки истории, лидерские качества учащихся, национальные ценности*
***Key words:*** *Heydar Aliyev, leadership model, history lessons, students' leadership skills, national values*

Tarix dərslərində liderlik modellərinin tədrisi, şagirdlərin təkcə tarixi hadisələri öyrənməsi ilə kifayətlənməyib, həm də onların analitik düşüncə, qərar qəbuletmə və liderlik bacarıqlarının inkişafına xidmət edir. Bu yanaşma, şagirdlərə keçmişin liderlərinin qərarlarını və strategiyalarını təhlil etməklə, müasir dövrdə liderlik anlayışını daha dərindən anlamağa imkan yaradır. Beləliklə, tarix dərsləri vasitəsilə şagirdlərdə liderlik keyfiyyətlərinin formalaşdırılması, onların gələcəkdə cəmiyyətə faydalı liderlər kimi yetişməsinə zəmin hazırlayır [1, s. 203-206].

Heydər Əliyevin liderlik xüsusiyyətləri, onun uzaqgörənliyi, qətiyyəti və xalqına bağlılığı ilə seçilir. Onun siyasi fəaliyyəti və qərarları, şagirdlər üçün nümunəvi liderlik modeli təqdim edir. Heydər Əliyevin həyat və fəaliyyətinin tədrisi, şagirdlərdə vətənpərvərlik, məsuliyyət və milli dəyərlərə hörmət kimi keyfiyyətlərin aşılanmasına kömək edir. Bu, onların tərbiyəvi inkişafına müsbət təsir göstərərək, gələcək nəsillərin milli şüur və liderlik bacarıqlarının formalaşmasına töhfə verir [2, 3, s. 209-212].

Liderlik, müəyyən məqsədlərə çatmaq üçün insanları motivasiya etmək, təsir etmək və yönəltmək prosesi kimi tərif edilir [12, s. 500-508]. Bu anlayış, yalnız şəxsi xüsusiyyətlərdən ibarət deyil, həm də davranış, vəziyyət və üslub kimi müxtəlif komponentlərdən ibarətdir. Məsələn, xüsusiyyətlər nəzəriyyəsi liderlərin doğuşdan müəyyən sabit keyfiyyətlərə malik olduqlarını irəli sürür; bu keyfiyyətlərə dürüstlük, özünə inam və intellektual qabiliyyətlər daxildir [7, s. 240-246]. Digər tərəfdən, davranış nəzəriyyəsi öyrənilə bilən və inkişaf etdirilə bilən liderlik bacarıqlarını vurğulayır, yəni liderlik davranışları vasitəsilə təkamül mümkündür [5, s. 520-524].

Bundan əlavə, situasiya nəzəriyyəsi iddia edir ki, liderlik üslubu müəyyən kontekst və komanda üzvlərinin hazırlıq səviyyəsinə görə dəyişir, yəni effektiv liderlik vəziyyətə uyğunlaşma bacarığından asılıdır [7, s. 240-246]. Nəhayət, transformasiya liderliyi və transaksiya liderliyi modelləri müasir idarəetmə və təhsil kontekstində geniş tətbiq olunur; transformasiya liderliyi modeli izləyicilərə ilham verərək onların potensialını ortaya çıxarmağa yönəlib,

transaksiyaya əsaslanan yanaşma isə mükafat və cəza mexanizmləri ilə idarəetməni təmin edir [4, s.237, 6, s. 620-625].

Təhsildə Liderlik Modellərinin Əhəmiyyəti özünəməxsusluğu ilə seçilir. Təhsil prosesində liderlik modellərinin tətbiqi, şagirdlərin yalnız akademik biliklər deyil, həm də həyatın müxtəlif sahələrində zəruri olan liderlik bacarıqlarını inkişaf etdirmək baxımından böyük əhəmiyyət kəsb edir. Liderlik bacarıqları, şagirdlərin tənqidi düşünmə, problem həll etmə və effektiv ünsiyyət qurma qabiliyyətlərini artırır [12, s. 500-508]. Belə bacarıqlar, onların gələcəkdə cəmiyyətə inteqrasiya olunmuş, məsuliyyətli və təşəbbüskar fərdlər kimi yetişməsinə şərait yaradır.

Məsələn, transformasiya liderliyi modeli, şagirdlərin öz potensiallarını aşkar etmələrinə, hədəflərinə çatmaq üçün motivasiya olmalarına və komanda şəraitində əməkdaşlıq etmələrinə imkan yaradır [4, s.237]. Eyni zamanda, transaksiyaya əsaslanan yanaşma, dəqiq gözləntilərin müəyyən olunması və nəticələrin qiymətləndirilməsi ilə şagirdlərin nailiyyətlərini artırmağa kömək edir [6, s. 620-625]. Bu yanaşmaların təhsil sisteminə inteqrasiyası, sinif mühitində liderlik dəyərlərinin aşılanmasına və praktiki tətbiqlərin təşviqinə xidmət edir.

Təhsil müəssisələrində aparılan tədqiqatlar göstərir ki, liderlik modellərinin tədrisə inteqrasiyası şagirdlərin yalnız nəzəri biliklərini deyil, həm də sosial və emosional inkişaflarını stimullaşdırır [5, s. 520-524]. Bu cür inteqrasiya olunmuş tədris yanaşmaları, şagirdlərin gələcəkdə liderlik rolu üzərinə daha hazırlıqlı olmalarına və cəmiyyətin inkişafına müsbət təsir göstərmələrinə zəmin yaradır [12, s. 500-508].

Məktəb proqramlarında və dərsliklərində öz əksini tapan tarixi şəxsiyyətlər və onların fəaliyyətlərinin araşdırılması xüsusi diqqət mərkəzindədir. Həm Azərbaycan tarixi, həm də ümumi tarix fənlərinin 4-cü məzmun xətti olan Şəxsiyyət məzmun xətti bilavasditə şagirdlərin tərbiyə olunmasında, eləcə də mənəvi keyfiyyətlərinin formalaşmasında xüsusi rol oynayır. Müxtəlif şəxsiyyətlərin öyrənilməsi, onların fəaliyyətlərinin qiymətləndirilməsi şagirdlər üçün maraq doğuran məqamlardan biridir. Bu şəxsiyyətlər içində ən çox diqqət çəkən və şagirdlərin həm 5-ci sinif, həm 9, həm də 11-ci siniflərdə öyrəndiyi mövzularda öz əksini tapan Heydər Əliyev və onun liderlik xüsusiyyətləri maraqlı və öyrədici mövzulardandır. Azərbaycanın müasir dövlətçiliyinin qurucusu və əsas liderlərindən biri kimi, liderlik üslubunun çoxşaxəliliyinə və dərinliyinə görə araşdırmalarda geniş yer almışdır. Onun liderlik üslubu aşağıdakı əsas xüsusiyyətlərlə seçilir:

**Vizyon və strateji düşüncə:** Heydər Əliyev, ölkəsinin gələcəyinə dair aydın və uzunmüddətli vizyon formalaşdırmış, strateji planlamaya böyük önəm vermişdir. Bu, onun liderlik modelində vacib yer tutur və müasir dövlət idarəçiliyində də aktualdır [9, s. 158].

**Pragmatik yanaşma:** Onun idarəetmə üslubunda real problemlərin praktik həllinə üstünlük verilməsi müşahidə olunur. İqtisadi və siyasi islahatlarda çevik və effektiv qərar qəbuletmə prinsipləri onun liderliyinin əsas elementlərindən biridir [10, s. 50-65].

**Milli dəyərlərin qorunması və vətəndaşlıq mədəniyyəti:** Heydər Əliyevin liderlik modelində milli dəyərlər və vətənpərvərlik böyük rol oynayır. O, ölkənin mədəni irsini, milli kimliyini və vətəndaşların məsuliyyət hissini inkişaf etdirməyə yönəlmiş addımlar atmışdır [11].

Bu xüsusiyyətlər onun liderlik modelinin əsasını təşkil edir və təkcə daxili siyasətdə deyil, həm də cəmiyyətin bütün sahələrində nümunəvi bir rol oynamasına səbəb olmuşdur.

Heydər Əliyevin liderlik modelində bir sıra prinsiplər özünəməxsus yer tutur:

**Strateji planlaşdırma və risk idarəetməsi:** Onun idarəetmə təcrübəsində strateji planlaşdırma, risklərin qiymətləndirilməsi və vaxtında müdaxilə prinsipləri mühüm yer tutur. Bu yanaşma, ölkənin sabit inkişafını təmin etmək üçün zəruri addımların atılmasına imkan verir [10, s. 50-65].

**Konsensus və ictimai müqavilə:** Heydər Əliyev, həm daxili, həm də beynəlxalq arenada qərar qəbuletmədə konsensus yaratmağa çalışmış, cəmiyyətin müxtəlif təbəqələri arasında qarşılıqlı inam və əməkdaşlığı təşviq etmişdir [9, s.158].

**İnnovasiya və dəyişikliklərin idarə edilməsi:** Onun liderlik modelində innovativ yanaşmalar və dəyişiklikləri idarəetmə qabiliyyəti də nəzərə çarpır. Bu, müasir dünya siyasətində dinamik dəyişən şərtlərə uyğunlaşmaq üçün vacibdir.

Yuxarıda sadalanan prinsiplər şəxsiyyətin formalaşması üçün mühüm təsir edir və şagird kimliyinin formalaşmasında təkanverici qüvvədir. Bu baxımdan hər bir müəllim dərsin planlaşdırılmasını həyata keçirərkən müxtəlif fəaliyyətləri şagirdlərə tapşırıq şəkilində verməyi nəzərdə tutmal, nəticə almaqla tədris prosesinin keyfiyyətinə təsir göstərməlidir.

Tarix dərslərində Heydər Əliyevin nümunəsinin tədrisinə yönəlik dərs planlarının hazırlanması, onun liderlik xüsusiyyətlərini və idarəetmə prinsiplərini şagirdlərə ötürmək üçün mühüm əhəmiyyət kəsb edir. Bu dərs planları yalnız tarixi məlumatın verilməsindən ibarət olmamalı, həm də şagirdlərin tənqidi düşünmə, müzakirə və analiz bacarıqlarını inkişaf etdirməyə yönəldilməlidir. Məsələn, dərs planlarında Heydər Əliyevin strateji qərar qəbuletmə və risk idarəetməsi kimi əsas xüsusiyyətlərinin vurğulanması, onun nümunəsinin praktik tətbiqinə imkan yaradır [9, s.158, 10, s.50-65]. Eyni zamanda, dərs planlarına interaktiv elementlərin daxil edilməsi – məsələn, qrup işləri, debat sessiyaları və layihə əsaslı fəaliyyətlər – şagirdlərin nümunəni daha dərindən mənimsəməsinə şərait yaradır.

**Tədris metodları və fəaliyyətlər:** Heydər Əliyev nümunəsinin tədrisində istifadə olunan metodlar və fəaliyyətlər, şagirdlərin fəal iştirakını təmin etməklə yanaşı, onların liderlik keyfiyyətlərini inkişaf etdirməyə yönəlib. Tədris metodlarına aşağıdakılar misal göstərilə bilər:

**Müzakirə və analiz:** Şagirdlərə Heydər Əliyevin siyasi fəaliyyətini və idarəetmə üsullarını əks etdirən tarixi sənədlərin, arxiv materiallarının və biografiografik mətnlərin təhlili tapşırılır. Bu metod, onların həm analitik, həm də tənqidi düşünmə bacarıqlarını gücləndirir [9, s.158].

**Rol oyunları və simulyasiyalar:** Sinif daxilində keçirilən rol oyunları və simulyasiya fəaliyyətləri vasitəsilə şagirdlər, Heydər Əliyevin qərar qəbuletmə prosesini və liderlik strategiyalarını praktik şəkildə təcrübədən keçirə bilirlər [10, s. 50-65].

**İnteraktiv seminarlar və debatlar:** Şagirdlər arasında keçirilən interaktiv seminarlar və debat sessiyaları, onların öz fikirlərini ifadə etməsi və müxtəlif baxış bucaqları ilə tanış olması üçün effektiv vasitədir. Bu fəaliyyətlər, həmçinin, liderlik modellərinin real həyatda necə tətbiq olunduğunu anlamağa kömək.

Müəllimlər, hər bir mövzunun tədrisində olduğu kimi ümumilli lider Heydər Əliyevlə bağlı mövzuların tədrisində də mərkəzi rolu oynayır və aşağıdakı vəzifələri yerinə yetirirməyə diqqət ayırmalıdırlar:

**Dərs planlarının hazırlanması və tətbiqi:** Müəllimlər, Heydər Əliyevin liderlik xüsusiyyətlərini və prinsiplərini əks etdirən dərs planlarını hazırlayaraq, onları şagirdlərə uyğun şəkildə tətbiq edirlər. Bu prosesdə, müəllimlər həm nəzəri, həm də praktiki materiallardan istifadə edərək tədrisin keyfiyyətini artırırlar.

**Fəaliyyətlərin koordinasiyası və idarə edilməsi:** Sinifdə keçirilən müzakirələr, rol oyunları və digər interaktiv fəaliyyətlərin təşkil olunması müəllimlərin peşəkar bacarıqlarına əsaslanır. Onlar şagirdləri aktiv iştirak etməyə təşviq edərək, liderlik və məsuliyyət hissini inkişaf etdirirlər.

**Motivasiya və dəstək:** Müəllimlər, şagirdlərin fərdi potensialını aşkar etmək və inkişaf etdirmək üçün motivasiya verici və dəstəkləyici yanaşmalar tətbiq edirlər. Bu da şagirdlərin həm akademik, həm də şəxsi inkişafına müsbət təsir göstərir [4, s.237].

Beləliklə, müəllimlərin rolu yalnız bilik ötürməkdən ibarət olmayıb, həm də şagirdlərin tənqidi düşüncə, yaradıcılıq və liderlik qabiliyyətlərini inkişaf etdirməkdə mühüm yer tutur.

Tarix dərslərində Heydər Əliyevin nümunəsinin tədrisi şagirdlərin liderlik bacarıqlarının inkişafına birbaşa təsir göstərir. Şagirdlər, onun həyatından və idarəetmə prinsiplərindən ilham alaraq, qərar qəbuletmə, kritik düşüncə və strateji planlaşdırma kimi bacarıqları mənimsəyirlər. Məsələn, sinifdə keçirilən interaktiv müzakirələr, simulyasiya fəaliyyətləri və rol oyunları vasitəsilə şagirdlər Heydər Əliyevin liderlik yanaşmasını praktik şəkildə öyrənərək, öz liderlik potensialını inkişaf etdirirlər [7, s.244-246, 12, s.504-507]. Belə metodlar həm də şagirdlərin özünə inamını və məsuliyyət hissini gücləndirərək, onları gələcəkdə cəmiyyətin səmərəli rəhbərləri kimi formalaşdırmağa imkan yaradır. Araşdırmalar göstərir ki, tarixi liderlərin nümunələrinin tədrisi, şagirdlərin tənqidi düşünmə bacarıqlarını artırmaqla yanaşı, onların sosial və emosional inkişafına da müsbət təsir edir.

Heydər Əliyevin şəxsiyyəti və fəaliyyəti, yalnız liderlik bacarıqlarının inkişafına deyil, həm də vətənpərvərlik və milli dəyərlərin aşılanmasına böyük töhfə verir. Onun ölkə üçün göstərdiyi xidmətlər, millətin birliyinə və inkişafına verdiyi töhfə, şagirdlərə milli kimlik və vətəndaşlıq şüurunun formalaşması üçün güclü nümunə təşkil edir. Tədris proqramlarına Heydər Əliyevin nailiyyətləri və onun rəhbərlik prinsiplərinin daxil edilməsi, şagirdlərin milli dəyərlərə hörmət və vətənpərvərlik hissini gücləndirir. Bu yanaşma interaktiv seminarlar, debatlar və layihə işləri vasitəsilə dəstəklənir ki, şagirdlər tarixi irsimizi və mədəniyyətimizi daha dərindən anlaya bilsinlər. Nəticədə, Heydər Əliyev nümunəsinin tədrisi, şagirdlərin yalnız akademik inkişafına deyil, həm də milli mənsubiyyət və sosial məsuliyyət kimi əsas dəyərlərin formalaşmasına da müsbət təsir göstərir.

**Problemin aktuallığı.** Ümumi təhsil müəssisələrində liderlik modellərinin tətbiqi müasir təhsil sisteminin qarşılaşdığı əsas problemlərdən biridir. Effektiv liderlik, məktəb mühiti, müəllimlərin motivasiyası və şagird nailiyyətləri baxımından mühüm rol oynayır. Bu kontekstdə, tarixi şəxsiyyətlərin liderlik modellərinin nümunə götürülməsi xüsusi əhəmiyyət daşıyır. Onların idarəetmə üslubları, qərarvermə bacarıqları və strateji yanaşmaları müasir təhsil rəhbərləri üçün qiymətli təcrübə və praktiki istiqamətlər təqdim edə bilər.

**Problemin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, tarix dərslərində Heydər Əliyevin liderlik modelinin tətbiqi kontekstində şagirdlərin liderlik bacarıqlarının inkişafı və milli dəyərlərə bağlılığının gücləndirilməsi araşdırılır. Bu tədqiqat, Heydər Əliyevin siyasi və strateji idarəetmə təcrübəsinin tədris prosesində istifadəsinin şagirdlərin analitik düşünmə, qərarvermə və təşəbbüskarlıq kimi keyfiyyətlərinə necə təsir etdiyini öyrənir. Bundan əlavə, məqalə Heydər Əliyevin irsinin təhsil sistemində daha effektiv şəkildə mənimsənilməsi üçün innovativ pedaqoji yanaşmaları və metodları təklif edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə əldə edilən nəticələr və təklif edilən metodlar ümumi təhsil müəssisələrində tarix dərslərinin liderlik üslubunda təşkil edilməsində praktik rol oynaya bilər.

## Ədəbiyyat

1. https://www.nmi.edu.az/wp-content/uploads/2023/05/Kurikulum-2020-hazir.pdf
2. https://science.gov.az/az/news/open/25054
3. https://kitabxana.net/files/books/file/1734599025.pdf s.209-212.
4. Avolio, B. J., & Yammarino, F. J. (Eds.). (2013). Transformational and charismatic leadership: The road ahead (10th Anniversary ed.). Emerald Group Publishing. 237 s.
5. Bass, B. M., & Bass, R. (2008). The Bass handbook of leadership: Theory, research, and managerial applications (4th ed.). Free Press. 520-524 s.
6. Burns, J. M. Leadership. Harper & Row. 620-625 s. 1978.
7. Yukl, G. (2013). Leadership in organizations (8th ed.). 240-246 s.
8. Aliyev, H. Heydər Əliyev: Liderlik və İdeologiya. Bakı: Nəşriyyat. 2005.
9. Hüseynov, R. Heydər Əliyevin liderlik üslubu və onun müasir siyasətə təsiri. Bakı: Elm Nəşriyyatı. 158 s. 2010.
10. Məmmədov, A. Heydər Əliyevin liderlik modelinin analizi // Azərbaycan Təhsil Jurnalı, 4, 50–65. s, 2012.
11. Quliyev, N. Heydər Əliyev və liderlik fenomeni. Bakı: Təhsil və Mədəniyyət Nəşriyyatı, 2015.
12. Northouse, P. G. Leadership: Theory and practice (8th ed.). Sage Publications. 500-508 s. 2018.

**У.А. Гейдаров**

## Модели лидерства на уроках истории: образовательное воздействие примера Гейдара Алиева

### Резюме

В статье рассматривается влияние применения модели лидерства Гейдара Алиева на уроках истории на развитие лидерских качеств и формирование национальных ценностей у учащихся. В статье подчеркивается, что интеграция видения Гейдара Алиева, стратегического мышления и прагматичного стиля управления в учебную программу играет важную роль в развитии критического мышления, ответственности и социальной осведомленности учащихся. В то же время отмечается, что преподаватели могут более эффективно донести эту модель до учащихся, используя такие методы, как интерактивные планы уроков, ролевые игры и дебаты. В результате применение примера Гейдара Алиева на уроках истории создает условия для усиления как академических, так и воспитательных качеств в системе образования.

**U.A. Heydarov**

**Leadershıp models ın hıstory lessons: educatıonal ımpact of the example of Heydar Alıyev**

**Summary**

This article examines the impact of applying the leadership model of Heydar Aliyev in history lessons on the development of leadership skills and the formation of national values in students. The article emphasizes that the integration of Heydar Aliyev's vision, strategic thinking, and pragmatic management style into the curriculum plays an important role in the development of students' critical thinking, responsibility, and social awareness. At the same time, it is noted that teachers can more effectively convey this model to students by using methods such as interactive lesson plans, role-playing games, and debates. As a result, the application of Heydar Aliyev's example in history lessons creates conditions for strengthening both academic and educational qualities in the education system.

**Redaksiyaya daxil olub:** 17.02.2025

*UOT372.894(47)Az*

# TARİX TƏLİMİNDƏ İNTEQRASİYADAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

**Asya Arif qızı Bayramova**
*SABAH Qrupları, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCİD:** 0009-0009-7667-7521
**E-mail:** bayramovasya@mail.ru

***Açar sözlər:*** *inteqrasiya, tarix təlimi, innovasiya, metodika, kurikulum*
***Ключевые слова:*** *интеграция, преподавание истории, инновации, методика, курикулум*
***Key words:*** *integration, history teaching, innovation, methodology, curriculum*

Müasir təhsil sistemində əsas strategiyalardan biri inteqrasiyadır. Şagirdlərin dünyagörüşünü genişləndirmək, onların tənqidi düşüncə qabiliyyətini inkişaf etdirmək və tarixi hadisələrin mahiyyətini daha dərindən dərk etməyə kömək etmək üçün, xüsusən də tarix fənninin digər mövzularla birlikdə tədris olunması məqsədəuyğundur [3, s.85]. Müxtəlif sahələrdən olan texnika, bilik və ya bacarıqların birləşdirilməsi prosesi inteqrasiya adlanır. Tarix fənninin tədrisində inteqrasiya, coğrafiya, ədəbiyyat, iqtisadiyyat, fəlsəfə, incəsənət və texnologiya kimi digər fənlərlə əlaqələndirilməsi prosesidir [10, s.76]. Fərqli bilik hissələrini birləşdirərək, bu üsul şagirdlərə fənləri mükəmməl şəkildə öyrənməyə imkan verir və ümumi nəticələrə gəlmək qabiliyyətini artırır [11, s.102]. Müasir dövrdə inteqrasiya yanaşması təhsil prosesinin daha məhsuldar, innovativ və cəlbedici olmasına zəmanət verir. Tarix insanların keçmişi dərk etməsi, mədəniyyətlərarası əlaqələri öyrənməsi və cəmiyyətlərin inkişaf yollarını anlaması üçün əsas mövzulardan biridir. İnteqrativ metod bir neçə sahə arasında əlaqə yaratmaqla dərin və tamamlayıcı məlumatların mənimsənilməsini təklif edir. Tarixi dəqiq elmlərlə (fizika, riyaziyyat), digər humanitar elmlərlə (ədəbiyyat, coğrafiya, fəlsəfə və incəsənət) və hətta texnologiya ilə birləşdirmək mümkündür. Bu üsul şagirdlərə tarixi hadisələrlə yanaşı, fənlərarası bacarıqlar, tənqidi düşünmə və problem həll etməyi öyrədir [16, s.153]. Fenomenoloji yanaşmaya görə, fərdin idrak təcrübəsi müxtəlif sahələrdən əldə etdiyi təcrübə və biliklərin bütövlükdə birləşməsindən ibarətdir. Beləliklə, tarix dərslərində inteqrativ metodların tətbiqi şagirdlərə tənqidi düşünməyə və informasiyalar arasında əlaqə yaratmağa kömək edir [15, s.102]. Nəzəri əsas kimi V.S. Bezrukovanın pedaqogikada inteqrativ proseslərin təsiri ilə bağlı işi [14, s.56] və M.N. Berulavanın ümumi və peşə təhsili arasında əlaqənin gücləndirilməsi haqqında fikirləri diqqətəlayiqdir. İnteraktiv və inteqrativ təlim yanaşmalarından istifadə edildikdə şagirdlərin marağı artır və biliklər uzun müddət saxlanılır [6, s.180]. İnteqrasiya təhsil sistemlərinin əsas komponentlərindən biri kimi qəbul edilir. ABŞ, Böyük Britaniya və Almaniya kimi ölkələrdə tarix dərsləri fənlərarası yanaşmalardan, layihə əsaslı öyrənmədən və mədəni irsin rəqəmsallaşdırılmasından geniş istifadə edir [9, s.45]. Məsələn, ABŞ-da tarix mühazirələrində interaktiv proqramlar, xəritələr və rəqəmsal resurslardan istifadə olunur. Şagirdlərə nəticə çıxarmaq və tarixi hadisələri müasir dövrlə müqayisə etmək bacarığı öyrədilir. Böyük Britaniyada tarix və ədəbiyyat dərsləri qrup layihələrini əhatə edir. Bu üsul tarixi hadisələrin dərin emosional qavranılmasını təklif edir. Almaniyada tarix və texnologiya inteqrasiya olunmuş yanaşma ilə birlikdə istifadə

olunur. Şagirdlər tarixi məkanları ziyarət etmək üçün virtual reallıqdan istifadə etdikdə onların yaddaşı yaxşılaşır. Azərbaycan Respublikasında tarix fənninin tədrisində inteqrasiya yanaşmasının tətbiqi daha çox 2000-ci illərdə formalaşmağa başlamışdır. Bu sahədə mühüm hadisələrdən biri 2006-cı ildə "Azərbaycan Respublikasının Ümumi Təhsil Konsepsiyasının (Milli Kurikulum)" qəbul edilməsi olmuşdur [1, s.25].

"İnteqrasiya" sözü 20-ci əsrin sonlarından daha çox istifadə olunur. Nəticədə inteqrasiya bütün elmi sahələrin, o cümlədən sosiologiya və pedaqogikanın mühüm aspektinə çevrilmişdir. Pedaqogikada "inteqrasiya", "inteqrativlik", "təhsildə inteqrasiya" kimi terminlər getdikcə daha çox istifadə olunur. Tarixin inteqrasiya yolu ilə tədrisi müasir təhsil prosesinin mühüm tərkib hissəsidir. Bu üsul təkcə təhsil standartlarını yüksəltmir, həm də gələcək nəsli mühüm həyat bacarıqları və dərin məlumatlarla təchiz edir [7, s.4]. Azərbaycan Respublikasının bu sahədə gördüyü işlər mühüm nəticələr verir. Gələcəkdə daha irimiqyaslı layihələr həyata keçirməklə və xarici təcrübədən istifadə etməklə bu sahədə irəliləyişləri daha da sürətləndirmək olar. İnteqrasiyanı həyata keçirərkən orta ümumtəhsil müəllimləri dərslərini hər gün planlaşdırmalıdırlar ki, onların keyfiyyətli olması təmin edilsin. Gündəlik dərsin planlaşdırılması (nəzarət) mərhələlərlə həyata keçirilir [7, s.98]. İnteqrasiya bu mərhələlərin həlledici və çaşdırıcı tərəfidir.

Azərbaycan tarixinin tədrisində istifadə olunan inteqrasiya üsullarının bir neçə ilkin nümunəsini müəyyən etmək mümkündür: Tarix və coğrafiya: Coğrafi səviyyədə hadisələri təsvir etmək üçün xəritələrdən istifadə şagirdlərin məkan şüurunun inkişafına kömək edir. Tarix və incəsənət: Azərbaycanın mədəni irsinin (rəsm, musiqi və xalçaçılıq) tarix dərslərinə daxil edilməsi şagirdlərdə milli kimlik hislərinin formalaşmasına kömək etmək üçün çox vacibdir. Tarix və ədəbiyyat: Azərbaycanın tarixi şəxsiyyətlərinin ədəbi irsinin öyrənilməsi şagirdlərə tarixi hadisələri daha dərindən dərk etməyə kömək edən ümumi tədris strategiyasıdır. Bundan başqa, 2013-cü ildə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbul edilməsi bu sahədə daha geniş dəyişikliklərə zəmin yaratdı [2, s.12]. Bu istiqamətdə irəliləyiş yeni kurikulumların tətbiqi, müəllimlərin peşəkarlığının artırılması və müasir tədris resurslarından istifadə nəticəsində mümkün olmuşdur. İnteqrasiya edilmiş yanaşmanın üstünlüklərini aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Biliyin dərindən mənimsənilməsi: Fərqli təhsil sahələrinin əlaqələndirilməsi fənlərin hərtərəfli yoxlanılmasına zəmanət verir [5, s.142].
2. Analitik və tənqidi təfəkkür bacarıqlarının inkişafı: Şagirdlər hadisələr arasında əlaqə yaratmaqla tənqidi düşünməyi öyrənirlər [6, s.181].
3. Motivasiyanın gücləndirilməsi: Şagirdlər interaktiv və inteqrativ metodlardan istifadə etməklə dərsləri daha cəlbedici hesab edirlər [11, s.205].
4. Mədəniyyətlərarası əlaqələrin gücləndirilməsi: Mədəniyyətlərin müxtəlifliyini dərk etmək tarix dərslərində digər fənlərlə əlaqələr vasitəsilə mümkün olur [13, s.88].

Müəllimlərin inteqrasiya strategiyası üzrə qeyri-adekvat təcrübəsi və anlayışı, tədris materiallarının az olması, sinifdə texnologiyadan düzgün istifadə edilməməsi kimi hallar inteqrasiya strategiyası üçün problem yaradır [8, s.73]. Bu problemləri aradan qaldırmaq üçün aşağıdakı tədbirlər görülməlidir:

1. Müəllimlər müntəzəm təlim keçməlidirlər. Bu səbəbdən multidissiplinar əlaqələri təkmilləşdirmək üçün xüsusi kurslar yaradılmalıdır.

2. Rəqəmsal resursların artması. Tədris proqramları interaktiv xəritələri, videoları və digər texnologiyaları özündə birləşdirməlidir [10, s.302].

3. Layihə əsaslı öyrənmə: Şagirdlərə bir neçə akademik sahədən məlumatları özündə birləşdirən tapşırıqlar vermək vacibdir [12, s.132].

**Problemin aktuallığı.** Bu gün təhsil sistemləri sürətlə yenilənir və dəyişdirilir. Bu transformasiyalarda fənlərarası inteqrasiyanın oynadığı əhəmiyyət xüsusilə əhəmiyyətlidir. Tarix tədrisində inteqrasiya digər sahələrdən məlumatları birləşdirərək və təqdim etməklə tələbələrin analitik və tənqidi düşünmə bacarıqlarını gücləndirməyə kömək edir [8, s.67]. XXI əsr tarixin xronoloji hadisələr toplusu kimi deyil, həm də sosial, iqtisadi, mədəni və texnoloji şəraitdə başa düşülməsini zəruri edir. Bu, inteqrativ tədris metodlarının tələbələrə tarixi hadisələri daha dərindən dərk etmələrinə və onları cari məsələlərlə əlaqələndirməyə kömək edən üsullardan biridir. Azərbaycan təhsil sistemində kurikuluma yenidən baxılması çərçivəsində inteqrativ yanaşmaların tətbiqi yaranıb [4, s.189]. İnteqrasiyanın uğurla həyata keçirilməsi üçün isə metodoloji və resurs bazası yaradılmalıdır.

**Problemin elmi yeniliyi.** Tarix təlimində inteqrativ metodlar üzrə tədqiqatlar göstərir ki, bu yanaşma biliklərin mənimsənilməsini və uzunmüddətli yaddaşın saxlanmasını yaxşılaşdırır. Azərbaycan təhsil sistemində fənlərarası inteqrasiyanın həyata keçirilməsi hələ öz inkişafının ilkin mərhələsində olduğu üçün bu sahədə elmi tədqiqatlar tələb olunur. Bu məqalədə tarix təhsilində inteqrasiyanın elmi əsasları, onun müxtəlif kontekstlərdə tətbiqi, dünya təcrübəsi ilə müqayisəli təhlili və Azərbaycan təhsil sisteminə uyğun olan konkret həyata keçirmə strategiyaları araşdırılır. Bu mənada məqalə cari elmi ədəbiyyata əlavələr etməklə yanaşı, yeni tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsi üçün də zəmin yaradır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tarixə inteqrasiyalı yanaşan şagirdlər hadisələri təkcə tarixi kontekstdə deyil, həm də iqtisadi, siyasi, mədəni və texniki dəyişənlər işığında araşdıra bilirlər. Onların tənqidi düşünmə qabiliyyəti yüksəlir, müasir dövrdə tarixi hadisələrin əhəmiyyətini daha dərindən dərk edirlər. Müasir tədris üsullarının tətbiqi, kurikuluma yenidən baxılması, müəllim hazırlığı və materialın uyğunlaşdırılması bu problemi həll etmək üçün vacib olan addımlardan bəziləridir. Məqalə bu sahədə praktik boşluqları aradan qaldırmaq üçün metodoloji yanaşmalar və tövsiyələr təklif edir. Məqalədə təklif olunan inteqrasiya üsullarının tətbiqi Azərbaycanın təhsil sistemində tarix tədrisinin keyfiyyətinin yüksəldilməsinə və fənlərarası əlaqələrin möhkəmləndirilməsinə kömək edə bilər. Bu yanaşma kurikulumda öz əksini tapmalı, müəllimlər üçün sistemli vasitələrlə yanaşı layihə əsaslı və interaktiv təlim modelləri yaradılmalıdır. Həmçinin beynəlxalq təcrübəni təhlil etməklə Azərbaycan təhsil sisteminə uyğun olan inteqrasiya modellərini məktəblərdə hazırlamaq və sınaqdan keçirmək mümkündür. Tarix siniflərinə əlavə olaraq, təklif olunan inteqrasiya üsulları bütün təhsil sistemində multidissiplinar təlimin qəbulunu dəstəkləyə bilər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Ümumi Təhsil Konsepsiyası (Milli kurikulum). Bakı, 2006, 30 oktyabr, 33 №li qərar.

2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 2013.

3. Abbasov Ə., Cavadov İ. Yeni təhsil proqramlarının (kurikulumların) tətbiqi məsələləri. Bakı: Mütərcim, 2014, 380 s.

4. Abbasov Ə., Cavadov İ. Kurikulum islahatı: tədqiqatlar, nəticələr. Bakı, Mütərcim, 2011, 344 s.

5. Bəhrəmova S. Tarixi biliklərin inteqrativ öyrədilməsi texnologiyası. Bakı, 2024, 224 s.

6. Bəhrəmova S. Tarix fənni üzrə şagird nailiyyətlərinin qiymətləndirilməsinə dair vasitələrin hazırlanmasına verilən tələblər // Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2015, № 3, 179-182 s.

7. Cəbrayılov İ. Azərbaycan tarixinin tədrisi metodikası: Monoqrafiya. Bakı: Mütərcim, 2006, 236 s.

8. Əmirov M. Pedaqoji tədqiqat metodları. Bakı, ADPU-nun nəşriyyatı, 2019, 88 s.

9. Həsənov M., Ağayev Ş., Məmmədova V., Fərzəliyeva Y. Fənlərin inteqrasiyası: Metodik vəsait. Bakı, 2013, 64 s.

10. İlyasov M. Müasir təhsil: ənənədən innovasiyaya: Monoqrafiya, Bakı: Elm və Təhsil, 2021, 376 s.

11. Musayev D. Tarixin tədrisində interaktiv metodlardan istifadənin imkanları: Monoqrafiya. Bakı, ADPU-nun nəşriyyatı, 2022, 228 s.

12. İsayeva T. Ümumtəhsil məktəblərində Azərbaycan tarixinin tədrisində mətn üzrə işin təşkili. Bakı, 2022, 168 s.

13. Баранов П.А. Историко-обществоведческое образование в современной школе. СПб., 2000.

14. Безрукова В. С. Интеграционные процессы в педагогической теории и практике. Екатеринбург, 2004.

15. Gallagher, S., and Zahavi, D. The phenomenological mind: An introduction to philosophy of mind and cognitive science. Routledge, UK, 2007.

16. James F. Baumann, Elizabeth Carr Edwards, George Font, Cathleen A. Tereshinski, Edward J. Kame'enui and Stephen Olejnik 2002. Teaching morphemic and contextual analysis to fifth- grade students. Reading research quarterly. Vol. 37. No 2: 150-176 p.

**А.А. Байрамова**

## Важность использования интеграции в преподавании истории
## Резюме

В современную эпоху, когда информация стремительно распространяется в глобальном масштабе, а междисциплинарное изучение знаний становится всё более актуальным, интегративный подход рассматривается как один из ключевых факторов эффективного преподавания истории. В статье обсуждаются концептуальные основы интеграции, её педагогические и методологические аспекты, а также применение в различных странах. Оцениваются возможные результаты синтеза интегративных подходов с интерактивными методами преподавания истории, определяются области практического применения и предлагаются эффективные методологические стратегии в данном направлении. Кроме того, рассматриваются правовые основы использования

интегративных методов в преподавании истории в Азербайджанской Республике, включая государственные стратегии и реформы учебных программ. Анализируется проделанная работа в данной сфере, а также оцениваются перспективы дальнейшего развития. Дополнительно подчеркиваются преимущества использования междисциплинарной интеграции для развития аналитического мышления учащихся, их критического восприятия и способности решать проблемы на уроках истории.

**A.A. Bayramova**

**The importance of using integration in history education**
**Summary**

In the modern era, where information is rapidly expanding on a global scale and the interdisciplinary study of knowledge has become increasingly relevant, the integrative approach is considered one of the key factors ensuring the effective teaching of history. The article discusses the conceptual foundations of integration, its pedagogical and methodological aspects, and its application in different countries. It evaluates the potential outcomes of synthesizing integrative approaches with interactive teaching methods in history lessons, identifies practical application areas, and proposes effective methodological strategies in this direction. Furthermore, the legal foundations of using integrative methods in history education in the Republic of Azerbaijan, including state strategies and curriculum reforms, are examined. The work done in this field is analyzed, and future development perspectives are assessed. Additionally, the advantages of using interdisciplinary integration to develop students' analytical thinking, enhance their critical reasoning, and improve their problem-solving skills in history lessons are highlighted.

**Redaksiyaya daxil olub:** 24.02.2025

*UOT 372.894(47)*

# TARİX MÜƏLLİMLƏRİNİN AKMEOLOJİ KOMPETENSİYALARININ İNKİŞAF ETDİRİLMƏSİNİN ƏHƏMİYYƏTİ

**Selcan Qabil qızı Yusifova**
*SABAH qrupları, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCID:** 0009-0003-4230-2269
**E-mail:** selcanyusifova8@gmail.com

***Açar sözlər:*** *müəllim peşəkarlığı, pedaqoji səriştəlilik, akmeologiya, pedaqoji innovasiyalar, tədris metodları*

***Ключевые слова:*** *профессионализм учителя, педагогическая компетентность, акмеология, педагогические инновации, методы обучения*

***Key words:*** *teacher professionalism, educational reforms, acmeology, pedagogical innovations, teaching methods*

Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar fəal şəkildə həyata keçirilir. Bu islahatlar dövlət əhəmiyyətli sənədlərdə öz əksini tapmışdır. Belə sənədlərdən biri "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsilin və müəllim hazırlığının Konsepsiyası və Strategiyası", digərləri isə "2011–2021-ci illər üçün Azərbaycanda təhsilin inkişafı strategiyası", "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"dır. Bu strategiya Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli Fərmanı ilə təsdiq edilmişdir.

Müasir cəmiyyətin qarşısında duran vəzifələr yeni pedaqoji təfəkkürə malik müəllimlərə olan tələbatı artırır. Cəmiyyət yalnız öz işinin əsl ustası olan, peşəkarlığı və uşaqlara sevgini özündə birləşdirən səriştəli müəllimlərə arxalana bilər. Strategiya təhsil sahəsində kadr hazırlığı sisteminin müasirləşdirilməsini əsas istiqamətlərdən biri kimi müəyyən edir. Bu istiqamət universitetləri effektiv tədris metodlarından istifadə edərək tələbələrin bilik və bacarıqlarını inkişaf etdirməyə, onların istedadlarını üzə çıxarmağa və qabaqcıl tədris metodları tətbiq etməyə yönəldir. Bununla yanaşı, təhsil nailiyyətlərinin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi də prioritet məsələlərdən biridir [1].

Həqiqətən də, yüksək ixtisaslı müəllim kadrlarının hazırlanmasına diqqətin artırılması bu gün təhsil sistemimizin qarşısında duran əsas vəzifələrdən biridir. Gələcək müəllim təkcə dərin biliyə sahib olmaqla kifayətlənməməli, həm də yüksək əxlaqi keyfiyyətlərə, sistemli təfəkkürə və pedaqoji yeniliklərə yiyələnmək üçün tələb olunan bacarıqlara malik olmalıdır. O, həmçinin dəyişən pedaqoji mühitə uyğunlaşma qabiliyyətinə sahib olmalı, daim öz bilik və bacarıqlarını təkmilləşdirməlidir. Müasir şəraitdə müəllimin peşə hazırlığı məsələsi onun mədəni və mənəvi inkişafı, eləcə də yaradıcı müstəqilliyi ilə sıx bağlıdır [2, s.59-62; 3, s. 26].

Müəllimin "səriştəsi", "peşəkarlığı" və "pedaqoji mövqeyi" akmeologiyanın əsas kateqoriyalarını təşkil edir. Bu, gələcək müəllimlərin hazırlanması probleminin akmeoloji yanaşma baxımından araşdırılmasının aktuallığını müəyyənləşdirir. Müəllimlərin peşə hazırlığının səmərəliliyinin artırılmasında akmeoloji səriştənin rolunun öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Akmeoloji səriştənin öyrənilməsi ilə bağlı metodoloji əsaslar aşağıdakı alimlərin elmi araşdırmalarında əksini tapmışdır: S.V. Bazilevskaya, E.M. Borodulina, A.A. Derkaç,

M.İ. İlyasov, E.S. Kaqan, M.M. Kaşapov, A.K. Markova, D.M. Musayev, A.G. Portnov, V.A. Şirin, J. Raven, A.A. Uşakov, A.V. Xutorskoy və digərləri.

Fərdin yaradıcı özünü dərk etməsi ilə bağlı fikirlərin əsası qədim yunan və Roma mütəfəkkirlərinin, xüsusilə Platon və digər filosofların əsərlərində qoyulmuşdur. Bundan əlavə, Leonardo da Vinçinin yaradıcılığı da bu sahədə mühüm mənbələrdən biridir. Şəxsiyyətin yaradıcı potensialının reallaşdırılması məsələsi M.M. Əmirov, İ.H. Cəbrayılov, M.İ. İlyasov, M.M. Kaşapov, A.K. Markova, A.X. Paşayeva, F.A. Rüstəmov, V.A. Slastenin, A.A. Uşakov, A.V. Xutorskoy və digər alimlərin əsərlərində də geniş şəkildə araşdırılmışdır.

Müasir dövrdə akmeologiya ayrıca bir elmi sahə kimi formalaşmışdır. Onun inkişafı A.A. Bodalev, A.A. Derkaç, N.V. Kuzmina kimi alimlərin adları ilə sıx bağlıdır. Akmeologiya inkişafının ilkin mərhələsində əsasən müəllimlərin peşəkarlığını öyrənmişdir. Sonrakı dövrlərdə isə pedaqoji akmeologiya yalnız bir elm sahəsi kimi deyil, həm də müxtəlif sahələrdə – hərbi, pedaqoji, idarəetmə, sosial, tibbi, hüquqi, idman və iqtisadi akmeologiya istiqamətlərində inkişaf etmişdir. Hazırda akmeologiya formalaşma və inkişaf mərhələsindədir. A.A. Uşakovun tərifinə görə, akmeologiya insan inkişafı qanunları və peşəkar yetkinliyə nail olmaq yollarını araşdıran bir elmdir. Alimin fikrincə, "acme", yəni insanın inkişafının ən yüksək səviyyəsi obyektiv və subyektiv amillərin qarşılıqlı təsiri nəticəsində əldə edilir.

Obyektiv amillərə təhsil və tərbiyə şəraiti, təhsilin keyfiyyəti daxildir.

Subyektiv amillər isə insanın psixi və fiziki sağlamlığı, onun qabiliyyət və istedadı ilə bağlıdır [4, s. 5–6].

Akmeologiya metodları, formaları, strategiyaları və texnologiyaları öyrənərək insan fəaliyyətinin müxtəlif sahələrində yüksək səviyyəli mütəxəssislərin hazırlanmasına yönəlmiş bir elm sahəsidir. "Akme" anlayışı insanın fəaliyyət göstərdiyi peşə sahəsindən asılı olaraq əldə etdiyi zirvə nöqtəsini ifadə edir. Pedaqoji akmeologiya isə fərdin yüksək səviyyədə səriştəyə və peşəkar bacarıqlara sahib olmasına yönələn inkişaf yollarını araşdıran bir elm sahəsidir [5, s. 35].

Müəllimin işində səriştə və peşəkarlığa nail olma yollarını araşdıran pedaqoji akmeologiya, müəllimin öz fəaliyyətində peşəkar inkişaf zirvəsinə çatması üçün müxtəlif üsul və yanaşmaları öyrənən bir elmdir. Pedaqoji təhsildə akmeoloji yanaşma müəllimin peşəkar motivasiyasının artırılmasını, onun peşəkar fəaliyyətində uğur əldə etməsini və yaradıcı potensialının stimullaşdırılmasını hədəfləyir. Akmeologiya kontekstində "akmeoloji səriştə" anlayışı xüsusi əhəmiyyət kəsb edir. A.A. Uşakovun tərifinə görə, akmeoloji səriştə müəllimin peşəkarlıq sisteminin idraki komponenti olub, peşə sahəsində fərdin mütərəqqi inkişafının yolları, prinsipləri və qanunauyğunluqları haqqında bilikləri əhatə edir [6, s. 115].

Tarix müəlliminin peşəkar pedaqoji səriştəsi onun sahəyə aid bilik və bacarıqları ilə yanaşı, özünə, tələbələrinə, peşəsinə və həmkarlarına olan münasibəti ilə müəyyən edilir. Tarix müəlliminin peşəkar səriştəsi üç əsas komponentdən ibarətdir:

1. Məzmun komponenti – müəllimin tarix elmi üzrə fundamental biliklərə sahib olması;
2. Texnoloji komponent – tarixin tədrisi üçün müasir metod və yanaşmalara yiyələnmə bacarığı;
3. Şəxsi komponent – müəllimin pedaqoji fəaliyyət üçün vacib olan şəxsiyyət xüsusiyyətlərinə malik olması.

Bu səriştənin tərkib hissələrinə aşağıdakılar daxildir:

Psixoloji və pedaqoji biliklər – şagirdlərin yaş və fərdi xüsusiyyətlərini nəzərə alaraq məktəb proqramının (kurikulumun) məzmununu mənimsəmək;

Pedaqoji bacarıqlar – tədris materialını seçmək və sistemləşdirmək, pedaqoji situasiyaları təhlil etmək, tələbələrin qabiliyyət və imkanlarını nəzərə almaqla tədris və tərbiyə metodlarını seçmək, problemli məsələləri araşdırmağa və müzakirəyə yönəltmək;

Pedaqoji təfəkkür – pedaqoji situasiyaları təhlil edərək tələbələrin potensialını nəzərə almaqla qərar qəbul etmək bacarığı;

Pedaqoji müşahidə – kiçik pedaqoji detallara əsaslanaraq vəziyyətin mahiyyətini dərk etmək;

Pedaqoji proqnozlaşdırma – şagirdlərin davranışını və inkişafını qabaqcadan təxmin etmə bacarığı.

Tarix müəlliminin peşəkar səriştəsinin mühüm komponentlərindən biri də kommunikativ səriştədir. Bu səriştə aşağıdakı elementləri özündə birləşdirir:

Peşəkar pedaqoji rollar – müəllim həm pedaqoji əməkdaşlıq iştirakçısı, həm təlim prosesinin subyekti, həm də humanist olmalıdır;

Peşəkar keyfiyyətlər – müəllimin öz peşəsinə və şagirdlərinə olan münasibəti;

Pedaqoji taktika – şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq onlara təsirin effektiv yollarını seçmək bacarığı [7, s. 193].

Tarix müəlliminin peşəkarlığının əsas göstəriciləri bunlardır:

Peşəyə yiyələnmək – müəllimin peşə biliklərinə və pedaqoji bacarıqlara sahib olması;

Pedaqoji bacarıq və yaradıcılıq – müəllimin innovativ və yaradıcı tədris metodlarından istifadə etməsi;

Peşəkar özünüreallaşma – müəllimin öz fəaliyyətində maksimum səmərə əldə etməsi.

Beynəlxalq Akmeologiya İnstitutuna görə, tarix müəlliminin peşəkarlığı aşağıdakı meyar qrupları ilə müəyyən edilir:

Subyektiv meyarlar – müəllimin öz peşəsinə müsbət münasibəti, bu sahədə çalışmaq istəyi, işindən razılığı;

Obyektiv meyarlar – pedaqoji fəaliyyətin səmərəliliyi və onun müxtəlif aspektləri (tədris, tərbiyə, inkişafetdirici, təşkilati və diaqnostik işlər);

Prosedur meyarlar – müəllimin öz işində müxtəlif innovativ metod və texnologiyalardan istifadə etməsi;

Fəaliyyət meyarları – pedaqoji fəaliyyət nəticəsində tələb olunan şəxsi keyfiyyətlərin inkişaf etdirilməsi və onların cəmiyyətə hazırlanması [7, s. 192].

Tarix müəlliminin peşəkarlıq səviyyəsinin inkişafı müəyyən mərhələlərlə baş verir. Bu inkişaf dinamik proses olub, müəllimin pedaqoji ustalığa doğru irəliləməsini ifadə edir. Bu mərhələlər aşağıdakılardır:

Peşəyə yiyələnmə səviyyəsi – müəllim ilkin olaraq peşənin əsas metod, texnika və texnologiyalarını mənimsəyir;

Pedaqoji bacarıq səviyyəsi – müəllim qabaqcıl pedaqoji təcrübənin nümunələrini tətbiq edir və tədris prosesini optimallaşdırır;

Fərdi yanaşma səviyyəsi – müəllim fərdiyönlü pedaqoji metodları tətbiq edərək tələbələrin fərdi xüsusiyyətlərini nəzərə alır;

Özünüinkişaf səviyyəsi – müəllim öz pedaqoji fəaliyyətini təhlil edir, fərdi üslubunu inkişaf etdirir və peşəkar inkişafını davam etdirir [7, s. 194–196].

Peşəkarlığın əsas xüsusiyyətlərini tarix müəlliminin akmeoloji səriştəsinin tərkib hissəsi kimi müəyyən etmək onun strukturunu dəqiq müəyyənləşdirməyə imkan verir. Akmeoloji səriştənin formalaşmasının ilkin mərhələsi universitetdə təhsil dövrü ilə əlaqələndirilməlidir. Biz ali məktəblərin tarix kafedralarında tədris olunan və müəllim kadrlarının hazırlanmasında xüsusi rol oynayan "Tarixin tədrisi metodikası" fənninin potensialını öyrənmişik. Bu fənnin proqramını tərtib edərkən aşağıdakı mühüm məsələlər nəzərə alınır:

Tarix müəlliminin işinin məqsəd və vəzifələri cəmiyyətin sosial sifarişi ilə müəyyən olunan qlobal məqsədlərdən və şagirdlərin yaş xüsusiyyətlərinə uyğun konkret məqsədlərdən ibarətdir.

Müasir dövrdə pedaqoji tapşırıqlar qeyri-standart xarakter daşıyır, onların həlli müəllimdən yenilik və yaradıcılıq tələb edir.

Müəllimin əməyinin əsas nəticəsi şagirdlərin əqli və şəxsi inkişafında keyfiyyət dəyişikliklərinin baş verməsi olmalıdır. Bu, yalnız bilik və bacarıqların ötürülməsi ilə deyil, həm də onların müstəqil düşünmək, analiz etmək və qərar vermək qabiliyyətlərinin inkişafı ilə bağlıdır.

Akmeoloji yanaşmanın məqsədi gələcək tarix müəllimlərinin peşəkar inkişafına təsir göstərmək və onların akmeoloji səriştələrini formalaşdırmaqdır. Praktik cəhətdən akmeoloji texnologiyalar müəllimə peşəkar və şəxsi inkişaf imkanı yaradır və onun karyera trayektoriyasını müəyyən etməyə kömək edir [6, s. 5-6].

Akmeoloji səriştənin inkişafı ilə bağlı tarix müəllimində aşağıdakı mühüm bacarıqlar formalaşmalıdır:

Peşəkar inkişafın vacibliyini dərk etmək

Özünün təhsil keyfiyyətini və pedaqoji bacarıqlarını artırmağa çalışmaq

Peşəkar yüksəliş üçün strateji planlama aparmaq [8, s. 767].

Gələcək mütəxəssisin inkişafında ən vacib mərhələlərdən biri peşə seçimi və fəaliyyət profilinin dəqiqləşdirilməsi ilə bağlı qərar vermə prosesidir. Lakin bu gün pedaqoji təhsili seçən tələbələrin hamısının bu peşəyə uyğun olmadığı müşahidə olunur. Bu fakt tələbələr arasında aparılan sorğuların nəticələri ilə də təsdiqlənmişdir [9, s. 140].

Gələcək tarix müəllimlərin akmeologiya ilə bir elm və peşəkar özünüinkişaf vasitəsi kimi tanış edilməsi mütəxəssislərin hazırlanması və pedaqoji təhsilin təkmilləşdirilmiş modellərinin yaradılması üçün səmərəli yolların axtarışı çərçivəsində həyata keçirilməlidir. Akmeologiya pedaqoji təhsildə nəzəri və praktik əhəmiyyətə malikdir, çünki o, müəllimlərin şəxsi və peşəkar inkişafına yönəlmiş sistemli yanaşmanı təmin edir. Akmeologiya pedaqoji universitetlərin təhsil sistemində əsas akademik fənlərdən biri olmalıdır. Bu fənnin məzmununun dərindən başa düşülməsi və tam mənimsənilməsi müəllimlərin təkmilləşdirilməsi üçün ən vacib şərtlərdən biridir. Akmeologiyanın tədrisi müəllimlərin şəxsi inkişafını stimullaşdırmaqla yanaşı, onların peşə fəaliyyətində uğur qazanmasına da kömək edəcəkdir [9, s. 146-147].

Gələcək müəllimlər akmeologiyanı şəxsi və peşəkar yetkinlik zirvələrinə yüksəlmək üçün vəzifələr və üsullar sistemi kimi mənimsəməlidirlər. Bu sahədə onların inkişafı üçün aşağıdakı məsələlər vacibdir:

Akmeoloji texnologiyaların mənimsənilməsi – Müəllimlər bu texnologiyalar vasitəsilə özünüinkişafın və peşəkar təkmilləşmənin yollarını öyrənməlidirlər.

Akmeoqramma tərtib etmək bacarığı – Gələcək müəllimlər peşəkar inkişaf trayektoriyasını müəyyən edən fərdi proqramlar hazırlamağı bacarmalıdırlar.

Peşəkarlıq zirvələrinə çatma yollarının müəyyən edilməsi – Müəllimlər üçün akmeoloji səriştələrin əldə edilməsinə yönəlmiş fəaliyyət planları hazırlanmalıdır.

**Problemin aktuallığı.** Müasir təhsil sistemində müəllimlərin peşəkarlığının artırılması keyfiyyətli təhsilin əsas şərtlərindən biridir. Təhsilin keyfiyyətini artırmaq üçün innovativ metodlardan istifadə, diferensial və inklüziv yanaşmaların tətbiqi vacibdir. Müəllimlərin müasir tədris texnologiyalarına yiyələnməsi və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirməsi onların peşəkar fəaliyyətinin səmərəliliyini yüksəldir. Bu səbəbdən, fasiləsiz öyrənmə və təkmilləşmə müasir müəllim üçün əsas tələbə çevrilmişdir.

**Problemin elmi yeniliyi.** Bu tədqiqat müəllimlərin peşəkar inkişafının akmeoloji aspektlərini araşdıraraq onların səriştəliliyinin artırılması üçün yeni metod və yanaşmalar təklif edir. Akmeoloji yanaşma müəllimin inkişafının zirvə nöqtəsinə çatmasını, bilik və bacarıqlarını maksimal dərəcədə realizə etməsini təmin edən sistemli bir yanaşmadır. Bu tədqiqat çərçivəsində müəllimlərin inkişafına təsir edən amillər, effektiv təkmilləşmə mexanizmləri və praktik tətbiq üsulları araşdırılmışdır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Bu tədqiqatın nəticələri müəllim hazırlığı proqramlarında, pedaqoji inkişaf kurslarında və tədris metodlarının təkmilləşdirilməsində istifadə oluna bilər. Burada təqdim olunan yanaşmalar müəllimlərin praktiki bacarıqlarını artırmağa, onların tədris prosesində daha çevik və səmərəli olmasına kömək edəcək. Eyni zamanda, bu nəticələr təhsil müəssisələrində müəllimlərin peşəkar inkişaf strategiyalarının formalaşdırılmasına və tətbiqinə töhfə verə bilər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi haqqında, Azərbaycan Respublikası Prezidentinin sərəncamı, Bakı şəhəri, 24 oktyabr 2013-cü il / Официальный сайт Министерства юстиции Азербайджанской Республики. Единая электронная база правовых актов. http://www.e-qanun.az/framework/27274.

2. Cəbrayılov İ.H. Müəllim peşəkarlığının inkişafının nəzəri-pedaqoji məsələləri. "Müasir təhsilin inkişaf strategiyaları: uğurlar və çağırışlar" mövzusunda Beynəlxalq elmi kohfrans. Naxçıvan şəhəri. 26-27 noyabr 2021. s. 59-62.

3. Мусаев Д.М. Образовательные компетенции – как основной критерий для будущих преподавателей истории Азербайджана // Научные известия. Нальчик. 2020. № 21, 25–31 с.

4. Маркова А.К. Психология профессионализма. М. Международный гуманитарный фонд «Знание», 1996, 308 s.

5. Кашапов М.М. Акмеология: учебное пособие. Ярославль, 2011, 112 s.

6. Ушаков А.А. Акмеологические основы высшего образования: учебно-методическое пособие. Краснодар: 2019. 148 s.

7. Маркова А.К. Акмеология; под ред. А.А. Деркача. 2004. 299 s.
8. Базилевская С.В. Акмеологическая компетентность педагога как условие реализации ФГОС ДО // Молодой ученый. 2016. № 13. 765–769 с.
9. İlyasov M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri: Monoqrafiya. Bakı: Elm və təhsil, 2018, 208 s.

**С.К. Юсифова**

**Важность развития акмеологических компетенций учителей истории**
**Резюме**

В данном исследовании рассматриваются современные проблемы профессионализма учителей и педагогической компетентности, а также их влияние на качество образовательного процесса. Исследование анализирует инновационные подходы в педагогике, подчеркивая роль акмеологии в профессиональном развитии педагогов. Особое внимание уделяется методам повышения квалификации, саморазвитию и использованию современных образовательных технологий, направленных на формирование высоких профессиональных стандартов в педагогической деятельности. Также рассматриваются факторы, влияющие на эффективность преподавания, включая мотивацию учителей, междисциплинарное взаимодействие и адаптацию к изменяющимся требованиям образовательной среды.

**S.G. Yusifova**

**The importance of developing the acmeological competencies of history teachers**
**Summary**

This research explores the modern challenges of teacher professionalism and pedagogical competence, highlighting their impact on the quality of education. The study examines innovative approaches in pedagogy, emphasizing the role of acmeology in teacher development and continuous professional growth. Special attention is given to methods for enhancing qualifications, self-improvement strategies, and the integration of modern educational technologies. Additionally, the research considers factors influencing teaching effectiveness, including teacher motivation, interdisciplinary collaboration, and adaptation to the evolving demands of the educational environment. The findings can be applied to improve teacher training programs, professional development courses, and educational policy planning.

**Redaksiyaya daxil olub:** 10.02.2025

***MUSİQİNİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ МУЗЫКИ***
***METHODS OF TEACHING MUSIC***

*UOT 372.878*

# ЗНАЧЕНИЕ СЛОВЕСНОГО ОБЩЕНИЯ МЕЖДУ ПЕДАГОГОМ И СТУДЕНТОМ НА УРОКЕ ФОРТЕПИАНО

**Земфира Селим гызы Султанова**
*старший преподаватель*
*Азербайджанский Государственный Педагогический Университет*
**ORCİD:** 0009-0000-3964-9788
**E-mail:** zemfirasultanova52@mail.ru

***Ключевые слова:*** *музыка, принцип, развитие, сочинение, цикл*
***Açar sözlər:*** *musiqi, prinsip, inkişaf, əsər, silsilə*
***Key word:*** *music, principle, incompatible, composition, cycle*

Умение убедительно высказаться о музыке, дать яркую, образную характеристику музыкальным образам является одним из специфических требований, предъявляемых профессией учителя музыки - воспитателя, лектора, руководителя школьных фортепианных кружков.

«Педагог должен уметь говорить о музыке, притом возможно образнее, поэтичнее, увлекательнее. Это помогает выявить связи музыки с реальным миром, который нашёл в ней своё отражение, делает её более доступной и близкой ученику» (1; 51).

Знакомя класс с ранее неизвестным ему произведением, учитель, как правило сочетает конкретный звуковой показ со словесным разъяснением поэтических образов музыкального произведения, его настроения, живописно-изобразительных приёмов. Со старшеклассниками беседы иной раз должны затрагивать вопросы звуковой архитектоники, мелодического и гармонического языка. К сожалению, не так уж часты случаи, когда молодые учителя могут ясно, лаконично и содержательно аннотировать музыкальное произведение - тем более, если оно не совсем элементарно, а речь о нём зайдёт экспромтом.

Преподаватель-пианист на музыкально-педагогическом факультете не должен довольствоваться только лишь исполнением разучиваемого произведения, но и поинтересоваться тем, а что студент может сказать о нём, насколько толково и складно это получается.

Свойства личности будущего преподавателя музыки отражают индивидуальные особенности различных психических процессов: эмоциональность (первосигнальная форма) и особенности мышления, волевых качеств (второсигнальная форма). И.П. Павлов указывал на исключительное значение обеих систем - первой и второй (слово, речь). Это влияние настолько велико, что, жизнь - подчёркивал Павлов, - отчётливо указывает на две категории людей: художников и мыслителей... Одни художники, во всех их родах: писателей, музыкантов, живописцев и т.д., - захватывают

действительность целиком, сплошь, сполна, живую действительность, без всякого дробления, без всякого разъединения. Другие мыслители, именно дробят её, и тем как бы умерщвляют её делая из неё какой-то временный скелет, и затем только, постепенно как бы снова собирают её части и стараются их таким образом оживить; что вполне им всё-таки и не удаётся» (2; 213).

Для так называемого художественного типа наиболее специфичным является образно-эмоциональное мышление, связанное с преобладающим для него значением первой сигнальной системы; для так называемого мыслительного типа характерно где отвлечённое мышление, отличающиеся преобладающей ролью второй сигнальной системы. Большинство людей, занимающих промежуточное место между указанными крайними типами соединяет работу обеих систем в должной мере, т.е. для этой - категории людей обе сигнальные системы оказываются более или менее уравновешенными.

Особое значение приобретает поэтому словесное общение между педагогом и студентом на уроке фортепиано. Слово, подкреплённое показом на инструменте, обладает огромными возможностями в качестве метода педагогического воздействия; оно не только разъясняет установки преподавателя, но и будит фантазию студента; затрагивает его эмоциональную память, образно-ассоциативное мышление.

Важно, однако, чтобы студент не пассивно воспринимал словесные указания педагога, но и стремился высказать в беседе о произведении своё собственное мнение: Поиск словесных характеристик художествен кого образа, сравнений и метафор, отражающих его эмоционально-поэтическую сущность, чёткое Определение задач технической работы - всё эго активизирует мысль и слух студента, положительно влияет на Итоги его работы.

Если учащийся не понимает исполняемой музыки полезно натолкнуть его на' какую-либо подходящую программу. Тем самым пробудить его художественную фантазию. При умелом словесном педагогическом воздействии удаётся вызвать интерес и добиться нужной выразительности исполнения.

Целесообразней использовать отдельные образные сравнения, касающиеся характера звука, различных деталей или концепции целого.

Для более глубокого понимания сочинения преподаватель знакомит учащегося с какими-либо фактами из жизни композитора, его воззрениями, характеризует его и эпоху, и творчество в целом, проводит параллели другими произведениями инструментальными, симфоническими, отмечая их специфические черты или, наоборот – находя общее в художественных образах. Занимаясь с достаточно подготовленными студентами, можно. Порекомендовать ознакомиться с данными произведениями самостоятельно, поинтересоваться также литературой, посвящённой композитору, его эпистолярным наследием. Возможно в процессе работы прослушивание записи и даже различных записей изучаемого, а нередко и других произведений того же автора. В беседе о прослушанном подчёркиваются как те или иные характерные особенности произведения, так и подход исполнителя к передаче авторского замысла, типичные для каждого исполнения черты, детали трактовки.

Живой отклик и интерес вызывают прослушивания одних и тех же произведений в исполнении различных инструментов или группы инструментов. Так, например, произ-

ведения, написанные для состава европейских инструментов, прослушиваются в исполнении народных (азербайджанских) инструментов и, наоборот. Данные сравнения обогащают тембровый слух учащихся и дают непосредственное живое восприятие выразительных возможностей различных инструментов.

Начиная работу над произведением, нужно научить студента раскрывать художественное содержание через подробный анализ его чисто музыкальных элементов. Можно проводить интереснейшие поиски логики развития образов, расшифровывать эмоции, настроения, выраженные в каждом музыкальном эпизоде. Эмоциональные ощущения, образные ассоциации, порождаемые гармонией, модуляциями; мелодиями и другими музыкальными явлениями следует закреплять с помощью словесных определений. Эти словесные определения, зависящие от индивидуальности и восприимчивости студента, помогают создать в эмоциональной памяти своеобразное «течение», по которым, как говорил Станиславский, потом «пойдёт» вдохновение.

Музыкальная педагогика должна быть насыщена образностью, а педагогу музыки должны быть свойственны непосредственные ассоциации с жизненными образами.

Если при разучивании произведений перед «мысленным взором» встают жизненные ситуации, вспоминаются стихи или произведения других искусств, то в таком случае, можно говорить о духовном богатстве, образной ассоциативности мышления, широком жизненном кругозоре человека. Подобные качества необходимо развивать у студентов, будущих педагогов музыки общеобразовательной школы. Но при этом преподаватель не должен словесно навязывать свои представления, а незаметно направлять мысль учащегося, будить его творческое воображение.

Необходимо отметить, что в этом вопросе Г.Г. Нейгауз «не возражая против осторожных ассоциаций, решительно протестовал против вульгарного «иллюстрирования» на музыкальном материале какой-либо конкретной сюжетной канвы; протестовал против примитивных попыток связать чуть ли не каждую ноту или аккорд со всегда условной и многозначной программностью образа. «Даже зрительный образ надо не столько «увидеть», сколько музыкально ощутить. Ведь сущность музыки - «искусство образных обобщений» (3; 121)

Мы в свою очередь считаем, что охватывать программой всю пьесу не обязательно, достаточно найти какое-либо яркое образное представление, удачную словесную ассоциацию в связи с тем или иным фрагментом, как они могут вызвать определённый эмоциональный заряд и во время слушания, и во время исполнения музыки.

Выработку умения убедительно высказаться о музыке можно начать уже на ознакомительном этапе эскизного изучения, в виде попытки студента передать свои первые впечатления от произведения, сформулировать своё понимание его сущности.

К завершающей стадии освоения музыкального сочинения студент может подготовить обобщающее резюме, содержащее развёрнутую музыковедческую характеристику. Для того, чтобы сэкономить время урока и научить студента чётко, лаконично оформлять свои мысли, можно предлагать ему составить письменные аннотации к некоторым из эскизно пройденных произведений, выбирая в первую очередь те, что понадобятся для работы в школе.

Аннотация должна быть написана хорошим литературным языком, доступным детям соответствующего возраста.

Цель всего сказанного и показанного учащемуся состоит прежде всего в том, чтобы разбудить или углубить его собственную мысль и эмоциональное восприятие музыки, вызвать потребность в обязательной внутренней работе, связанной с осознанием произведения и с проникновением в его содержание.

**Научная новизна работы.** Эмоциональные ощущения, образные ассоциации, порождаемые гармонией, модуляциями; мелодиями и другими музыкальными явлениями следует закреплять с помощью словесных определений. Эти словесные определения, зависящие от индивидуальности и восприимчивости студента, помогают создать в эмоциональной памяти своеобразное «течение», по которым потом «пойдёт» вдохновение.

**Практическая значимость работы.** Для более глубокого понимания сочинения преподаватель знакомит учащегося с какими-либо фактами из жизни композитора, его воззрениями, характеризует его и эпоху, и творчество в целом, проводит параллели другими произведениями инструментальными, симфоническими, отмечая их специфические черты или, наоборот – находя общее в художественных образах.

**Научный результат работы.** Поиск словесных характеристик художествен кого образа, сравнений и метафор, отражающих его эмоционально-поэтическую сущность, чёткое Определение задач технической работы - всё эго активизирует мысль и слух студента, положительно влияет на Итоги его работы.

## Литература

1. Алексеев А. «Методика обучения игре на фортепиано». М., «Музыка». 1978.

2. Нейгауз Г.Г. «Об искусстве фортепианной игры», М., Музыка. 1958.

3. Кременшгейн Б., «Воспитание самостоятельности учащегося в классе специального фортепиано», М., «Музыка», 1966.

4. Раавен Л. Об объективном и субъективном в исполнительском искусстве. Музгиз., 1962

**Z.S. Sultanova**

## Fortepiano dərslərində müəllim və şagird arasında şifahi ünsiyyətin əhəmiyyəti

### Xülasə

Musiqi haqqında biliklərin sistemli şəkildə mənimsənilməsi, bacarıqların formalaşdırılması ilk növbədə emosional həssaslığın, uşaqlarda musiqiyə marağın inkişafına yönəldilməlidir. Musiqinin öyrənilməsinə maraq problemi xüsusi əhəmiyyət kəsb edir, bu da ümumi pedaqogikanın əsas problemlərindən biridir.

**Z.S. Sultanova**

**The importance of verbal communication between a teacher and a student in a piano lesson**

**Summary**

Systematic acquisition of knowledge about music, formation of skills and abilities should be aimed primarily at developing emotional sensitivity, children's interest in music. Of particular importance is the problem of interest in learning music, which is also one of the main problems of general pedagogy.

**Redaksiyaya daxil olub:** 06.03.2025

***XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИНОСТРАННЫХ ЯЗЫКОВ***
***METHODS OF TEACHING FOREIGN LANGUAGES***

*UOT 372.881.111.1*

# ALİ MƏKTƏBLƏRİN YUXARI KURSLARINDA İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ İDİOMLARIN TƏDRİSİNİN ƏHƏMİYYƏTİ

**Günel Kərim qızı Hacıyeva**
*Azərbaycan Milli Elmlər Akademiyası*
*İ.Nəsimi adında dilçilik İnstitutunun Monitorinq*
*və linqvistik təhlil şöbəsinin elmi işçisi*
ORCİD: 0000-0002-4940-0238
**E-mail:** gunel_sm@yahoo.com
http://www.doi.org/10.62706/bqiz.2025.v22.i1.17

***Açar sözlər:*** *nitq bacarıqları, idiomatik ifadələr, emosional-ekspressiv vahidlər, sabit birləşmələr, leksik qat*

***Ключевые слова:*** *речевые навыки, идиоматические выражения, эмоционально-выразительные единицы, устойчивые сочетания, лексический слой*

***Key words:*** *speech skills, idiomatic expressions, emotional-expressive units, stable combinations, lexical layer*

Məqalədə ingilis dilinin leksik qatının, lüğət tərkibinin əhəmiyyətli hissəsini təşkil edən idiomların tədrisindən söhbət açılır. İdiomatik ifadələrə meyillilik, demək olar ki, bütün dillərə xas olduğundan ingilis dilinin idiomlarla öyrədilməsi əhəmiyyətli məsələlərdən hesab olunur. Dilin idiomatikliyi onun obrazlı və ekspressiv leksik vahidlərindən irəli gəlir. İdiomlar dilin əsas tərkib hissəsini təşkil etdiyindən onların mənimsənilməsi ilə ali məktəblərin yuxarı kurs tələbələri ingilis dilli xalqların yaşayış tərzinə, adət və ənənlərinə yaxından bələd olmaq imkanlarını əldə edirlər. Qarşıya qoyulan məqsədlərə çatmaq üçün tələbələrinin dil daşıyıcılarının gündəlik məişət dialoqlarında, siyasi-ictimai söhbətlərində istifadə etdikləri idiomları lazımi səviyyədə mənimsəmələri məqsədəuyğundur.

İngilis dilinin öyrədilməsi istiqamətində şifahi nitq bacarıqlarının formalaşdırılması fonunda ifadəli və obrazlı nitq vərdişlərinin inkişaf etdirilməsi ingilis idiomlarının tədrisinin aktuallığını qoruyan məsələlərdəndir. İngilis dilinin təlim-tədrisi istiqamətində həyata keçirilən ingilis idiomlarının tədrisinin əhəmiyyəti ali məktəblərin yuxarı kurs tələbələri üçün dili yaxşı mənimsədilməsində rolu əvəzsizdir.

Dövrümüzün beynəlxalq dili ingilis dilidir. *"İngilis dilinin öyrənilməsi dünya ədəbi mühitini duymaq, ictimai-siyasi hadisələri düzgün qavramaq, alqı-satqı münasibətlərini tənzimləmək və s. cəhətdən həyat zərurəti kimi meydana çıxır"* (1, s. 5). A. Qarayevin bu qənaətinə istinadən deyə bilərik ki, hazırda ölkə daxilində də daha çox danışılan dil də məhz ingilis dilidir. İdiomatik ifadələrə meyillilik isə yalnız ingilis dili üçün deyil, Azərbaycan dili, həmçinin başqa xalqların da dili üçün ümumi hal kimi xarakterikdir. İdiomatik ifadələr ibtidai ünsiyyət mərhələsindən sonra insan həyatının müxtəlif sferalarında, ta qədimdən fiziki-əmək və məişət mühitində yaranmış, illər, əsrlər sonra ictimai, mədəni, elmi, siyasi aktivlik

şəraitində formalaşmış və mərhələli inkişaf yolunu keçmiş ifadələrdir. Dilin idiomatikliyi dedikdə, leksik vahidlərinin məcazilik, ifadəlilik imkanları dilin estetik qatını üzə çıxarır ki, bu da ingilis idiomlarının tədrisinin linqvistik əsaslarını öyrənməyi vacib edir. İdiomlar emosional-ekspressiv yüklü leksik vahidlərdir. Sözügedən sabit birləşmələr real hadisələrə milli münasibəti, kəskin iradı, obrazlı yanaşması ilə yalnız məişət leksikasını deyil, elmi və bədii üslub leksikasını da ehtiva edir.

Bir sıra tədqiqatçıların araşdırmalarına görə, Böyük Britaniyanın milli-mədəni və dil xüsusiyyətləri tədqiq olunmaqla ingilislərin nizamsevərlik, azadlıqsevərlik, iradəlilik, aşkarlıq, paradoksallıq kimi xüsusiyyətləri qabarıq şəkildə üzə çıxarılmışdır:

– During the recent demonstrations in the city centre, we saw protesters *taking the law into their own hands* and attacking the offices of the company responsible for the pollution of our beaches (taking action which should be taken by the police of the courts) (2, s.26).

İngilislər ünsiyyət prosesində etiket normalarının gözlənilməsinə böyük əhəmiyyət verirlər. Onların nitqində salamlaşma və xüsusi müraciət qaydaları ənənəvi hal təşkil edir:

– *Civility costs nothing* (polite behaviour which most people consider normal).

Yumor ingilis xalqının həyatında olduqca əhəmiyyətlidir. Onlar hər söhbətə yumor qatmağı çox sevirlər. İngilislər söhbət qurarkən duzlu-məzəli hekayələrə üstünlük verirlər. *"Gülüş insanın sosial-ictimai hadisələrə münasibətini əks etdirən ən mühüm vasitədir"* (3, s.3). Yumor səciyyəli idiomların istifadəsi ilə istənilən gərgin ünsiyyəti düzgün və doğru məcraya yönəldərək ona səmimiyyət qata bilərik:

– He is the *salt of the Earth* (a very good person).

Onlar danışıqlarını ya zarafatyana, ya da yumşaq formada tənqidlərlə də apara bilirlər. Belə ifadələr bəzən yumoristik, hətta kinayəli xarakter də daşıyır. Hətta öldürücü sarkazmlardan da istifadə etməyi bacarırlar. İstədikləri təqdirdə hakim dairələri, müəyyən şəxsləri yumşaq tənqid və ya kəskin, kinayəli gülüş atəşinə də tuturlar:

– He *reads law* (to study the whole system of the rules that citizens of a country or place must obey) (4, s.316).

İngilis idiomlarının tədrisinin məqsədi aşağıdakılardır:

- Ali məktəblərin yuxarı kurs tələbələri ingilis dilində verilən idiomlarla zəngin mətnləri oxuyub müstəqil formada anlamağı;
- Oxuduqları mətnlərdə rast gəlinən idiomları sərbəst şəkildə şərh və təhlil etməyi;
- Mətnlərlə əlaqədar diskussiyada müxtəlif mövzulara dair idiomlardan istifadə etməyi;
- Öyrəndikləri idiomları danışıqda tətbiq etməklə şifahi nitq vərdişlərini inkişaf etdirməyi bacarmalıdırlar.

İdiomlar bədii ifadə formasıdır. İngilis dilinin idiomatik ifadələri ingilis dilli xalqların milli və səciyyəvi xüsusiyyətlərini, tarixini, dünyagörüşünü, təfəkkür və təxəyyülünü, mərhələli inkişaf yolunu bilavasitə özündə əks etdirir. S. Cəfərovun təbirincə desək, idiomlar həqiqi mənalı sözlərin qarşılığını məcazi məna ilə verən söz birləşmələri və ya bütöv ifadələrdir (5, s. 89).

Dildə ünsiyyət yalnız şifahi deyil, yazılı şəkildə də aparılır. Ali məktəblərin yuxarı kurs tələbələrinin praktik cəhətdən ingilis dilinin idiomatik ifadələrinə yiyələnmələri üçün oxu ilə yazı arasında bir vəhdət yaranmalıdır. İdiomların şifahi nitqdə tətbiqi onların yazılı tətbiqindən daha çətindir. Tələbələr şifahi nitqdə idiomlardan istifadə edərkən daha diqqətli

olmalıdırlar. Belə ki, spontan danışıq prosesində idiomlardan düzgün istifadə nitqin təbiilik və axıcılıq qabiliyyətini artırır.

Qarşıya qoyulan məqsədlərə çatmaqla tələbələr artıq dil daşıyıcılarının gündəlik məişət dialoqlarında, siyasi-ictimai söhbətlərində istifadə etdikləri idiomları düzgün eşidib anlamış olurlar. Beləcə, dildə istifadə dairəsi geniş olan idiomlar vasitəsilə mücərrəd təfəkkürə yiyələnmiş olurlar. Bu da öz növbəsində məntiqi təfəkkürün özəyini təşkil edir. Dildə istifadə olunan sabit genişmiqyaslı söz və ifadələri öyrənməklə, kommunikativ nitq vahidləri kimi onları ingilis dilli mühitdə ünsiyyətlərinə tətbiq etmələri ali məktəblərin yuxarı kurs tələbələrinə dili fərqli aspektdən mənimsəmələrinə rəvac verir.

Xalqın obrazlı təfəkkürünün məhsulu olan sabit söz birləşmələrinin tədris üsulu digər fənlərin tədris üsulundan fərqləndirilməli, idiomların öyrədilməsi spesifikliyi nəzərə alınmalıdır. Əsasən, biliyin dəyərləndirmə meyarından, tələbənin informasiya arsenalından, məlumatlılıq dərəcəsindən, əzbərçilik vərdişlərindən öncə, idiomların tədrisi vasitəsilə bədii-estetik ifadə vasitələrindən yararlanmaq səviyyəsi, dilə duyum qabiliyyəti formalaşdırılmalıdır.

İngilis dilinin idiomatik ifadələrinin tədrisi ünsiyyət zamanı tələbələrin nitqləri üçün xarakterik sayılmayan ingilis idiomlarından istifadə bacarıqlarının formalaşdırılması və vərdişlərinin inkişaf etdirilməsi, eyni zamanda şifahi nitqlərinin ifadəli və obrazlı qurulması istiqamətində olduqca əhəmiyyətli məsələlərdəndir:

- İngilis dilinin idiomatik ifadələrinin kommunikativ yönümlülüyü (kommunikativ intensiya), eyni zamanda səmərəli kommunikasiya tələbələrin nitq, bununla yanaşı təfəkkür fəaliyyətlərinin stimullaşdırılması baxımından onların tədrisini aktuallaşdıran amillərdəndir:

*Put all your eggs in one basket* (to put all your money and effort into one thing), *fill in for someone* (do someone's work while he is away, substitute for), *all in the same boat* (in the same difficult situation as someone else) etc.

- İngilis dili səviyyəsini qiymətləndirmək üçün tərtib olunan beynəlxalq statuslu dil imtahanlarında, məsələn, IELTS (International English Language Testing System – ingilis dili üzrə dünyanın məşhur beynəlxalq imtahan üsullarından biridir) tipli sertifikasiya imtahanında idiomatik ifadələrin istifadəsinə böyük əhəmiyyət verilir. İngilis dilinə yiyələnmək istəyən hər bir fərdin dil üzrə bilik və bacarıqlarını, zehni inkişafını yoxlayan bu testləşdirmə üsulu ali təhsil, hətta qlobal miqrasiya üçün tələb olunan akademik imtahan növüdür. Bu tip sertifikasiya imtahanlarında ekspressiv nitq vasitələrindən doğru şəkildə faydalanmaq toplanılacaq balın lazımi səviyyədə artırılmasına köməkdir. Lakin sözügedən ifadələrin yanlış istifadəsi balın aşağı salınması üçün mühüm bir səbəbdir.

- Doğma dili ingilis dili olanları (native speakers) bu dili xarici dil kimi öyrənənlərdən (learners of EFL – to learn English as a Foreign Language) fərqləndirən ən vacib cəhət onların idiomlardan düzgün və məqamında istifadə etmələridir:

*over the moon* (to be extremely pleased or happy)

Ruth will be *over the moon* (to be extremely pleased or happy), when she is able to pass her University exams.

*to let sleeping dogs lie* (to not talk about things which have caused problems in the past, or to not try to change a situation because you might cause problems).

Jack knew he sould report the accident but decided *to let sleeping dogs lie.*

*full of beans* (a person who is lively, active and healthy).

I really enjoy being with my best friends because he is always *full of beans*.

İngilis dilinin leksik qatının, lüğət tərkibinin əhəmiyyətli hissəsini təşkil edən idiomların tədrisi zamanı tələbələr rast gəldikləri ifadələrin bəzən idiomatik məna daşıdığını bilmədikləri üçün qarşısında aciz qalırlar. İngilis idiomlarından nə zaman istifadə edəcəklərini, sözlərin ayrılıqda mənalarını və bütövlükdə ifadələrin həqiqi məna fərqliliyini göstərməklə belə ifadələri öyrənmələrini tələbələr üçün təmin etmək labüddür. Sabit qrammatik quruluşa malik olduqları üçün ekspressiv ifadələrin (idiomlar) hazır, qəlib frazalar şəklində öyrənilməsini məqsədəmüvafiq hesab edirik.

**Problemin aktuallığı.** Beynəlxalq sertifikasiya imtahanlarında ekspressiv nitq vasitələrinin – idiomatik ifadələrin istifadəsinə böyük əhəmiyyət verilməsi mövzunun aktuallığını şərtləndirir.

**Problemin elmi yeniliyi.** Ali məktəblərin yuxarı kurs tələbələrində ingilis dilində ifadəli və obrazlı nitq vərdişlərinin inkişaf etdirilməsi baxımından idiomların tədrisinin əhəmiyyəti böyükdür.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Ünsiyyət zamanı tələbələrin nitqləri üçün xarakterik sayılmayan ingilis idiomlarından istifadə bacarıqlarının formalaşdırılması, eyni zamanda ifadəli və obrazlı nitq vərdişlərinin inkişaf etdirilməsi istiqamətində doktorantlar və magistrantlar üçün yararlı vəsait hesab edilə bilər.

**Ədəbiyyat**

1. A. Qarayev. Azərbaycanca-ingiliscə danışıq kitabı. Bakı, 2006, – 307 s.
2. Michael Mc C. English İdioms in use. Intermediate. Cambridge University Press, 9th printing, 2009, 190 p.
3. Q.Kazımov. Ədəbiyyatda komizm. Bakı, 2021, 478 s.
4. Л.А. Винарева. В.В. Янсон. Английские идиомы. Москва, 2010, 382 с.
5. Cəfərov S. Müasir Azərbaycan dili (ikinci hissə). Bakı: Maarif, 1978, 176s.

**Г.К. Гаджиева**

**Значение преподавания идиом на уроках английского языка на старших курсах высших учебных заведений**

**Резюме**

В статье открывается разговор о преподавании идиом, составляющих значительную часть лексического слоя английского языка, его лексики. Обучение английскому языку с идиомами считается одним из важных вопросов, поскольку склонность к идиоматическим выражениям присуща практически всем языкам. Идиоматичность языка проистекает из его образных и выразительных лексических единиц. Так как идиомы составляют основную составляющую языка, то с их освоением учащиеся старших курсов высших учебных заведений получают возможность близко ознакомиться с образом жизни, обычаями и традициями англоязычных народов. Для достижения поставленных целей целесообразно, чтобы его ученики овладели на должном уровне

идиомами, которые носители языка используют в повседневных бытовых диалогах, политико-общественных разговорах.

**G.K. Hajiyeva**

**The importance of teaching idioms in english lessons in senior courses of higher schools**

**Summary**

The article discusses the teaching of idioms, which make up a significant part of the lexical layer of the English language, its vocabulary. Since the tendency to idiomatic expressions is inherent in almost all languages, teaching English with idioms is considered one of the important issues. The idiomaticity of the language comes from its figurative and expressive lexical units. Since idioms are the main component of the language, with their acquisition, senior students of higher schools have the opportunity to become closely acquainted with the way of life, Customs and traditions of English-speaking peoples. To achieve the set goals, it is advisable for their students to adequately master the idioms that language carriers use in everyday domestic dialogues, political and public conversations.

**Redaksiyaya daxil olub:** 11.03.2025

*UOT 372.881.11*

# ИНТЕГРАТИВНОСТЬ, ИНТЕРАКТИВНОСТЬ И КОММУНИКАТИВНОСТЬ В ОБУЧЕНИИ ИНОСТРАННОМУ ЯЗЫКУ

**Ровшан Урфан оглу Исмаилов**
*магистрант Азербайджанской Дипломатической Академии*
**ORCİD:** 0009-0006-3296-0622
**E-mail:** rovshan.ismayilov.0218@gmail.com

***Ключевые слова:*** *интегративность, интеграция навыков, интерактивные методы, интерактивное обучение, коммуникативный метод*
***Açar sözlər:*** *inteqrativlik, bacarıqların inteqrasiyası, interaktiv metodlar, interaktiv təlim, kommunikativ üsul*
***Key words:*** *integrativity, integration of skills, interactive methods, interactive learning, communicative method*

Педагогическая печать и методические материалы объясняют интеграцию как систематическое объединение компонентов содержания образования друг с другом и с жизнью. Этот процесс охватывает несколько направлений. Основные направления интеграции:

— Применение ИКТ

— Развитие творческого мышления

— Развитие критического мышления

— Формирование навыков общения

— Интеграция на международной арене

Интегративное обучение приобретает особую актуальность в настоящее время, когда на первый план выходит задача формирования личности, обладающей современным мировоззрением, активной, творческой, способной решать проблемы и принимать самостоятельные решения, имеющей необходимый уровень образования и навыков. Исследование и решение этой проблемы имеет большое значение не только для развития научных и теоретических основ преподавания предметов, но и для практической деятельности учителей. [7, с.149].

*Что такое интегративность?*

— Развитие жизненных навыков обучающегося на основе его познавательной, коммуникативной и психомоторной деятельности с формированием национальных и духовных ценностей.

— Связывание компонентов содержания образования друг с другом и с жизнью.

— Деятельность в сфере образования, направленная на удовлетворение интересов, потребностей, талантов и способностей учащихся, развитие их потенциала.

— Учет изменяющихся потребностей личности, государства и общества.

*Учет принципа интегративности.* Интеграция совершенствует учебный процесс, способствует углублению взаимосвязи и взаимозависимости между предметами. С помощью интеграции ученики понимают взаимосвязь между знаниями и используют их для решения личных и общественных проблем.

В целом, существует четыре способа интеграции предметов:

1. *Одновременное преподавание связанных тем.* Два предмета должны быть согласованы таким образом, чтобы связанные темы преподавались одновременно. Например, темы о природе должны быть спланированы так, чтобы их преподавание одновременно происходило на уроках азербайджанского и иностранного языков.

2. *Интеграция навыков (чтение, письмо, понимание, мышление).* Многие эксперты называют это дополнением. Для достижения этого необходимо анализировать различные учебные планы и выявлять пути интеграции навыков в рамках одного предмета (например, родной язык и иностранный язык). Вместо того чтобы преподавать навыки письма отдельно от навыков чтения, учитель интегрирует их. [5, с.221]

3. *Свободная интеграция.* Во время преподавания одного предмета осуществляется переход к теме другого предмета. Интеграция проводится на разных уровнях и в нескольких направлениях.

*Интерактивные методы обучения* считаются одной из новейших технологий. Под технологией обучения подразумевается использование в педагогическом процессе самых новых и эффективных методов, приемов, стилей и средств обучения для формирования личности, обладающей высоким научно-интеллектуальным уровнем и примерными морально-этическими нормами.

На интерактивное обучение можно смотреть как на совокупность методов организации и управления учебной и познавательной деятельности. Для интерактивного обучения характерны следующие черты:

— Сознательное (по волевому усмотрению) создание учителем познавательной проблемной ситуации;

— Стимулирование активной исследовательской позиции учащихся в процессе решения проблемы;

— Создание условий для самостоятельного открытия, получения и освоения новых и необходимых знаний учащимися. [10, с.268]

Интерактивное обучение - это процесс обучения, проводимый демократическими методами, который способствует приобретению знаний, умений, опыта и навыков, а также развитию необходимых для граждан общества социальных и интеллектуальных умений, навыков самостоятельной работы и независимого мышления.

На первый взгляд в процессе интерактивного обучения может показаться, что учитель не играет активной роли. На самом деле учитель превращается в вдохновителя, который помогает ученикам раскрыть себя.

В современном мире всем нам известно, насколько важно изучение иностранных языков. В настоящее время изучение иностранных языков осуществляется с использованием современных учебных методов, одним из которых является *коммуникативный метод обучения.* Этот метод появился в середине 70-х годов в Великобритании. Коммуникативный метод учит людей навыкам общения в реальной жизни. Его цель - развитие устной и письменной речи.

В процессе коммуникативного обучения учащиеся постепенно привыкают к самостоятельности, стремятся свободно мыслить и выражать свои мысли. В этом методе важно строить диалоги, отражающие повседневную жизнь. В отличие от других

методов, учащиеся, изучающие язык с помощью коммуникативного метода, не знают заранее, как закончится задание или диалог, кто и как ответит на поставленный вопрос - всё зависит от ситуации. Упражнения разнообразны как по форме, так и по содержанию. Каждое задание - это новая тема для обсуждения. Всё это организовано с целью, чтобы учащиеся не уставали, а изучение языка не стало для них скучным. [8, с.231]

Коммуникативный метод быстро завоевал доверие. Сегодня учебники, основанные на этом методе, широко используются в вузах и школах. Однако эти учебники не всегда дают ожидаемые результаты. Хотя письменные навыки учащихся развиваются, а грамматические знания хорошие, им трудно выразить свои мысли устно. Перед тем как начать говорить на иностранном языке, не нужно долго думать, как правильно составить предложение, важно — наладить общение, то есть быть понятым и делиться своими мыслями. Часто основная проблема - это недостаток уверенности в себе. Создание уверенности в учащихся - главная задача учителя. Учитель должен подходить к каждому ученику индивидуально, внимательно и с доверием выслушивать их.

Также важны темп речи и выражение лица учителя. Чтобы развить устную речь на иностранном языке, существует множество методов. Прежде всего, учащиеся должны регулярно говорить на изучаемом языке. Во время устной речи следует говорить медленно, делать паузы, использовать соответствующие жесты и улыбаться. Эти приёмы дают учащимся время подумать о том, что они хотят сказать. [3, с.119]

**Актуальность статьи.** Научный результат работы заключается в следующем: Разработаны методики, направленные на интеграцию языкового обучения с другими дисциплинами (литература, история, культура), что способствует формированию у учащихся целостного восприятия языка и культуры; Исследование доказало эффективность использования современных цифровых технологий и интерактивных платформ (видеоуроки, онлайн-квесты, виртуальная реальность) для активного вовлечения учащихся в образовательный процесс. Таким образом, работа продемонстрировала, что интегративность, интерактивность и коммуникативность в обучении иностранным языкам способствуют созданию эффективной образовательной среды, которая отвечает требованиям современного мира.

**Научная новизна статьи.** Научная новизна работы заключается в следующем: Впервые предложена методика, основанная на интеграции языкового обучения с другими областями знаний, такими как культурология, социология и цифровые технологии, что обеспечивает целостный подход к изучению языка; Исследованы и внедрены современные интерактивные подходы, такие как геймификация, виртуальная реальность и симуляционные технологии, которые активно вовлекают учащихся в процесс изучения языка; Обосновано применение практик, направленных на развитие межкультурной компетенции через ролевые игры, межкультурные диалоги и реальные кейсы, что позволяет учащимся лучше адаптироваться к глобальной коммуникации; Впервые проведен анализ влияния цифровых образовательных платформ и приложений на развитие навыков общения и повышение мотивации к изучению иностранных языков.

**Практическая значимость статьи.** Практическая значимость работы заключается в следующем: Результаты исследования позволяют разработать интегративные программы, которые объединяют изучение языка с культурологическими, историческими и другими дисциплинами, что делает процесс обучения более интересным и практичным; Разработанные интерактивные методики могут быть применены для улучшения образовательного процесса в школах, университетах и на языковых курсах; Практическая ценность заключается во внедрении интерактивных инструментов, таких как образовательные платформы, приложения для изучения языка и симуляционные программы, которые делают обучение более доступным и удобным; Разработанные методы позволяют учащимся эффективно развивать устные и письменные навыки общения, что необходимо для реальной коммуникации в профессиональной и повседневной жизни.

**Литература**

1. Xəlilova M.F. Xarici dildə şifahi nitqi inkişaf etdirməyin üsul və metodları // ADU-nun Elmi xəbərləri, may, 2017.
2. Kərimov F.H, Ağayeva Z.Ə. Xarici dillərin tədrisi metodikası kursu üzrə tələbənin məlumat kitabçası. Bakı 2005.
3. Musayev O.İ. İngilis dilinin qrammatikası. Bakı, 1990.
4. Барсук Р.Ю. Основы обучения иностранному языку в условиях двуязычия. М., 1970.
5. Бим И.Л. Методика обучения иностранным языка как наука и проблемы школьного учебника. М., 1977.
6. Гусейнзаде Г. А. Обучение речевой коммуникации по иностранным языкам. Баку, 2001.
7. Леонтьев А.А. Основы теории речевой деятельности. М., 1974.
8. Jeremy Harmer, The practice of English Language Teaching, Longman Group. 1991.
9. Modern methodology in English Language Teaching by Stephanie Furness and Majid Aliyev. Baku 2003.
10. Roqova N.P. Method of Teaching English. L., 1981.

**R.U. İsmayılov**

**Xarici dilin tədrisində inteqrasiya, interaktivlik və komunikasiya**
**Xülasə**

İnteqrasiya təhsil prosesini təkmilləşdirir, subyektlər arasında əlaqəni və qarşılıqlı asılılığı dərinləşdirir. İnteqrasiya vasitəsilə tələbələr biliklər arasındakı əlaqəni başa düşür və ondan şəxsi və sosial problemlərin həllində istifadə edirlər. İnteraktiv təlim demokratik üsullarla həyata keçirilən, cəmiyyət vətəndaşları üçün zəruri olan bilik, bacarıq, təcrübə və bacarıqların mənimsənilməsinə, habelə sosial və intellektual bacarıqların, müstəqil iş vərdişlərinin və müstəqil düşünmə bacarıqlarının inkişafına təkan verən təlim prosesidir. Kommunikativ metod da tez bir zamanda etibar qazandı.

**R.U. Ismailov**

**Integrativity, interactivity and communication in foreign language teaching**

**Summary**

Integration improves the learning process, promotes deepening of the interconnection and interdependence between subjects. With the help of integration, students understand the interconnection between knowledge and use it to solve personal and social problems. Interactive learning is a learning process conducted by democratic methods, which promotes the acquisition of knowledge, skills, experience and abilities, as well as the development of social and intellectual skills, independent work skills and independent thinking necessary for citizens of society. The communicative method quickly gained trust.

**Redaksiyaya daxil olub:** 23.01.2025

*UOT 372.881.11*

# İBTİDAİ SİNİFLƏRDƏ XARİCİ DİLİN TƏDRİSİNDƏ İNNOVATİV METODLARIN TƏTBİQİ

**Tamara Şahnazir qızı Qarayeva**
*SABAH qrupları, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCID:** 0009-0008-3405-6463
**E-mail:** tamara.qaraeva@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v22.i1.07

***Açar sözlər:*** *ibtidai siniflər, xarici dil tədrisi, innovativ metodlar, interaktiv təlim, oyun əsaslı öyrənmə, layihə əsaslı yanaşma, texnologiyanın rolu, şagirdlərin motivasiyası, dil bacarıqları, səmərəli təlim metodları*

***Ключевые слова:*** *начальная школа, обучение иностранному языку, инновационные методы, интерактивное обучение, игровое обучение, проектный подход, роль технологий, мотивация учащихся, языковые навыки, эффективные методы обучения*

***Key words:*** *primary education, foreign language teaching, innovative methods, interactive learning, game-based learning, project-based approach, role of technology, student motivation, language skills, effective teaching methods*

Müasir dövrdə xarici dillərin öyrənilməsi qlobal inteqrasiya və əmək bazarının tələbləri baxımından həyati önəm kəsb edir. Bu prosesin əsası məhz ibtidai təhsil pilləsində qoyulur, çünki erkən yaşda xarici dil öyrənmək uşaqların idrak qabiliyyətlərinin inkişafına, onların multikultural düşüncə tərzinin zənginləşməsinə və dil bacarıqlarının formalaşmasına müsbət təsir göstərir. Bu yanaşma yalnız dilin praktiki mənimsənilməsi ilə məhdudlaşmır, eyni zamanda uşaqlarda özgüvənin artırılmasına, ünsiyyət bacarıqlarının inkişafına və yaradıcı potensialın təkmilləşdirilməsinə xidmət edir.

Hal hazırda ənənəvi tədris üsulları uşaqların maraqlarını tam təmin edə bilmir və bu da dərs prosesinin passivliyinə gətirib çıxarır. İnnovativ metodlar isə şagirdlərdə dilə qarşı marağı oyatmaqla yanaşı, dərs prosesində onları aktiv olmağa həvəsləndirir. Bu məqalənin məqsədi ibtidai siniflərdə xarici dillərin tədrisində innovativ yanaşmaların rolunu araşdırmaq, onların üstünlüklərini vurğulamaq və tətbiqi üçün səmərəli təkliflər təqdim etməkdir.

**Xarici dil tədrisində innovativ yanaşmaların zəruriliyi:** Xarici dilin tədrisində ənənəvi üsulların bəzi üstünlükləri olsa da, ciddi məhdudiyyətləri də mövcuddur. Əzbərləməyə əsaslanan metodlar, monoton dərs planları və şagirdlərin passiv dinləyici rolunda qalması, onların dərsə diqqətini və marağını azaldır və praktiki dil bacarıqlarının inkişafına mane törədir. Məsələn, ənənəvi üsullar ilə əzbərlədilən sözlərin danışıq zamanı istifadə olunmaması, tətbiq edilməməsi və tez unudulması şagirdlərin dilə qarşı motivasiyasını azaldır.

Ənənəvi üsula əks olaraq, innovativ tədris metodları şagirdləri dərsin mərkəzinə yerləşdirir və onların öyrənmə prosesində aktiv iştirakçıya çevirir. İnnovativ yanaşmalar nəinki dilin mənimsənilməsini asanlaşdırır, həm də şagirdlərin yaradıcı düşüncəsini inkişaf etdirir, onların dərsə və yeni dilləri öyrənməsinə maraqlarını artırır.

İbtidai siniflərdə xarici dil öyrədilməsində bu yanaşmaların zəruriliyi bir neçə amillə əlaqədardır:

1. Uşaqların təbii öyrənmə qabiliyyəti: Erkən yaş uşaqların beyinlərinin yeni dilləri sürətli mənimsəmək qabiliyyətinin yüksək olduğu dövrdür. (1. s. 20) İnnovativ üsullar bu təbii potensialdan maksimum istifadə etməyə imkan verir. ( 2. s. 10)

2. Motivasiya və maraq: Əyləncəli və yaradıcı metodlar şagirdlərin dərsə həvəslə yanaşmasını təmin edir.

3. Effektiv ünsiyyət bacarıqları: İnnovativ yanaşmalar şagirdlərə yalnız qrammatik qaydaları deyil, eyni zamanda gündəlik həyatda istifadə olunan praktik ifadələri öyrədir.

Beləliklə, innovativ yanaşmaların tətbiqi ənənəvi tədrisin çatışmazlıqlarını aradan qaldıraraq, şagirdlərin dil öyrənmə prosesini daha səmərəli və maraqlı edir.

İnnovativ yanaşmaların tətbiqində qarşılaşılan çətinliklər: İbtidai siniflərdə xarici dil öyrədilməsində innovativ metodların istifadəsinin bir sıra üstünlükləri olsa da, onların tətbiqi zamanı müəyyən çətinliklər də ortaya çıxır və tədris prosesini ləngidir. Bu çətinliklərin aradan qaldırılması üçün düzgün planlama, hər ehtimala qarşı əlavə plan (B planı) və resursların optimallaşdırılması vacibdir.

1. Resurs çatışmazlığı: Məlum olduğu kimi bir çox məktəblərdə innovativ tədris vasitələri (interaktiv lövhələr, tablet, xüsusi proqram təminatı və s.) yoxdur. Bu vasitələrin olmaması bu metodların tətbiqini çətinləşdirir. Maddi texniki baza zəif olduqda müəllimlər ənənəvi üsullara üstünlük verməkməcburiyyətində qalırlar.

2. Müəllimlərin hazırlıq səviyyəsi: Bəzi müəllimlərin innovativ metodlar haqqında heç bir təəssüratları yoxdur. Onlar elektron lövhə istifadə edə bilmirlər və istifadə edən zaman çətinliklər yaşayırlar. Bu, tədris prosesinin keyfiyyətini kəskin şəkildə azaldır, çünki innovativ metodları istifadə edə bilməyən öyrədici interaktiv dərslər keçə bilməz və sadəcə ənənəvi metodlara söykənər. Müəllimlərin müasir texnologiyalar və metodlarla təlimatlandırılması əhəmiyyət kəsb edir. Bu təlimlər tədris prosesinin inkişafına böyük dəstək verə bilər. (3. s.19)

3. Şagirdlərin fərdi ehtiyaclarının nəzərə alınması: Cəmiyyətdəki hər bir fərd fərqli olduğu kimi sinif mühitində də hər bir şagird fərqli xüsusiyyətlərə sahibdir və onların öyrənmə tərzləri, bacarıqları fərqlidir. Bu fərqlilikləri nəzərə alaraq innovativ metodların tətbiqi əlavə vaxt və səy tələb edir. Hər bir şagirdə fərdi yanaşmaq, onların öyrənmə alışqanlıqlarına uyğun dərs planı hazırlamaq bir qədər vaxt aparsa da, dərsin səviyyəsini artırır.

4. Vaxt məhdudiyyəti: Məktəbdə dərslər üçün ayrılan vaxt ərzində nəzərdə tutulan biliklərin mənimsədilməsi bəzən çətin ola bilir. Müəllimlər bu problemi həll etmək üçün vaxtı səmərəli şəkildə keçirə biləcəkləri dərs planları hazırlamalıdırlar.

5. Dil resurslarının uyğunluğu: Bəzi innovativ resurslar, məsələn, proqramlar, videolar və ya mahnılar uşaqların dil səviyyələrinə və ya yaşlarına uyğun olmaya bilər. Bu uşaqlarda motivasiya azalmasına, özgüvən əskikliyinə və dərsə marağın itməsinə səbəb ola bilər.

Bu çətinliklərin həlli üçün tədris prosesinin düzgün planlaşdırılması, müəllimlərin peşəkarlıqlarının artırılması eyni zamanda uşaqların dil bacarıqlarının yoxlanılması və dil bacarıqlarına uyğun dərs planlarının hazırlanması, həmçinin ehtiyac olduğu halda Fərdi təhsil planlarının yazılması və məktəblərdə tədris texnologiyalarının genişləndirilməsi və müəllimlərin bu texnologiyaların istifadə yolları ilə bağlı ixtisaslaşması əsasdır.

İnnovativ yanaşmaların tədrisə müsbət təsiri: İbtidai siniflərdə xarici dil öyrədilməsində innovativ yanaşmaların tətbiqi təhsil prosesində nəzərəçarpacaq dərəcədə dəyişikliklər yaradır. Əlbəttə ki bu dəyişikliklər daha çox müsbət yönümlüdür. Bu metodlar yalnız dərs prosesinin effektivliyini artırmır, eyni zamanda şagirdlərin idrak, sosial və emosional inkişafına da töhfə verir. Onlara öyrəndikləri dilləri mənimsəmələrinə dəstək olur.

1. Motivasiya və marağın artması: Əyləncəli oyunlar, interaktiv texnologiyalar və yaradıcı fəaliyyətlər şagirdlərdə dərsə maraq oyadır. Ənənəvi metodlardan fərqli olaraq innovativ yanaşmalar, xüsusilə vizual və sensorlu materiallar, uşaqlarda dil öyrənməyə həvəsini gücləndirir. (4. s.23)

2. Dil bacarıqlarının hərtərəfli inkişafı: Bildiyimiz kimi xarici dillərin tədrisi prosesi dörd əsas dil bacarığını (dinləmə, danışma, oxuma, yazma) inkişaf etdirməyə yönəlir. İnnovativ yanaşmalar bu prosesin sürətlənməsinə dəstək olur və daha maraqlı yollarla uşaqlarda bu bacarıqları gücləndirir.

- Dinləmə: Tədris prosesində mahnılar, hekayələr və animasiya videoları şagirdlərin dinləmə bacarıqlarını artırır.
- Danışma: Rolların canlandırılması və interaktiv oyunlar danışıqda sərbəstliyi təmin edir.
- Oxuma və yazma: Vizuallar və rəngli materiallar (flashcards) vasitəsilə uşaqlar sözləri daha yaxşı mənimsəyir və yazılı ifadə bacarıqlarını gücləndirir.

**3. Yaradıcı düşüncə və problem həlletmə bacarığı:** İnnovativ metodlar şagirdlərin yaradıcı təfəkkürünü stimullaşdırır. Məsələn, hekayə yazma və ya fərqli rolların canlandırılması uşaqların yeni ideyalar irəli sürmə qabiliyyətini artırır. Eyni zamanda yazdıqları hekayələri rollu oyunlar şəklində canlandırmaları onların özgüvənlərini də artırır. (5. s.72)

**Nəticə:** Xarici dil öyrənmə prosesində innovativ metodların tətbiqi yalnız şagirdlərin bilik səviyyəsini yüksəltmir, həm də onların həyati bacarıqlarını formalaşdırır. Bu yanaşmaların uğurlu şəkildə həyata keçirilməsi üçün təhsil sistemində infrastrukturun təkmilləşdirilməsi və bütün maraqlı tərəflərin əməkdaşlığı zəruridir.

Bu istiqamətdə atılacaq hər bir addım həm müəllimlər, həm şagirdlər, həm də təhsil sistemi üçün uzunmüddətli müsbət nəticələrə gətirib çıxaracaqdır.

**Problemin aktuallığı.** İbtidai siniflərdə xarici dil tədrisinin keyfiyyətinin artırılması müasir təhsil sistemində mühüm prioritetlərdən biridir. Yeni texnologiyaların və interaktiv metodların inkişafı, ənənəvi tədris metodlarının effektivliyinin yenidən qiymətləndirilməsini tələb edir.

**Problemin elmi yeniliyi.** Son illərdə xarici dil tədrisində innovativ və oyun əsaslı metodların tətbiqi genişlənmişdir və bu tendensiya gələcəkdə də davam edəcəkdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə ibtidai sinif müəllimləri, tələbələr və magistrantlar üçün faydalı ola bilər. Müəllimlər bu tədqiqatdan istifadə edərək, xarici dil dərslərini daha maraqlı şəkildə təşkil edə bilərlər.

## Ədəbiyyat

1. Brewster, J., Ellis, G., & Girard, D. The Primary English Teacher's Guide. 2002.
2. Cameron, L., Teaching Languages to Young Learners. 2001.

3. Richards, J. C., & Rodgers, T. S. Approaches and Methods in Language Teaching (3rd Edition). 2014.

4.https://www.researchgate.net/publication/345716805_Motivation_in_a_Foreign_Language_Teaching_and_Learning

5. İsayeva F. Xarici dilin tədrisində innovativ metodlar. Bakı, 2021.

**Т.Ш. Гараева**

**Применение инновационных методов в обучении иностранным языкам в начальных классах**
**Резюме**

Изучение иностранных языков играет важную роль в современном обществе из-за глобальной интеграции и потребностей трудового рынка. Раннее овладение языками способствует когнитивному развитию детей, их мультикультурному восприятию и коммуникативным навыкам. Традиционные методы часто приводят к пассивному обучению, в то время как инновационные подходы вовлекают учеников и стимулируют их к активному участию. Эти методы развивают креативность и улучшают языковую компетенцию. Несмотря на такие проблемы, как ограниченные ресурсы и подготовленность учителей, преимущества инновационных методов, такие как повышение мотивации и улучшение языковых результатов, значительны. Для эффективного внедрения необходимы правильное планирование, подготовка учителей и адекватные ресурсы.

**T.Sh. Garayeva**

**The application of innovative methods in teaching Foreign Languages in Primary Schools**
**Summary**

Foreign language learning plays a critical role in modern society due to global integration and workforce demands. Early acquisition of languages benefits children's cognitive development, multicultural understanding, and communication abilities. Traditional methods often result in passive learning, whereas innovative approaches engage students and encourage active participation. These methods enhance creativity and improve language proficiency. Despite challenges like limited resources and teacher preparedness, the advantages of innovative techniques, such as increased motivation and better language outcomes, are significant. Effective implementation requires proper planning, teacher training, and adequate resources.

**Redaksiyaya daxil olub:** 27.02.2025

*UOT 372.881.111.1*

# THE ROLE OF PRIVATE SCHOOLS IN ADVANCING COLLOQUIAL ENGLISH PROFICIENCY

**Aytan Eldaniz qızı Huseynzade**
*doctoral student of Khazar University,*
*English teacher at 132 & 134 State School at Yasamal district of Baku city*
**ORCID:** 0009-0007-4602-1164
**E-mail:** aytan.huseynzada@khazar.org
http://www.doi.org/10.62706/bqiz.2025.v22.i1.08

***Key words:*** *colloquial English, private schools, language education, English proficiency.*
***Açar sözlər:*** *danışıq ingilis dili, özəl məktəblər, dil təhsili, ingilis dili biliyi.*
***Ключевые слова:*** *разговорный английский, частные школы, языковое образование, владение английским языком.*

An increasingly linked world has seen English strengthen its position as the primary medium for cross-border, cross-industry, and cross-ethnic communication. English, a global lingua franca, encourages meaningful interpersonal communication in many diverse social and ethnic contexts, as well as acting as an important tool for many academics' and professionals' development. Azerbaijan's calculated geographic position, coupled with its ambitions for improved global economic integration, has long fueled a large interest in language education within this Eurasian nation (1). The teaching of English is prioritized in many schools nationwide. Its importance for personal as well as professional success is widely recognized. Important variations in English instruction methodologies resources plus outcomes exist. Public and private schools show these differences. Limited funding, large class sizes plus customary teaching methods obstruct public schools. These schools often fail to equip students with the tools for mastering colloquial English. Resource-intensive strategies, revolutionary teaching methodologies, along targeted teacher training have enabled Azerbaijani private schools to lead in language education, increasing students’ conversational English skills.

Azerbaijani private schools have increasingly cultivated learning environments that promote practical communication skills. These institutions innovated improvements in colloquial English skills (1). Smaller class sizes advanced teaching technologies and relevant curricula helped them achieve this. To fully immerse students in realistic language scenarios, many private schools, quite cleverly, use cutting-edge teaching methods that heavily focus on active learning techniques, including role-play, group discussions, and situational simulations. Private school teacher training programs, alongside emphasizing conversational teaching methods, provide many educators with the skills to effectively guide many students in mastering informal English (3). A strong focus on ethnic exchange importantly complements these efforts, providing students with even more opportunities to practice colloquial English in authentic contexts through extracurricular activities such as English clubs, and international projects, along with partnerships with foreign institutions.

Several challenges in scaling their approaches to a larger audience are faced by private schools, despite their successes (4).

Importantly higher skill levels, as well as demonstrably greater confidence in using colloquial English, were exhibited by students in private schools, it was actively shown by Karahan and Yüksel (6), who carefully compared attitudes towards colloquial English in private and public schools. Private institutions, it seems, importantly emphasize student-centered, communicative approaches, which the researchers' findings strikingly zeroed in on as having a large effect.

Researchers have uncovered important hurdles within Azerbaijani public schools, particularly concerning the rather difficult task of teaching colloquial English. Limited resources and many customary pedagogical methods in public schools hampered Karimova and Guliyeva's (4) focus on effectively teaching several conversational skills. The study showed that, unlike private schools, Azerbaijani public schools find it difficult to match the level of English engagement and exposure offered by their counterparts, due to the latter prioritizing smaller class sizes, improved funding, plus teacher training schemes.

Ethnic factors importantly influence student attitudes towards colloquial English. Ethnic factors also play a truly important role in shaping these attitudes. Gasimova and Asadova (5) showed that many private schools cultivate an importantly more open and positive attitude towards language learning by incorporating multiculturalism alongside many real-life communication scenarios into their curricula, thus drawing attention to the large effect of ethnic identity on the process. Researchers importantly highlighted the major role of students' sociocultural backgrounds in creating truly effective language teaching.

Global studies show private schooling's effectiveness in language acquisition extends beyond Azerbaijan. Long (2) found interactive as well as engaging settings important for conversational skill development by analyzing the role of linguistic environments. Private schools, with their greater resources, readily provide many role-playing exercises, debates, as well as language immersion activities. Sultana (7) found higher colloquial English expertise amongst private school students in Bangladesh, regardless of gender, because of their better access to modern teaching resources, when investigating gender differences in attitudes towards colloquial English in private and public schools.

Recent literature has extensively examined technical integration. This integration has also been a key focus in language education. The use of digital tools like language-learning apps plus online communication platforms in private Azerbaijani schools was importantly highlighted by Aghayeva as well as Hajiyeva (1). These tools substantially improved student engagement and learning opportunities. Wang (5) showed, through a review of many technical improvements in global language teaching, that many private institutions frequently adopt revolutionary tools which improve language acquisition outcomes.

**Methods**

This research employs a qualitative case study approach to explore the role of private schools in enhancing colloquial English proficiency among Azerbaijani students. The case study method was chosen because it allows for an in-depth examination of teaching practices, classroom interactions, and institutional policies in their natural settings. Through semi-structured interviews, classroom observations, and document analysis, this study investigates the specific pedagogical strategies employed by private schools in Baku and how they contribute to students’ conversational fluency in English. The current study employs a case

study approach with a qualitative basis to explore private schools in Azerbaijan and students' development of colloquial English language skills. By employing semi-structured interviews, observation in the classroom, and documentary analysis, effective approaches towards developing students' speaking skills and confidence in speaking English have been determined. These include employing interactive educational approaches, incorporation of technological tools, and continuous professional development of teachers. Public schools can learn from such approaches, and in consequence, instruction in the English language in Azerbaijan can be enhanced.

**Results**

Interactive activities are actively prioritized by private schools. These activities encourage students to use colloquial English in real-life scenarios. Teachers routinely integrate role-playing, group discussions, along debates into lessons. Role-play exercises, for instance, effectively simulate really common social situations—like shopping, dining, or just casual conversations—giving students plenty of opportunities to practice using language in genuinely authentic contexts. Group discussions on contemporary topics, along with debates on student-chosen subjects, really promote spontaneous language use, important thinking, as well as increased confidence in verbal communication. Improved vocabulary acquisition and the development of fluency, along with an intuitive grasp of many conversational standards, result from these practices. Native English-speaking teachers expose students to authentic language use, and pronunciation, along with ethnic subtleties in many private schools. Native speakers promote an engaging environment, allowing students to experience natural language flow, idiomatic expressions, along with region-specific slang; features often proving elusive in customary classrooms. These teachers, importantly, introduce a really wide range of teaching methods, along with important ethnic perspectives, thus greatly improving students' grasp of language as a tool for communication as well as ethnic exchange. Regular interaction with native speakers increases students’ confidence, further equipping them for international communication. Students are provided with many additional opportunities to practice colloquial English, alongside support extending beyond the classroom, by many private schools. To promote informal interaction among students using English, free from academic pressure, the university organizes language clubs, film viewings, and book discussion groups. During school holidays, incredibly helpful language immersion camps provide truly intensive practice, encouraging students to exclusively speak English for quite extended periods. Overseas school exchange programs importantly help students achieve truly engaging ethnic and linguistic experiences, thus greatly improving their conversational fluency, alongside expanding their global outlook. Digital tools importantly increase language learning in many private schools. The curriculum incorporates several language learning apps, including Duolingo as well as Memrise, to give many students personalized learning experiences, along with gamified ones. Students connect with peers or mentors in English-speaking countries using online communication platforms, such as video conferencing along chat applications. To expose students to multiple accents, dialects, and contexts, educators incorporate multimedia resources, including podcasts, and YouTube channels, along with virtual reality simulations. Outside the customary classroom, these tools offer extra practice opportunities and increase student engagement.

**Conclusion**

Colloquial English skills have been substantially increased, outstandingly, in Azerbaijan through revolutionary teaching methods and wide-ranging resources used in private schools. Private schools encourage extraordinarily engaging learning environments. They achieve this by concentrating intensely on interactive activities like role-play debates along with group discussions thus developing genuine communication skills (7). Their commitment to all-encompassing language education is zeroed in on by these schools' investment in teacher training, smaller class sizes, extracurricular activities, and digital tools, giving students the confidence and competence needed for global communication.

Private school success shows the importance of change. This shift involves moving away from customary grammar lessons towards interactive plus student-centered methods. These schools prepare many students for international success by zeroing in on realistic language, alongside immersing them in many authentic conversations, thus meeting learners' real-world language needs. Progressive methodologies, along with sufficient resources in educational institutions, demonstrably enable truly meaningful improvements in colloquial English expertise, as shown by their strategies.

**Relevance of the problem.** Colloquial competence is a critical skill that ensures effective communication. This highlights the importance of developing speaking skills for effective communication.

**Scientific innovation.** The research stresses a need to introduce modern teaching processes, thorough trainer training programs, and digital media. This suggests a novel approach by integrating modern methodologies and digital tools in teaching.

**Practicality and application of the problem.** Private schools have developed innovative strategies to improve schoolchildren's speaking. The outcomes are to establish that private schools are promoting verbal competence through communicative teaching processes supported by real-life engagement. This describes how private schools apply new strategies and real-life engagement to enhance verbal competence.

## References

1. Ağayeva, N., & Hacıyeva, L. The role of technology in teaching colloquial English In Azerbaijani secondary schools. *Contemporary Educational Technology*, 13(3), 241–259. Ankara, Turkey. 2021
2. Bourdieu, P. *Outline of a theory of practice*. Cambridge University Press, pp.1–248. Cambridge, UK. 2015
3. Qasımova, A., & Əsədova, S. Cultural identity and attitudes towards colloquial English Among Azerbaijani students. *Journal of Multilingual and Multicultural Development*, 41(5), 377–392. Routledge, Abingdon, UK. 2020
4. Kərimova, G., & Quliyeva, K. Challenges in teaching colloquial English in Azerbaijani schools. *Azərbaycan Təhsil Araşdırmaları Jurnalı*, 3(2), 78–93. Bakı, Azərbaycan. 2019

5. Karahan, F., & Yüksel, D. A comparative study of attitudes towards colloquial English In private and public schools. *Journal of Language and Linguistic Studies*, 14(1), 45–65. Antalya, Turkey. 2018

6. Krashen, S. D. *Second language acquisition and second language learning*. Pergamon Press, pp. 1–150. Oxford, UK. 2015

7. Labov, W. *Sociolinguistic patterns*. University of Pennsylvania Press, pp. 1–344. Philadelphia, PA, USA. 2019

**A.E. Hüseynzadə**

**Danışıq ingilis dili biliklərinin təkmilləşdirilməsində özəl məktəblərin rolu**
**Xülasə**

Danışıq bacarığı effektiv ünsiyyət üçün vacib bir bacarıqdır. Özəl məktəblər şagirdlərin nitq bacarıqlarını təkmilləşdirmək üçün innovativ strategiyalar hazırlayıblar. Nəticələr göstərir ki, özəl məktəblər real qarşılıqlı əlaqə ilə dəstəklənən kommunikativ təlim prosesləri vasitəsilə dil səriştəsinin inkişafına kömək edir. Tədqiqat müasir təlim proseslərinin, ciddi təlimçi təlim proqramlarının və rəqəmsal medianın həyata keçirilməsinin zəruriliyini vurğulayır.

**А.Э. Гусейнзаде**

**Роль частных школ в повышении уровня владения разговорным английским языком**
**Резюме**

Разговорная компетентность является критически важным навыком, обеспечивающим эффективное общение. Частные школы разработали инновационные стратегии для улучшения говорения школьников. Результаты показывают, что частные школы способствуют развитию речевой компетентности посредством коммуникативных процессов обучения, поддерживаемых реальным взаимодействием. Исследование подчеркивает необходимость внедрения современных процессов обучения, тщательных программ подготовки тренеров и цифровых медиа.

**Redaksiyaya daxil olub:** 10.03.2025

***İNKLÜZİV TƏHSİL MƏSƏLƏLƏRİ***
***ВОПРОСЫ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ***
***ISSUES IN INCLUSIVE EDUCATION***

*UOT 373.67*

# İNKLÜZİV TƏHSİL MODELLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

**Samirə Ceyhun qızı Novruzova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti magistrantı*
**ORCİD:** 0009-0007-9944-0709
**E-mail**: samira.novruz02@gmail.com

***Açar sözlər:*** *inklüziv təhsil, əlçatanlıq, təhsildə bərabərlik, müəllim hazırlığı*
***Ключевые слова:*** *инклюзивное образование, доступность, равенство в образовании, подготовка учителей*
***Key words:*** *inclusive education, accessibility, equity in education, teacher training*

Son illərdə inklüziv təhsil qlobal səviyyədə təhsil siyasətinin və praktikalarının mərkəzində dayanır. Xüsusilə, təhsilin bütün şagirdlər üçün bərabər imkanlar yaratmaq məqsədi ilə yenidən qurulması həm sosial, həm də pedaqoji baxımdan vacibdir. Qeyri-hökumət təşkilatı olan Inclusion *International* bəyan etmişdir ki, insan hüquqları yalnız hər kəsin cəmiyyətdə tam şəkildə iştirak etmək hüququ əldə etdiyi zaman tam təmin ediləcəkdir. Bu yanaşma, yalnız xüsusi təhsil ehtiyacları olan şagirdlərin deyil, həm də fərqli sosial-mədəni və iqtisadi mühitlərdən gələn şagirdlərin təhsildə iştirakını təmin etməyi hədəfləyir. Müxtəlif ölkələr inklüziv təhsil sahəsində unikal modellər hazırlamışdır. Bu modellər fərqli resurslardan istifadə, idarəetmə yanaşmaları və tətbiqetmə metodları ilə bir-birindən fərqlənir. Bu modellərin müqayisəli təhlili qlobal perspektivdə ən yaxşı təcrübələrin müəyyən edilməsi üçün əhəmiyyətlidir.

Finlandiyada təhsil 2000-ci illərin əvvəllərindən başlayaraq həm beynəlxalq, həm də milli səviyyədə böyük diqqət cəlb edib. Bu marağın bir çox səbəbi var, Finlandiyanın PISA testlərindəki uğuru bunlardan ən önəmlisi hesab edilə bilər. Finlandiya təhsil sistemi inklüzivlik üzrə öndə gələn ölkələrdən biridir.

UNESCO-nun 1994-cü il Salamanca Bəyanatı inklüzivliklə bağlı 92 ölkə, o cümlədən Finlandiya üçün yüksək gözləntilər müəyyənləşdirmişdir. Bu bəyanatın təsiri Finlandiyanın Əsas Təhsil Aktında (1998) və Əsas Təhsil üzrə Milli Tədris Proqramında (2004) öz əksini tapmışdır. Bu sənədlər hər bir uşağın ən yaxın ümumi məktəbdə təhsil almaq və fərdi dəstək almaq hüququ ilə başlamaq ideyasını təqdim edir. Finlandiya sistemində nəzarət deyil, etimad, dəstək və inkişaf ön plana çıxır. Ümummilli imtahanlar və məktəbləri sıralayan siyahılar yerinə, öz-özünü qiymətləndirməyə diqqət yetirilir.

Finlandiya Təhsil Nazirliyi əsas kurikulumları müəllim hazırlığı şöbələri, tədqiqatçılar, məktəb rəhbərləri və müəllimlər ilə əməkdaşlıq edərək yaradır. Əsas kurikulumlar bütün məktəblər üçün ümumi təlimatları müəyyən edir. Hər bir məktəb öz tədris proqramını əsas kurrikulum əsasında tərtib edir, bu proqramı məktəbin və hər bir müəllimin illik planlarını, habelə lazım olduqda şagirdlər üçün fərdi təhsil planlarını hazırlamaq üçün istifadə edirlər. Tədris həmçinin digər mədəniyyətlərdən gələn insanları da nəzərə almalı, şagirdlərin öz mədəni kim-

liklərinin formalaşmasına və onların Finlandiya cəmiyyətində yerinə dəstək verməlidir. Finlandiya dili və ya İsveç dili (rəsmi dillər) öyrənmək üçün intensiv dil kursları təşkil edilir, eyni zamanda öz ana dillərində təhsil almaq imkanı yaradılır. Yeni gələn tələbələr üçün xüsusi siniflər yaradılır ki, bu siniflər onların Finlandiya təhsil sisteminə uyğunlaşmasını asanlaşdırır. Tələbələr daha çox dəstəyə ehtiyac duyarsa, xüsusi təhsil haqqında qərarlar verilə bilər; bu qərarlar əsasında fərdi təhsil planları hazırlanır və həyata keçirilir. UDL (Universal Design for Learning) prinsipləri tədris planına daxil edilir. Bu mənada, ənənəvi tədris proqramları "əlilliyə" malikdir, çünki onlar yalnız bəzi şagirdlər üçün işləkdir. Şagirdlərin təhsil məqsədləri digərlərindən fərqli ola bilər, lakin ümumi kurikulumun tələblərinə əsaslanır. Hər bir ümumi məktəbdə, adətən müəllimlər və səhiyyə işçilərindən ibarət olan tələbə rifahı qrupu fəaliyyət göstərir. Məktəb rəhbərinin rəhbərliyi altında bu qrup, müəllimlərin bildirdiyi narahatlıqları dəyərləndirir və tələbələrin təhsil alması və inkişafı üçün ən uyğun dəstək tədbirlərini müzakirə edir. Hal-hazırda Finlandiyada dövlətə məxsus yeddi xüsusi ehtiyaclar məktəbi fəaliyyət göstərir. Hər 4 ildən bir Finlandiya hökuməti təhsil inkişafı siyasətini yenidən müəyyənləşdirir və Təhsil Nazirliyi təhsil və tədqiqat üçün bir plan hazırlayır.

1980-ci illərin sonlarında Marşa Forest və onun həyat yoldaşı Cek Pearpoint, Ontario əyalətində, Toronto şəhərində yerləşən Frontier Kollece-də Şimali Amerikadan gəlmiş bir qrup insanla görüş təşkil etdilər. Bu insanlar, əlilliyi olan şəxslər üçün təhsilin Xüsusi Təhsil Modeli çərçivəsində lazımi dərəcədə irəliləmədiyini, həm akademik, həm də sosial baxımdan kifayət qədər inkişafın olmadığını vurğulayırdılar. Toronto görüşündə geniş müzakirələrdən sonra "Inclusion" (inklüzivlik) termini əlilliyi olan şəxslər üçün ən uyğun termin kimi qəbul edildi.

Kanada 10 əyalət və 3 şimal ərazisindən ibarətdir. Əyalətlər və ərazilər təhsil siyasətlərini bir-birindən müstəqil şəkildə inkişaf etdirirlər. Kanadanın bəzi bölgələri, məsələn, Şimal-Qərb Əraziləri (NWT) və Nyu Brunsvik, inklüziv təhsili bütün şagirdlər üçün (əlilliyi olanlar daxil olmaqla) həm nəzəri, həm də praktik olaraq qəbul edib uğurla tətbiq edir. Amma əksər əyalətlər və bölgələr bu modeli yalnız nəzəri olaraq qəbul edib, tətbiqdə Xüsusi Təhsil Modelini saxlayır. Kanada inklüziv təhsil sahəsində təxminən dörd onillik təcrübəyə malikdir və bu, əsasən 1982-ci ildə qəbul edilmiş *"Hüquqlar və Azadlıqlar haqqında Xartiya"* (Ədliyyə Nazirliyi, 1982) ilə başlayıb. Bu səbəbdən Kanada inklüziv təhsil sahəsində geniş təcrübəyə malikdir. New Brunswick kimi bəzi əyalətlərdə bu, *Məktəb Qanununun* dəyişdirilməsi fonunda xüsusi təhsil məktəblərinin ləğvinə səbəb oldu. 1980-ci illərə qədər xüsusi təhsil ehtiyacları (SEN) olan uşaqlar və yeniyetmələr ayrı-ayrı təhsil müəssisələrində təhsil alırdılar. Ancaq 1986-cı ildə New Brunswick Məktəblər Qanununun 85-ci Maddəsi ilə formulə edilmiş *"uyğunlaşdırma vəzifəsi"* tamamilə yeni bir vəziyyət yaratdı: İlk mərhələdə xüsusi təhsil ehtiyacları olan şagirdlər üçün adi məktəblərdə *xüsusi siniflər* yaradıldı. Bu, xüsusi təhsil məktəbləri ilə adi məktəblər arasındakı uçurumu aradan qaldırmaq və şagirdləri yaşayış yerinə ən yaxın məktəbə yerləşdirmək məqsədi daşıyırdı. Bu ikili yanaşma peşəkar səviyyədə də qorundu; xüsusi təhsil məktəblərində çalışan müəllimlər adi məktəblərdəki *xüsusi siniflər* üçün məsuliyyət daşıyırdı. İndi isə xüsusi təhsil məktəbləri ya resurs mərkəzlərinə çevrildi, ya da bəzi hallarda adi məktəb kimi istifadə edilməyə başlandı.

Xüsusi siniflərin ləğvini davam etdirmək və bütün şagirdlərin ehtiyaclarını qarşılamaq üçün ilkin dəstək tədbirləri görmək lazım idi. Əsas dəstək müəllimlərə göstərildi. Bu dəstək, köməkçi müəllimlərin işə qəbul edilməsi, "metod və resurs komandaları" (M&RT) adlanan

məsləhət və koordinasiya mərkəzlərinin yaradılması vasitəsilə təmin edildi. M&RT, məktəbdəki siniflərdə müəllimlərə dəstək verir, onlara fərqli təhsil ehtiyaclarını qarşılamaq üçün metodoloji yardım və tədris planları təqdim edir.

**İslandiya**

1995-ci ildən İslandiya qanunlarında inklüziv təhsil anlayışı mövcuddur, lakin bu, 2008-ci ildə daha dəqiq ifadə edilmişdir. 1974-cü il qanunu təhsilin əsas prinsiplərində böyük dəyişikliklər etdi. Təhsildə bərabərlik təmin edildi: şəhər-kənd bölgüsü, cinsiyyət və fiziki məhdudiyyətlər fərq qoymadan hər kəs üçün bərabər hüquq yaradıldı. Xüsusi ehtiyacları olan bəzi qrupların xüsusi məktəblərdə təhsil alması tələb edilirdi. 1977-ci ildə xüsusi təhsil üzrə ilk qaydalar qəbul edildi. 1990-cı ildə yeni tənzimləmə əvvəlki yanaşmaları tənqid etdi. Tibbi modeldən uzaqlaşıldı: uşaqları fiziki və ya psixoloji qüsurlara görə kateqoriyalaşdırmaqdan imtina edildi. 1995-ci ildə xüsusi ehtiyaclar üzrə təhsil ifadəsi qanundan çıxarıldı. Maliyyələşmə kvotalara əsaslandı, məktəblərdə xüsusi ehtiyacı olan şagirdlərə dəstək göstərmək üçün əlavə müəllimlərin təyin edilməsi şagirdlərin ümumi sayından asılı olaraq həyata keçirilir.

2008-ci il Məcburi Təhsil Qanununa (91/2008) əsasən, xüsusi ehtiyaclar üzrə təhsil ifadəsi əvəzinə dəstək sistemi və ya dəstək xidməti anlayışlarından istifadə olunur. 2010-cu ildə qəbul edilmiş tənzimləmə, 2008-ci il qanununu tamamlayaraq, əvvəlki 1996-cı il xüsusi təhsil qaydalarından əhəmiyyətli dərəcədə fərqlənir. Bu tənzimləmədə diqqət şagirdlərin çatışmazlıqlarına deyil, onların bacarıqlarına və təhsil mühitinə yönəlib. Məktəblərə, müxtəlifliyə uyğunlaşaraq, bütün şagirdlər üçün bərabər iştirak imkanlarını təmin etmək öhdəliyi qoyulub. İnklüziv məktəb anlayışı isə insani dəyərlərə, demokratiyaya və sosial ədalət prinsiplərinə əsaslanan bir qurum kimi təqdim edilir. Avropa Agentliyinin (2017) İslandiyanın inklüziv təhsil sistemi ilə bağlı son xarici auditində qeyd olunur ki, ölkənin qanunvericiliyi və siyasəti inklüziv təhsil məqsədlərini dəstəkləyir. İnklüziv təhsilin inkişafını əngəlləyən ciddi məsələ maliyyələşmə ilə bağlıdır. Təhsil sisteminin bütün səviyyələrində maraqlı tərəflər, məktəblərin bütün şagirdlərin ehtiyaclarını daha çevik şəkildə dəstəkləyə bilməsi üçün maliyyələşmənin daha elastik bir modelə keçməsinin vacibliyini vurğulayırlar.

**Problemin aktuallığı.** İnklüziv təhsil bərabər imkanların təmin olunması və sosial ədalətin gücləndirilməsi baxımından vacibdir. Bu sahədə qlobal təcrübələrin öyrənilməsi təhsilin keyfiyyətini artırır.

**Problemin elmi yeniliyi.** Fərqli ölkələrin inklüziv təhsil modellərinin müqayisəsi yeni yanaşmaların müəyyənləşdirilməsinə imkan yaradır. Bu, daha səmərəli inklüziv strategiyaların formalaşdırılmasına kömək edir

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Müəllim hazırlığı və təhsil mühitlərinin əlçatanlığı inklüziv təhsilin uğurlu tətbiqini təmin edir. Araşdırma təhsil siyasətçiləri və pedaqoqlar üçün faydalı tövsiyələr təqdim edir.

## Ədəbiyyat

1. Oğlakçi. M, Amaç. Z Öğretmenlerin gözünden kapsayıcı eğitim: Öğretmen, sınıf ve materyaller, s. 4.

2. Yong-Wook Kim, International Journal of Inclusive Education, Inclusive education in South Korea, s. 2. 2012

3. Markku Jahnukainen, Ninja Hienonen, Meri Lintuvuori, and Sonia Lempinen, Inclusion in Finland: Myths and Realities 2023

4.https://www.unesco.org/en/inclusion-education/need-know

5. Irmeli Halinen, Ritva Ja¨rvinen, Towards inclusive education: the case of Finland ???

6. Tracey E. Hall, Anne Meyer, David H, Universal design for learning in the classroom, s. 27. 2012

7. Andreas Köpfer & Edda Óskarsdóttir, Analysing support in inclusive education systems – a comparison of inclusive school development in Iceland and Canada since the 1980s focusing on policy and in-school support, 2019

8. Gary Bunch, An Analysis of the Move to Inclusive Education in Canada. What Works. 2015

**С.Дж. Новрузова**

**Сравнительный анализ моделей инклюзивного образования**
**Резюме**

Финляндия, Канада и Исландия применяют различные модели инклюзивного образования, способствуя социальной интеграции и индивидуальной поддержке. В Финляндии инклюзия основана на национальной учебной программе, адаптированной к индивидуальным потребностям, в Канаде работают методические и ресурсные команды для поддержки учащихся, а в Исландии система базируется на правовом равенстве, но сталкивается с нехваткой ресурсов. Эти примеры показывают, что успех инклюзивного образования зависит от эффективного законодательства, управления ресурсами и педагогического сотрудничества.

**S.J. Novruzova**

**Comparative analysis of inclusive education models**
**Summary**

Finland, Canada, and Iceland implement different models of inclusive education, fostering social integration and individualized support. In Finland, inclusive education is based on a national curriculum adapted to individual needs, while Canada provides methodological support and resource teams to address diverse student needs. In Iceland, the system is grounded in legal equality but faces resource shortages. These experiences show that the success of inclusive education depends on effective legislation, resource management, and pedagogical collaboration.

**Redaksiyaya daxil olub:** 11.03.2025

***TƏDRİSƏ STEAM YANAŞMASI***
***СТЕАМ ПОДХОД В ОБРАЗОВАНИИ***
***STEAM APPROACH IN EDUCATION***

*UOT 37.022*

# STEAM METODU İLƏ TƏHSİL: ƏNƏNƏVİ YANAŞMADAN FƏRQLƏNDİRƏN NƏDİR?

**Aysel Xanoğlan qızı Mirzəyeva**
*SABAH qrupları, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCID:** 0009-0007-4125-3556
**E-mail:** mirzyvaaysel@gmail.com

***Açar sözlər:*** *STEAM təhsili, innovativ təhsil, inteqrativ təhsil, tənqidi düşüncə, yaradıcı düşüncə, mühəndislik bacarıqları, proqramlaşdırma, XXI əsr bacarıqları.*

***Ключевые слова:*** *STEAM-образование, инновационное образование, интегративное образование, критическое мышление, креативное мышление, инженерные навыки, программирование, навыки XXI века.*

***Key words:*** *STEAM education, innovative education,integrative education, critical thinking, creative thinking, engineering skills, programming, 21st-century skills.*

Son dövrlərdə dünya təhsil sistemində geniş tətbiq olunan STEAM metodu müasir peşəkar kadrların hazırlanmasında mühüm rol oynayır. Bu metodun əsas məqsədi şagirdlərdə analitik və yaradıcı düşüncəni inkişaf etdirmək, onların əldə etdikləri bilikləri layihə əsaslı təlim vasitəsilə təbiət elmləri, texnologiya, mühəndislik, riyaziyyat və incəsənət sahələrində səmərəli tətbiq etmələrinə şərait yaratmaqdır. STEAM yanaşması məktəblərdə şagirdlərə XXI əsr bacarıqları olan ünsiyyət qurmaq, komanda işi aparmaq, tənqidi və yaradıcı düşüncədən istifadə etmək kimi keyfiyyətləri aşılamaqla innovativ öyrənmə mühiti yaradır. Bu metod beş əsas sahənin – Elm (Science), Texnologiya (Technology), Mühəndislik (Engineering), İncəsənət (Art) və Riyaziyyatın (Math) inteqrativ şəkildə öyrədilməsinə əsaslanır. STEAM kurikulumu fənlərarası əlaqələri gücləndirən, praktik və tətbiqi dərsləri əhatə edən bir sistemdir. Ənənəvi yanaşmadan fərqli olaraq, STEAM təhsili şagirdlərə elmi və texniki bilikləri gündəlik həyatda necə tətbiq edəcəklərini praktik məşğələlər vasitəsilə göstərir. Bu metod mühəndislik bacarıqlarını inkişaf etdirməklə yanaşı, real problemlərin həllində yaradıcı yanaşmaların əhəmiyyətini vurğulayır. Şagirdlərin gələcək peşə seçimindən asılı olmayaraq, STEAM təhsili onlara həyat üçün vacib bilik və bacarıqlar qazandırır. STEM modelinə əlavə edilən "A" (Art – İncəsənət) komponenti isə layihələrin hazırlanması prosesində incəsənətin əhəmiyyətini ön plana çıxarır. Eyni zamanda, STEAM yanaşması humanizm, mənəvi dəyərlər və cəmiyyətin rifahına xidmət kimi prinsipləri də özündə ehtiva edir. (Qarayeva S., Bakı, 2020).

Bəs bu yanaşmanın tətbiqinin hansı nəticələri vardır? Son araşdırmalar göstərir ki, STEAM yanaşması həm şagirdlərin nailiyyətlərinə, həm də müəllimlərin səmərəliliyi müsbət təsir edir. Məsələn, 2016-cı ildə aparılan bir araşdırma, sosial-iqtisadi baxımdan aşağı səviyyədə olan rayonların ibtidai məktəblərində STEAM metodikasının təsirini qiy-

mətləndirib. 3–5-ci siniflərdə cəmi doqquz saatlıq STEAM təhsili alan şagirdlərin elm (science) fənnindəki nəticələrinin əhəmiyyətli dərəcədə yaxşılaşdığı müəyyən edilib (Brouillette, L., & Graham, N. J. (2016). Bundan əlavə, 2014-cü ildə aparılmış bir tədqiqat STEAM və savadlılıq arasındakı əlaqənin şagirdlərin idrak qabiliyyətlərini inkişaf etdirdiyini, onların riyaziyyat və oxu bacarıqlarını artırdığını və öz işləri ilə yanaşı həmyaşıdlarının işlərini də daha dərindən qiymətləndirmələrinə kömək etdiyini ortaya qoyub (Cunnington, Marisol, Andrea Kantrowitz, Susanne Harnett, və Aline Hill-Ries. (2014)). Digər bir araşdırmada isə teatr incəsənətinin riyaziyyat və dil fənləri ilə inteqrasiyası öyrənilib. Nəticələr göstərib ki, dərs proqramına teatr sənəti daxil edilən şagirdlər, bu yanaşmadan istifadə etməyən nəzarət qrupundakı həmyaşıdları ilə müqayisədə daha yüksək akademik nəticələr əldə ediblər (Inoa, R., Weltsek, G., & Tabone, C.(2014)). Beynəlxalq səviyyədə aparılmış bir araşdırma isə STEAM yanaşmasının fənlərarası, trans-disiplinar və inter-disiplinar öyrənməni gücləndirdiyini ortaya qoyur. Bu yanaşma müəllimlər arasında əməkdaşlığı artırır, sinif mühitində daha fəal dialoqu təşviq edir və tənqidi, yaradıcı düşünmə bacarıqlarını inkişaf etdirir (Anne Harris və Leon R. de Bruin(2017)).

Ölkəmizdə Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü və Təhsil Nazirliyinin Təhsil İnstitutunun dəstəyi ilə "STEAM Azerbaijan" layihəsi 2019-2020-ci tədris ilindən start götürüb. STEAM layihəsinin əsas məqsədi Respublikanın ümumtəhsil məktəblərində təhsil alan şagirdlərdə XXI əsr bacarıqlarını – yaradıcılıq, tənqidi düşünmə, əməkdaşlığın inkişaf etdirilməsi, praktik məşğələlər vasitəsilə elmi, texniki biliklərin gündəlik həyatda tətbiqini şagirdlərə göstərməklə yanaşı, onlara mühəndislik səriştələri öyrətmək, müxtəlif proqramlaşdırma dillərini tətbiq etməklə müasir İKT avadanlıqlarından istifadə edə bilmə qabiliyyətlərini yüksəltməkdir. (https://steam.edu.az/az/about-us) 2022-ci ildə STEAM təhsili ilə bağlı Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən tədqiqat aparılmışdır. STEAM təhsilinin şagird bacarıqlarının inkişafına təsirinin müqayisəli təhlili məqsədilə ümumtəhsil məktəblərinin STEAM dərsləri keçilən VI-VIII siniflərində təhsil alan 3614 şagirdlə, STEAM dərsləri tədris olunmayan VI-VIII siniflərində təhsil alan 1597 şagirdlə sorğu keçirilmişdir. Aparılmış müqayisəli təhlildən aydın olur ki, STEAM dərsləri keçilən siniflərdə təhsil alan şagirdlərin ümumilikdə qiymətləndirilən bütün bacarıqları STEAM dərsləri keçirilməyən şagirdlərə nisbətdə üstünlük təşkil edir. Burada problemlərin həllinə yaradıcı yanaşma, tənqidi düşüncə, təşəbbüskarlıq və kommunikasiya bacarıqlarının inkişafını xüsusilə qeyd etmək lazımdır. (https://arti.edu.az/2023/01/21/steam-in-sagirdlerin-inkisafinda-tesiri-tedqiq-olunmusdur/)

Bəs STEAM tədrisi ənənəvi metodlardan necə fərqlənir?

1. "Hər kəsə uyğun bir metod" deyil

Ənənəvi tədris metodları əsasən şagirdlərin faktları və konsepsiyaları ya müəllimdən dinləyərək, ya da kitab və ya ekran vasitəsilə öyrənməsinə əsaslanır. Daha sonra isə bu məlumatları xatırlayıb təkrarlama qabiliyyətləri qiymətləndirilir.

Bu, sınanmış və işlək bir üsuldur. Amma sinifdəki müxtəlif bacarıq və düşüncə tərzinə malik olan şagirdlər üçün həqiqi öyrənməni təşviq edirmi?

Hər kəs dünyanı fərqli şəkildə dərk edir – kimisi eşidərək, kimisi görərək, kimisi isə riyazi və ya məntiqi düşüncə ilə daha yaxşı öyrənir. Digərləri isə praktiki yanaşmaya üstünlük verir. Bu səbəbdən, "hər kəsə uyğun bir metod" effektiv olmaya bilər. STEAM yanaşması bütün şa-

girdlərin öz bacarıqlarını maksimum dərəcədə istifadə etməsinə imkan yaradır. Müəllimlər STEAM tədrisinin çevikliyindən istifadə edərək dərsləri sinifdəki müxtəlif tipli şagirdlərə uyğunlaşdıra bilərlər. Əgər hər kəs özünə uyğun şəkildə öyrənirsə, hamı irəliləyir.

2. Uğursuzluğun damğalanmaması

Ənənəvi tədris sistemində şagirdlər öyrəndikləri məlumatı düzgün xatırlaya bilmədikdə, səhv etdikləri qəbul edilir və bu, onların uğursuzluğu kimi dəyərləndirilir. Bu da şagirdlərdə stress və narahatlıq yaradır, nəticədə isə onların motivasiyası azalır. STEAM tədrisində isə eksperiment aparmaq və səhv etmək öyrənmə prosesinin təbii və vacib bir hissəsi kimi qəbul edilir. Uğursuzluq bir fürsət kimi görülür. Bu yanaşma real dünya üçün də vacibdir, çünki həqiqi həyatda uğursuzluqlar qaçılmazdır. Lakin sınaq və səhvlər nəticəsində böyük ixtiralar və yeniliklər ortaya çıxır.

3. Praktiki təcrübə

Ənənəvi tədrisdə nəzəri biliklər əsas yer tutur. STEAM dərslərində isə əsas diqqət praktiki təcrübələrə yönəldilir. Həyəcan və maraq olduğu zaman isə şagirdlər dərsə daha çox diqqət ayırır və daha effektiv öyrənirlər. Öyrənmə prosesi təcrübəyə çevrildikdə, biliklər daha yaxşı mənimsənilir və praktik tətbiqlərlə möhkəmlənir.

4. Real dünya ilə əlaqəli dərslər

STEAM tədrisində eksperimentlər aparılarkən, şagirdlər öyrəndikləri biliklərin real həyatda nə üçün lazım olduğunu anlamalıdırlar. Məsələn, bir mövzunun real həyatda tətbiqini bilmək öyrənmə prosesini daha məntiqli və yadda qalan edir. STEAM tədrisi mövzuları daha əlaqəli və praktiki hala gətirir, şagirdlərə böyüdükləri dünyanı daha yaxşı anlamağa kömək edir. Üstəlik, tipik STEAM dərslərində əməkdaşlıq, problem həlli, yaradıcılıq və dözümlülük kimi bacarıqlar inkişaf etdirilir. Bunlar isə müasir dünyada və gələcək iş həyatında çox vacibdir. Dünya İqtisadi Forumu STEAM fənlərini və analitik düşüncə bacarıqlarını gələcəyin əsas iş bacarıqları kimi müəyyənləşdirib.

5. Standart çərçivələrin xaricində düşünmək

Ənənəvi tədris metodları faktlara, qaydalara və müəyyən sərhədlərə əsaslanır. Şagirdlərin dəqiq məlumatları mənimsəməsi vacib olsa da, bu yanaşma yaradıcılıq və innovativ düşüncə üçün məhdudiyyətlər yarada bilər. Əgər standart çərçivələrdən kənara çıxan fikirlər və təsadüfi kəşflər olmasaydı, bu gün bildiyimiz bir çox dahiyanə ixtiralar mövcud olmazdı. STEAM tədrisi beyni yeni yollarla düşünməyə, problemləri həll etməyə və sərhədləri aşmağa təşviq edir. Yeni bir yanaşma taparaq, özümüz cavabları öyrənərək və öz nəticələrimizə gələrək, innovasiyalar üçün yer açırıq. STEAM tədrisi ilə ənənəvi tədris metodları arasındakı bu beş əsas fərq göstərir ki, yaradıcı və təcrübəyə əsaslanan yanaşma öyrənmə prosesini daha effektiv edə bilər.

**Problemin aktuallığı.** Sürətli texnoloji inkişaf təhsil sistemində yeni yanaşmaların tətbiqini tələb edir. Ənənəvi metodlar şagirdlərə bilikləri əzbərləməyi öyrədir, lakin onların real həyatda tətbiqini təmin etmir. STEAM metodu elmi və texniki biliklərin praktik istifadəsinə imkan yaradır və texnologiya sahəsində bacarıqlı kadrların hazırlanmasına töhfə verir.

**Problemin elmi yeniliyi.** STEAM inteqrativ və layihə əsaslı öyrənməni təşviq edərək ənənəvi tədrisdən fərqlənir. Araşdırmalar göstərir ki, bu yanaşma şagirdlərin tənqidi və yaradıcı

düşünmə bacarıqlarını inkişaf etdirir. Mühəndislik və incəsənəti birləşdirərək yeni bilik və innovasiyaların yaranmasına kömək edir. Azərbaycanda aparılan tədqiqatlar da STEAM metodunun təhsilə müsbət təsirini sübut edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** STEAM təhsili şagirdlərin XXI əsr bacarıqlarını – problem həll etmə, tənqidi düşünmə və yaradıcılığı inkişaf etdirir. Bu yanaşma proqramlaşdırma, robototexnika və dizayn kimi sahələrdə bilik və bacarıqları artırır. Müəllimlər üçün interaktiv və tətbiqi dərslər təşkil etməyə imkan yaradır. Azərbaycanda "STEAM Azerbaijan" layihəsi çərçivəsində məktəblərdə laboratoriyalar qurulur, müəllimlər üçün təlimlər keçirilir. Bu metodun geniş yayılması gələcək nəsillərin innovativ və rəqabətədavamlı olmasına kömək edəcək.

## Ədəbiyyat


1. Qarayeva S. STEAM metodu: müasir təhsili inkişafa aparan yenilik. Bakı, 2020.
2. Brouillette, L., & Graham, N. J. Using arts integration to make science learning memorable in the upper elementary grades: A quasi-experimental study. Journal for Learning through the Arts, 12(1). 2016
3. Cunnington, Marisol, Andrea Kantrowitz, Susanne Harnett, and Aline Hill-Ries. "Cultivating Common Ground: Integrating Standards-Based Visual Arts, Math and Literacy in High-Poverty Urban Classrooms". Journal for Learning through the Arts: A Research Journal on Arts Integration in Schools and Communities 10, no. 1, 2014.
4. Inoa, R., Weltsek, G., & Tabone, C. A study on the relationship between theater arts and student literacy and mathematics achievement. Journal for Learning through the Arts: A Research Journal on Arts Integration in Schools and Communities, 10(1). 2014
5. Harris, A. & de Bruin., L. R. STEAM Education: Fostering creativity in and beyond secondary schools. Australian Art Education 38(1). 54-75p. 2017

6.https://steam.edu.az/az/about-us

7.https://arti.edu.az/2023/01/21/steam-in-sagirdlerin-inkisafinda-tesiri-tedqiq-olunmusdur/)

8.https://samlabs.com/us/stem-steam-instruction-five-key-differences/


**А.Х. Мирзаева**

## STEAM-метод обучения: чем он отличается от традиционного подхода?

## Резюме

В данной статье рассматривается метод STEAM, широко применяемый в современной системе образования, его особенности, отличия от традиционных подходов и результаты внедрения. STEAM-образование основано на интеграции науки, технологий, инженерии, искусства и математики, развивая у учеников навыки XXI века. В отличие от традиционного обучения, STEAM ориентирован на практический опыт, проектное обучение и творческий подход. В статье анализируются различные

международные и локальные исследования, подтверждающие положительное влияние STEAM на академические достижения, критическое мышление и решение проблем. Также рассматриваются результаты проекта «STEAM Azerbaijan», реализуемого в Азербайджане, подчеркивая его значимость в системе образования. В статье объясняется, как STEAM-метод способствует решению реальных проблем и чем он принципиально отличается от традиционного обучения.

**A.K. Mirzayeva**

**STEAM Education: How does it differ from the traditional approach?**
**Summary**

This article examines the STEAM method, which is widely applied in modern education, highlighting its features, differences from traditional approaches, and implementation results. STEAM education is based on the integration of science, technology, engineering, arts, and mathematics, aiming to develop 21st-century skills among students. Unlike traditional teaching methods, STEAM emphasizes hands-on experience, project-based learning, and creative thinking. The article analyzes various international and local studies demonstrating the positive impact of STEAM on academic performance, critical thinking, and problem-solving skills. Additionally, it reviews the outcomes of the “STEAM Azerbaijan” project implemented in Azerbaijan, emphasizing its role in the education system. The article explains how STEAM education contributes to solving real-world problems and what makes it fundamentally different from traditional learning.

**Redaksiyaya daxil olub:** 10.02.2025

***İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏ***
***ИСПОЛЬЗОВАНИЕ ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ***
***USE OF INFORMATION COMMUNICATION TECHNOLOGIES***

*UOT 37.1*

# KOMPÜTER QRAFİKASINDA İSTİFADƏ OLUNAN ƏSAS RƏNG MODELLƏRİ

**Çingiz Muxtar oğlu Həmzəyev**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin, t.ü.f.d., baş müəllimi*
**E-mail:** chingiz.gamzaev@mail.ru

***Açar sözlər:*** *kompüter, kompüter qrafikası, təsvir, rastr, vektor, üçölçülü, format, fayl, rəng, redaktor*
***Ключевые слова:*** *компьютер, компьютерная графика, изображение, растр, вектор, трехмерный, файл, цвет, редактор*
***Key words:*** *Computer, computer drawing, description, raster, vector, three-dimensional format, file, color, color models, editor*

Rəng modelləri təbiətdə baş vermiş bütün hadisələri, həmçinin gündəlik həyatda rastlaşdığımız predmetləri ona görə görmək mümkün olur ki, onlar ya işıq saçır, ya da işığı əks edir. Rəng – şüalanmanın gözə təsirinin xarakteristikasıdır. Beləliklə, işıq şüası gözün torlu qişasına düşəndə rəng hissi yaradır. Şüalanan işıq mənbədən (məsələn, günəşdən, lampadan, monitorun ekranından və s.) çıxan işığa deyilir.

Mənbədən bilavasitə gözə düşən şüalanan işıq, özündə, onu yaradan bütün rəngləri saxlayır. Obyektdən əks olunan işıq dəyişə bilir. İşıq mənbəyi olmayan ixtiyari predmet işığı ya müəyyən qədər udur, ya da əks etdirir.

Günəş və digər işıq mənbələri kimi monitor da işıq şüalandırır. Təsvir çap edilən kağız isə işığı əks etdirir. İşıq həm şüalanma, həm də əks olunma proseslərində alına bildiyinə görə işığın şərh edilməsi üçün bir birinin əksi olan iki üsul additiv və subtraktiv rəng modeliəri mövcuddur.

**Additiv rəng modeli.** Şüalanan işıq additiv rəng modeli ilə şərh edilir. İşləyən monitorun və ya televizorun ekranına yaxın məsafədən və ya lupa ilə baxanda çoxlu sayda xırda qırmızı, yaşıl və göy rənglərdən ibarət olan nöqtələr görmək olur, çünki, rəngli ekranda hər bir videopiksel müxtəlif (qırmızı, yaşil və göy) rənglərdən ibarət olan üç nöqtənin məcmüəsindən ibarətdir. Müxtəlif rəngli bu nöqtələr çox xırda olduğuna görə gözdə onların qarışığı bir rəng kimi görünür. Beləliklə, qonşu nöqtələrin rəngləri qarışaraq başqa rəng əmələ gətirir .

Qırmızı + yaşıl = sarı;
Qırmızı + göy = al-qırmızı;
Göy + yaşıl = mavi;
Qırmızı + yaşıl + göy = ağ



Rəngli nöqtələrin işıqlanma intensivliyini dəyişməklə çoxsaylı rəng çalarları yaratmaq mümkündür.

Additiv rəng üç əsas rəngin (qırmızı, yaşıl, göy) toplanması ilə alınır. Bu üç rəngin hamısının intensivliyi 100%-ə çatanda ağ rəng alınır. Rənglərin hamısı olmayanda qara rəng alınır.

Kompüter monitorlarında istifadə edilən additiv modeli RGB (Red-qırmızı, Green-yaşıl, Blue-göy) abbreviaturası ilə işarə etmək qəbul edilmişdir.

**RGB modelində xüsusi rənglərin formalaşdırılması.** Qrafik redaktorların əksəriyyətində istifadəçi redaktorun təklif etdiyi palitraya əlavə olaraq qırmızı, yaşıl və göy rənglərdən istifadə etməklə özünə lazım olan xüsusi rəngləri yarada bilər. Adətən qrafik redaktorlar lazım olan rəngi qırmızı, yaşıl və göy rəngin hər birinin 256 çaları ilə yaradır. Bu halda formalaşdırıla bilən rənglərin ümumi sayı 256x256x256 = 16 777 216-ya bərabər olacaqdır. Müxtəlif redactorlarda xüsusi rəngləri formalaşdırmaq üçün istifadə edilən dialoq pəncərələrinin quruluşu fərqli olur .

Deməli, istifadəçi həm qrafik redaktorun təklif etdiyi palitrada olan hazır rənglərdən, həm də dialoq pəncərəsindəki R, G, B ilə işarə edilən daxiletmə sahələrinə qırmızı, yaşıl və göy rəng üçün parlaqlığın uyğun qiymətlərini daxil etməklə alınan xüsusi çalarlardan istifadə edə bilər. R, G və B parametrləri üçün 0-dan 255-ə qədər diapazonunda olan qiymətlərdən istifadə edilir. Bu qayda ilə yaranan rəngdən həm yeni obyektlərin yaradılması, həm də təsvirlərin fraqmentlərinin rənglənməsi üçün istifadə edilə bilər.

CorelDRAW proqramında RGB rəng modeli əlavə olaraq üçölçülü koordinat sistemi ilə verilir. Bu sistemdə sıfır nöqtəsi qara rəngə, koordinat oxları isə əsas rənglərə uyğundur. Üç koordinatın hər birinin qiymətİ yekun çalarda əsas rənglərin qiymətini göstərir.




*CorelDRAWproqramındakı RGB modelində rənglərin formalaşması üçün dialoq pəncərəsi*




*Adobe Photoshop proqramında rənglərin formalaşması üçün dialoq pəncərəsi*

Koordinat sistemi üzrə sürüngəcin yerinin dəyişdirilməsi daxiletmə sahələrindəki qiymətlərə və əksinə təsir göstərir. Koordinat sisteminin başlanğıcı ilə bütün təşkiledicilərin maksimal parlaqlıq səviyyəsi yerləşən nöqtəni birləşdirən diaqonalda ağ rəngdən qara rəngə qədər olan boz rəngin çalarları yerləşir. Boz rəng çalarları üç təşkiledicinin hamısının parlaqlıq səviyyələrinin eyni qiymətlərində alınır.

**Subtraktiv rəng modeli.** Əks olunan rənglər subtraktiv rəng modeli ilə şərh edilir. Kağız işıq şüalandırmır, isığı udur və əks etdirir. Gözə kağızdan əks olunan işıq düşür. Ona görə də, qrafik təsvirlərin çap edilməsi üçün subtraktiv modeldən istifadə edilir.

Ağ rəng göy qurşağına daxil olan bütün rəngləri özündə birləşdirir. Ağ rəng prizmadan keçəndə tərkib hissələrinə ayrılır. Qırmızı, narıncı, sarı, yaşıl, mavi, göy və bənövşəyi rənglər işığın görünən spektrini əmələ gətirir. Ağ kağız ağ işıqla işıqlandırılanda bütün rəngləri əks etdirir. Rənglənmiş kağız isə bəzi rəngləri udur, yerdə qalan rəngləri isə əks etdirir. Ağ işıqla işıqlandırılan qırmızı rənglə rənglənmiş kağız ona görə qırmızı görünür ki, o, qırmızı rəngdən başqa bütün rəngləri udur. Həmin qırmızı kağızı göy işıqla işıqlandıranda o, göy rəngi udduğuna görə qara görünəcək. Subtraktiv rəng modelində mavi, al-qırmızı və sarı rənglər əsas rənglərdir. Onların hər biri çap səhifəsinə düşən ağ rəngin müəyyən rənglərini udur və ya ağ rəngdən müəyyən rəngləri çıxarır. Subtraktiv modelin adı da bundan götürülmüşdür. İngiliscə “subtrakt” - çıxma deməkdir. Qara, qırmızı, yaşıl və göy rənglərin alinmasından ötrü bu modeldə əsas subtraktiv rənglərdən aşağıdakı qaydada istifadə edilir:

mavi + al-qırmızı + sarı = qara;
mavi + al-qırmızı = göy;
sarı + al-qırmızı = qırmızı;
sarı + mavi = yaşıl.




Əsas subtraktiv rəngləri də müxtəlif nisbətlərdə qarışdırmaqla çoxsaylı çalarlar almaq mümkündür.

Subtraktiv modeldə ağ rəng əsas subtraktiv rənglərin heç biri olmayanda alınır. Şəkildə müxtəlif subtraktiv rənglərin qarışdırılması ilə alınan rənglər göstərilmişdir.

Mavi, al-qırmızı və sarı rənglər yüksək faizlə qarışdırılanda qara rəng əmələ gətirir. Daha dəqiq desək bu rənglər qarışdırılanda nəzəri olaraq qara rəng alınmalıdır.

Boyaların bəzi xüsusiyyətlərinə görə bu rənglər qarışdırılanda qonur-ləkə çaları alınır. Ona görə də, bu rəngə çap prosesində qara boya da əlavə edilir.

Subtraktiv rəng modeli CMYK (Cyan-mavi, Magenta-al-qırmızı, Yellow-sarı, black–qara) abbreviaturası ilə işarə edilir.

**Additiv və subtraktiv rəng modellərinin qarşılıqlı əlaqəsi.** RGB modeli şüalanan, CMYK modeli isə əks olunan işıqla işləyir. Monitorda yerləşən təsviri printerdə çap etmək üçün istifadə olunacaq xüsusi proqram bir rəng modelindən digər rəng modelinə keçidi təmin etməlidir.

Dörd rəngli çap prosesini iki mərhələyə bölmək olar:

• İlkin təsvir əsasında həmin təsvirin mavi (firuzəyi), al-qırmızı, sarı və qara təşkilediciləinin yaradılması;

• Həmin təşkiledicilərin (təsvirlərin) hər birinin eyni kağız vərəqdə çap edilməsi.

Rəngli təsvirin dörd komponentə (təşkilediciyə) bölünməsi xüsusi proqramla həyata keçirilir. Printerlərdə CMYK modelindən istifadə edilsəydi təsvirin RGB modelindən CMYK modelinə çevrilməsi çox sadə olardı, çünki qırmızı və yaşıl rənglərin qarışığı ilə sarı, sarı və mavi rənglərin qarışığı ilə yaşıl, qırmızı və göy rənglərin qarışığı ilə al-qırmızı və s. rəng alınır.

Rəng dairəsi RGB və CMYK modelləri arasındakı əlaqəni göstərir.

Hər bir üçbucaqlının rəngi ona bitişik üçbucaqların rəngi ilə müəyyən edilir. Qara rəngin əlavə edilməsi nəticəsində çevirilmə prosesi xeyli çətinləşir. RGB modelində nöqtənin rəngi RGB rənglərin köməyi ilə alınırsa, yeni modeldə nöqtənin rəngi CMYK qarışığına qara rəngin müəyyən miqdarını əlavə etməklə alınır. RGB modelinin məlumatlarını CMYK modelinə çevirmək üçün rəng ayırma proqramı bir sıra riyazi əməliyyatları yerinə yetirir.

Bir birinə yaxın yerləşən müxtəlif rəngli nöqtələr qovuşma təsiri bağişlayır və yekun rəng qovuşmuş bir rəng formasında görünür.

RGB və CMYK modellərində rənglərin alınma üsulu fərqli olduğuna görə monitorda görünən rəngləri olduğu kimi çap etmək olduqca çətindir. Adətən ekranda olan rənglər çap edilən eyni rənglərdən daha parlaq olur. Rəng modeli ilə yaradıla bilən rənglər çoxluğu rəng əhatəsi adlanır. Ən geniş rəng əhatəsi gözün fərqləndirə bildiyi rənglərin məcmuyudur. Bu natural rəng əhatəsi adlanır.

Natural rəng əhatəsinə nəzərən RGB modeli daha az, CMYK modeli isə RGB modelinə nisbətən kiçik əhatəyə malikdir. Nəzərə almaq lazımdır ki, çap edilə bilən rənglərin sayı ekranda yaradıla bilən rənglərin sayından xeyli azdır. Ona görə də, bir sıra qrafik redaktorlarda RGB modeli ilə yaradılan rənglərin CMYK modelinin rəng əhatəsindən kənara çıxması haqqında xəbər verən göstərici nəzərdə tutulmuşdur.

Adobe Photoshop proqramında xəbərdarlıq göstəricisi kimi kiçik nida işarəsindən istifadə edilir. Belə xəbərdarlıq meydana gələndə Siçanın sol düyməsini sıxmaqla Adobe Photoshop proqramını məcbur etmək olur ki, həmin rəngi CMYK modelindəki yaxın rəng spektri ilə əvəz etsin.

CorelDRAW proqramı da çap prosesində dəqiq çap edilə bilməyən rənglər barədə informa-siya verir. Bu halda CMYK modelinin rəng əhatəsinə daxil olmayan rənglər xüsusi, məsələn, açıq yaşıl rənglə əvəz edilir.

CorelDRAW və Adobe Photoshop kimi redaktorlar RGB modeli ilə yanaşı həm də CMYK modelində təsvirlər yaratmağa imkan verir. Bu halda istifadəçi istifadə edilməsi mümkün olan rəng məhdudiyyəti ilə barışmalıdır ki, təsvirin necə çap ediləcəyini ekranda görə bilsin. CMYK modelində ixtiyari rəng yaratmaq üçün RGB modelində olduğu kimi əsas rənglərin faiz nisbəti göstərilməlidir. Kompüter qrafikası ilə yeni məşğul olmağa başlayanlar üçün CMYK modelində rəngləri formalaşdırmaq bir qədər çətinlik törədir. Rəng dairəsindən istifadə bu işi xeyli sadələşdirir, çünki, rəng dairəsində hər bir rəng onun ibarət olduğu rənglərin arasında yerləşir.

Məsələn, qırmızı rəngi artırmaq üçün sarı və al-qırmızı rənglərin faizini artırmaq lazımdır. Göy rəng yaratmaq üçün al-qırmızı və mavi rənglər əlavə etmək lazımdır. Rəng yaratmaq üçün üçölçülü koordinat sistemindən də istifadə etmək olar. Koordinat oxları mavi, al-qırmızı və sarı rəngləri tənzimləyir. Parlaqlıq tənzimləyicisi çalarda qara rəngin miqdarını müəyyən etməyə imkan verir.

**Problemin aktuallığı.** Məqalədə kompüter qrafikasında istifadə olunan əsas rəng modelləri bir daha nəzərdən keçirir. Məqalədə additiv və subtraktiv rəng modellərinin hər birinin rənglərinin qarşılıqlı təsirinin diaqramları verilmişdir. RGB və CMYK modellərində rənglərin alınma üsulunun fərqli cəhətləri göstərilmişdir.

**Problemin elmi yeniliyi.** Məqalədə additiv və subtraktiv rəng modellərinin qarşılıqlı əlaqəsindən bəhs edilir. Adətən ekranda olan rənglər çap edilən eyni rənglərdən daha parlaq olduğu göstərilir. Bir sıra qrafik redaktorlarda RGB modeli ilə yaradılan rənglərin CMYK modelinin rəng əhatəsindən kənara çıxması haqqında xəbər verən göstəricinin olması barədə məlumat verilmişdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən kompüter qrafikası fənnini tədris edən müəllim və tələbələr istifadə edə bilər.

## Ədəbiyyat


1. Cəbiyeva A.C. Kompüter qrafikası. Bakı, 2014.
2. Kərimov S.Q. və b. İnformatika: Dərslik. Bakı, 2015.
3. Hümbətəliyev R., Əliyev A., Həmzəyev Ç, Qasımova K., Sadıqov A. İnformatika və təhsildə İKT. 2018.
4. Mazanova S.B. İnformatika və İTM: Dərs vəsaiti. Bakı, 2017.
5. Quliyev A.M. İnformatika: Dərs vəsaiti. Bakı, 2012.
6. Грайс Г. Графические средства персонального компьютера. Москва, 1987.
7. Həmzəyev Ç., Quliyev A., İmanov Ə. Qrafik redaktor proqramları. Naxçıvan, 2021.


**Ч.М. Гамзаев**

### Цветовые модели используемые в компьютерной графике
### Резюме

В статье рассматриваются вопросы использования цветовых моделей в компьютерной графике. Также рассмотрены функциональные разницы RGB и CMYK моделей. В статье приведены схемы взаимодействия цветов каждой из аддитивных и субтрактивных цветовых моделей.

**Ch.M. Gamzaev**

### Color models used in computer graphics
### Summary

The article discusses the use of color models in computer graphics. It also discusses the functional differences between RGB and CMYK models. The article provides schemes of interaction of colors of each of the additive and subtractive color models.

**Redaksiyaya daxil olub:** 10.03.2025

***TƏHSİLİN İDARƏEDİLMƏSİ MƏSƏLƏLƏRİ***
***ВОПРОСЫ УПРАВЛЕНИЯ ОБРАЗОВАНИЕМ***
***ISSUES OF EDUCATIONAL MANAGEMENT***

*UOT 377*

# ORTA İXTİSAS TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İDARƏOLUNMASINA MÜASİR YANAŞMALAR

**Ülkər Rəfayıl qızı Əfəndiyeva**
*SABAH qrupları, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCID:** 0009-0006-3125-3598
**E-mail:** muradovaulkr@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v22.i1.09

***Açar sözlər:*** *innovativ idarəetmə, tədris keyfiyyəti, rəqəmsallaşma, kolleclər, publik hüquqi şəxs, inklüzivlik .*

***Ключевые слова:*** *инновационное управление, качество обучения, цифровизация, колледжи, публичное юридическое лицо, инклюзивность*

***Key words:*** *innovative management, teaching quality, digitization, colleges, public legal entity, inclusion*

Orta ixtisas təhsil müəssisələrinin idarəolunmasına müasir yanaşmalar təhsil müəssisələrinin effektivliyini artırmağı, tədris keyfiyyətini yüksəltməyi və əmək bazarının tələblərinə uyğun kadr hazırlığını hədəfləyir. Bu yanaşmalar təhsil sisteminin cəmiyyət və iqtisadiyyatın ehtiyaclarına uyğunlaşmasını təmin edir. Kolleclər əmək bazarının tələb etdiyi bacarıqlı mütəxəssisləri yetişdirərək təhsil sisteminin davamlı inkişafını təmin edir. Əsas yanaşmalar arasında innovativ metodlar, rəqəmsallaşma, keyfiyyətin təminatı və əmək bazarına uyğun təhsil proqramlarının hazırlanması önəmlidir.

***1. İnnovativ idarəetmə yanaşması***

İnnovativ idarəetmə kolleclərdə müasir texnologiyaların və metodların tətbiqini nəzərdə tutur, tədris effektivliyini artırır və tələbələrin yaradıcılıq və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir. Bu yanaşma tədris metodlarının modernləşdirilməsi, rəqəmsal alətlər, onlayn təhsil platformaları və interaktiv təlim üsullarını əhatə edir. Lakin kolleclərin innovativ idarəetmə praktikasının səmərəliliyini hələ də qeyri-kafi olaraq qalır. Bu yanaşma tədris keyfiyyətini yüksəltmək və tələbələri rəqabətədavamlı mütəxəssislər kimi hazırlamağa kömək edir (2).

***2. Publik hüquqi şəxs statusu***

Azərbaycanda bəzi kolleclərə publik hüquqi şəxs statusunun verilməsi onların idarəetmə və maliyyə sistemlərini təkmilləşdirmiş, daha müstəqil və çevik qərar qəbul etməyə imkan yaratmışdır (6). Bu status kolleclərə büdcələrini daha səmərəli idarə etməyə, infrastruktur və tədris keyfiyyətini artırmağa imkan verir. Əlavə müstəqillik kolleclərə tədris proqramlarını və metodlarını əmək bazarının tələblərinə uyğun tənzimləməkdə çeviklik qazandırır. Nəticədə, kolleclərin idarəetmə strukturu və tədris keyfiyyəti müasirləşir və ixtisaslı kadrların hazırlanmasına töhfə verir (7).

***3. Keyfiyyətin təminatı və təkmilləşdirilməsi***

Təhsilin keyfiyyətinin artırılması, müəllimlərin peşəkar bacarıqlarının inkişafı və tədris metodlarının müasirləşdirilməsi vacibdir. Bu yanaşmalar tələbələrin bilik və bacarıqlarını artırmağa və tədris prosesini daha səmərəli təşkil etməyə yönəlib. Keyfiyyətin təmin edilməsi kolleclərin idarə olunmasında əsas məqsəddir və beynəlxalq standartlara uyğunlaşdırılmağı hədəfləyir. Əsas addımlar:

• Müntəzəm monitorinq və qiymətləndirmə ilə təhsil keyfiyyətinin davamlı artırılması.

• Beynəlxalq akkreditasiya ilə qlobal səviyyədə tanınan diplomların verilməsi.

• Məzunların məşğulluq göstəricilərinə əsasən tədris proqramlarının yenilənməsi (4).

***4. İnklüzivlik və əlçatanlıq***

Müasir dövrdə kolleclərin idarə olunmasında inklüzivlik səviyyəsinin artırılması və təhsilin hər kəs üçün əlçatan olmasının təmin edilməsi əsas prioritetlərdən biridir. Bu yanaşma, müxtəlif sosial qruplardan olan tələbələrin təhsilə bərabər çıxışını təmin etməklə, cəmiyyətin bütün təbəqələrinin inkişafına müsbət təsir göstərir. Təhsilin hər bir fərd üçün əlçatan olması kolleclərin idarə olunmasında mühüm prinsiplərdən hesab olunur.

- *Fiziki məhdudiyyətli şəxslər üçün şərait* – Kolleclərdə xüsusi ehtiyacı olan tələbələr üçün əlverişli və uyğun mühitin yaradılması, təhsilin inklüziv xarakterini gücləndirmək baxımından prioritet məsələlərdən biridir.
- *Təhsil kreditləri və təqaüdlər* – Ailəsinin maddi vəziyyəti zəif olan tələbələrin təhsil prosesindən geri qalmaması üçün müxtəlif sosial dəstək proqramlarının həyata keçirilməsi vacibdir.
- *Regionlarda təhsilin inkişafı* – Böyük şəhərlərlə yanaşı, regionlarda da kolleclərin inkişaf etdirilməsi və müasir təhsil infrastrukturunun yaradılması, ölkənin müxtəlif bölgələrində təhsilin keyfiyyətinin bərabər şəkildə yüksəldilməsi məqsədini güdür (1).

***5. Rəqəmsallaşma və texnologiyaların tətbiqi***

İnformasiya-kommunikasiya texnologiyalarının tədris prosesinə inteqrasiyası təhsilin keyfiyyətini artırır və tələbələrin rəqəmsal bacarıqlarını inkişaf etdirir. Bu yanaşma, e-təhsil resursları, onlayn tədris və rəqəmsal qiymətləndirməni əhatə edir.

• Elektron idarəetmə sistemləri tələbələrin qeydiyyatını və akademik göstəriciləri izləyir, tədrisi asanlaşdırır.

• Onlayn və hibrid dərslər təhsilin davamlılığını təmin edir.

• Rəqəmsal resurslar, virtual laboratoriyalar və elektron kitabxanalar tələbələrə müstəqil inkişaf imkanları yaradır və tədrisi interaktiv edir (5).

Kolleclərin idarə olunmasında müasir yanaşmalar təhsil keyfiyyətinin artırılması, tələbələrin daha yaxşı hazırlanması və əmək bazarının tələblərinə uyğun kadr yetişdirilməsinə xidmət edir. Bu yanaşmaların uğurla həyata keçirilməsi kolleclərin müasir dövrün tələblərinə uyğun idarə olunmasını təmin edəcək və təhsil sisteminin davamlı inkişafına töhfə verəcəkdir.

**Problemin aktuallığı.** Orta ixtisas təhsil müəssisələrinin idarəolunmasında müasir yanaşmaların tətbiqi, əmək bazarının dəyişən tələblərinə uyğun kadr hazırlığını və tədris keyfiyyətini artırmağa yönəlmişdir. Bu yanaşmalar, təhsil müəssisələrinin çevik və effektiv idarə olunmasına imkan verir, cəmiyyətin və iqtisadiyyatın ehtiyaclarına cavab verir.

**Problemin elmi yeniliyi.** Müasir idarəetmə yanaşmalarının tətbiqi, tədrisin və idarəetmənin modernləşdirilməsinə və rəqəmsallaşmasına gətirib çıxarır. Elmi yenilik yeni pedaqoji metodların və texnologiyaların təhsil sisteminə inteqrasiyasına əsaslanır, bu da təhsil keyfiyyətini və kadr hazırlığını artırır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Bu yanaşmalar, kolleclərin tədris keyfiyyətini artırır, mütəxəssislərin əmək bazarının tələblərinə uyğun hazırlanmasını təmin edir və idarəetmə proseslərinin effektivliyini gücləndirir. Qeyd olunan yanaşmalar nəticəsində, kolleclər müasir təhsil standartlarına uyğun müstəqil və çevik şəkildə fəaliyyət göstərə bilir.

## Ədəbiyyat

1. "İdarəetmədə yeni trendlər və paradiqmalar" mövzusunda respublika elmi-praktik konfransının materialları. 27 may 2022-ci il. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

2. Kolleclərin innovativ idarəçiliyi və onun təlim keyfiyyətinə təsiri modelləri // Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2022, № 1, s.187-193.

3. Management of Colleges with İnnovative Trends: Indicators, Criteria and Success // American İnternational Journal of Social Sciences. (Print) 1030845/aijss double-blind peer reviewed journal, Bangladesh – September 2018, volume 7, № 3, p. 100-105.

4. Sadiqova S. Təhsildə əsas keyfiyyət faktorları. Azərbaycan məktəbi, № 2, s. 73–80. 2021

5.https://ereforms.gov.az/

6.https://kaspi.az/az

7.https://oxu.az/cemiyyet

**У.Р. Эфендиева**

## Современные подходы в управлении средними специальными образовательными заведениями

### Резюме

Современные подходы к управлению в профессиональном образовании направлены на повышение эффективности образовательных учреждений, улучшение качества обучения и соответствие подготовки требованиям рынка труда. Эти стратегии фокусируются на инновационной педагогике, цифровизации, обеспечении качества и разработке образовательных программ, ориентированных на рынок труда. Интеграция современных технологий, повышение автономии через статус публичного юридического лица и акцент на инклюзивность и доступность дополнительно укрепляют систему. Кроме того, использование цифровых инструментов и онлайн-платформ способствует непрерывному обучению и улучшению учебного процесса. Успешная реализация этих подходов позволит модернизировать профессиональные колледжи, обеспечив их устойчивое развитие и подготовку высококвалифицированных специалистов для рынка труда.

**U.R. Afandiyeva**

**Modern approaches in the management of secondary specialized educational institutions**

**Summary**

Modern management approaches in vocational education aim to enhance institutional effectiveness, improve teaching quality, and align training with labor market demands. These strategies focus on innovative pedagogy, digitalization, quality assurance, and the development of education programs suited to the labor market. The integration of modern technologies, increased autonomy through public legal entity status, and an emphasis on inclusivity and accessibility further strengthen the system. Additionally, the use of digital tools and online platforms facilitates continuous learning and improves the learning experience. Successful implementation of these approaches will modernize vocational colleges, ensuring their sustainable development and the preparation of highly skilled professionals for the labor market.

**Redaksiyaya daxil olub:** 19.02.2025

*UOT 37.1*

# TƏHSİL SİSTEMİNDƏ LİSEYLƏRİN ROLU VƏ İDARƏ EDİLMƏSİ

**Səbinə Fəxrəddin qızı Şükürova**
*SABAH qrupları, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCİD:** 0009-0005-9798-0600
**E-mail:** sabinashukurovaa@gmail.com

***Açar sözlər:*** *təhsil idarəçiliyi, lisey təhsili, təhsilin keyfiyyəti, təhsil islahatları, təhsildə beynəlxalq təcrübə*

***Ключевые слова:*** *управление образованием, лицейное образование, качество обучения, образовательные реформы, международный опыт в образовании*

***Key words:*** *education management, high school education, quality of teaching, educational reforms, international experience in education*

Təhsil hər bir cəmiyyətin rifahı üçün mühüm əhəmiyyət daşıyan bir sahədir. Təhsil sisteminin uğurlu fəaliyyəti ölkənin iqtisadi, sosial və mədəni inkişafına təkan verir. Təhsilin idarə edilməsinin səmərəli təşkili tədrisin keyfiyyətini artırmaq və cəmiyyətin müxtəlif təbəqələrinin bərabər təhsil imkanlarına malik olmasını təmin etmək üçün vacibdir..

Təhsilin idarə edilməsinin nəzəri məsələləri liseylər kontekstində xüsusi əhəmiyyət kəsb edir. Liseylər, şagirdlərin orta təhsilini təmin edən və universitetə hazırlıq mərhələsini əhatə edən təhsil müəssisələridir. Bu səbəbdən, liseylərdə idarəetmə sisteminin düzgün qurulması şagirdlərin akademik nailiyyətlərini, sosial inkişafını və gələcək karyeralarına hazırlığını birbaşa təsir edir. Liseylərin idarə edilməsində səmərəli və effektiv idarəetmə prinsiplərinin tətbiqi, təhsil prosesinin keyfiyyətini yüksəltməklə yanaşı, həm də cəmiyyətin ümumi təhsil səviyyəsini artırmağa kömək edir.

Azərbaycanda liseylər XX əsrin sonlarında təhsil sistemində daha yüksək keyfiyyət təmin etmək məqsədi ilə formalaşmağa başlamışdır. İlk liseylər Azərbaycanın müstəqilliyini əldə etdikdən sonra yaradılmış və orta təhsilin ixtisaslaşmış istiqaməti kimi fəaliyyət göstərmişdir. Liseylər, tələbələrin fənlər üzrə dərin biliklər əldə etməsinə, eyni zamanda onların analitik və tənqidi düşüncə bacarıqlarını inkişaf etdirməyə yönəlmişdir. Tədris prosesində müasir metodlardan istifadə, müxtəlif təhsil proqramları və yeniliklər liseylərin əsas funksiyalarından biridir. Məqsəd şagirdlərin ali təhsil müəssisələrinə qəbul şanslarını artırmaq və onları gələcək peşə fəaliyyətinə daha yaxşı hazırlamaqdır.

Liseylərdə idarəetmə prosesi mürəkkəbdir və müxtəlif funksiyaları əhatə edir. Burada həm akademik fəaliyyətlərin təşkil edilməsi, həm də inzibati məsələlərin idarə olunması vacibdir. Liseylərin idarə edilməsində əsas məqsəd, şagirdlərə yüksək səviyyəli təhsil verərək onları universitet və iş həyatı üçün hazırlamaqdır. Təhsil idarəçiləri bu məqsədə çatmaq üçün müxtəlif strategiyalardan və yanaşmalardan istifadə edirlər. Liseylərdə istifadə edilən əsas yanaşmalar aşağıdakılardır;

Klassik idarəetmə nəzəriyyəsi liseylərin strukturlarının formalaşdırılmasında geniş tətbiq olunur. Liseylərdə iyerarxik idarəetmə strukturları mövcuddur, burada direktor, müavinlər, bölmə rəhbərləri və müəllimlər arasında səlahiyyətlərin aydın bölgüsü həyata keçirilir. Bu yanaşma, məktəb daxilində intizamın və təşkilati strukturun gücləndirilməsinə yönəlib.

Məsələn, lisey direktorları, təhsil proqramlarını planlaşdırmaq və həyata keçirmək üçün müəllim heyəti ilə yaxından əməkdaşlıq edirlər.

Humanist yanaşma liseylərin idarə edilməsində insan amilinə diqqət yetirir. Liseylərdə şagirdlərin və müəllimlərin motivasiyası, onların təhsil nailiyyətlərinə və ümumi mühitə təsir edir. Bu yanaşma, liseylərin idarə edilməsi zamanı daha çox kommunikasiya, əməkdaşlıq və dəstək mühitinin yaradılmasını nəzərdə tutur. Lisey rəhbərliyi, şagirdlərin təhsilə marağını artırmaq üçün müxtəlif mükafatlandırma sistemləri (məsələn, akademik mükafatlar, sosial fəaliyyətlər) tətbiq edə bilər. Müəllimlərin motivasiyasını artırmaq üçün isə əlavə təlimlər, sertifikat proqramları və maliyyə təşviqləri nəzərdə tutula bilər.

Liseylər bir çox alt-sistemlərdən (məsələn, akademik proqramlar, sosial fəaliyyətlər, inzibati dəstək) ibarət olan mürəkkəb təhsil müəssisələridir. Sistem yanaşmasına görə, liseyin uğuru bu alt-sistemlərin bir-birilə uyğunluğundan asılıdır. Liseylərin idarə edilməsi prosesində müxtəlif şöbələr arasında koordinasiyanın təmin edilməsi əsas prioritetlərdən biridir. Məsələn, akademik və psixoloji dəstək xidmətlərinin inteqrasiyası şagirdlərin ümumi inkişafını dəstəkləyir.

Hər bir liseyin özünəməxsus xüsusiyyətləri və çətinlikləri vardır. Situasiya yanaşması liseylərin idarə edilməsində çevikliyə və adaptasiya qabiliyyətinə diqqət yetirir. Lisey rəhbərləri, konkret situasiyaya uyğun idarəetmə qərarları qəbul edərək məktəbin spesifik ehtiyaclarına cavab verə bilirlər. Məsələn, sıx imtahan qrafiki zamanı əlavə tədris saatlarının təşkili situasiyaya uyğun qərarlardan biridir.

Ümumiyyətlə, bu yanaşmalara nəzər saldıqda, liseylərdə tək bir yanaşmadan deyil, müxtəlif yanaşmaların kompleks şəkildə istifadə edildiyi görünür. Liseylərdə tətbiq olunan yanaşmaların müxtəlifliyi təhsil prosesinin daha çevik və hərtərəfli olmasını təmin edir. Liseylərdə tətbiq olunan müxtəlif yanaşmaların ən mühüm üstünlüyü, şagirdlərin fərdi ehtiyaclarını və öyrənmə sürətini nəzərə alaraq, tədrisin daha effektiv və məqsədyönlü olmasını təmin etməsidir. Həmçinin, bu yanaşmalar şagirdlərə yalnız bilik deyil, eyni zamanda təhlil, müstəqil düşünmə və problem həll etmə bacarıqlarını da qazandırır.

Azərbaycan kontekstində liseylərin idarəedilməsinə nəzər saldıqdan sonra, dünya üzrə lisey təhsilinə baxdıqda, hər təhsil sisteminin fərqli, oxşar cəhətlərini və necə də özünəməxsus olduğunu görə bilərik. Həmçinin, müxtəlif ölkələrdə lisey təhsilinin idarə edilməsinin təcrübəsinin təhlili, dünya miqyasında təhsil sistemlərinin necə fərqləndiyini və oxşar cəhətlərini öyrənmək üçün mühüm əhəmiyyət kəsb edir. Hal-hazırda Finlandiya, ABŞ, Cənubi Koreya təhsil sisteminə nəzər salacağıq.

Finlandiya, dünyada təhsil sisteminin ən mükəmməl və bərabərhüquqlu sistemlərindən biri kimi tanınır. Lisey təhsili ölkənin təhsil siyasətinə uyğun olaraq yüksək standartlara malikdir. Burada idarəetmə əsasən mərkəzləşdirilməmişdir. Yəni, məktəblər öz tədris metodlarını və qiymətləndirmə sistemlərini müəyyən etməkdə sərbəstdirlər [5]. Finlandiya təhsilində şagirdlərin ehtiyaclarına uyğun fərdi yanaşma və təhsilin bərabərliyi əsas prinsipdir. Məktəblər, müəllimlərin peşəkar inkişafını təmin etmək üçün ciddi təlimlər və təhsil proqramları təqdim edirlər. Bununla yanaşı, müəllimlərə yüksək məvacib verilir və onların təhsili üçün geniş resurslar ayrılır.

ABŞ-da lisey təhsili mərkəzləşdirilmiş deyil və hər bir ştat öz təhsil sisteminə malikdir. Lisey təhsili, geniş miqyaslı dövlət və özəl məktəblər arasında fərqlənir. Məktəblər, şagirdləri həm akademik biliklərlə, həm də praktiki bacarıqlarla hazırlamağa çalışırlar. Dövlət

məktəblərində təhsil ödənişsiz olsa da, özəl məktəblər üçün yüksək təhsil haqları tələb oluna bilər. ABŞ-da qiymətləndirmə əsasən testlər və imtahanlar üzərində qurulub. Şagirdlər müxtəlif kurslar seçə bilərlər və bu kurslar onların gələcək karyeralarına təsir edə bilər. Təhsil siyasəti ştatlara bağlı olduğundan, bəzi bölgələrdə yüksək keyfiyyətli təhsil, digərlərində isə məhdud resurslar mövcuddur.

Cənubi Koreya təhsili yüksək rəqabət mühitində inkişaf edib. Lisey təhsili, sərt tədris proqramları və yüksək standartlarla xarakterizə olunur. Cənubi Koreyada təhsil dövlət tərəfindən ciddi şəkildə idarə olunur və bütün məktəblər eyni tədris planlarına uyğun fəaliyyət göstərir. Təhsil həmçinin şagirdlərə fərdi inkişaf və peşə bacarıqlarını inkişaf etdirmək üçün xüsusi təlimatlar təqdim edir [4]. İmtahanlar və testlər çox önəmlidir və şagirdlərin uğuru bu testlərin nəticələrinə əsaslanır. Məktəblər, şagirdləri yalnız akademik baxımdan deyil, həm də cəmiyyətə inteqrasiya etmək üçün hazırlayır. Cənubi Koreya təhsilində sərt qaydalar olsa da, bu, yüksək performansın əldə edilməsinə kömək edir.

Finlandiya, ABŞ, Cənubi Koreya və Azərbaycan liseylərinin idarəetmə strukturları arasında bir sıra oxşar və fərqli cəhətlər vardır:

Finlandiya və Cənubi Koreya təhsil idarəetməsi baxımından mərkəzləşdirilmiş yanaşmanı tətbiq edirlər. Hər iki ölkədə, təhsil proqramları və tədris metodları dövlət tərəfindən müəyyən edilir və məktəblər bu standartlara uyğun fəaliyyət göstərir. Bu, təhsildə bərabərliyi təmin edir və hər bir şagirdə eyni keyfiyyətdə təhsil verilməsini təmin edir. ABŞ-da isə təhsil idarəetməsi çoxsaylı ştatlar və regionlar tərəfindən həyata keçirilir. Hər ştat öz təhsil siyasətini müəyyən edir və məktəblər yerli tələblərə uyğun olaraq tədris proqramlarını seçir. Bu, təhsildə müxtəliflik yaratsa da, eyni zamanda regionlar arasında keyfiyyət fərqlərinə yol aça bilər. Azərbaycanın təhsil idarəetməsi mərkəzləşdirilmişdir, lakin yerli təhsil strukturlarına müəyyən sərbəstlik verilmişdir. Dövlət tərəfindən müəyyən edilən tədris proqramları və qiymətləndirmə sistemləri olsa da, məktəblər müəyyən dərsliklər və tədris materialları seçməkdə sərbəstdirlər.

Liseylərdə təhsilin idarə edilməsi, şagirdlərin gələcək uğurlarına əsas hazırlıq mərhələsi hesab olunur. Müxtəlif ölkələrin təcrübəsindən öyrənərək, Azərbaycanda lisey təhsilinin idarə edilməsi sahəsində daha səmərəli metodların tətbiqi mümkündür. İdarəetmə formaları və metodlarının düzgün seçilməsi təhsil prosesinin keyfiyyətini artıraraq, gələcək nəslin daha yaxşı təhsil almasına zəmin yaradır. Azərbaycanda təhsilin idarə edilməsi sistemində beynəlxalq təcrübələrin tətbiqi, xüsusilə Finlandiya, ABŞ və Cənubi Koreya təcrübələrindən istifadə, təhsil sistemimizin daha da inkişafına kömək edə bilər.

**Problemin aktuallığı.** Liseylərin idarə edilməsi təhsil sisteminin əsas komponentlərindən biridir və şagirdlərin akademik uğurlarına, sosial inkişafına və gələcək karyeralarına birbaşa təsir edir. Müasir dövrdə qlobal təhsil tendensiyalarına uyğunlaşmaq, innovativ idarəetmə modellərindən istifadə etmək və təhsilin keyfiyyətini artırmaq üçün yeni yanaşmalara ehtiyac var. Azərbaycanda lisey təhsilinin inkişaf etdirilməsi və beynəlxalq təcrübədən yararlanaraq daha səmərəli idarəetmə mexanizmlərinin tətbiqi vacib məsələlərdəndir.

**Problemin elmi yeniliyi.** Məqalədə müxtəlif idarəetmə yanaşmalarının tətbiqi, beynəlxalq təcrübələrin təhlili, müasir təhsil yanaşmalarının tətbiqi və idarəetmə strukturlarının təkmilləşdirilməsi kimi məsələlər müzakirə edilir. Bu yeniliklər, lisey təhsilinin idarə edilməsi sahəsində yeni yanaşmaların inkişafına və təhsil sisteminin ümumi keyfiyyətinin artırılmasına töhfə verir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Bu tədqiqat liseylərin idarə edilməsində səmərəli strategiyaların hazırlanmasına və təhsil keyfiyyətinin artırılmasına töhfə verə bilər. Müəllim və rəhbər heyət üçün optimal idarəetmə üsullarının müəyyən edilməsi, şagirdlərin akademik və sosial bacarıqlarının inkişafına dəstək olacaqdır. Bundan əlavə, Azərbaycan təhsil sistemində beynəlxalq təcrübədən istifadə etməklə, təhsilin daha çevik və səmərəli idarə olunması üçün yeni yanaşmaların tətbiqinə imkan yaradır.

### Ədəbiyyat

1. Əliyeva S. Məktəbin idarə edilməsinin pedaqoji, psixoloji əsasları: Metodik vəsait. Bakı, 2021.
2. Orucova G. Məktəbdaxili idarəetmənion humanistləşdirilməsinin pedaqoji əsasları. Bakı, 2021.
3. http://koreaneducentreinuk.org/en/education-in-korea/
4. OECD. Review on Evaluation and Assessment in Education: Lessons from Finland. OECD Publishing. 2012

**С.Ф. Шукюрова**

**Роль и управление лицеями в системе образования**
**Резюме**

В статье рассматривается управление средними школами и его влияние на академические успехи студентов и их будущую карьеру. Анализируются различные подходы к управлению, такие как классический, гуманистический, системный и ситуационный подходы, и их применение в азербайджанских школах. Сравнение с Финляндией, США и Южной Кореей выявляет сходства и различия в образовательных системах. Исследование подчеркивает важность внедрения международных лучших практик для улучшения качества образования в Азербайджане, обеспечивая более эффективную и инклюзивную образовательную среду.

**S.F. Shukurova**

**The role and management of lyceums in the education system**
**Summary**

This article explores the management of high schools and its impact on students' academic success and future careers. It examines different management approaches, such as classical, humanistic, system-based, and situational models, and their application in Azerbaijani high schools. A comparison with Finland, the U.S., and South Korea highlights similarities and differences in education systems. The study emphasizes the importance of adopting international best practices to improve education quality in Azerbaijan, ensuring a more effective and inclusive learning environment.

**Redaksiyaya daxil olub:** 19.02.2025

*UOT 378.4:303.722*

# MOTİVASİYA ƏSASLI İDARƏETMƏ METODLARI: ŞAGİRDLƏRİN AKADEMİK NAİLİYYƏTLƏRİNİN ARTIRILMASI VƏ AZƏRBAYCAN DİLİ TƏDRİSİNDƏKİ TƏTBİQİ

**Lalə Məhəmmədəli qızı Bəxtiyarlı**
*SABAH qrupları, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCİD:** 0009-0005-7405-0961
**E-mail:** yusufovalala@gmail.com

***Açar sözlər:*** *motiasiyaəsaslı idarəetmə, akademik nailiyyətlər, Azərbaycan dili tədrisi və nəzəriyyələr, interaktiv tədris metodları, şagird fəallığı, təhsil psixologiyası.*

***Ключевые слова:*** *мотивационное управление, академические достижения, преподавание азербайджанского языка и теории, интерактивные методы обучения, активность учащихся, психология образования.*

***Key words:*** *motivation-based management, academic achievements, Azerbaijani language teaching and theories, interactive teaching methods, student engagement, educational psychology.*

Təhsil sistemi cəmiyyətin inkişafında mühüm rol oynayan bir sahədir və bu sahənin keyfiyyəti şagirdlərin motivasiyasına bağlıdır. Şagirdlərin akademik uğurları yalnız onların intellektual qabiliyyətlərinə deyil, həm də təlimə qarşı olan münasibətlərinə və motivasiyalarına əsaslanır. Motivasiya, şagirdlərin tədris prosesinə qatılmağa, müəyyən hədəflər üçün çalışmağa və bu fəaliyyətləri davam etdirməyə həvəs yaradan əsas amildir. Təhsil psixologiyasının müxtəlif yanaşmalarında motivasiya təhsilin vacib bir tərkib hissəsi olaraq qəbul edilir, çünki motivasiya olmadan şagirdlərin uğurlu nəticələr əldə etməsi çətin olur (1).

Azərbaycan dili tədrisi, şagirdlərin dil bacarıqlarını inkişaf etdirmək və analitik düşünmə qabiliyyətlərini artırmaq məqsədini daşıyan vacib bir sahədir. Bu səbəbdən motivasiya əsaslı idarəetmə metodlarının Azərbaycan dili tədrisində tətbiqi xüsusilə böyük əhəmiyyət kəsb edir. Müasir təhsil yanaşmalarının bu sahəyə daxil edilməsi, şagirdlərin dərslərə marağını artırmağa və dil öyrənmə prosesini daha səmərəli etməyə kömək edir (9, s. 57).

Azərbaycan dili dərslərində motivasiya nəzəriyyələrinin tətbiqi, şagirdlərin dərsə marağını artırmaq və onların dil öyrənmə prosesinə cəlb edilməsi baxımından çox önəmlidir. Müxtəlif motivasiya nəzəriyyələri, şagirdlərin öyrənmə fəaliyyətlərinə dair psixoloji, emosional və sosial amilləri nəzərə alaraq, dərs mühitini zənginləşdirir və öyrənməni daha məhsuldar edir.

Pedaqoji və psixoloji bir çox nəzəriyyələrin araşdırılaraq Azərbaycan dilinin tədrisi prosesinə tətbiq olunması şagirdlərin akademik fəaliyyətinə öz müsbət töhfələrini verəcəkdir. Maslounun ehtiyaclar piramidası nəzəriyyəsi, insan ehtiyaclarını fiziki, sosial və psixoloji olaraq müxtəlif səviyyələrə ayırır (7, s. 375). Təhsil sahəsində, şagirdlərin aşağı səviyyəli ehtiyaclarını ödəmək (yəni təhlükəsizlik, sosial əlaqələr və s.) onların daha yüksək səviyyəli ehtiyacları (məsələn, özünü göstərmə, intellektual inkişaf) üçün motivasiya etməyə imkan verir. Azərbaycan dili dərslərində bu nəzəriyyə, şagirdlərin özlərini dərsdə rahat hiss etmələrini təmin edərək, onların təhsil prosesinə daha fəal cəlb edilməsini mümkün edir.

Frederick Herzberg'in İki Faktor Nəzəriyyəsi, şagirdlərin motivasiyasını iki əsas faktorda izah edir: hygiene faktorları və motivasiya faktorları. Hygiene amili, şagirdlərin rahat dərs mühiti, dərs şəraiti, müəllimlə münasibətləri kimi məsələlərə aiddir. Motivasiya amili isə şagirdlərin uğurlarını tanımaq, onları təşviq etmək, onların şəxsi inkişafına dair müsbət geribildirimlər və təkmilləşmə fürsətləri ilə əlaqəlidir. Azərbaycan dili dərslərində bu nəzəriyyə, şagirdlərin dərs mühitində özlərini komfortlu hiss etmələrini təmin etməklə yanaşı, həm də onların uğurlarını tanımaqla motivasiyanı artırır (6, s. 62). Edward Deci və Richard Ryan'ın özünü müəyyənləşdirmə nəzəriyyəsi, daxili motivasiyanın əhəmiyyətini vurğulayır. Bu nəzəriyyə, insanın hərəkətlərinin öz maraqları və daxili ehtiyacları ilə idarə olunduğunu nəzərdə tutur. Azərbaycan dili dərslərində özünü müəyyənləşdirmə nəzəriyyəsinin tətbiqi, şagirdlərin təhsildə öz məqsədlərini müəyyən etmələrinə kömək edir (10, s. 112). Şagirdlər öz maraqlarına uyğun mövzuları öyrənmək istədikdə, dil öyrənməyə daha çox motivasiya olurlar.

Azərbaycan dili dərslərində motivasiya tətbiqinin bir sıra üstünlükləri vardır ki, dərs zamanı tətbiqində həm müəllimin öyrətmə, həm də şagirdin öyrənmə prosesinə müsbət təsir edəcəkdir:

1. Şagirdlərin fəallığının artırılması: Motivasiya nəzəriyyələri şagirdlərin dərslərdə aktiv iştirak etmələrini təmin edir.
2. Dil bacarıqlarının inkişafı: Şagirdləri yalnız dilin qrammatik və leksik quruluşlarını deyil, həm də dilin mədəni və sosial tərəflərini öyrənməyə təşviq edir (4, s. 21).
3. Yaradıcı düşüncənin stimullaşdırılması: Şagirdlərin tənqidi düşünmə və öz fikirlərini sərbəst ifadə etmə bacarıqlarını inkişaf etdirir (1, s. 255).

Motivasiya, şagirdlərin akademik uğurlarını müəyyən edən mühüm faktor kimi qiymətləndirilir (3, s. 15). Motivasiya əsaslı idarəetmə yanaşmaları tədris prosesində şagirdlərin daxili ehtiyaclarını, maraqlarını və güclərini nəzərə alaraq onların təlimə olan münasibətlərini dəyişdirir. Pozitiv motivasiya təşviq hissini oyadır. Şagirdləri mükafatlandırmaq onların özünə inamını artırır və daha çox çalışmağa həvəsləndirir (5, s. 88). Həmçinin hər şagirdin fərdi xüsusiyyətlərinə uyğun dərs planları hazırlamaq motivasiyanı artırır. Dərs prosesində interaktiv və oyun əsaslı tədris metodlarının şagirdlərin dərsə cəlb olunmasını zəmin yaradır və öyrənməni əyləncəli edir (2, s. 5).

Motivasiya əsaslı idarəetmə metodları şagirdlərin akademik uğurlarına və ümumi inkişafına əhəmiyyətli təsir göstərir. Müasir tədris yanaşmalarında motivasiya nəzəriyyələrinin tətbiqi Azərbaycan dili dərslərini daha effektiv və maraqlı hala gətirə bilər.

**Problemin aktuallığı.** Təhsil sisteminin inkişafı və şagirdlərin akademik nailiyyətlərinin artırılması hər bir ölkə üçün vacib bir məsələyə çevrilmişdir. Azərbaycan təhsilində motivasiya əsaslı idarəetmə metodlarının tətbiqi, şagirdlərin öyrənmə prosesinə daha aktiv cəlb olunmalarına və tədrisin effektivliyinin artırılmasına kömək edir. Motivasiya, şagirdlərin tədrisə olan münasibətlərini və onların müstəqil düşünmə bacarıqlarını inkişaf etdirməyə yönəlmiş ən əsas amil olduğu üçün, bu məsələnin aktuallığı günümüz təhsil sistemində daha da artır. Həmçinin, bu yanaşmaların Azərbaycan dili dərslərində tətbiqi, həm şagirdlərin dil bacarıqlarını inkişaf etdirməyə, həm də müasir tədris metodlarının tətbiqinə müsbət təsir göstərir.

**Problemin elmi yeniliyi.** Bu məqalənin elmi yeniliyi motivasiya əsaslı idarəetmə metodlarının Azərbaycan dili dərslərində tətbiqinin təhsil psixologiyası və pedaqogika sahəsində

daha dərin şəkildə araşdırılmasındadır. Motivasiya nəzəriyyələrinin Azərbaycan dilinə tətbiqi və bu yanaşmaların şagirdlərin dərsə olan maraqlarını artırmadakı təsiri, təhsilin effektivliyinin yüksəlməsində yeni bir metodologiyanın tətbiqini göstərir. Məqalə, bu nəzəriyyələrin real tədris mühitində necə istifadə olunduğunu və şagirdlərin aktivliyini, dil bacarıqlarını və yaradıcı düşünmə qabiliyyətlərini necə artırdığını göstərərək mövcud təhsil metodlarına yenilik gətirir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Motivasiya əsaslı idarəetmə metodlarının praktik əhəmiyyəti Azərbaycan dili dərslərində şagirdlərin təhsil prosesinə daha fəal cəlb olunmasına şərait yaratması ilə özünü göstərir. Bu yanaşmalar, şagirdlərin dərsə olan maraqlarını artırmaqla yanaşı, onların akademik nailiyyətlərini və dil bacarıqlarını inkişaf etdirir. Həmçinin, motivasiya əsaslı yanaşmaların tədris mühitində tətbiqi, müəllimlərin daha effektiv və şagirdlərə uyğun dərs planları hazırlamalarına kömək edir. İnteraktiv və oyun əsaslı tədris metodlarının istifadəsi dərs prosesini əyləncəli və şagirdlər üçün daha cəlbedici edir, bu da ümumi təhsil keyfiyyətinin artırılmasına yönəlmiş önəmli bir addımdır. Bu yanaşmalar, həmçinin şagirdlərin müstəqil düşünmə və özünü ifadə etmə bacarıqlarını inkişaf etdirməklə onların gələcək akademik və peşə həyatında uğur qazanmasına imkan yaradır.

## Ədəbiyyat

1. Əmrulla Paşayev, Fərrux Rüstəmov. Pedaqogika // Elm və təhsil, 2010, s. 249-271.

2. Anderson, C.A. The role of technology in teaching // Educational Technology, 2008, s. 1-8.

3. Brusilovsky, P., & Millán, E. User models for adaptive hypermedia and adaptive educational systems // The Adaptive Web, 2007, s. 3-53.

4. Gee, J. P. What video games have to teach us about learning and literacy // Computers in Entertainment (CIE), 2003, 1(1), s. 20-20.

5. Hattie, J., & Timperley, H. The power of feedback // Review of Educational Research, 2007, 77 (1), s. 81-112.

6. Herzberg, F. The motivation to work. Wiley, 1959.

7.Maslow, A. H. A theory of human motivation // Psychological Review, 1943, 50(4), s. 370-396.

8. Schunk, D. H., Pintrich, P. R., & Meece, J. L. Motivation and learning // Educational Psychology: A Practitioner’s Perspective, 2008, 4 (4), s. 295-310.

9. Tomlinson, C.A. How to differentiate instruction in mixed-ability classrooms. ASCD, 2001.

10. Deci, E. L., & Ryan, R. M. Intrinsic motivation and self-determination in human behavior. Springer Science & Business Media, 1985.

**Л.М. Бахтиярлы**

## Роль мотивационно-управленческих методов в повышении академической успеваемости учащихся и их применение на уроках Азербайджанского языка

**Резюме**

В данной статье рассматривается влияние мотивационно-управленческих методов на академические достижения учащихся и их применение в преподавании азербайджан-

ского языка. Подчеркивается важная роль мотивации в повышении качества образования и укреплении интереса учащихся к обучению. Различные теории мотивации – пирамида потребностей Маслоу, двухфакторная теория Герцберга, а также теория самоопределения Деси и Райана – представлены как основные факторы, влияющие на формирование мотивации в процессе обучения. В статье отмечается, что применение мотивационно-управленческих методов на уроках азербайджанского языка способствует повышению активности учащихся, развитию их языковых навыков и делает учебную среду более интерактивной и привлекательной. В результате применение мотивационных подходов в образовании не только повышает академические достижения учащихся, но и усиливает их интерес к обучению, а также способствует развитию навыков самостоятельного мышления.

**L.M. Bakhtiyarli**

**The role of motivation-based management methods in enhancing students' academic achievements and their application in Azerbaijani language lessons**

**Summary**

This article examines the impact of motivation-based management methods on students' academic achievements and their application in Azerbaijani language teaching. It highlights the important role of motivation in improving the quality of education and strengthening students' interest in learning. Various motivation theories -Maslow's hierarchy of needs, Herzberg's two-factor theory, and Deci and Ryan's self-determination theory - are presented as key factors influencing the formation of motivation in the learning process. The article emphasizes that applying motivation-based management methods in Azerbaijani language lessons increases students' engagement, enhances their language skills, and makes the learning environment more interactive and appealing. Ultimately, integrating motivation-based approaches in education not only improves students' academic performance but also strengthens their enthusiasm for learning and contributes to the development of independent thinking skills.

**Redaksiyaya daxil olub: 07.03.2025**

***MÜƏLLİM HAZIRLIĞI MƏSƏLƏLƏRİ***
***ВОПРОСЫ ПОДГОТОВКИ УЧИТЕЛЕЙ***
***ISSUES IN TEACHER TRAINING***

*UOT 372.851*

# MÜASİR TƏDRİS METODLARININ RİYAZİYYAT VƏ İNFORMATİKA MÜƏLLİMLƏRİNİN HAZIRLIĞINDA TƏTBİQİ

**Elyanə Vidadi qızı Hüseynova**
*SABAH qrupları, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCID:** 0009-0006-7881-2801
**E-mail:** huseynovaeli8@gmail.com

***Açar sözlər:*** *müasir tədris metodları, riyaziyyat müəllimi hazırlığı, informatika müəllimi hazırlığı*
***Ключевые слова:*** *современные методы обучения, подготовка учителей математики, подготовка учителей информатики.*
***Key words:*** *modern teaching methods, mathematics teacher training, informatics teacher training*

Müasir dövrdə təhsil sistemlərinin qarşısında duran əsas çağırışlardan biri müəllim hazırlığı prosesini dövrün tələblərinə uyğun şəkildə yenidən qurmaqdır. Texnologiyanın sürətli inkişafı, elmi biliklərin genişlənməsi və tədris metodologiyalarının təkmilləşməsi təhsil sahəsində yeni yanaşmaların zəruriliyini meydana çıxarmışdır. Xüsusilə riyaziyyat və informatika kimi fənlərdə tədris prosesinin səmərəliliyinin artırmaq üçün müasir tədris metodlarının tətbiqi xüsusi əhəmiyyət daşıyır. Bu metodlar tələbələrin yaradıcı təfəkkürünü inkişaf etdirmək, onların fəal iştirakını təmin etmək və nəzəri bilikləri real problemlərin həllinə tətbiq etmək üçün geniş imkanlar yaradır.

Problemin aktuallığı ondan ibarətdir ki, ənənəvi tədris metodları artıq müasir təhsil tələblərini tam qarşılamır və yeni nəsil müəllimlərin hazırlanması prosesində müasir yanaşmaların tətbiqi qaçılmazdır. Müasir tədris metodlarının əsas üstünlüklərindən biri də onların interaktivliyə, əməkdaşlığa və tələbəyönlü yanaşmaya əsaslanmasıdır. Belə metodlar yalnız biliklərin öyrədilməsi ilə məhdudlaşmır, həm də tələbələrdə tənqidi və analitik düşüncə bacarıqlarını formalaşdırır.

Bu məqalənin məqsədi riyaziyyat və informatika müəllimlərinin hazırlanması prosesində müasir tədris metodlarının tətbiqinin əhəmiyyətini araşdırmaq, bu metodların səmərəliliyini təhlil etmək və onların səmərəli tətbiqi üçün tövsiyələr verməkdir. Məqalədə həmçinin bu metodların tətbiqi zamanı qarşıya çıxan çətinliklər və onların həlli yolları müzakirə olunacaqdır.

**Müasir tədris metodlarının tədris prosesində rolu. Müasir tədris metodlarının tərifi və əsas xüsusiyyətləri.**

Müasir tədris metodları, tələbələrə dərin biliklər qazandırmaq, analitik düşüncə və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək üçün nəzərdə tutulan interaktiv və tələbə mərkəzli yanaşmalar toplusudur. Bu metodlara layihə əsaslı öyrənmə (Project-Based Learning - PBL), problem əsaslı öyrənmə (Problem-Based Learning - PBL) və digər texnologiya dəstəkli yanaşmalar daxildir. Bu yanaşmalar tələbələrin aktiv iştirakını təmin edir, real dünya problemlərinə focuslanır və bilikləri praktik istifadə ilə əlaqələndirir [1].

**İnteraktiv təlim, layihə əsaslı təhsil və problem əsaslı öyrənmə**

**Layihə əsaslı öyrənmə** tələbələrin müxtəlif mövzular üzrə layihələr vasitəsilə bilik və bacarıqlarını inkişaf etdirməsini hədəfləyir. Bu metod tələbələrə real problemlərin həllində iştirak etməyi, kritik düşünmə və əməkdaşlıq bacarıqlarını təkmilləşdirməyi öyrədir. Məsələn, Lucas Education Research-in apardığı araşdırma göstərir ki, layihə əsaslı təhsil üsulları akademik nailiyyətləri əhəmiyyətli dərəcədə artırır və tələbələr arasında sosial və emosional bacarıqları inkişaf etdirir [1].

**Problem əsaslı öyrənmə** isə tələbələri problem həllinə əsaslanaraq bilik əldə etməyə yönəldir. Bu metod tələbələrin avtonom öyrənmə qabiliyyətlərini və yaradıcılıqlarını artırmaqla yanaşı, onlara real həyat problemlərinə yönəlmiş praktiki biliklər verir. Columbia Universiteti tərəfindən yayımlanan araşdırmaya əsasən, problem əsaslı öyrənmə tələbələrin planlama, özünüqiymətləndirmə və əməkdaşlıq bacarıqlarını inkişaf etdirir [2].

**Bu metodların ənənəvi metodlarla müqayisəsi**

Ənənəvi tədris metodları əsasən müəllim mərkəzli olduğu halda, müasir metodlar tələbə mərkəzlidir. Layihə və problem əsaslı öyrənmə metodları biliklərin uzunmüddətli yadda saxlanmasını təmin edir, tələbələrin öyrənmə prosesində iştirakını artırır və daha dərin anlayış yaradır. Lucas Education Research-in tədqiqatına görə, layihə əsaslı metodlardan istifadə edən tələbələr akademik testlərdə daha yüksək nəticələr göstərirlər [1].

**Effektivlik və üstünlüklər**

Bu metodlar təkcə akademik nəticələri artırmır, eyni zamanda tələbələrin emosional və sosial bacarıqlarını da inkişaf etdirir. Məsələn, Michigan Universiteti tərəfindən aparılan tədqiqat göstərir ki, layihə əsaslı öyrənmə daha çox iştirak tələb edir və tələbələr arasında əməkdaşlığı gücləndirir [1].

**Riyaziyyat və informatika müəllimlərinin hazırlığında yeni yanaşmalar**

**Riyaziyyat müəllimlərinin hazırlığı üçün müasir metodların tətbiqi**

Müasir tədris prosesində interaktiv metodların tətbiqi müəllimlərin hazırlıq səviyyəsini artırmaq üçün əsas vasitələrdən biridir. Məsələlərin həllində interaktiv yanaşmalar, xüsusilə GeoGebra və digər rəqəmsal alətlərin istifadəsi, müəllimlərin texnoloji bilikləri ilə yanaşı, pedaqoji və məzmun biliklərini də gücləndirir. Araşdırmalar göstərir ki, interaktiv metodların tətbiqi müəllimlərin məntiqi düşüncələrini inkişaf etdirir və şagirdlərə problem həll etmə bacarıqlarını daha yaxşı öyrətməyə imkan yaradır [3].

Bundan əlavə, layihə əsaslı tədris və simulyasiya texnologiyalarının istifadəsi riyaziyyat müəllimlərinin problemləri analiz etmək və həll etmək bacarıqlarını inkişaf etdirir. Tədqiqatlar göstərir ki, texnologiyanın inteqrasiyası müəllimlərin "texno-riyazi savadlılıq" səviyyəsini yüksəldir və onların tələbələrə müasir tədris metodlarını səmərəli şəkildə tətbiq etməsinə imkan yaradır [4].

**İnformatika müəllimlərinin hazırlığında texnoloji vasitələrin rolu**

İnformatika müəllimlərinin hazırlığında rəqəmsal platformaların və proqramlaşdırma mühitlərinin istifadəsi əhəmiyyətlidir. İnformatika müəllimləri üçün tədris proqramlarının optimallaşdırılması, tələbələrin təcrübə əsaslı öyrənmələrinə şərait yaradır. Araşdırmalar göstərir ki, rəqəmsal alətlərdən istifadə tələbələrə daha praktik bacarıqlar qazandırır və onlara real dünya problemlərinin həllində texnologiyadan istifadəni öyrədir [5].

Bundan əlavə, onlayn resurslar və açıq mənbələr vasitəsilə tədris prosesinə müasir texnologiyaların inteqrasiyası müəllimlərə daha geniş tədris imkanları təqdim edir. Bu yanaşmalar müəllimlərin təkcə texniki biliklərini deyil, həm də pedaqoji bacarıqlarını gücləndirir, bu da şagirdlərə müasir dünya ilə daha uyğun bacarıqlar öyrətməyə imkan verir [5, s 6].

**Müasir tədris metodlarının tətbiqi üçün effektiv idarəetmə mexanizmləri**

**Tədris prosesində müasir metodların tətbiqini dəstəkləyən idarəetmə modelləri**

Müasir tədris metodlarının uğurlu tətbiqi üçün idarəetmə mexanizmləri mərkəzi rol oynayır. Bu modellər arasında müəllimlərin peşəkar inkişaf proqramları, tədris mühitinin təkmilləşdirilməsi və resursların əlçatanlığı xüsusi yer tutur. Məsələn, müəllimlərin inkişafı üçün davamlı peşəkar təlimlər, mentorluq proqramları, həmyaşıdlarla əməkdaşlıq əsasında təşkil edilmiş tədris mühiti və rəqəmsal vasitələrdən istifadə mühüm əhəmiyyət kəsb edir. Bu yanaşma tədris metodlarının daha təsirli şəkildə həyata keçirilməsinə yardım edir [7, s 8].

**Müəllimlərin hazırlıq prosesində qarşıya çıxan çətinliklər və onların həlli yolları**

Müasir metodların tətbiqində əsas problemlərdən biri maddi-texniki bazanın zəifliyidir. Bu məsələnin həlli üçün rəqəmsal resursların təmin edilməsi və yeni texnologiyalarla bağlı təlimlərin təşkili vacibdir. Digər çətinliklərdən biri müəllimlərin müasir tədris yanaşmalarını öyrənməyə vaxt ayırmaq imkanlarının məhdud olmasıdır. Bunun həlli üçün davamlı və işə inteqrasiya olunmuş təlimlər təklif olunmuşdur [9]. Əlavə olaraq, müəllimlərin öz tədris strategiyalarını reflektiv şəkildə dəyərləndirmələrinə imkan yaradan metodlar onların praktik biliklərini artırır [10].

**Nəticə və tövsiyələr. Araşdırmanın nəticələrinin ümumiləşdirilməsi.**

Bu araşdırma göstərdi ki, müasir tədris metodları riyaziyyat və informatika müəllimlərinin hazırlığına əhəmiyyətli təsir göstərir. İnteraktiv yanaşmalar, layihə əsaslı və problem həllinə yönəlmiş metodlar müəllimlərin tədris bacarıqlarını inkişaf etdirir və tələbələrin öyrənmə prosesində daha fəal iştirakını təmin edir [9, 8]. Eyni zamanda, rəqəmsal platformalar və texnologiyalardan istifadə müəllimlərin texnoloji biliklərini artırır və təhsildə innovativ həllərin tətbiqini təşviq edir [7]. Bu metodlar tələbələrin uzunmüddətli bilikləri yadda saxlamasını və tədrisin keyfiyyətinin artırılmasını təmin edir.

**Tədris prosesinin inkişaf etdirilməsi üçün tövsiyələr:**

**1. Müəllimlərin peşəkar inkişafına investisiya.**

Müəllim hazırlığı mərkəzlərində müasir təlim metodlarına fokuslanmış xüsusi proqramların tətbiqi təşviq edilməlidir. Davamlı peşəkar inkişaf üçün müəllimlərə nəzəri və praktik təlimlər təklif olunmalıdır [8].

**2. Maddi-texniki bazanın gücləndirilməsi.**

Rəqəmsal resursların, texnoloji vasitələrin və virtual tədris mühitlərinin təmin edilməsi vacibdir. Bu, müəllimlərin müasir metodlardan səmərəli istifadə etməsinə imkan yaradacaqdır [9].

**3. Reflektiv tədris prosesinin təşviqi.**

Müəllimlərə öz tədris yanaşmalarını təhlil etmək və inkişaf etdirmək üçün şərait yaradılmalıdır. Reflektiv tədris prosesi onların metodologiyalarını davamlı olaraq təkmilləşdirməyə kömək edir [10].

**4. Texnoloji alətlərin tətbiqi strategiyaları.**

Proqramlaşdırma mühitləri, simulyasiya və modelləşdirmə vasitələri informatika müəllim-

lərinin hazırlığında səmərəli tətbiq edilməlidir. Bunun üçün texnoloji vasitələrlə işləmə üzrə praktiki təlimlər keçirilməlidir [7].

**Problemin aktuallğı.** Müasir dövrdə təhsil prosesində riyaziyyat və informatika müəllimlərinin hazırlanmasında müasir tədris metodlarından istifadə etmək əsas tələblərdən biridir. Bu metodların tətbiqinin müəllimlərin peşəkar inkişafına və tələbələrin tədris prosesində fəal iştirakına qazandırdığı müsbət cəhətlər, eləcə də onların pedaqoji əhəmiyyətinin araşdırılması günümüzün aktual məsələlərindən biridir.

**Problemin elmi yeniliyi.** Riyaziyyat və informatika müəllimlərinin hazırlanmasında müasir tədris metodlarının, xüsusən də texnologiya əsaslı yanaşmaların tətbiqi tədris prosesində innovativ dəyişikliklər yaratmış və bu sahənin gələcəkdə də inkişafı gözlənilir. Bu metodlar təhsil keyfiyyətinin artırılmasında mühüm rol oynayır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə, orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbələr və magistrantlar üçün praktiki rəhbərlik kimi istifadə oluna bilər. Bu, onların müasir tədris metodlarını öyrənməsinə və tədris prosesində səmərəli tətbiq etməsinə yardım edəcəkdir.

## Ədəbiyyat


1. Lucas Education Research. (2022). The Evidence Is Clear: Rigorous Project-Based Learning Is an Effective Lever for Student Success. Retrieved from https://www.lucasedresearch.org

2. Columbia University Center for the Professional Education of Teachers. (2020). Problem-Based Learning: Putting Problems Into Practice. Retrieved from

3. Silva, M., Santos-Trigo, M., Jacinto, H., & Carreira, S. (2021). *Knowledge for teaching mathematical problem-solving with technology*. European Journal of Science and Mathematics Education, 11(1), 105-122. Retrieved from https://files.eric.ed.gov/fulltext/EJ1309582.pdf.

4. Hoyles, C., Noss, R., & Kent, P. (2010). *Techno-mathematical literacies in the workplace: Improving workplace learning and teaching through digital technologies*. Educational Studies in Mathematics, 74, 197–218. DOI: 10.1007/s10649-010-9233-y.

5. National Council of Teachers of Mathematics (NCTM). (2020). *Principles to Actions: Ensuring Mathematical Success for All*. Retrieved from https://www.nctm.org.

6. Saderholm, J., Amick, L., Mohr-Schroeder, M. J., & Viera, J. (2022). *Teaching Mathematics with Technology: TPACK and Effective Teaching Practices*. Educational Sciences, 12(2), 133. DOI: 10.3390/educsci12020133.

7. Robinson, V. M. J., & Timperley, H. S. (2009). The leadership of the improvement of teaching and learning: Lessons from initiatives with positive outcomes for students. Australian College of Educators.

8. Walter, C., & Briggs, J. (2012). What professional development makes the most difference to teachers?. Oxford University Press.

9. Higgins, S., Coe, R., & Major, L. E. (2015). What makes great teaching?. London: Sutton Trust.

10. Cambridge University Press. (2023). Rationale and characteristics of effective CPD. Retrieved from Cambridge.org. https://cpet.tc.columbia.edu

**Э.В. Гусейнова**

**Применение современных методов обучения при подготовке учителей математики и ИТ**
**Резюме**

Современные методы обучения играют решающую роль в повышении качества образования и улучшении обучения студентов. В этой статье рассматривается их применение в подготовке учителей математики и информатики. В ней сравниваются современные и традиционные подходы к обучению, приводятся примеры интерактивного, проблемно-ориентированного и проектно-ориентированного обучения, а также обсуждается использование цифровых технологий. Кроме того, в ней анализируются механизмы управления, необходимые для эффективной реализации, и рассматриваются связанные с этим проблемы. Результаты подчеркивают положительное влияние современных методов на подготовку учителей, подчеркивают необходимость инноваций и предлагают рекомендации для более широкого внедрения.

**E.V. Huseynova**

**Application of modern teaching methods in the training of mathematics and computer science teachers**
**Summary**

Modern teaching methods play a crucial role in enhancing the quality of education and improving student learning. This article explores their application in training mathematics and informatics teachers. It compares modern and traditional teaching approaches, provides examples of interactive, problem-based, and project-based learning, and discusses the use of digital technologies. Additionally, it analyzes the management mechanisms required for effective implementation and addresses related challenges. The findings highlight the positive impact of modern methods on teacher training, emphasize the need for innovation, and offer recommendations for broader adoption.

**Redaksiyaya daxil olub:** 07.02.2025

# PSİXOLOGİYA
# ПСИХОЛОГИЯ
# PSYCHOLOGY

***ÜMUMİ PSİXOLOGİYA***
***ОБЩАЯ ПСИХОЛОГИЯ***
***GENERAL PSYCHOLOGY***

*UOT 159.9*

## BİHEVİORİZM NƏZƏRİYYƏSİ PERSPEKTİVİNDƏ İNTİHAR PROBLEMİ

**Məhərrəm Sabir oğlu Əliyev**
*Azərbaycan Dillər Universitetinin elmlər doktoru*
*proqramı üzrə qiyabi doktorantı,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya*
*kafedrasının dosenti, psixologiya üzrə fəlsəfə doktoru*
**ORCID:** 0000-0002-3762-8745
**E-mail:** dos.m.aliyev@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v22.i1.10

***Açar sözlər:*** *intihar, biheviorizm, möhkəmləndirmə, klassik şərtlənmə, operant şərtlənmə, müşahidə yolu ilə öyrənmə*

***Ключевые слова:*** *самоубийство, бихевиоризм, подкрепление, классическое обусловливание, оперантное обусловливание, обучение через наблюдение*

***Key words:*** *suicide, behaviorism, reinforcement, classical conditioning, operant conditioning, observational learning*

Bihevioristik nəzəriyyələr ətraf mühitin təsirlərinə, öyrənilmiş davranışlara və möhkəmləndirmə nümunələrinə diqqət yetirməklə intiharı anlamaq və həll etmək üçün etibarlı çərçivə təklif edir. Bu prinsipləri müasir terapevtik yanaşmalarla birləşdirərək, davranışçılar intihar riskini azaltmaq və dözümlülüyü artırmaq üçün effektiv müdaxilələr hazırlaya bilərlər.

### *Giriş*

Bihevorist nəzəriyyələrdən yola çıxaraq intiharı öyrənmək, daxili psixi vəziyyətlərə və ya şüursuz proseslərə deyil, müşahidə edilə bilən davranışlara və ətraf mühitin təsirlərinə diqqət yetirərək bu problemin həllinə fokuslanmağı əsasdır. Biheviorizm şərtlənmə və möhkəmləndirmə yolu ilə öyrənməyi vurğulayır. Bu isə, intihar davranışının inkişafı və dəstəklənməsi haqqında təsəvvür yarada bilər. Bu anlamda məqalənin məzmununu təşkil edəcək strukturu təxminən növbəti şəkildə tərtib edə bilərik.

Birincisi, bihevorist nəzəriyyələr davranışın formalaşmasında xarici stimulların rolunu vurğuladığı üçün intiharı anlaya bilmək adına ətraf mühitin stimullarını və amillərini təhlil etmək məqsədəuyğun olar. Maraqlıdır ki, hansı ətraf mühit faktorları (travma, stress və ya imtina kimi) intihar davranışından öncə gəlir? Biheviorizmə görə, cavab, əlbəttə ki, möhkəmləndirmə olacaq. Bu (müsbət və ya mənfi anlamda), intihar davranışı ehtimalını

möhkəmləndirir, yoxsa artırır? Meditasiya, stressdən xilas olmaq və ya hədsiz emosiyaları azad etmək kimi amillər möhkəmləndirici rolunu oynaya bilərmi?

İkincisi, intiharı izah edə bilmək adına klassik və operant şərtlənməni istifadə edə bilərik. Klassik şərtlənmə stimullar arasındakı assosiasiyaların öyrənilmiş davranışa necə gətirə biləcəyini izah edir. Xarici və emosional amillər (məsələn, konflikt, itki) suisidal düşüncə yaxud əməllərlə necə əlaqəlidir? Məkan, yaxud ildönümü kimi konkret siqnallar özünə zərərverməyə götürəcək şərti cavab triqqeri ola bilər. Davranışın nəticələrinə fokuslanan operant şərtlənmə intiharla bağlı davranış haqqında təsəvvür verə bilər. Həm müsbət və mənfi möhkəmləndirmə, həmçinin cəza intihar davranışını və ya intihara cəhdi açıqlamaq üçün imkan yaradır. Məsələn, a) bəzi insanlar üçün suisidal davranış empatiyanın yaxud marağın ifadəsi ilə müşayiət edilə bilər, hansı ki, müvafiq davranışı möhkəmləndirir (müsbət); b) intihar cəhdi dözülməz ağrıdan yaxud stressdən qaçışı təmin edə bilər, hansı ki, müvafiq davranışı möhkəmləndirir (mənfi); Suisidal cəhd yaxud davranışa görə sosial "damğa" yaxud cəza fərdi fərqlərdən asılı olaraq müvafiq davranışı zəiflədə yaxud dərinləşdirə bilər.

Üçüncüsü, A. Banduranın (1925-2021) sosial öyrənmə (müşahidə ilə öyrənmə) nəzəriyyəsi modelləmənin rolunu vurğulayaraq biheviorizmi genişləndirir (1). KİV-də göstərilən, ailədə yaxud dostlar qrupunda baş verən suisidal davranışın insanlara necə təsir etdiyini müvafiq nəzəriyyə – məsələn, intihar klasterlərini ((ing. cluster — topluluq) — müstəqil vahid kimi nəzərdən keçirilə bilən bir neçə eynicinsli elementlərin birləşməsi) yaxud infeksiyanın nəticələrini modelləmə – ilə izah etmək olar. Eyni zamanda, intiharlar haqqında tarixçənin sosial kontekstdə təsirini öyrənməklə bizi maraqlandıran suala biheviorizm prizmasından cavab vermək olar.

Dördüncüsü, biheviorizm nöqteyi-nəzərindən intiharın qarşısını almaq üçün davranış texnikalarına əsaslanan müdaxilələr tərtib edilir. Geri çəkilməyə və hərəkətsizliyə qarşı mübarizə aparmaq üçün mükafatlandırıcı fəaliyyətlərdə insanların iştirakını təşviq etmək üçün *davranış aktivləşdirilir*. Stresslə mübarizə mexanizmlərini, problem həllini və cavab olaraq intihara olan inamı azaltmaq üçün *ünsiyyət qurmaq bacarığı öyrədilir*. İntihardan qaçmaq və sağlam davranışlara qoşulmaq üçün strukturlaşdırılmış mükafat sisteminin hazırlanması ilə *fövqəladə halların idarə edilməsinə* nail olunur. Şəxsləri təhlükəsiz və idarə olunan şəkildə narahatlıq doğuran stimullara məruz qoymaqla, tədricən təhqiramiz münasibətlər zəiflədilir, nəticədə intihara götürə biləcək *hiperhəssaslıq nəzarət altına alınmış* olur.

Beşincisi, intiharların önlənməsi istiqamətində aparılan davranışçı tədqiqatlar çox vaxt nəzarət edilən eksperimentlərə əsaslanır. Məsələn, mümkün tədqiqatlara aşağıdakılar daxildir: a) Ətraf mühitdəki dəyişikliklərin (məsələn, stress amillərinin və ya gücləndiricilərin dəyişdirilməsi) intihar düşüncələri və ya davranışlarının tezliyinə necə təsir etdiyini yoxlamaq; b) İntihar davranışlarının azaldılmasında möhkəmləndirmə cədvəlləri və ya s. kimi davranış müdaxilələrinin effektivliyinin qiymətləndirilməsi.

Altıncısı, biheviorizm də, öz növbəsində multidissiplinar perspektivdən çıxış edərək, yalnız davranışçılığın izah edə bilmədiyi problemləri həll etmək üçün sosial-koqnitiv və mədəni yanaşmalarla birləşməyə çalışır. Müvəqqəti olaraq o, koqnitiv-davranışçı terapiyanı (KDT) düşüncə və davranış modellərini həll etmək üçün tamamlayıcı üsullarla birləşdirir. Eyni zamanda, intihar davranışının ətraf mühit təsirlərində mədəni fərqlərinin araşdırılması ilə məşğul olur.

Biheviroistik yanaşma müşahidə edilə bilən davranış və praktiki müdaxilələr əsasında intiharın hərtərəfli başa düşülməsini təmin edir.

***Metod.*** Klassik və müasir biheviorizmə həsr olunmuş ədəbiyyatların təhlili nəticəsində alınmış məlumatların sistemləşdirilməsi, təsnif edilməsi və interpretasiyası həyata keçirilmişdir. Müxtəlif biheviooristlərin nəzəri fikirləri və təcrübələri öyrənilmiş, məsələyə münasibətlərinin şərhi həyata keçirilmişdir.

***Nəticə.*** Tarixən intiharın öyrənilməsi psixoloji və sosioloji nəzəriyyələrə tabe olmuşdur, biheviorizm isə özünün müşahidə edilən davranışa və ətraf mühitin gözlənilməz şərtlərinə fokuslanması ilə unikal perspektiv irəli sürür. Biheviorizm nəzəriyyələri ətraf mühitin stimullarının, möhkəmləndirmə modellərinin və mənimsənilmiş assosiasiyaların davranışa, o cümlədən özünə zərərvermə və intiharla bağlı davranışa necə təsir etdiyini qeyd edirlər. İntihar problemi bu məqalədə onun profilaktikası və ona müdaxilə üçün açar anlayışları, potensial əlavə və nəticələri birləşdirərək, biheviorizm nəzəriyyələri çərçivəsində nəzərdən keçirilir.

Öncəliklə, qeyd edək ki, I.P.Pavlov (1849-1936), B.F. Skinner (1904-1990), J.B. Vatson (1878-1958), A. Bandura kimi alimlərin işlərinə əsaslanan biheviorizm müşahidə edilə bilən davranışa fokuslanması və introspektiv metodlardan imtina etməsi ilə xarakterizə olunur. Biheviorizmin intihara baxış bucağını anlamaq üçün onun əsas prinsiplərini təhlil etmək məqsədəuyğun olar:

— Klassik şərtlənmə: öyrənmə stimullar və reaksiyalar arasındakı assosiasiyalar vasitəsilə baş verir (2).

— Operant şərtlənmə: davranış onun möhkəmləndirmə yaxud cəza kimi nəticələri ilə formalaşır (3).

— Müşahidə yolu ilə öyrənmə: davranış başqalarını müşahidə və təqlid yolu ilə qazanıla bilər (1).

İntihara münasibətdə bu prinsiplər ətraf mühitin amillərinin və mənimsənilmiş davranışın suisidal düşüncə və cəhdlərin yaranmasına necə şərait yaratdığını izah etməyə kömək edir.

İntiharla ətraf mühitin triqqerləri arasında əlaqəni düşünsək, biheviorizm qeyd edir ki, davranışın formalaşmasında ətraf mühitin stimullarının rolü var və intihar kontekstində ətraf mühitin bəzi amilləri antesedent (lat. antecedens — “qabaqlayan”, “öncəki”) timsalında çıxış edə bilər:

— *Stress yaradan hadisələr*: sevimli insanın itirilməsi, maliyyə çətinlikləri yaxud şəxsiyyətlərarası konfliktlər suisidal davranışın triqqerləri (ing. trigger — “tətikləyici qarmaq”) ola bilər.

— *Möhkəmləndirən nəticələr*: intihar davranışı diqqətin artması, xoşagəlməz situasiyalardan çıxış və ya emosional ağrının azalması kimi nəticələr verirsə, o, təsadüfən möhkəmləndirilə bilər.

Məsələn, sosial diqqət möhkəmləndirmə kimi çıxış edə bilər. Bəzi insanlar üçün suisidal jestlər yaxud davranışlar digərlərinin əhəmiyyətli diqqətini və qayğısını cəlb edə, nəticədə niyyətsiz şəkildə həmin davranışları möhkəmləndirə bilər.

Klassik şərtlənmə müəyyən stimulların suisidal düşüncə yaxud əməllərlə hansı şəkildə əlaqələndiyini izah edir. Məsələn:

— *Travma və triqqerlər*: müəyyən şəraitdə (məsələn, uşaqlığını keçirdiyi evdə) ağır travma yaşayan insan bu şəraiti çarəsizlik, ümidsizlik hissi ilə assosiasiya edə bilər, bu da, müvafiq mühitin təsiri zamanı intihar riskini artırır.

— *İldönümü və siqnallar*: keçmiş itkilərlə əlaqədar tarixlər yaxud obyektlər potensial olaraq suisidal düşüncələrə gətirə biləcək qüvvətli emosional reaksiyalar doğura bilər.

Bihevioristlər triqqerlər və suisidal impulslar arasındakı əlaqəni zəiflətmək üçün sistematik desensibilizasiyanı yaxud ekspozisiya (lat. expositio — nümayiş etdirmə, təqdimat) terapiyasını istifadə etməklə, nəzarət edilən mühitdə həyəcanlı stimullara qarşı qoymaqda insanlara kömək edirlər.

Operant şərtlənmə araşdırır ki, davranışın nəticələri onun təkrarlanmasına necə təsir göstərir. İntihar kontekstində möhkəmləndirmə ilə yanaşı, cəza da rol oynaya bilər:

— *Mənfi möhkəmləndirmə*: suisidal davranış davranışı möhkəmləndirməklə, dözülməz emosional ağrıdan yaxud stressli situasiyalardan qaçışı təmin edə bilər.

— *Müsbət möhkəmləndirmə*: suisidal jestlərdən sonra qayğının yaxud dəstəyin ifadə edilməsi istəmədən davranışı təşviq edə bilər.

Misal üçün fövqəladə halların idarə edilməsini göstərə bilərik. Müdaxilələr fövqəladə halların idarə edilməsinin elə strategiyalarını özünə daxil edə bilər, harada ki, arzuolunan davranış (məsələn, kömək istəmə, terapiyada iştirak və b.) mükafatlandırma ilə möhkəmləndirilir, suisidal davranış isə bu vaxtı neytral yaxud korreksiyaedici reaksiyalarla qarşılaşır.

Biheviorizmin ilkin nümayəndələrindən biri sayılacaq İ.P. Pavlov "məqsəd refleksi" anlayışını işlədir (4). O yazır ki, *"Məqsəd refleksi insanın həyati enerjisinin əsas formalarından biridir. ... Bütün həyat, onun bütün yaxşılaşmaları, onun bütün mədəniyyəti məqsəd refleksi ilə edilir, yalnız həyatlarında öz qarşılarına qoyduqları bu və ya digər məqsədə can atan insanlar tərəfindən edilir. ... Əksinə, məqsəd yox olan kimi həyat özünə doğru çağırmağı dayandırır."* (4, s. 217). Deməli, Pavlova görə, məqsədi olmayan və ya məqsəd refleksi tormozlanan insanlar intihara meyl edə bilər.

Sosial-koqnitiv nəzəriyyə baxımından insanlar daxili davranış normalarını pozduqda, həyəcanlanmaya və özlərini mühakimə etməyə (özünü cəzalandırmaya) meyllidirlər (5). Suisidal davranış deyəndə, A. Bandura dərk olunmuş istəklə həyatına sonvermə ilə xarakterizə olunan və məqsədi ölüm olan şəxsiyyət davranışını başa düşürdü. Səbəb isə həyatdan könüllü getmək yolu ilə psixotravmatik situasiyanın həll olunması və ya dəyişdirilməsidir.

A. Banduranın sosial öyrənmə nəzəriyyəsi davranışın mənimsənilməsində modelləmənin rolunu qeyd edir. Başqa insanların – istərsə həmyaşıdları, ailəsi yaxud KİV-lər vasitəsilə belə — suisidal davranışını müşahidə etmək təqlid riskini artırır:

— *İntiharla yoluxma*: KİV-lərdə intiharların geniş işıqlandırılması Verter effekti kimi bilinən təqlidedici davranışa gətirib çıxara bilər (6).

— *Ailənin təsiri*: həyatına son verməyə cəhd edən valideynlərin uşaqları bunu dəfetmənin həyati qabiliyyətli mexanizmi kimi nəzərdən keçirməyi öyrənə bilərlər.

Profilaktik strategiyalar nöqteyi-nəzərindən, KİV-lərdə intiharların məsuliyyətli işıqlandırılmasının möhkəmləndirilməsi və pozitiv rol modellərinin möhkəmləndirilməsi müşahidə yolu ilə öyrənmənin təsirini yumşalda bilər. Təhsil proqramları davamlılığı və dəfetmənin sağlam strategiyalarını vurğulaya bilərlər.

Bihevioristik nəzəriyyələrin inkişaf etdirilməsi sayəsində davranış yanaşması intiharların profilaktikası üçün praktiki strategiyalar təklif edir:

— *Davranışın aktivləşdirilməsi*: insanları geri çəkilməyə və hərəkətsizliyə qarşı çıxmaq üçün mükafatlandırıcı və mənalı fəaliyyətlərdə iştirak etməyə həvəsləndirmək.

— *Vərdişlərin öyrədilməsi*: problemin öhdəsindən gəlməyin qeyri-adaptiv mexanizmləri əvəzləmək üçün problem həlli, stresslə mübarizə və emosional tənzimin vərdişlərini öyrətmək.

— *Token iqtisadiyyatı* (mükafat və cəzaların davranışı formalaşdırdığını qeyd edən operant öyrənmə nəzəriyyəsinə əsaslanır): pozitiv davranışa görə mükafat təyin edən sistemin daxil edilməsi, məsələn, terapiyaya getmək yaxud sosial əlaqələrin qurulması.

— *Davranışın funksional təhlili*: müdaxilənin fərdi planlarının işlənilib hazırlanması məqsədilə triqqerlərin, davranışın və nəticələrin üzə çıxarılması.

Koqnitiv-davranış terapiyasının nümayəndələrindən biri olan A.T.Beck (1921-2021) (7; 8) intiharı başa düşmək və müalicə etmək nöqtəsində əhəmiyyətli töhfələr vermişdir. Onun işləri intihar düşüncələri və davranışlarının altında yatan koqnitiv proseslərə diqqət yetirməklə, mənfi düşüncə modelləri və koqnitiv təhriflərin (düşüncə xətalarının) intihar riskinə necə səbəbiyyət verdiyinə dair dəyərli fikirlər təklif edir.

A.Beck yazır ki, *"Bizim müşahidələrin göstərdiyi kimi, depressiv xəstələr ən çox intihar istəklərini iki kateqoriya motivlə əsaslandırırlar. Bəziləri əzab-əziyyətlərinə son qoymaq istəyərək intihar etmək qərarına gəlir və çox ağır gərginlikdən qurtulmağın yeganə yolunu intiharda görürlər. Bu xəstələr, adətən, həyatın "dözülməz" və "mənasız" olmasından danışır və "daimi mübarizədən" yorulduqlarını deyirlər. Digər xəstələr başqalarından istədiklərini almaq ümidi ilə bu addımı atdıqlarını etiraf edirlər."* (8, s.151).

O, depressiya və suisidal düşüncələrin yaranmasında koqnitiv triadanın – özünə (neqativ özünüqavrama: intihara meylli insanlar tez-tez özlərini dəyərsiz və ya başqaları üçün yük kimi hiss edirlər), dünyaya (dünya haqqında pessimizm: onlar dünyanı hədsiz, düşmən və ya dəstəkdən yoxsul kimi qəbul edirlər) və gələcəyə (gələcəklə bağlı ümidsizlik: vəziyyətlərinin heç vaxt yaxşılaşmayacağına inanırlar ki, bu da intiharın əsas göstəricisidir) mənfi baxışın – rolunu qeyd edirdi. A.Beck ümidsizliyi intihar davranışında kritik amil kimi müəyyən etmişdir. O, ümidsizliyin intensivliyinin intihar riski ilə sıx əlaqəli olduğunu, hətta çox zaman depressiyanın özünün şiddətindən daha çox asılı olduğunu aşkar etmişdir (7).

***Müzakirə***

Biheviorist nəzəriyyələr dəyərli fikirlər təqdim etsələr də, yalnız müşahidə edilə bilən davranışa diqqət yetirərək intihar kimi mürəkkəb hadisəni həddindən artıq sadələşdirməyə çalışdıqları üçün tənqid olunurlar. Biheviorizmin koqnitiv və sosial-mədəni perspektivlərlə inteqrasiyası daha tam bir anlayış təklif edir:

— Koqnitiv davranışçı terapiya (KDT): həm təfəkkür, həm də davranış modellərinin həlli üçün biheviorizm prinsiplərini koqnitiv strategiyalar ilə birləşdirir.

— Sosial-mədəni kontekst: mədəni, iqtisadi və sosial amillərin intihar davranışına təsirini qəbul edir.

**Problemin aktuallığı.** İntihar davranışını şətrləndirən amillərin hələ də dəqiq müəyyən edilə bilməməsi möhkəmləndirmə və modelləmə yolu ilə öyrənmə konsepsiyasını inklişaf etdirən biheviorističk nəzəriyyələrə baxışı yenidən aktual edir.

**Problemin elmi yeniliyi.** İlk dəfə məqalədə intihara biheivioristik yanaşmanın müddəaları sistemli işlənilmiş, intiharla bağlı biheivioristik düşüncənin inkişaf yolu təsvir edilmişdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** İntihara biheivioristik nəzəriyyələr perspektivində yanaşmaq möhkəmləndirmə metodlarından istifadə edərək pasiyentlərlə, o cümlədən biheivioristik ədəbiyyatla iş prosesində intihara meyilliliyin əsasında dura biləcək ətraf mühit amillərini aşkar etməyə imkan yaradır.

### Ədəbiyyat

1. Bandura, A. Social Learning Theory: [Electronic resource] / Stanford University. – New York: General Learnıng Press, – 1971. – 46 p.

URL:https://ia803002.us.archive.org/15/items/BanduraSocialLearningTheory/Bandura_SocialLearningTheory.pdf

2. Pavlov, I.P. Conditioned Reflexes: An investigation of the physiological activity of the cerebral cortex [Electronic resource] / An internet resource developed by Christopher D.Green. York University. – Toronto, Ontario. 1927. 15 p. URL: https://psychclassics.yorku.ca/Pavlov/).

3. Skinner, B.F. The Behavior of Organisms. An Experimental Analysis: [Electronic resource] / – New York, – 1938. – 456 p.

URL: https://dn790004.ca.archive.org/0/items/in.ernet.dli.2015.191112/2015.191112.The-Behavior-Of-Organisms-An-Experimental.pdf

4. Павлов, И.П. Рефлекс цели: [Electronic resource] / в Сб: Павлов И.П., Двадцатилетний опыт объективного изучения высшей нервной деятельности (поведения) животных. – М.: «Издательство Наука», – 1973. – с. 214-218.

URL: https://runivers.ru/upload/iblock/8b1/pavlov.pdf

5. Бандура А. Теория социального научения: [Electronic resource] / пер. с англ. Н.Н. Чубарь. – СПб.: Евразия, – 2000, – 320 с. URL: https://www.klex.ru/5bf

6. Phillips, D.P. The influence of suggestion on suicide: Substantive and theoretical implications of the Werther effect: [Electronic resource] / American Sociological Review, Vol. 39, No. 3 (Jun., 1974), pp. 340-354 URL: http://ereserve.library.utah.edu/Annual/SW/6623/Fast/phillips.pdf

7. Hopelessness and eventual suicide: a 10-year prospective study of patients hospitalized with suicidal ideation: [Electronic resource] / A.T. Beck [et al.] // The Am. J. Psychiatry. – 1985. –Vol. 142, № 5. – P. 559-563. URL: https://citeseerx.ist.psu.edu/document?repid=rep1&type=pdf&doi=aa88c668ecdbb3160a268d79498f87dbe467dc51;

8. Когнитивная терапия депрессии: [Electronic resource] / А. Бек, А. Раш, Б. Шо, Г. Эмери. — СПб.: Питер, — 2003. — 304 с.

URL:https://psv4.userapi.com/s/v1/d/HOEUqXbcRQm9sc8w16UXhQOAp95K3nWGzLWjrD_ceDzk8UnYkEYN8LyuBNtAeghmoDc2GiE0mfPvnaNe70C2prRdTDBwqINomq5hAAjSFDFIS8Tr/A_Bek_A_Rash_B_Sho_G_Emeri_-_Kognitivnaya_terapia_depressii_Zolotoy_fond_psikhoterapii_-_2003.pdf

**М.С. Алиев**

**Проблема самоубийства в перспективе теории бихевиоризма**
**Резюме**

Теории бихевиоризма предлагают надежную основу для понимания и решения проблемы самоубийства, фокусируясь на влиянии окружающей среды, усвоенном поведении и моделях подкрепления. Для понимания бихевиористской точки зрения на самоубийство в статье приводится информация о классическом и оперантном обусловливании, включая наблюдательное обучение, а также рассматривается роль их принципов в формировании суицидального поведения. Интегрируя эти принципы с современными терапевтическими подходами, бихевиористы могут разработать эффективные вмешательства для снижения риска самоубийства и повышения устойчивости.

**M.S. Aliyev**

**The problem of suicide in the perspective of behaviorism theory**
**Summary**

Behavioural theories offer a reliable basis framework for understanding and addressing suicide by focusing on environmental influences, learned behaviours and reinforcement patterns. To understand the behavioristic perspective on suicide, the article provides information on classical and operant conditioning, including observational learning, and discusses the role of their principles in the formation of suicidal behaviour. By integrating these principles with modern therapeutic approaches, behavioural scientists can develop effective interventions to reduce suicide risk and increase resilience.

**Redaksiyaya daxil olub:** 05.03.2025

*UOT: 811.111*

**KOQNİTİV MODELLƏŞDİRMƏ PROBLEMLƏRİ (ÇƏRÇİVƏ, SSENARİ, KOQNİTİV MODEL, KONSEPTUAL METAFORA, PSİXİ MƏKAN)**

**Aytən Müzəffər qızı Rəhimli**
*Azərbaycan Dillər Universitetinin*
*İngilis dilinin üslubiyyatı kafedrasının doktorantı*
**ORCID:** 0000-0003-1574-1250
**E-mail:** rehimliayten2@gmail.com

***Açar sözlər:*** *koqnitiv modelləşdirmə, koqnitiv dilçilik, model anlayışı, koqnitiv sistem, mürəkkəb sistemlər, koqnitiv xəritə.*

***Ключевые слова:*** *когнитивное моделирование, когнитивная лингвистика, понятие модели, когнитивная система, сложные системы, когнитивная карта.*

***Key words:*** *cognitive modelling, cognitive linguistics, model concept, cognitive system, complex systems, cognitive map.*

Dilçilikdə koqnitiv modelləşdirmə dilçiliyin mühüm alt sahəsidir. Model anlayışı müxtəlif elmlərdə geniş istifadə olunduğuna görə birmənalı xarakter daşımır. Sosial dilçilikdə model kommunikativ aktın modelləşdirilməsi ilə əlaqələndirilir. Psixolinqvistikada model anlayışı bəzi işarə sistemlərinin, xüsusən də dilin köməyi ilə qurulan ətraf aləmə münasibətdə istifadə olunur. Modelləşdirmə, bir qayda olaraq, müşahidə olunan hadisənin funksional strukturu, xüsusən də tərcümə prosesi haqqında fərziyyələrin yaradılması və sınaqdan keçirilməsindən ibarətdir. Koqnitiv modelləşdirmə dili insanın intellektual fəaliyyəti ilə qırılmaz əlaqəsində öyrənilən koqnitiv dilçilikdə mühüm vasitədir. Koqnitiv model “insan şüurunda dünya haqqında məlumatın işlənməsini və saxlanmasını təmin edən əsas mexanizmdir” (1, s. 58).

Koqnitiv dilçilik yetmişinci illərin sonlarında ortaya çıxan və məlumatın təşkili, işlənməsi və ötürülməsi vasitəsi kimi dilə diqqət yetirən dil təhlili yanaşmasıdır (2, 2007: 3). Koqnitiv dilçilikdə əsasən linqvistik kateqoriyaların konseptual və təcrübi əsaslarının təhlili əsas prioritet sayılır. Koqnitiv dilçilikdə model anlayışı həm də ona görə xüsusi əhəmiyyət kəsb edir ki, o, bu elm çərçivəsində öyrənilən idrak strukturlarının özünün xüsusiyyətləri ilə bilavasitə bağlıdır. “Hazırda koqnisiyanın qarşısında duran əsas vəzifə ondan ibarətdir ki, danışılan dil real dil fəaliyyəti daxilində empirik hərəkət forması kimi öyrənilsin” (3).

Formal modellər insanın idrak qabiliyyətlərinin tədqiqi üçün mühüm vasitədir. Koqnitiv sistemin məlumatı necə dəqiq emal etməsi, yəni mühakimə yürütmək, qərar vermək və ya yeni məlumat öyrənmək birbaşa müşahidə edilə bilməz. Dili modelləşdirmək ideyası bizə elm adamlarının onun istehsal sisteminin, yəni şüurun daxilinə nüfuz etmək üçün çoxdankı arzusunun təbii təcəssümü kimi görünür. “Real obyektin tipoloji xüsusiyyətlərinə əsaslanan süni obyektin qurulması kimi modelləşdirmənin mahiyyəti və modelin özünün müvafiq mahiyyəti tədqiqatın bu prinsipini bir obyektin digərini əvəz etdiyi xüsusi hadisələrə doğru genişləndirməyə imkan verir” (4, s. 38).

Dilçilik sahəsində koqnitiv modelləşdirmə dilçiliyin mühüm alt bölməsinə çevrilir, ayrı-ayrı dil fənlərinin koqnitiv modelləşdirməyə uyğun inkişafına həlledici təsir göstərir. Koqnitiv model müəyyən bir konsepsiya, bacarıq və ya sahə haqqında insan təfəkkürünün təsviridir. "Koqnitiv dil aspektlərinin tədqiqinə həsr olunmuş müxtəlif səviyyəli araşdırmaların olmasına baxmayaraq, həllini gözləyən bir sıra məsələlər hələ də açıq qalır" (5, s.7).

İdrakın güclü vasitələrindən biri heç şübhəsiz insan şüurunun ən böyük yaradıcılıq təntənəsi adlandırıla bilən metafordur. Metaforun koqnitiv konsepsiyasının mahiyyəti ondan ibarətdir ki, o, insan tərəfindən reallığın konseptuallaşdırılması üçün fundamental alət kimi tanınır. Bu nəzəriyyənin əsas tezisi, bizim düşündüyümüz və hərəkət etdiyimiz konseptual sistemin mahiyyətcə metaforik olduğunu və yalnız bu səbəbdən dildə, davranışda və hərəkətlərimizdə metafor mövcud olduğunu iddia etməkdir.

Çərçivə effekti məlumatın təqdimat formasının insan tərəfindən qavranılmasına təsir etdiyi koqnitiv təhriflə bağlıdır. Beləliklə, eyni ifadə söz və semantik vurğulardan asılı olaraq həm mənfi, həm də müsbət mənada, fayda və ya zərər kimi təqdim edilə bilər. Koqnitiv çərçivə mahiyyət etibarilə monolit xarakter kəsb etmir, koqnitiv çərçivədə müxtəlif komponentlər ehtiva olunmuşdur və bu komponentlərin tərkibi bir-biri ilə sıx əlaqədədir. Ümumiyyətlə, koqnitiv çərçivəyə bilik strukturları, koqnitiv strategiyalar, inanclar və sxemlər daxildir.

Şüurumuzda formalaşmış anlayışlar sistemləri dərk etdiyimiz reallığın nizamlanmasında həlledici rol oynayır və onlar dünyanın idrak prosesində formalaşır. Dilçilik elminə münasibətdə modelləşdirmə "bir hadisənin fərziyyə modelinin yaradılması və ardınca linqvistik materialdan istifadə edərək bu modelin yoxlanılmasıdır" (6, s. 17).

Koqnitiv modelin əsasını şifahi mənanın konseptuallaşdırılması üsulu kimi idrak skripti təşkil edir. İdrak skriptinin inkişafı natiq tərəfindən müəyyən edilmiş idrak strategiyalarına və ünsiyyət tapşırıqlarına uyğun olaraq davam edir. "Koqnitiv modelləşdirmə perspektivində məqsəd tələbələrin modelləşdirmə prosesində yaşadıqları çətinlikləri aradan qaldırmaqda hansı mərhələdə olduqlarını müəyyən etmək və modelləşdirmə bacarıqlarının inkişafına töhfə verməkdir" (7, s.483).

Koqnitiv dilçilikdə konseptual metafor və ya koqnitiv metafor bir fikrin və ya konseptual sahənin digəri baxımından başa düşülməsinə istinad edir. Buna misal olaraq, kəmiyyətin istiqamətlilik baxımından başa düşülməsi və ya zamanın pul baxımından başa düşülməsini qeyd edə bilərik. Konseptual metaforlar mürəkkəb fikirləri sadə terminlərlə başa düşmək üçün faydalıdır və buna görə də mücərrəd nəzəriyyə və modellərə fikir vermək üçün tez-tez istifadə olunur.

Əsas nöqteyi-nəzərdən ssenari aşağıdakı ontologiyaya uyğundur: ilkin vəziyyət, hadisələrin ardıcıllığı, son vəziyyət. Başqa sözlə, ssenari zaman ölçüsündə mənbə-yol-məqsəd sxemi ilə qurulur. Ssenarilərdə həmçinin ssenarıdə iştirakçıların məqsədlərini müəyyən edən məqsəd strukturları vardır, metaforik olaraq belə strukturlar mənbə-yol-məqsəd sxemi ilə çatdırılır.

Psixi məkan konseptuallaşdırma və təfəkkür mühitidir, psixi fəzalar nəzəriyyəsinin və konseptual inteqrasiya nəzəriyyəsinin mərkəzi konsepsiyasıdır. "Psixi məkan koqnitiv dilçiliyə J. Fokonyer tərəfindən daxil edilmiş nəzəri konstruksiyadır" (8, s. 18). Burada mürəkkəb sistemləri modelləşdirərkən, obyektləri seçərkən yaradıcı olmaq lazımdır. Əks halda, xüsusiyyətlərin ədədi formada təmsil olunması ilə bağlı çətinliklər yarana bilər.

Konseptual modelləşdirmənin unikallığı ondan ibarətdir ki, o, davamlı fəaliyyət göstərdiyinə və yenilənməsinə görə konkret struktur şəklində təmsil oluna bilməz. Bu xüsusiyyət konsepsiyanın təfəkkür sahəsinə aidiyyətinin aydın təzahürüdür ki, bu da onu təsvir etmək üçün koqnitiv modeldən istifadəni zəruri edir. İstənilən idrak konteksti, istər təkliflər, istər çərçivələr, istər ssenarilər, istərsə də diaqramlar, insan idrakının nəticələrini müəyyən şəkildə strukturlaşdıran müəyyən bilik modeli şəklində təmsil oluna bilər.

**Problemin aktuallığı.** Koqnitiv dilçiliyin tədqiqat obyekti insan idrakının strukturu və funksiyası ilə bağlıdır. Koqnitiv dilçilik linqvistikanın nisbətən yeni bir sahəsi kimi 1980-ci illərin sonunda meydana gəlmiş və 1990-cı illərə qədər formalaşmağa başlamışdır. Koqnitiv dilçilik əsasən insan idrakı vasitəsilə izah olunmalıdır, çünki idrak qabiliyyəti insan biliyinin əsasını təşkil edir. Koqnitiv dilçiliyin tədqiq predmeti koqnitiv konsepsiyadır. Ümumiyyətlə, koqnitiv modelləşdirmə müxtəlif bilik sahələrində geniş şəkildə tətbiq olunur. Modelləşdirmə koqnitiv dilçiliyin əsas metodu kimi mühüm əhəmiyyət kəsb edir. Koqnitiv elm tədqiqatları sahəsindəki modellər araşdırmaçılara mürəkkəb idrak proseslərini simulyasiya etməkdə, proqnozlaşdırmaqda və insan intellektinin tədqiqini sürətləndirməkdə kömək etmək üçün istifadə edilə bilər.

**Problemin elmi yeniliyi.** Son illərdə koqnitiv modelləşdirmə problemlərinin müxtəlif aspektləri tədqiqata cəlb olunmuşdur. Bu araşdırmada isə dilçiliyin koqnitiv strukturlarına (çərçivə, ssenari, koqnitiv model, konseptual metafora, psixi məkan) əsaslanan modelləşdirməsinin işlənib hazırlanmış metodologiyasına vahid analitik yanaşma tətbiq edilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Koqnitiv dilçilik müxtəlif yanaşmaları özündə birləşdirdiyi üçün mühüm praktik əhəmiyyətə malikdir. Koqnitiv modelləşdirmə mürəkkəb idrak proseslərini başa düşmək üçün zəruri dəyər kəsb edir. Ən uyğun koqnitiv modelin seçilməsi üçün tədqiqatçılar modellərin verilənlərə uyğunluğunu tarazlaşdırmalıdırlar. Tədqiqatın nəticələrindən dilçilik fənlərinin tədrisi praktikasında istifadə oluna bilər.

## Ədəbiyyat

1. Маслова В. А. Введение в когнитивную лингвистику: учеб. пособие. Изд-е 5-е. М.: Флинта; Наука, 2011, 296 с.

2. Geeraerts, D. ve Cuyckens, H. Introducing Cognitive Linguistics. The Handbook of Cognitive Linguistics (ss.3- 21), New York: Oxford University Press. 2007

3. Veysəlli F. Koqnitiv dilçilik: əsas anlayışları və perspektivləri. 06 avqust, 2019, https://adu.edu.az/az/xeberler/xeberler/3658.html

4. Бутакова Л. О. Авторское сознание в поэзии и прозе: когнитивное моделирование: монография. Барнаул: Изд-во Алтайского ун-та, 2001. 281 с

5. Abdullayev Ə. Koqnitiv dilçiliyin əsasları. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, Sabah, 2006, 228 s.

6. Беляевская Е. Г. К проблеме моделирования полисемии (межъязыковые соответствия как основание изучения принципов формирования семантической структуры слова) // Вестник Московского государственного лингвистического университета. 2008, № 544. С. 14-22

7. Çoksöyler, A., & Bozkurt, G. Bilişsel Perspektif Bağlamında Matematiksel Modelleme Süreci: Altıncı Sınıf Öğrencilerinin Deneyimleri. Dokuz Eylül Üniversitesi Buca Eğitim Fakültesi Dergisi(52), 480-502. https://doi.org/10.53444/deubefd.930216, 2021

8. Evans V., Bergen K. B., Zinken J. The Cognitive Linguistics Reader. Equinox Publishing, 672 p. 2007

**А.М. Рагимли**

## Задачи когнитивного моделирования (рейк, сценарий, когнитивная модель, концептуальная метафора, ментальное пространство)

### Резюме

Объект исследования когнитивной лингвистики связан со структурой и функцией человеческого познания. Когнитивная лингвистика возникла как относительно новая отрасль лингвистики в конце 1980-х годов и начала формироваться до 1990-х годов. Когнитивную лингвистику следует объяснять главным образом через человеческое познание, поскольку познание является основой человеческого знания. Когнитивный концепт является предметом исследования когнитивной лингвистики. В целом когнитивное моделирование широко применяется в различных областях знаний. Моделирование важно как основной метод когнитивной лингвистики. Модели в исследованиях в области когнитивных наук могут использоваться, чтобы помочь исследователям моделировать и прогнозировать сложные когнитивные процессы и ускорить изучение человеческого интеллекта.

В последние годы в исследования были вовлечены различные аспекты проблем когнитивного моделирования. В данном исследовании применяется единый аналитический подход к разработанной методологии лингвистического моделирования на основе когнитивных структур (фреймворк, сценарий, когнитивная модель, концептуальная метафора, ментальное пространство).

Когнитивная лингвистика имеет важное практическое значение, поскольку сочетает в себе различные подходы. Когнитивное моделирование необходимо для понимания сложных когнитивных процессов. Чтобы выбрать наиболее подходящую когнитивную модель, исследователи должны сбалансировать соответствие моделей данным. Результаты исследования могут быть использованы в практике преподавания лингвистических предметов.

**A.M. Rahimli**

## Cognıtıve modelıng problems (frame, scenarıo, cognıtıve model, conceptual metaphor, psychıc space)

### Summary

The object of study of cognitive linguistics is related to the structure and function of human cognition. Cognitive linguistics emerged as a relatively new field of linguistics in the

late 1980s and began to take shape by the 1990s. Cognitive linguistics can be explained mainly through human cognition, since cognitive ability is the basis of human knowledge. The subject of study of cognitive linguistics is a cognitive concept. In general, cognitive modeling is widely applied in various fields of knowledge. Modeling is of great importance as the main method of cognitive linguistics. Models in the field of cognitive science research can be used to help researchers simulate complex cognitive processes, predict and accelerate the study of human intelligence.

In recent years, various aspects of cognitive modeling problems have been involved in research. In this study, a unified analytical approach is applied to the developed methodology of modeling linguistics based on cognitive structures (framework, scenario, cognitive model, conceptual metaphor, mental space).

Cognitive linguistics has great practical importance because it combines various approaches. Cognitive modeling is of essential value for understanding complex cognitive processes. To select the most appropriate cognitive model, researchers must balance the fit of models to the data. The results of the study can be used in the practice of teaching linguistics.

**Redaksiyaya daxil olub:** 08.01.2025

*UOT 159.9*

# MƏKTƏBƏHAZIRLIQ QRUPLARINDA UŞAQLARIN ŞİFAHİ NİTQİNİN İNKİŞAF ETDİRİLMƏSİNƏ ELMİ YANAŞMALAR

**Səkinə Şamamməd qızı Səmədli**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCID:** 0009-0007-5083-0757
**E-mail:** memmdvasekine@icloud.com

***Açar sözlər:*** *məktəb, nitq, uşaq, elmi yanaşma, inkişaf.*
***Ключевые слова:*** *школа, речь, ребенок, научный подход, развитие.*
***Key words:*** *school, speech, child, scientific approach, development.*

Məktəbəhazırlıq qruplarında uşaqların şifahi nitqinin inkişafı mövzusu pedaqoji prosesin vacib istiqamətlərindən biridir. Bu istiqamətə elmi yanaşma, uşaqların kommunikativ bacarıqlarını təkmilləşdirmək, söz ehtiyatını zənginləşdirmək və düzgün şifahi ifadə vərdişlərini formalaşdırmaq üçün sistemli metodlardan istifadəni tələb edir.

Birinci növbədə, şifahi nitqin inkişafının məzmunu şəxsiyyətyönlü yanaşma prinsiplərinə əsaslanmalıdır. Bu yanaşma uşağın maraqlarını, ehtiyaclarını və özünüifadə tələbatını nəzərə almaqla nitq və kommunikasiya bacarıqlarını təşviq edir. Şifahi nitqin təşəkkülü uşaqda müsbət sosial bacarıqları formalaşdırır, onun öz fikrini açıq şəkildə ifadə etməsinə imkan yaradılmış olur.

Uşaqların şifahi nitqinin inkişafında şəxsiyyətyönlü yanaşma ilə paralel, şəkilli və praktiki öyrənmə prinsipləri vacibdir. Şəkilli materiallar və oyunlar nitqin inkişafında çox effektlidir. Uşaqlar əşyaların böyüklüyünü, rəngini, dadını açıqlamaqla mübadiləyə daxil olur, bununla yanaşı nitq mənimsəmə çərçivəsi genişlənir.

Eyni zamanda, dil və nitqin inkişafını stimullaşdıran mütəmadi məşğuliyyətlər, söhbətlər, nağılların oxunması, söz oyunları kimi xüsusi metodlardan istifadə olunur. Belə metodlar düzgün strukturlaşdırılmış halda uşaqları daha aktiv edir. Bununla yanaşı, bədii ədəbiyyat materiallarının istifadəsi nitqin leksik bazasını şəkilləndirir. Nağıl qiraəti çağırış yaratma bacarıqlarını gücləndirir, şəxsiyyətə düzgün nitq və jestlərin istifadəsini aşılayır.

Alimlərin yanaşmaları bu istiqamətdə mühüm əhəmiyyət daşıyır. Lev Vıqotskinin sosial-psixoloji inkişaf nəzəriyyəsinə əsasən, uşaqların nitq inkişafı onların sosial qarşılıqlı əlaqələrindən və böyüklərlə apardıqları dialoqlardan çox asılıdır. Onun fikrincə, "proximal inkişaf zonası" vasitəsilə uşaqlara bir qədər yüksək səviyyədə tapşırıqlar təqdim etmək nitqin təkmilləşməsinə təkan verir. Bu yanaşma uşaqların potensialını üzə çıxarmaqda əhəmiyyətlidir.

Digər bir alim, Cən Piagenin koqnitiv inkişaf nəzəriyyəsi, uşaqların nitq inkişafını onların ətraf mühiti və öyrənmə təcrübələri ilə əlaqələndirir. Piagenin fikrinə görə, uşaqların dili mənimsəməsi onların ətrafdakı obyektlərlə və hadisələrlə praktiki qarşılıqlı əlaqəsindən asılıdır. Bu, pedaqoji prosesdə praktiki tapşırıqların və oyuna əsaslanan metodların önəmini göstərir.

Jerome Brunerin "konstruktivist öyrənmə" yanaşması da uşaqların şifahi nitqinin inkişafında əhəmiyyətlidir. O, vurğulayır ki, uşaqlar yeni bilikləri mövcud bilik strukturlarına inteqrasiya edərək öyrənirlər. Bu yanaşma uşaq fəaliyyətinə əsaslanan öyrənmə metodlarının əhəmiyyətini vurğulayır.

Howard Gardnerin "Çoxlu Zəka Nəzəriyyəsi" uşaqların müxtəlif zəkalara malik olduğunu və şifahi nitqin inkişafında bu fərqliliklərin nəzərə alınmasının vacibliyini göstərir. Onun fikrincə, dil və nitq bacarıqlarının inkişafı üçün müxtəlif yanaşmalar tətbiq edilməlidir, məsələn, musiqi, vizual və ya kinestetik yanaşmalar.

Maria Montessori isə vurğulayır ki, uşaqların şifahi nitqinin inkişafı üçün mühitin təşkil olunması əsasdır. Montessori metoduna əsasən, uşaq ətraf mühitdən öyrənir və müstəqil şəkildə ifadə bacarıqlarını inkişaf etdirir. Nitqin inkişafı üçün zəngin və stimullaşdırıcı mühit təmin edilməlidir.

Pedaqoqlar şifahi nitq bacarıqlarını təkmilləşdirmək üçün spesifik strategiyalar tətbiq etməlidir. Dialoq öyrətmək, sual-cavab müsbət əlaqə yaratma kimi metodlar uşaqları daha çox nitq təliminə cəlb edir. Sistemli yanaşma nitqin inkişafında daha müsbət nəticələrin əldə olunmasına imkan verir.

Azərbaycan alimləri də məktəbəhazırlıq dövründə uşaqların şifahi nitqinin inkişafına xüsusi diqqət yetirirlər. Professor Nigar Abdullayeva uşaqların nitq inkişafında ana dilinin zənginliyinin öyrədilməsinin əhəmiyyətini vurğulamışdır. Onun fikrincə, nitqin inkişafı yalnız leksik bazanın genişləndirilməsi ilə məhdudlaşmamalı, eyni zamanda uşaqlarda mədəni nitq vərdişləri də formalaşdırılmalıdır.

Professor F. Məmmədova isə qeyd edir ki, məktəbəhazırlıq dövründə uşaqların nitq qabiliyyətlərini inkişaf etdirmək üçün interaktiv metodlardan istifadə olunmalıdır. O, qrup işlərinin, rollu oyunların və sual-cavab formatlı məşğələlərin uşaqların kommunikativ bacarıqlarının artırılmasında böyük rol oynadığını bildirmişdir.

Digər bir tədqiqatçı, Cəmilə Əlizadə, məktəbəhazırlıq mərhələsində bədii ədəbiyyatın istifadəsinin vacibliyini vurğulamışdır. Onun fikrincə, nağıl və hekayələr uşaqların təxəyyülünü inkişaf etdirir və onları daha yaradıcı və sərbəst şəkildə fikirlərini ifadə etməyə təşviq edir.

Pedaqoqlar şifahi nitq bacarıqlarını təkmilləşdirmək üçün spesifik strategiyalar tətbiq etməlidir. Dialoq öyrətmək, sual-cavab müsbət əlaqə yaratma kimi metodlar uşaqları daha çox nitq təliminə cəlb edir. Sistemli yanaşma nitqin inkişafında daha müsbət nəticələrin əldə olunmasına imkan verir.

**Problemin aktuallığı.** Məktəbəhazırlıq qruplarında uşaqların şifahi nitqinin inkişafı müasir təhsil sistemində əsas prioritetlərdən biridir. Erkən yaşda dil bacarıqlarının inkişafı uşaqların ümumi inkişafını, o cümlədən intellektual, emosional və sosial sahələrdəki uğurlarını əhəmiyyətli dərəcədə təsir edir. Şifahi nitq uşaqların həm sosial münasibətlərini qurmasına, həm də məktəbə hazırlıq dövründə təhsil prosesinə uyğunlaşmalarına kömək edir. Bu dövr, uşaqların dil bacarıqlarını formalaşdırmaq və onların təhsil həyatına hazırlamaq üçün mühüm mərhələdir. Məktəbəqədər dövrdə nitq bacarıqlarının inkişafı uşaqların gələcəkdəki akademik və sosial uğurları üçün əsas faktorlardan biridir. Bu baxımdan məktəbəhazırlıq qruplarında uşaqların şifahi nitqinin inkişaf etdirilməsi xüsusilə aktualdır.

**Problemin elmi yeniliyi.** Əlavə olaraq, rəqəmsal texnologiyalar və multimedialı vasitələrin istifadə olunması, uşaqların dil bacarıqlarını inkişaf etdirməkdə yeni bir perspektiv yaratmışdır. İnteraktiv proqramlar və tətbiqlər uşaqların diqqətini çəkərək, onlara oyunla dil öyrənmə imkanı verir. Bu yanaşmalar, uşaqların məntiqi düşüncə qabiliyyətlərini və yaradıcı təfəkkürlərini inkişaf etdirməyə dəstək olur.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Uşaqların şifahi nitqinin inkişafı yalnız akademik müvəffəqiyyətlə əlaqəli deyil, həm də onların sosial bacarıqlarını inkişaf etdirməkdə əsas rol oynayır. Nitq bacarıqları uşaqların öz fikirlərini ifadə etmələrini, başqalarına münasibətlərini düzgün qurmalarını və cəmiyyətdə özlərini daha inamlı hiss etmələrini təmin edir. Məktəbəhazırlıq qruplarında şifahi nitqin inkişafı uşaqların həm sosial uyğunlaşmasını, həm də gələcəkdəki təhsil həyatlarını asanlaşdırır

Uşaqların şifahi nitqinin inkişafını dəstəkləyən müxtəlif metodların tətbiqi praktiki baxımdan çox vacibdir. Bunlar arasında oyun əsaslı öyrənmə, sosial şəbəkələrdə və rəqəmsal mühitdə dil öyrənmə vasitələrinin istifadəsi, interaktiv təlim metodları və fərdi yanaşmalar üstünlük təşkil edir.

## Ədəbiyyat

1. Abdullayeva, N. Azərbaycan dilində uşaqların nitqinin inkişafı. Bakı: Elm və Təhsil. 2010.
2. Bruner, J. The Culture of Education. Harvard University Press. 1996.
3. Əlizadə, C. Bədii ədəbiyyatın məktəbəhazırlıq dövründə uşaqların təxəyyülünə təsiri. Bakı: Təhsil. 2015.
4. Gardner, H. Frames of Mind: The Theory of Multiple Intelligences. Basic Books. 1983.
5. Gergen, K. J., McNamee, S., & Barrett, F. J. (2001). Toward transformative dialogue. International Journal of Public Administration, 24(7-8), 679-707.
6. Məmmədova, F. Məktəbəhazırlıq dövründə uşaqların nitqinin inkişafı. Bakı: Maarif. 2012.
7. Montessori, M. The Discovery of the Child. Ballantine Books. 1967.
8. Piaget, J. The Construction of Reality in the Child. London: Routledge. 1954.
9. Vıqotski, L. S. Sosial-psixoloji inkişaf nəzəriyyəsi. Moskva: Pedoqoji fikir. 1978.

**С.Ш. Мамедова**

## Научные подходы к развитию устной речи детей в дошкольных группах

## Резюме

В статье рассматривается развитие устной речи детей в подготовительных группах, а также системный подход, направленный на совершенствование их коммуникативных навыков, обогащение словарного запаса и формирование правильных речевых привычек. Личностно-ориентированный подход, учитывающий интересы и потребности ребенка, способствует развитию позитивных социальных навыков. Использование наглядных и практических методов обучения, чтение сказок, словесные игры и художественная литература усиливают речевые навыки. Теории Льва Выготского, Жана Пиаже и Джерома Брунера подчеркивают важность социальных и когнитивных факторов в развитии речи у детей. Азербайджанские ученые также отмечают значимость интерактивных методов, групповой работы и ролевых игр в период подготовки к школе. Эти подходы помогают развивать устную речь детей более активно и творчески.

**S.Sh. Mammadova**

**Scientific approaches to the development of oral speech of children in pre-school groups**

**Summary**

This article discusses the development of oral speech in preschool preparatory groups and the need for a systematic approach aimed at enhancing children's communication skills, enriching their vocabulary, and forming correct speech habits. A child-centered approach, which considers the interests and needs of the child, contributes to the development of positive social skills. Visual and practical teaching methods, storytelling, word games, and the use of fiction strengthen speech abilities. The theories of Lev Vygotsky, Jean Piaget, and Jerome Bruner emphasize the importance of social and cognitive factors in children's language development. Azerbaijani scholars also highlight the significance of interactive methods, group activities, and role-playing games during the preschool preparation period. These approaches help children develop oral speech more actively and creatively.

**Redaksiyaya daxil olub:** 21.02.2025

*UOT 372.016:159.9(075.8).*

# PSİXOLOGİYA FƏNNİNİN TƏDRİSİNƏ KREATİV YANAŞMANIN ÇƏTİNLİKLƏRİ VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI

**Reyhan Rəşid qızı Nəsirova**
*Bakı Dövlət Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**ORCİD:** 0009-0005-8490-3710
**E-mail:** reyhanrustemova98@gmail.com

***Açar sözlər:*** *kreativ inkişaf, ali məktəblər, psixologiyanın tədrisi, təlim prosesinə kreativ yanaşma çətinlikləri, strategiya.*
***Ключевые слова:*** *креативности развитие, высшие школы, преподавание психологии, креативность подход к процессу обучения, трудности, стратегии.*
***Key words:*** *creative development, higher schools, teaching psychology, difficulties of a creative approach to the learning process, strategy.*

Elmi texniki tərəqqinin yüksək intellektə malik kreativ insanlar tərəfindən idarə olunduğu indiki dövrdə alimləri insanların kreativ inkişafı ilə bağlı problemlər narahat edir. Kreativ şəxsiyyətin inkişafı mürəkkəb və çox şaxəlidir. Bu mövzu, psixoloqların müəllimlərin, alimlərin maraq dairəsinə daxildir. Dövlətin və təhsil sisteminin inkişafı ilə birlikdə kreativ şəxsiyyətin inkişafına ehtiyac sərəncamlarda, təhsil və tərbiyənin əsas konsepsiyalarında bəyan edilmişdir. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda qeyd olunmuşdur ki, təhsilin əsas məqsədi "geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktik biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaqdır". (1) Bu maddəyə əsasən tələblərin reallaşdırılması bir neçə istiqamətdə fəaliyyətlərin təhlilini və təşkilini nəzərdə tutur. Onlardan ən önəmlisi isə pedaqoji kadr hazırlığı ilə məşğul olan ali təhsil müəssisələrinin keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi və həmin məlumatlara əsasən pedaqoji fəaliyyətin tənzimlənməsidir.

Ali təhsil müəssisələrinin professor-müəllim və tələbələrinin qarşısında duran bir çox problem mövcuddur. Bu məqalədə müzakirə olunanlardan biri psixologiya fənninin tədrisində müəllimlər və tələbələr arasında kreativliyin inkişafını stimullaşdıran kreativ inkişafın zəruriliyi və bu prosesdə qarşıya çıxan çətinliklərin aradan qaldırılması ilə bağlıdır. Bu, müəllimlərin peşəkar hazırlığının üstünlük təşkil edən modellərinin hələ də kreativliyin inkişafı üçün təhsil imkanlarının çox məhdud olduğu bir mədəniyyətdə dərin kök saldığını nəzərə alsaq, xüsusilə aktualdır. Fəal öyrənməni təmin edən və tələbələri digər bacarıqlarla birlikdə kreativlikdən istifadə etməyə sövq edən təlim mühitinin yaradılması bir çox universitet müəllimləri üçün əsas problemlərdən biridir. Bundan əlavə, psixologiya fənninin tədrisi üçün kreativ inkişaf proqramları praktiki olaraq mövcud deyil.

Təlim prosesində kreativlik tələbələrə fürsətlərdən daha yaxşı istifadə etməyə, həmçinin şəxsi və peşəkar fəaliyyətlərində qarşıya çıxan çətinliklərə daha məhsuldar cavab verməyə kömək edir. Kreativliyin tələbələr və onların şəxsi nailiyyətləri, eləcə də cəmiyyət üçün fay-

dalarının olmasına baxmayaraq, hələ də kreativliyin inkişafı təhsildə prioritet deyil. Məsələn, Cropley tədqiqatları zamanı belə bir nəticəyə gəlmişdir ki, Avstraliya universitetləri tələbələrə yeni vəziyyətlərlə üzləşmək, gözlənilməz problemlərin öhdəsindən gəlmək və effektiv strategiyaları mənimsəmək üçün lazımi təlimi təmin etməyiblər. (2)

Psixologiya fənninin tədrisində tələbələrdə kreativliyin inkişafı ilə bağlı çətinliklər Freyer, Lima, Alencar, Gilford və başqaları tərəfindən araşdırılmışdır. Freyer 90 müəllimin elektron poçt sorğusuna verdiyi cavabları təhlil edərək qeyd etmişdir ki, həddən artıq iş yükü, kifayət qədər vaxtın olmaması və resursların qeyri-kafi olması təlimdə kreativliyin inkişafı üçün əsas problemlərdəndir. Alencar və Fleith universitet müəllimlərinin psixologiya qruplarında tələbələrin kreativliyinin inkişafı ilə bağlı əsas maneələr haqqında təsəvvürlərini araşdırmışlar. Nəticələr öyrənmə çətinliyi olan tələbələr, tədris olunan məzmuna marağın olmaması, qrupdakı tələbələrin psixoloji vəziyyəti, həmçinin müəllimlərin öz həmkarları ilə tədris strategiyaları haqqında müzakirə və fikir mübadiləsi imkanlarının az olması əsas problemlər sırasında idi. (3, s.125)

Psixologiya fənninin tədrisi prosesində kreativliyin əhəmiyyəti ali təhsil kontekstində geniş qiymətləndirilməmişdir, çünki ali təhsil müəssisələri tənqidi düşüncəyə daha çox dəyər verir. Tələbələrin müəllimlər tərəfindən çox vaxt kreativ olması gözlənilsə də, psixologiya fənninin tədrisi zamanı kreativlik xüsusi bir mövzu kimi nadir hallarda tədris olunur. Bundan əlavə, bir çox universitet müəllimlərinin tədrisə kreativ yanaşma haqqında məhdud bilikləri diqqət çəkir, çünki onlar da təhsil mühitində kreativliyi necə inkişaf etdirmək barədə ədəbiyyatla tanış deyillər. (4, s.302)

Psixologiya fənninin tədrisinə kreativ yanaşmanı asanlaşdırmaq və qarşıya çıxan problemləri aradan qaldırmaq üçün akademik inkişafın ənənəvi formaları ilə məhdudlaşmayan institusional mədəniyyətin təbliği zəruridir. Tələbələrin kreativlik potensialının inkişafında müəllimlərin mühüm rolu olduğuna görə, onların inkişafında da kreativlik mühüm yer tutmalıdır. Həmçinin müəllimlərin, təlim prosesində tələbələrin kreativliyini inkişaf etdirmək üçün istifadə edə biləcək pedaqoji təcrübəyə, eləcə də kreativ inkişafa təsir edə biləcək müxtəlif amillər haqqında məlumat əldə etmək imkanı olmalıdır. Belə ki, psixologiya fənninin tədrisində bir sıra amillərin nəzərə alınması kreativliyin inkişafına müsbət təsir göstərir. Qeyd olunan amillər aşağıdakılardan ibarətdir. (5, s.183)

1. Kreativliyin inkişafına təsir göstərən əsas psixoloji amillərdən biri assosiativ düşünmək bacarığıdır. Bu proses müxtəlif ideyaları, konsepsiyaları və obrazları birləşdirmək bacarığından ibarətdir ki, nəticədə yeni, orijinal həllər və konsepsiyalar yaranır. Assosiativ düşüncə ənənəvi düşüncənin sərhədlərini genişləndirməyə və problemlərin həllinə qeyri-standart yanaşmalar tapmağa imkan verir. Assosiativ təfəkkürün mühüm komponenti müxtəlif hadisələr və obyektlər arasında əlaqə və asılılıqları görməyə imkan verən analogiya, müqayisə və metafora bacarığıdır.

2. Kreativliyin inkişafına təsir edən psixoloji amillərdən biri də çevik düşünmək bacarığıdır. Bu o deməkdir ki, insan problemin müxtəlif aspektlərini nəzərdən keçirməyi, qeyri-ənənəvi həll yollarını axtarmağı və stereotip yanaşmalardan imtina etməyi bacarır. Çevik düşüncə psixoloji texnika və təlimin köməyi ilə inkişaf etdirilə bilən uyğun bir ruh vəziyyəti tələb edir.

3. Kreativliyin inkişafına təsir edən digər bir amil intiusiya və daxili həssaslığın inkişafıdır. Bu, şüurlu ağıl üçün həmişə mövcud olmayan duyğuları, əhval-ruhiyyələri və

məlumatları hiss etməyə və ayırmağa kömək edir. İnkişaf etmiş intuisiyanın olması orijinal, qeyri-standart həllər tapmağa və yeni fikirləri dərk etməyə imkan verən mühüm psixoloji amildir. (6, s.193)

Kreativlik şəxsiyyətin özünü aktuallaşdırmasının vacib ehtiyatıdır və bu gün tələbə şəxsiyyətinin sosial dəyişikliklərə uyğunlaşdırılmasının bir növ mexanizmi kimi çıxış edir. Müasir reallığa daxilən uyğunlaşmaq üçün tələbələr təkcə yeni vəziyyətə uyğunlaşmamalı, həm də onu dəyişdirə və eyni zamanda inkişaf edə bilməlidirlər. Bu gün istər bütün tələbələrdə, istərsə də yalnız psixologiya fakültəsinin tələbələri arasında kreativliyin artırılması prosesinə aid olan çox saylı elmi əsərlər mövcuddur. Lakin böyük elmi nailiyyətlərə baxmayaraq, bu gün psixologiya fənninin tədrisi zamanı tələbələrdə kreativliyin inkişafını təkmilləşdirmək üçün aydın metodologiya yoxdur. Kreativ təfəkkürün inkişafına dair proqram və metodikalar hazırlayan alim və pedaqoqlar hesab edirlər ki, kreativ tələbə potensialının əsas komponentlərini aşağıdakılar təşkil edir:

— divergent düşüncə;
— düşüncə və hərəkətlərdə çeviklik;
— zəngin təxəyyül;
— hadisə və faktlara birmənalı olmayan münasibət;
— risklərə hazırlıq;
— düşüncənin sürəti;
— orijinal ideyalar və qeyri-adi fikirlər.

Psixologiya fənninin tədrisinə kreativ yanaşma çətinliklərini aradan qaldırmağın əsas yollarında biri də tələbələrdə kreativliyin inkişafına şərait yaratmağa kömək edəcək strategiyaların müəyyənləşdirilməsidir. Wisdom, Alencar və Cropley universitet müəllimlərinə tələbələrdə kreativliyin inkişafına şərait yaratmağa kömək edəcək aşağıdakı strategiyaları təklif edirlər.

1. Tələbələrdə kreativliyin inkişafını təmin etmək üçün kreativlik xüsusi bir mövzu kimi fənn proqramları və sillabuslara daxil etmək.
2. Tələbələrə yeni və kreativ üsullarla işləmək azadlığına imkan yaratmaq.
3. Tələbələri həvəsləndirmək, onlara seçim imkanı vermək, gözlənilməz vəziyyətlərdə işləmək imkanı yaratmaq.
4. Təlim prosesini planlaşdırmaq.
5. Tələbələrdə kreativliyin inkişafı üçün demokratik münasibətlərə və kreativ şəxsiyyətin imitasiyasına malik mühitin yaradılması.
6. Həm müəllimlər, həm də tələblər üçün kreativ düşüncə və şəxsi inkişafı təmin edən mühitin yaradılması.
7. Tələbələrə səhv etmək və tənqid olunmaq kimi emosional vəziyyətlərdən qurtulmağa kömək etmək.Təlim prosesində istifadə olunan tədris strategiyalarının şaxələndirilməsi və bu prosesdə tələbələrin əvvəlki biliklərinin nəzərə alınması və s. (7, s.151)

Bu strategiyalar psixologiya fənninin tədrisi zamanı tələbələrdə kreativliyin inkişafı və formalaşmasının əsasını tam başa düşməyə və gələcəkdə inteqral struktur və onun yüksəldilməsi alqoritmini formalaşdırmağa imkan verəcəkdir. Eyni zamanda ali təhsil sistemində kreativliyin inkişaf etdirilməsi üçün istifadə olunan texnologiyaların və metodların rolu danılmazdır. Texnologiyaların tətbiqi kreativ təlimin məqsəd və vəzifələri ilə

uzlaşdırıldıqda biliyin, təcrübənin paylaşılmasına və daha səmərəli nəticənin əldə olunmasına zəmin yaranır. Prosesin düzgün tənzimlənməsinin təhsil işçilərinin, pedoqoqların ali məktəbdə kreativliyin inkişaf imkanlarını, kreativ prosesin müvəffəqiyyətlə həyata keçirilməsi yollarını hərtərəfli və ətraflı araşdırılmasından asılıdır. (8, s.82-91)

Beləliklə, tələbələri real həyata hazırlamaq üçün ali məktəb təlimin elə formasını düşünüb hazırlamalıdır ki, təhsilalanlar naməlum vəziyyət və kontekstlərdə problem, risk, mübahisəli fikirlərlə qarşılaşdıqda onların öhdəsindən gəlib, düzgün qərar qəbul etsinlər. Bu məqsədlə universitetlər öyrənənlər üçün müxtəlif həlli yolu olan, bir neçə cavabdan ibarət problemlər təqdim etməli, səhvlərə görə cəza tədbirlərinin görülmədiyi təlim mühiti yaratmalı və ya mövcud olanları uyğunlaşdırmalıdırlar.

Yekun olaraq bildirməliyik ki, psixologiya fənnin tədrisinə kreativ yanaşma çətinlikləri aradan qaldırılmalı, kreativliyin inkişaf etdirilməsi üçün müxtəlif pedaqoji, psixoloji amillər nəzərə alınmalı və yeni yanaşmalar təqdim edilməlidir.

**Problemin aktuallığı.** Psixologiya fənninin tədrisi prosesində təhsilalanlarda kreativliyin inkişaf etdirilməsi və bu istiqamətdə qarşıya çıxan çətinliklərin aradan qaldırılması mühüm əhəmiyyət kəsb edir. Bu məqalədə müzakirə olunanlardan biri psixologiya fənninin tədrisində müəllimlər və tələbələr arasında kreativliyin inkişafını stimullaşdıran kreativ inkişafın zəruriliyi və bu prosesdə qarşıya çıxan çətinliklərin aradan qaldırılması ilə bağlıdır. Bu, müəllimlərin peşəkar hazırlığının üstünlük təşkil edən modellərinin hələ də kreativliyin inkişafı üçün təhsil imkanlarının çox məhdud olduğu bir mədəniyyətdə dərin kök saldığını nəzərə alsaq, tədqiqat problemi olduqca aktualdır.

**Problemin elmi yeniliyi.** Psixologiya ixtisası üzrə təhsil alan tələbələrdə kreativliyin inkişaf etdirilməsi strategiyaları və yollarının müəyyənləşdirilməsi, bu istiqamətdə müəyyən tövsiyələrin hazırlanması təqdim olunan problemin elmi yeniliyini təşkil edir. Eyni zamanda təlim prosesində kreativliyin inkişafını təmin edən strategiyalar haqqında ətraflı məlumat verilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Əldə olunan nəticələr ali təhsil müəssisələrində kreativliyin inkişaf etdirilməsi və nəticədə təhsilin keyfiyyətinin yüksəldilməsində praktiki əhəmiyyətə malikdir.

## Ədəbiyyat


1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı. Hüquq ədəbiyyatı. 2009
2. Cropley, A. J. Creativity in education &learning. London: Routledge. 2005
3. Cropley, A. J. Creativity: A social approach. Roeper Review, 28(3), 125-130p. 2006
4. Gilson, L. L. (2008). Why be creative: A review of the practical outcomes associated with creativity at the individual, group, and organizational levels. In J. Zhou & C. E. Shalley (Eds.), Handbook of organizational creativity (pp. 303-322).
5. Wisdom, J. Developing higher education teachers to teach creatively. In N. Jackson, M.Oliver, M. Shaw, & J. Wisdom (Eds.), Developing creativity in higher education (pp. 183).
6. Wisdom, J. Developing higher education teachers to teach creatively. In N. Jackson, M.Oliver, M. Shaw, & J. Wisdom (Eds.), Developing creativity in higher education (pp. 193). 2007

7. Alencar, E. M. L. S. O papel da escola no desenvolvimento do talento criativo [The role of school in the development of the creative talent]. Developing talents and high ability (pp. 151-162). 2007

8. N.Zeynalova. Kreativliyin formalaşmasına təsir göstərən amillər və onların təhlili // Azərbaycan Dillər Universitetinin Elmi xəbərləri, 2021, № 4, s 82-91

**Р.Р. Насирова**

**Проблемы креативного подхода к преподаванию психологии и стратегии их преодоления**
**Резюме**

Статья исследует проблемы, связанные с креативным подходом к преподаванию психологии, и рассматривает стратегии их решения. Важность креативности в учебном процессе особенно подчеркивается учеными из различных областей. Определены факторы, влияющие на развитие креативности в высших учебных заведениях. Предлагаются стратегии, способствующие развитию креативности у студентов в учебном процессе. Рассматриваются исследования, проведенные в данной области, и систематизируются ключевые компоненты развития креативности у студентов. В заключение статьи подчеркивается необходимость устранения проблем, связанных с креативным подходом к преподаванию психологии, с учетом различных педагогических и психологических факторов, а также внедрения новых подходов для развития креативности.

**R.R. Nasirova**

**Challenges in a creative approach to teaching psychology and strategies for overcoming them**
**Summary**

The article explores the challenges associated with a creative approach to teaching psychology and examines strategies for their resolution. The importance of creativity in the teaching process is particularly emphasized by scholars from various fields. The factors influencing the development of creativity in higher education institutions are outlined. Strategies that can help foster creativity among students in the teaching process are proposed. Research conducted in this field is reviewed and the key components of creativity development in students are systematically classified. The article concludes that the challenges of a creative approach to teaching psychology must be addressed, taking into account various pedagogical and psychological factors, and introducing new approaches to foster creativity.

**Redaksiyaya daxil olub:** 05.02.2025

# KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN QAVRAYIŞININ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

**Emilya İlqar qızı Nəsibova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0005-7482-5499
**E-mail:** psy.emilyanasibova@gmail.com

***Açar sözlər:*** *qavrayış, koqnitiv inkişaf, emosional inkişaf, sosial inkişaf, öyrənmə, özünəinam, özünüqavrama*
***Key words:*** *perseption, cognitive development, emotional development, social development, study, self confidence, self perception*
***Ключевые слова:*** *восприятие, когнитивное развитие, эмоциональное развитие, социальное развитие, изучать, уверенность в себе, самовосприятие*

Kiçikyaşlı məktəblilərin qavrayışları koqnitiv, emosional və sosial inkişaf prosesləri ilə formalaşır. Bu dövrdə uşaqların psixoloji xüsusiyyətləri öyrənmə, sosial qarşılıqlı əlaqə və özünü dərk etmə baxımından əhəmiyyətlidir. Bəzi əsas psixoloji xüsusiyyətlər aşağıdakılardır:

Koqnitiv inkişaf fərdin düşünmə, öyrənmə, problem həll etmə və qərar vermə qabiliyyətlərinin zamanla necə dəyişdiyini və yetkinləşdiyini araşdıran bir prosesdir. Bu proses uşaqlıqdan yetkinliyə qədər davam edir və psixologiya, təhsil və nevrologiya kimi sahələrdə mühüm tədqiqat mövzusudur. Koqnitiv inkişafın ən məşhur nəzəriyyələrindən biri Jean Piajenin nəzəriyyəsidir. Piaje uşaqların idrak inkişafı mərhələlərini dörd əsas mərhələyə ayırırdı:

1. Sensomotor mərhələ (0-2 yaş): Uşaqlar hissləri və motor bacarıqları vasitəsilə ətraflarını araşdırırlar. Bu dövrdə obyektin qalıcılığı kimi əsas anlayışlar inkişaf edir.

2. Əməliyyatdan əvvəlki mərhələ (2-7 yaş): Bu dövrdə uşaqlar simvollardan istifadə etməyə başlayırlar. Lakin onların düşüncələri konkretdir və məntiqi düşünmə bacarıqları məhduddur. Qoruma, nizamlama və ya səbəb-nəticə əlaqələri kimi anlayışlar tam başa düşülmür.

3. Konkret əməliyyatlar mərhələsi (7-11 yaş): Uşaqlarda məntiqi təfəkkür və problem həll etmə bacarıqları inkişaf edir. Lakin bu təfəkkür hələ də konkret obyektlərlə məhdudlaşır və mücərrəd düşünmə qabiliyyətləri hələ tam formalaşmayıb.

4. Mücərrəd əməliyyatlar mərhələsi (12 yaş və yuxarı): Gənc fərdlər mücərrəd düşünmək, nəzəri vəziyyətləri təhlil etmək və fərziyyələr inkişaf etdirmək bacarığı qazanırlar. Bu mərhələdə daha mürəkkəb problem həll etmə və tənqidi düşünmə bacarıqları da ortaya çıxır. “Mücərrəd əməliyyatlar mərhələsi fərdin sırf mücərrəd və hipotetik şəkildə düşünə biləcəyi səviyyədir. Bu, onlara fərziyyələr qurmağa, imkanlar haqqında düşünməyə və deduktiv mülahizələrlə məşğul olmağa imkan verir.” (1, s.117)

Jean Piajenin idrak inkişaf nəzəriyyəsinə görə, kiçik məktəb yaşı qrupundakı uşaqlar konkret əməliyyat dövründədirlər.

Koqnitiv inkişaf təkcə yaşa bağlı proses deyil; eyni zamanda ətraf mühit faktorları, təhsil, sosial qarşılıqlı əlaqələr və mədəni amillər də mühüm rol oynayır. Bundan əlavə, koqnitiv inkişaf prosesində yaddaş, diqqət, dil, təfəkkür tərzi kimi idrak qabiliyyətləri də inkişaf edir.

Bu çərçivədə koqnitiv inkişafı dəstəkləmək, zəngin öyrənmə mühiti təmin etmək, müxtəlif təcrübələr təklif etmək və uşaqların düşüncə proseslərini stimullaşdırmaq vacibdir.

"Perseptual inkişaf" fərdlərin ətraf mühitdən gələn stimulları qavramaq, anlamaq və şərh etmək qabiliyyətlərinin zamanla necə inkişaf etdiyini ifadə edir. Bu konsepsiya ümumiyyətlə uşaqların inkişaf prosesləri kontekstində nəzərdən keçirilir və idrak, emosional və sosial inkişafla birlikdə araşdırılır.

Kiçik yaşlı uşaqların ətraf mühiti qavramasında vizual və eşitmə elementlərinin böyük əhəmiyyəti vardır. Bu dövrdə diqqətin yayınması adi haldır. Uşaqlar diqqətlərini müəyyən bir obyektə yönəltmək və digər stimulları filterləmək qabiliyyətini inkişaf etdirməyə başlayırlar.

Perseptual inkişaf aşağıdakı elementləri əhatə edir:

1. Hissi qavrama: Fərdlərin xarici aləmdən aldıqları stimulları (görmə, eşitmə, toxunma, dad, qoxu) anlamaq və bu məlumatları emal etmək qabiliyyəti.

2. Koqnitiv inkişaf: Bu, uşaqların düşünmə qabiliyyətləri, problem həll etmə bacarıqları və məlumatı təşkil etmə qabiliyyətləri ilə əlaqədardır.

3. Emosional qavrama: O, emosiyaları anlamaq və idarə etmək, başqalarının duyğularını qavramaq bacarığı və empatiya kimi elementləri ehtiva edir.

4. Sosial Qavrayış: Digər fərdlərlə qarşılıqlı əlaqədə sosial siqnalları başa düşmək və şərh etmək bacarığıdır. Bu, sosial inkişafla bağlıdır.

5. Ünsiyyət: Dil və ünsiyyət bacarıqlarının inkişafı fərdlərin qavrama inkişafında mühüm rol oynayır. Düşüncə və hissləri ifadə etmək bacarığı sosial qarşılıqlı əlaqələri zənginləşdirir. "Dil alətlər vasitəsidir." (2, s.43)

Perseptual inkişaf fərdin ətraf mühitlə qarşılıqlı əlaqəsinə, öyrənmə proseslərinə və psixososial inkişafına böyük təsir göstərir. Bu inkişafı dəstəkləməkdə təhsil və pedaqoji yanaşmalar mühüm rol oynayır. Uşaqların qavrayış bacarıqlarının təkmilləşdirilməsi onların öyrənmə qabiliyyətini artırır və sosial münasibətlərini gücləndirir. Bu kontekstdə oyun və yaradıcı fəaliyyətlərin əhəmiyyəti ortaya çıxır.

Emosional inkişaf fərdin öz duyğularını anlamaq, ifadə etmək və idarə etmək bacarıqlarını inkişaf etdirdiyi prosesdir. Bu proses fərdin özü və ətrafı ilə sağlam münasibətlər qurmağına kömək edir. Özünü qavrayış bu dövrdə formalaşır. Uşaqların emosional reaksiyaları çox vaxt ətraf mühit faktorlarından təsirlənir. Bu proses fərdin özü və ətrafı ilə sağlam münasibətlər qurmasına kömək edir. Emosional inkişaf uşaqlıqdan başlayan və həyat boyu davam edən bir prosesdir.

Aşağıda emosional inkişafın bəzi vacib aspektləri qeyd olunmuşdur:

1. Emosiyaların tanınması: Emosional inkişaf fərdin öz duyğularını tanıması və fərqləndirməsi ilə başlayır. Fərd xoşbəxtlik, kədər, qəzəb və qorxu kimi əsas duyğuları mənalandırır.

2. Emosiyaların ifadəsi: Duyğuları sağlam şəkildə ifadə etmək emosional inkişafın vacib hissəsidir. Fərd öz hisslərini lazımi şəkildə ifadə etmək və başqalarına çatdırmaq bacarığını inkişaf etdirməlidir.

3. Empatiya: Başqalarının duyğularını başa düşmək və onların nöqteyi-nəzərindən görmək bacarığı emosional inkişafın əsas elementlərindən biridir. Sağlam sosial münasibətlər qurmaq üçün empatiya lazımdır.

4. Emosional idarəetmə: Duyğuların idarə edilməsi emosional vəziyyətlərin öhdəsindən gəlmək və stresslə mübarizə aparmaq üçün fərdi inkişaf strategiyalarını əhatə edir. Bu, emosional sabitliyi təmin etmək üçün vacibdir.

5. Sosial bacarıqların inkişafı: Emosional inkişaf fərdin sosial bacarıqlarının inkişafına kömək edir. Yaxşı ünsiyyət, əməkdaşlıq və münaqişələrin həlli bacarıqları bu prosesdə mühüm rol oynayır.

6. Özünü dərketmə: Fərdlərin öz emosional vəziyyətlərini və reaksiyalarını dərk etməsi onların adekvatlığını artırır. Bu da onların şəxsi inkişafının bir hissəsidir.

7. Bağlanma və münasibətlər: Sağlam bağlanma üslubları və sağlam əlaqələr qurmaq bacarığı da emosional inkişafa daxildir. Yaxşı münasibətlərin qurulması fərdin emosional cəhətdən sağlam bir həyat sürməsinə kömək edir. "Müəyyən fərdlərlə güclü emosional bağlar yaratma meyli insan təbiətinin əsas komponentidir." (3, s.33)

Emosional inkişafın təkcə fərdi səviyyədə deyil, həm də sosial səviyyədə mühüm nəticələri vardır. Emosional cəhətdən sağlam fərdlər yaşadıqları cəmiyyətin sağlamlığına müsbət təsir göstərir. Təhsil, ailə mühiti və sosial qarşılıqlı əlaqələr emosional inkişafı dəstəkləyən mühüm amillərdir.

Kiçik məktəb yaşı dövründə dostluq münasibətləri çox vacib olur. Sosial qaydalar və normalar haqqında daha çox məlumat əldə edilir. Uşaqlar qruplarda necə davranmağı öyrənir və sosial münasibətlərini yaxşılaşdırmağa çalışırlar. Sosial inkişaf uşaqlıqdan başlayır və həyat boyu davam edir və bir neçə mühüm sahələri əhatə edir:

1. Ünsiyyət bacarıqları: İnsanların öz düşüncələrini, hisslərini və ehtiyaclarını ifadə etmək üçün dil və bədən dilindən istifadə etmək bacarıqlarını ehtiva edir.

2. Empatiya: Başqalarının duyğularını başa düşmək və onlarla münasibət qurmaq bacarığı sosial inkişafın təməl daşlarından biridir.

3. Sosial normalar və qaydalar: Cəmiyyət tərəfindən qəbul edilmiş davranışları öyrənmək və bu qaydalara uyğun hərəkət etmək prosesidir.

4. Əməkdaşlıq və komanda işi: Başqaları ilə işləmək və ümumi məqsədlərə nail olmaq bacarığı sosial inkişafın vacib hissəsidir.

5. Emosional intellekt: Öz emosiyalarını idarə etmək və başqalarının emosiyalarına cavab vermək bacarığı sağlam sosial münasibətlərin qurulmasında mühüm rol oynayır.

6. Həmyaşıd münasibətləri: Dostluq və sosial əlaqələr qurmaq və saxlamaq bacarığı xüsusilə uşaqlar və gənclər üçün sosial inkişafda vacibdir.

7. Münaqişələrin həlli: Sosial mühitlərdə yarana biləcək münaqişələri səmərəli şəkildə idarə etmək və həll etmək bacarığı da vacibdir. "Emosional intellekt münaqişəni aradan qaldırmır, lakin konstruktiv şəkildə idarə etmək bacarığını təmin edir." (4, s.248)

Sosial inkişaf fərdlərə özünə inam, müstəqillik və sosial iştirak kimi mühüm həyat bacarıqları əldə etməyə kömək edir. Bu prosesdə təhsil, ailə dinamikası və mədəni amillər böyük rol oynayır.

Fərdi öyrənmə üslubları kiçik məktəbli yaş qrupunda ortaya çıxır. Bəzi uşaqlarda vizual öyrənmə, bəzilərində isə eşitmə və ya kinestetik öyrənmə üstünlük təşkil edir. Uşaqların bu bacarıqlarının nəzərə alınması onların təhsil həyatında uğur əldə etmələrinə təkan verir.

Öyrənmə üslubları fərdlərin məlumatı necə qəbul etməsinə, emal etməsinə və yadda saxlamasına müxtəlif yanaşmalara istinad edir. Bu üslublar təlimin daha effektiv olmasına kömək etmək üçün fərdlərin güclü tərəflərini müəyyən etməyə kömək edir.

Öyrənmə üslubları aşağıdakılardır:

— Vizual Öyrənmə: Bu üslubda öyrənən şəxslər vizual materiallar (qrafiklər, diaqramlar, cədvəllər) vasitəsilə məlumatları daha yaxşı başa düşürlər. Bu öyrənmə üslubunda rəngli qeydlər götürmək və vizual təqdimatlara üstünlük verərək dərs materialını daha yaxşı qavrayırlar.

— Audial öyrənmə: Eşitmə ilə öyrənənlər əsasən dinləyərək öyrənirlər. Onlar dərs zamanı dinləmək, müzakirə etmək və ucadan təkrar etmək kimi üsullarla məlumatları daha yaxşı qavrayırlar.

— Kinestetik öyrənmə: Kinestetik öyrənənlər maddi təcrübələr vasitəsilə öyrənməyə üstünlük verirlər. Tətbiqi tədqiqatlar, təcrübələr və hərəkət tələb edən fəaliyyətlər bu üslubun vacib elementləridir.

— Oxumaqla (yazmaqla) öyrənmək: Bu üslubda öyrənən şagirdlər mətnləri oxuyub yazmaqla daha yaxşı öyrənirlər. Fikirlərini yazı və oxuyla ifadə etməyə üstünlük verirlər. Bu öyrənmə üslubu Fleming və Mills-in VARK modelinə əsaslanır və Oxumaq-Yazmaq (Reading/ Writing) üslubu adlanır. Bu üsluba malik olan şəxslər məlumatları mətn şəklində oxumaq, yazmaq və qeydlər aparmaq yolu ilə daha yaxşı mənimsəyirlər. "Oxuma və yazmağı öyrənənlər məlumatı sözlə ifadə etməyə üstünlük verirlər. Onlar mətnlərdən, siyahılardan və təriflərdən həzz alır və başa düşdüklərini ən yaxşı şəkildə yazı vasitəsilə ifadə edirlər." (5, s.24)

Sosial öyrənənlər qrup işi və interaktiv müzakirələr vasitəsilə öyrənməyə üstünlük verirlər. Digər fərdlərlə qarşılıqlı əlaqə öyrənmə proseslərində böyük rol oynayır.

Bu üslubda olanlar tək qalmağı və müstəqil işləməyi sevirlər. Onlar öz sürətlərində öyrənməyə üstünlük verirlər.

Hər bir fərdin öyrənmə tərzi fərqli ola bilər və bir çox insan birlikdə birdən çox üslubdan istifadə edə bilər. Öz öyrənmə tərzinizi kəşf etməklə məktəbli dərs materialının daha asan və tez qavranılmasına nail ola bilər. Öyrənmə tərzini müəyyən etmək üçün müxtəlif testlər və sorğulardan istifadə edilə bilər.

Uğurlara və uğursuzluqlara yanaşma tərzi kiçik məktəblilərin özünə inamına ciddi şəkildə təsir edir. Müsbət rəy özünə inamı artırsa da, mənfi təcrübələr özünə hörmətin aşağı düşməsinə səbəb ola bilər.

Özünəinam insanın öz qabiliyyətlərinə, dəyərlərinə və qərarlarına inamıdır. Bu anlayış fərdin özünü necə gördüyünə və özünə münasibətinə təsir edir. Özünə inam sağlam psixoloji vəziyyətin mühüm tərkib hissəsidir və həyatın müxtəlif sahələrində uğur əldə etməkdə həlledici rol oynayır.

Özünə inam yaratmaq üçün bu addımlar kömək edə bilər:

1. Özünü tanıma: Fərdin güclü və zəif yönlərini təyin etməsi özünə inamını artıra bilər.

2. Məqsədin müəyyənləşdirilməsi: Fərdin qarşıya kiçik, əldə edilə bilən məqsədlər qoyması və onlara diqqət yetirməsi, onlara çatdıqca özünə inamı artıracaqdır.

3. Təcrübə qazanmaq: Yeni cəhdlər və fərqli təcrübələrə sahib olmaq fərdin özünə inamını artıra bilər.

4. Dəstək alınması: Ailə və dostlar kimi dəstəkləyici mühitdə olmaq özünə inamı artıra bilər. "Özünə inam uğura zəmanət vermir, amma özünə şübhə uğursuzluğa zəmanət verir." (6, s.272)

İnsanın özünə inamı onun ünsiyyət bacarıqlarına və liderlik qabiliyyətinə də müsbət təsir göstərir.

Kiçik məktəb yaşı dövründə uşaqlar kim olduqlarını hiss etməyə, qavramağa başlayırlar. Bu qavrayış onların yaxın ətraflarından (ailə, müəllimlər, dostlar) rəylər əsasında formalaşır.

Özünü qavrama, insanın özünü necə gördüyü və özü haqqında olan düşüncələri, hissləri və inanclarının məcmusudur. Bu konsepsiya insanın öz şəxsiyyətini, dəyərini və səriştəsini necə qiymətləndirməsi ilə bağlıdır. Özünü qavrama insanın sosial qarşılıqlı əlaqəsinə, özünə inamına və ümumi psixoloji sağlamlığına təsir edən mühüm amildir.

Özünü qavrama bir neçə əsas komponentdən ibarətdir:

1. Özünəhörmət: İnsanın özünə hörməti müəyyən qədər özünü necə qiymətləndirməsi ilə əlaqəlidir. Yüksək özünə hörmət çox vaxt müsbət özünü qavrayışla, aşağı özünə hörmət isə mənfi özünü qavrama ilə əlaqələndirilir.
2. Özünütanıma: Fərdin öz xüsusiyyətləri, qabiliyyətləri, mənfi və müsbət yönləri və dəyərləri haqqında bildiklərinin məcmusudur.
3. Şəxsiyyət inkişafı: Öz şəxsiyyətini formalaşdırma prosesidir. Bu prosesdə ailə, dostlar, sosial və genetik faktorlar və mədəni amillər böyük rol oynayır.

Özünü qavramağa təsir edən bir çox amillər var. Bunlara uşaqlıq təcrübəsi, sosial mühit, genetika, media, mədəni normalar və həyat hadisələri daxildir. Mənfi təcrübələr, tənqid və ya həddindən artıq ideallaşdırılmış standartlara məruz qalmaq özünü qavramaya mənfi təsir göstərə bilər. Sağlam özünü qavrama insanın psixi sağlamlığı və ümumi həyat keyfiyyəti üçün son dərəcə vacibdir. Bunun üçün fərdlər özlərini qəbul etməyə, güclü və zəif tərəflərini başa düşməyə təşviq edilməlidir.

Kiçik yaşlı məktəblilərin qavrayışının düzgün başa düşülməsi təhsil proseslərində effektiv strategiyaların hazırlanması üçün vacibdir. Pedaqoqlar və valideynlər bu dövrdə uşaqların fərdi fərqlərini nəzərə alaraq dəstəkləyici mühit yaratmalıdırlar.

**Problemin aktuallığı.** Kiçik məktəb yaşlı uşaqların qavrayışının inkişaf xüsusiyyətlərinin tədqiqi müasir pedaqogika, psixologiya və neyropsixologiya sahələrində aktual məsələlərdən biridir. Uşaqların qavrayışı onların ətraf aləmi dərk etməsində, idrak fəaliyyətlərinin formalaşmasında və gələcək öyrənmə proseslərində mühüm rol oynayır. Müəllimlərin və pedaqoqların uşaqların qavrayış xüsusiyyətlərini bilməsi, tədris metodlarını onların yaş və psixoloji xüsusiyyətlərinə uyğunlaşdırmağa kömək edir.

**Problemin elmi yeniliyi.** Ənənəvi tədqiqatlar əsasən uşaqların qavrayışının təbii və sosial mühitdə formalaşmasını araşdırırdı. Lakin müasir dövrdə smartfonlar, planşetlər və interaktiv öyrənmə vasitələrinin geniş yayılması uşaqların vizual və eşitmə qavrayışına, diqqət və informasiya emalı proseslərinə yeni təsirlər göstərir. Bu, qavrayışın inkişaf mexanizmlərini yenidən qiymətləndirməyi tələb edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Kiçik məktəb yaşlı uşaqların qavrayışının inkişaf xüsusiyyətlərinin araşdırılması təhsil və psixoloji dəstək sistemlərinin təkmilləşdirilməsi baxımından böyük praktik əhəmiyyətə malikdir. Bu tədqiqat nəticəsində əldə edilən biliklər müxtəlif sahələrdə tətbiq oluna bilər. Təhsil sistemində effektiv metodların hazırlanması və Psixoloji və pedaqoji dəstəyin gücləndirilməsi məsələlərinə diqqət çəkə bilər.

**Ədəbiyyat**

1. Piaget, J. *The Psychology of Intelligence*. New York, NY: International Universities Press. 410 s., 1950.
2. Выготский, Л. Мышление и речь. 400 s., 1934.
3. Bowlby, J. *Attachment and Loss*. Great Britain, Hogarth Press. 360 s., 1969.
4. Goleman, D. *Emotional Intelligence*. USA, Bantam Books. 384 s., 1995.
5. Fleming, N. *VARK: A Guide to Learning Styles*. New Zealand. 50 s., 1992.
6. Bandura, A. *Self-Efficacy: The Exercise of Control*. USA. W.H. Freeman and Company. 390 s., 1997.

**Е.И. Насибова**

**Особенности развития восприятия детей младшего школьного возраста**
**Резюме**

Восприятие детей младшего школьного возраста в этот период становится более целенаправленным, структурированным и аналитическим. Теперь они способны понимать не только внешний вид вещей, но и внутренние взаимоотношения вещей. Укрепляется абстрактное мышление и логическое восприятие, развиваются понятия времени и пространства. Опыт и знания влияют на точность восприятия, а школьный опыт учит концентрироваться и осознанно воспринимать информацию. Игры и визуальные материалы поддерживают этот процесс.

**E.İ. Nasibova**

**Developmental features of perception in younger school-age children**
**Summary**

The perception of younger school-age children during this period becomes more purposeful, structured and analytical. They are now able to understand not only the external appearance of objects, but also their internal relationships. Abstract thinking and logical perception are strengthened, and the concepts of time and space are developed. Experience and knowledge affect the accuracy of perception, and school experience teaches to focus attention and consciously perceive information. Games and visual materials support this process.

**Redaksiyaya daxil olub:** 05.03.2025

***PEDAQOJİ PSİXOLOGİYA***
***ПЕДАГОГИЧЕСКАЯ ПСИХОЛОГИЯ***
***PEDAGOGICAL PSYCHOLOGY***

*UOT 37.015.3*

# BULLİNQ PROBLEMİNİN MƏKTƏBİN PSİXOLOJİ MÜHİTİNƏ TƏSİRİ

**İlhamə İlham qızı Cəfərova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0005-9662-6757
**E-mail:** ceferovailhame98@gmail.com

***Açar sözlər:*** *bullinq, bulli, qurban, məktəb, psixoloji rifah, bullinqin təsiri, bullinqin nəticələri, həll yolları.*

***Ключевые слова:*** *травля, хулиган, жертва, школа, психологическое благополучие, влияние травли, последствия травли, решения.*

***Key words:*** *bullying, bully, victim, school, psychological well-being, impact of bullying, consequences of bullying, solutions.*

Bullinq terminini psixoloji aspektdən ilk dəfə XIX əsrin 60-70-ci illərində isveç professoru Den Olveus tətqiq etməyə başlamışdır. Geniş formada isə bu termini Avstriya etoloqu Konrad Lorenz öz əsərlərində heyvanların bir türünün digər bir heyvan türünə hücum etməsi kimi dəyərləndirmişdir.

Bullinqin universal bir tərifi yoxdur. Bullinq özünü müdafiə edə bilməyən şəxsə qarşı davamlı aqressiv davranış, güclü şəxsin zəif şəxsə təkrarlanan psixoloji və ya fiziki əzab verməsidir. (1, s.195).

Bullinqi edən şəxs “bulli” adlanır. Bullinqə məruz qalan şəxs isə “qurban” mövqeyindən çıxış edir. Hər hansısa bir yaş dövründə fiziki və ya psixi şiddətə məruz qalan və ya hər hansısa bir şəkildə həmin şiddətə şahid olan bir çox insan daha sonra bu şiddəti başqalarına tətbiq edir. Beləliklə, bu şəxslər artıq bullinqin başlıca subyektinə çevrilirlər. Necə deyərlər, “şiddət göstərən hər kəs bir zaman şiddət qurbanı olan insandır”. Başqa bir halda isə, şiddətə məruz qalan şəxslər daha sonra həyatlarına daim şiddət göstərən və ya münasibət şəkli şiddət olan şəxsləri seçirlər.

Bullinqin başqa bir deyimlə, zorakılığın bir çox növləri vardır. Müxtəlif prizmalardan təhlil olunan bu terminin məktəblərdə ən aktual olan növü psixoloji, fiziki və kiber bullinqdir. Məktəbdə bullinq, şagirdlər arasında təkrarlanan zorakılıq, psixoloji təzyiq və ya istismar davranışlarını ifadə edir. Bu fenomen, məktəb mühitinə ciddi şəkildə təsir göstərir və qurbanların həyatında uzunmüddətli təsirlər yarada bilər. Bullinq, bir və ya bir neçə şəxsin, güc üstünlüyü olan birinin zəifə qarşı sistematik şəkildə zorakılıq göstərməsi ilə səciyyələnir. Bu davranışlar fiziki, emosional və ya sosial şəkildə özünü göstərə bilər. (2, s.56)

Psixi şiddət isə insanın ən yaxınları (ailəsi, dostları, qohumları və s.) tərəfindən şəxsiyyətinin alçaldılması, göz ardı edilməsi, dəyərsizləşdirilməsi və ən əsası isə, sevilməməsidir. (3, s.207)

Şiddət göstərməyə meyilli olan insanlar əksərən qəmgin, güvənsiz, aqressiv və küsəyən olurlar. Onları heç sevməyən və heç bir şəkildə təsdiqləməyən dünyaya qarşı düşmən mövqe-

yində dayanırlar. Doğmalarının açdığı yaraları qisasını başqalarından alırlar. Uşaqlıqdan aldığımız bu cür psixoloji yaraların zamanla travmalara çevrildiyinin çox zaman fərqində belə olmuruq. Təhqir, gülmə, hədə-qorxu və ya şagirdin izolyasiyasını əhatə edən davranışlar psixoloji bullinqin insiasiyasıdır. Digər bir növü olan fiziki bullinq isə bir şəxsin məqsədli və ya məqsədsiz olaraq başqa bir şəxsə birbaşa və ya bilavasitə zərər yetirməsidir. Fiziki zədələmə, döymə, itələmə və ya digər zorakılıq formaları fiziki bullinq hesab olunur. Kiber Bullinq isə internet və mobil telefonlar vasitəsilə həyata keçirilən zorakılıq növüdür. Sosial şəbəkələrdə təhqir, yayma və ya digər şagirdləri izolyasiya etmək bu cür bullinqə misaldır.

Məktəbdə şagirdlərin yaş dövrləri müxtəlif olduğu kimi onlar arasındakı münasibətlərdə, münaqişələrdə, bullinqin növü və vasitələri də mütləq şəkildə müxtəlif olur. Onları ayrılıqda nəzərdən kecirmək və dəyərləndirmək mütləqdir. Məktəbdə təhsil pillələri, uşaqların təhsil sistemindəki mərhələlərini əhatə edir. Hər bir pillə, müxtəlif yaş qruplarına uyğun olaraq xüsusi proqramlar və fənlər təqdim edir.

Bütün bu dövrlər və onların xüsusiyyətlər fərqli olduğu kimi eyni sıralarda oturan həmyaşıd şagirdlərdə bir o qədər bir-birlərindən fərqli şəxsiyyətlərdir. Bu şəxsiyyətlərin formalaşmasında ailə amilinin təsiri məktəbdə psixoloji mühitin necəliyinin əsas ünsürlərindəndir. Məktəblilər, xüsusilə də ibtidai sinif şagirdləri "ailənin güzgüsü" rolunu oynayırlar. Onlar ailələrində gördükləri münasibət, davranış, ünsiyyət formalarını olduğu kimi və ya hər hansısa kamufle olunmuş, kompensasiya edilmiş bir şəkildə məktəbdə sinif yoldaşlarına tətbiq edirlər. Bu isə müasir dövrdə çoxda ürək açan nəticələr vermir.

İbtidai sinif şagirdləri arasında bulli olan şəxslər bu davranışlarını sinif yoldaşının saçını çəkmək, itələmək, vurmaq, onun hər hansısa bir əşyasına zərər yetirmək, kommunikativ olaraq onu acılamaq, digər həmyaşıdlarının yanında onun eqosunu zədələyəcək sözlər deməklə öz bullinqlərini həyata keçirirlər. Bullilər hər zaman öz qurbanlarını "zəif" gördükləri şəxslərdən seçirlər. İbtidai sinif şagirdləri arasında olan bullinq çox zaman məqsədsiz bir şəkildə olur.

Ümumi orta təhsil pilləsində təhsil alan şagirdlər yaş dövrü olaraq yeniyetməlik yaş dövrünü əhatə edirlər. Yeniyetməlik dövrü şəxsiyyətin inkişafının ən aktual keçid dövrü, ikinci cinsiyyət yetkinlik dövrü, şəxsiyyətin təsdiqini arama dövrü kimi nəzərdən keçirilir. Bu keçid dövründə yeniyetmələr arasında olan bullinq məqsədli xarakter daşıyır. Bulli öz qurbanını şüurlu bir şəkildə fiziki, psixoloji və ya kiber bullinqə məruz qoyur. Onlar bullinqi fərdi və ya qrup halında həyata keçirirlər. Fərdi halda bulli qurbanının mənəvi dəyərlərini təhqir edərək, qeyri-etik ifadələr işlədərək, onu hər hansısa bir mövzuda şantaj edərək öz zorakılığını həyata keçirir. Qrup halında da eyni hallarla bərabər qurban yeniyetmənin sosial izolyasiyanını təşkil edən bulli qrupu yeniyetmənin sosiallaşmasını, həmyaşıdları ilə dostluq etməsinə maneə olurlar.

Texnologiyaların yüksək inkişaf etdiyi XXI əsrdə bu hallar yalnız məktəb daxilində qalmır. Məktəbdən kənar sosial platformlarda da bulli öz qurbanına ziyan yetirməyə davam edir. (4, s.99)

Bu növ kiber bullinqləri bulli internet və sosial şəbəkələrdə qurban haqqında şaiyələr yaymaqla, onun şəkil və video görüntülərini paylaşmaqla, şantajla həyata keçirir.

Tam orta təhsil pilləsində təhsil alan şagirdlər arasında bullinq yeniyetmələrlə eyni şəkildə olur. 10-11-ci sinifdə oxuyan bulli şagirdlərdə fiziki, psixoloji və kiber olmaq üzrə zəif gördükləri şəxsləri öz zorakılıqlarına məruz qoyurlar.

Məktəbin psixoloji rifahının pozulması sadəcə şagirdlər arasındakı bullinq halları ilə bağlı deyildir. Burada həmçinin müəllim-müəllim, müəllim-şagird, müəllim valideyn arasındakı bullinq və mobbinq hallarıda təsir göstərir. (5, s.135) Müəllimin şagird haqqında formalaşdırdığı mənfi oreol, şagirdin yaramaz olması, müəllimin qeyri-adekvat qiymətləndirməsi, müəllimin akademik fəaliyyətində avtoritar və avtokratik rəhbərlik üslubundan istifadə etməsi, müəllim və şagird və ya müəllim və valideyn arasında şəxsi problemlərin olması məktəbdə bullinq və mobinq hallarının baş verməsinə səbəb olur. Bu isə öz növbəsində məktəbin psixoloji rifahının pozulması ilə nəticələnir.

Bəs bulli necə yaranır? Onun həmyaşıdlarına və digər şəxslərə zorakılıq göstərməsinin səbəbi nədir? Bullinin başlıca motivi nədən ibarətdir? Bu kimi sualların cavabı elmi araşdırmalarda müxtəlif cür şərh olunmuş və bir sıra səbəblər irəli sürülmüşdür. Bullinqin səbəbləri çoxşaxəlidir və müxtəlif amillərin bir araya gəlməsi ilə meydana gəlir. Aşağıdakılar bunlardan bəziləridir:

1. Genetik səbəblər - Bəzi insanlar daha aqressiv və ya dominant xarakterlərə malik ola bilərlər. Bu cür davranışlar genetik meyilliliklə formalaşa bilər.
2. Mühit - Ailə, məktəb və sosial mühit bullinqin yaranmasında mühüm rol oynayır. Şiddətə, neqativ davranışlara meyilli mühitlərdə uşaqlar daha çox bullinq davranışlarını qəbul edə bilərlər.
3. Sosial status - İctimai təzyiq və ya populyarlıq arzusu bullingə səbəb ola bilər. Bəzi insanlar, başqalarına zərər verərək öz sosial statusunu artırmağa çalışa bilərlər.
4. Məhdud empatiya - Başqalarının hisslərini anlamaq və onlara qarşı duyarlılıq səviyyəsi aşağı olan insanlar bullinq etməyə daha çox meyilli ola bilərlər.
5. Özünü müdafiə - Bəzən bullinq, özünü müdafiə mexanizmi kimi görülə bilər. Öz zəifliklərini gizlətmək və ya başqalarını kontrol etmək məqsədiylə bullinqə baş vurula bilər.
6. Sosial öyrənmə - Uşaqlar, gördükləri davranışları öyrənərək onları təkrarlaya bilərlər. Valideynlərdən, dostlardan və mediyadan gələn neqativ rol modellər bullinq davranışlarını təşviq edə bilər.

Ümumiyyətlə, bullinqin səbəbləri kompleksdir və genetik faktorlardan daha çox sosial, emosional və mədəni amillərlə əlaqədardır. Bu amillərin bir araya gəlməsi bullinq davranışlarının meydana gəlməsinə və davam etməsinə səbəb ola bilər.

Bullinqin nəticələri həm qurban, həm də bulling edən şəxs üçün ciddi və uzunmüddətli ola bilər. (6, s.9)

Bunlar bullinq edən şəxs üçün fərqli, qurban üçün fərqli problemlər yaradır. Bullinqin qurban şəxs üçün nəticələri aşağıdakılardır:

1. Emosional və psixoloji təsirlər - Qurbanlar tez-tez narahatlıq keçirir, depressiyaya düşür, özünə inamsızlıq və izolyasiya hissi yaşayırlar.
2. Fiziki sağlamlıq problemləri: Stress, yuxusuzluq və baş ağrısı kimi fiziki simptomlar inkişaf edə bilər.
3. Akademik uğursuzluq - Bullinq qurbanları dərslərə diqqət yetirməkdə çətinlik çəkə bilər, bu da onların akademik göstəricilərinə mənfi təsir göstərir.
4. Sosial əlaqələrin pozulması - Qurbanlar dostlarından ayrılmağa, sosial mühitdən uzaqlaşmağa meyilli olurlar.
5. Gelecekteki münasibətlər - Bullinq qurbanları gələcəkdə münasibətlərində çətinliklər yaşayabilir, etibar və sosial bacarıqlarda problemlər yaşaya bilərlər.

Bulling edən şəxs yəni bulli üçün də zorakılıqlarının nəticələri ürəkaçan olmur. Bunlar aşağıdakılardır:

1. Davranış problemləri - Bullinq edənlər aqressiv davranışlara meyilli ola bilərlər və bu gələcəkdə daha ciddi cinayətkar fəaliyyətlərlə əlaqələndirilə bilər.
2. Emosional çətinliklər - Bullinq edən şəxslər də özlərini izolyasiya, narahatlıq və depressiya kimi emosional çətinliklər yaşaya bilərlər.
3. Sosial münasibətlərin pozulması - Bullinq edənlərin dost çevrələri darala bilər, çünki başqaları onlardan uzaqlaşa bilər.
4. Akademik uğursuzluq - Bu davranış, akademik performansı da mənfi təsir edə bilər.

Bullinq, məktəbin psixoloji rifahına ciddi və mənfi təsir göstərə bilər. Bu təsirləri aşağıdakı kimi sıralamaq olar:

1. Təhlükəsizlik hissinin azalması - Məktəbdə bullinq hadisələri, şagirdlərin təhlükəsizlik hissini zədələyir. Şagirdlər, məktəbdə özlərini təhlükədə hiss edə bilərlər ki, bu da onların məktəbə gəlmək istəyini azaldır.
2. Sosial izolyasiya - Bullinq qurbanları, sosial mühitdən uzaqlaşmağa meyilli olurlar. Bu, onların dost qruplarını itirməsinə və sosial dəstək sistemlərinin zəifləməsinə səbəb olur.
3. Psixoloji sağlamlıq problemləri - Bullinq, narahatlıq, depressiya, özünə inamsızlıq və digər psixoloji sağlamlıq problemlərinin inkişafına yol açır. Bu, şagirdlərin ümumi psixoloji rifahını ciddi şəkildə zədələyir.
4. Akademik performansın azalması - Bullinq qurbanları, stress və emosional çətinliklər səbəbindən dərslərə diqqət yetirməkdə çətinlik çəkə bilərlər. Bu, onların akademik uğurlarına mənfi təsir göstərə bilər.
5. Müəllim-şagird münasibətlərinin pisləşməsi - Bullinq hadisələri, müəllimlərin və şagirdlərin arasında etimadsızlığa yol açaraq, məktəb mühitini daha da gərginləşdirir.
6. Məktəbin ümumi mühiti - Bullinq, məktəbdə müsbət və dəstəkləyici bir mühitin yaranmasına mane olur. Bu, digər şagirdlərin də rifahına mənfi təsir göstərə bilər.
7. Dəyərlərin və etik davranışların pozulması - Bullinq, empati, hörmət və dostluq kimi sosial dəyərlərin zəifləməsinə səbəb olur. Bu, cəmiyyətin gələcəyi üçün ciddi nəticələr doğura bilər.

Bu səbəblərdən, məktəbdə bullinqin qarşısını almaq və psixoloji rifahı artırmaq üçün aktiv şəkildə tədbirlər görülməsi olduqca vacibdir. (7, s.36)

Məktəbdə bullinqin qarşısını almaq üçün bir sıra effektli strategiyalar tətbiq oluna bilər. Buna aşağıdakıları misal göstərmək olar:

1. Təhsil və maarifləndirmə - Şagirdlərə bullinqin nə olduğu, onun təsirləri və düzgün davranış modelləri haqqında məlumat vermək, seminarlar, mühazirələr və müzakirələr təşkil etmək lazımdır.
2. Dəstəkləyici mühit yaratmaq - Müəllimlər və valideynlər arasında əməkdaşlıq, açıq ünsiyyət və dəstəkləyici mühitin yaradılması, şagirdlərin özlərini təhlükəsiz hiss etmələri vacibdir.
3. Qayda və siyasətlər - Məktəbdə bullinqi qadağan edən aydın qaydalar və prosedurlar hazırlamaq, şagirdlərin bu qaydalara riayət etməsi üçün təşviqedici tədbirlər görmək mütləqdir.
4. Həssaslıq və empati inkişaf etdirmək - Şagirdlərə başqalarının hisslərini anlamaq və onlara qarşı duyarlı olmaq üçün empati bacarıqlarını inkişaf etdirmək lazımdır.

5. Təhlükəsiz oyun sahələri - Məktəbdə təhlükəsiz oyun sahələrinin yaradılması, şagirdlərin bir-biri ilə müsbət münasibətlər qurmasına kömək edir.

6. Dəstək qrupları - Bullinq qurbanlarına dəstək olan qruplar yaratmaq, onlara emosional dəstək verərək güclü hiss etmələrini təmin etmək vacib məsələdir.

7. Müəllimlərin rolunu artırmaq - Müəllimlərə bullinqi tanımaq və ona müdaxilə etmək üçün təlim vermək, onlar bu məsələdə aktiv rol almalı və lazımi müdaxilələri etməlidirlər.

8. Məlumat paylaşımı - Şagirdlərə bullinq hadisələrini bildirmək üçün gizli və etibarlı yollar təqdim etməliyik. Onlar baş verənləri asanlıqla bildirmək imkanı əldə etməlidirlər.

Bu strategiyaların tətbiqi, məktəbdə bullinqin qarşısını almağa kömək edəcək və məktəbdə daha sağlam bir mühit yaradacaq. (8, s.74)

Ümumilikdə, bullinqin məktəbin psixoloji mühitinə təsiri genişdir. Bu, məktəbdəki müsbət atmosferi zədələyir, sosial dəyərləri zəiflədərək, müsbət bir inkişaf mühitinin yaranmasını çətinləşdirir. Bu səbəbdən, bullinqin qarşısını almaq üçün aktiv tədbirlər görmək, məktəb mühitinin sağlamlığını təmin etmək üçün vacibdir. Məktəbdəki psixoloji rifahın qorunması, bütün şagirdlərin özlərini təhlükəsiz, dəstəklənmiş və inkişaf etməyə hazır hiss etmələri üçün əhəmiyyətlidir.

**Problemin aktuallığı.** Mövzu ilə əlaqədar araşdırmanın əhəmiyyəti, məktəb ictimaiyyətində yaranan bullinq probleminin psixoloji mühit üzərindəki təsirinin anlaşılmasındadır. Araşdırmanın faydalı olacağı və məktəbin psixoloji mühitində meydana gələn bu problemin həllinə nail olmaq üçün hamının diqqətini cəlb edəcəyi gözlənilir.

**Problemin elmi yeniliyi.** Psixoloji mühitlə bağlı araşdırma mərkəzli işlərdə məktəbin psixoloji mühiti altında yaranan bullinq probleminin təhlilinə start verilir. Bu problemin tədqiqi ilə məktəbin psixoloji mühiti və məktəb ictimaiyyəti üzərindəki təsirinin nəhəng bir tətbiqi və tədqiqat dərsi verəcək faydalı nəticələrə səbəb olması gözlənilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Bu araşdırmanın əsas məqsədi, məktəbin psixoloji mühiti daxilində yaranan bullinq probleminin təsirlərinin və nəticələrinin aydın olmasıdır. Bu araşdırmanın məhdudiyyətləri isə məktəbin psixoloji mühitində baş verən digər problemlərin tədqiq olunmaması və yalnız bullinqin təsirinin nəzərə alınmasıdır.

### Ədəbiyyat

1. Ağayeva S. Metodika və pedaqogika. Bakı: Təhsil Nəşriyyat-Poliqrafiya. TAİM maksimum, 2022.

2. Demirtaş H. Okulda Zorbalık: Nedenleri ve Sonuçları. Türk Psikolojik Danışmae Rehberlik Dergisi, 9 (51), 2019.

3. Əliyeva F. Məktəbdə zorakılıq və onun psixoloji təsirləri // Psixologiya və təhsil, 2(1), 45-5, 2016.

4. Olweus D. Bullying at School: What We Know and What We Can Do. Blackwell Publishing, 1993.

5. Smith P. K. & Sharp, S. School Bullying: Insights and Strategies for Effective Action. Routledge, 1994.

6. Rigby K. New Perspectives on Bullying. Jessica Kingsley Publishers, 2002.

7. Petersen K. Mobbing und Gewalt an Schulen: Ein Handbuch für Lehrer und Erzieher. Verlag W. Kohlhammer, 2008.

8. Schäfer M. & Korn S. Bullying in Schulen: Grundlagen, Prävention und Intervention. Springer, 2012.

**И.И. Джафарова**

**Влияние травли на психологическую среду школы**
**Резюме**

Психологическая среда школы играет важную роль в социальном и эмоциональном развитии учащихся. Издевательства выходят на первый план как проблема, которая оказывает серьезное и негативное влияние на эту среду. Случаи травли снижают чувство безопасности в школе, поскольку жертвы не чувствуют себя в безопасности в школьной среде. Это снижает их желание посещать школу и отрицательно сказывается на их успеваемости. По этой причине принятие активных мер по предотвращению травли имеет решающее значение для обеспечения здоровой школьной среды.

**I.I. Jafarova**

**The impact of bullying on the psychological environment of the school**
**Summary**

The psychological environment of the school plays an important role in the social and emotional development of students. Bullying stands out as a serious and negative problem affecting this environment. Bullying incidents reduce the sense of security at school, because victims do not feel safe in the school environment. This reduces their desire to come to school and negatively affects their academic performance. Therefore, taking active measures to prevent bullying is important to ensure the health of the school environment.

**Redaksiyaya daxil olub:** 21.02.2025

***SOSİAL PSİXOLOGİYA***
***СОЦИАЛЬНАЯ ПСИХОЛОГИЯ***
***SOCIAL PSYCHOLOGY***

*UOT 159.923:316.6*

# DƏYİŞƏN ŞƏRAİTDƏ ŞƏXSİYYƏTİN YENİ ROL DAVRANIŞA ADAPTASİYA ÇƏTİNLİKLƏRİ

**Rasif Rəfayel oğlu Müzəffərov**
*Odlar Yurdu Universitetinin fəlsəfə doktoru proqramı üzrə dissertantı*
**ORCİD:** 0009-0001-5920-5225
**E-mail:** rasif.muzefferov@mail.ru

***Açar sözlər:*** *şəxsiyyət, dəyişən şərait, adaptasiya, fizioloji adaptasiya, sosial adaptasiya, psixoloji adaptasiya, rol davranışı, psixoloji çətinliklər.*

***Ключевые слова:*** *личность, изменяющаяся среда, адаптация, физиологическая адаптация, социальная адаптация, психологическая адаптация, ролевое поведение, психологические трудности.*

***Key words:*** *personality, changing environment, adaptation, physiological adaptation, social adaptation, psychological adaptation, role behavior, psychological difficulties.*

Psixologiyada "adaptasiya" fenomeni ən çox tədqiq edilmiş məsələlərdən biridir. Belə ki, elmi psixologiyanın inkişafı dövründə bu problemə çoxsaylı müraciətlər edilmiş, bir çox konsepsiyalar işlənmişdir. Aydın olmuşdur ki, "adaptasiya" anlayışı şəxsiyyətin öyrənilməsində əsas məsələlərdən biridir, çünki adaptasiya daim dəyişən ətraf mühitdə şəxsiyyətin mövcudolma imkanlarını özündə cəmləşdirir. Ancaq burada insanı, sadəcə olaraq canlı orqanizm kimi qəbul etmək olmaz. Ona, bütövlükdə biosistemin, eyni zamanda sosial makrosistemin və psixoloji kamilliyin unikal fenomeni kimi yanaşmalıyıq. Bu səbəbdən insanın adaptasiyası problemini nəzərdən keçirərkən ən azı dörd səviyyədə təhlil aparılmalıdır: bioloji, fizioloji, psixoloji və sosial.

J.Piaje insan şəxsiyyətinə xas olan psixoloji (koqnitiv) adaptasiyanı bioloji adaptasiyanın nəticəsi kimi səciyyələndirir. Orqanizmin bioloji sahəsinin inkişafının müəyyən səviyyəsində baş verən *"koqnitiv adaptasiya assimilyasiya və akkomodasiya arasında tarazlığın baş verməsindən ibarətdir. Göstərildiyi kimi, akkomodasiya olmadan assimilyasiya yoxdur. Bioloji baxımdan bu fakt müasir genetiklərin "reaksiya normaları" adlandırdıqlarını təsdiqləyir (genotip az və ya çox dərəcədə geniş spektrli mümkün akkomodasiyalara imkan verə bilər, lakin onların hamısı statistik olaraq müəyyən edilmiş "norma" daxilində baş verir)" [5, s. 17].*

A.A.Rean adaptasiyaya yenidənqurulmanın uyğunluq nəticəsi kimi baxmağı daha münasib hesab edir. *"Uyğunlaşmanın nəzərə alınması aspekti, onun gedişində müəyyən bir şəkildə müxtəlif yenidənqurulmaların formalaşması ilə əlaqələndirilir. Yenidənqurulma özündə əvvəllər müəyyən edilmiş iki (prosessual və nəticəvi) yanaşmanı birləşdirir. Onlar elə psixi keyfiyyətlərin məcmusudur ki, uyğunlaşma prosesində formalaşmış (inkişaf etmiş), nəticə bu və ya digərinə gətirib çıxarmışdır. Eyni zamanda, yenidənqurulma cəminə uyğunlaşma subyektinin əldə etdiyi və formalaşdırdığı bilik, bacarıq və vərdişlər, eləcə də sosial mühitdəki*

*şəxsiyyətlərarası qarşılıqlı əlaqənin mürəkkəb sistemi daxildir"[6, s. 283].*

A.A. Rean da uyğunlaşmanın gedişində yenidənqurulmada baş verənlərə xüsusi diqqət yetirməyi lazım bilir. Məsələ ondadır ki, adaptasiya prosesi aşağıdakılara uyğun olaraq, ümumiləşdirilmiş sxem əsasında həyata keçirilir. A.A. Rean tərəfindən verilmiş sosial adaptasiya modelinin ölçüləri qismində insanın real davranışının sosial mühitin tələblərinə uyğun olması nəzərdə tutulur. Onun qənaətinə görə, dəyişən şəraitə adaptasiyanın bir sıra tərəfləri vardır:

1) psixofizioloji adaptasiya;
2) sosial-psixoloji adaptasiya;
3) təşkilati adaptasiya;
4) peşəkar adaptasiya və s.

Psixofizioloji adaptasiyada yeni şəraitin ekoloji, texniki, gigiyenik şəraiti, gün rejimi, vaxt kimi amillərə uyğunlaşma nəzərdə tutulur. İş yerlərində, sosial, mədəni, iqtisadi, təhsil və digər sahələr üzrə təhsil, iş yeri və digər müəssisə və təşkilatlarda adaptasiya məsələləri nəzərdə tutulur. Təbii olaraq mühitə yeni gələn tələbə və ya işçinin işin ritminə, intensivliyinə, xüsusiyyətinə, psixofizioloji gərginliyinə uyğunlaşması üçün vaxt tələb olunur.

Əgər biz adaptasiyanı sosial-psixoloji baxımdan təhlil etməyi nəzərdə tuturuqsa, o halda bioloji və fizioloji sistemlərə adaptasiyanın mənşəyi baxımından münasibət bildirilməlidir. Sosial və psixoloji səviyyəyə isə adaptasiya probleminə daha əhatəli yanaşmalıyıq, çünki həmin səviyyə məhz psixologiyanın predmeti ilə əlaqəlidir. Sosial və psixoloji səviyyələrdə biri-birini tamamlayan və biri-birindən asılı olan bir sıra elementlər vardır. Bunu nəzərə alaraq, K.Horni şəxsiyyətin dəyişən mühitə uyğunlaşmasını onun daxili vəziyyəti ilə əlaqələndirir. K.Horniyə görə, insan yalnız özü özünə xas olan qabiliyyətləri inkişaf etdirə bilər. *"Amma "palıd ağacından palıda çevrilmək" üçün hər bir canlı orqanizm kimi insana da əlverişli şərait lazımdır. Onun daxili təhlükəsizlik və azadlıq hissi bəxş edəcək, öz hisslərinə və düşüncəsinə sahib ola biləcək, özünü ifadə etməyə imkan verən "isti mühitə" ehtiyacı vardır. İnsan yalnız bir cəhətdən, köməyə ehtiyac duyduğu üçün deyil, həm də ona həyatı boyu istiqamət verdiyi üçün başqalarının xoş niyyətinə ehtiyac duyur" [7, s. 19].*

A. Bandura və C. Rotter şəxsiyyətin daim dəyişən şəraitə uyğunlaşması probleminə davranışın sosial-koqnitiv məzmunu baxımından yanaşırlar. A. Bandura hesab edir ki, insanlar heç də intrapsixi qüvvələr tərəfindən idarə olunmurlar. İnsanların xarici mühitlə əlaqələrə funksiyalaşmasının səbəblərini A. Bandura davranışın fasiləsiz olaraq dərketmə sahəsinə impulslar göndərməsi ilə əlaqələndirir. *"A. Banduranın qarşılıqlı determinizm adlandırdığı bu yanaşma onu nəzərdə tutur ki, davranışının baş verməsində daxili meyillər və situasiya biri-birindən asılı olan amillərdir. Başqa sözlə, davranışın inanc, gözləmə kimi daxili və mükafat və cəza kimi xarici səbəblər qarşılıqlı təsir sisteminin səbəbləridir" [4 s. 377].*

C. Rotter davranışı proqnozlaşdırmaq üçün *"psixoloji situasiya"* anlayışından istifadə edir. Onun fikrincə, psixoloji situasiya "fərdin özünün düşdüyü psixoloji vəziyyətdir". *"C. Rotter belə bir nəzəriyyə qurur ki, müəyyən sosial situasiyalarda stimullar toplusu insanda davranışı gücləndirəcək hansısa nəticələr gözləməyə səbəb olur. İnsanın ətraf mühitlə qarşılıqlı əlaqəsi C. Rotterin şəxsiyyətə baxışlarında dərin kök salmışdır. İnteraksionist (qarşılıqlı təsir) mövqeyi baxımından C. Rotter təsdiq edirdi ki, psixoloji situasiyanı proqnozlaşdırarkən gözləntilər və dəyərlərlə yanaşı fərdin psixoloji vəziyyəti də nəzərə alınmalıdır" [4, s. 415].*

Təhlillərdən belə görünür ki, şəxsiyyətin dəyişən şəraitə adaptasiya bu və digər uyğunlaşma çətinlikləri ilə müşayiət olunur. İstənilən halda yeni mühitdə yeni davranış modelləri tətbiq etmək lazım gəlir. Bəzən bu modellər əvvəlki ilə oxşar, bəzən də fərqli ola bilər. Nəticədə hər bir halda dəyişən şərait şəxsiyyət üçün öz davranışına yeniliklər gətirməyi tələb edir. Deməli, dəyişən şəraitdə şəxsiyyət üçün adaptasiya çətinliklərinin olması qaçılmazdır. Bu baxımdan, L.Ş. Əmrahlı [1], F.H. Muradov, R.R. Müzəffərov [2], H.Y. Ersöz, L. Şahin [3] isə bu sahədə praktik yollar təklif edirlər. Belə ki, məsələ ilə bağlı AR DİN-in Polis Akademiyasının təhsilə yeni başlamış kursantları sınanılanlar qismində tədqiqata cəlb edildilər. Onların dəyişən şəraitə adaptasiyasında davranışın xüsusiyyətlərini, qeyri-adaptiv davranışa təsir edən amilləri aydınlaşdırmaq üçün araşdırma apardıq. I kursda təhsil alanlar arasında adaptasiyanı çətin keçirənlərdə neqativ emosiyaların təzahürü ilə müşahidə edilən hallarla yanaşı, intizamsız davranış səbəbindən daxili qaydaların pozulması halları da qeydə alındı. Bu məsələni dəqiqləşdirmək üçün "Şəxsiyyətin sosial-psixoloji adaptasiyasının diaqnostikası" metodikasının nəticələrini bir daha nəzərdən keçirdik. Metodikanın 1 (adaptivlik-dezadaptivlik), 6 (daxili nəzarət-xarici nəzarət) və 7 (dominantlıq-çərçivədə olmaq) şkalaları üzərində işlədik. Həmin şkalalar kursantların yeni şəraitdə onlardan tələb edilən rol davranışlarına nə dərəcədə yiyələnə bilmələri ilə əlaqəlidir.

Kursantlar arasında "adaptivlik" şkalası üzrə üstün bal toplayanlar dəyişən şəraitə daha tez uyğunlaşanlar idilər. Bu şkala həm də geniş mənada kursantların düşdükləri fərqli mühitə özlərinin ehtiyaclarını, motivlərini, maraqlarını da uyğunlaşdıra bilmələrini ifadə edir. Bu o halda yaranır ki, kursant özünün yeni mühitdəki fəaliyyəti prosesində əldə edilən nəticələrdən qane olur, yaxud bəzi məsələlərdə güzəştli mövqe tutur. Həyata keçirmək istədiklərini ya burada gerçəkləşdirir, yaxud da yaxın gələcəkdə bunun baş verəcəyinə ümid bəsləyir. Dezadaptivliyin yüksək göstəriciləri isə kursantlarda əks göstəricilərin üstünlüyünü ifadə edir.

"Dazili nəzarət" və "xarici nəzarət" şkalası kursantların həm daxili hiss və emosiyaları, tələbatları, həm də xarici təhriklərə qarşı meyillərini, münasibətini müəyyənləşdirir. Əgər kursant həyatında yenicə dəyişən şəraitə və bu şəraitdə baş verən hadisələrə görə məsuliyyəti öz üzərinə götürürsə, onun davranışı və xarakteri də bu nəticələrə görə qiymətləndirilir. Deməli, kursant özünün daxili təhriklərini və xarici təsirdən yaranan emosional vəziyyətini nəzarətə götürə bilir. "Problemdən qaçma" şkalası problemli situasiyalardan yayınma, onlardan qaçma səviyyəsini müəyyən edir.

"Dominantlıq" şkalası kursantların üzləşdikləri yeni şəraitin sosial-psixoloji və hüquqi normaları üzərində özlərinin ənənəvi həyatı ilə bağlı olanları qorunub saxlanılması cəhdlərini ifadə edir. Bəzi kursantlarda isə bu cəhdlər onların şəxsiyyəti üçün səciyyəvi olan liderlik tələbatından irəli gəlirdi.

"Çərçivədə olmaq" şkalasında yüksək göstəriciləri olanlar düşdükləri mühitdə ehtiyatlı davranmağa, daxili vəziyyətlərini büruzə verməyərək özlərini hər şeydən razı olduqları kimi aparmağa üstünlük verənlər idilər. Nəticədə belə kursantlarda ara-sıra "əsəb partlayışları" baş verirdi: yoldaşlarla və komandirlərlə münaqişə, akademiyadan qaçmaq, nevrotik hallar səbəbindən həkim müdaxiləsi, psixoloji pozuntulardan irəli gələrək psixoloqa müraciət etmək və s.

**Cədvəl 1.**
**Kursantların "Şəxsiyyətin sosial-psixoloji adaptasiyasının diaqnostikası" metodikası üzrə rol davranışa uyğun gələn şkalalar**

| S/S | Şkalalar | kontrol-75 nəfər | | eksperimental-75 nəfər | | yekun-150 nəfər | |
|---|---|---|---|---|---|---|---|
| 1. | Adaptivlik | 32 | 42,66% | 30 | 40,00 % | 62 | 41,33 % |
| | Dezadaptivlik | 28 | 37,33% | 28 | 37,33% | 56 | 37,33 % |
| 6. | Daxili nəzarət | 39 | 52,00% | 37 | 41,33% | 76 | 23,33 % |
| | Xarici nəzarət | 28 | 37,33% | 27 | 36,00% | 55 | 36,66 % |
| 7. | Dominantlıq | 56 | 74,66% | 59 | 78,66% | 115 | 76,66% |
| | Çərçivədə olmaq | 21 | 28,00% | 23 | 30,66% | 44 | 29,33% |

Cədvəl 1–də kontrol qruplarda sınanılanların adaptivlik səviyyəsinin 42,66 % olduğu göründüyü halda, eksperimental qrupda bu göstərici 40,00% olmuşdur. Dezadaptivlik isə eyni olub 37,33% təşkil edir. 6–cı şkala üzrə daxili nəzarət göstəricisi kontrol qrupda 52,00%, eksperimental qrupda isə 49,33% təşkil etmişdir. Xarici nəzarət bu göstəricilərdən daha zəifdir: kontrol qrupda 37,33%, eksperimentalda 36,00%. Ən yüksək göstərici "dominatlıq" şkalasında qeydə alınmışdır. Kontrol qrupdakı sınanılanların 74,66% -də bu səviyyə üstündür. Halbuki çərcivədə olanlar həmin qruplarda 28,00% təşkil edir. Eksperimental qrupda isə nisbət belədir: 78,66% / 30,66%.

Sonda kursantların "Şəxsiyyətin sosial-psixoloji adaptasiyasının diaqnostikası" metodikası üzrə motivasiya, ünsiyyət və rol davranışa uyğun gələn şkalaları ayrılıqda təhlil edərək nəticələri həm müsbət, həm də mənfi istiqamətlərdə ümumiləşdirdik. Bunlarla yanaşı, Polis Akademiyasının mühitinə adaptasiya çətinlikləri olan kursantların davranışlarını müşahidə etdik. Onlarla kiçik qruplarla müzakirələr təşkil edərək, eləcə də fərdi qaydada söhbətlər apardıq. Rol davranışa adaptasiyada çətinliklər yaradan bir çox amillər sırasından bunları ayırd etdik:

1) Akademiyada aparılan təlim-tərbiyə işlərinin təşkili prosesində kursantların temperament tipləri nəzərə alınaraq bu reallığın nəzərə alınmaması;

2) komandaların ümumi daxili qanunlar əsasında verilərək onlara adekvat təsir göstərə biləcək və yeni şəraitə daha asan uyğunlaşmamaya imkan yaradacaq alternativ emosional vasitələrin (müraciət formalarının, həvəsləndirici stimulların) tətbiq edilməməsi;

3) bütövlükdə işçi heyətin peşəkar inkişaf səviyyəsinin, kursantlarla qarşılıqlı münasibətlərin koqnitiv - emosional məzmununun yetərli olmaması;

3) kursantları onların özləri tərəfindən ailə tərbiyəsində adət etdikləri qeyri-adekvat ünsiyyət vərdişlərini yeni vərdiş və bacarıqlarla əvəz etmədə çətinliklər;

4) kursantlar üçün etibarlı, stabil, intizamlı və müdafiəedici emosional mühitin onlar üçün yetərli olmaması;

5) kursantlara seçdikləri ixtisaslar üzrə daxili resurslarını aşkar edərək onları aktuallaşdırmanın yollarının öyrədilməməsi;

6) kursantların dəyişən şəraitə uyğunlaşmaları üçün onların fəaliyyətini nizamlayan işçi heyət arasında şəxsiyyətin tipləri, yaş xüsusiyyətləri, rol davranışın inkişafı kimi məsələlərlə bağlı maarifləndirmə işlərinin zəif təşkili;

7) kursantları yaşıdları ilə birgəfəaliyyətə sövq edərək qarşılıqlı dəstək, əməkdaşlıq təcrübəsini inkişaf etdirmədə ləngimələr və s.

Bu nəticəyə gəlmək olur ki, Polis Akademiyasına qəbul olunmuş kursantların üzləşdikləri dəyişən şəraitə adaptasiyasında bir sıra sahələr üzrə çətinliklər yaranır. Kursantların dəyişən şəraitə adaptasiyası dövründə üzləşdikləri bu çətinliklərin başlıca səbəbi əvvəlki həyat çəraitinə uyğun olmayan yeni ünsiyyət tərzi ilə qarşılaşmalarıdır. Belə ki, Polis Akademiyasının həyatı həm məişət həyatından, həm də ənənəvi sosial həyatdan ciddi fərqlənir. Burada kursantlar artıq ərköyünlük edə bilmir, özlərininin əvvəlki istək və arzularını, maraq və meyillərini yalnız bir istiqamətə - Akademiyanın təhsil mühitinə, fiziki hazırlıqlara və s. yönəltmək zərurəti ilə üzləşirlər. Həmçinin, onlar yeni sosial qrupa qoşulur, bu qrupdakı yeni insan münasibətləri ilə üzləşirlər. Onların ünsiyyət tərzi ilə orta məktəbdəki ünsiyyət tərzi əhəmiyyətli dərəcədə fərqli olur. Nəticədə daha səmərəli ünsiyyətin formalaşması üçün zaman lazım gəlir. Bu müddət ərzində isə ünsiyyətdə müxtəlif xarakterli ləngimə, münaqişə və psixikada onların yaratdığı stress, depressiya halları baş verə bilir. Psixikada yaranan bu kimi vəziyyətlərin özü də yeni problemlərə yol açır.

Kursantların adaptasiya dövründə üzləşdikləri əsas çətinliklər onların rol davranışlarında aşkar edilmişdir. Kursantların gün rejiminin dəyişməsi, ilk növbədə onlardan çeviklik, dəqiqlik, dözümlülük, hazırcavablıq və s. bu kimi keyfiyyətlər tələb edir. Halbuki, əldə etdiyimiz nəticələrdə kursantların bir qismində bu kimi keyfiyyətlərin zəif olduğu müəyyən edilmişdir. Digər tərəfdən, bildiyimiz kimi, şəxsiyyətin sosial rol davranışı bir sıra fizioloji aktlarla, psixoloji konstruktorlarla, davranış modelləri ilə tənzimlənir. Prosesdə orqanizmin qarşılıqlı əlaqədə olan sistemləri çalışır. Həmin sistemlərdə yeni rol davranış modellərin formalaşması üçün məşqlər etmək, yeni vərdiş və bacarıqlara yiyələnmək lazım gəlir. Bu isə müəyyən müddət ərzində mümkün olur. Bir sıra kursantların isə yeni rol davranış modellərinə yiyələnmələri üçün daha çox vaxt lazım gəlir. Adaptasiya dövründə məhz rol davranışdakı problemlər səbəbindən müxtəlif xoşagəlməz hallar, hətta suisidal davranış meyillərinin yaranması belə baş verə bilir.

Belə çətinliklərin uğurlu həlli üçün şəxsiyyətin adaptasiyaya psixoloji baxımdan hazır olması lazım gəlir. Bu hazırlıq həm fizioloji, həm də psixoloji səviyyədə aparılmalı, yarana biləcək çətin situasiyaların öhdəsindən gəlmək üçün özünü təkmilləşdirməli və fəallaşdırmalıdır.

**Problemin aktuallığı.** Müasir dünyada insan mədəniyyətinin ən mühüm dəyərləri davranışla ölçülür. Kimliyindən asılı olmayaraq, hələ kiçik yaşlardan tərbiyə mühiti ilk növbədə davranış mədəniyyətinə yönəldilir. Eyni zamanda, davranışın formalaşmasında müxtəlif sosial rolların icrası qaydalarını öyrənmək və mənimsəmək lazım gəlir. Əgər söhbət artıq yetkin şəxsiyyətdən gedirsə, məsələ daha da mürəkkəbləşir. Burada qoyulan məsələlər də belə bir aktual problemə, Polis Akademiyasında yeni təhsilə başlamış kursantların rol davranışındakı çətinliklərə həsr edilmişdir.

**Problemin elmi yeniliyi.** Psixologiyada öyrənilməsi çətin olan sahələrdən biri də rol davranışıdır. Bunun iki səbəbi vardır: birincisi, davranışın mürəkkb quruluşa malik olması, ikincisi onun sosial situasiyalarla bağlılığıdır. Bu səbəbdən hər bir sosial qrupda rol davranışın öyrənilməsi psixologiya elmini yeni faktlarla zənginləşdirir. Tədqiqatın elmi yeniliyini əsaslandıran digər amil isə onun xüsusi rejimli dəyişən şəraitlə üzləşən sınanılanlarla aparılmasıdır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Hər bir mədəni insan müxtəlif sosial qrupların üzvü olaraq rol davranış mədəniyyətinə sahib olmalıdır. Burada xüsusi rejimli dəyişən şəraitə adaptasiya dövründə şəxsiyyətin rol davranışında yarana biləcək çətinliklər aydınlaşdırılır. Çətinliklərin baş verməməsi üçün həll edilməli olan məsələlər göstərilir. Əldə edilmiş nəticələrdən dəyişən şəraitlə üzləşmiş şəxslərin rol davranışının nizamlanmasında praktiklər tərəfindən istifadə edilə bilər.

## Ədəbiyyat

1. Əmrahlı, L.Ş. Psixoloji treninq/L.Ş.Əmrahlı. - Bakı: Adiloğlu, - 2020. - 256 s.
2. Daxili işlər orqanları əməkdaşlarının fəaliyyətində psixologiya və pedaqogika// Tərtib edənlər: F.H.Muradov, R.R.Müzəffərov. - Bakı: 2014. – 170 s.
3. Ersöz, H.Y., Şahin L. İnsan kaynaklari yönetimi / H.Y.Ersöz, L.Şahin. – İstanbul: - İstanbul üniversitesi, 2010. - 553 s.
4. Бандура, А. Социально-когнитивное направление в теории личности / А. Бандура, Дж. Роттер // Теории личности. - СПб.: Питер, - 1997. - с. 373 – 431.
5. Пиаже Ж. Теория, эксперименты, дискусии / Под ред. Л.Ф.Обуховой. – М.: 2001. – с. 106-186.
6. Реан, А.А. Психология адаптации личности. Анализ. Теория. Практика /А.А.Реан, А.Р.Кудашев, А.А.Баранов. - СПб.: Прайм-Еврознак, 2006. - 479 с.
7. Хорни К. Невроз и личностный рост. Борьба за самореализацию // Пер. с английского Е И Замфир под ред. проф М М Решетникова. - СПб.: Восточно Европейского Институт психоанализа, 1997. -316 с.
8. https://www.ioatwork.com/personality-type-adapts-workplace-change//What Personality Type Successfully Adapts to Workplace Changes?
9. https://www.verywellmind.com/what-is-adaptation-2794815//K.Cherry. Adaptation in Piaget's. Theory of Development - Verywell Mind, Developmental Psichology, May, 2021.

**Р.Р. Музаффаров**

## Трудности адаптации новой ролевой модели поведения личности в изменяющихся условиях

### Резюме

В статье рассматриваются трудности, возникающие при адаптации личности к изменяющимся условиям, в частности, в контексте ролевого поведения. Указывается, что в целом процесс адаптации является сложным феноменом, охватывающим биологические, физиологические, социальные и психологические аспекты личности. Поэтому каждая новая ситуация требует от личности адаптации в этих областях. В психологии научные трудности адаптации изучаются с социально-психологической точки зрения. Автор исследует проблему именно с этой перспективы. Проблема анализируется на примере студентов первого курса Академии полиции Министерства внутренних дел Азербайджанской Республики, результаты обобщаются. Указывается, что поскольку

это учебное заведение функционирует в условиях специального режима, курсанты сталкиваются с новыми правилами. В их эмоциональной сфере и поведении возникают случаи нарушения этих правил. Социальное ролевое поведение личности регулируется рядом физиологических актов, психологических конструкций и моделей поведения, поэтому для формирования новых моделей ролевого поведения необходимо проводить тренировки, приобретать новые привычки и навыки. Это становится возможным лишь спустя некоторое время. Такая подготовка должна проходить на физиологическом и психологическом уровнях. Чтобы справиться с возникающими трудными ситуациями, человек должен совершенствоваться и активизировать себя.

**R.R. Muzaffarov**

**Difficulties in adapting new role behavior in a changing environment**

**Summary**

The article discusses the difficulties that arise in role behavior during the adaptation of personality to a changing environment. It is shown that the overall adaptation process is a complex phenomenon encompassing the biological, physiological, social, and psychological aspects of personality. Therefore, each new situation requires the adaptation of these areas of the personality. In psychology, scientific adaptation difficulties are studied from both social and psychological perspectives. The author approaches the issue from this aspect in the research. The problem is analyzed by examining first-year students of the Ministry of Internal Affairs (MIA) Academy's Police Department, and the results are generalized. It is demonstrated that, due to the special regime of this educational institution, the cadets face new rules. Violations of these rules often occur in their emotional domain and behavior. Since social role behavior is regulated by several physiological actions, psychological constructs, and behavioral models, it is necessary to practice to form new role behavior models and acquire new habits and skills. This is possible only after a certain period. This preparation must take place at both the physiological and psychological levels. To cope with potential challenging situations, a person must improve and activate themselves.

**Redaksiyaya daxil olub:** 03.02.2025

*UOT 159.923:316.6*

# AQRESSİV DAVRANIŞIN YARANMASI VƏ ARADAN QALDIRILMASI YOLLARI

**Çinarə Əsədulla qızı Nuxieva**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0002-5091-2836
**E-mail:** cinare.nuhuyeva@gmail.com

***Açar sözlər:*** *aqressiya, aqressiv davranış, terapiya, davranış pozuntusu, psixokorreksiya*
***Ключевые слова:*** *агрессия, агрессивное поведение, терапия, расстройства поведения, психокоррекция*
***Key words:*** *aggression, aggressive behavior, therapy, behavioral disorder, psychocorrection*

Bütün tarix boyu bəşəriyyət qəddarlıq, zorakılıq, qəsdlər, dağıntılar və digər destruktiv əməllər, mənəvi iztirablar gətirən hallarla qarşılaşır. Biz, demək olar ki, hər gün kütləvi informasiya vasitələrindən insanların aqressiv davranışının təcəssümü olan cinayətlər, müharibələr, terror aktları haqqında məlumat alırıq.

Aqressiyanın tibbi aspektlərindən söz açılarkən, ilk növbədə, psixi patologiya ilə bağlı olan aqressiya nəzərdə tutulur. Psixi xəstələrin aqressiyası müharibələr zamanı törədilən zorakılıqdan müqayisə olunmaz dərəcədə az olsa da, nəzərə almaq lazımdır ki, psixi xəstəxanaların pasiyentlərinin 10%-də bu və ya digər aqressiv tendensiyalar müşahidə olunur.

Aqressiya, "aggredi" - latın sözündən götürülüb, mənası "hücum", "təcavüz" deməkdir [3, 51]. Uzun müddət bu anlayış tibbi, bioloji, irsi kateqoriya kimi öyrənildiyinə görə, bu məsələyə psixologiya elmində diqqət yetirilməmişdir. Hazırda isə aqressiya bir çox elm sahələri üçün, əsasən də psixologiya elmi üçün, o cümlədən sosial psixologiya elmi üçün həlli vacib olan aktual problemlərdən birinə çevrilmişdir. Güzəran psixologiyasında, "aqressiya" sözü özünü müdafiə edən şəxsə də, cinayət törədən şəxsə də, hətta bütün gücünü işə sərf edənə də aid olunur. Elmi ədəbiyyatda aqressiyanın psixoloji mahiyyətinin və mexanizminin öyrənilməsinə bir sıra tədqiqatlar həsr edilmişdir. Həmin tədqiqatlardan bir qismində aqressiya davranış kimi, başqa bir qismində qəsd kimi, digərlərində isə aqressiya, vurulmuş ziyan kimi nəzərdən keçirilmişdir. Belə ki, L.Berkoviç, haqlı olaraq, göstərir ki, aqressiya anlayışının məzmununu müəyyənləşdirmək çox çətindir.

Qeyd etdiyimiz kimi, aqressiya anlayışının özü, ona dəqiq tərif vermək cəhdləri zamanı ciddi ziddiyyətlər doğurur. Belə ki, bir çox hallarda, digərləri üçün təhlükəli olan və onlara zərər yetirən istənilən davranış aqressiya kimi qiymətləndirilir. Lakin sürücünün diqqətsizliyi üzündən baş vermiş və insan tələfatı ilə nəticələnən qəsdən törədilməyən avtomobil qəzası bir qayda olaraq, aqressiv əməl hesab olunmur.

Məlumdur ki, aqressiv davranışı insan psixikasının hər hansı konkret sferası ilə bağlamaq məqsədəuyğun deyil. Bəzən aqressiya emosional sferanın məhsulu kimi nəzərdən keçirilir. Burada ön planda nifrət və qəzəb kimi emosional hallar – affektlər durur. Lakin belə olan təqdirdə soyuqqanlı şəkildə fəaliyyət göstərən muzdlu qatilin hərəkətləri aqressiya sayılmamalıdır. Bu isə cəfəng görünür. Aqressiyanı motiv ilə əlaqələndirmək cəhdləri də

inandırıcı görünmür, məsələn, valideynlərin uşağını hər hansı bir dəcəlliyinə görə tənbeh etməsini kimsə aqressiya adlandıra bilməz. Halbuki burada qəsdən zərər yetirmək motivi şübhəsizdir. Ən nəhayət, aqressiyanı koqnitiv proses nöqteyi-nəzərindən (düşmənçilik fikirləri, ədavət) qiymətləndirmək də həmişə mümkün olmur. Bir çox hallarda aqressiya xoş müsbət münasibət bəslənilən yaxın adamlara qarşı yönəlmiş olur [2,151].

Aqressiv davranışın bioloji determinatları nələrdir?

İnsanın aqressiv davranışa meyilli olmasına daha çox – daxili (endogen) və ya mühit (ekzogen) amillərinin təsir etdiyi tam müəyyənləşdirilməmişdir. Çox güman ki, belə amillərdən hər biri bu və ya digər dərəcədə aqressiv davranışın formalaşmasında iştirak edir. Hal-hazırda aqressiyanın bioloji hipotezləri, irsi, hormonal və neyrofizioloji faktorları araşdırılır. Aqressiv tendensiyaların irsən keçməsindən danışarkən tez-tez eyni genotipə malik biryumurtalı əkizlər üzərində aparılan tədqiqatlara əsaslanırlar.

Tədqiqatların digər xətti himayəyə götürülən uşaqların öz bioloji valideynlərinin xüsusiyyətlərinin irsən verilməsinin öyrənilməsi ilə əlaqədardır. Sübuta yetirilmişdir ki, himayəyə götürülmüş uşaqlar arasında valideynləri məhkum olunmuşların qanun pozuntusu törətmək riski yüksəkdir [4,211].

Alınmış nəticələr başqa cür də qiymətləndirilə bilər. Aqressiyaya meyillilik deyil, ayrı-ayrı xüsusiyyətlər, məsələn, intellektual qabiliyyət, yüksək emosionallıq, hiperaktivlik və s. irsən verilə bilər.

Aqressiv davranış, K.Z. Lorensin hipotezinə görə, toplanmış aqressiv enerjinin çıxmasını təmin edən və ya tormozlayan xüsusi xarici amildən asılıdır. Onu da qeyd etmək lazımdır ki, öz aqressiv instinktlərini cilovlamaq qabiliyyəti qurbanlara ciddi xəsarət yetirmək imkanları ilə bağlıdır. Əgər bir insan münaqişə zamanı problemi sözlə anlada, həll edə bilmirsə, yumruqlarını düyünləyirsə (yəni fiziki qüvvə, zorakılıq tətbiq etmək üçün), o, sübuta yetirir ki, onun babası həqiqətən meymundur (Çarlz Darvin) [5,141].

Z. Freyd hələ 1920-ci ildə belə qənaətə gəlmişdi ki, insanda dağıtmağa və həyatı məhv etməyə yönəlmiş xüsusi instinktiv meyil mövcuddur. Aqressiyanın formalaşmasına dair maraqlı fikirlər E. Frommun "İnsanın ruhu" və "İnsanın destruktivliyinin anatomiyası" əsərlərində şərh olunmuşdur. E. Fromm aqressivliyi xoşxassəli və bədxassəli növlərə bölür. Birincisi, daha çox idman yarışlarında rast gəlinən oyun aqressiyasına aiddir. Xoşxassəli aqressiyanın daha bir növü məqsədə nail olmağa yönəlmiş özünütəsdiq meylidir. Belə aqressiya şəxsiyyətin özünütəsdiq etməsi üçün vacibdir.

E. Fromm yazır: "Həyata inamın itməsi nifrətə səbəb olur. İnsan sübut etməyə çalışır ki, həyat amansızdır, bütün insanlar qəddardırlar və sən özün qəddar olmalısan!" [1,173].

E. Fromma görə, bədxassəli aqressiyanın mənbələri aşağıdakılardır:

1. Nekrofiliya – bütün cansız şeylərə meyil, həyata qarşı biganəlik, sadələşdirmək, bəsitləşdirmək cəhdi;

2. Narsissizm: öz şəxsiyyətinə pərəstiş, özünə vurğunluq, hamını və hər şeyi arzularına tabe etdirmək;

3. İnsestual simbioz-azadlıqdan qorxma, başqalarından asılılıq, qüvvəni şəxsləşdirmək.

*Aqressiyanın aradan qaldırılması*. Ümumtəhsil məktəblərində korreksiya diaqnostik işdən sonra aparılır. Adətən diaqnostikada olduğu kimi korreksiyanı da 2 formada həyata keçirmək olar:

1. Fərdi korreksiya
2. Qrupşəkilli korreksiya

Şəxsiyyətin inkişafında və formalaşmasında özünü göstərən qüsurların korreksiyasını həyata keçirərkən psixoloq bu məqsədlə bir sıra testlərdən, didaktiv materiallardan, treninqlər və s. tətbiq etməklə işlər aparılır. Tələbə və gənclərdə aparılan psixoloji xidmət prosesində yerinə yetiriləcək korreksiya işləri mühüm əhəmiyyət kəsb edir. Psixodiaqnostik işlərin aparılması nəticəsi kimi üzə çıxarılan çətinlikləri təhlil etmək üçün psixokorreksiyadan istifadə olunur. Psixokorreksiya işlərinin məzmununa:

a) şagirdlərin idrak və ictimai fəallığının motivasiyasının formalaşdırılması, həmçinin diqqətin inkişafında, iradi xüsusiyyətlərində, hisslərində, temperament, xarakter və qabiliyyətlərin tərbiyəsində özünü göstərən çətinliklərini aradan qaldırılması.

b) yeniyetmələrin yaşıdlar və həmyaşıdlıları ilə qarşılıqlı şəxsiyyətlərarası münasibətlərində özünü göstərən qüsurların aradan qaldırılması və s.-ni daxil etmək olar.

Adətən, korreksiya proqramının həm psixoloji, həm də pedaqoji cəhətləri var. Onların həyata keçirilməsi bir – birindən müəyyən dərəcədə fərqlənir. Psixoloji korreksiya psixoloq tərəfindən planlaşdırılır və həyata keçirilir.

*Şagird şəxsiyyətində baş verən qüsurların korreksiyası.* Buraya:

- özünüqiymətləndirmə.
- iddia səviyyəsinin korreksiyası.
- özünü qeyri–adekvat qiymətləndirmənin korreksiyası.
- eyni zamanda maraq və meyillərin korreksiyası aiddir [1,173].

Məktəblilərdə fərdi psixi xassələr üzrə korreksiya işləri ilə əlaqədar temperament xassələri ilə bağlı psixokorreksiya işlərini aid etmək olar.

Şagirdlərdə özünü göstərən yüksək həyəcanlanmanın korreksiyası, əhvallar, affektlər və gərgin psixoloji vəziyyət və halətlərin psixokorreksiyası, əxlaqi, estetik hisslərlə bağlı korreksiya işi, neqativizm, şıltaqlıq, tərslik, təqlidçilik, təlqinə qapılma ilə bağlı korreksiya işləri; digər iradi nöqsanların aradan qaldırılmasını aid etmək məqsədəuyğun hesab olunur.

Şəxsiyyətlərin münasibətlərlə bağlı psixokorreksiya işlərinə yeniyetmələrin yaşlılar və həmyaşıdlıları ilə qarşılıqlı şəxsiyyətlərarası münasibətlərində özünü göstərən qüsurların aradan qaldırılması, münaqişəli münasibətlərin korreksiyası, fərdi və qrup halında tətbiq olunan korreksiya işi aiddir.

**Problemin aktuallığı.** Aqressiv davranışın psixoterapiyası ilə əlaqədar insanların mütəmadi psixoloqlara müraciət etməsi problemin aktual əhəmiyyət kəsb etdiyinə işarə edir.

**Problemin elmi yeniliyi.** Məqalədə aqressiya və aqressiv davranış anlayışları elmi təhlil olunur.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Elmi ədəbiyyatda problemin həllinin praktik yolları və istiqamətləri göstərilir.

**Ədəbiyyat**

1. Kazımova K.Q., Qəzvini U.M. Sosial psixologiya. Bakalavr hazırlığı üçün dərslik. Bakı: Füyuzat, 2023.
2. Алфимова М.В. Трубников В.И. Психогенетика агрессивности// Вопросы психологии. 2000, № 6.
3. Реан А.А. Агрессия и агрессивност личности // Вопросы психологии. 1996, № 5. с. 3-18.
4. Румянцева Т.Г. Агрессия и контрол // Вопросы психологии. 1992, № 5/6. с. 35-40.
5. Семенюк Л.М. Психологические особенности агрессивного поведение подростков и условия его коррекции. М.: Речь, 2003, 96 с.

**Ч.А. Нухиева**

**Способы возникновения и преодоления агрессивного поведения**
**Резюме**

Нецелесообразно связывать агрессивное поведение с какой-либо конкретной сферой человеческой психики. Иногда агрессию рассматривают как продукт эмоциональной сферы. На первом плане здесь такие эмоциональные состояния, как ненависть и приступы гнева. Также не всегда возможно оценить агрессию с точки зрения когнитивного процесса (враждебность -грязь, неприязнь к кому-либо). Во многих случаях агрессия направлена против близких людей с приятным позитивным настроем.

**C.A. Nuxieva**

**Ways to generate and eliminate aggressive behavior**
**Summary**

It is not advisable to connect aggressive behavior with any specific sphere of the human psyche. Sometimes aggression is considered as a product of the emotional sphere. In the foreground here are such emotional states as hatred and anger – af-feints. It is also not always possible to evaluate aggression from the point of view of the cognitive process (hostility fi-dirt, enmity). In many cases, aggression is directed against close people with a pleasant positive attitude.

**Redaksiyaya daxil olub:** 11.03.2025

*UOT 159.923:316.6*

# MƏKTƏB ZORAKILIĞI VƏ SOSİAL-PSİXOLOJİ XİDMƏTLƏRİN ROLU

**Əminə Şahin qızı Əlizadə**
*SABAH qrupları, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCID:** 0009-0005-2796-3573
**E-mail:** aminaalizada777@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v22.i1.11

***Açar sözlər:*** *məktəb zorakılığı, sosial-psixoloji xidmətlər, psixoloji rifah, erkən müdaxilə, zorakılığın qarşısının alınması*
***Ключевые слова:*** *школьное насилие, социально-психологические службы, психологическое благополучие, раннее вмешательство, профилактика насилия*
***Key words:*** *school bullying, social-psychological services, psychological well-being, early intervention, bullying prevention*

Məktəb zorakılığı uşaqların psixoloji sağlamlığına, akademik göstəricilərinə və sosial münasibətlərinə mənfi təsir edən ciddi problemdir. Zorakılığın müxtəlif formaları – fiziki, psixoloji və kiberzorakılıq – şagirdlərdə uzunmüddətli travmalara, özünəinamsızlığa və məktəbdən uzaqlaşmağa səbəb ola bilər. Sosial-psixoloji xidmətlər isə bu kimi halların qarşısının alınması və şagirdlərin psixoloji dəstəklə təmin edilməsi baxımından əhəmiyyətli rol oynayır (Psixologiya İnstitutu, 2021). Bu məqalədə məktəb zorakılığının formaları, onun fəsadları və sosial-psixoloji xidmətlərin bu problemlə mübarizədəki təsiri araşdırılır.

Zorakılığın məktəb mühitində yayılması şagirdlərin akademik performansına, psixoloji sağlamlığına və sosial münasibətlərinə mənfi təsir göstərir. Fiziki zorakılıq döyülmə və zor tətbiq etmə, psixoloji zorakılıq isə alçaltma, lağ etmə və sosial təcridetmə şəklində müşahidə olunur. Kiberzorakılıq isə sosial media və onlayn platformalar üzərindən psixoloji təzyiq göstərmə və təhqir etmə formasında baş verir.

Zorakılığa məruz qalan şagirdlərdə depressiya, təşviş pozuntusu, məktəbə qarşı qorxu hissi və özünə inamsızlıq inkişaf edir. Bu problemlərin həlli üçün məktəblərdə sosial-psixoloji xidmətlərin gücləndirilməsi, şagirdlərə emosional dayanıqlıq qazandırılması və zorakılığın qarşısının alınmasına dair strategiyaların hazırlanması vacibdir. Məktəb psixoloqları və sosial işçilər şagirdlərlə fərdi və qrup terapiyaları aparmaqla yanaşı, zorakılığın səbəblərini araşdırır və onun qarşısının alınması üçün müxtəlif proqramlar təşkil edirlər. Sosial-psixoloji xidmətlərin zorakılığın qarşısının alınmasında rolu.

Məktəb psixoloqları və sosial işçilər zorakılığın təsirini azaltmaq və şagirdlərin psixoloji dayanıqlığını artırmaq məqsədilə müxtəlif metodlardan istifadə edə bilərlər

• Psixoloji dəstək və məsləhət xidmətləri: Zorakılığa məruz qalan şagirdlər fərdi psixoloji dəstək alır və onların emosional vəziyyətinin normallaşması üçün qrup terapiyaları təşkil olunur.

• Maarifləndirmə proqramları: Şagirdlərə zorakılığın fəsadları və onunla mübarizə yolları haqqında təlimlər keçirilir. Məktəblərdə zorakılığa qarşı seminarlar və interaktiv məşğələlər təşkil olunur (s.2).

• Müəllim və valideynlərlə əməkdaşlıq: Müəllimlər və valideynlər üçün maarifləndirici proqramlar hazırlanır. Valideynlər övladlarının zorakılığa məruz qaldığını müşahidə etdikdə bu barədə məktəb psixoloqlarına məlumat verə bilirlər.

• Zorakılığın erkən aşkarlanması: Şagirdlərin davranışları müşahidə edilərək zorakılıq halları erkən mərhələdə müəyyən edilir və müvafiq müdaxilələr həyata keçirilir.

Dünyanın bir çox ölkəsində məktəb zorakılığı ilə mübarizədə qabaqcıl təcrübələr mövcuddur. Finlandiya və Kanada kimi ölkələrdə məktəblərdə psixoloji xidmətlər geniş şəkildə tətbiq olunur və müəllimlər zorakılığın qarşısını almaq üçün xüsusi təlimlərdən keçirlər. ABŞ-da isə məktəblərdə zorakılığın azaldılması üçün "anti-bullying" proqramları həyata keçirilir və bu proqramlar çərçivəsində şagirdlərə özünümüdafiə bacarıqları öyrədilir.

Azərbaycanda da məktəb psixoloqları və sosial işçilərin fəaliyyətini gücləndirmək üçün addımlar atılmaqdadır. Lakin sosial-psixoloji xidmətlərin əhatə dairəsi genişləndirilməli, psixoloqların sayı artırılmalı və mütəxəssislərin peşəkar inkişafına daha çox diqqət yetirilməlidir.

Məktəb zorakılığı uşaqların psixoloji və akademik inkişafına mənfi təsir göstərən ciddi problemdir. Bu problemin həlli üçün məktəblərdə sosial-psixoloji xidmətlərin gücləndirilməsi, psixoloqların sayının artırılması və maarifləndirmə proqramlarının genişləndirilməsi zəruridir. Beynəlxalq təcrübələr göstərir ki, sosial-psixoloji xidmətlərin səmərəli tətbiqi zorakılıq hallarının azalmasına və şagirdlərin psixoloji rifahının yaxşılaşmasına kömək edir.

Azərbaycanda bu istiqamətdə aparılan tədbirlərin daha da genişləndirilməsi, məktəb psixoloqlarının iş yükünün azaldılması və onların peşəkar inkişafına xüsusi önəm verilməsi zorakılıq hallarının azalmasına və sağlam məktəb mühitinin formalaşmasına töhfə verə bilər.

**Problemin aktuallığı.** Məktəb zorakılığı müasir təhsil sistemində qlobal miqyasda aktual problemlərdən biri hesab olunur. Araşdırmalar göstərir ki, zorakılığa məruz qalan şagirdlərdə depressiya, təşviş pozuntusu və akademik uğursuzluq halları müşahidə edilir. Son illərdə kiberzorakılıq da yayılmış və sosial medianın inkişafı ilə daha mürəkkəb xarakter almışdır. Azərbaycanda da məktəblərdə zorakılığın qarşısının alınması məqsədilə müxtəlif tədbirlər həyata keçirilsə də, sosial-psixoloji xidmətlərin təkmilləşdirilməsi ehtiyacı mövcuddur. Bu baxımdan, məktəblərdə psixoloji xidmətlərin gücləndirilməsi və zorakılığın qarşısının alınması üçün yeni strategiyaların işlənib hazırlanması məsələsi aktualdır.

**Problemin elmi yeniliyi.** Bu araşdırma məktəb zorakılığının təsirlərini və sosial-psixoloji xidmətlərin rolunu müasir yanaşmalar əsasında təhlil edir. Beynəlxalq təcrübəyə əsaslanaraq məktəbdə zorakılıqla mübarizədə sosial işçilərin və məktəb psixoloqlarının istifadə etdiyi effektiv metodlar ümumi şəkildə araşdırılır. Bundan əlavə, zorakılığın qarşısının alınmasında məktəb psixoloqlarının və sosial işçilərin fəaliyyətinin daha sistemli və təsirli olması üçün konstruktiv təkliflər ola bilər.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Bu tədqiqatın nəticələri təhsil müəssisələrində zorakılığın azaldılması və sosial-psixoloji xidmətlərin daha effektiv təşkil olunması üçün praktik tövsiyələr təqdim edir. Məktəb rəhbərliyi, müəllimlər, valideynlər və sosial işçilər üçün zorakılıq hallarının erkən aşkarlanması və qarşısının alınması məqsədilə metodoloji yanaşmalar işlənib hazırlanmışdır. Araşdırma nəticələri həm də məktəb psixoloqları və sosial işçilər üçün zorakılığa qarşı mübarizədə istifadə edilə biləcək innovativ müdaxilə strategiyalarının inkişaf etdirilməsinə töhfə verə bilər.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikası Milli Məclisi. (2010). Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Hüquqi Aktların Vahid Elektron Bazası. https://lhri.az/az/library-download/146

**Э.Ш. Ализада**

**Школьное насилие и роль социально-психологических служб**
**Резюме**

Школьное насилие – это серьезная проблема, оказывающая негативное влияние на психологическое благополучие, академическую успеваемость и социальные отношения учащихся. В данной статье рассматриваются формы школьного насилия, его последствия и роль социально-психологических служб в решении этой проблемы. Психологические службы в школах играют важную роль в предотвращении и смягчении насилия, предоставляя эмоциональную поддержку, раннее вмешательство и просветительские программы. Международный опыт, включая практики Финляндии, Канады и США, демонстрирует эффективность структурированных программ против буллинга. В Азербайджане необходимо расширение социально-психологических служб, увеличение числа школьных психологов и внедрение комплексных стратегий вмешательства для снижения случаев насилия. Усиление сотрудничества между учителями, родителями и психологами может способствовать созданию безопасной и инклюзивной школьной среды.

**A.Sh. Alizada**

**School violence and the role of socio-psychological services**
**Summary**

School bullying is a serious problem that negatively affects students' psychological well-being, academic performance, and social relationships. This article examines the forms of school bullying, its consequences, and the role of social-psychological services in addressing this issue. Psychological services in schools play a crucial role in preventing and mitigating bullying by providing emotional support, early intervention, and awareness programs. International experiences, including those from Finland, Canada, and the USA, demonstrate the effectiveness of structured anti-bullying programs. In Azerbaijan, expanding the scope of social-psychological services, increasing the number of school psychologists, and implementing comprehensive intervention strategies are essential for reducing bullying incidents. Strengthening cooperation between teachers, parents, and psychologists can contribute to a safer and more inclusive school environment.

**Redaksiyaya daxil olub:** 25.02.2025

*UOT 159.923:316.6*

# HƏSSAS ƏHALİ QRUPLARINDAN OLAN ŞƏXSLƏRİN PSİXOPATOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Aysu Elçin qızı Kələntərli**
*Xəzər Universitetinin magistrantı*
**ORCİD:** 0009-0006-4400-5112
**E-mail:** aysukelenterli222@gmail.com

***Açar sözlər:*** *həssas əhali qrupları, psixopatologiya, psixopatoloji xüsusiyyətlər, psixi sağlamlıq, psixi pozuntular, psixoloji yardım, sosial dəstək, psixi sağlamlıq xidmətləri.*

***Ключевые слова:*** *уязвимые группы населения, психопатология, психопатологические особенности, психическое здоровье, психические расстройства, психологическая помощь, социальная поддержка, психиатрическая помощь.*

***Key words:*** *vulnerable population groups, psychopathology, psychopathological characteristics, mental health, mental disorders, psychological assistance, social support, mental health services.*

Sosial, iqtisadi və mədəni dinamikaların sürətlə dəyişdiyi bu müasir dövrdə cəmiyyətin qarşılaşdığı ən ciddi və zəruri problemlərdən biri həssas əhali qruplarından olan şəxslərin psixi sağlamlıq mövzusudur. Bu əhali qrupları fərqli sosial-iqtisadi, demoqrafik, və psixoloji faktorlara görə digərlərindən daha çox risk altında olan və xüsusi dəstəyə ehtiyacı olan insanları təmsil edir. Həssas əhali qrupları geniş bir sahəni əhatə edir. Burada uşaqlar, yetkinlik yaşına çatmayanlar, yaşlı insanlar, məcburi köçkünlər və qaçqınlar, sosial-iqtisadi vəziyyəti zəif olan şəxslər, müxtəlif fiziki və ya psixi sağlamlıq problemləri olan fərdlər, diskriminasiyaya məruz qalan insanlar və s. yer alır. Cəmiyyətin strukturunda bu cür qrupların sayı gün keçdikcə artmaqda və onların qarşılaşdıqları çətinliklər daha mürəkkəb hal almaqdadır. Beləliklə, bu qrupların psixopatoloji xüsusiyyətlərinin araşdırılması və dəstək mexanizmlərinin yaradılması həyati əhəmiyyət daşıyır.

Həssas əhali qruplarının üzləşdiyi psixopatoloji problemlərin səbəbləri müxtəlif olduğu qədər həm də çoxşaxəlidir. Təbii ki, bu psixopatoloji problemlər geniş bir spektrdə ortaya çıxır. Bu qruplar arasında depressiya, təşviş, travma sonrası stress pozuntusu (TSSP), şəxsiyyət pozuntuları, intihar meylləri və intihar cəhdləri daha çox müşahidə edilir. Məsələn qaçqın və məcburi köçkünlər uzunmüddətli travmatik təcrübələrdən, ailə üzvlərini itirməkdən və yeni bir mühitə uyğunlaşma problemlərindən əziyyət çəkə bilirlər. Bunun nəticəsində bu şəxslər arasında travma sonrası stress pozuntusu (TSSP) və təşviş pozuntularını nisbətən daha çox müşahidə etmək mümkündür. Həmçinin, yaşlı əhali qrupu da tez-tez sosial izolyasiya və tənhalıqla mübarizə aparırlar ki, bu da depressiyanın əsas yaranma səbəblərindən biri kimi görülə bilər. Bu faktlar göstərir ki, həssas əhali qruplarının psixopatoloji vəziyyətləri onların yaşadığı həyat şəraiti, sosial təcrid, iqtisadi çətinliklər və fərdi travmalarla sıx əlaqəlidir.

Bu mövzunun əhəmiyyəti yalnız fərdlərin psixi sağlamlığının qorunması baxımından deyil, ümumilikdə cəmiyyətin sağlam formalaşması və inkişafı üçün də olduqca mühümdür. Psixopatoloji xüsusiyyətlər və risk faktorları ilə üzləşən həssas qruplara vəziyyətinə uyğun və effektiv dəstək vermək həm onların həyat keyfiyyətini artırır, həm də cəmiyyətdə rifahı təmin edir. Araşdırmalar göstərir ki, həssas qruplara yönəlmiş uyğun psixoloji dəstək və psixoloji

müdaxilələr onların psixi sağlamlığını bərpa etməkdə əsaslı rol oynayır. Xüsusilə Koqnitiv Davranış Terapiyası (KDT), travma mərkəzli yanaşmalar və terapiyalar, ailə terapiyaları və sosial dəstək proqramları kimi metodlar həssas qrupların psixoloji dayanıqlığını artırmağa kömək edir. Bu məqalənin əsas məqsədi həssas əhali qruplarının psixoptoloji xüsusiyyətlərini daha dərindən anlamaq, onların qarşılaşdığı çətinlikləri araşdırmaq və bu çətinliklərin onların psixoloji vəziyyətinə təsirini qiymətləndirməkdir. Həmçinin, müxtəlif həssas qruplar üçün uyğun terapevtik yanaşmaları və sosial dəstək proqramlarını öyrənməklə bu qrupların cəmiyyətə yenidən inteqrasiyası üçün lazımi addımları müəyyənləşdirmək məqsədi daşıyır. Müxtəlif beynəlxalq və yerli mənbələrdən alınmış statistik məlumatlara, həmçinin həyata keçirdiyimiz tədqiqatın nəticəsinə əsaslanaraq bu məqalədə həssas qrupların üzləşdiyi psixopatoloji problemlərin səbəbləri və nəticələri geniş şəkildə araşdırılıb, təhlil ediləcək. Həssas əhali qruplarına dəstəyin gücləndirilməsi və onların psixoloji rifahının təmin edilməsi üçün effektiv müdaxilə üsulları həyata keçiriləcəkdir.

Cəmiyyətdəki bərabərsizliklərdən ən çox təsirlənən qruplar həssas əhali qruplarıdır. Cəmiyyətdəki bu bərabərsizliklər bir çox problemlərə səbəb olsa da, bu qrupların həmçinin mənzil, qidalanma, sağlamlıq kimi əsas hüquqlara çıxışında da müəyyən maneələr mövcuddur. Həssas əhali qruplarına əlillər (sağlamlıq imkanları məhdud şəxslər), yaşlılar, uşaqlar, etnik qruplar, cinsi azlıqlar, qaçqın və məcburi köçkünlər və s. daxildir. Bundan əlavə yoxsullar da həssas əhali qruplarına aid edilir.

Həssas əhali qrupları cəmiyyətdə xüsusi diqqətə, dəstəyə ehtiyac duyan fərdlər, ailələr və qruplardır. Bu kateqoriyaya daxil olan insanlar sosial, iqtisadi, fiziki və psixoloji çətinliklər yaşaya bilir və bu çətinliklər nəticəsində digər insanlarla müqayisədə daha çox risk və təhlükə altındadırlar. Həssas əhali qruplarına daxil olan şəxslərin psixi sağlamlıq problemləri sosial və iqtisadi amillərlə sıx bağlıdır (World Health Organization [WHO], 2020). Həssas əhali qruplarından olan şəxslərin, ailələrin və qrupların hüquqlarının qorunması, yaşayış şəraitlərinin yaxşılaşdırılması, sosial ədalətin təmin olunması dövlətlər və beynəlxalq təşkilatlar üçün mühüm məsələdir. Psixososial müdaxilə proqramları həssas əhali qruplarında emosional reaktivliyi və psixi pozuntuların intensivliyini azaltmaqda mühüm rol oynayır (Patel et all., 2018).

Həssas əhali qruplarına bir sıra kateqoriyalar daxildir. İlk olaraq iqtisadi çətinliklər yaşayan şəxslərə nəzər salaq. İqtisadi çətinlik yaşayan şəxs dedikdə, əsas ehtiyaclarını qarşılamaq üçün maliyyə imkanları məhdud olan və ya qeyri-sabit iqtisadi şəraitdə yaşayan fərd nəzərdə tutulur. İqtisadi çətinlik yaşayan şəxslərin əsas xüsusiyyətlərinə gəlir çatışmazlığı, işsizlik və qeyri-sabit məşğulluq, borclar, maliyyə öhdəlikləri, sosial müdafiə imkanlarından məhrum olma, yaşayış yeri ilə bağlı problemlər və başqaları daxildir. Maddi ehtiyac içində olan insanlar, yoxsulluq həddində yaşayan ailələr, işsizlər və ya qeyri-sabit iş şəraitində olan fərdlər iqtisadi çətinliklər yaşayan şəxslərə daxildir. İqtisadi çətinliklər fiziki və psixoloji narahatlıqlara, təhsil və inkişaf imkanlarının məhdudlaşmasına, cəmiyyətdə sosial təcridə səbəb olur. Həssas əhali qruplarında uşaqlara xüsusi diqqət yetirilir. Bu kateqoriyaya valideyn himayəsindən məhrum olan uşaqlar, fiziki və əqli qüsurlu uşaqlar, təhsil hüquqlarından məhrum olan uşaqlar və s. daxildir. Bundan əlavə pensiya yaşında olan və ailə dəstəyi olmayan şəxslər, fiziki və psixoloji baxımdan qayğıya ehtiyacı olan yaşlılar, fiziki və əqli qüsurlu şəxslər, cəmiyyətə inteqrasiyada çətinlik çəkən insanlar, məişət zorakılığa məruz

qalan qadınlar və uşaqlar, erkən nikaha məcbur edilən və ya təhsildən kənar qalan qızlar, müharibə və ya təbii fəlakətlər səbəbindən yaşayış yerlərini tərk edənlər, inteqrasiya problemi ilə üzləşən qaçqınlar, asılılıqla mübarizə aparan şəxslər və digərləri həssas əhali qruplarına aiddir və bu həssas əhali qruplarından olan şəxslərin psixoloji vəziyyətində baş verən dəyişikliklər daim diqqət mərkəzində olur. Araşdırmalara əsasən məcburi köçkünlər və müharibə iştirakçıları arasında intihar riski digər həssas əhali qruplarına nisbətən geniş yayılmışdır (Silove, 2013).

Psixopatologiya psixi pozuntuları, bu pozuntuların əsas səbəbləri, simptomları və inkişaf mərhələlərinin öyrənilməsi ilə məşğul olan mühüm elm sahələrindən biridir. Psixopatoloji xüsusiyyətlər isə müxtəlif psixi xəstəliklər və pozuntularla müşahidə olunan davranış, emosional və koqnitiv dəyişiklikləri əhatə edir. Psixopatoloji xüsusiyyətlər fərdin emosional, davranış və idrak funksiyalarında davamlı dəyişikliklərə səbəb ola bilər (American Psychiatric Association [APA], 2013).

Psixopatoloji xüsusiyyətlərin əsas kateqoriyalarına emosional pozuntular (depressiya, təşviş, maniya və hipomaniya və s), koqnitiv pozuntular (halüsinasiyalar, deluziyalar, yaddaş pozuntuları və s), davranış pozuntuları (aqressivlik, impulsivlik, deviant davranışlar və s), şəxsiyyət pozuntuları (paranoid şəxsiyyət pozuntusu, şizotipal şəxsiyyət pozuntusu, histerik şəxsiyyət pozuntusu, obsessiv kompulsiv şəxsiyyət pozuntusu və s), psixosomatik pozuntular (somatizasiya, hipoxondriya və s), sosial funksiyaların pozuntuları (sosial fobiya, autizm spektr pozuntusu və s) və başqaları daxildir. Bu kateqoriyalar psixoloji xüsusiyyətlərin daha düzgün və ətraflı diaqnostikası üçün struktur təqdim edir. Onların hər biri müxtəlif klinik əlamətlər və etioloji faktorlarla səciyyələndirilir. Psixolopatoloji xüsusiyyətlərin araşdırılmasında DSM-5 və yenilənmiş XBT-11 kimi beynəlxalq diaqnostik vəsaitlərdən istifadə olunması daha məqsədə uyğundur.

Günümüzdə bu və digər psixoloji xüsusiyyətlərə bir sıra faktorlar səbəb olur. Bu faktorlara bioloji, psixososial, mühit faktorları daxildir. Bioloji faktorlar dedikdə genetik yatqınlıq, beyin kimyası və anatomiyası, neyrotransmitter balansının pozulması, psixososial faktorlar dedikdə, uşaqlıq və yeniyetməlik travmaları, ailə münaqişələri, sosial təcrid, mühit faktorları dedikdə isə, ekstremal həyat hadisələri, iqtisadi çətinliklər, müharibə şəraiti və s. aid etmək olar. Genetik faktorlar və erkən yaşda yaşanan travmalar psixopatoloji xüsusiyyətlərin inkişafında mühüm rol oynayır (Caspi et all., 2002)

Psixopatoloji problemləri və narahatlıqları aradan qaldırmaq məqsədi ilə həssas qruplara dəstək tədbirləri həyata keçirilir. Bu tədbirlərə qanunvericilikdə dəyişikliklər (əlilliyi olan şəxslər və uşaqlar üçün xüsusi hüquqi təminatlar, məişət zorakılığına məruz qalan qadınların qorunması üçün hüquqi təminatlar), sosial proqramlar (ailə dəstək mərkəzlərinin yaradılması, psixoloji yardım və məsləhət mərkəzlərinin fəaliyyət göstərməsi), maarifləndirmə (cəmiyyətdə həssas qruplara empatiyanın artırılması, onların bacarıqlarını inkişaf etdirmək üçün kurslar və təlimlərin təşkil olunması) kimi bir sıra tədbirlər daxildir.

**Problemin aktuallığı.** Bu mövzu çox aktualdır və həssas əhali qruplarının qarşılaşdığı psixopatoloji problemlərin dərin təhlilini tələb edir. Həssas qrupların psixi sağlamlığı təkcə fərdi rifaha deyil, həm də ümumi sosial sabitliyə və iqtisadi inkişafa təsir göstərir. Psixoloji problemlər bu qrupların əmək bazarına qoşulmasını, təhsil almasını və sosial inteqrasiyasını

çətinləşdirir. Qaçqınlar, məcburi köçkünlər və digər həssas qrupların psixi sağlamlıq problemləri yalnız lokal deyil, qlobal problem kimi də tanınır. Travmatik hadisələrdən əziyyət çəkən insanların psixoloji problemləri nəsillərarası təsirə malik ola bilər. Problemin aktuallığı həm də dövlət və qeyri-hökumət təşkilatlarının bu sahədə gördüyü işlərin nə dərəcədə yetərli olması ilə bağlıdır.

**Problemin elmi yeniliyi.** Müasir yanaşmalarda sosial və cəmiyyət əsaslı psixoloji dəstək mexanizmləri daha çox vurğulanır. Yenilənmiş sosial siyasətlər və icma əsaslı müdaxilə proqramlarına ehtiyac var. Sosial inklüzivlik və rifah siyasətlərinə artan qlobal diqqət, həssas əhali qruplarının problemlərinin yeni yanaşmalarla həll olunmasını tələb edir. Həssas əhali qruplarının psixi sağlamlıq problemləri köhnə bir mövzu olsa da, dəyişən sosial-iqtisadi və texnoloji reallıqlar, yeni elmi yanaşmalar və cəmiyyətin bu məsələyə artan diqqəti problemin yeniliyini qoruyur və onun həlli üçün daha innovativ strategiyalar tələb edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Həssas əhali qruplarının psixi sağlamlıq problemləri yalnız fərdi rifaha deyil, eyni zamanda cəmiyyətin sosial, iqtisadi və mədəni inkişafına da təsir göstərir. Psixi sağlamlıq problemləri ilə üzləşən həssas qruplara dəstək verməklə onların cəmiyyətə inteqrasiyası gücləndirilə bilər. Sosial bərabərsizliyin azalması və inklüziv cəmiyyətin qurulması üçün mühüm addım atılmış olar. Problemin həlli cəmiyyətin ümumi rifahı üçün strateji əhəmiyyət kəsb edir. Həssas əhali qruplarının psixi sağlamlığının qorunması onların cəmiyyətə töhfə verən fəal üzvlərə çevrilməsinə, ümumi sosial sabitliyin və iqtisadi inkişafın güclənməsinə səbəb olur.

## Ədəbiyyat


1. Ilgar, M. Z., & Coşgun Ilgar, S. Göç ve göçmenliğin psikolojik yansımaları (Vatansız vatandaş olmak). *Disiplinlerarası Göç ve göç Politikaları Sempozyumu* .2015

2. Uzunkaya, A. H., & Yılmaz, B. Göçün kuşaklararası bağlamda psikopatolojik yansımaları. *Psikoloji Çalışmaları, 41*(1), 167-197. 2021

3. YÜKSEL, Ş. SIĞINMA EVİNDE KALAN KADINLARDA ŞİDDET ÖYKÜSÜ AÇISINDAN TRAVMA SONRASI STRES BOZUKLUĞU, BENLİK SAYGISI VE BEDEN ALGISININ DEĞERLENDİRİLMESİ. 2009

4. Najafova, L. A. M. İ. A., & DEMİREL, D. Türkiye'de kadina yönelik aile içi şiddetle ilgili araştirmalarin sistematik derlemesi. *Istanbul University*. 2020

5. Demircioğlu, M., Şeker, Z., & Aker, A. T. Psikolojik ilk yardım: Amaçları, uygulanışı, hassas gruplar ve uyulması gereken etik kurallar. *Psikiyatride Güncel Yaklaşımlar, 11*(3), 351-362 s. 2019

6. Soner, G., & Avci, İ. A. Savunmasız gruplar, risk yönetimi ve halk sağlığı hemşiresinin rolü. *Samsun Sağlık Bilimleri Dergisi, 4*(1), 14-22 s. 2019

7. Patel, V., Saxena, S., Lund, C., Thornicroft, G., Baingana, F., Bolton, P., … & Unützer, J. The Lancet Commission on global mental health and sustainable development. The Lancet, 392(10157), 1553-1598. https://doi.org/10.1016/S0140-6736(18)31612-X. 2018

8. Karataş, M., & Barut, B. Sosyal hizmet perspektifinden göç ve savunmasız gruplar: IOM raporları üzerine bir araştırma. *Adnan Menderes Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 8*(1), 86-109s. 2021

9. World Health Organization. Mental health and psychosocial considerations during the COVID-19 outbreak. https://www.who.int/publications/i/item/WHO-2019-nCoV-MentalHealth-2020.1. 2020

11. Kesebir, S. Zorunlu göçte psikopatoloji: Üç kusak arasinda bir karsilastirma /Psychopathology in forced displacement: a comparison between three generations. *Anadolu psikiyatri dergisi*, *12*(1), 1.2011

12. Caspi, A., Sugden, K., Moffitt, T. E., Taylor, A., Craig, I. W., Harrington, H., … & Poulton, R. Influence of life stress on depression: Moderation by a polymorphism in the 5-HTT gene. Science, 297(5582), 851-854. https://doi.org/10.1126/science.1071739, 2002

13. Silove, D. Depression, anxiety and post-traumatic stress disorder in displaced populations: An overview of research findings. Cambridge University Press. 2013

**А.Э. Калантарлы**

**Психопатологические особенности лиц из уязвимых групп населения**
**Резюме**

В данной статье проводится всесторонний анализ психопатологических особенностей уязвимых групп населения. В этом контексте рассматриваются основные факторы, влияющие на развитие психических расстройств, а также эффективные методы вмешательства для оказания психологической поддержки уязвимым группам. Кроме того, обсуждается роль психосоциальных программ помощи, значение социальных систем поддержки и стратегические подходы к улучшению психического здоровья. Основная цель статьи – более глубокое изучение психического состояния уязвимых групп населения и представление соответствующих научных и практических подходов для повышения их благополучия.

**A.E. Kalantarli**

**Psychopathological characteristics of individuals from vulnerable population groups**
**Summary**

This article comprehensively analyzes the psychopathological characteristics of vulnerable population groups. Within this framework, it examines the key factors influencing the development of mental disorders and explores effective intervention methods for providing psychological support to vulnerable groups. The role of psychosocial support programs, the importance of social support systems, and strategic approaches to improving mental health are discussed. The article's primary aim is to gain a deeper understanding of the mental health status of vulnerable populations and present appropriate scientific and practical approaches to enhance their well-being.

**Redaksiyaya daxil olub:** 10.03.2025

***İNKİŞAF VƏ YAŞ PSİXOLOGİYASI***
***ПСИХОЛОГИЯ РАЗВИТИЯ И ВОЗРАСТА***
***DEVELOPMENTAL AND AGE PSYCHOLOGY***

*UOT 159.9 (091)*

# VALİDEYN-ÖVLAD MÜNASİBƏTLƏRİNİN YENİYETMƏLƏRİN PSİXOLOGİYASINA TƏSİR MEXANİZMLƏRİ

**Təhminə Yavər qızı Bayramlı**
*Xəzər Universitetinin magistrantı*
**ORCİD:** 0009-0007-6241-3475
**E-mail:** bayramlitahmina@gmail.com

***Açar sözlər:*** *valideyn-övlad münasibətləri, emosional təhlükəsizlik, özünəinam, davranış modelləri, identifikasiya prosesi, emosional tənzimləmə, sosial münasibətlər.*

***Ключевые слова:*** *детско-родительские отношения, эмоциональная безопасность, самооценка, модели поведения, процесс идентификации, эмоциональная регуляция, социальные отношения.*

***Key words:*** *parent-child relationships, emotional security, self-esteem, behavioral patterns, identification process, emotional regulation, social relationships.*

Valideyn-övlad münasibətləri fərdin psixoloji, sosial və emosional inkişafında mühüm rol oynayır. Bu münasibət ailə dinamikasına, tərbiyə üsullarına və uşağın ya da yeniyetmənin fərdi xüsusiyyətlərinə görə müxtəlif formalarda özünü göstərə bilər. Uşaqlıq və yeniyetməlik dövründə valideynlərlə formalaşan münasibət yetkinlikdə sosial adaptasiya, emosional sabitlik və şəxsiyyətin formalaşmasına birbaşa təsir edir.Valideyn-övlad münasibətləri müxtəlif tərbiyə metodlarına və ailədaxili kommunikasiyaya əsaslanaraq fərqli formalarda mövcud ola bilər:

*Demokratik münasibət* – Valideynlər uşaqlara və yeniyetmələrə sərbəst qərarvermə imkanı tanıyır, eyni zamanda dəstək və nəzarət balansını qoruyur. Bu münasibət uşaqlarda sağlam özünüqiymətləndirmə və sosial bacarıqların inkişafına kömək edir.

*Avtoritar münasibət* – Sərt qaydalar və ciddi nəzarət üstünlük təşkil edir.

Bu, bəzən uşaqlarda itaətkarlıq yaratsa da, eyni zamanda özünəinamın azalmasına və sosial narahatlığa səbəb ola bilər.

*Laqeyd münasibət* – Valideynlər uşağın emosional və sosial ehtiyaclarına

kifayət qədər diqqət yetirmir. Nəticədə, uşaq və yeniyetmələrdə davranış problemləri və sosial uyğunlaşma çətinlikləri meydana çıxa bilər.

*Sərhədsiz münasibət* – Valideynlər uşaqlara və yeniyetmələrə sərhədsiz azadlıq verir və ciddi qaydalar tətbiq etmir. Bu, bəzən uşaqlarda məsuliyyət hissinin aşağı səviyyədə formalaşmasına gətirib çıxara bilər.

Valideyn-övlad münasibətləri uşağın və yeniyetmənin müxtəlif aspektlərdə inkişafına təsir edir:

Sevgi və dəstək görən uşaqlar emosional baxımdan daha sabit və özünə güvənli olurlar. Əksinə, sevgisiz və laqeyd münasibət depressiya və anksiyete riskini artırır.

Valideynləri ilə açıq və sağlam ünsiyyət quran uşaqlar sosial münasibətlərdə uğurlu olur və konfliktləri daha yaxşı idarə edə bilir.

— Valideynlərin motivasiyaedici rolu uşaqların təhsil uğurlarına və gələcək karyera seçimlərinə müsbət təsir göstərir.

Yeniyetməlik dövrü fərdin müstəqillik qazanmağa çalışdığı və valideynlərlə münasibətlərin yeni bir mərhələyə keçdiyi dövrdür. Bu mərhələdə valideynlər və yeniyetmələr arasında konfliktlər arta bilər, lakin sağlam ünsiyyət və qarşılıqlı hörmət münasibətlərin davamlılığını təmin edir.

Yeniyetmələrin öz şəxsiyyətlərini formalaşdırmaları üçün sərbəstliyə ehtiyacları var, lakin valideynlər balanslı nəzarət saxlamalıdırlar. Yeniyetmələr duyğusal olaraq həssas dövr yaşadıqları üçün valideynlərin psixoloji dəstəyi onların emosional sabitliyini qorumağa kömək edir. Ailə daxilində açıq ünsiyyət və anlayış yeniyetmələrin sosial və psixoloji dayanıqlılığını artırır.

Uşaqların və yeniyetmələrin fikirlərinə hörmətlə yanaşmaq və onları dinləmək münasibətlərin güclənməsinə kömək edir. Uşaqların və yeniyetmələrin fərdi inkişafına uyğun olaraq onları motivasiya etmək və yönləndirmək vacibdir. Həm sərbəstlik tanımaq, həm də uyğun sərhədlər müəyyən etmək sağlam münasibətlərin formalaşmasına kömək edir.

Valideyn-övlad münasibətləri fərdin psixi sağlamlığı, sosial adaptasiyası və ümumi həyat keyfiyyəti üçün böyük əhəmiyyət daşıyır. Sağlam münasibətlər uşaqlarda özünəinamı, emosional sabitliyi və sosial bacarıqları inkişaf etdirir. Mənfi münasibətlər isə psixoloji problemlərə və davranış çətinliklərinə səbəb ola bilər. Bu səbəbdən valideynlərin uşaqları ilə açıq və dəstəkləyici münasibət qurması, onlara sevgi və anlayış göstərməsi mühüm rol oynayır.

Yeniyetməlik dövrü insan həyatında emosional və psixoloji dəyişikliklərin ən intensiv olduğu mərhələlərdən biridir. Bu dövrdə valideyn-övlad münasibətləri yeniyetmənin psixoloji rifahına və şəxsiyyətinin formalaşmasına birbaşa təsir göstərir. Müxtəlif araşdırmalar göstərir ki, valideyn dəstəyi, ünsiyyət modeli və ailədaxili münasibətlər yeniyetmənin sosial və emosional inkişafına təsir edən əsas amillərdəndir. Valideyn-övlad münasibətlərinin yeniyetmələrin psixologiyasına təsir edən əsas mexanizmləri:

***Emosional təhlükəsizlik və özünəinam.*** Valideynlərin yeniyetməyə sevgi və dəstəyi, onların özlərinə inamını və emosional sabitliyini formalaşdırır.

— Sevgi və dəstək görən yeniyetmələr özlərini daha güvənli hiss edir və sağlam özünüqiymətləndirməyə sahib olurlar.

— Valideynlərin diqqətsiz və ya laqeyd davranışı isə yeniyetmələrdə aşağı özünüqiymətləndirmə və sosial narahatlıq yarada bilər.

***Davranış modelləri və identifikasiya prosesi.*** Yeniyetmələr üçün valideynlər əsas davranış nümunələrindən biridir. Onlar valideynlərinin münasibətlərini müşahidə edərək sosial və emosional davranışlarını formalaşdırırlar.

— Yeniyetmələr valideynlərinin davranışlarını müşahidə edərək şəxsiyyətlərini formalaşdırırlar.

— Ailədə müsbət və sağlam ünsiyyət modelləri mövcuddursa, yeniyetmələr daha konstruktiv sosial münasibətlər qurur.

— Zorakılıq və ya aqressiv münasibətlər isə yeniyetmələrdə destruktiv davranışların yaranmasına səbəb ola bilər.

***Emosional tənzimləmə və stressə qarşı müqavimət.*** Yeniyetmələrin emosional tənzimlənməsi onların gündəlik həyatda qarşılaşdıqları çətinliklərlə necə başa çıxdıqlarını müəyyən edir.

— Ailədə isti və anlayışlı münasibətlər yeniyetmələrin emosional tənzimləmə bacarıqlarını gücləndirir və stressə qarşı dayanıqlılığı artırır.

— Əksinə, daim tənqidə və təzyiqə məruz qalan yeniyetmələrdə depressiya, anksiyete və psixoloji gərginlik artar.

***Müstəqillik və məsuliyyətin formalaşması.*** Yeniyetməlik dövründə fərdin müstəqil qərar vermə və məsuliyyət daşıma bacarığı inkişaf edir.

— Valideynlərin yeniyetməyə sərbəst qərar vermə imkanı tanıması onun özünəinamını artırır, məsuliyyət hissini və müstəqillik bacarıqlarını gücləndirir.

— Həddindən artıq nəzarət isə yeniyetmələrin özünəinamını zəiflədir və asılı davranışlara səbəb ola bilər.

***Sosial münasibətlərin formalaşması.*** Yeniyetmələrin sosial həyatdakı uğurları onların ailədə öyrəndiyi ünsiyyət modellərindən asılıdır.

— Ailədə açıq və səmimi ünsiyyət modelinə sahib yeniyetmələr dostluq münasibətlərində daha uğurlu olur və empatiya hissini inkişaf etdirir.

— Ailədaxili konfliktlər və münasibət problemləri isə yeniyetmənin social adaptasiyasına mənfi təsir göstərir və tənhalığa meyilli olmasına səbəb olur.

***Akademik uğurların və karyeranın inkişafına təsiri.*** Valideynlərin yanaşması yeniyetmənin akademik və peşə seçimlərində mühüm rol oynayır.

— Valideyn dəstəyi və motivasiya yeniyetmənin akademik uğurlarına müsbət təsir göstərir və onun gələcək karyerasına olan inamını artırır.

— Həddindən artıq təzyiq və yüksək gözləntilər isə yeniyetmədə performans narahatlığı yarada bilər və motivasiyasının azalmasına gətirib çıxara bilər.

Valideyn-övlad münasibətləri yeniyetmənin psixoloji inkişafında həlledici rol oynayır. Müsbət və dəstəkləyici münasibətlər yeniyetmələrin sağlam şəxsiyyət kimi formalaşmasına kömək edir, mənfi münasibətlər isə psixi sağlamlıq problemlərinə və sosial adaptasiya çətinliklərinə səbəb ola bilər. Bu səbəbdən valideynlər yeniyetmələrlə düzgün ünsiyyət qurmağa və onların emosional ehtiyaclarını nəzərə almağa xüsusi diqqət yetirməlidirlər.

**Problemin aktuallığı.** Valideyn-övlad münasibətlərinin yeniyetmələrin psixologiyasına təsiri müasir cəmiyyətin qarşısında duran ən aktual məsələlərdən biridir. Yeniyetmələrin sağlam psixi inkişafını təmin etmək üçün ailədaxili münasibətlərin gücləndirilməsi, valideynlərin yetərli tərbiyə metodlarını mənimsəməsi və emosional dəstək sistemlərinin qurulması vacibdir. Sağlam valideyn-övlad münasibətləri psixi sağlamlıq problemlərinin azalmasına, yeniyetmələrin sosial adaptasiyasının yaxşılaşmasına və cəmiyyət üçün daha dayanıqlı fərdlərin yetişməsinə şərait yaradır.

**Problemin elmi yeniliyi.** Bu problemin yeniliyi onun daim dəyişən sosial və texnoloji kontekstə uyğun şəkildə yenidən qiymətləndirilməsinə olan ehtiyacla bağlıdır. Keçmişdə klassik tərbiyə metodları əsas diqqət mərkəzində olsa da, bu gün sosial media, rəqəmsal tex-

nologiyalar, psixi sağlamlıq problemlərinin artması və valideyn-övlad ünsiyyətinin dəyişməsi kimi yeni faktorlar bu mövzunu daha da aktuallaşdırır. Müasir dövrdə yeniyetmələrin psixologiyasına təsir edən amillərin dinamikası daim dəyişdiyi üçün valideynlərin yeni yanaşmalar mənimsəməsi və bu problemlərə uyğun həll yolları tapması vacibdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Valideyn-övlad münasibətləri yeniyetmələrin psixoloji sağlamlığı, sosial adaptasiyası və ümumi inkişafı üçün həlledici rol oynayır. Valideyn-övlad münasibətlərinin yeniyetmələrin psixologiyasına təsiri praktiki baxımdan böyük əhəmiyyət daşıyır. Bu münasibətlərin sağlam olması yeniyetmələrin psixi sağlamlığının qorunmasına, onların sosial və akademik inkişafına, gələcək münasibət modellərinin formalaşmasına və ümumiyyətlə, cəmiyyətin rifahına müsbət təsir göstərir. Mövzunun araşdırılması və valideynlər üçün effektiv tərbiyə metodlarının inkişaf etdirilməsi praktik baxımdan vacibdir.

## Ədəbiyyat


1. Bayramov Ə.S. Şagirdlərdə əqli keyfiyyətlərin inkişafı. Bakı, 2007.
2. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı, 2006.
3. Əlizadə Ə.Ə. Şagirdlərdə təxəyyülün inkişafı. Bakı, 2006.
4. Əmrahlı L.Ş. Şəxsiyyət və cəmiyyət. Bakı: MBM, 2007.
5. Əmrahlı L.Ş. Eksperimental psixologiya. Bakı: ADPU-nun mətbəəsi, 2007.
6. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı, 2002.
7. Rzayev B.İ. Məktəblilərdə idrak proseslərinin fəallaşdırılması. Bakı, 2000.
8. Возрастнае и педагогическая психология: Хрестоматия. М., 2011.
9. Немов Р.С. Психология. В 3-х кн., кн. 2-М,, 2018.
10. Возрастная психология/ Под ред. Добрыника Н.Ф. М., 2014.
11. Kovalev A.G. License to psychology. M., 2007.
12. Mudrik A.V. About the education of high school students. M., 2001.
13. Age and pedagogical psychology. Chrestomatiya. M., 2001.


**Т.Я. Байрамлы**

## Подростковая психология детско-родительских отношений механизмы действия

## Резюме

Отношения между родителями и детьми имеют большое значение для психического здоровья человека, социальной адаптации и общего качества жизни. Подростковый возраст – один из наиболее интенсивных этапов эмоционально-психологических изменений в жизни человека. В этот период детско-родительские отношения оказывают непосредственное влияние на психологическое благополучие и формирование личности подростка. Различные исследования показывают, что поддержка родителей, модель общения и семейные отношения являются основными факторами, влияющими на социальное и эмоциональное развитие подростка.

**T.Y. Bayramli**

**Mechanisms of influence of parent-child relationships on adolescent psychology**

**Summary**

Parent-child relationships are essential for an individual's mental health, social adaptation, and overall quality of life. Adolescence is one of the stages in human life when emotional and psychological changes are most intense. During this period, parent-child relationships directly affect the adolescent's psychological well-being and personality formation. Various studies show that parental support, communication models, and family relationships are among the main factors affecting the social and emotional development of the adolescent.

**Redaksiyaya daxil olub:** 12.03.2025

# FİLOLOGİYA
# ФИЛОЛОГИЯ
# PHILOLOGY

*UOT 82*

## ƏNVƏR MƏMMƏDXANLININ UŞAQ HEKALƏRİ: ƏXLAQİ-MƏNƏVİ DƏYƏRLƏR TOPLUSU

**Şöhrət Nüsrət qızı Məmmədova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*filologiya üzrə fəlsəfə doktoru*
**ORCİD:** 0009-0006-6553-6385
**E-mail:** sohret.nesirova24@gmail.com

***Açar sözlər:*** *Ə. Məmmədxanlı, hekayə, bədii nəsr, uşaq ədəbiyyatı, folklor, əxlaqi-mənəvi dəyərlər və s.*
***Ключевые слова:*** *А. Мамедханлы, повесть, художественная проза, детская литература, фольклор, нравственные ценности и др.*
***Key words:*** *A. Mammadkhanli, story, artistic prose, children's literature, folklore, moral values, etc.*

Ədəbiyyatın yazılı qolunda uşaq nəsrinin zənginləşmə axarı tarixilik baxımından bir qədər gec olsa da ancaq əsaslı dinamika ilə özünü göstərir. XIX əsrin ikinci yarısından üzü bəri olan proses bunun göstəricisi olaraq nikbin əhval-ruhiyyə formalaşdırır. Ədəbiyyatın şifahi qolunun möhtəşəmlik örnəkləri, nağıl, əfsanə, rəvayət, əsatir, atalar sözü, məsəl, lətifə, təmsil və s. formalarda olan rəngarəngliklər öz çeşidlilik aurası ilə bir qaynaq funksiyasını yerinə yetirmiş və bu gün də eyni təsəvvürlə xüsusiləşir. Ənvər Məmmədxanlı da öz zəngin yaradıcılığında bunları bir örnək olaraq prinsipləşdirməklə metamodel səviyyəsində onlardan bəhrələnməklə ədəbiyyata gərəkli töhfələr vermək imkanları ilə diqqət önünə gəlir. Hər bir hekayəsi uşaqların milli-vətənpərvərlik, insani dəyərlər, mübarizlik, əzmkarlıq, dönməzlik, əqidə və məslək saflığı aspektində formalaşması amalına xidmət edir.

**Mənəvi dəyərlər toplusu**. Ənvər Məmmədxanlının hekayələri tipik şəraitdə tipik xarakter yaratmaq imkanları, sosium səviyyəni əsas götürmək təsəvvürü ilə səciyyəvilik qazanır. Ayrı-ayrı bədii nümunələrin göstərdiyi mənzərə ibrətamizliyi, mahiyyəti əks etdirmə üsullarının konkretliyi və aydınlığı ilə yazıçı üslubunun imkanlarını sıralayır. "Budur soyuqdan göyərmiş, əlini irəli uzatmaqdan yorulmuş, başqa gecələr kimi bu gecədən də ümidini kəsmiş bir qadın başını dizləri üstünə qoyub hıçqırır:

— Balalarım üç gündür evdə acdır.

Üç addım o yanda kiçik bir qız fəryad edir:

— Yandım, Allah, yandım!

Qış gecəsinin amansız şaxtası onun yarımçılpaq vücudunu doğrudan da yandırır.

Daha irəlidə qaranlıqdan işığa doğru uzadılmış bir əl titrəyir, ağlar və xəstə bir səs sakit olmaq istəmir.

— Ağa, ayağınıza qurban olum, ağa!

Lakin durmadan ötüb keçən ayaqlar biganədir, — bu qaloşlu, tuflili, isti corablı ayaqlardır" (6, s. 126-127). Göründüyü kimi, kiçik bir epizod bütün imkanları ilə real həyat

faktlarını bir bütöv olaraq özündə ehtiva edə bilmək gücüylə xüsusiləşir. Hadisə axarı bir neçə istiqaməti sıralayır:

a) başını dizlərinin üstünə qoyub dilənən bir qadının yaşantıları və təqdim-təfsilatın sərgilədiyi mənzərə;

b) üç addım aralıda yarıçılpaq qızın fəryadı;

c) baş xiyabana gələn hansısa bir mənsəb sahibinin biganəliyi və s.

Bütün bunlar zaman və məkan tanımayan həyat hekayələri və insan biganəliyinin ağla sığmayan faciəsidir. Çağdaş dünyanın, eləcə də indiyə qədərki yaşananların reallıq mənzərəsi olan bu epizod bütün simptomları ilə nəticə çıxarmağa, təlqinə, həyat dərslərinə bağlanır. Hadisə axarında digər epizodik məqam müəllifin başqa bir qız timsalında çatdırdıqlarıdır. "Mən o səfil uşağı gözlərindən tanıyırdım. Küçə uşaqları içərisində onu başqalarından fərqləndirən bu idi ki, o göy gözləri ilə düz adamın gözlərinə baxır, lakin ağız açmır, inləmir, yalvarmır, dili ilə sədəqə istəmirdi. Qəribə bir sükutla o, yalnız sənə baxır və bu gözlər, bu sükut hər şeydən artıq söyləyirdi.

Rast gələndə o mənim də qarşımda dayanıb dinməz-söyləməz açıq əlini uzadır, durub gözləyirdi" (6, s. 127). Məsələnin digər tərəfində bu lal-dinməz qızın həyat tərzi tükürpədici mahiyyəti ilə bütünlükdə insanlıq üçün ibrət dərsidir. Heç kəsə yaşadığı acıları deməyən qızcığaz ümidini ətrafdan, görüb-müşahidə etdiklərinin biganəliyindən üzərək tamamilə fərqli bir mühitə bağlanır. İkinci dünya müharibəsinin acıları səviyyəsində mövzuya çevrilən bu əhvalat intertekstuallıq (mətnlərarasılıq) və arxitekstuallıq (janrlararası əlaqə) baxımından əsaslı bir mənzərə yaradır. "Yanından keçərkən onun ac küçə itlərinə qoltuğundakı çörəkdən parça-parça qırıb atdığını gördüm. O gündüz diləndiyi bir parça çörəyi şəhərin sərsəri itlərinə paylayırdı. Mən heyrət etdim. Lakin ondan heç bir şey soruşmadım: fikirləşdim ki, kimsəsiz bir uşaq çörəyə möhtac olduğu kimi, bir parça şəfqətə də möhtacdır, yəqin mehrini bu sərsəri küçə itlərinə salımşdır" (6, s.126-127). Yazıçı burada epik təhkiyənin yüksək sənət ilə nümayiş etdirdiyi təqdim üsullarından yararlanmaqla bütün zamanlara gedib çatacaq bir bilgini ünvanlayır, daha doğrusu, insanlıq üçün baş verənlər səviyyəsində həyəcan təbili çalır. Yeniyetmə qızcığaz və küçə itləri timsalındakı mənzərə tərbiyəvi məzmunu ilə dərs çıxarmaya yüklənir.

**Uşaq bədii nəsrinin məzmun xətləri**. Uşaq bədii nəsri bütün mahiyyəti və məzmun xətlərinin polifoniyası ilə əxlaq və mənəviyyata, onun prinsip olaraq əsas tutulmasına köklənir. Çox doğru olaraq vurğulanır ki, "cəmiyyətin qarşısında duran vəzifələrin yerinə yetirilməsi xeyli dərəcədə fəal və hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşdırılması prosesinin səmərəliliyindən asılıdır" (12, s.65). Ə. Məmmədxanlı da "Baş xiyabanda" hekayəsi ilə görüb-müşahidə etdiklərindən çıxış etməklə ibrətedici düşüncəyə köklənir. Böyük əzablar və psixoloji çətinliklər məngənəsində çırpınan qızcığaz öz rahatlığını və sıxıntılarını itlərə qayğı ilə yoluna qoyur. Sədəqə olaraq topladıqlarını çörək alıb itlərlə bölüşür.

Yazıçının ibrətamiz epizodlar səviyyəsində sıraladığı digər epizod evsiz, kimsəsiz bir həyat yaşayan bu qızcığazın soyuqdan, şaxtadan qorunmaq üçün itlərlə bir yerdə yaşaması, sığınıb onların nəfəsinə isinməsi epizodudur. "Küçədə dolaşan sərsəri itlər hamısı bir-birinə qısılıb, pilləkənin altına doluşub yatmışdılar. Cındır paltarlı bir uşaq isə onların arasında yumaq kimi bükülüb böyrü üstə yıxılmışdı. Bu həmin kimsəsiz uşaq idi, itlərin böyrünə qısılıb yatmışdı" (6, s. 128). Ədəbiyyat bütün parametrlərdə tərbiyəvi məzmunu, təlqin üsullarının əsas götürülməsi ilə spesifikləşir. Ə. Məmmədxanlı da uşaq hekayələrində bunu

bir prinsip olaraq əsas götürür. "Buz heykəl" bunun klassik nümunəsidir. Folklordan gələn təhkiyə elementləri, xalq danışıq dilinin yüksək təsəvvür intelleksiyası normativ olaraq görünür. "Ə. Məmmədxanlı həmişə müasir mövzulara, həyati hadisələrə daha çox meyil göstərən sənətkarlardan olmuşdur. O, tarixi mövzulara, keçmiş hadisələrə müraciət etdikdə belə ona müasir baxımdan yanaşmış, müasir ictimai ruh aşılamışdır" (11, s.280). "Qızıl qönçələr", "Aydın", "Qaralmaz günəş", "Balaca Nərgiz" və s. bunun bariz örnəyi kimi əsaslı təsəvvür formalaşdırır. Ə. Məmmədxanlının yazıya aldığı hekayələr yeniyetmələrin həyati bacarıqlar, mərdlik, cəsurluq, xeyirxahlıq və insani dəyərlərin aşılanması baxımından mükəmməl bir təsəvvürlə diqqət önünə gəlir. Eyni zamanda özünəməxsus təqdim üsulunun nümayişi ortaya çıxır. Bunlar isə nağıl düşüncə tərzi üzərində olan deyim və təhkiyə aydınlığı ilə yazıçı dilini zənginləşdirir. "Ana durmadan gedir. O çox gedir, lakin qarlı səhralar qurtarmaq bilmir. O, yorulur, şaxta qılınc kimi kəsir.

Birdən anaya elə gəlir ki, qucağındakı körpə donur. O ətrafına baxır, gözləri daldalanmaq üçün bir bucaq, sığınacaq axtarır.

Budur qarşıda iki qara kölgə vardır. Onlar qoşa qayın ağaclarıdır. Ana ağaclara tərəf gedir. Bir an nəfəsini dərmək üçün ağaclara söykənib dayanır. Artıq onda qüvvət qalmamışdır. Şaxta buzlu alov dili ilə onun üzünü yalayır. Ananın ürəyi qorxulu bir mahnı oxuyur. Uşaq donacaqdır. O, bu şaxtaya davam gətirə bilməyəcəkdir. Lakin ana dərhal – yox, yox, - deyə bu fikrinə etiraz edir. O, düşmən əlindən qaçırtdığı bu körpəni şaxtaya təslim etməyəcəkdir. Bütün dünya donsa da, bütün həyat buz bağlasa belə, o ürəyini məşəl edib, körpəsini isindirəcəkdir.

Ana tələsik əynindən yun jaketini çıxardır. Körpəsini bürüyür" (7, s.68). Psixoloji situasiyaların mürəkkəbliyi, ikinci dünya müharibəsinin insanlara yaşatdığı acılar böyük bir insan nəslinin maddi, mənəvi və cismani dəhşətləri üçün hadisələrin baş verdiyi zamandan başlayaraq onilliklər boyu həyat hekayətinə çevrilmişdir. Ə. Məmmədxanlı da ümumiləşdirmələrlə onların bir örnəyini mövzuya çevirir və bir gənc gəlin faşistlərin əlinə keçmiş kəndlərindən namusunu və uşağını qorumaq üçün baş götürüb qaçmaq qərarını verir. "Ə. Məmmədxanlının lirik-romantik səpkidə yazdığı "Karvan dayandı", "Qızıl qönçələr", "Məğrur heykəl", "Boyunbağı" və s. hekayələri də 40-cı illərin məhsuludur" (5, s. 176). İkinci dünya savaşında ordu sıralarında Cənubi Azərbaycanda hərbi xidmətdə olan ədib hər iki tərəfin problemləri və yaşanan fəci anları kontekstində mahiyyəti açmağa çalışır. "Buz heykəl"dəki təsvirlər ananın yaşantıları və psixoloji gərginlikləri baxımından əsaslı bir təqdimatla yazıya gətirilir.

Gənc ana namusunu və övladını düşməndən qorumaq üçün baş götürüb qaçmaq yolunu tutur, ancaq hara getdiyini və nə edəcəyini bilmir. Bircə düşüncəsində olan odur ki, düşmən əlinə keçməsin. "Bu, donmuş qadının buzdan tökülmüş heykəlidir. Hansı bir ümid və sövqtəbii hissi ilə isə, ananın qolları arasında sinəsinə sıxılmış, üstü buz bağlamış bağlamanı yoxlayır. O həyəcandan titrəyən barmaqları ilə qarı çırpır, sındırdığı buz təbəqəsi altında nə isə görür, açır, birdən lap içəridən bir cüt uşaq gözü kəşfiyyatçı əsgərin gözlərinə zillənir. Gənc döyüşçü qeyri-ixtiyari geri çəkilir və həyəcandan qırılan səslə:

— Körpə donmamışdır, körpə sağdır, yoldaşlar, - deyə qışqırır" (7, s. 69). Ədibin bu hekayəsi yaşanan müharibə dəhşətlərini əks etdirmək gücündə olan klassik örnəklər sırasındadır. "Onlar başlarını qaldırıb yenə ananın möhtəşəm heykəlinə baxırlar" düşüncəsi buz heykəlin bir gənc ananın yaşadıqları acılar aspektində dünyaya olan etiraz hayqırtısıdır. "Epiklik, təhkiyənin mənsur çalarları, forma müvafiqliyi, hadisələri və obrazları təsvir imkanlarının uy-

ğunluğu uşaq nəsrinin lətifələr, rəvayətlər, az da olsa dastanlar (çox nadir hallarda əfsanələr) və xüsusilə nağıllarla bağlayır. Həmçinin atalar sözü və məsəllərdəki ideya bəzən uşaq yazıçısının diqqətini cəlb etdiyindən o, öz əsərlərinin süjetini birbaşa hər hansı atalar sözü və məsəldəki ideyaya uyğun qurur" (10, s.72-73). Yaradıcı mühit baxımından müşahidə olan zənginləşmə axarı müxtəlif formalarda xalq ədəbiyyatının arxitekstuallıq aspektində əks etdirdiyi təsəvvürü diqqət önünə gətirir. "Azərbaycan folklorunun elə bir janrı yoxdur ki, orada gənc nəslin tərbiyəsinə xüsusi yer verilməsin. Bayatılarda, atalar sözü və məsəllərdə, nağıl və dastanlarımızda, ümumiyyətlə, folklorumuzun bütün lirik və epik növlərində tərbiyə mövzusu yüksək sənətkarlıq, xüsusi qayğı və məhəbbətlə işlənmişdir" (13, s. 393**)**. Ə. Məmmədxanlı da hekayələrində bunu bir normativ olaraq əsas götürməklə orijinal sənət nümunələri yaratmışdır. "Buz heykəl" bunun nümunəsi olaraq ədəbi-nəzəri düşüncədə, ümumiyyətlə, geniş auditoriyada bir yaşarlıq qazanmışdır. "O zaman gözləri odlar-alovlar görmüş üç qocaman döyüşçü sevincdən göz yaşlarını saxlaya bilmirlər. Onların dodaqları, bir dua kimi intiqam andı pıçıldayır" (7, s. 69) təsəvvürü təkcə üç əsgərin görüb-yaşadıqları ilə məhdudlaşmır, bütünlükdə oxucu kütləsi, geniş auditoriya üçün tərbiyə faktına çevrilir.

"Afaq", "Qaralmaz günəş", "Ay işığında", "Sevinc", "Karvan dayandı", "Ananın çırağı", "Qızıl qönçələr", Balaca Nərgiz", "Ayrıldılar", "Əfsanəvi dağlar" və s. hadisəni təqdim üsulları, mövzunun ortaya qoyduğu təsəvvür, mətn intelleksiyası, janr məzmunu ilə insani dəyərlərin təlqininə dayanır. "Bu səhər balaca Nərgizi yuxudan anası yox, pəncərədən üzünə düşən may günəşinin işığı oyatdı. Böyrünə qısılıb yatdığı anasını otaqda görməyib qız dərhal yan-yörəsinə boylanıb, ətrafa göz gəzdirdi. Anası yataq otağında yox idi, aynalı şifoner qabağında dayanıb saçlarını daramırdı.

Nərgiz təlaşa düşərək qalxıb yatağında oturdu, lakin açıq qapı arasından baxan kimi, anasını o biri otaqda görüb sakit oldu" (7, s. 69). Göründüyü kimi, ədibin yazı manerası öz dəqiqliyi, uşaqların iç dünyasını, həssaslığını və ana timsalında münasibətlərini təqdim etmə baxımından nümunəyə çevrilir. Yaradıcı istedadı əhvalat və hadisələri canlandırma texnologiyası, situasiyanı təqdim üsullarının mükəmməlliyi ilə orijinallıq sərgiləyir. Bütün parametrlərdə yazıçının məramını, mənəvi dəyər baxımından münasibətlər mənzərəsini, davranış normativlərini aşılamaq istəyinə yüklənir.

**Nəticə**. Beləliklə, Ə. Məmmədxanlı iyirminci əsrin zəngin ədəbi-mədəni prosesində uşaqlar üçün yaratdığı orijinal bədii örnəklərlə daha çox nəzər-diqqəti cəlb edir. Onun müxtəlif zaman kəsiklərində nəşr olunan kitabları ("Burulğan", "Bakı gecələri", "Analar və yollar", "Hekayələr", "Dirilik çeşməsi", "And", "Qızıl qönçələr" və s.) mövzu zənginliyi, həyat həqiqətlərini əks etdirmə üsullarının özünəməxsusluğu ilə xüsusiləşir. Uşaqların istək və arzularını, ideallarını, dünyagörünüşünü, məqsəd və məramını əhatələyən bədii örnəklər folklor motivlərinə, nağıl, rəvayət, məsəl, atalar sözü zənginliyinə həssaslıq nümayiş etdirməklə mühüm əhəmiyyət kəsb edir. Bütün bunlar Ə. Məmmədxanlının yazı laboratoriyasının özünəməxsusluğunda uşaq dünyasına həssaslığı, konkret hadisələr səviyyəsində təqdim olunanların xüsusiyyətini bir örnək olaraq diqqət önünə gətirir.

**Problemin aktuallığı.** Ə. Məmmədxanlı yaradıcılığının yetişməkdə olan gənc nəslin mənəvi-əxlaqi, ədəbi-estetik cəhətdən inkişafında rolunu müəyyən etmək, tədqiq və təbliğ etmək gərəkdir. Sənətkarın yaradıcılığında folklordan bəhrələnərək yaratdığı və dil - üslub və sənətkarlıq

baxımından diqqət çəkən əsərləri kifayət qədərdir. Bu əsərlər uşaq ədəbiyyatında yaradıcılığa yeni başlayanlar üçün məktəb rolunu oynaya bilər. Bu baxımdan sənətkarın yaradıcılığında folklordan bəhrələnmənin araşdırılması həm elmi, həm də ədəbi- bədii sahədə faydalı olar.

**Problemin elmi yeniliyi.** Ə. Məmmədxanlının ədəbi-bədii irsinin mövzu istiqamətləri və bəhrələndiyi yaradıcılıq qaynaqları müəyyənləşdirilmişdir;

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat həm elmi, həm də təcrübi əhəmiyyət daşıyır. Bu tədqiqatda sənətkarın uşaq nəsrinin mövzu xüsusiyyətləri, folklordan bəhrələnmənin Ə.Məmmədxanlı yaradıcılığına təsiri araşdırılır. Uşaq ədəbiyyatına dair araşdırmaların, eləcə də dərsliklərin hazırlanmasında bu tədqiqatdan faydalanmaq mümkündür. Eyni zamanda ali təhsil müəssisələrində uşaq ədəbiyyatının tədrisi zamanı da istifadə oluna bilər.

## Ədəbiyyat

1. Atalar sözü. Bakı: Yazıçı, 1981, 366 s.
2. Azərbaycan ədəbiyyatı inciləri. Nağıllar. Bakı: Yazıçı, 1985, 506 s.
3. Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası. Bakı: Elm, 1998, 300 s.
4. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992, 477 s.
5. Xəlil Z., Əsgərli F. Uşaq ədəbiyyatı. Bakı: ADPU, 2011, 498 s.
6. Məmmədxanlı Ə. Hekayələr. Bakı: Uşaq və gənclər ədəbiyyatı, 1954, 128 s.
7. Məmmədxanlı Ə. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1960, 490 s.
8. Məmmədxanlı Ə. Seçilmiş əsərləri. İki cilddə, I c., Bakı: Yazıçı, 1985, 292 s.
9. Məmmədov M., Salamoğlu T., Babayev Y. İki əsrin maarif işığında. Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası. Bakı: Elm, 1998, s. 3-10.
10. Məmmədov M., Babayev Y., Salamoğlu T. Pedaqoji mühit və ədəbiyyatı. Bakı: Maarif, 1992, 288 s.
11. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı. Bakı, Bakı Universiteti, 2007, 444 s.
12. Talıbov Y.R., Ağayev Ə.A., İsayev İ.N., Eminov A.İ. Pedaqogika. Bakı: Maarif, 1993, 292s.
13. Vəliyev V. Azərbaycan folkloru. Bakı: Maarif, 1985, 414 s.

**Ш.Н. Мамедова**

## Детские истории Анвара Мамедханли: сборник нравственных и духовных ценностей

## Резюме

Общая картина литературно-культурного процесса середины прошлого века связана с динамичными поисками в детской литературе в одном направлении. Укоренение прозы, поэзии, драматургии, публицистики, а также литературно-теоретической мысли в национальной мысли наделено действительностью во всей ее полноте и актуализирует рассмотрение обществом этнографического и исторического богатства как стороны. Ханимана Алибейли, Теймур Эльчин, Али Керим, Тофик Муталибов, Ильяс Тапдыг, Хикмет Зия, Мастан Гюлер, Фикрет Садык, Мамед Аслан, Захид Халил, Тофиг Махмуд в стихах, Халида Гасилова, Алавия Бабаева, Нариман Сулейманов, Азиза Ахмедова, Али Самадов и проза и т.д. такие талантливые

художники внесли свой вклад в детскую литературу своей богатой литературной мыслью. Анвар Мамедхани также находится в этом ранге благодаря своему высокому творческому интеллекту и является одним из писателей, проделавших необходимую работу в деле передачи этнокультурной культуры как потенциала. “Qızıl qönçələr”, “Buz heykəl”, “Baş xiyabanda”, “Anamın çırağı”, “Sevinc”, “O mahnılarda qayıtdı”, “Əfsanəvi dağlar” и другие. имеет исключительное значение в формировании детей на уровне национальных и нравственных ценностей.

Суровые реалии жизни и способы изложения фольклора, подробности, раскрываемые текстовой информацией, во все времена реализовывались на разных уровнях как история жизни в сознании писателя. Наблюдения А. Мамедханлы, а также красочные аспекты, которые он проживал и наблюдал с точки зрения превратностей окружающей среды и времени, повести, повести-сказки, повести-повествования и т.д. стала темой в своем контексте. Внутренняя и межситуационная ситуация, ее представление в контексте событий и рассказов при ее высоком творческом интеллекте имеют исключительную функцию в формировании у детей национально-нравственных ценностей.

**Sh.N. Mammadova**

**Children's stories of Anvar Mammadkhanlı: Collectıon of moral and spiritual values**
**Summary**

The general picture of the literary and cultural process in the middle of the last century is connected to the dynamic searches in children's literature in one direction. Rooting of prose, poetry, dramaturgy, publicism, as well as literary-theoretical thought to the national thought is charged with reality in its entirety and actualizes society's consideration of ethnographic and historical richness as a side. Khanimana Alibayli, Teymur Elchin, Ali Karim, Tofig Mutallibov, Ilyas Tapdig, Hikmet Ziya, Mastan Guler, Fikret Sadiq, Mammad Aslan, Zahid Khalil, Tofig Mahmud in poetry, Khalida Hasilova, Alaviya Babayeva, Nariman Suleymanov, Aziza Ahmadova, Ali Samadov and prose. etc. such talented artists contributed to children's literature with their rich literary thought. Anvar Mammadkhani is also in this rank with his high creative intellect and is one of the writers who have done necessary work in the matter of transmitting ethnocultural culture as a potential. “Gold roses”, “Ice monument”, “Main alley”, “My mothers apprentice”, “Happiness”, “He returned in songs”, “Legendary mountains” and others. is of exceptional importance in the formation of children at the level of national and moral values.

The harsh realities of life and the methods of presentation from folklore, the detail revealed by the textual information have been realized at different levels as a life story in the writer's mind at all times. A. Mammadkhanli's observations, as well as the colorful aspects that he lived and observed in terms of the vicissitudes of the environment and time, the story, story-tale, story-narrative, etc. has become a topic in its context. The internal and inter-situation of situations and its presentation in the context of events and stories with its high creative intelligence have an exceptional function in the formation of children in terms of national and moral values.

**Redaksiyaya daxil olub:** 12.03.2025

***UOT 82.1***

# "İQBAL" QƏZETİNİN MÜƏLLİF KONTİNGENTİ

**Afaq Elçin qızı Rəfiyeva**
*Bakı Dövlət Universitetinin*
*Milli mətbuat tarixi kafedrasının fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**ORCİD:** 0000-0001-5936-4405
**E-mail:** *afagagayarova@gmail.com*
http://www.doi.org/10.62706/bqiz.2025.v22.i1.12

***Açar sözlər:*** *"İqbal" qəzeti, mətbuat tarixi, müəllif, milli şüur, milli idea, maarifçilik.*
***Ключевые слова:*** *газета «Икбал», история прессы, автор, национальное сознание, национальная идея, просвещение.*
***Key words:*** *"Igbal" newspaper, history of the press, author, national consciousness, national idea, enlightenment.*

XIX əsrin ortalarından başlayaraq xalqımızın ədəbi, bədii, mədəni fəaliyyət potensialı tədricən yüksələrək milli ideya ətrafında birləşdi. Milli ideya ətrafında birləşməklə əldə edilən özünüdərk prosesi ədəbi-bədii və publisistik düşüncənin təcəssümü kimi mətbuat səhifələrində dərc olunan əsərlərdə öz əksini taparaq xalqın şüuruna yol açır, milli düşüncənin oyanışına, özünütanımaya xidmət edirdi. Bu yolun ilkin mərhələsini siyasi maariflənmə təşkil edirdisə, milli özünüdərkdən keçən yolun sonunda azadlıq, istiqlal ideyalarının gerçəkləşməsi, reallaşması dayanırdı. Bu işdə publisistikanın xidmətləri danılmazdır. Fəaliyyətlərinin yalnız xalqa xidmət, onun inkişafı və tərəqqisinə yönəldilən böyük millət fədailərinin əzmkarlığı xalqın işıqlı gələcəyinə böyük inamdan xəbər verirdi. Ədəbi-ictimai fikrinin yeni nümayəndələri olan gənc ziyalılar milli özünüdərk ideyalarının geniş təbliği məqsədilə milli varlığın tarixinə və bugününə həsr edilmiş əsərləri ilə milli əsarətin acı nəticələrini işıqlandırır, kütləni bir ideya ətrafında: istibdaddan qurtuluş və milli azadlıq uğrunda mübarizədə birləşməyə səsləyirdilər (1).

"İqbal"da çıxış edən müəlliflərin sayı ümumilikdə 200-ə yaxındır. Qəzetin əsas müəlliflərindən (S. Eynullayev, S. Hüseyn, M. Rəsulzadə) başqa, qəzetdə məqalələri müntəzəm dərc olunan müəlliflər və az sayda məqalələrlə çıxış edən müəlliflər də vardır. Qəzetin ən fəal və daimi iştirakçısı olan müəlliflər sırasında M.N.Qaragözov, Ü.Hacıbəyli, Y.V.Çəmənzəminli, M.Hadi, H.Cavid, M.Səid, A.Şaiq, A.Səhhət, Ə.Fəhmi, F.Kərimi, M.Xəlifəzadə və başqa ədiblərin adını çəkmək olar. Onlar müxtəlif mövzularda və müxtəlif imzalarla yazırdılar (12).

"İqbal"da çoxsaylı məqalələrlə çıxış edən ən fəal müəlliflərdən biri Mahmud Nədim Qaragözov olmuşdur. Daha çox Balkan müharibələri və Türkiyə - Avropa münasibətlərini əks etdirən ədibin "İqbal"da dərc edilən 55-ə yaxın məqaləsi ("Bukenham sarayında"-№237, "Türküstan istiqbalı" – №248, "Romaniya və Bulqariya" – №256, "Şəraiti sülhiyyə" - №302, "Türkiyə və Almaniya" – №334, "Arnavudluğun şəkli idarəsi" - №337, "Dində asari tərəqqi və intibah" - №338, "Suriyalıların bəyannaməsi" - №346 qəzetin 1912-ci ilin sonundan 1913-cü ilin sonunadək olan dövrdə dərc edilmişdir. Bu yazılar dövrün ictimai-siyasi hadisələri haqqında ətraflı real təsəvvür yaratmaqla yanaşı, hadisələrə vətəndaş mövqeyini, münasibətini də ifadə edir, müəllifin vətəndaş - publisist kimi fəaliyyətini səciyyələndirir.

Əsərləri ilə XX əsr Azərbaycan publisistikasının zirvəsində dayanan Üzeyir Hacıbəylinin publisistikası milli özünüdərkin təbliği baxımından xüsusi əhəmiyyət kəsb edir. Müxtəlif dövrlərdə özünün də redaktoru olduğu "Tərəqqi", "Həqiqət", "Azərbaycan" qəzetlərindən başqa, digər mətbu orqanlarında çoxsaylı məqalə, felyeton və müxtəlif janrlı publisistik yazılarla çıxış edən müəllifin "İqbal"dakı ilk yazısı "O yan *bu yan" başlıqlı* bölmədə *Gendən baxan* imzası ilə dərc edilən *"Həcv"*dir (№ 137, 142). Üzeyir Hacıbəyli dərc etdirdiyi məqalə, oçerk, felyeton və satirik əsərlərində milli ictimai şüurun formalaşması məsələlərini qoymuş, xalqın gündəlik həyatı, baş verən hadisələrə münasibəti və bu münasibətlərdə üzə çıxan cəhaləti böyük sənətkarlıqla tənqid etmişdir. Qəzetin 152-ci sayından başlayaraq, müəllif qəzetdə "Filankəs" imzası ilə "Ordan-burdan" sərlövhəli felyeton və pamfletlər dərc etmişdir. Onun "İqbal"da *"Dini İslam əldən getdi, yaxud-sənə nə?!" (№154), "Qulluq axtaran" (№155), "Bu da doğru sözdür" (№ 157, 159, 160), "Bizim adi söhbətimiz" (№161), "Yevlax-Şuşa yolu", "Telefon" (№163)* başlıqlı məqalələri, opera və operettalarının təqdimatına həsr olunmuş *80-dən çox elan və məlumat xarakterli* yazılar yer alıb. Ü. Hacıbəyli "İqbal" qəzetində *Ü., Ü.H., Musiqisi, Filankəs, H.Q., Bir nəfər, Hafiz, Gendən baxan, Gendən qulaqasan, Mizrab, Məsud* imzaları ilə çıxış etmişdir. Müəllifin *Şah Abbas və Xurşidbanu" tamaşası haqqında (№31), "Əlli yaşında cavan" operası haqqında (№46), "Əlli yaşında cavan" operası haqqında (№59)* başlıqlı yazıları "H."; *"Mətbuatımız" (№284), "İrəvan xəbərləri" (№292, 310)* "Bir nəfər", "*O yan – bu yan"* başlıqlı yazıları *(№ 38-39, 43-44, 51, 75)* Hafiz; *bir sıra yazıları* M. Məsud imzası ilə dərc edilib (7).

Azərbaycan ədəbi mühitinin intibah, azadlıq və hürriyyət mücahidlərindən biri olan Məhəmməd Hadinin həyat və fəaliyyətinin müəyyən dövrü "İqbal" qəzeti ilə bağlı olmuşdur. Türkiyə səfərindən qayıtdıqdan sonra "İqbal"ın redaksiyasında işləməyə başlayan M.Hadi dərc etdirdiyi 35-ə yaxın yazısında insanları xoşbəxt görmək istəyi, yaşadıqları cəmiyyəti doğru istiqamətə yönəltmək arzusu, ictimai xəstəliklərdən, xalqın geridə qalmasına səbəb olan düşmən, xain və yalançı "rəhbər"lərdən, pul düşkünlərindən qurtuluş yolları göstərilir. *Qəzetin 1914-cü il nömrələrində şairin şeirləri ilə yanaşı, ictimai inkişaf, xüsusilə inqilab və hürriyyət məsələlərinə həsr olunmuş məqalələri də mühüm yer tutur.* Hadinin qəzetin 698-ci nömrəsində dərc edilən *Açıq məktubu* onu cəmiyyətdəki qüsurlardan bəhs etməkdə günahlandıran "M.M." imzalı məktuba cavab olaraq yazılmışdır. Hadi onu guya insanları sevməməkdə günahlandıran müəllifə cavab olaraq yazır ki, *mən insanları ciddən sevənlərdənəm, fəqət uzaqdan sevirəm. Çünki insanlara yaxınlaşdıqca sinema timsalı, surətlərində bir qarışıqlıq nümüyan olur* **(8, s.3).**

Qəzetdə müəllifin "İlhami-Xəyyam" başlığı ilə Ö. Xəyyamın yaradıcılığından Azərbaycan dilinə tərcümə edilmiş 20-yə yaxın rübaisi (N *608, 703, 709, 715, 720)* də yer alır. Müəllifin "Ədəbiyyat" bölməsində dərc edilmiş *"Bahari-əfkar, qaçma"* əsəri Məhəmməd Əmin Rəsulzadəyə, "Dün axşamın ilhami-yetimanəsi" əsəri Hüseyn Sadiqə, "Qüvvət, həyat, ümid... Yaşamağı sevirəm" adlı qəsidəsi yaxın dostu Sabit Manafzadəyə ünvanlanmışdır. Qəzetdə müəllifin "Timsali-məlal, hüsni-məhzun", "Şərareyi-əfkar əsərləri də dərc edilib. *"Nisviyyət təranələri", "Pəyami-dilaram"* şeirləri qadın azadlığı, *"Növxəndə çiçəklər", "Timsaliməlal, hüsni-məhzun", "Şərareyi-əfkar"* əsərləri qadının cəmiyyətdə yeri, mühitin qadına qarşı çıxmasına həsr edilmiş tənqidi mövzudadır. Hadinin *"Xabgahi-*

*mövta, ilhamati-əmvat"* əsəri qəzetin redaktoru Sənətulla İbrahimova ithaf edilmişdir.

"İqbal" qəzetindəki yazılarını daha çox maarif və mədəniyyət, qadın hüququ və azadlığı azadlığı məsələlərinə həsr edən böyük Hüseyn Cavid əsərlərini Gülçin, Salik, Arif imzaları ilə imzaları ilə təqdim etsə də, daha çox Cavid imzası ilə yazmış, "İqbal"dakı əsərlərini də *("Qadın" (№43), "Mərhumun təşfihi-cənazəsi mərasimi" (№61), "Mirzə Abdulla Məhəmmədzadə" (№62, 63), "Müəllim haceyi millət" (№65), "Mərhum Abdulla Tofiqin yadigarına" (№66), "Hal və mövqe" (№72))* əsasən bu imza ilə dərc etdirmişdir. Müəllifin Müəllifin "İqbal" qəzetinin 12 may 1913-cü il tarixli 356-cı sayında dərc edilmiş *"Cavablara "Cavablara cavab, yaxud son rica"* adlı məqaləsi tənqidçi Abdulla Surun vaxtsız vəfatı ilə ilə əlaqədar qələmə alınmışdır. H. Cavidin 1912-1918-ci illərdə ardıcıl qələmə aldığı ilk iki iki böyük faciəsindən biri olan, mövzusu mülkədar həyatı və ailə-məişət münasibətlərindən götürdüyü 4 pərdəli "Maral" (1912) əsəri ilk dəfə "İqbal" qəzetində hissələrlə verilmişdir. Azərbaycan qadınının faciəsini əks edən bu əsər ilk variantında olduğu kimi "Zavallı qadın" adı ilə dərc edilmişdir. Ədibin "İqbal" qəzetində *"Nakamlıq"* (29 may, 1912), *"Teatro və musiqi: müxbir məktubu"* (24 iyul, 1912), "*Böyük bir ziyalı-əbədi"* (14 may, 1914) adlı məqalələri də dərc edilmişdir (4).

XX əsr Azərbaycanın ictimai-siyasi həyatında böyük xidmətləri olan, əsərləri milli şüurunun oyanışında, formalaşmasında mühüm əhəmiyyət daşıyan ictimai xadim, jurnalist, publisist Ömər Faiq Nemanzadə milli mətbuatın inkişafında, xalqımızın milli dirçəlişi və azadlığı uğrunda mübarizəsində yaxından iştirak etmiş, ictimai-fikir tariximizdə öz dəst-xətti ilə yadda qalmışdır. Mətbuatda 40-dan çox imza ilə çıxış edən müəllif "İqbal"dakı əsərlərini *("Həmiyyətli bir cavan" (№ 128, 133, 138), "*Yardım təcili lazım" (№ 842), *"Bir loğma ətmək" (№844), "Həmiyyət zamanıdır" (№854),"Hərbzədə müsəlmanlar" (№892), "İmtahan" (№894), "Köməkləşəlim"(№915), "Bakı cəmiyyəti xeyriyyəsinin diqqətinə" (№916*)) *Faiq* imzası ilə yazmış, əsərlərində çarizmin müstəmləkəçilik siyasətini ifşa etmiş, xalqımızın ictimai-siyasi mübarizəsini və mənəvi inkişafını əks etdirmiş, zülm və istismara, cəhalətə, fanatizmə qarşı etirazını bildirərək hərbin törətdiyi acı faciələri qələmə almışdır. Müəllifin "İqbal" qəzetində dərc etdiridiyi məqalələrin bir qismi müharibə, onun xalqlara, millətlərə gətirdiyi acı faciələrə həsr olunub. "İqbal" qəzetinin 17 aprel 1915-ci il, 915-ci sayında Ömər Faiq imzası ilə dərc olunan **"**Köməkləşəlim" adlı məqalə qanlı müharibənin törətdiyi fəlakətlərə qarşı səfərbər olmağın, düşgünlərə yorulmadan, arası kəsil-mədən yardım etməyin zəruriliyi barədə tövsiyə məzmunu daşıyır. Müəllif müqəddəs dinimiz İslamda ibadətlərin fərz olduğu kimi, yardımlaşmanın da vacib olmasından söz açır, bu çətin məqamlarda ehtiyac sahiblərinə hamının yardım etməli olduğunu bildirir. *"Həqiqət, gələcəyimiz qorxuludur. Ətrafa baxıram: hər kəs özünün rahatlığı, öz başının salamatlığı fikrindədir. Hər kəs öz bacardığı yol, ibadət və adət ilə öz həyatını qurtarmaq qeydindədir. Abid ibadəti ilə, ruhani fitrə və zəkat yığmaqla, intelligent öz mənfəətinə xidmətlə, dövlətli pul cəm etməklə öz canını, bəli yalnız öz canını xilas etmək fikrindədir"*- deyə qeyd edən müəllif millətin hələ də qəflətdə olduğunu yazır (11: s.2).

"İqbal" qəzetində məqalə, çıxış və əsərləri dərc edilən müəlliflərdən biri də Nəriman Nərimanovdur. Müəllifin yazıları *Nəriman Nərimanov və Doktor Nəriman bəy Nərimanbəyov* adı ilə verilmiş, ictimai-siyasi xarakter daşımışdır. Müəllifin məruzə və çıxışları Bakı xəbərləri bölməsində (*"Doktor Nərimanovun xitabəsi" (№566), "Fəhlələr arasında Novruz*

*bayramı" (N. Nərimanovun nitqi) (№ 567), "Doktor Nərimanovun leksiyası" (№583), "Müsəlmanca leksiya" (№ 588))* dərc edilmişdir. Ədibin qəzetdə ədəbi tənqidi və məqalələri də (*"Gələcəyə bir nəzər" (№ 463(464), "İdil kənarında" (№ 465), "Həftə dı" (№ 471), "Teatro və musiqi" (№ 631)* nəşr edilib. "İqbal"ın səhifələrində N. vun bədii yaradıcılığı haqqında yazılmış bir çox məqalələr də *(№173, 207, 536, 662, 813, 797, 811)* vardır (5).

"İqbal"da dərc olunan və öz mahiyyətilə mətbuat və ədəbiyyat tariximizin səhifələrini zənginləşdirən əsərlər yalnız ötən əsrin əvvəllərində dövrün aktual məsələlərini əks etdirməmiş, mövzu etibarilə bu gün də öz aktuallığını qoruyub saxlamaqdadır. "İqbal" qəzetində dərc edilmiş bu qəbildən olan digər əsərlərə nümunə olaraq Məmmədsadiq Axundzadə, Xalid Xürrəm Səbribəyzadə, Mustafa Sübhi, Davud Ağamirzadə, Həsən Səbri Ayvazov, Yusif Heydərzadə, Nafiz, Əlipaşa Səbur, Haşım bəy Saqib, Sahib Gəray və bir çox digər müəlliflərin əsərlərini misal göstərmək olar. Qəzetdə adı ixtisar və ya gizli təqdim edilən bir çox müəlliflərin: "Zadə", Turpi, X., Q., Dağlı S., X.H., 3. Z., M.B., Həkim, Q. S., P.T. A. və başqalarının da çoxsaylı məqalələri vardır. Keçmişdən qalan qayda və nizamlara dözməyən İqbalçılar bütünlükdə bəşəriyyətin böyük yenilənmə və tərəqqiyə ehtiyacının olduğunu bildirir, bunun yalnız, zülmə və əsarətə etiraz səsini ucaltmaqla, insan hüquq və azadlıqlarını əldə etməklə, hüquqi müstəqil cəmiyyət qurmaqla mümkün ola biləcəyini ifadə edir, bu işə mane olan irticapərəst qüvvələrə qarşı kəskin mövqedə dayanir, xalqın azadlıq uğrunda bu mübarizəsində hər kəs az da olsa, öz əməli fəaliyyətini meydana qoymağa çalışırdı.

**Problemin aktuallığı.** Ümumilikdə qəzet geniş tədqiqata ilk dəfə cəlb edilir. Qəzetin ilk redaktoru S.E. İbrahimovun, redaksiya heyətinin və digər aparıcı müəlliflərin çox zəngin və geniş yaradıcılıq irsi öyrənilməmiş, qəzetin ideya-siyasi fəaliyyət istiqaməti araşdırılmamış, mətbuat və publisistika tariximizdə, XX əsrin əvvəllərində Azərbaycan xalqının ictimai-siyasi tarixindəki yeri və əhəmiyyəti tədqiq edilməmişdir.

Bu mənada, "İqbal" qəzetinin aparıcı müəllifləri, müəllif kontingenti və d. məsələlər geniş tədqiqat mövzusudur.

**Problemin elmi yeniliyi.** Məqalədə "İqbal"ın müəllif kontingenti qismən araşdırılmış, qəzetin fəaliyyətində mühüm rol oynayan müəlliflər, onların qəzetdəki yaradıcılıqları tədqiq olunmuş, bir çox müəlliflər haqqında yeni məlumatlar əldə edilmişdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat zamanı aşkar edilmiş yeni müəlliflərin yaradıcılıqlarının tədqiqi, əldə edilən publisistik, ədəbi-bədii nümunələr və digər materiallar həmin müəlliflərin ədəbi irsinin öyrənilməsi baxımından əhəmiyyətlidir.

## Ədəbiyyat

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: [2 cilddə] Bakı: Lider, - c.2. 2005. - 472 s, s. 38.
2. Cənnəti. Əşar // İqbal -1914, 23 fevral, № 585, s.2.
3. Cənnəti. Səttərxanın ruhipur fütuhinə // İqbal -1914, 18 mart, № 603, s.3.
4. Cənnəti. Vətən təranəsi // İqbal-1913, 3 noyabr, № 495, s.3.
5. Dağıstani M. Ə. Cəhalətimizin baisi // İqbal -1914, 20 mart, № 605, s.2.

6. Əhməd bəy Ağaoğlunun üç mədəniyyət konsepsiyası//Starteji Təhlil jurnalı -2016, № 3-4 (17-18). -s.243-251. 115.
7. Fəhmi Ə. Opera nədir // "İqbal"-1913, 28 oktyabr, № 491, s.2.
8. Hacıyev İ. Sabirin kitabına ianə //İqbal- 1914, 24 dekabr, № 822, s.3.
9. Hüseyn S. "Bədbəxt milyonçu..." // İqbal - 1914, 18 aprel, №630, s.2
10. Məlikov İsgəndər bəy, Mühərrirat // İqbal -1912, 18 aprel, № 37, s.3.
11. Mənsur S. Unudulmaz // İqbal -1914, 30 aprel, № 640, s.2.
12. Tağısoy, G. Fədakar aydınlarımız millətin istiqlalı və istiqbalı yolunda: türkçülük ideologiyasının yaranması // Mədəniyyət.az. - 2016.- №1. - s.76-78.

**А.Э. Рафиева**

## Группа писателей газеты «Икбал»
## Резюме

Газете «Икбал» удалось шире и быстрее распространять идеи национального освобождения, объединив в своих рядах наиболее передовых интеллектуалов того времени. Борьба за национальную независимость, начатая «Икбалом», была продолжена в последующих газетах — «Ени Икбал» и «Ачик соз». Издатель и главный редактор газеты, а также подавляющее большинство ее авторов впоследствии стали основателями Азербайджанской Демократической Республики» [8: с. 38].

В период подъема идей свободы авторы, осознавшие ненужность царского управления, высказывали свои возражения против него, распространяли революционно-демократические идеи с большой уверенностью в том, что движение, начавшееся с просвещения, закончится свободой, и призывали народ к великой освободительной борьбе.

**A.E. Rafiyeva**

## The author contıngent of the "Igbal" newspaper
## Summary

The newspaper "Igbal" united the most advanced intellectuals of the time and succeeded in spreading the ideas of national liberation more widely and rapidly. The struggle that "Iqbal" started for the national future was continued through the following newspapers, "Yeni Igbal" and "Achiq Soz". The publisher and editor-in-chief of the newspaper, as well as the vast majority of its authors, later became the founders of the Azerbaijan Democratic Republic" [8: P. 38].

In a period when the ideas of freedom were rising, the authors, realizing the unnecessaryness of the tsarist-style administration, expressed their objections to it, spread revolutionary-democratic ideas with great confidence that a movement that began with enlightenment would end with freedom and called on the people to a great liberation struggle.

**Redaksiyaya daxil olub:** 04.03.2025

*UOT 82.1.*

# TOPONİMLƏR VƏ AZƏRBAYCAN: DİL VƏ MƏDƏNİYYƏTİN KƏSİŞMƏSİNDƏ

**Kərəm Rafiq oğlu Hacıyev**
*Odlar Yurdu Universitetinin doktorantı*
**ORCID:** 0009-0004-4605-3498
**E-mail:** hajiyevkaram@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v22.i1.14

***Açar sözlər:*** *toponimlər, Azərbaycan toponimləri, tarixi coğrafiya, dil və mədəniyyət, yer adları*
***Ключевые слова:*** *топонимы, топонимы Азербайджана, историческая география, язык и культура, названия места*
***Key words:*** *toponyms, Azerbaijani toponyms, historical geography, language and culture, place names*

Dilçiliyin əsas qollarından biri olan "Toponimiya" sözü yunan sözü olub mənası – topos – yer, onyma – ad deməkdir. Lakin qeyd etmək lazımdır ki, toponimiya təkcə dilçiliyin bir sahəsi deyil, həmçinin coğrafiya və tarix kimi elmlərin də birləşməsindən əmələ gələn geniş bir sahədir. Toponimlər, yer adları olaraq, coğrafi əraziləri təyin edən və həmin yerlərin xüsusiyyətlərini, tarixi, mədəni və sosial əlaqələrini əks etdirən adlardır. Bu adlar yalnız fiziki əraziləri təyin etmək məqsədilə deyil, həm də bu ərazilərlə bağlı kollektiv yaddaş, tarixi və mədəni məlumatlar daşıyır. Toponimlər insanın təbiətə, cəmiyyətə və mədəniyyətə olan münasibətini yansıtan vacib göstəricilərdir. Coğrafiyanın, tarixçiliyin, mədəniyyətin və dilin birləşdiyi nöqtədə formalaşan bu adlar, yalnız fiziki coğrafiyanın öyrənilməsi deyil, həm də yerli xalqların dünya görüşünün, keçmişdəki sosial strukturlarının və həyat tərzlərinin izlərini daşıyır.

Toponimlər, yer adlarının öyrənildiyi elmi sahə olan *toponimiya* vasitəsilə araşdırılır. Toponimiya, bir çox elmi sahənin birləşdiyi bir tədqiqat sahəsidir və xüsusilə coğrafiya, tarix, dilçilik və mədəniyyət araşdırmaları ilə sıx əlaqəlidir. Bu sahə, adların yaranma səbəblərini, mənşəyini, dil xüsusiyyətlərini və bu adların tarix boyu necə dəyişdiyini araşdırır.

Coğrafiya baxımından, toponimlər bir regionun fiziki xüsusiyyətlərinə, təbii sərvətlərinə, iqliminə və coğrafi mövqeyinə işarə edə bilər. Məsələn, "Quba" toponimi, coğrafi bir xüsusiyyət olan "qübbə" (dairəvi quruluş) ilə əlaqələndirilir, bu isə yerin müəyyən coğrafi formaya sahib olduğunu göstərir [2, s. 8].

Dilçilik sahəsində toponimlər, adların hansı dillərdə və nə zaman formalaşdığını, dilin inkişafını, fonetik və semantik dəyişiklikləri göstərir. Həmçinin dilin təbii və mədəni şəraitə uyğun inkişafını da ortaya qoyur. Azərbaycan toponimləri, müxtəlif mədəniyyətlərin və dillərin qarışdığı bir regionda formalaşmışdır, bu da onlarda fərqli dil qatlarını müşahidə etməyə imkan verir.

Mədəniyyət baxımından isə toponimlər, cəmiyyətlərin inanclarını, mədəniyyətlərini və sosial strukturlarını əks etdirir. Yer adları, xalqın gündəlik həyatını, dini inanc sistemini, müharibə tarixini və sosial təşkilatını qavramağa kömək edir [1, s.167].

Bu məqalənin əsas məqsədi, Azərbaycanın toponimlərini ətraflı şəkildə araşdırmaq, onların tarixini, mənşəyini, coğrafi və mədəni xüsusiyyətlərini təhlil etməkdir. Azərbaycan coğrafiyasının zənginliyi və müxtəlif mədəniyyətlərin təsiri altında formalaşan yer adlarının

öyrənilməsi, həm coğrafiyanın, həm də sosial və mədəni inkişafın necə əlaqələndiyini başa düşməyə imkan verir. Azərbaycanın qədim yer adları, müxtəlif tarixlərdə yerli xalqın həyatını, müharibə tarixini, iqtisadi fəaliyyətlərini və mədəni əlaqələrini əks etdirən mühüm məlumatlar daşıyır.

Məqalədə Azərbaycanın fərqli bölgələrində yerləşən toponimlərə (məsələn, Bakı, Quba, Gəncə, Şəki və s.) nəzər salınacaq və bu adların tarixi və coğrafi mənşələri ilə yanaşı, onların xalqın mədəniyyətində və yaddaşında necə bir yer tutduqları araşdırılacaq. Bundan əlavə, toponimlərin sosial və dilçi tədqiqatlar üçün nə dərəcədə vacib olduğu da müzakirə ediləcəkdir.

Toponimlərin mənşəyi, onların necə və hansı proseslər nəticəsində formalaşdığını və bu adların necə istifadə olunduğunu anlamaq üçün vacib bir sahədir. Toponimlər, təbiət hadisələrindən, tarixi hadisələrdən, mədəniyyət və etnik qruplardan ilham alaraq yaranmışdır. Onların yaranma prosesi ümumiyyətlə zamanla dəyişərək yeni şəraitlərə uyğunlaşır, amma əsasən üç mənşəyə malikdir: *coğrafi, tarixi və etnik mənşələr.*

**Coğrafi mənşə:** Coğrafi mənşəli toponimlər, yerin fiziki xüsusiyyətlərini təmsil edən adlardır. Bu adlar, təbii ərazilərin (dağlar, çaylar, göllər və s.) müəyyən xüsusiyyətlərini və mövqeyini ifadə edir. Məsələn, "Qarabağ" adı, bölgənin coğrafi yerləşməsi və təbiəti ilə bağlıdır, çünki "qarab" (qara) sözü bu ərazinin torpağının qaranlıq rəngini, "bağ" isə bu torpağın münbitliyini bildirir [10, s 78].

**Tarixi mənşə:** Tarixi mənşəli toponimlər, adların tarixi hadisələrlə əlaqəli olaraq formalaşması prosesini göstərir. Bu adlar, müharibələr, hökmdarların adı, qədim məskunlaşmalar və ya digər tarixi əhəmiyyətli hadisələrə bağlı yaranır. Məsələn, "Bakı" adı, tarixçi və alban mənbələrində müxtəlif dövrlərdə fərqli şəkildə istifadə edilsə də, bəzi araşdırmalara görə, bu adın mənası "böyük qala" və ya "yanan yer" olaraq təsnif edilmişdir, çünki bu bölgə qədim dövrlərdən etibarən qaz yataqları ilə zəngin olmuş və bu təbii hadisə yerli xalqların həyatında mühüm yer tutmuşdur [2, s. 87]

**Etnik mənşə:** Etnik mənşəli toponimlər, müəyyən bir yerin və ya ərazinin adı ilə əlaqəli olaraq həmin ərazidə yaşamış və ya bu ərazilərə köç etmiş xalqların və ya etnik qrupların adlarından yaranır. Bu cür toponimlər, xüsusilə Azərbaycan kimi müxtəlif etnik qrupların bir arada yaşadığı bölgələrdə geniş yayılmışdır. Məsələn, "Gəncə" toponimi, qədim türk tayfalarından olan "gənc" adından yaranmış və bu tayfanın bu bölgəyə məskunlaşmasından sonra bu ad təbii olaraq bölgənin adı kimi qəbul edilmişdir [1].

Bunlarla yanaşı, Azərbaycanın müxtəlif coğrafi bölgələri, ərazinin coğrafi xüsusiyyətlərinə uyğun olaraq müxtəlif toponimlərə sahibdir. Bu bölgələr, həmçinin yerli əhalinin həyat tərzini, sosial və iqtisadi inkişafını göstərən vacib göstəricilərdir.

**1. Qərbi Azərbaycan bölgəsi** – Qərbi Azərbaycan, Azərbaycanın qərb hissəsində yerləşən və tarixi əhəmiyyətə malik olan bir ərazidir. Bu bölgədə yerləşən toponimlər, həmin ərazidəki qədim mədəniyyətlərin və xalqların izlərini daşıyır. Məsələn, "İrəvan" adı, bu bölgənin qədim tarixini, coğrafi xüsusiyyətlərini və burada yaşamış xalqları əks etdirir. İrəvan, həmçinin bir çox tarixi hadisələrin mərkəzi olmuşdur və burada yerləşən toponimlər, ərazinin zəngin mədəniyyətini ifadə edir [12, s. 145].

**2. Şimal-Şərq Azərbaycan bölgəsi** – Bu bölgə, xüsusilə dağlıq əraziləri ilə tanınır və burada yerləşən toponimlər dağlar, çaylar və digər coğrafi xüsusiyyətlərlə əlaqəlidir. Məsələn, "Quba" və "Qusar" kimi toponimlər, bu bölgənin dağlıq və çaylarla zəngin olmasını göstərir.

Quba, həmçinin bu bölgənin mədəniyyətinin və tarixinin bir əksidir, çünki burada yerləşən toponimlər qədim xalqların həyatını və təbiətlə əlaqəsini əks etdirir.

**3. Dağlıq Qarabağ bölgəsi** – Dağlıq Qarabağ, Azərbaycan ərazisindəki ən mühüm coğrafi bölgələrdən biridir. Bu ərazidəki toponimlər, həm coğrafi, həm də etnik müxtəlifliyi göstərir. "Qarabağ" adı, "qarab" (qara) və "bağ" (bağçılıq və ya münbit torpaq) sözlərindən yaranmışdır. Bu toponim, ərazinin qara torpaqlarının və məhsuldar kənd təsərrüfatının olduğunu bildirir. Qarabağ toponimi həmçinin bu bölgənin keçmişdəki əhəmiyyətini və orada baş vermiş mühüm hadisələri təmsil edir [ 11, s.18-23].

Son dövrlərdə Azərbaycanın toponimlərində bir sıra dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər, əsasən tarixi və mədəni baxışların dəyişməsi, siyasi hadisələr və coğrafi dəyişikliklər nəticəsində meydana gəlmişdir.

**4. Toponimlərdəki dəyişikliklər** – Azərbaycanın müasir tarixində, xüsusilə Sovet dönəmində, bir çox toponim dəyişdirilmiş və ya təhrif olunmuşdur. Bu dəyişikliklər, sovet ideologiyasının təsiri altında baş vermişdir və bir çox yer adları, sosialist ideologiyasını və ya sovet siyasi rəhbərlərinin adlarını təmsil edirdi. Məsələn, "Yelizavetpol" adı, Sovet dövründə "Gəncə" şəhərinin yeni adı kimi istifadə olunmuşdur və bu dəyişiklik, şəhərin tarixi kimliyini təhrif etmişdir [2, s. 11].

**5. Birləşmiş toponimlər** – Bəzi toponimlərdə, xüsusilə müstəqillik dövründə, tarixi və milli kimliyi əks etdirən dəyişikliklər baş vermişdir. Azərbaycan Respublikasının müstəqil dövlət olaraq yaranması ilə bağlı olaraq, bir çox toponimlər öz qədim adlarına qayıtmışdır. Məsələn, "Gəncə" şəhərinin adı, Sovet dövründəki dəyişikliklərdən sonra yenidən əvvəlki adını qəbul etmişdir. Bu, xalqın tarixə və mədəniyyətə olan dərin hörmətinin ifadəsidir.

**6. Yeni toponimlər** – Müstəqillik dövründə Azərbaycanın müxtəlif regionlarında yeni toponimlər yaranmışdır. Bu adlar, müasir dövrün tələblərinə uyğun olaraq, yerli xalqın həyatını, inkişafını və sosial-siyasi vəziyyətini əks etdirir. Bu cür toponimlər, Azərbaycanın yeni kimliyini və müasir sosial strukturlarını simvollaşdırır [2, s. 90].

Toponimlər, yalnız yer adları olmaqla yanaşı, həm də dilin inkişafında mühüm rol oynayan elementlərdir. Yer adları, bir bölgənin dilini, orada yaşayan xalqların mədəniyyətini və tarixini təmsil edən dərin mənalar daşıyır. Toponimlərin dilə təsiri, əsasən bu adların yerli dilin strukturuna, söz ehtiyatına və dilin inkişafına necə təsir etdiyinə bağlıdır.

**Toponimlərin dil inkişafına təsiri** – Toponimlər, dilin inkişafında mühüm bir qaynaq rolunu oynayır. Hər bir toponim, o yerin dilini və dilin fonetik, morfoloji və semantik xüsusiyyətlərini əks etdirir. Məsələn, qədim Azərbaycan dillərində mövcud olan toponimlər, bu dövrün dil strukturlarını, fonetik dəyişiklikləri və qədim sözlərin izlərini daşıyır. Bu adlar, dilin zaman içində necə inkişaf etdiyini və dəyişdiyini göstərən əhəmiyyətli izlərdir. Toponimlər, həmçinin yerli dilin müxtəlif şivələrinin, aksentlərinin və ləhcələrinin izlərini saxlayır. Məsələn, Azərbaycanın cənub bölgəsində yerləşən toponimlər, fars dilinin və mədəniyyətinin təsirini, şimalda yerləşənlər isə türk dilli cəmiyyətlərin izlərini göstərir. Bu, toponimlərin dilə olan təsirini açıq şəkildə nümayiş etdirir. Azərbaycan dilindəki bəzi sözlər, birbaşa olaraq yer adlarından törəmişdir. Bu, toponimlərin dilə verdiyi zənginlikdən biridir və yerli dilin inkişafına dair məlumatlar təqdim edir [6, s. 19-22].

**Toponimlərin dilə əlavə etdiyi sözlər və ifadələr** – Bir çox toponim, yerli dillərdəki xüsusiyyətləri qoruyub saxlayır və zaman keçdikcə həmin yerin adının, dilə qatdığı yeni ifa-

dələrə, deyimlərə və terminlərə çevrilməsinə səbəb olur. Məsələn, "Quba", "Şəki", "Qarabağ" kimi yer adları, zamanla bu bölgələrin dilində xüsusi ifadələr və terminologiya yaradıb. Bu, həm də toponimlərin dilin zənginləşməsində, dilin özəlliklərini yaşatmaqda nə qədər əhəmiyyətli rol oynadığını nümayiş etdirir [12, s. 209].

**Toponimlərin yerli sözləri qorumağa və yaşatmağa kömək etməsi** – Yer adları, qədim və unudulmuş dil elementlərinin qorunmasına şərait yaradır. Bir çox toponim, qədim dövrlərə aid olan dil sözləri və ifadələri saxlayır. Bu, xüsusilə dilin ölü və ya nadir istifadə olunan sözlərini canlandırmaq və onları gələcək nəsillərə ötürmək baxımından böyük önəm daşıyır. Azərbaycan toponimləri, bu cəhətdən xüsusi bir yer tutur, çünki burada bir çox qədim türk, fars, ərəb və alban dil elementləri qorunub saxlanmışdır [7, s. 104].

Toponimlər yalnız dilin inkişafına təsir göstərmir, həm də tarixə işıq salır. Yer adları, tarixən baş vermiş mühüm hadisələrin, siyasi və sosial dəyişikliklərin izlərini daşıyır. Bu toponimlər, Azərbaycanın zəngin tarixini və mədəni irsini anlamağa kömək edir. Hər bir toponim, o ərazinin keçmişini, xalqın həyatını, sosial və siyasi şəraitini əks etdirir.

**Tarixi hadisələrin yer adlarında əks olunması** – Tarixi hadisələr, bir çox halda toponimlərdə iz buraxmışdır. Məsələn, Azərbaycanın müxtəlif bölgələrindəki toponimlər, müxtəlif tarixdəki mədəni və siyasi əlaqələrin əksidir. Qədim dövrlərdən bu yana Azərbaycanın toponimləri, müxtəlif imperiyalar və dövlətlərin təsiri ilə dəyişmiş və bəzən yeni mənalar qazanmışdır. Bu toponimlər, həmçinin mədəniyyətlərarası əlaqələrin, müharibələrin, iqtisadi dəyişikliklərin və sosial inkişafların izlərini saxlayır.

Məsələn, ***"Bakı"*** adının qədim dövrlərdəki qaz yataqları və məşhur neft sahələri ilə əlaqəli olması, bu ərazinin zəngin neft resurslarının təmsilçisi olmasının göstəricisidir. Eyni zamanda, **"Gəncə"** toponimi, bu şəhərin Orta əsrlərdəki tarixi əhəmiyyətini, həmçinin Xətai dövrünün paytaxtı kimi rolunu qeyd edir [11, s. 324].

**Toponimlərin siyasi və sosial dəyişiklikləri əks etdirməsi** – Toponimlər, bir çox halda, siyasi və sosial dəyişiklikləri əks etdirir. Azərbaycan tarixindəki müharibələr, idarəetmə sistemləri və müxtəlif dövlət quruluşları, yer adlarında öz təsirini buraxmışdır. Məsələn, Sovet dövründə bəzi toponimlər dəyişdirilmiş və ya sovet ideologiyasına uyğunlaşdırılmışdır. Bununla yanaşı, müstəqillik dövrü ilə bağlı olaraq da toponimlərdə dəyişikliklər baş vermişdir. Belə dəyişikliklər, bir çox hallarda ölkənin tarixi və milli kimliyi ilə bağlı böyük əhəmiyyət kəsb edir.

Məsələn, **"Quba"** adı, həmçinin bu ərazidəki fərqli etnik və dini qrupların qarşılıqlı əlaqələrinin göstəricisi olmuşdur. **"İrəvan"** və **"Yelizavetpol"** kimi toponimlər, Sovet İttifaqı dövründə təhrif edilmiş adlar olub, müstəqillik dövründə öz orijinal adlarına qayıtmışdır [4, s. 190-192].

**Toponimlərin xalqın kimliyinə təsiri** – Toponimlər, bir xalqın tarixi kimliyini və mədəniyyətini qoruyub saxlamaqda da əhəmiyyətli rol oynayır. Bu adlar, xalqın öz köklərinə olan bağlılığını göstərir və tarixi yaddaşın bir hissəsi olur. Azərbaycan xalqı, müstəqillik dövründə toponimlərə böyük əhəmiyyət verərək, milli kimliyini və mədəni irsini qorumağa çalışmışdır.

Toponimlər, həm də xalqın öz tarixini və mədəniyyətini tanıması, bu tarixə hörmət etməsi baxımından əhəmiyyətlidir. Həmçinin, yer adları tarix boyunca xalqın keçirdiyi sosial və mədəni dəyişikliklərin, müharibə və iqtisadi sıxıntıların, həmçinin xalqın mədəniyyətə verdiyi töhfələrin izlərini saxlayır [3, s. 8-24].

Gələcəkdə toponimlərin araşdırılması, həmçinin müasir cəmiyyətin və iqtisadiyyatın inkişafını anlamağa kömək edəcək. Məsələn, bəzi toponimlər, ərazinin iqtisadi potensialı ilə əlaqədar olaraq dəyişə bilər. Toponimlər, iqtisadi və sosial inkişafı müşahidə etməklə yanaşı, bu dəyişiklikləri öncədən görməyə imkan verəcək. Həmçinin, toponimlərin qorunması və inkişafı, yerli icmaların öz mədəniyyətlərinə və kimliklərinə qarşı olan bağlılığını daha da möhkəmləndirəcək [9, s. 168].

Dünya miqyasında toponim araşdırmaları, coğrafiya, tarix, dilçilik və mədəniyyət sahələrini birləşdirən multidissipliner bir yanaşmadır. Bu araşdırmalar, həmçinin beynəlxalq əlaqələrin inkişafına, müxtəlif mədəniyyətlərin anlaşılmasına və dünya xalqları arasında daha sıx bir əməkdaşlıq qurulmasına da kömək edir. Toponimlər, qlobal miqyasda mədəni mübadilə və təsirlər haqqında məlumatlar təqdim edərək, həm də dil, coğrafiya və tarix arasındakı əlaqələri öyrənməyə imkan yaradır [5, s. 324].

Qlobal müstəvidə toponim araşdırmaları, müxtəlif xalqların və mədəniyyətlərin bir-biri ilə necə əlaqədə olduğunu göstərir. Hər bir toponim, müəyyən bir mədəniyyətin, xalqın və ya ərazinin tarixi haqqında məlumatlar təqdim edir. Bu səbəbdən, dünya miqyasında toponimlərin araşdırılması, müxtəlif xalqların ortaq tarixini və mədəni irsini daha yaxından tanımağa imkan verir. Dünyadakı fərqli mədəniyyətlərin toponimlər üzərindən etdiyi təhriflər, dəyişikliklər və yeniliklər, bu xalqlar arasında olan əlaqələrin dərindən anlaşılmasına yardımçı olur.

Azərbaycanın toponimləri, digər ölkələrin və mədəniyyətlərin təsiri altında da dəyişmiş və bəzən onların dilində yeni formalar almışdır. Bu dəyişikliklər, Azərbaycanın digər ölkələrlə olan tarixi və mədəni əlaqələrini nümayiş etdirir və bu əlaqələrin araşdırılması beynəlxalq səviyyədə toponimlər üzərindəki araşdırmaların vacibliyini artırır [7, s. 24-26].

**Toponimlərin qlobal mədəniyyətə təsiri** – Toponimlər yalnız yerli cəmiyyətləri deyil, qlobal mədəniyyəti də təsir edir. Dünyanın müxtəlif bölgələrində toponimlər arasında paralellər, təsirlər və əlaqələr tapmaq mümkündür. Bu, həm də qlobal müstəvidə mədəni mübadilənin, ticarət yollarının və müxtəlif xalqların bir-biri ilə əlaqələrinin izlərini göstərir. Məsələn, Azərbaycanın qədim ticarət yolları üzərində yerləşməsi və fərqli mədəniyyətlərin toponimlərə təsiri, bu coğrafiyanın qlobal mədəni irsə verdiyi töhfəni göstərir.

Bu məqalədə toponimlərin mənşəyi, sinifləri və Azərbaycanın toponimləri haqqında ətraflı məlumat verildi. Toponimlər, yalnız yer adları olaraq deyil, həm də bir xalqın tarixini, mədəniyyətini, dilini və coğrafiyasını əks etdirən mühüm bir sahədir. Azərbaycanın toponimləri, ölkənin zəngin tarixi və mədəni irsini, eyni zamanda fərqli mədəniyyətlərin təsirlərini özündə yaşadır [8, s. 62].

Azərbaycan toponimləri, həm tarixi, həm də coğrafi baxımdan böyük əhəmiyyətə malikdir. Hər bir yer adı, özündə bir çox tarixi hadisəni, etnik mübarizəni və mədəni dəyişiklikləri daşıyır. Bu, ölkənin müxtəlif bölgələrindəki toponimlərin formalaşmasında həm yerli, həm də xarici təsirlərin rolunu göstərir.

Gələcəkdə toponimlərin daha çox araşdırılması və qorunması vacibdir. Bu, yalnız ölkənin tarixi və mədəniyyəti ilə bağlı əhəmiyyətli məlumatların saxlanmasına deyil, həm də müasir dövrün dil inkişafı və coğrafi dəyişiklikləri barədə daha dərindən anlayış əldə etməyə kömək edəcəkdir. Toponimlərin gələcəkdəki araşdırmaları, həmçinin Azərbaycanın dünya miqyasında tanınmasına və mədəni irsinin qorunmasına töhfə verəcəkdir.

**Problemin aktuallığı.** Toponimlər xalqın tarixi, dili və mədəni kimliyinin qorunmasında mühüm rol oynayır. Azərbaycanın toponimləri milli irsin daşıyıcısı olmaqla yanaşı, tarixi hadisələrin izlərini də özündə əks etdirir. Qloballaşma və urbanizasiya prosesləri nəticəsində bəzi toponimlərin dəyişdirilməsi və ya unudulması milli mədəniyyətin və dilin gələcəyi üçün risk yaradır. Bu səbəbdən, Azərbaycan toponimlərinin tədqiqi və qorunması müasir dilçilik və mədəniyyət araşdırmalarında xüsusi aktuallıq kəsb edir. Toponimlərin araşdırılması həm də Azərbaycanın coğrafi, tarixi və etnik müxtəlifliyinin daha dərindən anlaşılmasına töhfə verir.

**Problemin elmi yeniliyi.** Azərbaycan toponimlərinin dil və mədəniyyətin kəsişməsində öyrənilməsi məsələsi araşdırılmış, onların etimoloji, semantik və funksional xüsusiyyətləri müasir elmi yanaşmalarla təhlil edilmişdir. Bundan əlavə, toponimlərin qorunması və gələcək nəsillərə çatdırılması üçün yeni metodoloji yanaşmalar təklif olunmuşdur.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən dilçilik, tarix və mədəniyyət sahəsində çalışan tədqiqatçılar, ali məktəb müəllimləri, tələbələr və magistrantlar istifadə edə bilərlər. Həmçinin, coğrafi adların düzgün istifadəsi və qorunması ilə məşğul olan dövlət qurumları və xəritəçiliyə dair mütəxəssislər üçün də faydalı ola bilər.

## Ədəbiyyat

1. https://dergipark.org.tr/en/pub/ataunisosbil/issue/42067/499717
2. "Bəşər tarixinin başlanğıcına bağlanan toponimlərə yeni münasibət", 2010. ???
3. Çildam, E. Yer adları və coğrafiya: Azərbaycan toponimləri üzərində araşdırmalar. Bakı: Elmi Nəşriyyat. 2019
4. Aliağaoğlu, A., & Uğur, A. Şehirsel Toponimi: Erzurum'da Cadde Adları. Balikesir University Journal of Social Sciences Institute, 21(40). 2018
5. Çildam, S.Y. Toponimi (Yer Adları) Açısından Siirt'te Mahalle Adları. Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 23 (4) , 1443-1458. 2019
6. Telli, B. Yer Adları Üzerine Bir Değerlendirme: Adıyaman İli Gölbaşı İlçesi Örneği. Electronic Turkish Studies, 13(12). 2018
7. Aliağaoğlu, M. & Uğur, F. Toponimlər və onların mədəniyyətə təsiri. İstanbul: Kültür Yayınları.), 2018
8. Kayserili, A. Toponimiya və yer adlarının tarixi rolu. Bakı: Elm və Təhsil Nəşriyyatı) 24. 2015
9. Telli, F. Azərbaycan toponimlərinin tarixi və coğrafiyası. Bakı: Elm və Təhsil Nəşriyyatı. 2018
10. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, I cild, Bakı; Şərq-Qərb, 2007, 427s.
11. Toponimika (dərslik) Bakı, Bakı Universiteti, Nəşriyyatı, 2007, 408s.
12. Əhmədov T.M, Azərbaycan toponimiksının əsasları, Bakı; Bakı Universiteti, 1991, 312 səh.

**К.Р. Гаджиев**

**Топонимы и Азербайджан: на пересечении языка и культуры**
**Резюме**

В данной статье рассматривается влияние топонимов Азербайджана на язык и культуру. Топонимы — это не только географические названия, но и неотъемлемая часть истории, этнографии и культурной идентичности народа. Названия местностей Азербайджана хранят следы древней истории и отражают политические, социальные и культурные изменения, происходившие на протяжении веков. В статье предлагаются стратегии по сохранению, изучению и передаче топонимов будущим поколениям. Эти подходы способствуют более глубокому пониманию азербайджанского языка и культуры, а также сохранению национального наследия.

**K.R. Hajiev**

**Toponyms and Azerbaijan: at the intersection of language and culture**
**Summary**

This article explores the influence of Azerbaijani toponyms on language and culture. Toponyms are not only geographical names but also an integral part of a nation's history, ethnography, and cultural identity. The place names in Azerbaijan carry traces of ancient history and reflect the political, social, and cultural changes that have occurred over time. The article recommends strategies for preserving, studying, and passing on toponyms to future generations. These approaches contribute to a deeper understanding of the Azerbaijani language and culture, as well as the preservation of national heritage.

**Redaksiyaya daxil olub:** 24.02.2025

# MÜASİR AFROAMERİKAN İDENTİKLİYİ VƏ MƏDƏNİYYƏT

*UOT 81*

**Pərvanə Mahir qızı İsmayılova**
*Azərbaycan Dillər Universitetinin doktorantı*
**ORCID:** 0009-0000-4046-6452
**E-mail:** ism.parvana@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v22.i1.15

***Açar sözlər:*** *afroamerikalı, afroamerikan ingilis variantı, mədəniyyət, irqi, termin*
***Ключевые слова:*** *афроамериканец, афроамериканский английский, культура, раса, термин*
***Key words:*** *afroamerican, afroamerican english, culture, race, term*

Afroamerikalılar tarix boyu ABŞ-da və dünyanın başqa yerlərində istər siyasi istərsə də sosial həyatda mühüm rol oynamışlar. Afroamerikalılar tarixdə qul ticarətindən başlayaraq daim öz hüquq və azadlıqları uğrunda mübarizə apararaq, fərqli mədəniyyətləri özlərində birləşdirərək zəngin irs yaratmışlar. Çağdaş dövrümüzdə afroamerikalılar həm mədəni, həm də sosial sahələrdə mühüm fəaliyyətlər göstərmişlər.

1980-ci illərdə afroamerikan termini, şifahi şəkildə söz vasitəsilə ölkə daxilində və qaradərili icmalarda populyarlaşdı və nəhayət, Cessi Cekson 1988-ci ildə bu termini milli auditoriya qarşısında açıq şəkildə istifadə etdikdən sonra əsaslı surətdə geniş istifadə olundu. Daha sonra əsas media orqanları da bu anlayışı qəbul etdilər. Və belə demək yerinə düşərki afroamerikan termini Cessi Cekson tərəfindən populyarlaşdı. XVIII və XIX əsrlərdə istifadə olunmuş terminlər Afrika kökənli amerikalıların təsvirini daha çox dəri rənginə (məsələn, rəngli, rəngli şəxs və ya zənci kimi) uyğun istinad edirdi. Afroamerikan termini əvvəllər Markus Qarvey, W. E. B. Du Bois və Corc Padmore kimi görkəmli Afrika mütəfəkkirləri tərəfindən pan-afrikanizm kimi ifadə olunmuşdu. Eyni zamanda afrosianizm termini və digər versiyalar da nadir hallarda istifadə olunurdu. [1, s. 86], [2]

Afroamerikalılar tarix ərzində çox mübariz və həlledici yol keçmişlər. 1990-cı illərdə və 21-ci əsrin ilk onilliyində aparılan sorğulara əsasən, afroamerikalılara qarşı irqi ayrı seçkilik və önyarqılıq yaranmışdı. Məhz bu səbəbdən də onlara ayrıca heç bir üstünlük verilmirdi.

Qara qul ticarəti və köləlik dövrü afroamerikalıların həyatının başlanğıc mərhələsi hesab olunur. Afroamerikalılar tarixdə ilkin dövrlərdə əsasən kölə olaraq gətirilmişlər. XVII əsrdən XIX əsrin ortalarına qədər, Afrikadan minlərlə insan ABŞ-a kölə olaraq gətirilirdi. Köləlik statusu onlara sərbəst hüquq və azadlıq vermirdi, amma buna baxmayaraq, onlar öz mədəniyyətlərini, adət və ənənələrini qoruyub saxlayaraq, ABŞ cəmiyyətinin inkişafına böyük təsir göstərirdilər.

Köləlik əsasən ABŞ-da cənubda geniş yayılmışdı və bu dövrdə afroamerikalılar əkinçilik sahələrində işləyirdilər, xüsusən də pambıq və tütün sahələrində. XIX əsrdə sənaye inqilabı ilə birlikdə, şimalda daha çox iş imkanları meydana gəldi və kölələr işçi qüvvəsi olaraq qəbul edilməyə başladılar.

1865-ci ildə köləliyin ləğvindən sonra, xüsusilə cənub dövlətlərində qara dərili insanlara qarşı ayrı seçkilik davam etdi. "Cim Krov" qanunları ilə müstəqillik əldə edən afroamerikalılar hələ də təhsil, iş və səsvermə hüquqlarında ciddi məhdudiyyətlərlə üzləşirdilər.

1950-ci illərdən 1960-cı illərin əvvəllərinə qədər, afroamerikalıların vətəndaş hüquqlarını bərpa etmələri və irqi bərabərliyi təmin etmələri məqsədilə böyük bir hərəkat başlandı. Bu dövrün ən tanınmış ictimai xadimləri arasında Martin Luther Roza Parks, Malkolm və digər bir çox şəxsiyyətlər afroamerikalı vətəndaşların hüquq və azadlıqlarını dəstəkləyirdilər. Hərəkatın nəticəsində 1964-cü il Vətəndaş Hüquqları Qanunu və 1965-ci il Səsvermə Hüquqları Qanunu kimi mühüm qanunlar qəbul edildi. Artıq afroamerikalı vətəndaşlar öz hüquq və azadlıqlarını tanıyıb müstəqil vətəndaş olaraq sosial və siyasi həyatda öz yerlərini tutdular. [3]

Afroamerikalıların tarixi mübarizə, əzm və mədəniyyətin bir təzahürüdür. Onlar öz hüquqlarını qorumaq və cəmiyyətə töhfə vermək məqsədilə həmişə əhəmiyyətli rol oynamışlar.

Afroamerikalılar tarixdə bir çox mühüm uğurlar qazanmışlar, həm sosial və siyasi sahələrdə, həm də mədəniyyət, idman və elm sahələrində. Onlar həmçinin cəmiyyətə böyük töhfələr verib və uzun müddət davam edən ədalətsizliklərə qarşı mübarizə apararaq müxtəlif sahələrdə uğurlar əldə ediblər. [4, s 110]

Afroamerikalılar həmçinin siyasətdə mühüm nailiyyətlər əldə ediblər: 2009-2017-ci illər arasında Barak Obama, ABŞ-ın ilk Afroamerikalı prezident oldu. Onun prezidentliyi, cəmiyyətin irqi və sosial bərabərliyinə dair böyük bir simbolik və real dəyişiklikləri təmsil etdi. Kamala Harris: 2020-ci ildə Kamala Harris, ABŞ-ın ilk Afroamerikalı və Asiya mənşəli vitse-prezidenti oldu. Bu, həm də bir çox insan üçün yeni bir ümidin və irqi bərabərliyin simvolu oldu.

Afroamerikalılar mədəniyyət sahəsində musiqi, ədəbiyyat, kino və digər mədəni sahələrdə dünya miqyasında böyük təsir göstərmişlər.

Afroamerikalılar caz, rok və rol, və hip-hop kimi musiqi janrlarının inkişafında həlledici rol oynamışdır. Luis Armstronq, Dyuk Ellinqton, Areta Franklin, Maykl Cekson və Biyons kimi müğənnilər dünya mədəniyyətinə öz töhfələrinə vermişlər. [5, s. 162-164]

Rəssamlıq və Ədəbiyyat sahəsində Lanqston Hagis və Zora Niel kimi yazıçılar, ədəbiyyat sahəsində böyük dəyişikliklər yaratmışlar. Həmçinin Toni Morrison kimi yazıçılar ədəbiyyatda afroamerikalıların təcrübələrini geniş şəkildə təqdim etmişdir.

Afroamerikalılar idman sahəsində də çox böyük uğurlar qazanmışlar. Onlar həm ölkə daxilində, həm də beynəlxalq aləmdə böyük tanınma əldə ediblər.

1947-ci ildə Cakie Robinson, Mekor Liqi Beizbol-da ilk afroamerikalı oyunçu oldu və irqçiliklə mübarizəyə yeni bir mərhələnin başlanğıcını qoydu.

Muhammad Ali, boks üzrə üçqat dünya çempionu oldu və yalnız idman dünyasında deyil, həm də irqçilik və sosial məsələlərdə öz mövqeyini qoruyaraq, dünyada böyük nüfuz qazandı.

Serena Villiyams və Venus Villyams tennisin ən böyük adlarından biri olaraq tanınır. Onlar həm idman, həm də mədəniyyət sahələrində afroamerikalı qadınların rolunu nümayiş etdiriblər.

Afroamerikalılar elm və texnologiya sahələrində də mühüm uğurlar əldə ediblər. Corc Vaşinqton Kaver kənd təsərrüfatında yeniliklər yaradaraq, müxtəlif bitkilərin istifadə olunmasını irəli sürdü. Onun araşdırmaları, xüsusilə fıstıq və digər məhsulların müxtəlif istifadə sahələrini göstərdi.

Meyi Cemison 1992-ci ildə NASA-nın ilk afroamerikalı qadın astronavtı oldu. O, həmçinin astronavt kimi kosmosda uçan ilk afroamerikalıdır.

Afroamerikalılar təhsil və hüquq sahələrində də uğurları danılmazdır. Surqud Marşal, 1967-ci ildə ABŞ-ın Ali Məhkəməsinin ilk Afrika-Amerikalı hakimi oldu. Oprah Vinfrey kimi müvəffəqiyyətli iş qadınları, təhsil və media sahəsində böyük uğurlar əldə etmişlər. [6 , s 340]

Afroamerikalıların uğurları, müxtəlif sahələrdəki mübarizələrindən və zəhmətlərindən qaynaqlanır. Onlar hələ də cəmiyyətdə irqi və sosial bərabərlik uğrunda mübarizələrini davam etdirirlər.

**Problemin aktuallığı.** Məqalə üçün seçilmiş olan mövzunun aktuallığı ilk öncə ingilis dilinin afroamerikan variantının formalaşması və afroamerikalıların tarixi və hazırda bu mövzunun dilçilikdə mövcud tədqiqat vəziyyəti ilə bağlıdır. Azərbaycan dilində sözügedən mövzu bir o qədər geniş şəkildə tədqiq olunmamışdır. İngilis dilinin afroamerikan variantı standart ingilis dilinin bir sıra xüsusiyyətlərinin özündə əsas mənbə olaraq göstərsə də əslində özü dilin müxtəlif aspektlərini standart ingilis dilindən fərqli surətdə istifadə edir.

**Problemin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, bu mövzu Azərbaycan dilində elmi əsaslarla ilk dəfə olaraq araşdırılmışdır. Məqalənin elmi yeniliyi eyni zamanda ingilis dilinin afroamerikan variantında geniş şəkildə istifadəsi ilə bağlıdır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə ingilis dilinin afroamerikan variantının və eləcədə afroamerikalıların ondan necə isifadə etdikləri eyni zamanda afroamerikalıların mədəniyyətdə və eləcə də sosial həyatda tam şəkildə araşdırılması və daha dərindən tədqiq olunması onun praktik əhəmiyyətini şərtləndirir.

## Ədəbiyyat

1. Baugh, John (1999). Out of the Mouths of Slaves: African American Language and Educational Malpractice. University of Texas Press. p. 86. ISBN 978-0-292-70873-0.

2. *Schuessler, Jennifer (April 20, 2015).* "Use of 'African-American' Dates to Nation's Early Days". *The New York Times.* ISSN 0362-4331. Retrieved February 12, 2024.

3. McCarthy, Justin and Whitney Dupree (August 4, 2021). "No Preferred Racial Term Among Most Black, Hispanic Adults". Gallup.com. Retrieved March 31, 2024.

4. Brennan, Timothy. 2008. Secular Devotion: Afro-Latin Music and Imperial Jazz, p. 249.

5. "The Souls of Black Folk" – W.E.B. Du Bois August 11, 2021 p 133.

6. "The Autobiography of Malcolm X" – Malcolm X , Alex Haley Mass Market Paperback – January 1, 1900 p. 466.

**П.М. Исмаилова**

## Современная афроамериканская идентичность и цивилизация
## Резюме

Афроамериканцы являются представителями черной расы в Соединенных Штатах, и история этой группы восходит к рабству. Большинство из них — люди, привезенные из Африки и вынужденные работать в качестве рабов, и их потомки. Исторический

процесс афроамериканцев был сформирован отменой рабства, движением за гражданские права и последующей социальной борьбой. Хотя культурное наследие и исторический опыт, представленный афроамериканцами в мире, особенно очевидны в Америке, это наследие имеет широкое влияние во всем мире. Афроамериканцы внесли большой вклад во многие области, такие как искусство, музыка, литература и спорт. Например, развитие таких музыкальных жанров, как джаз, блюз, хип-хоп и госпел, можно проследить до афроамериканцев.

Влияние афроамериканцев на мир не ограничивается культурной сферой; Они также имели социальное и политическое влияние. Афроамериканцы сыграли важную роль в борьбе с расизмом в Соединенных Штатах и в защите прав чернокожих во всем мире. Глобальные движения сопротивления и правозащитные движения, такие как Black Lives Matter, являются важными примерами этой борьбы.

Эти исторические и культурные процессы способствовали борьбе за социальную справедливость и равенство не только в Америке, но и во всем мире.

**P.M. İsmayılova**

**Contemporary afroamerican identity and civilization**
**Summary**

Afroamericans are members of the black race in the United States, and this group has a history dating back to slavery. Most of them are from people brought from Africa and forced to work as slaves and their descendants. The historical process of afroamericans was shaped by the abolition of slavery, the civil rights movement, and subsequent social struggles. Although the cultural heritage and historical experiences represented by afroamericans in the world are particularly evident in America, this heritage has a wide influence around the world. Afroamericans have made great contributions in many fields such as art, music, literature, and sports. For example, the development of musical genres such as jazz, blues, hip-hop and gospel can be traced back to afroamericans.

The impact of afroamericans on the world is not limited to the cultural sphere; They were also socially and politically influential. Afroamericans have played an important role in the fight against racism in the United States and in the defense of black rights globally. Global resistance and advocacy movements such as Black Lives Matter are important examples of this struggle.

These historical and cultural processes have contributed to the struggle for social justice and equality not only in America, but throughout the world.

**Redaksiyaya daxil olub:** 21.02.2025

*UOT 82*

# MƏHƏMMMƏD FUZULİNİN 530 İLLİK YUBLEYİ İLƏ BAĞLI TƏDQİQAT VƏ TƏBLİĞAT MƏSƏLƏLƏRİ

**Sevda Hidayət qızı Axundova**
*Xəzər Universitetinin fəlsəfə doktoru proqramı üzrə dissertantı*
**ORCİD:** 0000-0001-9192-2307
**E-mail:** sevda.appp@icloud.com

***Açar sözlər:*** *Məhəmməd Füzuli, tədqiqatçılıq, yaradıcılıq, elm, şair*
***Ключевые слова:*** *Мухаммед Физули, исследования, творчество, наука, поэт*
***Key words:*** *Muhammad Fuzuli, research, creativity, science, poet*

Mövlana Məhəmməd Füzuli XVI yüzillik Azərbaycan ədəbiyyatının yetirdiyi elə nadir şəxsiyyətlərdəndir ki, onun yaradıcılığı təkcə öz dövründə məşhur olmaqla qalmamış, həm də 500 ildən bəri türk dilinin anlaşıldığı bütün məkanlarda lirik-fəlsəfi poeziyanın irəliyə doğru inkişafına öz möhtəşəm təsirini göstərmişdir. Füzuli insan həyatının məişət qayğılarını bu həyatın ülvi iç dünyasına köçürməsinin böyük ustadıdır. Məşhur ingilis şərqşünası Elias Con Uilkinson Gibbin (1857-1901) "Qəlb şairi" adlandırdığı Məhəmməd Süleyman oğlu Füzuli Bağdadi 1494-cü ildə, o zaman növbə ilə Osmanlıların və Səfəvilərin hakimiyyəti altına keçən İraqi-Ərəbin Kərbəla şəhərində azərbaycanlı din xadiminin ailəsində dünyaya gəlmişdir. Müxtəlif hökmdarlar tərəfindən dəvətlər alsa da, Füzuli öz böyük sələfi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi kimi saraylardan uzaq durmuş və bu əyilməzliyi ilə həmişə fəxr etmişdir. Hələ çox gənc yaşlarından bədii sözünün şöhrəti dünyanı tutmuş Füzuli bu erkən şöhrətdən heç də arxayınlaşmamış, ömrünün bir neçə ilini zəmanəsindəki dünyəvi və ruhani elmlərin öyrənilməsinə sərf etmiş və "elmsiz şeirin əsassız divar olduğu" qənaətinə gəlmişdir. Füzuli bütün ömrünü İraqi-Ərəbin Bağdad, Hillə, Kərbəla, Nəcəf kimi şəhərlərində keçirmiş, bu yerlərdəki müqəddəs məkanlarda, xüsusən İmam Hüseyn məqbərəsində kitabxanaçı, çıraqsuz kimi şərəfli vəzifələrdə qulluq etməklə öz yaşayışını təmiön etmişdir. Ömrünün ahıl çağlarında Osmanlı hökuməti tərəfindən kəsilmiş doqquz axça təqaüdü ala bilməyən Füzuli bu hadisəni kəskin sosial satira örnəyi olan "Şikayətnamə" əsərində yüksək obrazlılıqla qələmə almışdır. Fəzli adlı bir oğlu olmuş və onun da bir neçə şeiri bizə gəlib çatmışdır. (1)

Bəzi şeirlərindən aydın olduğu kimi, Hindistana və Ruma (Türkiyəyə) səfər etmək istəyən Füzuli bu arzularına qovuşa bilmədiyini təəssüflə izhar etmişdir. Şair 1556-cı ildə, 62 yaşında ikən Bağdadda baş vermiş taun epidemiyası zamanı xəstələnərək bu fani dünyadan köç etmişdir. Klassik Azərbaycan və ümumilikdə Yaxın və Orta Şərq ədəbiyyatlarında məhəbbət mövzusunda yazılmış ən şah əsərlərdən biri sayılan "Leyli və Məcnun" poemasını Məhəmməd Füzuli 1537-ci ildə qələmə alaraq Osmanlı sultanı Süleyman Qanuniyə (1520-1566) ithaf etmişdir. Əsərin məzmunu qədim ərəb məhəbbət əfsanəsindən götürülsə də, bu mövzuda ilk poemanı dahi Azərbaycan şairi Nizami Gəncəvi (1141-1209) 1188-ci ildə qələmə almışdır. Poemanın giriş hissəsindən aydın olur ki, əsərin yazılmasını Füzulidən Bağdadda qonaq olan türk (Osmanlı) şairləri xahiş etmiş, o isə qəm və kədərlə dolu olan, sonunda iki nakam gəncin

faciəsi ilə bitən bu əhvalatı yazmaqdan hətta ustadı Nizaminin də şikayət etdiyini göstərərək, imtina etmək istəmiş, ancaq son məqamda razılığını vermişdir. Poemadakı əsas əhvalatlar, xalq nağıllarında və dastanlarında olduğu kimi, qəhrəmanın nəzir-niyazla doğulmasının təsviri ilə başlayır. Əsərin qəhrəmanı Qeys on yaşına çatdıqda atası onu məktəbə qoyur. Qızlarla oğlanların birgə oxuduğu bu məktəbdə Qeys Leyli adlı bir gözələ aşiq olur və qız da onun məhəbbətinə cavab verir. Ancaq Orta əsrlər cəmiyyətində bu cür sevgilər qəbul olunmadığından gənc aşiqlər tezliklə ayrılmalı olurlar. Leyli ev dustağına çevrilir. Qeys isə cəmiyyətə etirazını insanlardan uzaqlaşmaq ilə ifadə edir və buna görə də "Məcnun", yəni dəli adlandırılır.

Müasir mənada elmi füzulişünaslıq Azərbaycanda XIX-XX əsrlərdə formalaşmağa başlamışdır. İlk dəfə böyük Azərbaycan ədibi və filosofu Mirzə Fətəli Axundzadə Məhəmməd Füzuli yaradıcılığına elmi qiymət verməyə çalışmışdır. Ədəbiyyatşünas-alim Firidun bəy Köçərli "Azərbaycan ədəbiyyatı" (1925) adlı fundamental əsərində Füzuliyə böyük bir fəsil ayırmışdır. XX əsrin əvvəllərində azərbaycanlı tədqiqatçılardan Abdulla Sur, Salman Mümtaz, Yusif Vəzir Çəmənzəminli, Əmin Abid, Bəkir Çobanzadə kimi ədəbiyyatşünaslar da Füzuli yaradıcılığından bəhs etmişlər. Sovet dövründə də Azərbaycanda Füzuli araşdırmaları davam etmiş, Mir Cəlal Paşayev, Həmid Araslı, Mirzağa Quluzadə, Məmməd Cəfər Cəfərov, Azadə Rüstəmova, Sabir Əliyev, Əlyar Səfərli, Xəlil Yusifli kimi görkəmli alimlər elmi füzulişünaslığı zənginləşdirmişlər. Mir Cəlalın "Füzuli sənətkarlığı", Həmid Araslının "Böyük Azərbaycan şairi Füzuli", Mirzağa Quluzadənin "Füzulinin lirikası", Məmməd Cəfər Cəfərovun "Füzuli sevir", Azadə Rüstəmovanın "Füzulinin "Leyli və Məcnun" poeması" kimi fundamental tədqiqatları bu gün də füzulişünaslığın inkişaf istiqamətlərini müəyyənləşdirən əsərlər kimi dəyərini qoruyub saxlayır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə 1994-cü ildə Məhəmməd Füzulinin 500 illik yubileyi dünya miqyasında keçirildi. Bu tədbir Azərbaycanda füzulişünaslığın yeni vüsət alması üçün güclü stimul rolunu oynadı. Sovet ideologiyasının qadağası üzündən uzun onilliklər boyu işıq üzü görməyən "Hədiqətüs-süəda" əsəri çap olundu, böyük şairin altıcildlik külliyyatı kütləvi tirajla nəşr edildi, Bakıda, Ankarada, Moskvada, Bağdadda, Təbrizdə Məhəmməd Füzuliyə həsr edilmiş beynəlxalq elmi konfranslar baş tutdu. Son illərdə Azərbaycan füzulişünaslığının tarixi professor Gülşən Əliyeva-Kəngərli tərəfindən araşdırılaraq monoqrafik tədqiqatın obyekti olmuşdur. Böyük Azərbaycan şairi Məhəmməd Füzuli bir çox türk xalqı, xüsusən Türkiyə, Özbəkistan, Türkmənistan türkləri tərəfindən doğma şair kimi qəbul edilir və sevilir. Bununla yanaşı, Qərbi Avropa ölkələrində və Rusiyada da Füzuli irsinin tərcüməsinə və tədqiqinə maraq özünü göstərməkdədir. Dünya füzulişünaslığında ingilis şərqşünası E.C.V.Gibbin adı xüsusi hörmətlə çəkilir, çünki məhz bu alim bilavasitə Azərbaycan şairinin əsərlərinə söykənməklə onun haqqında fikir söyləmiş və ümumilikdə Füzuli irsini çox yüksək qiymətləndirmişdir. Füzuli əsərlərindəki dərin lirizmi xüsusi vurğulayan Gibb bu səbəbdən onu "Qəlb şairi" adlandırmışdır. Bir sıra alimlərin fikrincə, Gibbdən öncə Füzuli haqqında mülahizə yürüdən Avropa şərqşünasları birbaşa onun əsərlərinə deyil, başqa qaynaqlara da istinad etmişdilər. İtalyan alimi Alessio Bombaçi də Füzuli yaradıcılığının, xüsusən onun ölməz "Leyli və Məcnun" poemasının görkəmli tədqiqatçılarından biri kimi tanınır. İngilis şərqşünası Çarlz Riyonun tərtib etdiyi kataloqlarda Füzuli əsərləri əlyazmalarının təsviri ilə yanaşı, rus alimləri Y.Bertelsin, A.Krımskinin, İ.Kraçkovskinin və başqalarının da Füzuliyə dair araşdırmaları vardır. (2)

Azərbaycandan sonra Füzuli irsinə ən böyük marağın qardaş Türkiyədə olması təbiidir. Bu ölkədəki böyük füzulişünaslardan Müəllim Nacinin, Məhməd Fuad Köprülünün, Abdulqadir Qaraxanın, Həsibə Mazıoğlunun, Əli Nihad Tərlanın, Abdulbaqi Gölpınarlının, Əhməd Kabaklının, Cəmil Yenərin və başqalarının adlarını çəkmək olar. Eləcə də türk şairi Sofi Hurinin Füzulinin "Leyli və Məcnun" poemasını bütövlükdə ingilis dilinə çevirməsi Qərb tədqiqatçılarının Füzuli irsi ilə daha yaxından tanış olmaları üçün stimul vermişdir. Nəhayət, üçdilli şair kimi Füzuli irsinə ərəb alimlərinin də maraq göstərdiyi qeyd edilməlidir. Bu baxımdan Misir alimləri Hüseyn Mucib əl-Misrinin, Safsafinin və İraq alimi Hüseyn Əli Məhfuzun tədqiqatları maraq doğurur. Ərəb dilində yazdığı əsərlərlə yanaşı, Füzulinin türk və fars dillərində qələmə aldığı əsərlər də ərəb alimlərinin diqqətini çəkmiş, bir sıra örnəklər isə ərəb dilinə çevrilmiş və nəşr edilmişdir. Azərbaycanda Füzuli irsinə maraq şairin sağlığından, hətta gənclik illərindən başlayaraq bu günə qədər yüksələn xətlə artmaqdadır. Respublikanın bölgələrindən birinə Füzulinin adı verilmiş, onun adına küçələr, meydanlar salınmış, möhtəşəm heykəli ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutuna Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Məhəmməd Füzulinin adı verilmişdir. Füzulinin "Türk divanı"nın Bakı nüsxəsi Əlyazmalar İnstitutunun ən qiymətli əsərlərindən biri kimi UNESCO-nun Dünya yaddaşı reyestrinə daxil edilmişdir. 2013-cü ildə Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda dahi şair və mütəfəkkir Məhəmməd Füzuli irsini daha dərindən öyrənmək üçün AMEA-nın prezidenti, institutun direktoru, akademik İsa Həbibbəylinin təşəbbüsü ilə Füzulişünaslıq şöbəsi təşkil edilmişdir. (5)

Dahi Nizami Gəncəvi ilə yanaşı, Azərbaycanın dünya şöhrətli klassik sənətkarlarından biri olan Məhəmməd Füzuli xalqımızın milli sərvəti kimi dəyərləndirildiyindən, bu dahi azərbaycanlının ölməz irsinin bütün dünyada tanıdılması üçün dövlət qayğısının əsirgənilməyəcəyi şübhəsizdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şairin 530 illik yubileyinin keçirilməsi haqqında verdiyi sərəncam bu qayğının bariz sübutudur. Busərəncamının icrası ilə bağlı Azərbaycan Milli Elmlər Akademiyasında da müxtəlif elmi tədqiqat layihələri həyata keçirilir, aktual mövzularda elmi konfranslar keçirilir, sərgilər təşkil olunur, ayrı-ayrı elmi tədqiqat işləri yerinə yetirilir. Əlyazmalar İnstitutunda keçirilən "Məhəmməd Füzuli – sələflər və xələflər: Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyətinin tarixi problemləri" mövzusunda bu konfrans da AMEA-nın Füzuli yubileyi ilə bağlı tədbirlər planı çərçivəsində 2024-cü ildə baş tutmuş ilk elmi toplantı oldu. Sözügedən konfransın materialları bir daha göstərir ki, dahi Azərbaycan şairi Məhəmməd Füzuli özündən əvvəl yaşayıb-yaradan Azərbaycan şairlərinin layiqli davamçısıdır, böyük sənətkarın yaradıcılığı Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutur, görkəmli mütəfəkkirin yaratdığı anadilli poeziyanın mükəmməl nümunələri Azərbaycan ədəbi-bədii dilini daha da zənginləşdirərək yeni zirvəyə yüksəldib, onun sağlığında formalaşan ədəbi məktəb bu gün də yaşamaqdadır.

**Problemin aktuallığı.** 2024-cü ildə dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 ili tamam olur. Məhəmməd Füzuli Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutan, Yaxın və Orta Şərq ölkələri ədəbiyyatına mühüm təsir göstərən qüdrətli sənətkardır. Hərtərəfli biliyə malik mütəfəkkir kimi onun həyata, insana dərin məhəbbət aşılayan və daim gözəllik duyğusu ilə, ülvi ideallarla yaşamağa çağıran

çoxcəhətli bədii-fəlsəfi irsi Azərbaycan xalqının bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi misilsiz mənəvi sərvətlərdəndir. Məhəmməd Füzuli anadilli poeziyanın mükəmməl nümunələrini yaratmış, Azərbaycan bədii dilini daha da zənginləşdirərək yeni zirvəyə yüksəltmişdir. Onun parlaq dühasının təcəssümü olan və bu gün də sevilə-sevilə oxunan əsərləri yarandığı ilk vaxtlardan geniş coğrafiyada yayılmış və müəllifinə böyük şöhrət qazandırmışdır.

**Problemin elmi yeniliyi.** Füzuli təsiri artıq 530 ildən bəri söz-sənət xiridarlarının, istər lirik janrda, istər satirik üslubda yazan şairlərin yaradıcılığında özünü göstərmiş, bu gün belə davam etməkdədir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məhəmməd Füzuli yalnız Azərbaycan xalqının deyil, ümumiyyətlə insan şüurunun əzəmətini, insanın ecazkar yaradıcı qüvvəsini təmsil edən və bütün bəşəriyyətin şeir məbədində fəxri yer tutan ölməz simalardan biridir. Füzulinin zəngin çoxcəhətli və dərin mənalı irsi 530 illik böyük bir dövrün imtahanından çıxaraq yaşamış və bugünkü insan nəsillərinin qabaqcıl fikirləri, yüksək xəyalları, təmiz ehtirasları ilə səsləşməkdədir. Üç dildə ecazkar sənət nümunələri yaradan Məhəmməd Füzuli yalnız öz dövrünün deyil, bütün zamanların dahi şairi kimi əbədiləşməmiş, həm də böyük alim, mütəfəkkir filosof olmuşdur.

### Ədəbiyyat


1. Araslı H. Azərbaycan şairi Füzuli. Bakı: Azərbaycan Uşaqgəncnəşr. 1958, 312 s.
2. Füzuli M. Əsərləri. Altı cilddə. Tərtib edəni H.Araslı. Bakı: Şərq-Qərb, I c., 2005, 400 s. s. 243; II c. 2005, 336 s.
3. Hacıyev T. XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili. Dərs vəsaiti. Bakı: Maarif, 1977, 188 s.
4. Məmmədquluzadə C. Əsərləri. Dörd cilddə. IV c. Tərtib edəni və izahların müəllifi İ.Həbibbəyli. Bakı: Öndər, 2004, 472 s.
5.Məmmədov K. XIX əsr Azərbaycan şeirində satira. Bakı: Elm, 1975, 276 s.
6. Mirəhmədov Ə. Mirzə Əli Möcüz / Azərbaycan ədəbiyyatı tarixi. Üç cilddə. II c. Bakı: Azərbaycan EA-nın nəşriyyatı, 1960, s. 760 (s.738-762).
7. Möcüz M.Ə. Əsərləri. Toplayanı, tərtib edəni, izahların müəllifi Q.Məmmədli. Bakı: Yazıçı, 1982, 350 s.
8. S.Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi. Mirzə Əli Möcüzün fondu, № 454, siy. 1, iş № 120.
9. Möhsün N. M. Füzulinin "Hədiqətüs – süəda" əsərinin poetik xüsusiyyətləri haqqında / Möhsün Nağısoylu // Məhəmməd Füzulinin anadan olmasının 530 illiyinə həsr olunmuş — 122 — "Dahi Azərbaycan şairi Məhəmməd Füzuli müştərək müsəlman mədəniyyətinin yetirməsi kimi" mövzusunda beynəlxalq elmi konfransın tezisləri (15-16 aprel) / AMEA, Rəyasət Heyəti Humanitar və ictimai elmlər bölmələri; İraq-Azərbaycan dostluq cəmiyyəti. – Bakı, 2024. s. 9.

**С.Г. Ахундова**

**Вопросы исследования и пропаганды, связанные с 530-летием Мухаммеда Фузули**

**Резюме**

Мухаммед Физули – великий мастер слова, занимающий исключительное место в развитии азербайджанской литературно-художественной мысли и оказывающий значительное влияние на литературу стран Ближнего и Среднего Востока. Как мыслитель, обладающий всесторонними знаниями, его многогранное художественно-философское наследие, вселяющее глубокую любовь к жизни и людям и всегда призывающее жить с чувством красоты и высокими идеалами, является одним из несравненных духовных сокровищ азербайджанского народа. Мухаммед Физули создал прекрасные образцы поэзии на родном языке, обогатил художественный язык Азербайджана и поднял его на новую высоту. Его произведения, являющиеся воплощением его яркого гения и читаемые с любовью и сегодня, с момента своего создания распространились по широкой географии и принесли автору большую известность.

**S.G. Akhundova**

**Research and promotion issues related to the 530th anniversary of Mohammed Fuzuli**

**Summary**

Muhammad Fuzuli is a powerful artist who occupies an exceptional place in the development of Azerbaijani literary and artistic thought and has a significant influence on the literature of the Near and Middle Eastern countries. As a thinker with comprehensive knowledge, his multifaceted artistic-philosophical heritage, which instills deep love for life and people and always calls to live with a sense of beauty and lofty ideals, is one of the incomparable spiritual treasures of the Azerbaijani people. Muhammad Fuzuli created excellent examples of poetry in the native language, enriched the artistic language of Azerbaijan and raised it to a new peak. His works, which are the embodiment of his bright genius and are read with love even today, have been spread over a wide geography since the beginning of their creation and have brought great fame to the author. It is not surprising to talk about Fuzuli even today, to refer to Fuzuli's poem on the 530th anniversary of the genius poet.

**Redaksiyaya daxil olub:** 13.01.2025

***UOT 82***

# A SOCIOLINGUISTIC ANALYSIS OF THE CONCEPT OF SOCIAL CLASS IN LITERARY WORKS: THE CASE OF LYNN NOTTAGE'S "SWEAT"

**Nigar Mahir qızı Hətəmova**
*Xəzər Universitetinin magistrantı*
**ORCID:** 0009-0000-4660-7877
**E-mail:** nigarhetemova@gmail.com

***Açar sözlər:*** *sosiolinqvistika, sosial sinif, sosiolekt, linqvistik göstəricilər*
***Ключевые слова:*** *социолингвистика, социальный класс, социолект, лингвистические маркеры*
***Key words:*** *sociolinguistics, social class, sociolect, linguistic markers*

Social Class refers to separations in society based on economic and social status. These divisions manifest in people's education, work, linguistic choices, etc. Literature, which reflects life with all its transparency, has not overlooked the concept of social class, a key aspect of society. The application of the science of sociolinguistics, which studies the linguistic differences of social classes, to literary works contributes to the science of linguistics and sociology. During sociolinguistic analysis, important information is obtained about that historical period, the linguistic regularities of the period, etc. One of the famous American playwrights who describes the working class and their miserable life in her works is Lynn Nottage. Her play "Sweat" represents the labor struggle in Reading, Pennsylvania. The work touches on social problems such as injustices against the working class, the difficulties faced by representatives of this class, the difficulty of changing classes, etc. One of the most perfect aspects of the work is that the differences in social class are felt in the linguistic choices of the characters.

**Language and Social Class**

Social groups differ from each other according to the position they hold in society [1]. The idea of an inseparable link between social class and language is well-known to the scientific world. Social variations in language are directly related to class differences [2, s. 42]. Therefore, being aware of class differences plays an important role in using and understanding language. Mitford (1955) shows the difference between U-language ( upper class language) and Non-U (non-upper class language) and emphasizes that Non-U language is fashionable and lavish while U language is plain [3]. Non-U language often includes loanwords, especially from French. While words like "sofa", "bike", and 'sick" are included in the U-Language, their counterparts like "settee", "cycle", and "ill" are included in the Non-U language. Linguistic differences between social classes are manifested at the phonetic, lexical, and grammatical levels [4, s. 139]. Class differences in pronunciation were discovered in Labov's New York Department Store study when pronouncing the "r" sound [1]. The different pronunciations of the -ing suffix in Norwich English were studied by Trudgill [5]. According to this research, /ŋ/ is related to the middle class, while /n/ is related to the working class. Migration due to World War II also led to differences in the speech of different classes in London. [6, s. 110]

**Sociolinguistic analysis of literary works**

In literature, the reflection of social problems in the language of characters has always been the center of attention. To see what level each social group is at, it is enough to observe its linguistic choices. Bengtsson analyzes the speech of different social classes in Zadie Smith's "NW". One of the novel's protagonists, Shar, is described as poor, wearing old, dirty clothes, and financially struggling [7, s. 26]. His style of speech also does not hide his position at the bottom of society. Shar speaks with a strong working-class accent, dropping the "-g" at the end of words like "dyin" and "fuckin". He also uses double negatives such as "I ain't got no car!" [7, s. 27]

Olaniyan (2006) uses Dell Hymes' "SPEAKING" or, in other words, "Ethnography of Communication" theory, to conduct a sociolinguistic analysis of the conversations in Achebe's "A Man of People". The research shows that situation, participants, and other elements of SPEAKING can be indicators of social class in language [8, s. 104]. Thren presents several sociolinguistic characteristics of the lower class in "My Fair Lady"; for example, they say 'avin', blinkin', makin', mornin', liftin', etc., instead of using 'ng' at the end [9, s. 116]. Other characteristics of the lower class is an elision of the 'h' sound in words like 'elp', 'aving', 'alf', 'here', etc. Characters' pronunciation of vowels also creates the difference between the upper and lower classes. For example, Elza uses "ow" and "iyee" instead of A, E, I, O, and U. She also uses multiple negations in most of her sentences like 'you ain't been near, "I ain't dirty," etc. Eliza also uses rolling "r" to indicate her lower-class status. Eliza's usage of incorrect pronouns such as "meself" is another characteristic of the lower class at work [9. s, 116].

**Class struggle in Lynn Nottage's "Sweat"**

Lynn's Sweat chronicles the struggles of working-class people in Reading, Pennsylvania, between 2000 and 2008. It portrays contemporary America with a focus on race, class, and economic issues. The work shows how Nottage turns real historical events into powerful narratives [10, s. 32]. "Sweat" acknowledges differences between people of age, race, gender, and class. It is not these differences that divide us but our exaggeration of them and our prejudices [11, s. 208]. The signing of the NAFTA agreement in 1994 hurt the working class. Workers blame NAFTA for a 60% reduction in wages. The play shows how helpless and hopeless the working class feels, seeing no help to solve their problems. The working class is mostly displayed as victims of social and economic conditions [12].

**Linguistic markers of class distinction in "Sweat"**

The characters in Sweat- Evan, Jason, Chris, Cynthia, Tracey, and others make colorful word choices, and their sentence structures reveal the relationship between language and social class. For example, in Act 1, Scene 1, Evan, the Parol Officer, is having a conversation with Jason. During the conversation, Evan presents himself as superior to Jason through his lexical choices. For example, he asserts his authority over Jason by saying, "*I'm not one of your stupid friends*" [13, s. 6]. Using the word "stupid" is a harsh and stronger emotional expression. The phrase *"your stupid friends"* creates a division between social groups, which can show superiority over the other group. However, Evan, who demonstrates his authority over Jason, often does not feel the need to maintain his formality when talking to Jason. For example, he uses "gonna," which is a reduction of "*going to*," like "*I'm not gonna run down everything*" [13, s. 5]. This reduction is often associated with working-class speech. Evan's

sentence *"He ain't going nowhere"* includes a double negation, which indicates working-class speech [13, s. 10]. On the other hand, Jason demonstrates his lower status through his limited word choices, short answers, and use of swear words. Jason's grammatical sentence patterns are deficient. He often doesn't complete sentences, and his thoughts are left unfinished, like *" I mean... I didn't do..."* [13, s. 8]. In the first scene, we see another character named Chris. The conversation between Chris and Evan is different from the conversation with Jason. Because Chris uses thoughtful, complete sentences, he expresses his concerns about life, money, and work. *"I'm talking bullshit...seven, eight dollars an hour"* demonstrates his frustration with low-wage job [13, s. 12]. As can be seen from the examples, the work provides an excellent basis for analyzing the language of social groups.

**Relevance of the topic.** One of the pressing concerns in our modern era is the class inequality that exists in nearly all countries worldwide. Interestingly, it is the way society views social class differences that creates them. The issue of social class also manifests itself in literature, which reflects life events based on artistic imagination. Language, which is one of the greatest indicators of social class differences, allows us to observe class struggle in literary works. The increasing class differences and discrimination in modern society make it relevant and important to analyze how language reflects these struggles.

**Scientific novelty of the article.** This study examines how sociolects and linguistic indicators in the play "*Sweat"* demonstrate class differences. Although social, racial, and class themes in the play have been extensively studied in previous research, there is no research about the sociolinguistic analysis of class differences. The study shows that the class diversity of the characters is manifested in their pronunciation, lexical, and grammatical choices.

**Practical significance and application of the article.** The results of this study have practical significance for literary criticism, sociolinguistics, and social sciences. Teachers working in the field of education can utilize the research results to teach students how language reflects social class differences in literary works. In addition, the study is of practical importance for sociolinguists examining the role of language both in literary works and in real social contexts. At the same time, playwrights and screenwriters can benefit from this study to more vividly and accurately reflect the speech of different social groups.

## Ədəbiyyat

1. Labov, W.: The Social Stratification of English in New York City Washington. DC: Center for Applied Linguistics, 1966. 655 p.

2. Guy, G.R.: Language and social class. Cambridge University Press, 2010 pp. 37-63 p.

3. PocketBook: U or non-U? Pocket Book UK, 2015.
https://pocketbookuk.wordpress.com/2015/07/28/u-or-non-u/

4. J. Holmes.: An Introduction to Sociolinguistics. Routledge, 2013. 489 p .

5. Trudgill.: The social differentiation of English in Norwich. Cambridge University Press, 1974. 211 p.

6. B.Rampton. Stylisation and the Dynamics of Migration, Ethnicity and Class. Sociolinguistics in England. Braber, Natalie, and Sandra Jansen, Palgrave Macmillan UK, 2018, pp. 97-125.

7. V. Bengtsson. Social Class as Seen through the Representation of Language in Zadie Smith's NW. Malmö University, 2021. 33 p.

8. K.K. Olaniyan.: A Sociolinguistic Study of Conversations in Chinua Achebe's A Man of the People. Journal of Humanities and Social Studies (JHSS), Volume VIII, No. 1(15), 2017. Pp 103-124.

9. Andrew T. Thren.: Sociolinguistic Analysis of Societal Class Differentiation in "My Fair Lady". SCITEPRESS- Sience and Technology Publications, Lda, 2022. pp 110-118.

10. J. A. Williams.: On the Table: Crumbs of Freedom and Fugitivity_A Twenty-First Century (Re)Reading of Crumbs from The Table of Joy. In a Critical Companion to Lynn Nottage. Ed. Jocelyn Buckner. New York: Rutledge, 2016. pp. 17-36.

11. S. Bayat& B.: Hadaegh. A socio-cognitive study of ethnocentric discourse in lynn nottage's Sweat. Folia Linguistica et Liteteraria, Volume 34, 2021. pp 193-210.

12. WSWS.: Lynn Nottage's Sweat: The exploitation of the working class in America. World Socialist Web Site, 2016

<em>Sweat</em>: An honest depiction of the American working class - World Socialist Web Site

13. Nottage, L. Sweat. Theatre Communications Group, 2015. 111 p.

**N.M. Hətəmova**

**Ədəbi əsərlərdə sosial sinif konsepsiyaının sosiolinqvistik təhlili:**
**Lin Nottagenin "Sweat" nümunəsi əsasında**
**Xülasə**

Bu məqalə dilin sosial sinfi necə təmsil etdiyini Linn Noticin "Tər" pyesindəki personajların linqvistik seçimləri əsasında tədqiq edir. Tədqiqatda əsərdəki müxtəlif zümrələrin linqvistik göstəriciləri, diskurs fərqləri analiz edilərək, personajların dilinin onların sinfi kimliklərini necə formalaşdırdığı öyrənilir. Araşdırma dil və sosial sinif arasında əlaqəni göstərərək dilin insanların cəmiyyətdəki sosial kimliyini formalaşdıran ən mühüm amil olduğunu ortaya çıxarır.

**Н.М. Хатамова**

**Социолингвистический анализ концепции социального класса в литературных произведениях: на примере пьесы Линн Ноттидж «Пот»**
**Резюме**

Данная статья исследует, как язык представляет социальный класс на основе лингвистических выборов персонажей в пьесе Линн Ноттидж «Пот». В исследовании анализируются лингвистические маркеры различных социальных групп и дискурсивные различия в пьесе, чтобы понять, как язык персонажей формирует их классовую идентичность. Работа показывает связь между языком и социальным классом, подчеркивая, что язык является одним из важнейших факторов формирования социальной идентичности человека в обществе.

**Redaksiyaya daxil olub:** 03.04.2025

***BAŞ REDAKTORDAN***
***ОТ ГЛАВНОГО РЕДАКТОРА***
***FROM THE EDITOR IN CHIEF***

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATIN BİBLİOQRAFİK TƏSVİRİ
# БИБЛИОГРАФИЧЕСКОЕ ОПИСАНИЕ ИСПОЛЬЗОВАННОЙ ЛИТЕРАТУРЫ
# BİBLİOGRAPHİC DESCRİPTİON OF USED LİTERATURE

Jurnalımızın son səhifələrində azərbaycanca, rusca və ingilis dilində "Təqdim olunan məqalələrə tələblər"i əks etdirmişik. Müəlliflər həmin tələbləri ciddi şəkildə nəzərə aldıqları halda bəzi müəlliflər mövcud qaydaları gözləmədən redaksiyaya məqalə gətirir, yaxud elektron poçtla göndərirlər. Bu isə, o deməkdir ki, təqdim olunan məqalə işlənmək üçün geri qaytarılmalı, yaxud da redaksiya tərəfindən redaktə edilməlidir. Belə məqalələr, adətən zəif olur, özündə elmi ideya əks etdirmir, təsviri xarakter daşıyır, məqalənin sonunda verilən ədəbiyyat siyahısı da necə gəldi formalaşdırılır.

2019-cu ildə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının yeni Əsasnaməsi təsdiq olunmuş, dissertasiyaların, avtoreferatların, ədəbiyyat siyahısının tərtibinə yeni tələblər verilmişdir. Ölkəmizdə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərdə öz məqalələrini görmək istəyən alimlər, gənc tədqiqatçılar – doktorantlar və dissertantlar "İstifadə edilmiş ədəbiyyatın biblioqrafik təsviri və nümunələr"i ilə tanış olmalı, həm dissertasiyalarında, həm məqalələrində, həm də konfrans materiallarında mövcud tələbləri nəzərə almalıdırlar.

"İstifadə edilmiş ədəbiyyatın biblioqrafik təsviri və nümunələr"i aşağıdakı bölmələrə ayrılır: nəşrin növü; biblioqrafik təsvirin forması; nümunələr. Tələblərə diqqət yetirək:

***Çoxcildli nəşrlər*** belə yazılır:

1. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H. Əliyev. – Bakı: Azərnəşr, – c. 45. – 2013. – 384 s.
2. Azərbaycan Milli Ensiklopediyası / Red. hey. sədri İ.H. Əliyev. – Bakı: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, – c. 8: Enollar – Fedin. – 2018. – 598 s.

***Müəllifi göstərilməyən nəşrlər*:**

Azərbaycan bayatıları / tərt. ed. B.Abdulla – Bakı: XXI – Yeni nəşrlər evi, –2004. –304 s.

***Müəllifi dörd nəfərədək olan nəşrlər,*** o cümlədən ***bir müəllifli nəşrlər*:**

Əlizadə, Ə.Ə. Qadın psixologiyası: Fəlsəfi-psixoloji esselər / Ə.Ə. Əlizadə. – Bakı: Təhsil, – 2015. – 416 s.

***İki və üç müəllifli nəşrlər*:**

Abbasov, A.N. Pedaqogika: Müntəxəbat. Dərs vəsaiti. / A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmədli. – Bakı: Mütərcim, – 2021. – 608 s.

***Müəllifi dörd və daha çox olan*** nəşrlər. ***Dörd və beş müəllifli*** nəşrlər:

Pedaqogika: Ali məktəblər üçün dərs vəsaiti / Y.R. Talıbov, Ə.Ə. Ağayev, A.İ. Eminov [və b.] – Bakı: Adiloğlu, – 2003. – s. 48.

***Beşdən çox müəllifli nəşrlər*:**

Kurikulum bələdçisi: İzahlar və tətbiqlər / Ə.M. Abbasov [və b.] – Bakı: Elm və təhsil, – 2019. – 320 s.

***Jurnal məqalələri*:**

Məmmədli L.A. Şagirdlərin milli qəhrəmanların nümunəsində tərbiyə olunması // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2020. №6, – s. 59-62.

***Müəllifi üçdən çox olan*** jurnal məqalələri:

Rüstəmov, Q.Ə. Vibrasiyalı kəsmə prosesində müqavimət momenti dəyişməsinin tədqiqi / Q.Ə. Rüstəmov, İ.A. Yolçuyev, Ə.T. Həzərxanov [və b.] // Milli Aviasiya Akademiyasının Elmi Əsərləri, – Bakı: – 2005. №1, – s. 80-86.

***Konfrans materialları*:**

Аббасов, А.Н. Подготовка подростков и молодежи к семейной жизни // Материалы 66-й Международной научно-практической конференции на тему: «Актуальные вопросы науки», Москва: Спутник: -10 августа 2020, с. 33-37

***Dissertasiyalar:***

Əmirəliyeva, İ.B. Ali məktəb tələbələrində tolerantlığın formalaşdırılması: / pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyası) / – Bakı, 2013. – 147 s.

***Dissertasiyanın avtoreferatı*:**

Əliyev, R.S. Yeniyetmələrin yenidəntərbiyəsi üzrə işin sistemi: / pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı) / - Bakı, 2003. - 29 s.

***Elektron resurslar*:**

Меликов, А. Легенда о любви [Звукозапись] / – Баку, 1994. – CD-ROM. Azərbaycan etnik musiqisi: [Elektron resurs] / tərt. ed. T.Məmmədov və b.; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. – Bakı, 2006. – DVD+; 13 sm

***Normativ-hüquqi sənədlər*:**

Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (24 avqust 2002-ci il tarixdə olan dəyişiklik və əlavələr). – Bakı: Qanun, – 2002, – 48 s.

***Qəzet məqalələri*:**

Abbasov, A.N. Pedaqoji internatura // Azərbaycan müəllimi. – 2020, 22 avqust. – s. 6.

***Arxiv materialları*:**

Xarici İşlər naziri Məhəmməd Həsən Hacınskinin məruzəsi (Gəncə: 15 iyul 1918-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 1061, siyahı №1, iş № 95, vərəq – 1.

Bakı Qızlar Universitetinin "Elmi əsərlər"inə pedaqogikanın, təhsil, təlim və tərbiyənin, didaktikanın, təhsilin idarə olunmasının müxtəlif məsələləri ilə bağlı məqalə yazan alimlərə, gənc tədqiqatçılara xahişimiz budur ki, istifadə edilmiş ədəbiyyatın siyahısını hazırlayarkən yuxarıda göstərilən qaydalara əməl etsinlər.

## TƏQDİM OLUNAN MƏQALƏLƏRƏ TƏLƏBLƏR

1. Digər redaksiyalara təqdim olunmamış məqalələr qəbul edilir.

2. Məqalələr son tədqiqatların nəticələrini əks etdirməli, yeni ideyalarla zəngin olmalı, elmi məqalələrin yazılışına qoyulan tələblər gözlənilməlidir.

3. Məqalənin mətni təxminən 6-8 səhifə olmalıdır. Məqaləyə Azərbaycan, rus və ingilis dillərində açar sözlər yazılır.

4. Məqalənin mətni Azərbaycan dilində latın əlifbası (Times New Roman), rus dilində krill əlifbası və ingilis dilində ingilis (ABŞ) əlifbası ilə Times New Roman — 14 şrift ilə 1,5 intervalla yığılmalı, elektron variantı ilə birlikdə təqdim olunmalıdır.

5. Məqalələr üç dildən — Azərbaycan, ingilis və rus dillərindən birində çap olunur. Məqalənin 3 (üç) dildə xülasəsi təqdim edilir. Xülasədə məqalənin adı, irəli sürülən başlıca elmi müddəalar, tədqiqatdan alınan nəticələr, problemin nəzəri və praktik əhəmiyyəti öz əksini tapmalıdır.

6. Məqaləyə müəllif haqqında aşağıdakı məlumatlar təqdim olunur: adı, atasının adı, soyadı, iş yeri, vəzifəsi, elmi dərəcəsi və adı, iş və ev telefonları, ünvanı, E-mail.

7. Məqalə aşağıdakı ardıcıllıqla yazılır: birinci sətirdə böyük hərflərlə məqalənin adı; ikinci sətirdə müəllifin adı, ata adı və soyadı, elmi dərəcəsi və elmi adı; üçüncü sətirdə iş yeri, vəzifəsi, daha sonra elektron poçtu (E-mail).

8. Həmmüəlliflərin üç nəfərdən artıq olması məqsədəuyğun deyildir.

9. Redaksiya məqalədə zəruri dəyişiklər və ixtisarlar, redaktə aparmaq hüququna malikdir.

10. Məqalələrə iki mütəxəssisin rəyi, şöbə və ya kafedranın, həmçinin ali məktəbin Elmi Şurasının və orta ixtisas təhsili məktəbinin Pedaqoji Şurasının iclas protokollarından çıxarışlar əlavə olunur.

11. Məqalədəki faktların, məlumatların dürüstlüyünə müəlliflər cavabdehdir. İrəli sürülən elmi müddəalar müəllifin özünə məxsus olmalı, istifadə edilmiş nəzəri fikirlərin mənbəyi göstərilməlidir.

12. Məqalədə son 5-10 ildə çap olunan əsərlərə istinadlara üstünlük verilməlidir. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, (1) və ya (1, s. 119) kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

13. Jurnal öz profilinə uyğun məqalələri dərc edir.

14. Elmi məqalələrin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq aktuallıq əsaslandırılmalı, elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.

15. Plagiatlıq faktları aşkar edildikdə həmin məqalənin nəşri dayandırılır.

16. Məqalə müəlliflərinin hüquqları qorunur.

17. Jurnalda "ardı növbəti nömrədə" adı altında seriya məqalələr dərc olunmur.

18. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun gəlməlidir.

## ТРЕБОВАНИЯ К ПРЕДСТАВЛЕННЫМ СТАТЬЯМ

1. Принимаются статьи, не представленные в других редакциях.

2. Статьи должны отражать результаты последних исследований, быть богатыми новыми идеями, в них должны быть соблюдены требования, предъявляемые написанию научных статей.

3. Представленные статьи должны отражать Orcid автора. Ключевые слова для статьи должны быть представлены на трех языках: азербайджанском, русском и английском. 3. Текст статьи должен быть представлен на диске вместе с электронным вариантом, с интервалом 1,5; шрифтом 14 Times New Roman - латинского алфавита на азербайджанском языке, кириллицы на русском языке, и английским алфавитом (США) на английском языке.

4. Статьи публикуются на одном из трех языков - азербайджанском, русском и английском. Резюме статьи предоставлено на 3 языках (азербайджанском, русском и английском). В статье должны быть отражены основные научные положения, изложенные в резюме, выводы, сделанные из исследования, должна быть представлена теоретическая и практическая значимость проблемы.

5. Статья должна быть написана в следующем порядке: на первой строке имя, фамилия и отчество автора (авторов); вторая строка содержит ученую степень и ученое звание (диссертант или докторант и т. д.); третья строка указывает место работы, должность; на четвертой строке представлено название статьи прописными буквами. Затем эта же информация повторяется на русском и английском языках.

6. Нежелательно иметь более трех соавторов.

7. Редакция имеет право вносить изменения и сокращения в статью.

8. Вместе со статьей должно быть предоставлено два отзыва специалистов: заведующих кафедрой или отделом, а также выписка из протокола Ученого совета вузов и педагогического совета общеобразовательного или среднего специального образования.

9. Авторы статьи несут ответственность за достоверность приведенных в статье фактов и информации. Предлагаемые научные положения должны принадлежать автору и должен быть указан источник используемых теоретических идей.

10. Ссылки следует давать на работы, опубликованные за последние 5-10 лет. Список литературы, приведенный в конце статьи, должен быть пронумерован не в алфавитном порядке, а в том порядке, в котором указанная литература появляется в тексте, например (1) или (1, стр. 119). Если та же самая литература повторяется в другом месте в тексте, то эта же литература должна быть указана под предыдущим номером.

11. Журнал публикует статьи, имеющие отношение к его профилю.

12. В конце научной статьи должна быть обоснована актуальность в соответствии с характером статьи и областью науки, четко указана научная новизна, важность ее применения, экономическая эффективность и т.д.

13. Затем предоставляется список использованной литературы.

14. При обнаружении фактов плагиата публикация статьи прекращается.

15. Права авторов статьи защищены.

16. Журнал не публикует серии статей под заголовком «продолжение в следующем номере».

17. Резюме статей на разных языках должны быть одинаковыми и соответствовать содержанию статьи.

18. В конце статьи должно быть указано имя, отчество и фамилия рецензентов, их ученая степень и ученое звание; следующая строка должна содержать адрес электронной почты автора статьи.

19. В статью добавляется следующая информация об авторе: имя, фамилия, отчество автора (авторов), учреждение, где он работает (докторантом или диссертантом которого является) адрес учреждения, должность, ученая степень и звание автора(ов), домашний и рабочий телефоны, домашний адрес, электронная почта (Email).

**REQUIREMENTS FOR SUBMITTED ARTICLES**

1. Submitted articles should not be published or accepted for publication in other editions.
2. Articles should reflect the results of recent research, be rich in new ideas and they must comply with the requirements for writing scientific articles.
3.Submitted articles must reflect the author's Orcid. Keywords for the article must be presented in three languages: Azerbaijani, Russian and English.
4. The text of the article should be presented on the disk together with the electronic version, with an interval of 1.5; 14 point Times New Roman font - Latin alphabet in Azerbaijani, Cyrillic in Russian, and English alphabet (USA) in English.
5. Articles are published in one of three languages - Azerbaijani, Russian and English. A summary of the article is provided in 3 languages (Azerbaijani, Russian and English). The article should reflect the main scientific provisions presented in the summary, the conclusions drawn from the study, the theoretical and practical significance of the problem should be presented.
6. The article is written in the following order: on the first line the name, surname and patronymic of the author (s); the second line contains the academic degree and academic title (doctoral student or candidate for a degree, etc.); the third line indicates the place of work, position; the fourth line represents the title of the article in capital letters. Then in this order the same information is repeated in Russian and English.
7. It is undesirable to have more than three co-authors.
8. The Editorial Board has the right to make changes and reductions in the article.
9. Two expert reviews should be provided together with the article: heads of department or chair, as well as extract from the protocol of Academic Council of the higher school and the Pedagogical Council of general or secondary special education institutions.
10. The authors of the article are responsible for the accuracy of the facts and information provided in the article. The proposed scientific provisions should belong to the author and the source of used theoretical ideas must be indicated.
11. The articles should refer to works published in the last 5-10 years. The list of references given at the end of the article should not be numbered in alphabetical order, but in the order in which the indicated literature appears in the text, for example (1) or (1, p. 119). If the same literature is repeated elsewhere in the text, then the same literature should be indicated under the previous number.
12. The journal publishes articles related to its profile.
13. At the end of a scientific article, the relevance should be justified according to the nature of the article and the area of science, scientific novelty, importance of its application, economic efficiency, etc. should be clearly indicated.
14. Then a list of references is provided.
15.When the facts of plagiarism are discovered, the publication of the article is stopped.
16. The rights of the authors of the article are protected.
17. The journal does not publish a series of articles under the heading – continued in the next issue‖.
18. Summary of articles in different languages should be the same and consistent with the content of the article.

19. At the end of the article the name, patronymic and last name of the reviewers, their academic degree and academic title should be indicated; the next line should contain the email address of the author of the article.

20. The following information about the author is added to the article: name, surname, patronymic of the author (authors), the institution where he works (doctoral student or candidate for a degree), address of the institution, position, academic degree and the title of the author (s), home and work phones, home address, email address.

# MÜNDƏRİCAT
# ОГЛАВЛЕНИЕ
# CONTENTS

Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı
Распоряжение Президента Азербайджанской Республики о праздновании 140-летия Узеира Гаджибейли
Order of the President of the Republic of Azerbaijan on celebration of Uzeyir Hajibayli's 140th anniversary ........................................................................................................ 3

***ÜZEYİR ƏBDÜLHÜSEYN OĞLU HACIBƏYLİ – 140***
***УЗЕЙИР АБДУЛГУСЕЙН ОГЛУ ГАДЖИБЕЙЛИ – 140***
***UZEYIR ABDULHUSEYN OGLU HAJIBAYLY – 140***

**Akif Abbasov.** Üzeyir Hacıbəyli təhsil, təlim və tərbiyə və tərbiyə haqqında
Узеир Гаджибейли об образовании, обучении и воспитании
Uzeyir Hajibayly on education, teacing and upbringing .................................................. 5

## PEDAQOJİ ELMLƏR
## ПЕДАГОГИЧЕСКИЕ НАУКИ
## PEDAGOGICAL SCIENCES

***ÜMUMPEDAQOJİ PROBLEMLƏR***
***ОБЩЕПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ***
***GENERAL PROBLEMS of PEDAGOGY***

**Firədun Nadir oğlu İbrahimov, Vüqar Əbülfət oğlu Abdurahmanov.** Yeni pedaqoji təfəkkür işığında təhsilalan mərkəzli təlimin əsas təşkilat formasının xüsusiyyətlərinin interpretasiyası
Интерпретация особенностей основной формы организации образовательно-ориентированного обучения в свете нового педагогического мышления
Teacher-centered learning in the light of new pedagogical thinking interpretation of the characteristics of the basic organizational form ……………………………………... 9

**Fəridə Poladxan qızı Poladxanlı.** Təhsil cəmiyyətin inkişafının əsası kimi
Образование как основа развития общества
Education as a basis for the development of society ……………………………………. 24

**Lalə Malik qızı Bayramova.** Pedaqoji və psixoloji tədqiqatlarda "İdraki maraq" məfhumunun mahiyyətinə dair mülahizələr
Рассуждения о сущности понятия «Познавательного интереса» в педагогических и психологических исследованиях
Reasoning about the essence of the concept of "Cognitive interest"in pedagogical and psychological research ........................................................................................ 30

**Mehriban Əli qızı Şirəliyeva.** Tələbələrin universitet təşkilatlarında iştirakı
Участие студентов в университетских организациях
The participation of students in university organizations ............................................... 36

**Şərəf Şəmil qızı Əliyeva.** Dəstəkləyici rəhbərliyin təhsilin keyfiyyətinə təsiri
Влияние поддерживающего лидерства на качество образования
The effect of supportıve leadershıp on the qualıty of educatıon ...................................... 43

***LAYİHƏ ƏSASLI ÖYRƏNMƏ PROBLEMLƏRİ***
***ПРОБЛЕМЫ ПРОЕКТНОГО ОБУЧЕНИЯ***
***PROBLEMS OF PROJECT-BASED LEAR***

**Cavahir İsaxan qızı Maçanova.** Layihə əsaslı öyrənmənin strukturu
Структура проектного обучения
Structure of project-based learning ......................................................................... 49

***MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİ***
***ОТНОШЕНИЯ УЧИТЕЛЬ-УЧЕНИК***
***TEACHER-STUDENT RELATIONSHIP***

**Elvira Haqverdi qızı Kərimova.** Müəllim-şagird münasibətində pedaqoji ünsiyyətin forma və tərzləri
Формы и стили педагогического общения во взаимоотношениях учитель-ученик
Forms and styles of pedagogıcal communıcatıon ın teacher-pupil relatıonshıp .......... 53

***ÖMÜRBOYU TƏHSİL PROBLEMLƏRİ***
***ПРОБЛЕМЫ НЕПРЕРЫВНОГО ОБРАЗОВАНИЯ***
***PROBLEMS OF CONTINUOUS EDUCATION***

**Abbas İlham oğlu Babayev.** Ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun əsas elementləri və onların tətbiqi ilə bağlı Azərbaycandakı vəziyyət
Основные элементы образовательной инфраструктуры, обеспечивающей обучение на протяжении всей жизни, и состояние их реализации в Азербайджане
The main elements of the education infrastructure ensuring lifelong education and the state of their implementation in Azerbaijan ............................................... 58

**İsmət Şahlar oğlu Qəribov.** Ömürboyu təhsil: müasir cəmiyyətin tələbi və zərurəti
Непрерывное образование: требование и необходимость современного общества
Lifelong learning: a requirement and necessity of modern society …………………….. 63

***GƏNC MÜƏLLİMLƏRİN PROBLEMLƏRİ***
***ПРОБЛЕМЫ МОЛОДЫХ УЧИТЕЛЕЙ***
***PROBLEMS OF YOUNG TEACHERS***

**Şəfəq İslam qızı İslamova.** Gənc müəllimlərin peşə fəaliyyətində qarşılaşdığı çətinliklərlə mübarizə üsulları
Методы преодоления трудностей, с которыми сталкиваются молодые учителя в своей профессиональной деятельности
Methods for overcoming the challenges faced by young teachers in their professional activities ………………………………………………………………………….... 68

**Tahirə Təyyar qızı İbrahimova, Heyran Məmməd qızı Zeynalova.** Gənc müəllimin problem həlletmə üsullarının səmərəliliyi
Эффективность методов решения проблем молодого учителя
The effectiveness of a young teacher's problem-solving methods .................................. 72

***SABAH QRUPLARINDA İŞ***
***РАБОТА В ГРУППАХ САБАХ***
***WORK in TOMORROW GROUPS***

**Aytən Araz qızı Davud.** Azərbaycan ali təhsil sistemində sabah qrupları layihəsinin zərurəti
Необходимость проекта группы сабах (SABAH) в системе высшего образования Азербайджана
The necessity of SABAH groups project in the Azerbaijan higher education system ...... 77

***TƏRBİYƏ TEXNOLOGİYALARI***
***ВОСПИТАТЕЛЬНЫЕ ТЕХНОЛОГИИ***
***UPBRİNGİNG TECHNOLOGIES***

**Əfsanə İsa qızı Məmmədova.** Şagirdlərdə hərbi vətənpərvərlik tərbiyəsi işinin təşkili
Организация воспитания военного патриотизма у студентов
Organization of military patriotic upbringing among students ....................................... 81

**Afaq Ramiz qızı Nəbiyeva.** Təlim-tərbiyədə milli-mənəvi dəyərlərin rolu
Роль национальных и нравственных ценностей в образовании и воспитании
The role of national and moral values in education and upbringing ……………………. 86

***MƏKTƏBƏQƏDƏR TƏHSİL VƏ TƏRBİYƏ***
***ДОШКОЛЬНОЕ ОБРАЗОВАНИЕ И ВОСПИТАНИЕ***
***PRESCHOOL EDUCATION AND UPBRİNGİNG***

**Gültəkin Zöhrab**. Məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanış edilməsində innovativ metodlardan istifadənin əhəmiyyəti
Важность использования инновационных методов в ознакомлении детей дошкольного возраста с окружающим миром
The importance of using innovative methods in introducing preschool children to the world around them ........................................................................................................ 90

***İBTİDAİ SİNİFLƏRDƏ TƏHSİL VƏ TƏRBİYƏ***
***ОБРАЗОВАНИЕ И ВОСПИТАНИЕ В НАЧАЛЬНЫХ КЛАССАХ***
***EDUCATION AND UPBRINGING IN PRIMARY CLASSES***

**Elnurə Məhəmməd qızı Hüseynova.** İbtidai siniflərin riyaziyyat dərslərində qeyri-standart çalışmaların həlli yolları haqqında
О способах решения нестандартных задач на уроках математики начальных классов
On ways to solve non-standard problems in primary school mathematics lessons ........... 94

**Cəmilə Qabil qızı Qasımova.** İbtidai sinif şagirdlərində hüquq mədəniyyətinin formalaşdırılması
Формирование правовой культуры в начальных классах
Formation of legal culture in primary classes ................................................................... 99

**Ceyhunə Gündüz qızı Məmmədova.** Kiçikyaşlı məktəblilərdə kommunikativ bacarıqların formalaşdırılmasında ənənəvi və fəal-interaktiv təlim metodlarının yeri və onun nəticəsi
Место традиционных и активно-интерактивных методов обучения в формировании коммуникативных умений младших школьников и его результаты
The place of traditional and active-interactive teaching methods in the formation of communicative skills of primary school pupils and its results ....................................... 104

**Türkan Bəxtiyar qızı Əliyeva.** Birinci sinifdə şagirdlərin təlim fəallığına varislik prinsipinin təsiri
Влияние принципа преемственности на учебную деятельность учащихся первого класса
The impact of the succession principle on the learning activity of students in the first grade ……………………………………………………………………………… 108

**Samirə İltifat qızı Kazımlı.** İbtidai sinif şagirdlərinin həyatı bacarıqlarının inkişafı üzərində iş
Работа по развитию жизненных навыков учащихся начальных классов
Work on the development of life skills of primary class pupils ……………………….. 111

**Aysu Habil qızı Əliyeva.** 3-cü sinif Azərbaycan dili dərslərində məzmun standartlarının yeri və rolu
Место и роль стандартов содержания в учебниках Азербайджанского языка для 3-го класса
Place and role of content standards in 3rd grade Azerbaijani language textbooks ......... 115

***AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА***
***METHODS OF TEACHING AZERBAIJANI LANGUAGE***

**Nigar Xanməhəmməd qızı Kazımzadə.** Şagirdlərdə nitq mədəniyyətinin formalaşdırılması metodikasının bəzi məsələləri
Внедрение методической системы, способствующей формированию культуры речи у студентов
İmplementation of a methodical system that helps the formation of speech culture among students ……………………………………………………………………………… 120

***RİYAZİYYATIN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ МАТЕМАТИКИ***
***METHODS OF TEACHING MATHEMATICS***

**Leyla Sübhan qızı Şıxlinskaya.** Üçbucaqlar və onlara aid bəzi məsələlərin isbat yolu ilə həllinə dair
О решении треугольников и некоторых связанных с ними задач путем доказательства
On the solution of triangles and some problems related to them by means of proof ….. 125

***TARİXİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИСТОРИИ***
***METHODS OF TEACHING HİSTORY***

**Ülvi Anar oğlu Heydərov.** Tarix dərslərində liderlik modelləri: heydər əliyev nümunəsinin tərbiyəvi təsiri
Модели лидерства на уроках истории: образовательное воздействие примера Гейдара Алиева
Leadershıp models in history lessons: educational impact of Heydar Aliyev example....130

**Asya Arif qızı Bayramova.** Tarix təlimində inteqrasiyadan istifadənin əhəmiyyəti
Важность использования интеграции в преподавании истории
The importance of using integration in history education ............................................ 136

**Selcan Qabil qızı Yusifova.** Tarix müəllimlərinin akmeoloji kompetensiyalarının inkişaf etdirilməsinin əhəmiyyəti
Важность развития акмеологических компетенций учителей истории
The importance of developing the acmeological competencies of history teachers …... 141

***MUSİQİNİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ МУЗЫКИ***
***METHODS OF TEACHING MUSİC***

**Земфира Селим кызы Султанова.** Значение словесного общения между педагогом и студентом на уроке фортепиано
Значение словесного общения между педагогом и студентом на уроке фортепиано
The importance of verbal communication between a teacher and a student in a piano lesson ………………………………………………………………………………... 147

***XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИНОСТРАННЫХ ЯЗЫКОВ***
***METHODS OF TEACHING FOREIGN LANGUAGES***

**Günel Kərim qızı Hacıyeva.** Ali məktəblərin yuxarı kurslarında ingilis dili dərslərində idiomların tədrisinin əhəmiyyəti
Значение преподавания идиом на уроках английского языка на старших курсах высших учебных заведений
The importance of teaching idioms in English lessons in senior courses of higher schools ……………………………………………………………………………… 152

**Ровшан Урфан оглы Исмаилов.** Интегративность, интерактивность и коммуникативность в обучении иностранному языку
Xarici dilin tədrisində inteqrasiya, interaktivlik və komunikasiya
İntegrativity, interactivity and communication in foreign language teaching …………. 157

**Tamara Şahnazir qızı Qarayeva.** İbtidai siniflərdə xarici dilin tədrisində innovativ metodlarin tətbiqi
Применение инновационных методов в обучении иностранным языкам в начальных классах
The application of innovative methods in teaching foreign languages in primary schools ……………………………………………………………………... 162

**Aytan Eldaniz Huseynzade.** The role of private schools in advancing colloquial english proficiency
Danışıq ingilis dili biliklərinin təkmilləşdirilməsində özəl məktəblərin rolu
Роль частных школ в повышении уровня владения разговорным английским языком ........................................................................................................................ 166

***İNKLÜZİV TƏHSİL MƏSƏLƏLƏRİ***
***ВОПРОСЫ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ***
***ISSUES IN INCLUSIVE EDUCATION***

**Samirə Ceyhun qızı Novruzova.** İnklüziv təhsil modellərinin müqayisəli təhlili
Сравнительный анализ моделей инклюзивного образования
Comparative analysis of inclusive education models ………………………………….. 171

***TƏDRİSƏ STEAM YANAŞMASI***
***СТЕАМ ПОДХОД В ОБРАЗОВАНИИ***
***STEAM APPROACH İN EDUCATİON***

**Aysel Xanoğlan qızı Mirzəyeva.** STEAM metodu ilə təhsil: ənənəvi yanaşmadan fərqləndirən nədir?
STEAM-метод обучения: чем он отличается от традиционного подхода?
STEAM Education: How does it differ from the traditional approach? ………………. 175

***İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARI***
***USE OF INFORMATION COMMUNICATION TECHNOLOGIES***
***ИСПОЛЬЗОВАНИЕ ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ***

**Çingiz Muxtar oğlu Həmzəyev.** Kompüter qrafikasında istifadə olunan əsas rəng modelləri
Цветовые модели используемые в компьютерной графике
Color models used in computer graphics ……………………………………………… 180

***TƏHSİLİN İDARƏEDİLMƏSİ MƏSƏLƏLƏRİ***
***ВОПРОСЫ УПРАВЛЕНИЯ ОБРАЗОВАНИЕМ***
***İSSUES OF EDUCATIONAL MANAGEMENT***

**Ülkər Rəfayıl qızı Əfəndiyeva.** Orta ixtisas təhsil müəssisələrinin idarəolunmasına müasir yanaşmalar
Современные подходы в управлении средними специальными образовательными заведениями
Modern approaches in the management of secondary specialized educational institutions ………………………………………………………………………….….... 185

**Səbinə Fəxrəddin qızı Şükürova.** Təhsil sistemində liseylərin rolu və idarə edilməsi
Роль и управление лицеями в системе образования
The role and management of lyceums in the education system ……………………….. 189

**Lalə Məhəmmədəli qızı Bəxtiyarlı.** Motivasiya əsaslı idarəetmə metodları: şagirdlərin akademik nailiyyətlərinin artırılması və Azərbaycan dili tədrisindəki tətbiqi
Роль мотивационно-управленческих методов в повышении академической успеваемости учащихся и их применение на уроках Азербайджанского языка
The role of motivation-based management methods in enhancing students' academic achievements and their application in Azerbaijani language lessons ............................ 193

***MÜƏLLİM HAZIRLIĞI MƏSƏLƏLƏRİ***
***ВОПРОСЫ ПОДГОТОВКИ УЧИТЕЛЕЙ***
***ISSUES IN TEACHER TRAINING***

**Elyanə Vidadi qızı Hüseynova.** Müasir tədris metodlarının riyaziyyat və informatika müəllimlərinin hazırlığında tətbiqi
Применение современных методов обучения при подготовке учителей математики и ИТ
Application of modern teaching methods in the training of mathematics and computer science teachers ………………………………………………………………….. 197

## PSİXOLOGİYA
## ПСИХОЛОГИЯ
## PSYCHOLOGY

***ÜMUMİ PSİXOLOGİYA***
***ОБЩАЯ ПСИХОЛОГИЯ***
***GENERAL PSYCHOLOGY***

**Məhərrəm Sabir oğlu Əliyev.** Biheviorizm nəzəriyyəsi perspektivində intihar problemi
Проблема самоубийства в перспективе теории бихевиоризма
The problem of suicide in the perspective of behaviorism theory ................................. 202

**Aytən Müzəffər qızı Rəhimli.** Koqnitiv modelləşdirmə problemləri (çərçivə, ssenari, koqnitiv model, konseptual metafora, psixi məkan)
Задачи когнитивного моделирования (рейк, сценарий, когнитивная модель, концептуальная метафора, ментальное пространство)
Cognıtıve modelıng problems (frame, scenarıo, cognıtıve model, conceptual metaphor, psychıc space) ......................................................................................................... 209

**Səkinə Şamamməd qızı Səmədli.** Məktəbəhazırlıq qruplarında uşaqların şifahi nitqinin inkişaf etdirilməsinə elmi yanaşmalar
Научные подходы к развитию устной речи детей в дошкольных группах
Scientific approaches to the development of oral speech of children in pre-school groups ………………………………………………………………………………….. 214

**Reyhan Rəşid qızı Nəsirova.** Psixologiya fənninin tədrisinə kreativ yanaşmanın çətinlikləri və onların aradan qaldırılması yolları
Проблемы креативного подхода к преподаванию психологии и стратегии их преодоления
Challenges in a creative approach to teaching psychology and strategies for overcoming them ……………………………………………………………………….................... 218

**Emilya İlqar qızı Nəsibova.** Kiçikyaşlı məktəblilərin qavrayışının inkişaf xüsusiyyətləri
Особенности развития восприятия детей младшего школьного возраста
Developmental features of perception in younger school-age children ........................ 223

***PEDAQOJİ PSİXOLOGİYA***
***ПЕДАГОГИЧЕСКАЯ ПСИХОЛОГИЯ***
***PEDAGOGICAL PSYCHOLOGY***

**İlhamə İlham qızı Cəfərova.** Bullinq probleminin məktəbin psixoloji mühitinə təsiri
Влияние травли на психологическую среду школы
The impact of bullying on the psychological environment of the school ……………... 229

***SOSİAL PSİXOLOGİYA***
***СОЦИАЛЬНАЯ ПСИХОЛОГИЯ***
***SOCIAL PSYCHOLOGY***

**Rasif Rəfayel oğlu Müzəffərov.** Dəyişən şəraitdə şəxsiyyətin yeni rol davranışa adaptasiya çətinlikləri
Трудности адаптации новой ролевой модели поведения личности в изменяющихся условиях
Difficulties in adapting new role behavior in a changing environment ……………..… 235

**Çinarə Əsədulla qızı Nuxieva.** Aqressiv davranışın yaranması və aradan qaldırılması yolları
Способы возникновения и преодоления агрессивного поведения
Ways to generate and eliminate aggressive behavior ………………………………….. 242

**Əminə Şahin qızı Əlizadə.** Məktəb zorakılığı və sosial-psixoloji xidmətlərin rolu
Школьное насилие и роль социально-психологических служб
School violence and the role of socio-psychological services ............................ 246

**Aysu Elçin qızı Kələntərli.** Həssas əhali qruplarından olan şəxslərin psixopatoloji xüsusiyyətləri
Психопатологические особенности лиц из уязвимых групп населения
Psychopathological characteristics of individuals from vulnerable population groups .....249

***İNKİŞAF VƏ YAŞ PSİXOLOGİYASI***
***DEVELOPMENTAL AND AGE PSYCHOLOGY***
***ПСИХОЛОГИЯ РАЗВИТИЯ И ВОЗРАСТА***

**Təhminə Yavər qızı Bayramlı.** Valideyn-övlad münasibətlərinin yeniyetmələrin psixologiyasına təsir mexanizmləri
Подростковая психология детско-родительских отношений механизмы действия
Mechanisms of influence of parent-child relationships on adolescent psychology............254

## FİLOLOGİYA
## ФИЛОЛОГИЯ
## PHILOLOGY

**Şöhrət Nüsrət qızı Məmmədova.** Ənvər Məmmədxanlının uşaq hekaləri: əxlaqi-mənəvi dəyərlər toplusu
Детские истории Анвара Мамедханли: сборник нравственных и духовных ценностей
Children's storшes of Anvar Mammadkhanlı: Collection of moral and spiritual values ... 259

**Afaq Elçin qızı Rəfiyeva.** "İqbal" qəzetinin müəllif kontingenti
Группа писателей газеты «Икбал»
The author contıngent of the "İgbal" newspaper ............................................................ 265

**Kərəm Rafiq oğlu Hacıyev.** Toponimlər və Azərbaycan: dil və mədəniyyətin kəsişməsində
Топонимы и Азербайджан: на пересечении языка и культуры
Toponyms and Azerbaijan: at the intersection of language and culture ………………..... 270

**Pərvanə Mahir qızı İsmayılova.** Müasır afroamerıkan identıklıyı və mədənıyyət Современная афроамериканская идентичность и цивилизация
Contemporary afroamerican identity and civilization ……………………………….... 277

**Sevda Hidayət qızı Axundova.** Məhəmmməd Füzulinin 530 illik yubleyi ilə bağlı tədqiqat və təbliğat məsələləri
Вопросы исследования и пропаганды, связанные с 530-летием Мухаммеда Фузули
Research and promotion issues related to the 530th anniversary of Mohammed Fuzuli ........281

**Nigar Mahir qızı Hətəmova.** A sociolinguistic analysis of the concept of social class in literary works: the case of lynn nottage's "Sweat"
Ədəbi əsərlərdə sosial sinif konsepsiyaının sosiolinqvistik təhlili: lin nottagenin "Sweat" nümunəsi əsasında
Социолингвистический анализ концепции социального класса в литературных произведениях: на примере пьесы Линн Ноттидж «Пот» ............................................ 286

***BAŞ REDAKTORDAN***
***ОТ ГЛАВНОГО РЕДАКТОРА***
***FROM THE EDITOR IN CHIEF***

İstifadə edilmiş ədəbiyyatın biblioqrafik təsviri
Библиографическое описание использованной литературы
Bibliographic description of used literature ........................................................................ 290

Təqdim olunan məqalələrə tələblər ........................................................................................ 292
Требования к представленным статьям ............................................................................ 293
Requırements for submıtted artıcles........................................................................................ 295

Texniki redaktor: Aləmzər Fətəliyeva
Dizayn-operator: Sevda Quliyeva
Korrektor: Lalə Əlizadə

Yığılmağa verilmiş: 18.02.2025
Çapa imzalanmış: 01.04.2025
Kağız formatı: 27 x 18
Çap vərəqi: 19,25 ç.v.
Sayı: 200 nüsxə

Jurnalın web səhifəsi: bgu.edu.az
Elektron poçt ünvanı: info@**bgu.edu**.az
Bakı, M.Sənani küç. 62
Tel: (012) 595-30-02;
(055) 360-67-98